**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ**

***Azərbaycan Xalq Cümhuriyyətinin***
***100 illik yubileyinə həsr olunur***

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ

## TƏŞƏKKÜLÜ, FƏALİYYƏTİ, TARİXİ ƏHƏMİYYƏTİ

## RESPUBLİKA ELMİ KONFRANSININ

# MATERİALLARI

***26-27 aprel 2018-ci il***

**SUMQAYIT-2018**

# TƏŞKİLAT KOMİTƏSİ

| | |
|---|---|
| **Elxan Hüseynov** *(sədr)* | Sumqayıt Dövlət Universitetinin rektoru, professor |
| **Ramazan Məmmədov** *(sədr müavini)* | Sumqayıt Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru, professor |
| **Natiq Talıbov** | Sumqayıt Dövlət Universitetinin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru, dosent |
| **Qafar Atayev** | Sumqayıt Dövlət Universitetinin Qiyabi, distant və əlavə təhsil üzrə prorektoru, dosent |
| **Ramiz Hüseynov** | Sumqayıt Dövlət Universitetinin Humanitar məsələlər üzrə prorektoru, dosent |
| **Naib Hacıyev** | Sumqayıt Dövlət Universitetinin İqtisadi məsələlər üzrə prorektoru |
| **Həsən Sadıqov** | Sumqayıt Dövlət Universitetinin Fəlsəfə, sosiologiya və politologiya kafedrası, professor- məsləhətçi |
| **Adil Baxşəliyev** | Sumqayıt Dövlət Universitetinin Tarix və coğrafiya fakültəsinin dekanı, professor |
| **Şirxan Səlimov** | Sumqayıt Dövlət Universitetinin Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrasının müdiri, professor |
| **Tahir Ağayev** | Sumqayıt Dövlət Universitetinin Coğrafiya və onun tədrisi metodikası kafedrasının müdiri, professor |
| **Səvvarə Rzaquliyeva** | Sumqayıt Dövlət Universitetinin Fəlsəfə, sosiologiya və politologiya kafedrasının müdiri, dosent |
| **Sona Məhərrəmova** | Sumqayıt Dövlət Universitetinin Tarix və onun tədrisi metodikası kafedrasının müdiri, baş müəllim, t.f.d. |
| **Bəhram Məmmədli** | Sumqayıt Dövlət Universitetinin Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrasının dosenti |
| **Günay Şükürova** *(məsul katib)* | Sumqayıt Dövlət Universitetinin Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrasının müəllimi |

# PLENAR İCLAS

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ

***Səlimov Ş.D.***
*Sumqayıt Dövlət Universiteti*

1917-ci ilin fevral ayında Rusiyada baş vermiş inqilabın nəticəsi olaraq Cənubi Qafqazda, xüsusilə də Azərbaycanda siyasi vəziyyət tamamilə dəyişdi. Bunun nəticəsi olaraq Müəssisələr məclisinə Cənubi Qafqazdan seçilmiş nümayəndələrdən ibarət Zaqafqaziya Seymi yaradıldı. Zaqafqaziya Federativ Demokratik Respublikası elan edildi. Siyasi vəziyətə nəzarət edən Milli Şura Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsinə dair Bəynnamə qəbul etdi. Bütün bunların nəticəsi olaraq Azərbaycan beynəlxalq münasibətlər sisteminə daxil oldu. Lakin bununla yanaşı Cənubi Qafqaz Respublikaları arasında kifayət qədər ziddiyətli məqamlar mövcud idi.

Yaranmış şəraitə uyğun olaraq Azərbaycan Xalq Cümhuriyyəti öz müstəqilliyini və beyn əlxalq münasibətlərdəki mövqeyini qoruyub saxlamaq məqsədilə Osmanlı dövləti ilə danışıqlara başladı və 1918-ci il iyun ayının 4-də hər iki ölkə arasında Batum sülh müqaviləsi imzalandı. Bu müqavilənin şərtləri içərisində ən mühüm amil Azərbaycan Xalq Cümhuriyyəti üçün ehtiyac duyduğu halda Türkiyə tərəfindən hərbi yardımın göstərilməsi idi. Bu zaman yenicə müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti ABŞ, İngiltərə, Rusiya, İran, Almaniya və digər dövlətlərin maraq dairəsində idi.

Birinci dünya müharibəsinin sonlarında daxili vəziyyəti və beynəlxalq münasibətlərdəki mövqeyi gərgin olmasına baxmayaraq Azərbaycana olan maraqları bir an belə unudulmurdu. Rusiya ilk növbədə Azərbaycanla bağlı Almaniya –Osmanlı ziddiyyətlərindən istifadə edərək Bakını öz əlində saxlamağa cəhd göstəriridi. Azərbaycan hökumətinin əlinə kecməsının qarşısını almaq ücün hətta Almaniya ilə danışıqlara getmişdir. 1918-ci ilin avqustun 27-də Rusiya Bakı neftinə dair əldə olunmuş razılaşmaya əsasən Almaniya türk ordusunu Bakı ətrafı ərazilərə buraxmamaq müqabilində istehsal etdiyi Azərbaycan neftinin 25 faizini Almaniyaya verməyi öhdəlik olaraq öz üzərinə götürürdü. Hətta Bakı bolşevik –daşnaq qüvvələrindən azad edildikdən sonra sentyabrın 24-də Rusiya Osmanlıdan Bakının boşaldılmasını və şəhərə dəymiş ziyanın ödənilməsini tələb

edirdi.

Rusiya ilə danışıqlara baxmayaraq Almaniyanın Azərbaycana dair öz planları var idi. Almaniya ilə Osmanlı bütün sahələrdə müttəfiq olmalarına baxmayaraq Azərbaycan məsələsində cox kəskin fikir ayrılıqları var idi. Almaniya Osmanlının Azərbaycanda mövqeyinin güclənməsini istəmirdi. Birinci Dünya müharibəsinin sonlarında Osmanlı və onun müttəfiqlərinin məğlub olması Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq münasibətlərdəki mövqeyinə mənfi təsir göstərdi. Osmanlı qoşunlarını Azərbaycan ərazisindən cıxarmaq məcburiyyətində qaldı. 1918-ci ilin oktyabrın 30-da imzalanmış Mudros müqaviləsinin şərtlərinə görə Osmanlı Azərbaycandakı mövqeyini Antanta qüvvələrinə güzəştə getdi. Nəticədə Azərbaycan öz müstəqilliyinin qorunub saxlanılmsında mühüm rol oynayan Osmanlı kimi strateji bir müttəfiqindən məhrum oldu. Birinci Dünya müharibəsində iştirak etməyən Azərbaycan müharibədən sonra məğlub dövlətlər sırasında hesab olunurdu.

Azərbaycan Xalq Cümhuriyyəti yaranmış yeni şəraitdə müstəqilliyinin tanınması məqsədilə qalib dövlətlər sırasında və beynəlxalq münasibətlərdə güclü mövqeyə malik olan ABŞ-amüraciət etdi. Antanta Ali şurasının qərarı ilə yeni mandat sisteminə uyğun olaraq Azərbaycan Böyük Britaniyanın nəzarətinə kecdi. Çevik siyasət həyata kecirən Azərbaycan hökuməti hələ ingilis qoşunları Bakıya daxil olmamış ondan Azərbaycanın müstəqilliyinə dair bəyanat verməsini təklif etdi. Lakin ingilis komandanlığı Azərbaycan Respublikası hökuməti türklərin intiriqası nəticəsində və xalq arasında hec bir dayağı olmamasını iddia edərək bu bəyanatdan imtina etdi. Lakin ingilis generalı Tomson Azərbaycana daxil olduqdan sonra bunun tam əksinin şahidi olur. Antanta Ali Şurasının Azərbaycana dair mandatına əsasən Bakı ingilislərin nəzarətinə kecir. Azərbaycanın digər ərazilərinə isə Azərbaycan hökuməti nəzarət etməli idi. Buna baxmayaraq Azərbaycan hökuməti tezliklə ingilislərlə dil tapa bildilər. Lakin bu münasibətlər uzun cəkmədi. 1919-cu ilin may ayının 10-da Paris konfransı adından general Tomson Azərbaycan hökumətinə Britaniya qoşunlarının İtaliya hərbi hissələri ilə əvəz ediləcəyi dair məlumat verdi. Lakin İtaliyada baş vermiş hökumət dəyişikliyi ilə əlaqədar olaraq İtaliya bu mandatdan imtina etdi.

Cənubi Qafqazda gedən proseslər Azərbaycan-Gürcüstan münasibətlərinin kəskinləşməsinə səbəb oldu. 1918-ci ilin iyun ayında Gürcüstan Borcalı, Sığnax və Tiflis qəzalarının sərhədlərinə qoşun yeridilməsinə dair qərar qəbul etdi. Alman qoşunlarının köməyi ilə gürcü hərbi hissələri Borcalıya daxil oldu. Azərbaycan hökuməti gürcü qoşun-

larının Borçalıdan çəkilməsinə dair Gürcüstan hökumətinə nota göndərdi. Bunu ardınca iki qonşu Respublikanın dövlət sərhədlərinin bərqarar olması məsələlərinin həlli ücün hər iki hökumətin təyinatı ııə qarışıq komissiyanın yaradılması təklifini irəli sürdü. Cənubi Qafqazda öz maraqlarını həyata kecirilməsini məqam bilən Almaniya öz vasitəçiliyini təklif etdi. Lakin müəyyən ərazi itkiləri hesabına olsa da Gürcüstanla münasibətlər nisbətən sabitləşdirildi. AXC-Ermənistan münasibətləri də Ermənistanın haqsız ərazi iddiları ucbatından gərgin olaraq qalırdı. Müstəqilliyin ilk mərhələsində AXC-İran münasibətlərində mövcud olan gərginliklər sonraki mərhələdə aradan qaldırıldı.

Azərbaycan beynəlxalq münasibətlərdəki mövqeyini güclənməsinə təsir edən ən mühüm amillərdən biri nümayəndə heyətinin Paris sülh konfrasında iştirakı və bu zaman ABŞ prezidenti Vudro Vilsonla görüşü, eləcə də dnyanın böyük dövlətlərinin nümayəndələri ilə ayr-ayrı görüşləri və Azərbaycan tarixini dair məlumatların həmin nümayəndələrə çatdırılması oldu. Rusiyada vətəndaş müharibəsinin başa çatması Azərbaycan Xalq Cümhuriyyəti üçün təhlükənin yenidən meydana gəlməsinə səbəb oldu. 1920-ci ildən başlayaraq Rusiya Azərbaycana qarşı diplomatik təzyiqlərini kəskin şəkildə artırmağa başladı. 1920-ci il yanvar ayının 11-də Antana Ali Şurası tərəfindən Azərbaycsn Xalq Cümhuriyyətinin müstəqilliyinin de-fakto olaraq tanınması Azərbaycanın beynəlxlaq münasibətlərin subyektinə çevrilməsi istiqamətində ən mühüm addım oldu. Lakin beynəlxalq münasibətlərdə yaranmış şəraitdən istifadə edən Rusiya 1920-ci il aprel ayının 27-də Azərbaycanı işğal edərək onun müstəqilliyinə son qoydu.

## AXC-nin YARANMASI İLƏ XALQIMIZ İTİRİLMİŞ DÖVLƏTÇİLİYİNİ BƏRPA ETDİ

***Qasımov Ş.M.***
*Azərbaycan Texniki Universiteti*

Azərbaycan Xalq Cümhuriyyətinin birinci ildönümü 1919-cu ildə qeyd olunub. Tarix elə gətirdi ki, onun ikinci ildönümü 1990-cı ildə qeyd edildi. Yəqin ki, belə bir uzun fasilədə hamının, o cümlədən humanitar fikrin də öz günahı vardı. Biz son illər ictimai elmlərdən ürək yanğısı ilə danışmışıq. Bu təsadüfi deyil: geriliyin, unutqanlığın ictimai elmlərə vurduğu zərbə daha dərin və çox şaxəli olmuşdu.

Etiraf etmək olar ki, XX əsrin 90-cı illərinin sonlarına qədər qədim tariximiz barədə daha çox fakt, sənəd, həqiqət bilməyə cəhd etdiyimiz halda, ən yaxın tariximiz olan

Azərbaycan Xalq Cümhuriyyəti barədə heç adi, elementar təsəvvür, orijinal milli "təlim" də yaratmamışdıq. Şükürlər olsun ki, dövlət müstəqilliyimizə qovuşduqdan sonra bir daha yəqin edilmişdir ki, icti-mai elmlər qarşısında nankor, unutqan yaddaşdan təmizlənməkdən daha vacib məqsəd dayanmır. 70 illik yasaqdan və təhriklərdən sonra indi aşkarlıq işığında aparılan tədqiqatlar nəticəsində aydın olmuşdur ki, tarixə və soykökə bağlılıq, yaxın milli tariximizin ilk böyük həqiqəti Xalq Cümhuriyyətində və onun istiqlal təlimində öz əksini tapmışdır. Sovet tarixşünaslığında mil-lətlərarası münasibətlər, Bakı kommunası, Azərbaycan Xalq Cümhuriyyəti, onların fəaliyyəti təhrif edilmiş şəkildə və 20-30-cu illər tarixi isə səhv, olduğu kimi təlqin edilməmişdir. Bu mənada keçilən yola nəzər salmaq, AXC-in yaranması və dövlətçiliyimizin qurulması sahə-sindəki çoxsahəli fəaliyyətini işıqlandırmaq məqsədi ilə gerçək tarixə müraciət etmək daha məqsədəuyğundur. Azərbaycanda həyata keçirilən uğurlu islahatlar, təhsilin, elmin inkişafına göstərilən dövlət qayğısı və 2018 –ci ilin Xalq Cümhuriyyəti ili elan olunması kimi əhəmiyyətli tədbirlər bu işin uğurla aparılmasına, tarixi həqiqətlərin xalqa çatdırılmasında əsas rol oynayır.

1917-ci ilin fevral burjua-demokratik inqilabi çarizmin 300 illik hökmranlığına son qoydu. Bu hadisə Rusiya ərazisində yaşayan xalqların azadlıq hərəkatını daha da gücləndirdi. Azərbaycanda da milli-demokratik hərəkat vüsət aldı. Bu prosesdə xüsusilə xalq ziyalıları fəal iştirak edirdilər. 1918-ci ilin əvvəlində milli müstəqil dövlət quruluşu yaratmaq uğrunda mübarizə genişlənmişdir. Onu həyata keçirmək üçün başlıca demokratik qüvvələr, partiyalar və qruplar geniş fəaliyyət göstərirdilər. 1918-ci ilin fevralında Zaqafqaziyanın yerli ictimai təşkilatları, partiyaları və siyasi qrupların və milli–demokratik qüvvələrin səyi ilə Zaqafqaziya Seymi yaradıldı. Onlar seporatizm və milli müstəqillik siyasətini yürüdürdülər. Demokratik qüvvələr, xüsusilə Musavat partiyası Azərbaycana muxtariyyət, müstəqillik verilməsi tələbini irəli sürürdülər. Oktyabr çevrilməsindən sonra bolşevik mövqedə olan sovetlər Azərbaycanı sovet Rusiyasının ayrılmaz hissəsi kimi saxlamaq istiyirdilər. Bu xəttin başında Bakı Soveti dururdu. Lakin Zaqafqaziyada Federativ dövlət yaratmağın perespektivsizliyi göz qabağında idi. Türkiyə cəbhəsindəki hərbi əməliyyatlar Seymin dağılma prosesini daha da sürətləndirir.

11 may-4 iyun 1918-ci il tarixlərində Osmanlı və Zaqafqaziya seymi nümayəndələrinin iştirakı ilə Batum konfransı keçirilir. Konfransda Zaqafqaziya seymi ilə Osmanlı dövləti arasında münasibətlər danışıqlar mövzusu olur. Konfrans ərəfəsində Zaqafqaziya seyminə daxil olan millətlər- azərbaycanlı, gürcü və erməni nümayəndələri

arasında olan ziddiyyətlər, xüsusilə gürcülərin almanpərəst mövqedə durması, azərbaycanlıların Türkiyəni müdafiə etməsi son nəti-cədə ona gətirib çıxarır ki, gürcülər artıq almanların himayəsində ayrıca gürcü dövləti yaratmaq qənaətinə gəlirlər. Dövlətçiliyə və xarici ölkələrin himayəsinə fərqli baxışların gerçəkləşməsi Zaqafqaziya seymi və hökumətinin dağılması, müstəqil Cənubi Qafqaz dövlətlərinin yaranması ilə nəticələnir. Belə ki, mayın 26-da gürcülər seymdən çıxaraq müstəqilliklərini elan edirlər.

Mayın 28-də 4 partiyanı təmsil edən 44 nəfərlik azərbaycanlı deputatlar milli Şurada birləşərək yeni dövlətin- Azərbaycan Cümhuriyyətinin yarandığını bildirən məşhur İstiqlal Bəyannaməsi ilə çıxış etdilər. Qəbul edilmiş müstəqillik haqqında bəyannamədə müsəlman Şərqində ilk dəfə olaraq dinindən, irqindən asılı olmayaraq ölkə ərazisində yaşayan bütün xalqların və millətlərin hüquq bərabərliyi tanındı. Cümhuriyyətin yaranması ilə itirilmiş dövlət-çiliyimiz yenidən bərpa olundu və Şimali Azərbaycan torpaqlarının bütövlüyü qismən də olsa qorunub saxlandı.

Batum konfransında danışıqların əsas mövzularından biri də sərhəd məsələsi idi. Sərhəd məsələsi müəyyən olunarkən keçmiş Tiflis və Kutaisi quberniyalarının ərazilərində Gürcüstan dövləti yaranır. O dövrdə Azərbaycanın vəziyyəti belə idi ki, Bakı bolşeviklərin nəzarəti altında idi, Azərbaycanın milli qüvvələri isə əsasən Yelizavetpol quberniyasında cəmləşmişdi.

Bu ərəfədə müharibə aparan hərbi blokların hər ikisinin üzvləri arasında ermənilərə dövlət yaratmaq barədə ümumi fikir formalaşmışdı. Elə bu baxımdan da, Batum konfransının ye-kununda qərara alınıb ki, kiçik də olsa, bir erməni ocağı yaradılsın. Danışıqlar zamanı Azər-baycan ərazisində dövlət yaratmaq üçün ermənilərə torpaq veriləcəyi halda, erməni tərəfi Azər-baycan və Türkiyə tərəfləri qarşısında bir sıra öhdəliklər yerinə yetirməyi üzərinə götürürdü. Həmin öhdəliklər bundan ibarət idi ki, ermənilərlə müsəlmanlar arasında düşmənçilik aradan qaldırılacaq və erməni tərəfi S.Şaumyanla əlaqəyə girib Bakının müsəlman əhalisinin təhlükəsiz-liyini təmin edəcək, bununla azərbaycanlılara qarşı kütləvi qırğınların qarşısı alınacaqdır.

Erməni tərəfinin üzərinə götürdüyü bu öhdəlik Osmanlı imperiyası ilə yenicə yaradılmış Ermənistan respublikası arasında 1918-ci il iyunun 4-də Batumda bağlanmış "sülh və dostluq" müqaviləsində 6-ci maddəsində və müqaviləni tamamlayan III əlavədə təsbit olunurdu.

İrəvan paytaxt kimi ermənilərə verilərkən səsvermədə Azərbaycan Milli Şurasının 44

deputatından 28-i iştirak edirdi. Onlardan yalnız 20-i səs verib ki, İrəvan paytaxt kimi verilsin.

Batum müqavilələrinin bağlanmasına, yəni 1918-ci il iyunun 4-nə bir həftə qalmış, 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurasının qərarı ilə qədim Azərbaycan şəhəri İrəvan paytaxt kimi Ermənistana o şərtlə güzəşt edilir ki, ermənilər Yelizavetpol quberniyasının dağlıq hissəsinə olan iddialarından əl cəkəcəklər. Məlumdur ki, ermənilər İrəvanı paytaxt kimi əldə etdikdən sonra Dağlıq Qarabağa və ondan da geniş ərazilərə iddialarını davam etdirirlər.

Lakin bildiyiniz kimi, cəbhədə vəziyyət dəyişir, 1918-ci ilin noyabrında Almaniya təslim olur və müharibə ittifaq dövlətlərinin məğlubiyyəti ilə başa çatır. Osmanlı imperiyası ilə Antanta dövlətləri arasında 1918-ci oktyabrın 30-da Mudros müqaviləsi bağlanır. cəbhədə üstünlük An-tanta ölkələrinin tərəfinə keçir. Osmanlı dövləti Birinci Dünya müharibəsi zamanı ələ keçirdiyi ərazilərdən geri çəkilməli olur Ondan sonra ermənilər də Batum müqaviləsində üzərlərinə götür-dükləri öhdəliklərdən imtina edərək, Azərbaycana qarşı ərazi iddialırını irəli sürməyə başlayırlar.

Həmin dövrdə həm Bakıda, həm də Azərbaycanın müxtəlif bölgələrində daşnak və bolşe-vik qüvvələri tam hökmranlıq edirdi. Belə olan təqdirdə, Azərbaycanın yeni hökuməti Türkiyə hökumətinə müraciət edir. Azərbaycanda kütləvi qırğınların törədildiyini eşidən Türkiyənin mü-dafiə naziri Ənvər paşa kiçik qardaşı Nuru paşanın başçılığı altında Qafqaz islam ordusunu Azər-baycana göndərir. Nuru paşanın qoşunları 1918-ci il iyunun əvvəllərində Gəncəyə gəlir, iyunun sonlarında başlanan döyüşlərdə bolşevik-daşnak qüvvələri darmadağın edilir və Qafqaz islam ordusu Bakıya tərəf irəliləyir. Qafqaz islam ordusu 1918-ci ilin sentyabr ayının 15-də Bakı şəhərinə daxil olur və Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxta köçməsi üçün şərait yaradır. Qafqaz islam ordusu Bakını daşnaklardan, eserlərdən və ingilislərdən təmiz-ləyir, şəhəri Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi paytaxtına çevirir, Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra Bakının azad olunması ikinci böyük bir hadisə kimi tarixə düşür.

AXC yarandığı ilk gündın mədəniyyətin və təhsilin inkişafına qayğı göstərir. Beləki, hökümətin 28 avqust 1918-ci il qanununa görə Xalq Maarifi milliləşdirildi. Milli müəllim kadrları hazırlamaq üçün Gəncə, Nuxa və Zaqatalada qısa müddətli pedaqoji kurslar təşkil edilib 150 dinləyici qəbul edildi. Qori müəllimlər Seminariyasının Azərbaycan Şöbəsi Qazaxa köçürüldü. Türkiyədən 50-yə qədər müəllim dəvət olundu. Onlar öz fəaliyyətlərinə

1919-cu ilin oktyabrında başladılar. Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan «Azərbay-can» qəzeti Azərbaycan və Rus dillərində çap olunurdu. Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti Bakıya köçdükdən sonra ictimai-siyasi həyatda, mədəniyyət və təsərrüfat həyatında öz əsas tədbirlərini görməyə başladı. AXC-in bir çox tədbirlərində demokratik, mütərəqqi meyllər özünü göstərirdi. Respublikanın ilk ali təhsil müəssisəsindən olan Bakı Universite-tinin açılması Azərbaycanın mədəni həyatında cox mühüm hadisə idi. 1919-cu ilin noyabrında Bakıda dövlət konservatoriyasının açılmasına hazırlıq işləri başlandı. Bakıda kütləvi kitabxa-naların və dövlət kitabxanasının açılması üçün layihələr işlənib hazırlanmışdı.

Orta məktəblər milliləşdirilmişdi. Rus dilində tədris aparılan siniflərdə də Azərbaycan dilinə məcburi fənn kimi həftədə 3-4 dərs ayrılırdı. Savadsızlığın ləğv edilməsi sahəsində də mühüm addımlar atılmışdı. 1919-cu ildə Bakı, Şuşa, Şəki, Zaqatala və Qazaxda yaşlı əhali üçün və ümumilikdə Azərbaycanda yaşayan bütün millətlərin mənafeyinə uyğun olan axşam dili kursları açılmışdı. Azərbaycan hökümətinin qərarına əsasən milli azlıqda olan xalqların ana dilində təhsili üçün 1918-ci il 7 sentyabrında qanun verilmişdi.

Azərbaycan Respublikası milli ənənələrə qayıtmaq, əhalinin dini ehtiyaclarını ödəmək qayğısına qalırdı. Cümə günü istirahət günü elan edilmişdi. Dini bayram günlərində dinindən asılı olmayaraq bütün əhali işdən azad olunurdu.

Müstəqillik şəraitində Azərbaycanın 1918-1920-ci illər tarixi üzərindən qaldırılan qara pərdələr yeni-yeni səhifələr üzə çıxardı. Müəyyən olundu ki, Azərbaycan Xalq Cümhuriyyə-tinin fəaliyyətinin bütün müsbət cəhətlərinin, o cümlədən onun dövlətçiliyimizi bərpa etmək kimi misilsiz xidmətinin üzərindən sükutla keçilmişdir. Əslində 100 ildən sonra bir daha hamılıqla bu qənaətə gəlinib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə xalqımız itirdiyi dövlətçiliyini bərpa etmişdir.

## НАЧАЛЬНЫЙ ЭТАП ДЕЯТЕЛЬНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ (май – ноябрь 1918 г.)

***Джафаров Г.Ф.***

*Азербайджанский государственный экономический университет UNEC*

Азербайджанская Демократическая Республика возникла как естественный продукт бурных процессов в национальном самосознании, вызванных к жизни февральской революцией. Рухнул мир, который держали до поры до времени

насквозь проржавшие цепи царизма.

25- го мая состоялось последнее заседание объединяющего закавказские народы органа – Закавказского Сейма.

Распад этой надуманной федерации только с еще большей силой подчеркнул необходимость создания в регионе национальных государств.

Грузины решили выйти из состава Закавказской федерации и объявить о независимости Грузии. После всестороннего обсуждения политического момента совместно заседание азербайджанских фракций принимает решение: «Если Грузия объявит свою независимость, то с нашей стороны должно последовать объявление независимости Азербайджана».

26 мая Сейм принял решение о самороспуске. В тот же день была провозглашена независимость Грузии.

27 мая состоялось чрезвычайное заседание азербайджанских депутатов теперь уже бывшего Сейма, обсудивший создавшееся политическое положение в связи с самороспуском Закавказского Сейма. После продолжительного и всестороннего обсуждения этого вопроса заседание, единогласно решило взять на себя бремя правления Азербайджаном, провозгласив себя Временным Национальным Советом Азербайджан. Председателем Национального Совета был избран М.Э.Расулзаде. 28 мая состоялось первое заседание Национального Совета. После детального и всестороннего обсуждения Национальный Совет 24- я голосами при двух воздержавшихся (С. М. Ганиев и Дж. Ахундов) высказался за немедленное объявление Азербайджан Демократической Республикой, в пределах Восточного и Южного Закавказья.

Был оглашен «Акт о независимости Азербайджана».

На том же заседании был объявлен состав Временного Правительства. Председателем Совета Министров и министром внутренних дел был избран Фатали Хан Хойский (б/п). 30 мая 1918-года министры иностранных дел всех основных мировых государств была проинформированы о создании Азербайджанской Демократической Республики. 4 июня Грузия, Азербайджан и Армениаподписали отдельные договоры «О мире и дружбе» с Турцией. По этим договорам территория Армении составляла 4.000 кв.км.. Бесспорное пространство Азербайджана составляла 97.297 кв. км, а спорная территория составляла 16. 598 кв. км. Таким образом общее

пространство было равно 113.895 кв. км.

16 июня Азербайджанское правительство переехало из Тифлиса в Гянджу и сразу же оказалось перед лицом сложных внутренних и внешних проблем. Уже в самом начале своей деятельности правительство Ф.Х. Хойского столкнулось с трудностями. Так, для определенных кругов азербайджанской буржуазии и помещиков Национальный Совет и созданное им правительство казалось слишком левым и революционным. Однако, с помощью советника Нури-паши, АхмедбекаАгаева удалось добиться компромисса. 17 июня стороны договорились о компромиссе. А.Агаев предложил распустить Национальный Совет и сформировать новый правительственный кабинет. Фатали хан Хойский представил свой второй кабинет, в который вошли 6 членов предыдущего кабинета, плюс 6 новых.

10 июня Бакинский Совнарком отдал приказ о давно задуманном наступлении на Гянджу. Азербайджанское правительство вынуждено было обратиться за военной помощью к Турции и, в соответствии с 4-й статьей турецко-азербайджанского договора от 4 июня 1918г.,такая помощь была немедленно оказана. Наступление красных (и армянских бандо-формирований) было остановлено Объединенной турецко- азербайджанской военной силой .В битве под Геокчаем, которая продолжалась 4 дня, с 27 июня по 1 июля Армия Ислама разгромив вооруженные силы Бакинского Совета, приостановила их продвижение к временной столице Азербайджана- Гяндже. Летом 1918г. главный проблемой для Азербайджанского правительства являлось освобождение Баку от врагов азербайджанской независимости. После победы при Геокчае объединенные азербайджано-турецкие силы перешли в контрнаступление и к концу июля достигли окраин Баку. 31 июля 1918г. Советская власть в Баку прекратила свое существование. Власть и города перешли в руки т.н. «Диктатуры Центрокаспия» состоящей в основном из эсеров и дашнаков. Диктатура незамедлительно направила приглашение Денстервилю,

Решающий штурм города начался утром 15 сентября. К концу дня корабли с людьми Денстервиля на борту уже покидали Баку. Вслед за ними в Энзели или в удерживаемую большевиками Астрахань бежали члены Диктатуры и десятки тысяч армян. Баку была освобождена. 17 сентября правительство Азербайджана прибыло из Гянджи в Баку.

К концу октября международная обстановка приняла новый, неожиданный

оборот, поставивший Азербайджанскую Республику перед еще одним серьезным экзаменом. Турция, как побежденная сторона в первый мировой войне, вынуждена была 30 октября 1918г. заключить Мудросское перемирие с Великобританией. Два пункта соглашения касались Закавказья: статья 11 требовала вывода турецких войск из всего региона, а по статье 15 предусматривалась оккупация Баку союзниками (т.е. англичанами). Закавказские республики в тексте соглашения о перемирии не упоминались. Вскоре после прибытия (17 ноября)в Баку Томсон, ознакомившийся с положением на месте, беседуя с главой правительства Ф.Х. Хойским постепенно сменил «гнев на милости». У англичан вырабатывалось довольно высокое мнение об азербайджанском премьер-министре, и в одном из официальных докладов говорилось о нем как об «одном из наиболее способных людей в Баку». Азербайджанские лидеры проявили чрезвычайное политическое чутье, подыгрывая английский восприимчивости ко всему демократическому. Накануне высадки Томсона в Баку, после пятимесячного перерыва 16 ноября 1918г. вновь собранный Национальный Совет принял закон о выборе в Учредительное собрание, 19 ноября Национальный Совет принял «Закон об образовании Азербайджанского парламента». Из 120 депутатских мест в Азербайджанском парламенте 80 представлялось азербайджанским тюркам, 21- армянам, 10-русским, по одному немцам, евреям, грузинам и полякам. 5 мест в парламенте было отведено представителям профессиональных организаций.

События вокруг открытия Азербайджанского парламента убедили генерала Томсона в том, что Азербайджанское правительство является единственной серьезной силой в Баку, с которым можно вести конструктивный диалог. Именно с этого момента началось сближение между английской администрацией и Азербайджанским правительством. Таким образом, реализм и гибкость политики Азербайджанского правительства позволили выйти из, казалось бы, тупиковой ситуации.

# I BÖLMƏ
# AZƏRBAYCAN XALQ CUMHURİYYƏTİNİN DAXİLİ SİYASƏTİ

## AXC VƏ DÖVLƏT QURUCULUĞU MƏSƏLƏLƏRİ

***Baxşəliyev A.B.***
*Sumqayıt Dövlət Universiteti*

AXC dövründə milli dövlət quruculuğu məsələlərinin həyata vəsiqə almasında Şərqin ilk demokratik ali qanunverici orqanı kimi bir mənalı qəbul edilən Azərbaycan Parlamentinin müstəsinə rolu olmuşdu. Milli Azərbaycan Respublikasının Konstitusiyasını işləyib hazırlamağı və ölkədə mövcud siyasi rejimi qərarlaşdırmağı öz üzərinə götürən Ümumazərbaycan Müəssislər Məclisinin çağırılması haqqında qətnamə 1918-ci ilin iyun ayının 17-də qəbul olunmuşdu. Hətta sentyabırın 14-də onun toplanmasını müəyyən edəcək komissiya təşkil olunmuş, Müvəqqəti Milli Şura da beş aylıq fasilədən sonra fəaliyyətə başlamış və "Azərbaycan parlamentinin yaradılması haqqında" qanunu qəbul etmişdi. Onu da qeyd edək ki, 1918-ci ilin noyabr ayında Bakıda cərəyan edən beynəlxalq münasibətlərin gərginliyi ilə bağlı Ümumazərbaycan Müəssislər Məclisinin çağırılması mümkün olmamışdı. Buna görə də, siyasi fəaliyyətini bərpa edən Müvvəqqəti Milli Şuranı demokatik ruhlu dövlət qanunvericilik orqanına-Azərbaycan Parlamentinə çevirmək haqqında II Hökumət Kabineti tərəfindən xüsusi qərar qəbul edilmişdi. AXC-ni Parlamentli Respublikaya çevirməyi nəzərdə tutmuş bu qərarda nümayəndəli qurumun bir palatalı olub, irqindən, dinindən, milliyyətindən, cinsi və sosial mənsubiyyətindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşlarını 120 nəfərlə təmsil edəcəyi də qəti şəkilədə müəyyən edilmişdi. Azərbaycandakı milli-etnik say tərkibi əsas götürməklə ölkənin çoxluq təşkil edən türk-müsəlman əhalisinə keçmiş Milli Şura üzvləri ilə birlikdə 80 yer, ermənilərə 20, ruslara 10 yer ayrılmışdı. Milli etnik azlıqda qalan yəhudi, gürcü, polyak, alman nümyədələrinin hər birinə 1 yerin, hətta həmikarlar ittifaqı təşkilatına 3 yerin, Neft Sənayeçiləri Şurasına, Ticarət - Sənaye İttifaqına 2 yerin ayrılması da qəbul edilmiş qərarda öz əksini tapmışdı. Qərarda ərazi proporsiyasının müəyyən edilməsinə də yer ayırılması amili Azərbyacan Parlamentinin demokratik dəyərlərin daşıyıcısı olmaq baxımından özünü demokratiyanın beşiyi sayan Qərb parlamentariyasını belə otüb keçməsindən xəbər verirdi.

Nəhayət, 1918-ci ilin dekabrın ayının 7-i təqvim günündə ilk iclasını

M.Ə.Rəsulzadənin söylədiyi nitqlə açan Azərbaycan Parlamenti öz işinə başlamışdı. Parlament ilk iclasının sonunda sədri vəzifəsinə bitərəf olmasına baxmayaraq AXC-nin qurulmasında milli ideoloq kimi funksioner rolunu oyanmış görkəmli ictimai-siyasi xadim, nüfuzlu hüquqşünas Ə.Topçubaşovu, onun müavini vəzifəsinə isə "Türk Federalistlər Partiyası Müsavat"ın təmsilçisi, dövrünün nüfuzlu ictimai-siyasi xadimi kimi tanınan milli ruhlu hüquqşünas H.Ağayevi seçmişdi. İlk iclasda II Hökumət Kabinetinin buraxılması elan edilsə də, növbəti Hökumət Kabineti formalşdıralanadək onun öz işini davam etdirməsinə də qərar verilmişdi. Dekabrın 26-da yenə də, görkəmli icimai-siyasi xadim F.Xoyskinin sədrliyi ilə fəaliyyətə başlayan III Hökumət Kabinetinin tərkibi elan olunmuşdu. Tərkibində üç rus mənşəli nazirin təmsil olunduğu bu yeni- koalisiyon hökumətin Azərbaycanı nüfuz dairəsi altına almış İngiltərənin səalhiyyətli nümayəndəsi V.Tomson tərəfindən bir neçə gün ərzində tanınması onun demokaratik əsasda formalşmasının göstəricisi idi. Haşiyə olaraq göstərmək yerinə düşər ki, parlamentin iclasları türk dilində aparılmasına baxmayaraq burada qeyri-müsəman deputatlara öz fikirlərini rus dilində ifadə etməyə icazə verilmişdi. Bu mühüm amil isə Azəbaycan parlamentinin tolerantlığını, beyəlmiləçi prinspləri əsas götürməsini, başlıcası onun ilk gündən rus dilinə, rus millətinə hörmətlə yanşmasını bir daha təsdiqləyirdi.

Azərbaycanda bir sıra köklü problemlər Ümumazərbaycan Müəssislər Məclisinin çağırılması ilə öz həllini tapa bilərdi. Dövlət quruculuğu məsələləri ilə birbaşa bağlı olan mühüm problemləri aradan qaldırmaq üçün Azərbaycan Parlamenti tərəfindən 1919-cu ilin 21- iyul tarixində Müəssislər Məclisinə seçkilər haqqında əsasnamə qəbul edilmişdi. Əsasnamədə milliyətindən, dinindən, dilindən, cinsi mənsubiyyətindən asılı olmayaraq 20 yaşına çatmış bütün vətəndaşların seçkidə iştirak hüququ təsbit edilmişdi. 1920-ci ilin aprel ayının 20-nə təyin olunmuş Müəssisilər Məclisinə seçkilər sovet Rusiyasının və onun əlaltısı erməni tərəfinin təcavüzkar siyasəti üzündən baş tutmamışdı.

Yenicə formalşan parlamentdə, və onun qarşısında məsuliyyət daşıyıb vaxtaşırı hesabat verən Hökumət kabinetlərində dövlət quruculuğu məsələlərinin həyata keçirilməsi zamanı maneələr, çətinlkilər də özünü büruzə verməkdə idi. Dövlətin bazisi rolunu oynayan müstəqil milli iqtisadiyyatın formalaşdırılması zamanı hökumət orqanları I Dünya savaşının Azərbaycanın təsərrüfat həyatına vurduğu zərbələri, erməni-bolşevik birləşmələrinin sənaye sahələrində, əsasən də neft sənayesində, əkinçilikdə törətdiyi azğınlıqları, ingilis ağalığı dövründə kənd, eləcə də şəhər həyatında yaranmış pozğuntu və dağıntıları aradan qaldırmaq

məcburiyyəti qarşısında qalmışdılar. Azərbaycanın zəngin yeraltı və yerüstü sərvətlərini səmərəli şəkildə milli iqtisadiyyatın qurulmasına cəlb etməklə bu çətinliklərin aradan qaldırılması işlərinə başlanmışdı.

Qeyd etmək vacibdir ki, tanınmış ictimai-siyasi xadim, "Türk Fedralistlər Partiyası Müsavat"ın banilərindən sayılan N.Yusifbəylinin başçılıq etdiyi son iki Hökumət Kabinetləri də koalisiyalı olmaqla III Hökumət Kabinetinin qəbul etdiyi proqramı həyata keçirmək üzrə öz işlərini qurmuşdu. Azərbaycanın Parlamentli Respublikaya çevrilməsindən 1920-ci ilin aprel işğalına qədər olan müddətdə müstəqil fəaliyyət göstərən Milli Hökumət kabinetləri dövlət quruculuğu, ölkə sərhədlərinin mühafizəsi, ümumbəşəri dəyərlərə söykənən milli mədəniyyətin formalşdırılması, inkişaf etdirilməsi, sosial-iqtisadi problemlərin aradan qaldırılması və xarici siyasət kursunun oturuşmuş dövlətçilik ənənələri əsas olmaqla müəyyən edilməsi istiqamətində bir çox böyük əhəmiyyətə malik işlərə imza atmaları ilə tarixə düşmüşdülər.

## MÜASİR AZƏRBAYCAN –
## AZƏRBAYCAN XALQ CUMHURİYYƏTİNİN VARİSİDİR

**_Abbasova A.A._**
*Almaniya*

"Azərbaycan Xalq Cumhuriyyətinin yaranmasi Istiqlal Bəyannaməsinin elan olunmasi böyük zəka, uzaqgörənlik, cəsarət, iradə, qəhrəmanlıq tələb edirdi. Bizim dəyərli siyasi xadimlərimiz o il, o ay, o gün bu tarixi addımı atdılar". Heydər Əliyev

Azərbaycan xalqinin milli dövlətçiliyə nail olmaq arzularının gərcək ifadəsi olan AXC cəmi 23 ay yaşadı. Bu 23 ayın nə qədər ağır və əziyyətli dövr oldugunu təsəvvür etmək çətin deyil. Mövcud iqtisadi-siyasi əlaqələrin qurulması, sosial sahədəki problemlərin daha da kəskinləşməsi, yəni müstəqil dövlətin yaranmasina mane olmağa çalışan fövqəlqüvvələrin ölkə ərazisində törətdiyi təxribatlar, üstəlik qonsuluqdakı mənfur düşmənlə mübarizə yəni dövlət yaratmaq kimi ağır və məşəqqətli yolda istər Azərbaycan Xalq Cumhuriyyətinin, istrsə də müasir Azərbaycan Respublikasının yoluna çıxan problemlər olmuşdur. Lakin qədim dövrdən bu yana tarixi dövlətçilik ənənələrinə bələd olmaq və əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyəti timsalında demokratik prinsipləri və dövlətçilik düsüncəsi təcrübəsinin mövcudluğu, gözlənilən problemlər və təhlükələri az-cox təxmin etmək və bir sira bu kimi təcrübələr XX əsrin sonlarinda Azərbaycanın müstəqilli-

yinin bərpa edilməsində böyük rol oynadı. Müsəlman Şərqində ilk Parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti özünün siyasi qurulusuna, həyata keçirdiyi demokratik dövlət quruculuğu tədbirlərinə, həmçinin qarşısına qoyduğu məqsəd və vəzifələr baxımından bu günkü müstəqil respublika quruluşumuza möhkəm bir zəmin yaratmış oldu. Ulu öndər Heydər Əliyev öz çıxışlarında, fərman və sərəncamlarında Azərbaycan Respublikasının AXC-nin varisi olduğunu dəfələrlə qeyd etmişdir. 2001-ci il oktyabrın 18 də Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 10 illiyindəki çıxışında Prezident demişdir: " Bu gün Azərbaycanın Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktından danışarkən mütləq qeyd etmək lazimdir ki, həmin müstəqillik Aktı Azərbaycanın 1918-ci ildə mövcud olmuş Xalq Cumhuriyyətinin bərpasidir: Biz onların varisiyik, onların işinin davamçılarıyıq - ancaq yeni səraitdə, yeni bir tarixi zamanda". Bu baximdan AXC dövrünü öyrənmək və tədqiq etmək təkcə tarixi baxımdan deyil, eyni zamanda xalqimiz üçün böyük siyasi-mənəvi əhəmiyyət kəsb edir.

Müasir dövrdə hüquqi dövlət quruculugunu hədəf seçən Azərbaycan hakimiyyəti, məhz sələf-varis prinsiplərinə sadiq qalaraq bir tərəfdən milli tarixi köklərinə və qədim dövlətcilik ənənələrinə dayanir və XX əsrin əvvəllərindəki AXC-nin parlamentar demokratik idarəcilik sistəmini nümunə olaraq mənimsəmiş, eyni zamanda fəaliyyətini müasir idarəcilik mədəniyyəti və çağdaş prinsiplər üzərində qurmağa başlamışdır. Ulu öndərin hakimiyyəti dövrundə Azərbaycan Xalq Cumhuriyyətinin, Cumhuriyyət xadimlərinin fəaliyyətinə yüksək qiymət verilərək onların adlarının milli yaddaşda bərpası dövrü baslamış - bu tarixi şəxsiyyətlərin həyat yolu, ictimai-siyasi fəaliyyəti çoxsaylı yazılarda, çıxışlarda, toplantılarda işıqlandırlmışdır.

Cumhuriyyətin qurucularının bir çoxu Avropanın Müxtəlif ali məkətblərində yüksək təhsil görmüş, bəziləri Rusiyanin Dövlət Dumalarında Deputat olmuşlar. Bu görkəmli şəxsiyyətlər zəngin parlamentçilik təcrübəsi qazanaraq qəbul etmədikləri qəddar milli müstəmləkə zülmünün hökmranliq etdiyi Rusiya mütləqiyyətindən tamamilə fərqlənən, bütün hüquq və azadliqların təmin olunduğu yəni demokratik respublika sistemi yaratmağa qadir idilər. Rusiyanin demokratik fikir nümayəndələrinin baxışları və Qərbin yəni- demokratik dövlət quruculuğu ənənələri ilə- Parlament mədəniyyəti ilə yaxından taniş olmaları sayəsində Rusiya imperiyasının dağılması üçün real tarixi şərait yaranarkən artıq bu siyasi xadimlər müstəqil demokratik bir dövlətin yaradılması və idarə edilməsi məsuliyyətini öz üzərlərinə götürmək iqtidarında idilər. Heydər Əliyevin dediyi kimi, onlar öz cəsarətli

fəaliyyətləri ilə Azərbaycanda ilk müstəgil demokratik dövlətin qurulması üçün güclü addımlar atdılar. Xalqimiza müstəqillik ənənələri qoyub getdilər.

AXC-nin yaranma tarixinə qisaca nəzər salsaq görərik ki, 1917-ci ilin oktyabrında hakimiyyət çevrilişi nəticəsində Cənubi Qafqazdan Rusiyanın Müəssislər məclisinə seçilən deputatlar Petroqrada və Moskvaya gedə bilmədilər və 1918-ci il fevralın 14- də Tiflisdə Zaqafqaziyanın ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini yaratdılar. Aprelin 9-da Zaqafqaziya seymi Zaqafqaziyanın müstəqilliyini elan etdi və birləşmiş Zaqafqaziya Cumhuriyyəti yaratdıldı. Lakin daxili ixtilaflar, milli çəkişmələr Seymin dağılmasına səbəb oldu və 26 mayda gürcü nümanyədə heyəti Seymdən cıxdıqlarını elan etdilər.

May ayının 28-də Azərbaycan nümayəndələri müstəqil Azərbaycan Cumhuriyyətinin yaradıldığını elan etdilər. 28 may toplantısında "Istiqlal Bəyannaməsi" elan edildi. Istiqlal Bəyannaməsi Azərbaycan demokratiyasi və parlamentarizm ənənələri tarixinin ən parlaq hüquqi sənədi olaraq bu gün də öz tarixi və praktiki əhəmiyyətini saxlamaqdadir. Düzdür, AXC qəbul etdiyi "Istiqlal Bəyannaməsi"ndə əksini tapmiş bütün prinsipləri həyata keçirməyə fürsət tapmamışdır. Lakin mövcud ağır tarixi siyasi şəraitə rəğmən, bütün sahələrdə əzmlə mübarizə aparılmışdır

Azərbaycan Xalq Cumhuriyyətinin parlamenti özünün fəaliyyəti ərzində, o cümlədən 17 aylıq aramsız fəaliyyəti dövründə həyata keçirdiyi müstəqil dövlət quruculuğu təcrübəsi ilə, qəbul etdiyi yüksək səviyyəli qanunvericilik aktları və qərarları ilə Azərbaycan dövlətçiliyi tarixində, xüsusən də Parlament mədəniyyəti tarixində dərin və zəngin iz buraxmışdır.

Azərbaycan Xalq Cumhuriyyəti deklarativ məzmunda bəyan edilmiş dövlət olmamaqla bərabər, bütün dövlətçilik atributlrina malik Parlamenti, hökuməti, ordusu olan suveren bir dövlətə çevrilə bilmişdi. AXC bir sira dövlətlər tərəfindən de-fakto tanınmış, Bakida bir çox dövlətlərin konsulluqları fəaliyyətə başlamışdır. Sovet işğalı ilə milli müstəqilliyini itirsə də artıq Azərbaycan bir siyasi faktor kimi dünya siyasi arenasına daxil olmuş, beynəlxalq münasibətlər sistəmində iştirak etmişdir. Bu isə XX əsrin sonunda Azərbaycanın yenidən müstəqillik qazandığı dövrdə onun Dünya siyasətinə keçmişdə müstəqil demokratik dövlət quruculuğuna sahib olmuş, sivil dövlət qurmaq və demokratik adımlar atmaq təcrübəsinin olduğunu dunya dövlətlərinə xatırlatmaq baxımından çox əhəmiyyətli və vacib faktor idi.

Çox qisa bir dövr mövcud olmasına baxmayaraq, Azərbaycan Xalq Cumhuriyyəti

Azərbaycan xalqının azadlıq hərəkatı tarixində dərin iz buraxdi və 70 illik Sovet müstəmləkə rejimi belə xalqın azadlıq ideallarının və müstəqil dövlətçilik ənənələrinin məhv edilməsinə nail ola bilmədi. Məhz bu səbəbdəndir ki, Sovet rejimi dağılmağa başladığı ilk dövrlərdən artıq Azərbaycanda milli müqavimət hərəkati, müstəqil demokratik dövlət yaradılması uğrundakı qanlı mübarizə ilə paralel olaraq Cumhuriyyət tarixinə maraq da özünü göstərməyə başladı. Əslində Cumhuriyyət tarixi Azərbaycan xalqının milli azadlıq hərəkatının və milli- Dövlətçilik ideyalarının bir növ Fəaliyyət Nəzəriyyəsini təşkil edirdi.

1920-ci ildə işğala məruz qalmasi və Cumhuriyyətin devrilməsi ilə müxtəlif təkliflər və layihələr rəsmiləşmədən yarımçıq qalmışdir. Bunların bir çoxu Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra reallaşmışdır. Azərbaycan Respublikasi Prezidenti Ilham Əliyevin 10 yanvar 2018 il tarixli Sərəncamına əsasən cari ilin ölkəmizdə AXC ili elan edilməsi dövlət başçısının Cumhuriyyət tarixinə verdiyi yuksək qiymətdir.

Müasir dövrdə hər il 28 may Cumhuriyyət gününün Dövlət səviyyəsində qeyd edilməsi, AXC dövründə qəbul edilmiş dövlət atributlarının yenidən bərpası, Cumhuriyyət xadimlərinin həyat və fəaliyyətlərinin öyrənilməsi və bir sira bu kimi nümunələr Azərbaycan Respublikasinin etibarlı siyasi varis olmaqla bərabər, bir kərə yüksələn Bayrağımızın bir daha enməyəcəyinin təminatçısı olan Dövlətimizin istər daxili, istrsə də xarici siyasətindəki nailiyyətləri onun eyni zamanda ləyaqətli davamçısı olduğunun gostəricisidir.

## AXC AZƏRBAYCANIN DÖVLƏTÇİLİK TARİXİNDƏ YENİ MƏRHƏLƏDİR

***Abbaszadə N.M.***

*Sumqayıt Dövlət Universiteti*

Çar Rusiyasının XIX əsrin əvvəllərində Azərbaycanı işğal etməsi nəticəsində dövlətçilik ənənələri əlindən alındı. Lakin zaman öz sözünü deyərək, XIX əsrin son rübündə Azərbaycan xalqını dövlətçilik tarixinə yeni bir səhifə açmaq yoluna səfərbər etdi.

Ə.Hüseynzadə, Ə.Topçubaşov, Ə.Ağaoğlu və M.Rəsulzadə kimi milli məfkurə sahiblərimizin ətrafında sıx birləşərək millət halına gələn türk-müsəlman əhalisi siyasi oyanış hərəkatı qaldırmaqla xalqlar həbsxanasına çevrilmiş müstəmləkəçi bir imperiyanın-çarizmin tarix səhnəsindən silinməsində fəal rol oynadı. Tarix boyu siyasi müstəqilliyi hər şeydən uca tutmaqla işğalçıya baş əyməyən XIX əsrin II yarısında formalşma mərələsini uğurla başa çatdıran Azərbaycan milləti cəmi 23 ay yaşamasına rəğmən nəinki bizlərə, hətta Qocaman Şərqə demokratik siyasi idarə etmə sistemini bəxş etmiş özünün müasir dövlətini-Azərbacan

Xalq Cümhuriyyətini qurdu.

XIX əsrin son rübündə Şimali Azərbaycanda başlanmış milli oyanış hərəkatı inkişaf edərək ( XX əsr dövlətçilik tariximizin I dövrü XIX əsrin sonundan başlayaraq AXC-nin elan edilməsinədək olan dövrü əhatə edir) nəhayət 1918-ci ilin may ayının 28-də Azərbaycan Xalq Cümhuruyyətinin tarix səhnəsində görünməsi ilə nəticələndi ki, bu da Azərbaycanın XX əsr dövlətçkilik tarixinin yeni dövrünün başlanması ilə də müşaiyət olundu.

1918-ci ilin mayın 26-da Zaqafqaziya Seyminin dağılması nəticəsində meydana çıxan AXC heç də yox yerdən yaranmamış, qədim-orta əsrlər dövrü dövlətçilik ənənələrimizi dirçəldərək, müasir dünya siyasətinin tələblərinə uyğunlaşdırmaqla formalşmışdı. Ə.Hüseyinzadənin türk-müsəman dünyasının devizinə çevrildiyi türkləşmək, islamlaşmaq və müasirləşmək ideyalarını əsas götürən Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk günlərdən çarizmi, və onun varisi Müvəqqəti hökuməti alman diplomatiyasının gücü ilə devirərərək Rusiyada bərqərar olan bolşevik diktaturasının, eləcə də Azərbaycan dövləçiliyinin yenidən bərpası ilə heç vəchlə barışmaq istəməyən İran diplomatiyasının hərbi-siyasi təzyiqləri ilə qarşılaşmışdı. Bu hərbi-siyasi basqı altında, eləcə də Qərb diplomatiyasının təzyiqləri üzündən AXC iqtidarı tarixi topağımız olan Qərbi Azərbaycanın döyünən ürəyi İrəvanı ermənilərə güzəştə getməklə əzəli ərazilərimizdə möhtərəm Prezidentimiz İ.Əliyevin vurğuladığı kimi erməni idarəçiliyinin-“Daşnaksütyun”un yaranışına imza atmağa məcbur edilmişdi . Qərbdən xüsusi dəstək almaqla, onun diktəsi ilə hərəkət edən İran diplomatiyasının təzyiqləri altında Milli Hökumət kabinetlərimiz beynəlxalq almədə Azərbaycan milli dövlətini AXC-kimi deyil, Qafqaz Azərbaycanı kimi təqdim etməyə də məcbur qalmışdı.

Qafqaza gəlmə etnik element olan, çar I Pyotrın(1682-1725) vəsiyyəti əsas olmaqla XIX əsrin 20-40-cı illərindən etibarən Azərbaycanda kompakt halda yerləşdirilən ermənilər Azərbaycan Xalq Cümhuruiyyətinin Ümumqafqaz evi yaratmaq siyasətini dəfələrlə pozmuşdular. Bununla kifayətlənməyərək Azərbaycanın dilbər güşəsi Dağlıq Qarabağa, tarixi türk yurdu Naxçıvana belə ərazi iddiaları irəli sürmək kimi qədim və orta əsrər dövründən süzülüb gələn çirkin niyyələrindən əl çəkməmiş, 1919-cu ildə çağırılmış Paris sülh konfaransında da bu ərazilərlə bağlı iddilar qaldırmışdılar. Paris sülh konfransında İran diplomatiyası da həyasızcasına Şimali Azərbaycan ərazilərini öz əzəli torpaqları kimi təqdim etməyə çalışmışdı. Görkəmli ictimai-siyasi xadim, Ə.Topçubaşovun başçılıq etdiyi AXC nümayəndə heyəti İranın bu mənfur və hiyləgər diplomatik gedişin tarixi gerçəkliyə

söykənmədiyini beynəlxalq hüquq normaları çərçivəsində sübuta yetirməsi İran tərəfini geri çəkilməyə vadar etmişdi. Nümayəndə heyətimizin gərgin əmək sərf etməsi 1920-ci ilin yanvar ayının 11-də AXC-nin beynəlxalq aləmdə de-fakto tanınmasına gətirib çıxarmışdı. AXC-nin beynəlxalq aləmdə faktiki olaraq rəsmən tanınması ilə bu günkü dövlətçilik prinsplərimizin təməl daşı qoyulmuşdur.

AXC-nin ölkədaxili dövlət quruculuğu məsələləri istiqamətində gördüyü işlərə gəldikdə isə bu sahədə bir çox çətinliklərin olmasına rəğmən, bir sıra uğurlu addımların atıldığını xüsusi ilə qeyd edə bilərik. Şərq dünyasının ilk demokratik dövləti kimi dünya tarixində yer alan Azərbaycan Xalq Cümhuruyyəti cəmi 23 ay yaşamasına baxmayaraq, yarandığı andan tarixi dövlətçilik ənənələrimizi əsas götürməklə milli dövlət quruculuğu işlərini həyata keçirməyə başlamışdı. 1918-ci ilin may ayının 28-də özünün "İstiqlal Bəyannaməsi"ni elan etməklə qurulmuş AXC, iki gün sonra, teleqraf vasitəsi ilə Azərbaycan Xalq Cümhiriyyəti adlı müstəqil bir türk dövlətinin Qafqazda qərar tutmasını bütün dünyaya bəyan edərək milli dövlət idarəetmə sistemini formalşdırmağa başlamışdı. İyun ayının 4-də Osmanlı imperatorluğu ilə sülh və dostluq haqqında Batum müqaviləsi imzalanmış, bununla da AXC-nin beynəxalq aləmdə və dövlətlərarası diplomatik münasibətlərdə tanınmasının əsası qoyulmuşdu. Alman və rus diplomatiyasının təzyiqi ilə Tiflisi tərk edən F.Xoyskinin başçılıq etdiyi ilk Hökumət Kabineti uzun müddətli olmamış, iyun ayının 17-də yerli mühafizəkar qüvvələrin işə qarışması ilə buraxılaraq yenidən təşkil edilmişdi. Hərbi-siyasi təzyiqlər üzündən Müvvəqəti Milli Şuranın fəaliyyətini dayandırmasından irəli gələrək ölkənin bütün dövlət quruculuğu məsələləri F.Xoyskinin başçılıq etdiyi II Hökumət Kabinetinin əlində cəmləşmişdi.

Ümumiyətlə 23 aylıq fəaliyyəti dövründə AXC-nin yaratdığı yeni dövlət qurumları Azərbaycanın dövlətçilik tarixində xüsusi əhəmiyyət kəsb edir.

## AXC-nin TARİXİNİN ÖYRƏNİLMƏSİNDƏ M.Ə.RƏSULZADƏNİN ƏSƏRLƏRİNİN MƏNBƏ KİMİ ƏHƏMİYYƏTİ

***Abdullayev N.M.***

*Sumqayıt Dövlət Universiteti*

Bütün müsəlman şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin müstəqillik tarixinin 23 ayı ərzində Azərbaycan hökuməti respublikanın ərazisinin, dövlət sərhədlərinin ədalətli, xalqın mənafeyinə uyğun şəkildə müəyyən edilməsi

uğrunda gərgin mübarizə aparmış və az bir vaxtda tarixi əhəmiyyətə malik bir çox məsələləri həll edə bilmişdi. Lakin buna baxmayaraq, hökumətin elan etdiyi və nəzərdə tutduğu tədbirlərin bir çoxunun həyata keçirilməsi mümkün olmamışdı. Problemə bu konsepsiyadan yanaşdıqda Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkülü, fəaliyyəti, habelə onun qarşılaşdığı maneələr və süqutu ilə bağlı materialları tam şəkildə özündə əks etdirən mühacir tarixşünaslığın, o cümlədən də Məmməd Əmin Rəsulzadənin əsərlərinin öyrənilməsi hər zaman aktual olaraq qalmaqdadır.

Öz taleyini milli-azadlıq mübarizəsi ilə bağlamış və Cümhuriyyətin süqutundan sonra xaricə getməyə məcbur olmuş M.Ə.Rəsulzadənin elmi-siyasi fəaliyyətinin əsasını AXC ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması təşkil etmişdir.

Həyatının ən ağır günlərində yazdığı və 1925-ci ildə İstanbulda nəşr etdirdiyi "Əsrimizin Səyavuşu" əsərində M.Ə.Rəsulzadə Cümhuriyyətin süqutunun səbəblərini araşdırmağa çalışmışdı. O, kitabın "Cümhuriyyətin bəxtsizliyi" adlı fəslində milli hökumətin devrilməsinə, Azərbaycanda bolşevik hakimiyyətinin bərqərar olmasına gətirib çıxaran obyektiv və subyektiv amillərə diqqət yetirmiş, Azərbaycana münasibətdə beynəlxalq qüvvələrin,xüsusən də İranın, Türkiyənin və Rusiyanın mövqelərini tutarlı dəlillərlə əsaslı şəkildə qeyd etmişdi. Müəllif bir tərəfdən Denikinin, o biri tərəfdən bolşeviklərin zərbəsi altına düşən, bir tərəfdən şiəliyin təbliği ilə İrana yaxınlaşmaqda, o biri tərəfdən isə Türkiyənin mənafeyinə xəyanət etməkdə təqsirləndirilərək hər tərəfdən sıxılan Azərbaycan Xalq Cümhuriyyətinin ağır vəziyyətini təsvir edərək yazırdı: "Sağından və solundan bir-bir qarışıqlıq şəklində ortaya çıxan "qarabasmalar" min cürə hiylə,fitnə və pis niyyətlərlə Azərbaycanda qatmaqarışıqlıq yaradır, onu rahat buraxmırdılar. Birisi əslində Denikinin siyah örtüsü, digəri isə Leninin qanlı pərdəsi ilə Azərbaycanın ağ gününü qara, mavi səmasını qanlı etmək istəyirdilər. Nəhayət iki qüvvə Azərbaycana qarşı düşmənliklərində əl birliyi edərək dünya millətləri arasında tam bərabərliyə malik bir hüquqla yaşamaq istəyən bu gözəl məmləkətin aydın həyatını bulandırdılar, mühitini qara qırmızı bulutlarla örtdülər". Əsərin "Qatil kimdir" adlı fəslində isə bolşevik siyasəti ifşa olunaraq "Müstəqil Sovet Azərbaycanı" şüarının saxtakarlığı tutarlı dəlillərlə sübut olunurdu. Müəllif qeyd edirdi ki, "Məmləkəti, guya ki, Azərbaycan kommunist partiyası idarə edirdi. Halbuki, bu partiya onun söykəndiyi əksəriyyətlə düşmən və xristian işçidən təşkil olunan Bakı Sovetindən ibarət idi". Yəni imzanı Nərimanlar, Əliheydərlər atırdısa da, hökmləri Mikoyanlar, Çorayevlər və Solovyovlar yazırdı.

Əsərin "Nahaq qan yerdə qalmaz" adlı sonuncu fəslində "Bir kərə yüksələn bayraq, bir daha enməz" fikri azadlıq və istiqlal uğrunda mübarizədə "ya qazi ol, ya da şahid" çağırışı ilə bitir. Proqram əhəmiyyətli bu şüar M.Ə.Rəsulzadənin siyasi bir lider kimi yeni mərhələyə qədəm qoyduğunu bir daha sübut edirdi.

M.Ə.Rəsulzadənin 1923-cü ildə nəşr olunan "Azərbaycan Cümhuriyyəti" adlı əsəri də AXC-nin tarixinin öyrənilməsində əvəzsiz mənbə hesab oluna bilər. Əsər Cümhuriyyətin 23 aylıq fəaliyyətini və bu dövr ərzində aparılmış son dərəcə mürəkkəb, qeyri-bərabər mübarizəni işıqlandıran ilk tarixi sənəddir. Müəllif əsərdə yalnız AXC-nin tarixinə deyil, bütövlükdə Azərbaycan tarixinin bəzi məsələlərinə elmi cəhətdən diqqət yetirir və haqlı olaraq qeyd edir ki, "Azərbaycan dövrü istiqlalına bolşeviklər-Müsavat dövrü deyirlər. O, şimdiki rejimi, Azərbaycan deyə qəbul etmiyor. Fəqət xalq bu dövrə Azərbaycan dövrü deyir. Xalqın düşüncəsində Azərbaycan məfhumu coğrafi bir mənadan ziyadə fikir və əməl şəklində təcəssüm ediyor. İstiqlal xaricində onun üçün bir Azərbaycan yoxdur".

M.Ə.Rəsulzadə digər əsərlərində də Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ilə bağlı məsələlərə toxunmuş və obyektiv şəkildə bu məsələlərə münasibət bildirmişdir. Bu baxımdan "Qafqaz məsələsi ilə əlaqədar panturanizm haqqında" (bu kitab 1930-cu ildə rus dilində buraxılmış, 1985-ci ildə Oksford Universiteti tərəfindən yenidən nəşr edilmişdi), "Azərbaycan və istiqlaliyyəti" (bu kitab 1931-ci ildə Parisdə fransız dilində çap olunmuşdu), "Azərbaycan Respublikası haqqında bəzi qeydlər" (1933-cü ildə Berlində alman dilində nəşr olunub), "Azərbaycan problemi" (1938-ci ildə Berlində alman dilində çap edilib), "Azərbaycanın azadlıq mübarizəsi" (1939-cu ildə Varşavada polyak dilində nəşr olunub), "Çağdaş Azərbaycan tarixi" (İstanbulda 1951-ci ildə nəşr olunub) və s. kimi əsərlərini xüsusi olaraq qeyd etmək lazımdır.

## XALQ CUMHURİYYƏTİ DÖVRÜNDƏ COĞRAFİYA FƏNNİNİN TƏDRİSİNƏ DAİR

***Abdullayeva Z.H.***
*Sumqayıt Dövlət Universiteti*

1918-ci il mayın 28-də ölkəmizdə demokratik yolla milli dövlətimiz – Azərbaycan Demokratik Respublikası yarandı. Çox az ömür sürmüş bu dövlətdə xalq maarifinin milli ruhda, milli məzmunda təşkili və və bəşəri dəyərlər zəmnində inkişafı təmin olundu. ADR maarif sahəsindəki siyasətini həyata keçirmək üçün ən ciddi tədbirlər görə bildi.

ADR dövründə məktəblərdə tədris proqramlarını hazırlamaq üçün fənnlər üzrə bir sıra komissiyalar yaradıldı. Belə komissiyalardan biri tarix-coğrafiya fənləri üzrə yaradılan komissiya idi. Tarix-coğrafiya komissiyasının işinə Pənah Qasımov və Fazil Əfəndi rəhbərlik edirdi.

Həmin tarixi dövrdə coğrafiya müstəqil bir fənn kimi orta məktəblərdə tədris olunmuşdur. Birinci sinfindən dördüncü sinfinə qədər tərtib edilmiş coğrafiya proqramında dünya ölkələri içərisində əsas diqqət türk ölkələrinə və onun coğrafiyasına yönəldilmişdir.Ümumi coğrafiya, türk xalqlarının coğrafiyası üzrə hazırlanmış tədris proqramında fiziki və müqayisəli coğrafiya ləğv edilmişdir. Bu dövrün proqramlarında şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmamış, bir və ikinci siniflərdə tarix, coğrafiya, təbiət fənləri keçilməyə başlanmışdır.

1918-1920-ci illərdə tərtib edilmış birinci real və orta məktəblərin milli siniflərinin, həmçinin milliləşmiş kişi və qadın gimnaziyalarının tədris planında ümumi coğrafiya hazırlıq və VI siniflərdən başqa, qalan siniflərin hər birində həftədə 2 saat olmaqla tədris olunmuşdur. ADR dövründə ümumi coğrafiya fənni milliləşmiş orta məktəblərin tədris planında xüsusi yer tutmuşdur. Beləki, birinci sinifdə Ölkəşünaslıq, ikinci sinifdə Asiya, Afrika, Şərqi Avropa, üçüncü sinifdə Amerika, Asiya, Mərkəzi və Qərbi Avropa, altıncı sinifdə Türk ölkələrinin coğrafiyası fənni tədris olunmuşdur. Bu da onu deməyə əsas verir ki, ADR dövründə dövlət və hökumət şagirdlərin təkcə Azərbaycan coğrafiyasını deyil, habelə dünya coğrafiyasının da öyrənilməsini zəruri hesab etmişdir.

Böyük çətinliklərə baxmayaraq ADR-nın Maarif Nazirliyi məktəb sahəsində xeyli işlər gördü. Azərbaycanda təhsili ümumavropa səviyyəsinə qaldırmaq üçün 1919-cu ildə Parisdən bir sıra fənnlər üzrə proqramlar cətirtdi.Yeni proqramlar hazırlayarkən köhnə proqramların lazım olmayan və ya bir qismi zəruri olan materialları yeni dövrün tələblərinə cavab verən materiallarla əvəz edilməsi diqqət mərkəzində dururdu. Bu dövrdə əvvəlki illərdən fərqli olaraq fənnlərin materiallarının müvafik ardıcıllıqla düzülməsi, bir fənnin digərinin öyrənilməsinə zəmin yaratması kimi mühüm metodik məsələlərə də böyük diqqət yetirilmişdir.

Azərbaycan xalqı çox çətin, əzablı yol keçsə də, müxtəlif dövlətlər tərəfindən istila olunsa da, heç vaxt özünün mədəni inkişafını dayandırmamış və heç bir istilaçı dövlətin təsiri nəticəsində asimilyasiyaya uğramamışdır. Əksinə, Azərbaycanın məktəb və mədəniyyəti bir çox xalqların elm, tərbiyə və mədəniyyətinin inkişafına kömək etmişdir.

1918-1920-ci illər Azərbaycan tarixinin həm faciəli, həm də şərəfli bir dövrüdür.

## AZƏRBAYCANÇILIQ İSTİQLALÇILIQ DEMƏKDİR

***Adıgözəlov V.V.***
*Bakı Dövlət Universiteti (Qazax filialı)*

Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan dövlətçilik tarixində özünəməxsus yer tutması ilk növbədə onun əsaslandığı nəzəri-ideoloji platforma ilə bağlı olmuşdur. Onu qeyd etmək lazımdır ki, bütün dövlətlər kimi AXC də öz ideoloji təməl prinsiplərinə, ideoloji-siyasi əsaslarına malik olmuşdur. Siyasi ideologiyalar ictimai gerçəkliyə şəxsiyyətlər tərəfindən daxil edilmir, xalqların keçdiyi tarixi inkişaf yolu və ümumdünya tarixinin qanunauyğunluqları ilə şərtlənir. Eyni zamanda ictimai gerçəklikdə mövcud olan ideoloji təməl prinsipləri tarixi şəxsiyyətlər, ideoloqlar tərəfindən sistemləşdirilir və formulə edilir. Azərbaycan Xalq Cümhuriyyətinin nəzəri-ideoloji əsaslarının araşdırılması indiki dövr üçün də aktualdır. Çünki AXC-nin yaranması ilə müasir Azərbaycan dövlətçiliyinin əsası qoyulmuşdur. Onun yaranması ilə ilk dəfə Azərbaycan adını daşıyan bir dövlət tarix səhnəsinə çıxmışdır. Belə bir dövlətin ideoloji əsaslarının öyrənilməsi və təcrübəsinin mənimsənilməsi çox vacibdir. AXC-nin tarixinin öyrənilməsi və onun xadimlərinin əsərlərinin nəzərdən keçirilməsi onu deməyə əsas verir ki, müasir Azərbaycan dövlətçiliyinin, azərbaycançılıq ideologiyasının təməlini istiqlal məfkurəsi təşkil edilmişdir. Belə ki, öz milli istiqlaliyyətini itirmiş xalq öz iqtisadiyyatını, mədəniyyətini və s. inkişaf etdirə bilməzdi. Bu ideya AXC-nin xadimləri tərəfindən dərk edilmiş, formulə edilmiş və tətbiq edilmişdir. M.Ə.Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" əsərində yazırdı: "Xalq düşüncəsində AZƏRBAYCAN məfhumu coğrafi bir mənadan ziyadə fikir və əməl şəklində təcəssüm ediyor. İstiqlal xaricində onun üçün bir AZƏRBAYCAN yoxdur" ideologiyasının başlıca təməl prinsipi olaraq istiqlalçılıq özlüyündə üç mərhələdən keçmişdir:

Cümhuriyyətəqədərki dövr.

Cümhuriyyət dövrü.

Cümhuriyyətin süqutundan sonrakı dövr.

Cümhuriyyətəqədərki dövrdə istiqlalçılıq ideyaları üçün ictimai zəmin hazırlanırdı. İstiqlal məfkurəsi üçün sosial zəmin xalqın milli özünüdərk prosesi idi. XX əsrin əvvəllərində xalq özünü müsəlman kimi dərk edirdi. Muxtariyyat, türkçülük, istiqlalçılıq ideyaları yenicə yayılaraq müzakirə mövzusuna çevrilirdi. M.Ə.Rəsulzadə 1925-ci ildə

yazdığı “İstiqlal məfkurəsi və gənclik” əsərində AXC-nin yaranmasından əvvəlki dövrdə mövcud olan siyasi düşüncə vəziyyətini belə təsvir edir: “Bizdə milliyyətpərəstlik hissiyyatı ibtida öz azadlıq və istiqlalımızı və hətta bütün türklərin xilasını hədəf qılmaq surətilə deyil, müstəqil və yarımmüstəqil bir halda yaşayan digər islam və türk dövlətlərinə qarşı səmimi hissiyat və əlaqə göstərməklə təzahür etmiş, siyasi təmayüllərimiz bir çox zaman bu hüdudu keçməmişdir”. Göründüyü kimi AXC-nin yaranmasınadək olan dövrdə ictimai fikirdə özünə yer tapmış bir istiqlal ideyasından danışmaq mümkün deyildi 1917-ci ilin aprelində keçirilən Qafqaz müsəlmanlrının Bakı qurultayı, eləcə də, 1918-ci ilin mart-aprel aylarında bolşevik-daşnak qrupunun azərbaycanlılara qarşı törətdiyi qırğınlar eyni zamanda onlarla birlikdə və əlaqəli şəkildə baş verən digər hadisələr xalqda istiqlal şüurunun oyanmasına gətirib çıxarmışdı. AXC-nin mövcudluğu dövrü istiqlal ideyasının reallaşdığı dövrdür. Ancaq, bu reallaşma əvvəlcədən ictimai şüurda möhkəmlənmiş bir istiqlal məfkurəsi ilə şərtlənmişdi. Həmin dövrdəki Azərbaycan ictimai fikri istiqlal faktı qarşısında qalmış, bir növ “azadlığa məhkum” olunmuşdu. Belə ki, sözügedən dövrdə I dünya müharibəsi, Qafqazda baş verən bir sıra hadisələr Azərbaycan istiqlalının elan olunmasını tarixi zərurətə çevirmişdi. Belə demək mümkündürsə ictimai tarixi proses istiqlal məfkurəsini Azərbaycan ictimai fikrinə məcburi şəkildə qəbul etdirmişdir. M.Ə.Rəsulzadə “İstiqlal məfkurəsi və gənclik” əsərində yazmışdır ki, etiraf etməliyəm ki, müstəqil Azərbaycan hökumətini idarə edən ziyalılarımızdan bir çoxu bir gün gəlib də milli bir hökumət başında duracaqlarını düşünmüş deyillərdi. Cümhuriyyət dövründə istiqlal şüurunun zəif olması xalqın müxtəlif təbəqələri içərisində, eləcə də Azərbaycan ictimai fikrində kök sala bilməməsi AXC-nin süqutunun əsas səbəblərindən biri olmuşdur. AXC-nin süqutundan sonrakı mərhələdə istiqlalçılıq anlayışı daha da dərinləşmiş, getdikcə əhalinin geniş təbəqələrinin şüurunda dərin iz buraxmışdı. Azərbaycan ictimai fikri AXC dövründə müəyyən qədər istiqlal ideyalarını mənimsəmiş, Rusiyanın işğalına məruz qaldıqdan sonra yadeli əsarəti istiqlal ideyasının möhkəmlənməsinə səbəb olmuşdu. Bu məsələdə bolşevik qarət və talanları, kommunuzm ideologiyasının Azərbaycan mühitinə yad ideologiya olması, bolşeviklərin əhali ilə qeyri-insani rəftar etməsi də mühüm rol oynamışdı. Bütün bunların nəticəsində xalq öz milli kültürünə və dininə daha dərindən bağlanmışdı ki, bu da XX əsrin sonlarında yenidən oyanan istiqlal ideyalarının əsas qaynaqları idi. M.B.Məmmədzadə 1929-cu ildə “Odlu yurd” jurnalında yazdığı “Azərbyacan həyat və mətbuatından” adlı məqaləsində yazmışdı: “Azəri gəncliyinin sovet məktəblərindən millətçi olaraq çıxmalarının və

məktəblərdə milli ruh hakimiyyətinin səbəbləri araşdırılmaqdadır. Eylul 1928-ci ildə toplanan Bakı müəllimlər qurultayı mühitin, cəmiyyətin, ailə və ədəbiyyatın, sənət teatr və sairənin millətçi ufaq burjua ruhunda olamasından dolayı cocuqların milli və dini ruhda böyüdüklərinin səbəb olaraq irəli sürmüşdü.”. Milli istiqlalın milli ideologiyanın təməl prinsipi kimi qiymətləndirilməsi tamamilə məntiqi və qanunauyğundur. Çünki, ərazi bütövlüyünün təmin olunması, dövlətin dünya birliyində öz layiqli yerini tutması, milli iqtisadiyyatın, sosial həyatın və mədəniyyətin inkişafı milli istiqlaliyyətin qazanılmasından və qorunmasından asılıdır. M.Ə.Rəsulzadə 1929-cu ildə “Odlu yurd” jurnalında yazdığı “Öyrədən bir müsibət” adlı məqaləsində yazır: İstiqlalını qeyb etmək, hürriyyət və hakimiyyətinə həsrət qalmaq... bundan da böyük bir müsibət olarmı?!

## AXC DÖVRÜNDƏ XALQIN MAARİFLƏNDİRİLMƏSİ SAHƏSİNDƏ APARILAN İŞLƏRİN ƏHƏMİYYƏTİ

***Ağayev T.D.***

*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Xalq Cümhuriyyəti (AXC) yarandığı ilk gündən xalqın maariflənd irilməsini özünün başlıca vəzifəsi hesab edirdi. Belə ki, 1918-ci il 30 iyun qərarına əsasən Gəncədə Xalq Maarif Nazirliyinin (XMN) dəftərxanası təşkil edildi. N.Yusifbəyli isə maarif naziri təyin edilmişdi. Xalqın maarifləndirməyə ehtiyacı olduğunu nəzərə alaraq XMN öz fəaliyyətinə Cümhuriyyətin yaranmasına qədərki dövrdə xalq maarifinin vəziyyətini öyrənərək, bu sahədə həyata keçiriləcək vəzifələrin müəyyənləşdirilməsi ilə başladı. Xalq təhsilini sürətlə inkişaf etdirmək üçün XMN islahatlar keçirmək məqsədi ilə qısa müddət ərzində təkliflər hazırlayıb Hökumətə təqdim edir. XMN-nin ilk tədbirlərindən biri 1918-ci il 22 sentyabr sərəncamına əsasən məktəblərin milliləşdirilməsi oldu. Həmin ilin 28 avqust qərarına görə fəaliyyətdə olan bütün məktəblərdə tədris Azərbaycan dilində keçirilməli idi. Başqa millətlərdən olan uşaqlar üçün rus dilində məktəblər açılması nəzərdə tutulmuşdu. Bu məktəblərdə Azərbaycan dilinin tədrisinə xüsusi əhəmiyyət verilirdi. Ana dili həftədə 4 dəfə tədris edilməli idi.

Artıq 1919-cu ilin əvvəllərində xalqın maarifləndirilməsi sahəsində əhəmiyyətli dəyişikliklər baş verdi. Bu zaman artıq Azərbaycanda dövlət hesabına 23 orta ixtisas təhsili məktəbi və 637 ibtidai məktəb fəaliyyət göstərirdi. 1919/1920-ci tədris ilində Azərbaycanın orta məktəblərində təhsil alan 9611 şagirdin 3115 nəfəri azərbaycanlı idi.

Cumhuriyyətə xalq təhsilini milli zəmin üzərində yenidən qurmaq üçün ixtisaslı müəllim kadrlara və dərs vəsaitlərinə böyük ehtiyac var idi. Buna görə də vəziyyətdən yeganə çıxış yolu Türkiyədən müəllim kadrları dəvət etmək və oradan dərs vəsaitləri gətirmək idi. Bundan başqa qısamüddətli kurslar yaradaraq Azərbaycan dilini bilən savadlı şəxslərdən müəllim kadrları hazırlamaq idi. Məktəbləri dərs vəsaitləri ilə təmin etmək məqsədilə XMN xüsusi komissiya yaratmışdı. Həmin komissiyaya dövrün görkəmli pedaqoqları Hüseyn Cavid, Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq, Cəmo Cəbrayılbəyli, Səməd bəy Acalov, Fərhad Ağazadə, Abdulla bəy Əfəndizadə və b. cəlb edilmişdilər.

1919-cu il may ayının 31-də komissiya Bakı Universitetinin yaradılması haqqında qanun layihəsini, onun nizamnaməsini və xərclərini XMN təqdim etmişdi. Universitetin yaradılması haqqında layihə 1919-cu ilin iyul-avqust aylarında qanunvericilik, maliyyə-büdcə komissiyalarında, parlamentin ümumi iclaslarında müzakirə edildi. Universitet komissiyası avadanlıq, təşkilati və quruculuq işlərinə 3,5 mln. rubl verilməsini nəzərdə tuturdu. Maarif naziri Kaplanov həmin məbləği 5 mln.rubl artırmağı lazım bildi.

Bakı Universitetinin yaradılması işində M.Ə.Rəsulzadə, H.Ağayev, Ə.Pepinov, S.Ağamalı oğlu, C.Hacinski fəal iştirak edirdilər. 1919-cu il sentyabrın 1-də parlament Bakı Universitetinin yaradılması haqqında qanunu qəbul etdi. Həmin iclasda 1919/20-ci tədris ili üçün xarici ölkələrin ali məktəblərinə 100 abituriyent və tələbə göndərilməsi haqqında qətnamə qəbul edildi. Bu tələbələr üçün XMN sərəncamına dövlət xəzinəsi vəsaitindən 7 mln. rubl. ayrılırdı. Qanuna görə Universitetdə 4 fakültə açılmalı idi: Tarix-filologiya, tibb, fizika-riyaziyyat, hüquq. Lakin bir il müddətinə iki fakültə üçün (tarix-filologiya, tibb) ştat, smeta müəyyən edildi. Bütün fakültələrdə azərbaycan dilinin keçilməsi məcburi idi. Qəbul zamanı Azərbaycan vətəndaşlarına üstünlük verilirdi. Universitetin açılması Azərbaycan hökumətinin mədəniyyət sahəsindəki böyük qələbəsi idi.

Xalq təhsili məsələləri ilə məşhur müəllim Əlicabbar Orucəliyevin başçılıq etdiyi Bakı Şəhər Dumasının tədris şöbəsi də məşğul olurdu. 1919-cu ilin 15 iyul tarixli iclasında Şəhər Dumasının şəhər məktəblərinin müəllimləri üçün 1600 rubl təqaüd təyin etdi. Bu istiqamətdə Bakı neft-sənayeçiləri də müəyyən addımlar atırdı: onların da məktəblərində müəllimlərin məvacibləri artırılmışdı.

Bakıda məktəb binaları çox pis vəziyyətdə idi. Onların çoxu ya tamamilə dağıdılmış, ya da əsaslı təmiri tələb olunurdu.. Bakı şəhər ibditadi məktəblərində məktəb-sanitar

nəzarətinin təşkil edilməsi üçün hökumət 827,600 rubl vəsait ayırmışdı. Məktəblilərə vətəndaşlar, xeyriyyəçilər və Hacı Zeynalabdin Tağıyev, Ağa Musa Nağıyev, Həmidə Məmmədquluzadə, Murtuza Muxtarov, Şəmsi Əsədullayev kimi mesenatlar da yardım edirdi.

Hökumətin xalq maarifi sahəsində həyata keçirdiyi mühüm tədbirlərdən biri də ibtidai təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi idi. Təkcə 1919-cu ildə Azərbaycanda dövlət hesabına 15 ali ibtidai məktəb fəaliyyət göstərirdi. Cümhuriyyət Hökumətinin həyata keçirdiyi mühüm tədbirlərdən biri də yaşlıların savadlandırılması idi. Bu məqsədlə 1919-cu il sentyabrın 15-dən Bakı, Gəncə, Şuşa, Nuxa (Şəki), Zaqatala və Qazaxda yaşlılar üçün Azərbaycan dilini öyrədən xüsusi kurslar, 1919-cu ilin noyabrından isə Bakıda azərbaycanlı fəhlələr üçün texniki axşam kursları açıldı. Azərbaycan Cümhuriyyəti XMN ölkədə maarifin inkişafi üçün geniş tədbirlər planı hazırlamış, həmin plan Azərbaycan Hökuməti tərəfindən bəyənilmiş və onun həyata keçirilməsinə razılıq verilmişdi. Lakin aprel işğalı (1920) bu planların gerçəkləşdirilməsini yarımçıq qoydu. AXC Hökumətinin cəmi 23 aylıq fəaliyyəti dövründə təhsil sahəsində həyata keçirdiyi tədbirlər sonralar Azərbaycanda xalq maarifinin təşkili və inkişafına mühüm kömək göstərdi.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ SİYASƏTİ

***Alməmmədli M.G.***

*Sumqayıt Dövlət Universiteti*

Müsəlman Şərqində ilk parlament respublikası - Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, müasir dövrə xas dovlət təsisatlarının yaradılmasına nail olmuşdu. Azərbaycan Xalq Cümhuriyyətinin öz dövlətçilik atributlarını qəbul etməsi, dövlət və hərbi quruculuq, iqtisadiyyat və mədəniyyət, təhsil və səhiyyə sahələrində atdığı addımlar xalqımız üçün taleyüklü əhəmiyyət kəsb etmişdir.

Şərqdə ilk demokratik dövlət quruluşunu yaradan Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək xalqımızın müstəqillik əzmini nümayiş etdirmişdir. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi.

Mürəkkəb problemlərlə üzləşən AXC hökumətinin qarşısında duran mühüm vəzifələrdən biri də xalqın sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq, milli mədəniyyəti inkişaf etdirmək üçün tədbirlər görmək idi.

Cümhuriyyət hökuməti bolşevik-daşnak talanları nəticəsində dağılmış iqtisadiyyatı bərpa etməyə başladı. Hökumətin iqtisadi siyasəti dövlətimizin inkişafına və xalqın rifahını yüksəltməyə yönəlmişdi. Əhalinin ərzaqla fasiləsiz təmin edilməsi, bahalığın qarşısının alınması üçün 1918-ci il iyunun 27-də hökumət taxıl, mal-qara və digər ərzaq məhsullarının ölkədən kənara çıxarılmasını qadağan edən qərar qəbul etdi. Başqa bir qərarla respublika ərazisində azad ticarətə icazə verildi.

Hökumət iqtisadiyyatın əsas sahəsi olan neft sənayesini dirçəltməyə xüsusi diqqət yetirirdi. Hökumət 5 oktyabr 1918-ci il tarixli fərmanla Bakı XKS-in milliləşdirilmə haqqında dekretlərini ləğv etdi. Bütün neft mədənləri, fabrik-zavodlar, ticarət gəmiləri əvvəlki sahiblərinə qaytarıldı. Xarici şirkətlərlə neftin satışına dair sazişlər bağlandı. Rusiya bazarı itirildiyindən Azərbaycan neftinin qonşu ölkələrə və Batum limanı vasitəsilə Qərbi Avropaya ixracı qaydaya salındı.

1918-ci ilin sentyabrında Bakı bonu adlı milli pul vahidi dövriyyəyə buraxıldı. Bir il sonra Dövlət bankı yaradıldı. Milli sahibkarlar müstəqil dövlətin yaranmasını böyük sevinclə qarşıladılar. Hacı Zeynalabdin Tağıyev AXC-ni "doğma Vətənimizin üzərində parlayan müstəqillik günəşi" adlandırmış, özünün bütün iqtisadi və maliyyə imkanlarını Cümhuriyyətin inkişafına yönəltmişdi. O, hökuməti azad sahibkarlığı və sərbəst iqtisadiyyatı qorumağa və inkişaf etdirməyə çağırdı: "Azad sahibkarlar dövlətin dostu və dayağıdır".

## AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI DÖVRÜNDƏ ƏLİFBA İSLAHATI MƏSƏLƏSİ

***Aslanov A.H.***

*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Demokratik Respublikası dövründə əlifba islahatı məsələsi dövlət səviyyəsində qoyulmuş və müsbət həll edilmişdi. Gənc Azərbaycan dövləti təhsil sistemini milliləşdirmiş, bir sıra yeni məktəblər açmış, xalqın savadlanmasına nail olmaq üçün konkret tədbirlər işləyib hazırlanmışdı. Hökümət xaricdən xüsusən Türkiyədən xeyli dərsliklər gətirmiş və müəllimlər dəvət etmişdi. Xaricdən gətirilən çap məhsullarını gömrük

rüsumlarından azad etmiş, kitab və qəzet nəşrini genişləndirmək üçün Batumdan türk, ərəb şriftləri gətirmişdi. Lakin ADR-in öz yüksək intelektual səviyyəsi ilə seçilən dövlət xadimləri, maarif və mədəniyyət işçiləri başa düşürdülər ki, çətin öyrənilən, dövlət idarələrində geniş işlədilməsi mümkün olmayan ərəb qrafikası ilə işi tez bir zamanda görmək, xalqı bütövlükdə savadlandırmaq mümkün deyildir. Latın qrafikasına əsaslanan yeni Azərbaycan türk əlifbasının tərəfdarları ilə əski əlifbanın müdafiəçələri arasında gərgin mübarizə başlandı.

Əlifba islahatı məsələsi 1918-ci ilin dekabrında Bakıda keçirilən müəllimlər seminarları və direktorlarının, xalq məktəbləri və ali ibtidai məktəblərin inspektorlarının qurultayında da qoyulmuşdur.

Qurultay maarif nazirinin müavini H.Şahtaxtlının sədrliyi ilə keçən 1918-ci il 22 dekabr tarixli iclasını türk-Azərbaycan əlifbasının yararsızlığı haqqında məsələ qoyaraq, bu əlifbanı, demək olar, bütünlüklə yarıtmaz hesab etmişdir. Buna görə də qurultay əlifba islahatının tərəfdarı olan Abdulla bəy Əfəndiyevə təklif etdi ki, bu məsələyə dair layihə hazırlayıb nazirliyə təqdim etsin.

Qeyd etmək lazımdır ki, nəzərdən keçirdiyimiz dövrdə əlifba islahatı Türkiyədə də müəyyən elmi və hökümət dairələrində fikirləri məşğul edən bir məsələ idi. “Azərbaycan” qəzetində İstanbul ovqaf nəzarətində müdir müavini Əli Nüsrətin məlumatı nəşr edilmişdir. Əlifba islahatı ilə əlaqədar geniş ictimaiyyətdə, hökümət dairələrində, parlament iclaslarında, mətbuat səhifələrində qızğın mübahisələr gedirdi. Əski əlifba tərəfdarları öz fikirlərini bu dəlillərlə əsaslandırırdılar ki, bizim müqəddəs kitablarımız bu əlifba ilə yazılmışdır. Azərbaycan xalqı özünün çoxəsrlik mənəvi sərvətlərini bu əlifba ilə yaratmışdır. Yeni əlifbaya keçilməsi bizi öz ədəbiyyatımızdan, zəngin mənəvi sərvətlərimizdən ayrı salar, biz islam aləmindən, Şərq mədəniyyətindən ayrı düşərik və s.

Lakin yeni əlifba tərəfdarları daha güclü, daha qətiyyətli çıxdılar. Başlıcası isə parlamentdə və hökumətdə daha böyük dayağa malik idilər. Öz mahiyyətinə, fəaliyyət istiqamətinə görə maarifçi hökümət olan ADR höküməti bu məsələni operativ surətdə həll etdi. Nazirlər Şurası 1919- cu il 21 mart tarixli iclasında ərəb əlifbasının iclası haqqında Yollar Nazirinin məruzəsini dinləyərək, qərara aldı: “Ərəb əlifbasını islah etmək üçün hökumətin üzvü X.b.Məlik–Aslanovla birlikdə Yollar Nazirinə tapşırılsınki, xüsusi komissiya yaratsınlar və bu komissiyanın rəyini Nazirlər Şurasının sədrinə çatdırsınlar və bu komissiyanı yaratsınlar. Bu barədə “Bakı fəhlə konfransının əxbarı” qəzetinin 1919-cu il 19

iyun tarixli nömrəsində belə bir məlumat verilmişdi: “Yeni əlifbanı müayinə və tənqid etmək üçün Bakıda xüsusi bir komissiya yaradılmışdır”

1919-cu ilin avqustun 19-da Bakı bələdiyyə idarəsinin binası da əlifba islahatı ilə bağlı bir yığıncaq keçirilmişdi. Bu yığıncağın materiallarından məlum olur ki, komissiya bu məsələylə yaxından məşğul olur. Komissiya müxtəlif şəxslər tərəfindən təqdim olunmuş lahiyələri müzakirə etmişdi. Komissiyaya üç layihə təqdim olunmuşdu: biri Məhəmməd ağa Şahtaxtlı tərəfindən, digəri müəllim Abdulla bəy Əfəndiyev tərəfindən və üçüncü tələblər Abdulla Tağızadə və Əziz Seyidov tərəfindən. Təqdim olunan bu layhələr bir-birindən prinsipcə fərqlənirdi. Bunların fərqi onda idi ki, hurufatın əsaslandırılması ilə bərabər, Avropa mədəniyyətinə yaxın olmaq və ona görə də yeni əlifbanı Avropa millətlərindən almaq məqsədini güddüyü halda, digəri əlifbanı ancaq asanlaşdırmağı arzuladığından müəyyən bir millətdən alınmış əlifbanı deyil, müxtəlif dillərdən toplanmış olan qarışıq əlifba əsas götürürlmüşdü. Hətta Məhəmməd ağa Şahtaxtlı heç bir milli əlifbaya bağlı olmayan müstəqil bir əlifba meydana çıxarmışdı.

Bu əlifbaları birləşdirən cəhət isə bu idi ki, onlar yazının asanlaşmasını, tədrisin tələblərinə, pedaqogika qanunlarına müvafiq olmasını nəzərdə tuturdu.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN MİLLİ KADR HAZIRLANMASI HAQQINDA

***Aydəmirova F.B., Dadaşova X.Q.***

*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

Milli kadrların hazırlanması Cümhuriyyət qarşısında duran ən mühüm məsələlərdən biri idi. Bu problemi dövlət xaricə tələbələr göndərmək ilə həll etməyə çalışırdı. 1918-ci il iyulun əvvəllərində Maarif Nazirliyi, Respublikanın Xarici İşlər Nazirliyi qarşısında Azərbaycandan tələbə qəbulu üçün qonşu dövlətlərin hökumətlərinə müraciət məsələsini qaldırmışdı. Türkiyə, Almaniya, Avstriya-Macarıstan, azərbaycanlı gənclərin onların ölkəsində ali təhsil almalarına razı olduqlarını bildirmişlər. Respublika hökuməti birinci növbədə xaricə oxumağa ancaq imkanlı olan tələbələri göndərməyi nəzərə almışdı. Bununla belə yoxsul valideynlərin bilikli uşaqlarının da xaricə təhsil almaq üçün göndərilməsinə şərait yaratmışdı. Bu məqsədlə hökumətin 1918-ci ilin 29 oktyabrında qəbul etdiyi qərarda xaricə göndərilən tələbələrə təqaüd verilməsi üçün 129 min 600 rubl məbləğində pul ayrılmış və qərarda həmin təqaüdün yoxsul uşaqlar üçün verilməsi nəzərdə tutulmuşdu.

Gənclərin xaricə göndərilməsi bütün Respublika ictimaiyyətini, təşkilatları, dövlət parlamentini, valideynləri düşündürür, onlar müxtəlif instansiyalara müraciət edirdilər. Azərbaycanlı tələbələrin İcraiyyə Komitəsi özünün 1919-cu il 4 iyul tarixli fövqəladə yığıncağının qətnaməsində bu məsələnin zəruriliyini irəli sürərək qərara almışdı ki, "... Azərbaycanın ziyalı, milli kadrlarının azlıq təşkil etdiyini, təbii sərvətlərinin çox olduğu bu ölkənin ali texniki təhsilli mütəxəssislərə olan ehtiyacını və gələcəkdə bu gənclərin, hazırki ictimai və dövlət xadimlərini əvəz edəcək qüvvələr olduğunu, lakin onların hazırda Zaqafqaziyada açılmış və gələcəkdə açılacaq təhsil ocaqlarına daxil ola bilməmələrini nəzərə alaraq qeyd edirik ki, onların xarici ölkələrdə təhsil almaq məsələsinin tezliklə həll edilməsi hökumət qarşısında bütün kəskinliyilə qaldırılsın. Biz qəti inanırıq ki, hökumət tələbə və abituriyentlərə öz təhsillərini başa çatdırmaqla hərtərəfli kömək edəcəkdir.

Rəsmi hökumət orqanı olan "Azərbaycan" qəzetində bu haqda aşağıdakı məlumatlar verilirdi: "Xaricə göndərilənlərdən təbiət elmləri üzrə 8 nəfər, fəlsəfə üzrə 7 nəfər, hüquq ixtisası üzrə 6 nəfər, tarix-filologiya ixtisası üzrə 5 nəfər, dağ-mədən ixtisası üzrə 7, mexanika üzrə 11 nəfər, kimya üzrə 3 nəfər, elektrotexnika üzrə 8 nəfər, mühəndis və tikinti üzrə 4 nəfər, yollar üzrə 6 nəfər, kənd təsərrüfatı üzrə 10 nəfər, iqtisadiyyat üzrə 5 nəfər, gəmiqayırma üzrə 4 nəfər, təyyarə üzrə 2 nəfər, aqronomiya və torpaq üzrə 3 nəfər, siyasət üzrə 3 nəfər, nəzərdə tutulurdu Lakin xaricə göndərilən tələbələrin sayı bu rəqəmlərdən iki dəfə çox olmuşdu. Respublika gənclərinin xaricə təhsil almaq üçün göndərilməsi qərarını qəbul etmiş hökumət həm də nəzərə almışdı ki, " xaricə getmək üçün heç də bütün abituriyent və tələbələr vəsaitə malik deyildilər, çoxlarının buna maliyyə qüvvəsi çatmırdı. Bunu nəzərə alan Xalq Təhsili Nazirliyi, Parlamentin müzakirə və təsdiqinə xaricə gedən tələbələr üçün 1919-1920-ci tədris ili üçün 410 min frank pul buraxılması təklifini verir. Həmin məbləğ xaricə göndərilən 103 nəfərin xərcini ödəməli idi. Həmin məbləğdən hər tələbə və abituriyent üçün 3600 frank, ümumi xərcə, 50 frank isə yol xərci hesabından verilirdi. Bu xərc o dövrün qiymət miqyası ilə demək olar ki, ən aşağı xərc hesab edilirdi. Yuxarıda dediyimiz kimi gənc hökumətin artıq xərc çəkməyə imkanı yox idi. Təqaüd verilən tələbələr təhsili başa vurduqdan sonra dörd il Azərbaycanda işləməli idilər. Azərbaycan Parlamenti 1919-cu ilin sentyabrın 1-də Xalq Maarif Nazirliyinin təklifini müzakirə etdikdən sonra qəbul etdiyi qərarda göstərilirdi:

1. "Dövlət xəzinəsi hesabından 1919-20-ci dərs ilində 103 nəfər tələbə və abituriyentin xaricdə təhsil alması üçün Xalq Təhsili Nazirliyi sərəncamına yeddi milyon

manat pul buraxılır, bu pulun hər tələbəyə və abituriyentə hər ay 400 frankı ümumi xərc üçün, 1000 manatı isə yol xərci kimi ayrılır. Rusiya ali məktəblərində oxumağa gedənlər üçün isə 3 min manat aylıq, 3 min manat isə yol xərci kimi ödənilir.

2. Hökumət hesabına təqaüd alan tələbələr təhsil müddətini qurtarandan sonra 4 il müddətinə hökumət harada istəsə orada işləməli idi."

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ SİYASƏTİ

**_Babaşova Ə.A._**
*Sumqayıt Dövlət Universiteti*

Rusiya imperiyasının dağılması ilə milli ucqarlarda, o cümlədən Azərbaycanda da azadlıq mübarizəsi gücləndi. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. AXC Azərbaycanda çox sivil Avropa nümunəli dövlət idarəçiliyi yaratmışdı. Azərbaycanı Milli Məclis (Parlament) tərəfindən təşkil olunan və onun qarşısında məsul olan hökumət kabinəsi idarə edirdi. Deməli, Azərbaycan Xalq Cümhuriyyəti parlament respublikası idi. Qısamüddətli mövcudluğu dövründə Xalq Cümhuriyyəti sosial-iqtisadi və mədəni quruculuq sahələrində də mühüm tədbirlər həyata keçirmişdi. AXC, ölkənin daxili sosial-iqtisadi, mədəni həyatının dövlət müstəqilliyi qazanmış Azərbaycan xalqının arzu və istəklərinə müvafiq şəkildə yenidən qurulması sahəsində də xeyli iş görə bilmişdir.

Cümhuriyyət milli siyasət sahəsində Azərbaycanda yaşayan milli azlıqların hüquqlarının tanınmasını, onların milli-mədəni özünəməxsusluqlarının qorunub saxlanılmasını, milli münaqişələrə yol verilməməsini özünün birinci dərəcəli vəzifələrindən sayırdı. Fəhlə məsələsində, əmək azadlığını təmin edəcək fəhlə qanunvericiliyinə xüsusi diqqət yetirilirdi. Hökumət bəyanatında xalq maarifi sahəsi üzrə nəzərdə tutulan tədbirlərə də toxunulurdu. Bu sahədə, ümumi icbari təhsil haqqında qanun layihəsinin hazırlanması, ibtidai və orta məktəblərin milliləşdirilməsi, milli azlıqların rus və ana dilində təhsil almaq hüququnu təmin edən imtiyazlırının saxlanılması və s. zəruri hesab olunurdu. AXC qısa müddət yaşasa da, Quzey Azərbaycanında maarif və mədəniyyətin inkişafında az iş görmədi. Ölkənin müəllim kadrlarına ehtiyacını nəzərə alan milli hökumət təkcə digər ölkələrdən, başlıcası isə pedoqoji kadrların dəvət olunması ilə kifayətlənməyərək, ölkənin müxtəlif yerlərində kişi və qadın müəllimlər hazırlayacaq bir neçə pedoqoji kurslar təşkil etdi. Azərbaycan parlamentinin 1919-cü il 1 sentyabr tarixli qərarına əsasən həmin ilin

noyabrında Bakıda Darülfünün fəaliyyətə başlaması, dövlət üçün xeyli ağır olan vaxtda bu məqsədlərə xeyli büdcə vəsaitinin ayrılması milli dövlətimizin Vətən elmi və mədəniyyətinin ehtiyaclarına necə böyük qayğı ilə yanaşmasına nümunədir. Müsəlman tarixində ilk dünyəvi ali məktəb olan Bakı Dövlət Darülfünündа işləmək üçün dövrün ən gözəl mütəxəssisləri dəvət edilmiş, M.Ə.Rəsulzadənin özü də burada Şərq ədəbiyatından mühazirə kursları oxumuşdur. Oxumaq üçün xaricə 100 nəfər gənc göndərilmişdi.

AXC dövründə milli teatrın inkişafında müsəlman və türk mədəniyyətinin ayrılması və təbliğində də xeyli iş görülmüşdür. Belə bir məsələyə xüsusi diqqət yetirilməlidir ki, əsrin əvvəllərində yenidən dirçəlmiş milli dövlətimizdə məhz dünyəvi mədəniyyətin formalaşdırılması sahəsində sistemli iş aparılırdı. Teatr, klub və mədəniyyət evlərinin şəbəkəsi genişlənmişdi. Nazirlər kabinəsinin 1919-cu il 17 noyabr qərarı ilə teatr dövlət inhisarına keçirilmişdi.

1918-1920-ci illər milli mətbuatımız da xeyli inkişaf etdirilmişdi. 1919-cu il oktyabrın 15-də Azərbaycan parlamenti «Mətbuat haqqında» qanun qəbul etmişdi. Bu qanun öz forma və məzmununa görə ən demokratik hüquqi aktlardan biri olaraq ölkədə hər cür senzuradan xali olan azad mətbuatın formalaşması üçün əlverişli şərait yaradırdı. 1919-cu ildə Azərbaycanda 80 qəzet və jurnal nəşr olunurdu. Onlardan 39-u milli dildə idi. Kitabxanaların şəbəkəsi artırılmışdı. 1920-ci ildə Azərbaycanda ümumi fondu 95 min nüsxə kitab olan 11 kitabxana fəaliyyət göstərirdi.

Beləliklə, qısa müddət yaşamasına baxmayaraq, XX yüzilliyin başlanğıcında meydana çıxmış Azərbaycan Xalq Cümhuriyyəti ölkənin sosial-iqtisadi problemlərinin həlli və milli mədəniyyətin inkişafı sahələrində xeyli iş görməyə macal tapa bilmişdir. Neft sənayesini bərpa etməyə başlamış, Bakı-Batumi neft kəmərini bərpa etmişdi. Bakı-Culfa dəmir yolunun çəkilişini başa çatdırmışdı, Milli Dövlət Bankını və Teleqraf agentliyini təsis etmişdi. Hökümət respublika sərvətlərinin xaricə daşınmasının qarşısını almışdı. Milli valyutanın (Bakı bonunun) möhkəmlənməsi üçün tədbirlər görmüşdü. Əmək birjaları yaratmış, səhiyyənin qaydaya salınması üçün tədbirlər görmüşdü. Səhiyyə və sosial təminat nazirlikləri yaratmışdı.

Dövlətçilik atributlarına sadiq qalan cümhuriyyət hökuməti xalqda milli ruhu da yüksəltməyə çalışır, özünüdərkə xidmət edən addımları xüsusilə diqqət mərkəzində saxlayırdı. Bunların ən bariz nümunələrindən biri də 1918-ci il iyunun 27-də "Azərbaycan dilinin dövlət dili elan edilməsi haqqında" fərmanın imzalanması idi. Sənəddə deyilirdi:

"Dövləti lisan türk dili qəbul edilərək, irəlidə bütün məhkəmə, idareyi-daxiliyyə və sair dəvair vəzifələri başında duranlar bu lisanı bilənlər olana qədər hökuməti müəssisələrdə rus dili istimalına müsaidə edilsin". Beləliklə, iki il müddətinə ölkədə dövlət orqanlarının işinin tamamilə ana dilinə keçməsi nəzərdə tutulurdu.

Uğursuzluğuna baxmayaraq, cəmi 23 ay fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti tariximizin çox yadda qalan, unudulmaz mərhələsidir. O, istiqlalımızın ən şanlı səhifələrindəndir. Elə səhifələr ki, onlarda Azərbaycan xalqının əzəli arzuları, müstəmləkəçiliyə, əsarətə qarşı, azadlıq və müstəqillik, milli birlik uğrunda şanlı mübarizə uğurları, dönməzliyi əks olunmuşdu. O, Azərbaycan xalqı üçün daim cücərən azadlıq ənənəsi bəxş etmişdi. Kommunist liderlərindən olan, İ.V.Stalinin «bu bir il yarımlıq hakimiyyətiniz ərzində xalqa nə verə bildiniz?» sualına cavabında M.Ə.Rəsulzadə demişdi: «çox şey verə bilmədik... Amma milli azadlığın nə olduğunu başa saldıq. Azca da olsa, milli istiqlal dadızdırdıq. Yüz illik əsarət dərsi ilə iki illik hürriyyət qovğası bizi özümüzə tanıtdı. Bir kərə yüksələn bayraq bir daha enməz!».

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ ORDU QURUCULUĞU VƏ HƏRBİ ƏMƏLİYYATLAR

***Babayeva G.F.***

*Sumqayıt Dövlət Universiteti*

Ümummilli lider Heydər Əliyev demişdir: "Azərbaycan Respublikası öz torpaqlarını qorumaq üçün böyük potensiala malikdir. Onun ən böyük potensialı-bizim vətəndaşların öz vətənlərinə olan sədaqəti və məhəbbətidir. Bu hisslər xalqımızın tarixi qəhrəmanlıq ənənələri ilə doğulmuşdur...". Bizim xalqımızın tarixi qəhrəmanlıq səhifələrindən biri 1918-ci ildə Tiflisdə, 1918-ci il Mayın 28-də əsl vətən fədailərimiz tərəfindən Azərbaycanın 90 il əvvəl itirilmiş müstəqilliyinin bərpası ilə başlandı. 23 üç ay ərzində vətənlərini canlarından çox sevən Azərbaycanın qəhrəman oğulları M.Ə.Rəsulzadə,Fətəli xan Xoyski, Əəlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli və digərləri vətənimizin şanlı dövlətçilik, hərbi,maarif, mədəniyyət,beynəlxalq münasibətlər tarixini yazdılar.

Hərb tariximizi bilmək təkcə ordunun şəxsi heyəti üçün deyil,ümumiyyətlə,bütün vətəndaşlar üçün vacibdir.

1918-ci il may ayının 28-də öz müstəqilliyini elan edən Azərbaycan xalqı öz müqəddaratını özü həll etməli idi. Bunun üçün ilk növbədə güclü nizami ordu yaradılmalı

idi.1918-ci il iyunun 26-da Milli Ordunun yaradılması barədə fərman verildi. AXC hökumətinə Osmanlı imperiyası böyük yardım göstərdi.Müsəlman korpusu “ Əlahiddə Azərbaycan korpusu” adlandırıldı. İyulun 11-də hökumətin fərmanı ilə hərbi səfərbərlik elan edildi.

AXC nümayəndə heyəti ilə Osmanlı dövləti arasında 1918-ci il iyunun 4-də Batumda imzalanmış IV maddəsində deyilir: “ Azərbaycan Hükuməti Cümhuriyyəsi tərəfindən tələb vukunda Hükuməti Osmaniyyə intizam və asayiş-i daxiliyyənin təmin və iadəsi üçün ledel-icab silah qüvvətiylə müavinətdə bulunacaqdır”.(imzaladılar: Azərbaycan tərəfindən M.Ə.Rəsulzadə. Xarici işlər Naziri M.H.Hacınski; Osmanlı tərəfindən Ədliyyə Naziri Xəlil bəy,3-cü ordu komandanı Vehib paşa ). Bu bəndə əsasən nümayəndə heyətimizin rəhbəri M.Ə.Rəsulzadə Osmanlı hökümətindən hərbi yardım istədi.

Nuru paşanın rəhbərlik etdiyi heyət Mosuldan Təbrizə, oradan da Naxçıvana gəldi. Naxçıvanda və Ordubadda bir neçə zabit saxlanıldı ki, mayın 20-dən etibarən yerli hissələrin yaradılmasına başlanılsın. Cəbrayıl-Ağdam,Tərtər,Yevlax-Gəncə marşrutu ilə hərəkət edən heyət hər yerdə yerli dəstələr yaratmaq üçün zabitlər saxlayırdı. Bir çox yerlərdə əhali türk əsirlərini azad etmiş və onlar yerli dəstələr təşkil etmişdilər. Lakin bütün bunlar kifayət deyildi. Nəticədə 3-cü Ordu tərkibindən 5-ci Qafqaz piyada firqəsinin bölmələrinin hissə-hissə Azərbaycana göndərilməsi və burada Müsəlman Korpusu ilə birləşməsi əmri verildi. Beləliklə, 1918-ci ilin iyununda,Azərbaycanla Osmanlı dövləti arasında dostluq haqqında müqavilə imzalandıqdan dərhal sonra Azərbaycan və Osmanlı hərbi hissələrindən Qafqaz İslam Ordusu yaradılmağa başlandı. Orduya rəhbərlik ikili xarakter daşıyırdı:istər türk, istərsə də Azərbaycan hərbi hissələrinin komandirlərinin raportları həm Nuru paşaya, həm də Müsəlman Korpusunun komandanı Əli ağa Şıxlinskiyə göndərilməli idi.

Azərbaycana gəldikdə Qafqaz İslam Ordusunun komandanı Nuru paşa şahidi olmuşdur ki, əhali vuruşmaq əzmindədir və könüllü dəstələr artıq mövcuddur. Azad edilmiş türk əsgərləri yerli dəstələr təşkil etmişdilər.

1918-ci il iyunun 26-da Azərbaycan hökümətinin qərarı ilə Müsəlman korpusunun adı dəyişdirilərək xüsusi Azərbaycan Korpusu qoyulmuşdu.Xüsusi Azərbaycan Korpusunda (komandan Əliağa Şıxlinski ) əvəlki müsəlman korpusuna daxil olan dəstələr yenidən düzənlənərək qərərgah və iki Azərbaycan diviziyası yaradıldı. 1-ci Azərbaycan diviziyası(komandir miralay Cəmil Cahildbəy. Ərkani-Hərb rəisi minbaşı Tahir bəy) üç

piyada alayı və bir sərhəd alayından ibarət omuşdur. Döyüşlərdə rus topları ilə silahlanmış Azərbaycan topçu taqımları və Azərbaycan süvari hissələri fəal iştirak edirdi.

Toplanmış əsgərlər iki hissəyə bölünürdü: türk hissələrinə göndərilən əsgərlər və Azərbaycan hissələrinə göndərilən əsgərlər. Türk hissələrinə göndərilən gənclər doğulduqları yerdən asılı olmayaraq hərbi hissələr arsında bölünür və Gəncədən çağırılmış əsgər şəkidən və Qazaxdan olan əsgərlə bərabər türk hərbi hissələrinə göndərilir və türk əsgərləri ilə çiyin-çiyinə vuruşurdu.

Toplanmış könüllülərin Azərbaycan hissələrinə bölüşdürülməsi isə ərazi prinsipi əsasında aparılırdı: Qazax qəzasından toplanmış gənclər -1-ci piyada alayı, Şuşa və Qarabağ qəzasından toplanmış gənclər-2-ci piyada alayı və.digərləri.

ənvər paşa Əlimərdan bəy topçubaşovla görüşündə könüllülərin toplanmasından xəbəri olmasını göstərmişdir: “mənə məlumdur ki, çağırışda böyük çətinlik olmayıb,adamlar həvəslə gəlirlər. Belə də olmalıdır. Qafqaz müsəlmanları əsgəri mükəlləfiyyətə cəlb olunmamışdırlar. Onlar əsgəri tələbkarlıqla tanış deyillər. Ancaq görünür ki, əsgəri ruh hələ də qalmaqdadır. Bu isə zəruri şərtdir”.

Erməni təhlükəsi olan kəndlərdə Akınçı dəstələri təşkil edilməli idi. Döyüşçülər evlərində yaşasalar da mütəmadi təlim keçir və siqnal olan kimi döyüşə çağrılırdılar.

Müsəlman Korpusunun üzləşdiyi ən böyük problemlərdən biri zabit kadrlarının çatışmamazlığı idi. Zabitlərin bir qismi I Dünya müharibəsində həlak olmuş, bir qismi çətinliklə xidmət yerlərindən Azərbaycana qayıtmışdılar. Misal üçün, məhşur sərkərdə tam artilleriya generalı Səməd bəy Mehmandarov. Bəziləri isə rus çarına sədaqət andı içdiyini və bu anda sadiq qalaraq onun taleyini yaşamışdılar. Müsəlman Korpusunun komandiri Ə.Şıxlinski zabit kadrlarının çatışmamazlığını hətta çıxılmaz vəziyyət adlandırmışdı. Bu vəziyyətdə korpusa Azərbaycana müsbət yanaşan və könüllü olaraq Müsəlman Korpusunda xidmət etməyə razı oloan qeyri-müsəlman zabitlər xidmətə qəbul edilirdi. Rus zabitləri sayca Korpus zabitlərinin 65%-ni təşkil edirdi. Bu zaman onların əsas problemi Azərbaycan dilini bilməməsi idi. Azərbaycanlı zabitlərin min bir əziyyətlə xidmət yerlərindən vətənə qayıtması və burada xidmət etmək arzusu sayəsində tədricən 23 zabit toplanmışdı.

Komandir çatışmamazlığı problemini həll etmək üçün Nuru paşa iyun ayının sonlarında gəncədə miralay Arif bəyin rəhbərliyi ilə Milli Hərbiyyə məktəbi təşkil etmişdi.

Qafqaz İslam Ordusuna qarşı Bakıdan Qırmızı Ordu hissələri hücuma keçmişdi. Onlar Şamaxı yolu, həm də dəmir yolu xətti boyunca irəliləyirdilər. Hərəkət boyu bolşevik-erməni

hissələri müsəlman kəndləri məhv edir,əhalini qırır, erməni əhalisini silahlandırırdılar. QİO-nun komandanlığının əsas tələbi bu qırğınların qarşısını almaq idi. Bütün hissələri toplayaraq gəncədən mümkün qədər uzaq düşməni qarşılamaq əmri verildi. İlk növbədə Gəncədə ermənilərin təşkil etdiyi dəstələr tərkisilah edilməli idi. Almanların Yelendorf alayı ilə birlikdə həyata keçirililən hərbi əməliyyat nəticəsində Gəncədəki erməni dəstələri tərkisilah olundu.

1918-ci il iyunun 11-də Qırmızı Ordunun 10 minlik qüvvəsi hücuma keçərək L.Maqalovun 2 minlik dəstəsini geriyə sıxışdırdı. Tatar süvari alayının təcrübəsi və könüllülərin əzmkarlığı dəstənin mühasirəyə düşməsinin qarşısını aldı. Geri çəkilən Maqalov qərargahını Ucarda təşkil etdi. Bolşevik-erməni hissələri ağsu istiqamətində azərbaycanlıların könüllü dəstələrini geri ataraq Göyçay istiqamətində irəliləyirdi.Nuru paşa 10-cu Qafqaz piyada alayını dəmir yolu xəttindən aralı yerləşən Göyçay-Qaraməryəm şosse yolu istiqamətində cəmləşdirdi. Sonrakı hadisələr qərarın doğru olduğunu göstərdi. 10-cu Qafqaz piyada alayının hissələri Ağstafadan qatarlarla birbaşa Ucara çatdırıldı və oradan Qaraməryəmə yollandı. Qaraməryəm döyüşündə QİO xeyli itki verdi.

1918-ci il iyunun 26-da türk ordusunun 5-ci Qafqaz piyada firqəsi Xüsusi Azərbaycan Korpusuna tabe edildi. Dəstəyə komandanlıq H.Səlimova tapşırıldı.

1918-ci il iyunun 27-də saat 6-da Qırmızı Ordunun üç taboru Göyçay-Qaraməryəm şossesinin şimalından hücuma keçdi. QİO-nun qəhrəman mübarizəsi nəticəsində düşmən böyük itki verərək Ağsuya sıxışdırıldı və geri çəkilməli oldu. Hal-hazırda Göyçayın Bığır, Mollaisaqlı və digər kəndlərində onlarla türk şəhidləri uyuyur.

1918-ci ilin sentyabırında Xüsusi Azərbaycan Korpusu və QİO-nun birgə qəhrəmanlıq zəfəri nəticəsində doğma Bakımız düşmənlərdən azad olundu.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN FƏALİYYƏTİNDƏ ORDU QURUCULUĞU MƏSƏLƏLƏRİ

***Baxşəliyev F.E.***

*Bakı Dövlət Universiteti*

Azərbaycan tarixşünaslığında ən obyektiv tarixi qiyməti ilk dəfə olaraq Prezident Heydər Əliyev vermişdir: "Azərbaycan Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini biitün dünyaya bildirdi. Bəyannamədə elan edilmiş prinsiplər - Azərbaycan xalqının öz

müqəddəratını müəyyən etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonÇu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yaşamaq prinsipləri Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq nüfuzunu artırdı".

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti qarşısında duran başlıca vəzifələrdən biri ölkənin müdafiəsinin təmin edilməsi idi. Ölkədə yaranmış son dərəcə ağır hərbi-siyasi şərait bunu tələb edirdi və Cümhuriyyətin elan edilməsinin elə ilk günlərindən həmin vəzifənin həlli istiqamətində lazımi addımların atılmasına başlandı. Hələ müstəqilliyin elan edilməsi ərəfəsində formalaşdırılmasına başlanmış Müsəlman korpusunun hissə və bölmələri də bu işə cəlb edildilər və artıq Gəncəyə doğru hərəkətə başlamış Bakı Sovetinin bolşevik-daşnak qoşunlarınm qarşısını kəsmək üçün cəbhə xettinə göndərildilər. Lakin hələ tam formalaşmamış olan Müsəlman korpusu bolşevik-daşnak qoşunlarının və S.Şaumyanla əlbir olan quldur Andronikin yaxşı silahlanmış dəstələrinin müqavimətini qırmaq üçün kifayət qədər hərbi gücə malik deyildi. Yeni hərbi qüvvələrin formalaşdırılmasına isə vaxt yox idi.

Belə bir vəziyyətdə Azərbaycan Hökuməti hərbi yardım üçün Osmanlı dövlətinə müraciət etdi. Nəticədə, soyqırımına məruz qalmış Azərbaycan xalqının köməyinə gəlmiş türk hərbi hissələri ilə milli tərkibli qoşun hissələrinin əsasında Qafqaz İslam Ordusu yaradıldı və Nuru paşa onun komandanı təyin edildi. Qafqaz İslam Ordusunun fəaliyyət dövrü ölkənin müdafiəsinin təmin edilməsinin ilkin mərhələsini təşkil edir. Bu mərhələdə müstəqilliyin təminatçısı olacaq milli qoşun hissələrinin yaradılmasına rəhbərlik də türk hərbçilərinə həvalə olunmuşdu. Ancaq ölkə ərazisində ciddi döyüşlərin getdiyi bir vaxtda milli qoşun hissələrinin formalaşdırılması üçün normal şərait yox idi. Bununla belə, bütün imkanlar dövlət müstəqilliyinin qorunmasına səfərbər olundu.

Ölkənin müdafiəsinin təşkili və ordu quruculuğu istiqamətində ümumdövlət mənafelərini əks fəaliyyəti güclü hərbi qüvvələrin yaradılmasına yol açdı. Çox az müddətdə Hərbi Nazirliyin aparatı formalaşdırıldı. Buraya Ümumi qərargah, Ləvazimat idarəsi, Topçu idarəsi, Hərbi-tibb idarəsi, Hərbi-baytar idarəsi, Generalkvartirmeyster şöbəsi və digər strukturlar daxil idi. Hərbi Nazirliyin ştatı barədə qanun, Əxzi-əsgər (çağırış) təşkilatının yaradılması haqqında qanun, Hərbi və polk məhkəmələrinin yaradılması barədə qanun qəbul edilməsi də bu məqsədə xidmət edirdii. Təcrübəli zabitlər Əlağa Şıxlinski, Həbib bəy Səlimov, Murad Gəray Tlexas, İbrahim ağa Usubov, Həmid bəy Qaytabaşı, İbrahim ağa Vəkilov, Süleyman bəy Əfəndiyev, Cavad bəy Şıxlinski, Feyzulla Mirzə Qacar və başqaları

məsul vəzifələrə təyin edildilər və bütün bunlar ordumuzu xeyli möhkəmləndirdi..

Azərbaycanda milli ordu yaradılması, bir tərəfdən dövlət quruculuğunun mühüm tərkib hissəsi, digər tərəfdən də konkret tarixi şəraitdə Azərbaycanın ərazi bütövlüyünün qorunması üçün atılan zəruri addım idi. Nazirlər Şurasının sədri Fətəli xan Xoyski 1918-ci il dekabrın 26-da Azərbaycan Parlamentində çıxış edərkən ordunun üzərinə düşən vəzifəni belə səciyyələndirirdi: "Gərək hər bir dövlət daima özünü müdafiə etmək iiçün qüvvə hazırlasın. Ona görə bizim həm xarici düşmənlərimizə qarşı, bizim istiqlalımıza hücum edənlərə qarşı müdafiə edəcək bir qiivvəmiz olsun ".

Hərbi nazir Səməd bəy Mehmandarov isə Hökumətin ordu quruculuğu ilə bağlı müəyyənləşdirdiyi vəzifələri belə açıqlayırdı: "...Azərbaycan qoşunları heç bir təcavüzkar məqsəd güdmür. O yalnız dövlət sərhədinin miidafiəsi, dövlət daxilində qanun və qaydanın qorunması, mümkün olacaq anarxiyanın aradan qaldırılması, bandaların soyqunçu basqınlarına son qoyulması məqsədilə yaradılmış və yaradılmaqdadır ". Parlament də ordunun formalaşdırılmasına, ölkənin müdafiəsinin təşkili məsələlərinə ciddi diqqət yetirirdi. Ordu quruculuğu və müdafiə məsələlərinin müzakirəsi zamanı Nazirlər Şurasının sədri və hərbi nazir vaxtaşırı Parlamentə dəvət edilirdi. Parlamentdə hərbi məsələlər üzrə xüsusi komissiya yaradılmışdı. Komissiyanın üzvləri, həmçinin digər millət vəkilləri müvafiq sənəd layihələrini hazırlayıb Parlamentin müzakirəsinə təqdim etməklə bərabər, hərbi hissələrə, obyektlərə, gərgin döyüş bölgələrinə gedir, ümumordu miqyaslı tədbirlərdə fəal iştirak edirdilər.

Parlamentin fəaliyyəti dövründə ordu quruculuğu və ölkəmüdafiəsinin təşkili ilə bağlı 9 qanun qəbul edilmiş, Azərbaycan-Gürcüstan hərbi-müdafiə sazişi (1919) ratifikasiya olunmuş, Qarabağda və ölkənin şimalında yaranmış təhlükəli vəziyyətlə bağlı növbədənkənar müzakirələr aparılmışdır. da dfövlət dili kimi qəbul edildi. Azərbaycan dilinin öyrənilməsi və savadsızlığın ləğvi üçün kurslar yaradıldı, həmin kursların aparılmasına təcrübəli mütəxəssislər cəlb edildi.

Azərbaycan ordusunun mənəvi durumuna, hər bir döyüşçünün mənsub olduğu xalqın tarixi keçmişini öyrənməsinə, qəhrəmanlıq nümunələri əsasında tərbiyələndirilməsinə böyük diqqət verildi. Bu baxımdan Səməd bəy Mehmandarov çox dəyərli fikir və təkliflər irəli sürdü. Həmin fikirlərin mahiyyəti bundan ibarət idi ki, Azərbaycanın qəhrəmanlıq tarixi həm araşdırılmalı, həm də xalq kütlələrinə çatdırılmalı idi. Hərbi nazir bu istiqamətdə aparılan işlərdə, eyni zamanda, ifratçılığa varmağın, milli tərbiyənin millətçiliklə əvəz

olunmasının da tərəfdarı deyildi. Nazir Azərbaycan xalqının qəhrəmanlıq tarixinin kitablar halında çap edilərək qoşun hissələrinə çatdırılmasını vacib vəzifələrdən biri sayırdı. Milli ordu quruculuğunda atılan ilk addımlardan biri də yeni hərbi geyim formasına keçilməsinin qərara alınması oldu. Milli üslubda hazırlanmış yeni hərbi geyim əsgər və zabitlərdə milli ruhun formalaşdırılmasına müsbət təsir göstərirdi. Bu məqsədlə xüsusi komissiya yaradılmışdı. Həmin komissiyaya general-leytenant Əlağa Şıxlinski rəhbərlik edirdi. Azərbaycan ordusu 1919-cu il yanvarın 11-dən yeni-milli hərbi formaya keçdi.

Milli hərbi kadrların hazırlanması da Hərbi Nazirliyin qarşısında duran mühüm vəzifələrdən idi. Bu məqsədlə hələ türk qoşunlarının Azərbaycanda olduğu vaxt Gəncədə fəaliyyətə başlamış podpraporşiklər məktəbinin fəaliyyəti yenidən quruldu və onun statusu artırılaraq, Praporşiklər məktəbinə çevrildi. Məktəbdə təlim-tərbiyə işləri də yenidən quruldu. 1919 ilin sonunda Praporşiklər məktəbinin əsasında Hərbiyyə məktəbi, Azərbaycan ordusu üçün milli hərbi kadrlar hazırlayan İstehkamçılar məktəbi, Hərbi dəmiryolçular məktəbi və Hərbi feldşer məktəbi də açılmışdı.

Hərbi Nazirliyin fəaliyyəti sayəsində, çətinliklər olsa da, orduya çağırış işi yeni sistem əsasında quruldu. Nəticədə, əhali orduda xidmətə müsbət münasibət bəsləməyə başladı. Bir sıra məmurların qanunsuz hərəkətlərinə, varlıların rüşvət verərək, övladlarını hərbi xidmətdən azad etməsinə, fərarilik, zabitlər arasında intizamsızlıq hallarına baxmayaraq, ordu quruculuğunda müsbət dəyişikliklər üstünlük təşkil edirdi. Bunun bir səbəbi də o idi ki, Hərbi Nazirlik mənfi hallara qarşı digər müvafiq orqanlarla, xüsusilə Daxili İşlər Nazirliyi ilə əlbir mübarizə aparırdı.

Hərbi nazir Səməd bəy Mehmandarov ordu quruculuğundakı çətinliklərdən bəhs edərkən hələ 1918 ilin dekabrında göstərirdi ki, fərariliyin əsas səbəblərindən biri çağırış orqanlarının fəaliyyətinin düzgün qurulmaması ilə bağlıdır. O, açıqca bildirirdi ki, hərbi xidmətə yalnız rüşvət verib "canlarını qurtara bilməyən " şəxslər cəlb olunurlar və buna görə də qoşun hissələrində bir nəfər də olsun imkanlı adamın övladı yoxdur. İmkanlı adamların övladlarına yalnız Praporşiklər məktəbində rast gəlmək olardı ki, onlar da öz arzuları ilə təhsil almağa gəlmişdilər. Hərbi mükəlləfiyyətin əsas ağırlığı kasıbların üzərinə düşiirdü.

1918-ci il dekabrın 25-də Səməd bəy Mehmandarov hərbi xidmətə çağırışı yaxşılaşdırmaq məqsədilə xalqa müraciət etdi. Müraciət Azərbaycan və rus dillərində çap edilərək əhali arasında yayıldı. Hərbi nazirin müraciətində türk qoşunlarının Azərbaycanda olduğu zaman çağırış işində yol verilmiş nöqsanlara, o cümlədən, hərbi hissələrdə əsgərlərə

qarşı fiziki güc tətbiq edilməsinə, əsgərlərin ağır məişət şəraitinə toxunulur, onların aradan qaldırılması üçün görülən qətiyyətli tədbirlərdən bəhs olunurdu: "İndi isə qoşun düzəltməyi öz öhdəmə götürmüşəm və cəmi vətəndaşları, istər fəqir, istər dövlətli, əsgərliyə çağırıram. Hər kəs ki, bir dövlətli uşağını qələmdən salıb azad etsə, böyük cəzaya düçar olacaqdır və burası da məlum olsun ki, əsgərlər yaxşı geyinəcəklər və yeməklərinin də yaxşı olmağına mən çox çalışıram. Otaqları isti olacaq və hər bir əsgər üçiin ayrı yorğandöşək hazırlatmışam ".

Həyata keçirilən bu tədbirlər Azərbaycan ordusunun formalaşdırılması işini xeyli sürətləndirdi.

Güclü ordu formalaşdırılması üçün vacib olan müxtəlif hərbi strukturun yaradılması, qoşunların ərzaq və digər vasitələrlə təmin olunmasının yaxşılaşdırılması, həmçinin zabitlərin maaşlarının vaxtaşırı artırılması həm Hökumətin, həm də Hərbi Nazirliyin daimi nəzarətində idi. Bu sahədə hərbi nazirliklə Nazirlər Şurası arasında sıx əlaqə yaradılmışdı. Hərbi nazir 1919-cu ilin aprelində ordunun formalaşdırılması üçün büdcədən ayrılacaq vəsaitin miqdarı barədə Hökumətə təklif verdi. Hökumət bu təklifi təsdiq etdi. Həmin vəsait 399,4 milyon manata bərabər idi ki, bu da dövlət büdcəsinin 27,7%-ni təşkil edirdi.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN FƏALİYYƏTİNDƏ ÖLKƏNİN MÜDAFİƏSİNİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

***Baxşəliyev F.E.***

*Bakı Dövlət Universiteti*

1918-ci il mayın 28-də yaranmış və 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti qarşısında duran başlıca vəzifələrdən biri ölkənin müdafiəsinin və ərazi bütövlüyünün təmin edilməsi idi. Ölkədə yaranmış son dərəcə ağır hərbi-siyasi şərait bunu tələb edirdi və Cümhuriyyətin elan edilməsinin elə ilk günlərindən həmin vəzifənin həlli istiqamətində lazımi addımların atılmasına başlandı. Hələ müstəqilliyin elan edilməsi ərəfəsində formalaşdırılmasına başlanmış Müsəlman korpusunun hissə və bölmələri də bu işə cəlb edildilər və artıq Gəncəyə doğru hərəkətə başlamış Bakı Sovetinin bolşevik-daşnak qoşunlarınm qarşısını kəsmək üçün cəbhə xettinə göndərildilər. Lakin hələ tam formalaşmamış olan Müsəlman korpusu bolşevik-daşnak qoşunlarının və S.Şaumyanla əlbir olan quldur Andronikin yaxşı silahlanmış dəstələrinin müqavimətini qırmaq üçün kifayət qədər hərbi gücə malik deyildi. Yeni hərbi qüvvələrin formalaşdırılmasına isə vaxt yox idi.

Belə bir vəziyyətdə Azərbaycan Hökuməti hərbi yardım üçün Osmanlı dövlətinə müraciət etdi. Nəticədə, soyqırımına məruz qalmış Azərbaycan xalqının köməyinə gəlmiş türk hərbi hissələri ilə milli tərkibli qoşun hissələrinin əsasında Qafqaz İslam Ordusu yaradıldı və Nuru paşa onun komandanı təyin edildi. Qafqaz İslam Ordusunun fəaliyyət dövrü ölkənin müdafiəsinin təmin edilməsinin ilkin mərhələsini təşkil edir. Bu mərhələdə müstəqilliyin təminatçısı olacaq milli qoşun hissələrinin yaradılmasına rəhbərlik də türk hərbçilərinə həvalə olunmuşdu. Ancaq ölkə ərazisində ciddi döyüşlərin getdiyi bir vaxtda milli qoşun hissələrinin formalaşdırılması üçün normal şərait yox idi. Bununla belə, bütün imkanlar dövlət müstəqilliyinin qorunmasına səfərbər olundu. Hökumət tərəfindən Hərbi vəziyyətin elan olunması haqqında qərar, Hərbi vəziyyətin elan olunması haqqında qərara əlavə kimi mühüm sənədlər qəbul edildi, Müsəlman korpusu Əlahiddə Azərbaycan korpusu adlandırıldı. Çağırışsəfərbərlik işləri yenidən quruldu, bir sıra bölgələrdə könüllü xalq dəstələri təşkil edildi. Bakı uğrunda döyüşlər zamanı ətraf kəndlərdə toplanmış könüllü dəstələr Maştağa dəstəsində birləşdirildi.

Türkiyə və Azərbaycan hərbi qüvvələrinin birgə mübarizəsi nəticəsində 1918-ci ilin iyun-avqust aylarında Gəncə ermənilərinin tərksilah edilməsi həyata keçirildi, Qaraməryəm döyüşü, Kürdəmir döyüşü, Ağsu döyüşü, Şamaxı döyüşü, Salyan döyüşü uğurla başa çatdırıldı. Birinci Qafqaz Qırmızı Korpusunun və ingilis hərbi qüvvələri tərəfindən müdafiə olunan "Sentrokaspi diktaturası"nın qoşunlarına sarsıdıcı zərbə endirirdi. 1918 il sentyabrın 15-də Bakı şəhəri azad edilərək müstəqil Azərbaycan dövlətinin paytaxtına çevrildi. Azərbaycan Hökuməti Bakıya köçdükdən sonra ölkənin ərazi bütövlüyünün təmin edilməsi üçün həyata keçirilən qətiyyətli tədbirlərdən biri də Qafqaz İslam Ordusunun Qarabağ hərəkatı oldu. Bu hərəkatda iştirak edən qüvvələrin əsasını Azərbaycanın Birinci piyada diviziyası və türk hərbi bölmələri təşkil edirdi. Hərəkata rəhbərlik Cəmil Cahid bəyə tapşırılmışdı. Qısa müddət ərzində Qarabağda Azərbaycan hakimiyyəti bərqərar edildi, separatçı erməni daşnak qüvvələrinə ağır zərbə vuruldu.

Mudros barışığının (1918) şərtlərinə əsasən türk hərbi qüvvələri Azərbaycanı tərk etdikdən sonra ölkənin müdafiəsinin təşkilində yeni mərhələ başlandı. Bu mərhələdə bütün ağırlıq Azərbaycan Hökumətinin üzərinə düşdü. Türk hərbi qüvvələri Azərbaycanı tərk edəndə ölkənin müdafiəsini öz üzərinə götürməyə qadir olan müstəqil milli ordu hələ formalaşmamışdı. Bir tərəfdən əsas diqqətin döyüşlərin aparılmasına yönəldilməsi, digər tərəfdən də, milli ordu quruculuğuna rəhbərlik edən bəzi türk zabitlərinin əsaslandırılmamış

struktur eksperimentlərinə, xidmətin təşkilində və çağırış-səfərbərlik işlərinin aparılmasında nöqsanlara yol verməløri Azərbaycan ordusu hissələrinin formalaşmasını ləngitdi. Bu vəzifənin həllinə nail olmadan ölkənin müdafiəsini də etibarlı şəkildə təşkil etmək mümkün deyildi. Ona görə də Nazirlər Şurası Hərbi Nazirliyin yaradılması haqqında qərar qəbul etdi. Hərbi nazir vəzifəsi ilk vaxtlar Hökumətin sədri Fətəli xan Xoyskiyə həvalə olundu. Hərbi Nazirliyin təşkili və ordu quruculuğuna birbaşa rəhbərlik isə əvvəlcə nazir müavini, 1918-ci il dekabrın 25-dən isə hərbi nazir təyin edilmiş Səməd bəy Mehmandarova tapşırıldı.

Hökumətin və Hərbi Nazirliyin ölkənin müdafiəsinin təşkili və ordu quruculuğu istiqamətində ümumdövlət mənafelərini əks etdirən qarşılıqlı fəaliyyəti güclü hərbi qüvvələrin yaradılmasına yol açdı. Bu sahədə yeni siyasət formalaşdırıldı və onun bütünlüklə həyata keçirilməsi təmin edildi. Qısa müddətdə Hərbi Nazirliyin aparatı formalaşdırıldı. Buraya Ümumi qərargah, Ləvazimat idarəsi, Topçu idarəsi, Hərbi-tibb idarəsi, Hərbi-baytar idarəsi, Generalkvartirmeyster şöbəsi və digər strukturlar daxil idi. Bundan başqa, Hərbi Nazirliyin ştatı barədə qanun, Əxzi-əsgər (çağırış) təşkilatının yaradılması haqqında qanun, Hərbi və polk məhkəmələrinin yaradılması barədə qanun qəbul edildi. Kifayət qədər hərbi biliyə və təcrübəyə malik zabitlər olan Əlağa Şıxlinski, Həbib bəy Səlimov, Murad Gəray Tlexas, İbrahim ağa Usubov, Həmid bəy Qaytabaşı, İbrahim ağa Vəkilov, Süleyman bəy Əfəndiyev, Cavad bəy Şıxlinski, Feyzulla Mirzə Qacar və başqaları məsul vəzifələrə təyin edildilər.

Hökumətin gördüyü qəti tədbirlər nəticəsində təxminən il yanm ərzinde, mürəkkeb tarixi şəraitdə, iqtisadi və hərbi bazanm çox zəif olmasına baxmayaraq, kifayət qədər yüksək döyüş qabiliyyətinə malik bir ordu yaradıldı. Bu ordunun təşkili Azərbaycan Xalq Cümhuriyyətinin ən mühüm nailiyyətlərindən biri idi. 1919-cu ilin avqustunda Azərbaycan ordusunun artıq kifayət qədər formalaşmış hərbi hissələri Lənkəran bölgəsinin Azərbaycan Hökumətinə tabe olmayan qiyamçılardan təmizlənməsi məqsədilə Lənkəran əməliyyatını uğurla yerinə yetirdilər. Qiyamçı qüvvələrin məğlub edilməsi və bölgədə Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinin bərqərar olunması hərbi nazirin əmri ilə yaradılmış Lənkəran dəstəsinə tapşırıldı. Dəstənin komandanlığı general-mayor Həbib bəy Səlimova həvalə olunmuşdu.

Lənkəran dəstəsinin qətiyyətli və çevik fəaliyyəti nəticəsində sentyabrın 3-də bölgədəki rus hərbi qüvvələri tərksilah edildilər. Bununla əlaqədar olaraq hərbi nazir Səməd bəy Mehmandarovun 1919-cu il 19 sentyabr tarixli 420 saylı əmrində deyilirdi: "Lənkəran

şəhərinin tutulması, həmin rayonda qayda-qanunun bərpa edilməsi və Azərbaycan Hökumətinin hakimiyyətinin təsdiq edilməsi üçün mənim tərəfimdən Lənkərana Ümumi qərargah rəisi general-mayor Səlimovun komandanlığı altında üç qoşun növündən ibarət xüsusi dəstə təchiz edilmiş və göndərilmişdi.

Hacıqabuldan Lənkərana və geriyə olan 430 verstlik məsafəni bərk istilərdə bizim gənc ordumuz xəstələr və arxada qalanlar olmadan 15 günə qət etmişdir. Bütün yürüş ərzində dəstədə qayda-qanun pozulmamış, yerli sakinlərdən heç birinə kiçik bir ziyan da vurulmamışdır. Yol-boyu şəhər və kəndlərin əhalisi dəstənin zabit və əsgərlərinin nəzakətli davranışlarını böyük minnətdarlıqla qeyd edirdilər. Mən buna dəstə qayıdandan sonra Lənkərana olan şəxsi səfərim zamanı əmin oldum. Öz əsl hərbi görkəmi və nümunəvi nizam-intizamı ilə hamıda güclü təəssürat yaradan dəstə zəngin hərbi qənimətlə Lənkəran qəzasını və Muğanı əzizimiz Azərbaycanın ağuşuna qaytardı, zülmdən və anarxiyadan əziyyət çəkən əhalini sakitləşdirdi və əmin-amanlığı təmin etdi. Bütün bunlar bir damla qan tökülmədən həyata keçirildi. Azərbaycan ordusunun birinci hərbi yürüşündə özlərini qoçaq və şərəfli döyüşçü kimi göstərən gənc əsgərlərə ürəkdən "sağ ol!" deyirəm".

Azərbaycan ordusunun nəyə qadir olması Qarabağın dağlıq hissəsini Azərbaycandan qoparmaq məqsədilə həyata keçirilən erməni-daşnak təcavüzünün aradan qaldırılması üçün aparılan Qarabağ əməliyyatında özünü bir daha bariz nümayiş etdirdi. Bu təcavüz Azərbaycanın işğalı və bölüşdürülməsi məqsədilə Sovet Rusiyası ilə erməni-daşnak qüvvələri arasındakı sövdələşmə nəticəsində həyata keçirilirdi. Erməni-daşnak qüvvələri bütün Qarabağı ələ keçirməyə cəhd göstərməklə, həm də Azərbaycanın şimal sərhədlərinin müdafiəsinin tamamilə zəiflədilməsinə və bununla da bolşevik işğalının asanlaşmasına əlverişli şərait yaratmalı idi.

Erməni qüvvələri Novruz bayramı günlərində, martın 22-də gecə saat 3-də eyni vaxtda Şuşa, Xankəndi, Əsgəran, Xocalı və Tərtərdə yerləşən qoşun bölmələrinin üzərinə hücuma başlasalar da, hərbi təşəbbüsü ələ ala bilmədilər. Birinci piyada diviziyasının komandiri general-mayor Cavad bəy Şıxlinski erməni silahlı dəstələrinin Əsgəran qalası üzərinə hücumu başlanandan sonra Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəyliyə göndərdiyi teleqramında yazırdı: "Əsgərlər qalanın bir hissəsini hələ də əllərində saxlayırlar... ya başımızı verəcəyik, ya da Əsgəranı qoruyacağıq".

Qarabağ müharibəsi Azərbaycan ordusunun və onun rəhbərliyinin müstəqillik dövründə rastlaşdıqları ən ağır və həm də ən şərəfli sınaq idi. Qısa müddətdə Azərbaycanın bütün

müdafiə qüvvələri səfərbərliyə alındı. Vətənini və yurdunu sevən Azərbaycan oğulları ölkənin ərazi bütövlüyünün təmin edilməsi üçün əsl qəhrəmanlıq nümunələri göstərirdilər. Azərbaycanın hərb tarixinə Qarabağ müharibəsi adı ilə daxil olmuş bu müharibənin uğurla başa çatdırılması Azərbaycan ordusu əsgərlərinin, zabit və generallarının Vətənə əsl xidmət nümunəsi idi. Hərbi nazir Səməd bəy Mehmandarovun strateji rəhbərliyi, general Əlağa Şıxlinskinin təşkilatçılıq qabiliyyəti, general-mayor Həbib bəy Səlimovun, general-mayor Cavad bəy Şıxlinskinin, general-mayor Teymur bəy Novruzovun və yüzlərlə digər zabitlərin şücaəti Azərbaycan ordusunun qüdrət və qabiliyyətini nümayiş etdirdi. Erməni silahlı qüvvələri göstərdikləri bütün cəhdlərə baxmayaraq, Qarabağın Azərbaycandan qoparılmasına nail ola bilmədilər.

Azərbaycanda milli ordu yaradılması, bir tərəfdən dövlət quruculuğunun mühüm tərkib hissəsi, digər tərəfdən də konkret tarixi şəraitdə Azərbaycanın ərazi bütövlüyünün qorunması üçün atılan zəruri addım idi. Nazirlər Şurasının sədri Fətəli xan Xoyski 1918 il dekabrın 26-da Azərbaycan Parlamentində çıxış edərkən ordunun üzərinə düşən vəzifəni belə səciyyələndirirdi: "Gərək hər bir dövlət daima özünü müdafiə etmək iiçün qüvvə hazırlasın. Ona görə bizim həm xarici düşmənlərimizə qarşı, bizim istiqlalımıza hücum edənlərə qarşı müdafiə edəcək bir qiivvəmiz olsun ". Hərbi nazir Səməd bəy Mehmandarov isə Hökumətin ordu quruculuğu ilə bağlı müəyyənləşdirdiyi vəzifələri belə açıqlayırdı: "...Azərbaycan qoşunları heç bir təcavüzkar məqsəd güdmür. O yalnız dövlət sərhədinin miidafiəsi, dövlət daxilində qanun və qaydanın qorunması, mümkün olacaq anarxiyanın aradan qaldırılması, bandaların soyqunçu basqınlarına son qoyulması məqsədilə yaradılmış və yaradılmaqdadır ".

Lakin sonda süqut etməsinə baxmayaraq, 23 aylıq milli ordumuzun ərazimizin qorunmasındakı fədakar xidmətləri bu günümüz üçün böyük örnəkddir.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN FƏALİYYƏTİNİN SON DÖVRÜ MƏSƏLƏLƏRİ

***Baxşəliyev S.F.***

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Azərbaycan xalqının tarixində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti, eyni zamanda, müsəlman Şərqində, o cümlədən türk-islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi.

Azərbaycan tarixşünaslığında ən obyektiv tarixi qiyməti ilk dəfə olaraq Prezident Heydər Əliyev vermişdir: "Azərbaycan Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini biitün dünyaya bildirdi. Bəyannamədə elan edilmiş prinsiplər - Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək, insanların hiiquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonÇu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yaşamaq prinsipləri Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq nüfuzunu artırdı".

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti və Hökuməti son dərəcə mürəkkəb beynəlxalq və daxili şəraitdə fəaliyyət göstərirdi. Hökumətin yeritdiyi xarici və daxili siyasətin nəticələrindən asılı olmayaraq, o zamankı beynəlxalq vəziyyətdə Şimali Azərbaycanın (habelə digər Cənubi Qafqaz respublikalarının) müstəqil dövlət halında yaşaması mümkün deyildi. Bakı neftinə yiyələnməyə can atan və ingilisləri regiondan sıxışdırıb çıxarmağa çalışan Sovet Rusiyası, Denikini məğlub etdikdən sonra yerli bolşevik təşkilatlarını səfərbərliyə alaraq, Azərbaycan Xalq Cümhuriyyətini devirmək üçün daxildə geniş pozuculuq fəaliyyətinə başlamışdı. Moskvadan göstəriş alan Azərbaycan Kommunist (bolşeviklər) Partiyası hakimiyyət çevrilişi həyata keçirmək üçün xüsusi qərargah yaratmışdı. Parlamentin və Hökumətin fəaliyyətini iflic vəziyyətinə salan "sosialistlər"', "Daşnaksutyun fraksiyası", "Erməni fraksiyası", "Slavyan-rus cəmiyyəti" və digər Parlament fraksiyaları sovet-bolşevik müdaxiləsindən ötrü əlverişli zəmin yaradılmasında fəal iştirak edirdilər.

Bundan əlavə, Azərbaycandan yeni ərazilər qoparmaq üçün əlverişli şərait yarandığını görən ermənilər bolşevik Rusiyası ilə əlaqəyə girib Azərbaycan Xalq Cümhuriyyətini devirmək məqsədilə əlbir plan hazırladılar. Həmin plana əsasən Ermənistan Respublikası Qarabağda və Gəncəbasarda ermənilərin Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə qarşı qiyamlarını təşkil etdi. Bununla, Ermənistan Respublikası qiyamçılara kömək pərdəsi altında Azərbaycana qarşı müharibəyə başladı. Cümhuriyyət Hökuməti özünün bütün hərbi qüvvələrini Qarabağ cəbhəsinə yönəltməyə məcbur oldu. Beləliklə, ölkənin şimal sərhədləri bolşevik müdaxiləçilərinin üzünə açılmış oldu.

Sovet Rusiyası, eyni zamanda, hələ 1918-ci ilin noyabrından Bakını və bütün Cənubi Qafqazı ələ keçirmək üçün konkret hərbi hazırlıq tədbirləri görməyə başlamışdı. Rusiya hərbi-inqilab şurasının qərarı ilə 11-ci və 12-ci orduların, həmçinin Həştərxan – Xəzər

donanmasının daxil edildiyi ayrıca Xəzər-Qafqaz cəbhəsi yaradılmışdı. Bakını ələ keçirmək, bütün Şimali Azərbaycanı (habelə Cənubi Qafqazı) işğal etmək üçün "Bakı əməliyyatı" adlı xüsusi hərbi əməliyyat planı hazırlanmışdı. V.Lenin hələ 1920-ci il martın 17-də Qafqaz cəbhəsinin hərbi-inqilab şurasına Bakının ələ keçirilməsi barədə konkret göstəriş vermişdi. Martın 30-da isə Azərbaycan Xalq Cümhuriyyətini devirmək məqsədilə yaradılmış "operativ qərargah"ın sədri Əliheydər Qarayev bu zaman Dağıstanda olan sovet qoşunlarının komandanına teleqram göndərərək bildirirdi ki, "ən yaxın günlərdə Bakıda çevrilişə hazırlaşırıq. Hərəkat başlanandan əvvəl öz yürüşümüzün məqsədləri haqqında Azərbaycan fəhlələrinə və kəndlilərinə müraciətnamə buraxacağıq".

İşğal ərəfəsində - aprelin 22-də Bakıda və aprelin 25-də Port-Petrovskda (Mahaçqala) 11-ci Qırmızı ordunun komandanlığı, Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz Diyar Komitəsi və Azərbaycan Kommunist (bolşeviklər) Partiyası nümayəndələrinin müşavirələri keçirildi. Müşavirələrdə qarşıdakı birgə əməliyyatlar planı təfsilatı ilə müzakirə edildi. Bu plan aprelin 27-də Bakıda kommunistlərin silahlı çıxışını və həmin gün 11-ci Qırmızı ordunun Azərbaycan sərhədini keçməsini nəzərdə tuturdu. AK(b)P rəhbərliyi dövlət çevrilişi planının reallaşdırılması üçün vaxtın yetişdiyini qət etdi. Aprelin 25-də bütün partiya komitələri hərbi komandanlığın tabeliyinə keçirildi və xəbərdarlıq olundu ki, komandanlığın əmrinə tabe olmayanlara ölüm cəzası veriləcəkdir. İşğalçıların hərbi əməliyyat planına əsasən, müdaxiləçi sovet qoşunları müstəqil Azərbaycanın dövlət sərhədlərini bu zaman Anadoluda Qazi Mustafa Kamal Paşanın başçılıq etdiyi İstiqlal savaşına "köməyə getmək" pərdəsi altında keçməli idilər. Belə də oldu. 1920-ci il aprelin 26-dan 27-nə keçən gecə işğalçı 11-ci Qırmızı ordu hissələri müharibə elan etmədən müstəqil Azərbaycan dövlətinin sərhədlərini keçdi və Bakıya hücum etdi. Bakı, eyni zamanda, dənizdən də mühasirəyə alındı. Aprelin 27-də səhər tezdən kommunistlərin silahlı dəstələri həm şəhər daxilində, həm də onun kənarlarında mühüm obyektləri ələ keçirdilər.

Əslində Azərbaycan Xalq Cümhuriyyətinin devrilmiş olduğu həmin şəraitdə, işğalçıların diktəsi ilə hərəkət edən kommunistlərin nümayəndə heyəti Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi, Rusiya Kommunist (bolşevikler) Partiyası Qafqaz Diyar Komitesinin Bakı bürosu və Mərkəzi Fəhlə Konfransı adından Azərbaycan Parlamentinə hakimiyyəti təhvil vermək barədə ultimatum verdi. Bununla əlaqədar olaraq, hələ martın 30-da Nəsib bəy Yusifbəylinin istefasından sonra, yeni Hökumətin (VI kabinə) təşkil olunması tapşırılmış Məmməd Həsən Hacınskinin başçılığı ilə xüsusi komissiya

(M.Ə.Rəsulzadə, Q.Qarabəyov, A.Səfikürdski, A.Qardaşov, S.Ağamalıoğlu) yaradıldı.

Azərbaycan bolşevikləri ilə sıx əlaqə saxlayan M.Hacınski kommunistlərlə danışıqlar apardı. Göstərilən ultimatum və komissiyanın apardığı danışıqların nəticələri Məmməd Yusif Cəfərovun sədrliyi ilə Parlamentin sonuncu (145-ci) iclasında müzakirə olundu. İclas aprelin 27-də axşam saat 20.45-də başlandı ve 23.25-dək davam etdi. M.Ə.Rəsulzadənin təklifi ilə müzakirələr zamanı Parlamentin qapıları xalqın üzünə açıldı ("Cənablar! Çıxardığımız tarixi qərarı millətdən bixəbər çıxarmayaq. Ölkə Parlamentinin qapısını açıq qoyaq ki, hər kəs nə ciir təhliikəli vəziyyət içində olduğumuzu, nə cür qərar qəbul edəcəyimizi bilsin. Ona görə də təklif edirəm ki, məclisimizin qapılarını millət üzünə bağlamayaq və millətdən bixəbər qərar qəbul etməyək"). Ultimatum barədə məlumat verən M.Hacınski bildirdi ki, hakimiyyət bu gün axşam kommunistlərə təhvil verilməlidir; AK(b)P-nin Mərkəzi Komitəsi bildirir ki, əks təqdirdə hakimiyyətin Qırrmzı Orduya təhvil verilməsi üçün əlindən gələni edəcəkdir. Kommunistlər həm də xəbərdarlıq edirlər ki, əgər biz bu gecə hakimiyyəti onlara təhvil verməsək, Parlamentdə təmsil olunan siyasi partiyalar, o cümlədən "Müsavat" partiyası qadağan olunacaqdır.

M.H.Hacınski həmçinin, məlumat verdi ki, kommunistlər bizim təkliflərimizə baxmaqdan imtina etdilər və xəbərdarlıq etdilər ki, hakimiyyətin könüllü surətdə təslim edilməyəcəyi halda, bunun nəticələri üçün bütün məsuliyyət Parlament üzvlərinin üzərinə düşür. Çıxışının sonunda M.Hacınski Parlament üzvlərini mövcud vəziyyətdə "millətin qurtuluşu naminə" yeganə düzgün qərar qəbul etməyə çağırdı. Lakin Səməd ağa Ağamalıoğlu, Qara bəy Qarabəyov, Aslan bəy Səfikürdski, Məhəmməd Əmin Rəsulzadə və Sultanməcid Qənizadə M.H.Hacınskinin hakimiyyətin kommunistlərə qeyd-şərtsiz təslim edilməsi təklifinə qarşı çıxdılar. Bununla belə, qan tökülməsinin qarşısını almaq üçün hakimiyyətin yalnız müəyyən şərtlərlə, hər şeydən əvvəl, Vətənin müstəqilliyinin saxlanılması şərti ilə kommunistlərə verilməsinə tərəfdar olduqlarını bildirdilər. Nəticədə, Parlament səs çoxluğu ilə bəzi şərtlərlə hakimiyyətin kommunistlərə verilməsi barədə qərar qəbul etdi:

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti mühasirə şəraitində keçirdiyi həmin iclasında da özünün demokratik ənənələrinə və istiqlalçılıq ideyalarına sadiq qaldı.

Lakin işğalçılar Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin hakimiyyəti dinc yolla, qan tökülmədən kommunistlərə təhvil vermək haqqında qərarına məhəl qoymadılar. Beləliklə, Sovet Rusiyasının beynəlxalq hüquq normalarını kobudcasına tapdalayan hərbi müdaxiləsi və 11-ci Qırmızı Ordu hissələrinin qanlı döyüş əməliyyatları nəticəsində Paris

sülh konfransının iştirakçısı olan dövlətlər tərəfindən tanınmış müstəqil Azərbaycan dövləti - Azərbaycan Xalq Cümhuriyyəti aradan qaldırıldı və onun ərazisi işğal olundu. Azadlığının və müstəqil dövlətinin müdafiəsinə qalxmış xalqın müqavimət hərəkatı qan içində boğuldu, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət və hakimiyyət strukturları məhv edildi. Şimali Azərbaycan yenidən Rusiyanın tərkibinə qatıldı.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN FƏALIYYƏTİNİN GƏNCƏ DÖVRÜ HAQQINDA

***Baxşəliyev S.F.***

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Azərbaycanın istiqlal mübarizəsi tarixinin bu dəyərli və parlaq sənədinə bütün Azərbaycan tarixşünaslığında ən obyektiv tarixi qiyməti ilk dəfə olaraq Prezident Heydər Əliyev vermişdir: "Azərbaycan Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini biitün dünyaya bildirdi. Bəyannamədə elan edilmiş prinsiplər - Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək, insanların hiiquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonÇu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yaşamaq prinsipləri Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq nüfuzunu artırdı".

Şimali Azərbaycanda 100 ildən artıq bir dövr ərzində davam etmiş azadlıq mübarizəsi nəticəsində, çox mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın şimal torpaqlarında xalqın qədim dövlətçilik ənənələri yenidən, özü də bu dəfə parlamentli respublika formasında dirçəldi.

1918-ci il iyunun 16-da Milli Şura və Hökumət özünün fəaliyyət mərkəzini Tiflisdən Gəncəyə köçürdü. Gəncədə Azərbaycan Xalq Cümhuriyyətinin tarixində ilk Hökumət böhranı baş verdi. Bu zaman Batum müqavilələrinin (1918) şərtlərinə əsasən, soyqırımına məruz qalan Azərbaycan xalqının köməyinə gələn və artıq Gəncədə olan Qafqaz İslam Ordusunun baş komandanı Nuru paşa ilə Milli Şura üzvləri arasında fikir ayrılığı yarandı. Hökumətin inqilabi tədbirlər həyata keçirəcəyindən ehtiyat edən Azərbaycan burjuaziyası və mülkədarları nümayəndələrinin işə qarışması və bunun nəticəsində Nuru paşa ilə Azərbaycan Milli Şurası və Hökuməti arasında ixtilaf yaranması vəziyyəti daha da ağırlaşdırdı. Çətinliklə qazanılmış istiqlalın itirilməsi təhlükəsi yarandı. İyunun 17-də

M.Ə.Rəsulzadənin başçılığı ilə Milli Şuranın keçirdiyi qızğın müzakirələrdən sonra böhran, çox çətinliklə, aradan qaldırıldı. Ölkədə yaranmış real vəziyyəti və konkret tarixi şəraiti nəzərə alan Azərbaycan Milli Şurası iyunun 17-də Gəncədə iki mühüm qərar qəbul etməyə məcbur oldu: öz fəaliyyətini müvəqqəti olaraq dayandırdı; bütün hakimiyyəti (həm qanunvericilik, həm də icra hakimiyyətini) Müəssislər Məclisi çağırılanadək Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış yeni -ikinci Müvəqqəti hökumətə həvalə etdi. Hökumətin tərkibi belə idi: Nazirlər Şurasının sədri - Fətəli xan Xoyski; nazirlər - Məmməd Həsən Hacınski, Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşov, Behbud xan Cavanşir, Xəlil bəy Xasməmmədov, Xosrov Paşa bəy Sultanov, Xudadat bəy Rəfibəyov, Xudadat bəy Məlik-Aslanov, Ağa Aşurov, Əbdüləli bəy Əmircanov, Musa bəy Rəfiyev.

1918-ci il iyunun 17-də hakimiyyətə gələn Fətəli xan Xoyskinin başçılıq etdiyi Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti çox ağır bir beynəlxalq və daxili şəraitdə, faktiki olaraq, soyqırımı taleyini yaşayan Azərbaycan xalqını tarixin qanlı burulğanından çıxarmaq məsuliyyətini öz üzərinə götürməli oldu. Vəziyyəti daha da mürəkkəbləşdirən bu idi ki, Bakıda S.Şaumyanın başçılıq etdiyi bolşevik-daşnak rejiminin ermənilərdən ibarət olan silahlı qüvvələri Gəncəyə doğru yürüşə başlamışdılar. Artıq Göyçay ətrafında qanlı döyüşlər gedirdi. Belə bir şəraitdə, təcili olaraq, müstəqil Azərbaycanın dövlət quruculuğuna başlandı. Hökümət yaranmış vəziyyətdən çıxmaq üçün elə ilk günlərdən qəti tədbirlərə əl atdı. İyunun 19-da bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan olundu.

İyunun 21-də qırmızı parça üzərində ağ aypara və ağ səkkizguşəli ulduz təsvir olunan bayraq azad Azərbaycanın dövlət rəmzlərindən biri kimi qəbul olundu (bax Dövlət bayrağı). İyunun 26-da Müsəlman hərbi korpusu Əlahiddə Azərbaycan Korpusuna çevrildi və həmin korpusun komandirinə general rütbəsi verildi. Diviziya komandiri səlahiyyətlərinə malik olan Azərbaycan Korpusunun komandiri Hökumətin xüsusi tapşırığını yerinə yetirməyə başladı ki, bu da, faktiki olaraq, Azərbaycan silahh qüvvələrinin yaradılması demək idi (bax Azərbaycan ordusu). İyunun 27-də Azərbaycan-türk dili dövlət dili elan olundu (bax Azərbaycan dilinin dövlət dili elan edilməsi haqqında qərar). Dövlət quruculuğu daha da genişləndirildi. Türkiyədən dərsliklər gətirmək və müəllimlər dəvət etmək barədə qərar qəbul olundu. Məktəblər milliləşdirildi. Yeni müəllim kursları və məktəblər açıldı. Yelizavetpol və Qaryaginin tarixi adları bərpa olunaraq yenidən Gəncə və Cəbrayıl adlandırıldı. Milli orduya səfərbərlik keçirildi. İyul ayının 15-də Fövqəladə Təhqiqat Komissiyası yaratmaq barədə qərar qəbul olundu. Komissiya Birinci dünya müharibəsi (1914-18) dö-

vründə bütün Cənubi Qafqaz ərazisində türk-müsəlman əhaliyə qarş törədilən soyqırımı vəhşiliklərini və onların əmlakının talan olunması məsələlərini araşdırıb, cinayətkarları məhkəmə məsuliyyətinə cəlb etməli idi. Hökumətin bu qərarı ilə əslində, azərbaycanlılara qarşı soyqırımlarına hüquqi qiymət verilməsinin əsası qoyuldu.

Bundan əlavə, Hökumətin nəzarəti altında olan ərazidə vəziyyəti sabitləşdirmək, nəqliyyat, poçt-teleqraf rabitəsi yaratmaq üçün də bir sıra mühüm tədbirlər görüldü. Avqustun 11 -də hərbi mükəlləfiyyət haqqında qərar qəbul olundu. Avqustun 23-də Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşlığı haqqında qanun qəbul olundu (bax Azərbaycan vətəndaşlığı haqqında qanun). Tarixən çox qısa vaxt ərzində həyata keçirilən bütün bu tədbirlərə baxmayaraq, Fətəli xan Xoyski hökumətinin başlıca vəzifəsi Azərbaycan Xalq Cümhuriyyətinin haki-miyyətini ölkənin bütün ərazisində bərqərar etmək, Bakını və onun ətraflarını Azərbaycan xalqının düşmənlərindən təmizləmək idi. Bu isə asan məsələ deyildi. Çünki Qafqaz İslam Ordusunun və Azərbaycan Hökumətinin hərbi plan-larından xəbərdar olan S.Şaumyan Cümhuriyyət Hökumətinə əl-qol açmaq imkanı ver-məmək üçün Bakı Sovetinin, əsasən, ermənilərdən ibarət olan yaxşı silahlanmış bolşe-vik-daşnak qoşunlarına Gəncə üzərinə yürüş əmri vermişdi. Kürdəmir artıq daşnakların əlinə keçmişdi (1918, 12 iyun). Lakin Göyçay uğrunda gedən qanlı döyüşlərdə türk və azərbaycanlılardan ibarət Qafqaz İslam Ordusu xalq könüllülərinin fəal köməyi ilə bolşevik-daşnak hərbi birləşmələrini darmadağın etdi. İyunun 20-də Şamaxı azad olundu. Bakıya yol açıldı. Türk əsgərlərinin Azərbaycan hərbi qüvvələri ilə birlikdə həyata keçirdiyi müzəffər İstiqlal yürüşünün növbəti hədəfi Bakı idi.

Məsələ burasında idi ki, Bakının azad olunması nəticəsində yaranmış əlverişli daxili vəziyyət uzun sürmədi. Birinci dünya müharibəsində (1914-1918) məğlub olan Türkiyə Mudros barışığına (1918) əsasən öz hərbi qüvvələrini Cənubi Qafqazdan, o cümlədən Bakıdan çıxarmalı oldu. Cənubi Qafqaz B.Britaniyanın təsir dairəsinə keçdi.

Müttəfiqlərin razılığına əsasən, bu zaman İranın Ənzəli limanında olan ingilis hərbi qüvvələrinin komandanı general Tomsona Bakını tutmaq əmri verildi. İngilis generalının tələbi ilə Osmanlı və Azərbaycan hərbi qüvvələri Bakını tərk etdilər. 1918-ci il noyabrın 17-də general Tomsonun hərbi qüvvələri Bakıya daxil oldu. Bakıda Tomsonun başçılıq etdiyi ingilis general-qubernatorluğu yarandı. Bakı şəhəri və onun neft mədənləri ingilislərin nəzarətinə keçdi.

Ölkənin hər yerində müxtəlif pillədən olan məktəblər, gimnaziyalar, qız məktəbləri,

uşaq bağçaları, qısamüddətli müəllim kursları, kitabxanalar açılır, kənd yerində xəstəxana və feldşer məntəqələri şəbəkəsi yaradılır, yoluxucu xəstəliklərə qarşı mübarizə aparılırdı. Bu baxımdan Parlamentin 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis olunması haqqında qəbul etdiyi qanunu xüsusi qeyd etmək lazımdır. Milli universitetin açılması Cümhuriyyət xadimlərinin xalq qarşısında çox mühüm tarixi xidməti idi. Sonralar Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, Cümhuriyyət ideyalarının yaşamasında və xalqımızın yenidən müstəqilliyə qovuşmasında Bakı Dövlət Universiteti misilsiz rol oynadı. 1991-ci ildə Azərbaycanın müstəqilliyi bərpa olunduqdan sonra Bakı Dövlət Universiteti öz tarixi missiyasını yenə şərəflə davam etdirdi və bu gün də davam etdirməkdədir.

Ölkədə elm və təhsilin inkişafına xüsusi diqqət yetirən Cümhuriyyət Parlamenti və Hökuməti, vaxt itirmədən, bu sahədə milli kadrlar hazırlanmasının sürətləndirilməsinə xüsusi səy göstərirdi. Bu zaman Azərbaycan Parlamenti Hökumətin təklifinə əsasən, 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına təhsil almaq üçün xarici ölkələrə göndərilməsi barədə qanun qəbul etmişdi. Bu işə nə qədər böyük əhəmiyyət verildiyi ondan görünür ki, Parlament xaricə göndəriləcək gəncləri müəyyən etmək üçün M.Ə.Rəsulzadənin başçılığı ilə beş nəfərdən (Mehdi bəy Hacınski, Əhməd bəy Pepinov, Qara bəy Qarabəyov, Abdulla bəy Əfəndiyev) ibarət xüsusi müsabiqə komissiyası yaratmışdı. Komissiyanın qərarına əsasən, ali təhsil almaq üçün 45 nəfər Fransa, 23 nəfər İtaliya, 10 nəfər İngiltərə, 9 nəfər Türkiyə ali məktəblərinə göndərilmişdi. Rusiyada oxumaq üçün seçilmiş 13 nəfər gənc orada vətəndaş müharibəsi getdiyi üçün təhsil almağa gedə bilməmişdi.

## AZƏRBAYCAN XALQ CUMHURİYYƏTİ DÖVRÜNDƏ ORDU QURUCULUĞU VƏ HƏRBİ ƏMƏLİYYATLAR

**_Bayramova Ü.M._**

*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Xalq Cümhuriyyətinin siyasi həyatında ən vacib və ugurlu addımlardan biri Azərbaycan Xalq Cümhuriyyəti Milli Ordusunun yaradılması oldu. Ölkənin ərazi bütövlüyünü təmin etmək və respublikanın suverenliyini qorumaq üçün Milli ordunun formalaşması ən zəruri məsələlərdən biri idi. Bu cəhətdən Azərbaycanın vəziyyəti qonşu Qafqaz respublikalarına nisbətən xeyli ağır idi.

Çar Rusiyasının Azərbaycan xalqına həqarətli münasibəti onların hərbi işlərə yadırğamasına gətirib çıxartmışdı. Əhaliyə silah verilmir, onlar hərbi işlərə yaxın

buraxılmırdı. Bu baxımdan Azərbaycanın qabaqcıl siyasi xadimləri Milli ordunun yaradılması zərurətini vacib bilib 1917-ci ilin əvvəllərində Müvəqqəti hökumətə müraciət etdilər. Lakin müsbət cavab almadılar. Bu zaman Müsəlman Milli fraksiyası Milli ordunun yaradılması istiqamətində əhəmiyyətli addımlara əl atdı. Milli fraksiyanın təşəbbüsü ilə Gəncədə, Bakıda, Lənkəranda və Tiflisdə müsəlman hərbiçilərinin yığıncaqları keçirildi. Hərbi hissələrin yaradılması böyük çətinliklərlə qarşılanırdı.

Ordunu təsis etmək üçün zəruri olan zabit heyəti çatışmır, silah və hərbi sursat yox dərəcəsində idi. Azərbaycan milli hərbi korpusunun əsasını Petroqraddan köçürülən "vəhşi diviziya"nın tatar süvari polku təşkil edirdi. General Ə. Şıxlinski ümimi komandanlığı öz üzərinə götürdü. İlk günlərdə yeni yaranmış respublikanın 600 nəfərlik hərbi hissəsi könüllü dəstələrdən ibarət idi. Azərbaycan ordusunun yaradılmasını sürətləndirmək üçün Osmanlı dövlətindən (1918-ci il iyun müqaviləsi) hərbi yardım alındı və hərbi mütəxəsislər dəvət edildi. 1918-ci ilin avqust ayında Azərbaycan Xaıq Cümhuriyyəti ölkədə hərbi səfərbərlik elan etdi. Verilmiş fərmana əsasən 19 yaşı tamam olan şəxslər hərbi qulluğa çağrıldı. Həmin ilin dekabr ayının 25-də general S. Mehmandarov hərbi nazir, general-leytenant Ə.Şıxlinski hərbi nazirin müavini, general S.Sulkeviç Azərbaycan ordusunun baş qərərgah rəisi təyin edildilər.

1919-cu ildə 25 min nəfərlik nizami milli ordu yaratmaq vəzifəsi irəli sürüldü. Bu məqsədlə dövlət büdcəsindən 400 milyon manat vəsait ayrıldı. Bu ərəfədə şimaldan baş qaldırmış Denikin təhlükəsini dəf etmək üçün Azərbaycan qonşu Gürcüstanla 1919-cu il iyun ayının 16-da hərbi pakt imzaladı. Pakta əsasən təcavüzə məruz qalan tərəf öz müttəfiqinin hərbi yardımına tam şəkildə arxalana bilərdi. Müqavilənin digər şərtinə əsasən Tiflisə göndərilən hərbi komissiya gürcülərdən 12 kiçik top, 12 dağ topu, 24 pulemyot, 3000 beşaçılan tüfəng, 211 qılınc, 795 nizə və s. hərbi ləvazimat aldı.

Azərbaycan Xalq Cümhuriyyətinin ilk hərbi təcrübəsi 1919-cu ildə Zəngəzura soxulmuş erməni quldur dəstələrinin müqavimətini qırmaq və Muğanda milli hökumətə qarşı qaldırılmış qiyamı yatırtmaq oldu. General Həbib Səlimovun iki alayı polkovnik İlyaşeviçin hərbi dəstələrini darmadağın etdikdən sonra hərbi nazirin əmrində deyildiyi kimi "Muğan və Lənkəranın ana yurdu-Azərbaycana qaytarılması başa çatdı və hərbi qənimət kimi 1 təyyarə, 24 top və 60 pulemyot ələ keçirildi. Azərbaycan ordusu öz gücünü Əskəran döyüşündə xüsusilə göstərdi. 1920-ci ilin martında Novruz bayramı gecəsi ermənilər qiyam qaldıraraq Əskəran keçidini tutdular. Əskəranı tutmaqla ermənilər Qarabağın dağlıq

hissəsini Azərbaycandan ayırmaq istəyirdilər. Qiyamı yatırtmaq üçün Azərbaycan hökuməti Əskərana general Həbib Səlimovun başçılığı ilə qoşun göndərdi. 1920-ci il aprelin 3-də səhər tezdən Azərbaycan ordusu hücuma keçib, ermənilərə ağır zərbə vurdu. Ertəsi gün Şuşa qalası da qiyamçılardan təmizləndi. 1919-cu ilin sonu-1920-ci ilin əvvəllərində hərbi nazirlik donanma yaratmaq sahəsində də xeyli iş görmüşdü.

Ordunun yaranma prosesi 1920-ci ilin yanvar ayında başa çatdırıldı və 40 minlik nizami ordu yaradıldı. Onun 30 mini piyada, 10 mini isə süvari qoşun hissələrindən ibarət idi. Azərbaycan ordusunun rəhbərliyi peşəkar hərbiçilərlə möhkəmləndirildi. Milli ordunun təşkili S. Mehmandarov, Ə.Şıxlinski, H. Naxçıvanski, İ.Usubov, İ.Vəkilov, H.Səlimov, S.Sulkeviç kimi sərkərdələrin və onların ətrafına toplaşmış məsləkdaşların Azərbaycan xalqı qarşısında gördükləri böyük iş, xalqın qəhrəmanlıq tarixinə yazılmış olan sədaqətli və yaradıcı xidmətin bariz nümunəsidir. Bu şəxsiyyətlərin təşkilatçılıq fəaliyyəti heç bir ənənəyə və bazaya malik olmadan qısa vaxt ərzində güclü ordu yarada bilmələri özü də bir təcrübə məktəbi, vətən və xalq yolunda yorulmaz fəaliyyət üçün bir örnəkdir.

Beləliklə, müstəqil Azərbaycan ordusunun yaradılması, möhkəmləndirilməsi və regionda real qüvvəyə çevrilməsi 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin çox şərəfli və mühüm səhifələrindən biridir.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ALİ TƏHSİL SİYASƏTİ

***Bədəlov S.B.***

*Sumqayıt Dövlət Universiteti*

Dünyəvi elmlərin mənimsədilməsi, yeni məktəblərin yaradılması, onun tədris proqramlarının təkmilləşdirilməsi məsələləri XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərinin pedaqoji iş sahəsindəki fəaliyyətində dönüş nöqtəsi oldu. Bu islahat ideyaları Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra maarif və mədəniyyətimizin, ictimai-pedaqoji fikrimizin qarşısında duran və həlli zəruri olan demokratik islahatlara yol açdı.

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən xalq maarifinə xüsusi diqqət yetirmişdi. Rusiyanın müstəmləkə siyasətinin nəticəsində əsarət altında olan xalqların milli-siyasi mənlik şüurunun oyanmasına hər vasitə ilə mane olunmuşdu və imperiyada milli təmayüllü məktəblər "ögey övlad" funksiyasını oynamışdı.

Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması ilə Azərbaycanın maarifpərvər dövlət xadimləri təhsili əsas dövlət siyasətinə çevirdi. Milli maarifçilik hərəkatının ideyaları praktik həllini tapmağa başladı.

1918-ci il mayın 28-də Nəsib bəy Yusifbəylinin başçılığı ilə Xalq Maarifi Nazirliyi təsis olundu. Nazirlik öz fəaliyyətinə Azərbaycan xalq maarifinin vəziyyətinin və bu sahədə həyata keçirələcək vəzifələrin müəyyənləşdirilməsi ilə başladı, xalq maarifi sahəsində islahatlar keçirmək üçün təkliflər hazırlayıb hökümətə təqdim etdi.

Azərbaycan Xalq Cümhuriyyəti qarşısında duran ən ümdə vəzifələrdən biri də Azərbaycanda ali təhsilin təşkili və ali təhsilli milli kadrların hazırlanması idi. Azərbaycan Hökuməti Xalq Maarifi Nazirliyi qarşısında, ilk növbədə, üç ali məktəbin - Bakı Dövlət Universiteti, Kənd Təsərrüfatı İnstitutu və Dövlət Konservatoriyasının açılması məsələsini qoymuşdu. Bakıda Kənd Təsərrüfatı İnstitutu açmaq məsələsi Hökumətin 1919-cu il 5 mart tarixli iclasında bəyənilmiş və Xalq Maarifi Nazirliyinə bu məsələ ilə əlaqədar qanun layihəsi hazırlayıb Parlamentə təqdim etmək tapşırılmışdı. Lakin o dövrdəki tarixi şərait yalnız bir ali məktəbin - Bakı Dövlət Universitetinin açılmasına imkan verdi.

1919-cu il sentyabrın 1-də Azərbaycan Parlamenti, nəhayət, Bakıda dövlət universitetinin açılması haqqında qanun qəbul etdi. Qanunda universitetin 4 fakültədən: ***tarix-filologiya*** (Şərq şöbəsi də daxil olmaqla), ***fizika-riyaziyyat, hüquq*** və ***tibb*** fakültələrindən ibarət olduğu göstərilirdi. 1919-20 tədris ilində isə yalnız iki fakültə - tibb fakültəsinin əvvəlinci kurslarını, tarix-filologiya fakültəsinin isə birinci kursunu açmaq mümkün oldu. 1919 il noyabrın 15-də universitetin auditoriyalarında ilk mühazirələr başlandı. Tarix-filologiya fakültəsində Məhəmməd Əmin Rəsulzadə və maarif naziri Rəşid Qaplanov Osmanlı ədəbiyyatından, Məhəmməd ağa Şahtaxtlı isə Azərbaycan dilinin qrammatikasından mühazirələr oxuyurdular. 1919-20 tədris ilində universitetdə 1094 tələbə təhsil alırdı ki, onların da 217 nəfəri azad dinləyici idi.

Universitetin təşkilat komissiyası V.İ.Razumovskini yedilliklə universitetin rektoru, görkəmli tarixçi, publisist N.A.Dubrovskini tarix-filologiya fakültəsinin, prof. İ.İ.Şirokoqorovu isə tibb fakültəsinin dekanı seçdi. İ.İ.Şirokoqorov bu zaman Bakıda olmadığına görə prof. A.M.Levin tibb fakültəsinə müvəqqəti dekan seçildi. Sentyabrın 10-da universitet komissiyası A.A.Osmanı, M.S.Milmanı, L.Q.Qurviçi, A.N.Derjavini tibb fakültəsinə, Y.İ.Baybakovu, L.A.İşkovu, L.Q.Lopatinskini, A.B.Selixanoviçi tarix-filologiya fakültəsinə professor vəzifəsində işə dəvət etməyi qərara aldı.

Cümhuriyyət dövründə Azərbaycanda ali təhsilli mütəxəssis kadrları hazırlamağın digər yolu azərbaycanlı gənclərin xarici ölkələrin ali məktəblərinə göndərilməsi idi.

Azərbaycan Parlamenti 1919-cu il sentyabrın 1-də Bakıda dövlət universitetinin açılması haqqında qanunla yanaşı, 1919/1920-ci tədris ilində dünyanın müxtəlif ali məktəblərində dövlət hesabına təhsil almaq üçün 100 nəfər azərbaycanlı gəncin xaricə göndərilməsi haqqında da qərar qəbul etdi. Bunun üçün 7 milyon manat vəsait ayrıldı. Avropa ali məktəblərinə göndərilən hər tələbəyə 400 frank təqaüd təyin olundu və 1000 frank yol xərci ayrıldı. Dövlət hesabına təhsil alacaq tələbələr ali məktəbi bitirdikdən sonra dörd il icbari qaydada Azərbaycan Hökumətinin təyinatına əsasən göndərildiyi yerdə işləməli idilər.

Bu işə nə qədər böyük əhəmiyyət verildiyi ondan görünür ki, Parlament xaricə göndəriləcək gəncləri müəyyən etmək üçün M.Ə.Rəsulzadənin başçılığı ilə beş nəfərdən (Mehdi bəy Hacınski, Əhməd bəy Pepinov, Qara bəy Qarabəyov, Abdulla bəy Əfəndiyev) ibarət xüsusi müsabiqə komissiyası yaratmışdı. Komissiyanın qərarına əsasən, ali təhsil almaq üçün 45 nəfər Fransa, 23 nəfər İtaliya, 10 nəfər İngiltərə, 9 nəfər Türkiyə ali məktəblərinə göndərilmişdi. Rusiyada oxumaq üçün seçilmiş 13 nəfər gənc orada vətəndaş müharibəsi getdiyi üçün təhsil almağa gedə bilməmişdi.

Beləliklə, 23 aylıq hakimiyyəti dövründə Azərbaycan Xalq Cümhuriyyəti ali təhsil siyasətini uğurla təşkil edə bildi. Azərbaycanın tarixində ilk ali təhsil müəssisəsi açıldı. İstedadlı Azərbaycan gənclərinin xaricdə ali təhsil alması üçün müvafiq şərait yaradıldı.

Azərbaycanda ali təhsil müəssisəsinin təsis olunması ilə bağlı V.İ.Razumovski yazırdı: ***"Azərbaycan öz maarif ocağını yaratdı, türk*** (Azərbaycan–*S.B.*) ***xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Asiya ilə Avropanın qovşağında yeni məşəl yandı".***

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİ

***Bünyadov Z.V.***

*Sumqayıt Dövlət Universiteti*

1918-1920-ci illərdə Azərbaycan Respublikasının həm daxilində, həm də ətrafında yaranmış olduqca mürəkkəb hərbi-siyasi şəraitdə, bütövlükdə Qafqaz-Xəzər bölgəsində böyük dövlətlərin kəskin geostrateji rəqabəti fonunda bir-birini əvəz edən beş Nazirlər Kabinetinin hər birinin qarşısında duran birinci dərəcəli vəzifə ölkənin milli

təhlükəsizliyinin təmin edilməsi istiqamətində kompleks tədbirlərin işlənməsi və həyata keçirilməsi idi. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası özünün daha dəqiq və konsentrik ifadəsini Nazirlər Kabinetinin üçüncü, dördüncü və beşinci tərkibinin 26 dekabr 1918-ci il, 14 aprel və 22 dekabr 1919-cu illərdə parlament tribunasından səsləndirilən rəsmi bəyannamələrində öz əksini tapmışdı. Üçüncü Nazirlər Kabinetinin bəyannaməsi ilə 26 dekabr 1918-ci ildə parlamentin beşinci iclasında F.Xoyski çıxış etmişdi. Bu bəyannamədə xüsusi qeyd olunurdu ki, hökumətin "birinci və başlıca vəzifəsi" Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi olacaqdır. Sənəddə göstərilirdi ki, "müstəqillik heç də "Cin səddi" ilə digər xalqlardan təcridolma demək deyil". Bu, o deməkdir ki, "azad Azərbaycan Rusiyanın ərazisində yaranmış digər dövlətlərlə, habelə Mərkəzi Rusiyanın özü ilə ən sıx əlaqələrə girə bilir və yəqin ki, girəcəkdir». Ölkənin beynəlxalq vəziyyətinin möhkəmləndirilməsində hökumət Azərbaycan nümayəndə heyətinin qarşıdakı Paris sülh konfransında iştirakına böyük ümid bəsləyirdi. Bu konfransda Azərbaycanın müstəqilliyinə xoş niyyətlə yanaşan "azad Amerikanın, demokratik İngiltərənin və respublika Fransasının dəstəyini almaq və dünya birliyi tərəfindən tanınmağa nail olmaq" lazım idi. Qonşularla qarşılıqlı münasibətlərə gəlincə, bəyannamədə xüsusi olaraq qeyd olunurdu ki, Azərbaycanın "heç kimə qarşı təcavüzkar niyyətləri yoxdur və bütün mübahisəli məsələləri o, sülh yolu ilə həll etmək istəyir". Bundan başqa, bəyannamədə Azərbaycanın 1918-ci ilin sonunda baş vermiş Ermənistan-Gürcüstan silahlı münaqişəsində vasitəçilik missiyası ilə çıxış etməyə hazır olduğu da ifadə olunurdu. Ümumilikdə isə Azərbaycan Respublikasının sülhsevər xarici siyasəti bütün qonşu dövlətlərlə diplomatik və iqtisadi sahələrdə dostluq münasibətlərini qurmağa" can atmasında öz ifadəsini tapmışdır.

Milli təhlükəsizliyin təmin edilməsində varislik dördüncü Nazirlər Kabinetinin bəyannaməsində də izlənilir. Bu bəyannamə ilə 14 aprel 1919-cu ildə parlamentin 29-cu iclasında hökumətin sədri N.Yusifbəyli çıxış etmişdi. Muğanda toplaşmış antiAzərbaycan qüvvələri tərəfindən separatizm təhlükəsi ilə bağlı Azərbaycanın ərazi bütövlüyünə real təhdidlərə, habelə "İrəvan və Tiflis quberniyalarının Azərbaycana məxsus hissələrində buraya öz hakimiyyətini yayaraq möhkəmləndirmək istəyən iddiaçılarla üzləşdiyimizə" işarə edən baş nazir bütün mübahisəli məsələlərin danışıqlar yolu ilə, "hər bir tərəfin qanuni hüquqlarına qarşılıqlı əməl etməklə" həll olunacağına ümid etdiyini bildirdi. Millətlərarası münasibətlər sahəsində daxili siyasi stabilliyin

təmin edilməsi məsələsinə toxunan baş nazir xüsusi olaraq qeyd edirdi ki, "yadlar adı altında yüz ildən çoxdur ki, inildəyən və mənəvi və iqtisadi həyatında məhdudiyyətlərlə üzləşən azəri türkləri Azərbaycan ərazisində yaşayan bütün xalqlara öz dini ilə yanaşı mədəni və milli xüsusiyyətlərini də qoruyub saxlamaq imkanı verməklə onlara eyni dərəcədə dözümlü münasibət bəsləməlidirlər” və "Azərbaycanın burada yaşayan bütün xalqlar üçün sevimli vətəninə çevrilməsi üçün hökumət bütün səylərini səfərbər edəcək... milli düşmənçiliyə bütün qüvvəsi ilə yol verməyəcək və onu kökündən kəsəcəkdir”. Bəyannamədə həmçinin o zaman A.İ.Denikinin könüllü qoşununa qarşı ağır silahlı mübarizə aparan Dağlılar Respublikası ilə həmrəylik də ifadə olunurdu. Parlamentin 22 dekabr 1919-cu il tarixli 109-cu iclasında Beşinci Nazirlər Kabinetinin bəyannaməsini elan edən N.Yusifbəyli Qarabağ məsələsinə toxunaraq Ermənistan tərəfindən Zəngəzur uyezdinin anneksiyasının təhlükəli olduğunu qeyd edirdi: "Zəngəzur yüz, hətta minillərdir ki, Azərbaycanın ayrılmaz hissəsidir. Buna görə də aydındır ki, bu intriqa baş tutmayacaq”. Elə buradaca baş nazir Azərbaycanın bütün mübahisəli məsələlərin dinc yolla həllinə sadiq olduğunu xatırladır və göstərirdi ki, bu məqsədə aparan yol "erməni milli azlığının mədəni hüquqlarının tanınması haqqında şərtlərin qəbul edilməsi və onun hökumətin həqiqi himayəsi altına alınmasıdır”. Bu istiqamətdə hökumətin gördüyü tədbirlərə işarə edən baş nazir qeyd edirdi ki, "Azərbaycan və Ermənistanın gələcəyi milli azlıqların hüquqlarının təmin edilməsi məsələləri ilə bağlıdır”.

Hökumətin bəyannaməsində qonşu dövlətlər olan Gürcüstan, Ermənistan, Türkiyə, İran və Rusiya ilə qarşılıqlı münasibətlərə geniş yer verilmişdir. Baş nazir 27 iyun 1919-cu ildə bağlanmış Azərbaycan-Gürcüstan mühafizə paktlarının xarici təhlükədən müdafiə işində hər iki dövlət üçün böyük əhəmiyyətə malik olduğunu qeyd edir və hökumətin müdafiə işini daha da möhkəmləndirməkdə qətiyyətli olduğunu məmnunluqla vurğulayırdı. Ermənistana gəlincə, bəyannamədə bütün mübahisəli ərazi məsələlərinin sülh yolu ilə həll ediləcəyini ümid bəslənirdi. Qeyd olunurdu ki, "yaxın gələcəkdə Qafqaz respublikaları arasında sıx əlaqə və əbədi dostluq qurulacaqdır”. Xüsusi vurğulanırdı ki, gələcək "konfederasiyaya və ya digər ittifaq formasına ...Şimali Qafqaz Respublikası da daxil olmalıdır”. Bir daha Şimali Qafqazda denikinçilərə qarşı partizan müharibəsi aparan dağlılarla həmrəy olduğunu bildirən hökumət dərk edirdi ki, "dağlıların müstəqilliyinin yox edilməsi bizim də müstəqilliyimizə böyük təhlükədir”. Fətəli xan Xoyskinin və Nəsib bəy Yusifbəylinin Nazirlər Kabinetinin üç

bəyannaməsinin əsas məzmununun təhlili 1918-1920-ci illərdə Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının bir sıra parametrlərini qeyd etməyə imkan verir. Bunlara sülhsevər xarici siyasətin həyata keçirilməsi, öz qonşuları ilə bütün ərazi mübahisələrinin müstəsna olaraq masa arxasında, danışıqlar yolu ilə həll edilməsi aid idi.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ VƏ MİLLİ İDEYA

***Cəbrayılova G.Ə.***

*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*

Milli ruh öz inkişafında müəyyən mərhələlərdən keçir. Bir şəxsin özünüdərk yolunda emosiyadan təfəkkürə və oradan da fəlsəfi dünyagörüşünə doğru keçdiyi yola bənzər olaraq, bir millət də yalnız ruhun emosional halından fəlsəfi özünüdərk məqamına yüksəlirkən əsl böyük millət olur. Milli ideologiyalarda milli mənəvi dəyərlərin insanların həyatında və cəmiyyətin inkişafında rolu yüksək qiymətləndirilir və həmin dəyərlərin qorunub yaşadılması və yüksəldilməsi, bu dəyərlərə söykənən milli dövlətlərin qurulması, milli şüurun formalaşdırılması və milli münasibətlərin tənzimlənməsinin cəmiyyətin digər problemlərinin həllinə şərait yaradacağı, onu asanlaşdıracağı əsaslandırılır. Həmçinin, millətlərin bərabərliyi prinsipini gözləməklə milli ideologiyanın yalnız bir millətin yox, bütün millətlərin, bütövlükdə bəşəriyyətin xoşbəxtliyinə yönəldiyi əsaslandırılır. Milli ideoloqumuz M.Ə.Rəsulzadənin "İnsanlara hürriyyət, millətlərə istiqlal" deyimi bu prinsipi çox gözəl ifadə edir. Əslində millətlərin bərabərliyinin gözlənilməməsi bir prinsip kimi ideologiya anlayışına ziddir. Belə ki, bu bir millətin digərlərindən üstünlüyü, onlar üzərində hakimiyyəti milli haqlara və ictimai ədalətə ziddir.

Rus imperiyasında türkçülük ideyalarının inkişafının əsas mərkəzlərindən biri məhz Quzey Azərbaycan olmuşdur. Burada milli ideologiyanın formalaşması heç şübhəsiz ki, maarifçilik hərəkatından başlayır. Bu hərəkat XIX əsrin əvvəllərində A.Bakıxanov, M.Ş.Vazeh, Q.Zakir, M.Kazım bəy, İ.Qutqaşınlı və b. tərəfindən başlanmış, əsrin sonları və XX əsrin əvvəllərində yüksək inkişaf səviyyəsinə çatmış və tariximizə çox mühüm töhfələr vermişdir. Bu hərəkatın nümayəndələri kimi M.F.Axundzadə, S.Ə.Şirvani, M.M.Nəvvab, H.Zərdabi, M.Şahtaxtlı, M.T.Sidqi, Ünsizadə qardaşları, N.Vəzirov, M.Ə.Sabir, C.Məmmədquluzadə, S.Qənizadə, H.Mahmudbəyov, R.Əfəndiyev, F.Köçərli, Ə.Haqverdiyev, N.Nərimanov, M.S.Ordubadi, Ö.F.Nemanzadə, A.Səhhət, S.S.Axundov,

A.Şaiq, Ü.Hacıbəyli və b. adlarını çəkmək olar. Bu hərəkatın milli ideyaların təbliğində və milli şüurun formalaşmasında böyük rolu olmuşdur. Bu böyük maarifçilər tərəfindən milli azadlıq ideyaları açıq şəkildə təbliğ olunmasa da, əhalini təhsilə cəlb etmək, ana dilimizdə yeni tipli məktəblər və mətbuat orqanları açmaq, bu dildə dərsliklər, lüğətlər, bədii və elmi əsərlər və s. yazmaq, tarix və mədəniyyətimiz üzrə tədqiqatlar aparmaq, milli incəsənət sahələrini inkişaf etdirmək, Qərbdəki ETT-ni və demokratik dəyərləri örnək götürmək, xurafata və təriqət ayrı-seçkiliyinə qarşı mübarizə aparmaq, dinə elmi əsaslarla yanaşmaq, həqiqi islam dəyərlərini irəli çəkmək və s. istiqamətində mütərəqqi fikirlər təbliğ olunmuş və real işlər görülmüşdür. Bu isə məhz milli ideologiyamızın millilik, müasirlik və islam prinsiplərinə uyğun ideyaların təbliği və həyata keçirilməsi demək idi. Onu da qeyd edək ki, bu böyük işlər şovinist çar rejiminin ciddi təqib və təzyiqləri şəraitində həyata keçirilmişdir. 1918-1920-ci illərin Cümhuriyyət hərəkatı əvvəlcə “ideya hərəkatı” kimi formalaşmış, mənəvi birlik və həmrəylik axtarışlarında ədəbi-ictimai fikir bir neçə mərhələdən keçmiş, milli ideya, bəxtini islamçılıqda, turançılıqda sınadıqdan sonra nəhayət özünü azərbaycançılıqda tapmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin ideoloji əsasını dini-etnik deyil, sosial-humanitar amil təşkil edirdi. “Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti” özündən sonra təşkil olunmuş xeyriyyəçi-maarifpərvər cəmiyyətlərin yaranmasına təkan vermiş oldu. Milli cəmiyyətlərdən olan “Türk ocağı” Cəmiyyətinin məqsədi əhalidə türkçülük və azərbaycançılıq ideyasını təbliğ etmək idi.

Azərbaycan Demokratik Respublikası Parlamentinin istifadə etdiyi dil dövlət statusuna malik Azərbaycan türkcəsi idi. Qeyri-yerli Parlament nümayəndələri çıxışların rus dilində olmasını təklif etdikdə parlamentin iclaslarından birində bu məsələ xüsusi müzakirə olunmuş və bu xüsusda qərar qəbul edilmişdi. Qərara əsasən parlamentin rəsmi dili Azərbaycan türkcəsi elan olunmuş, digər millətlərin nümayəndələrinin çıxışlarını rus dilində etmələri məqbul hesab edilmişdi. Tədris proqramları, tədris planları, dərsliklərin ana dilində nəşri problemləri mühüm məsələlərdən idi. Ana dilinin təmizliyi, saflığı, sadəliyi, anlaşıqlı olması ön planda idi. Hüseyn Ərəblinskinin rəhbərliyi ilə yaradılmış Azərbaycan Dövlət Teatrında oynanılan əsərlərin çoxu xalqın qəhrəmanlıqlarla dolu keçmiş tarixini, türk dünyasının əzəmətini özündə əks etdirirdi. Hökumət dairələrinin maneçiliklərinə baxmayaraq 1906-cı il avqustun 15-də Bakı şəhərində Azərbaycan müəllimlərinin ilk qurultayını keçirildi. Azərbaycan pedaqoji fikir tarixində xüsusi yeri olan həmin qurultayda alınmış qərarlar arasında qurultay tərəfindən işlənmiş Azərbaycan dili proqramının təsdiqi,

ana dilinin azərbaycanlılar üçün əsas fənn hesab edilməsi və tədris planlarında ana dilinə ayrılmış saatların artırılması, müsəlman əhalisinin sıx yaşadığı yerlərdə inspektorlardan birinin müsəlman olması, ana dilindən dərs deyən müəllimlərin statusunun, məktəblərə daxil olan müsəlman uşaqlarının sayının iki dəfə artırılması, şəhər və kənd məktəblərində sənət verən şöbələrin, hər bir şəhərdə qız rus-tatar məktəbinin açılması, Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müsəlman mərkəzlərindən birinə keçirilərək müəllimlər seminariyasına çevrilməsi və orada Azərbaycan dilinin əsas fənn kimi tədris edilməsi, müsəlman müəllimləri üçün pedaqoji kursların təşkil edilməsi tələbləri olmuşdur.

1876-cı ildə fəaliyyətə başlamış Qori seminariyası Azərbaycan üçün maarifçi ziyalıların, müəllim kadrlarının hazırlanması sahəsində xidmət göstərmişdir. 1879-cu ildə fəaliyyətə başlamış Azərbaycan şöbəsi azərbaycanlı uşaqların təhsilə cəlb edilməsi sahəsində mühüm işlər görmüşdür. Görkəmli maarifçilər C.Məmmədquluzadə, N.Nərimanov, R.Əfəndiyev, H.Mahmudbəyov, F.Köçərli bu seminariyada təhsil almışlar. Mirzə Fətəli Axundzadə əlifbanın dəyişdirilməsi, dil, ədəbiyyat, incəsənət, tarix və s. bu kimi məsələlərlə bağlı yeni fikirlərlə çıxış edirdi. Azərbaycan hökuməti fəaliyyət göstərdiyi müddət ərzində mətbuatın inkişafına xüsusi diqqət yetirirdi. İctimai-siyasi səciyyə daşıyan ədəbi-publisist materialların yer aldığı “Tiflisskiye vedomosti” (“Tiflis əxbari”) qəzeti 1828-ci il iyun ayının 4-də işıq üzü görmüşdür. “Tiflisskiye vedomosti” Tiflisdə rus dilində nəşr olunan ilk mətbuat orqanı idi. Qəzet 1829-cu ildən gürcü, 1832-ci ildən Azərbaycan dilində nəşr olunurdu. Qəzetdə Marlinskinin “Qırmızı örtük” (1831, N6, 7), “Vaxtı ilə dağlılara əsir düşmüş zabitin hekayəsi”, (1831, N9, 17), V.Qriqoryevin oçerkləri, P.Sankoviskinin, Q.Qordeyevin şeirləri və s. əsərlər dərc edilmişdir. Həmçinin “Abbasabad mühasirəsinin təsviri” (1829, N27, 30), “Müasir tarix. Azərbaycan vilayətinin hərbi vəziyyəti haqqında” (1829, N38, 43), “Moskvalı dostuma məktub” (1830, N25), “Qarabağ əyalətinə tarixi baxış” (1830, N81-83) və s. məqalələrdə Azərbaycan, Azərbaycan dastanları, azərbaycanlıların məişəti, yaşayış tərzi və s. haqqında məlumat verilirdi. Qəzetin 1830-cu il 68-ci nömrəsində Azərbaycan xalq eposu “Koroğlu” haqqında məqalə verilmişdir.

Beləliklə, Azərbaycanın İstiqlal Bəyannaməsinin qəbulu ilə Müsəlman şərqində ilk parlamentli respublika elan edilən Azərbaycan Xalq Cümhuriyyəti türk və İslam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi. Tam hüquqlu müstəqil dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və

dövlətlərlə mehriban münasibətlər yaratmış, öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq onların siyasi və vətəndaşlıq hüquqlarını təmin etmiş, bütün bu millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaratmışdır.

## AXC DÖVRÜNDƏ BAKI NEFTİ

***Cəlalzadə B.M.***

*Sumqayıt Dövlət Universiteti*

İmperialist dövlətlərinin planlarında neft Bakısı Zaqafqaziyaya sahib olmaq üçün əsas strateji baza kimi nəzərdə tutulurdu. Digər tərəfdən onlar üçün Bakı ən mühüm xammal bazası, bütövlükdə isə bütün Şərqə təsir edərək ona sahib olmaq üçün bir açar rolunu oynayırdı. Bakı neftini öz əlində saxlamaq üçün Rusiya Xarici İşlər Nazirliyi Almaniya ilə təcili əlaqə yaradaraq, 1918-ci ildə bağlanmış Brest-Litovsk sülh müqaviləsinə Almaniya üçün çox əlverişli əlavə etməyi təklif etdi: Rusiya hökuməti avqustun (1918) 27-də Almaniyaya bildirdi ki, əgər Almaniya öz müttəfiqi Türkiyəni Bakını zəbt etmək cəhtindən çəkindirsə, Rusiya hökuməti Bakı neftinin 1/4 hissəsinin Almaniyaya verilməsini təmin edəcəkdir. Sonrakı hadisələr Rusiyanın bu planının reallaşmasına imkan vermədi, Azərbaycanda müstəqil Xalq Cümhuriyyəti hakimiyyəti (1918-1920) yaradıldı. 1918-ci ilin aprelində bolşevik Rusiyasının himayəsi altında Bakıda təşkil edilmiş Bakı quberniyası Xalq Komissarları Sovetində (Bakı Kommunası) Stepan Şaumyanın rəhbərliyi altında idi. Bu da o demək idi ki, Bakı kommunasında bütün əsas vəziflər, xüsusilə hərbi-siyasi vəzifələr, əsasən, ermənilərin əlində idi. Beləliklə, Bakıda bolşevik-daşnak hakimiyyəti yaranmışdı və Bakı Kommunası tərkibində ikinci dərəcəli vəzifələrə Nəriman Nərimanovun və Məşədi Əzizbəyovun daxil edilməsi şəhərin müsəlman əhalisini itaətdə saxlamaq üçün bir pərdə idi. Bakı Kommunası rəhbərliyi açıqcasına bildirmişdi ki, cəbhələrdən Bakıya qayıtmış erməni-daşnaq hərbi dəstələri və İranda yerləşən Lazar Biçeraxovun hərbi dəstələri onun müttəfiqidir. Belə bir şəraitdə erməni millətçiləri (daşnaqlar) İranda olan İngilis hərbi hissəsi rəhbəri general Denstervil ilə də gizli əlaqə yaradaraq ondan Bakını əldə saxlamaq üçün hərbi kömək istəmişdi. General Denstervilə Bakıya ingilis hərbi dəstələrini göndərmək haqqında erməni -daşnaqların dəvəti İngiltərə hökuməti üçün neft Bakısını zəbt etməkdən ötrü ən yaxşı fürsət idi. Bu işdə 1000 nəfərlik hərbi qüvvəsi olan general Denstervilə İranda yerləşən rus ağ qvardiyaçı generalı Biçeraxov özünün 1200 nəfərlik əsgəri qüvvəsi ilə

kömək etməyə razılığını bildirdi. General Denstervil Bakıya kiçik bir hərbi dəstə ilə Xəzər dənizi vasitəsilə 1918-ci ilin 16 avqustunda gəldikdən bir neçə gün sonra Bakı hər tərəfdən Türkiyə və Azərbaycan hərbi hissələri ilə mühasirə olunmuşdu. Sentyabrın 15-də Bakı bu düşmənlərdən azad edildi. Belə bir şəraitdə Denstervil özü ilə gətirdiyi kiçik hərbi dəstəni Xəzər dənizi vasitəsilə sentyabrın 13-də İrana qaytardı. Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin (1918- 1920) neft siyasəti 1918-ci ilin 5 oktyabrında qəbul edilmiş «Neft sənayesinin yenidən milliləşdirilməsi haqqında qərar» ilə müəyyən edildi. Həmin qərarın 4-cü maddəsində deyilirdi: bütün neft ehtiyatları hökümətin ayrıca qərarına qədər onun sərən-camında qalır və sahibkarların mühafizəsinə verilir. Ticarət Nazirliyinin icazəsi olmadan bu neftin ölkədən çıxarılması qadağandır. 1918-ci ildə Bakıda mövcud olan 165 müstəqil neft firmasının özünəməxsus mədənləri, neft emal edən zavodları, boru kəmərləri və anbarlan var idi. Bu dövrdə Bakının neft təsərrüfatı özündə 19 iri təşkilatı birləşdirirdi. Onlardan 17-si neft mədənlərini, biri neft emalı zavodlarını, digəri isə boru kəməri şəbəkəsini əhatə edirdi. Neft sənayesinin inkişafı ilə əlaqədar olaraq artmaqda olan idxal-ixrac əməliyyatları və ödənişləri tənzimləmək üçün 1919-cu ilin sentyabr ayının 30-da Bakıda təntənəli surətdə Azərbaycan Dövlət Bankı yaradıldı və kredit bankları açıldı. 1919-cu ilin oktyabrın 25-də kredit bankları və şəhərlərdə əmanət kassaları fəaliyyətə başladı. O vaxt neft sənayesində yaranan ən mühüm problemlərdən biri neftin emal edilməsində yaranmış çətinliklərlə bağlı idi. Dağıntılar nəticəsində neft hasilatı ilə emalı arasında böyük uyğunsuzluq yaranmışdı. Azərbaycanda mövcud olan çoxsaylı neft emalı müəssisələrinin ümumi gücü 0,5 mln. ton təşkil edirdi. 1918-ci ildə Azərbaycanda neft emalının həcmi təxminən 200 min tona endiyindən xaricə neft, əsasən, xammal şəklindən ixrac edilirdi. Bu dövrdə Bakının neft təsərrüfatında fəaliyyət göstərən şirkətlər aşağıdakı transmilli korporasiyalarda birləşdilər. Neft emalı, kimya və neftin ixracı ilə Nobel qardaşları məşğul olurdular. Neftin hasilatı, emalı və ixracını Rus neft şirkəti həyata keçirirdi. Neft hasilatı, neftayırma sahələrinin avadanlıqlarla təchizatını ingilis-holland "Şell" tresti yerinə yetirirdi. Maliyyə-neft korpo-rasiyasında iştirak edən 10-dan artıq xarici ölkə şirkətləri neft və neft emalı sənayesinin ink-işafını maliyyələşdirirdilər. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti neft sənayesinin işinin tənzimlənməsi, inkişafının təmin edilməsi və bu sahə üzərində dövlət nəzarətinin möhkəmləndirilməsi məqsədilə 1919-cu ilin əvvəlində xüsusi qərar qəbul etdi. Həmin qərara əsasən ölkə neftinin yalnız Batumi boru xətti ilə daşınmasına, satılmasına və mübadiləsinə icazə verilirdi. Bu qərarla Azərbaycan neftinin dağıdılmasının,

mənimsənilməsinin qarşısına ciddi sədd çəkildi. Beləliklə, təqribən 18 ay neft sənayesi Xalq Cümhuriyyətinin sərəncamında qaldı. Xalq Cümhuriyyəti hökumətinin gördüyü tədbirlər nəticəsində 1919-cu ildə aylıq neft hasilatı 18 milyon puda çatdırıldı. Onun 14 hissəsi xarici bazarlara satıldı, qalan hissəsi isə ölkədə cəmləşdirildi. 1919-cu ildə Bakıda istehsal olunan neftin 40,5 milyon pudu Batumi, Krasnovodsk, Pəhləvi limanları vasitəsi ilə xarici ölkələrə satıldı.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq hakimiyyəti dövründə (1918 may - 1920 aprel) Bakı nefti yenicə yaranmış müstəqil dövlətin müdafiə xərcləri üçün mənbə oldu. 1919-cu ilin dövlət büdcəsində hərbi xərclər büdcənin 24 faizini təşkil edirdi: 1919-cu ildə Azərbaycan milli ordusunda aviasiya dəstəsi yaratmaq işinə başlandı. Həmin il Avropanın ali məktəblərində təhsil almaq üçün Azərbaycandan dövlət hesabına təminat ilə 100 nəfər gənc göndərildi. Göstərilən ildə Azərbaycan Ordusu üçün 3 zirehli qatar, 4 hərbi təyyarə, 6 zirehli avtomobil və digər silah növləri alınmışdı. 1919-cu ilin sonunda milli ordu 40 min nəfərlik şəxsi heyətə malik idi.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN TƏHSİL SİYASƏTİ

***Dadaşzadə Ə.İ., Məhərrəmova E.***

*Sumqayıt Dövlət Universiteti*

1918-ci il mayın 28-də Bakıda yaradılan Azərbaycan Cümhuriyyəti Azərbaycan dövlətçilik tarixində çox möhkəm təməl oldu.

Y.V.Çəmənzəminli "Biz kimik və istədiyimiz nədir?" kitabında yazırdı: "Dünyada hər bir millətin xoşbəxt yaşamasına səbəb ancaq o millətin öz milli idarəsi ola bilər. Milli idarə də milli torpaqda,yəni müəyyən bir ölkədə bərqərar ola bilər. Halımızı nəzərə aldıqda özümüzü xoşbəxt gördüm. Çünki biz Azərbaycan kimi dövlətli bir ölkəyə malikik. Deməli,əvvəlinci məsələ milli ölkədir. Milli ölkə olduqda ikinci məsələ sakin xalqdır. Bir xalq ki, bir dinli, bir qanlı, bir adətli, bir tarixli oldu,o xalqın mənası artar.

Azərbaycanda hamıdan artıq olan biz türkləri mülahizə etdikdə özümüzü xoşbəxt görürəm,çünki torpağımıza söykənsək,heç bir düşmən bizə xətər yetirə bilməz. Ölkə və cəmiətdan başqa bir böyük məsələ də var. Bu məsələ də hakimiyyət məsələsidir. Bu hakimiyyət, yəni ölkəmizin ixtiyarı kimin əlinə düşsə, üstümüzə o ağa olacaq.

Bizim Azərbaycan min il bundan əvvəl də mövcud idi. Onda həm ölkəmiz var idi, həm də xalqımız. Lakin hakimiyyət bizim əlimizfə deyildi. Gəldi-gedər bir xan və ya bəy

faydamızı gözləyə bilmirdi. Rusların hakimiyyəti bizi dəxi də pis hallara gətirdi; ixtiyarımızı əlinə alıb,bizi həm torpağımızdan həm də millətimizdən məhrum qılmaq istədi. Vətənimizi rus köçəriləri ilə doldurdu.

Böylə olan surətdə bizim üçün ən vacib məsələ Azərbaycanın hakimiyyətini öz əlimizə almaqdır. Bu isə istiqlal ilə olur. Odur ki, Azərbaycan istiqlali firqəmizə ələm olmuşdur.

Türk ədəmi-mərkəziyyət firqəsi "Müsavat"ın əsl məqsədi də bundan ibarətdir.

Ola bilər ki,öz ixtiyarımızı öz əlimizə düşdükdə ədalətsizlik baş versin. Ədalətsizliyi yox etmək üçün Azərbaycan hakimiyyəti gərək xalqın öz istədiyi adamların əlinə keçsin. Ta ki, milli idarə xalqın xahişi ilə olub camaatın hər bir sinfinin ehtiyacını nəzərə alsın. "Müsavat"ın ümdə istədiyi budur ki, ümumixalq imtiyazlı siniflərin keyfi-məişəsinə qurban olmasın. Deməli,biz müsavatçıların bu saat iki fikri var: biri Azərbaycanın xarici işlərinə dairdir,digəri də daxili işlərinə."

Y.V.Çəmənzəminli "Xarici siyasətimiz" kitabında yazırdı: "Dünyada hər bir dövləti təşkil edən üç amildir: torpaq, millət və hakimiyyət. Bu gün Azərbaycanda bu üç amil mövcud olduğu üçün Azərbaycan müstəqil bir məmləkətdir. Bu məmləkət mövhum bir ölkə,süni bir qitə deil. Bura tarixdə ad qoymuş və istiqlaliyyətini neçə əsr əvvəl qalib etmiş bir dövlətdir. XII əsr miladidə Atabəy Şəmsəddin Eldəniz indiki Q afqaz və İran Azərbaycanını bitişdirdi, bir məmləkət şəklinə saldı. Atabəy Nəsrəddin Əbubəkr bin Cahan Pəhləvan indiki Qafqaz Azərbaycanında və əsl Azərbaycanda 20 il səltənət sürübdür. Bu günkü Azərbaycan ən sağlam vücuda malikdir".

Bütün türk-müsəlman dövlətləri dini təməl üzərində qurulduğu halda Azərbaycan Cümhuriyyəti dünyəvi təməl üzərində yaradılan ilk türk-müsəlman dövləti oldu. Azərbaycan Milli hrəkatının məntiqi yekunu kimi yaradılan Azərbaycan Cümhuriyyəti tarix etibarilə çox qısa-cəmi 23 ay yaşasa da bu 23 ay Azərbaycan dövlətçilik tarixində çox mühüm təməl oldu. 70 il ərzində Sovet hökumətinin həyata keçirdiyi ağlasığmaz qeyri-insani cəza tədbirləri də Azərbaycan xalqının qəlbinə hopmuş bu möhkəm təməli dağıda bilmədi və nəticədə 1991-ci ildə Azərbaycan xalqı yenidən öz milli müstəqilliyinə qovuşdu.

XIX əsrin sonları və XX əsrin əvvələrind Azərbaycan xalqı milli müstəqillik,azadlıq duyğuları ilə yaşayırdı. Xalqımızın qabaqcıl şəxsiyyətləri,ziyalıları xalqımızda milli istiqlal,milli müstəqillik duyğularını gücləndirmi.,milli dirçəliş,milli oyanış əhval-ruhiyyəsini yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır.

M.Ə.Rəsulzadə Azərbaycan xalqının tarixinə milli istiqlal hərəkatının,Azərbaycan Demokratik Cümhuriyyətinin banilərindən biri, Azərbaycan gğrkəmli siyasi,ictimai və dövlət xadimi kimi daxil olmuşdur. Hələ gənc yaşlarından,20 yaşında mətbuatda ("Şərqi-Rus", "Hümmət", "Təkamül" və s.) dərc olunmuş yazılarında xalqa söz,mətbuat,vicdan, cəmiyyət və ittifaqlar yaratmaq azadlıqları verilməsi tələbləri ilə çıxış, xalqı maariflənmyə çaöırır, Rusiyanın Azərbaycanda yeritdiyi milli qırğın siyasətini kəskin tənqid edirdi.

Azərbaycanda yaranan milli oyanış Əlimərdan bəy Topçubaşov,Əhməd bəy Ağaoğlu,Əli bəy Hüseynzadə, Həsən bəy Zərdabi və başqalarının çar Rusiyasının milli ayrı seçkilik siyasətinə qarşı mübarizəsi, M.Ə.Rəsulzadənin milli-siyasi görüşlərinin ayaq üstə sürəkli alqışları ilə qarşılanmışdı.

Bu gün ölkədə ali məktəblərin flaqmanı olan Bakı Dövlət Universiteti Azərbaycan Xalq Cümhuriyyətinin ən böyük nailiyyətlərindən biridir. Bu universitetin yaradılması Azərbaycan Xalq Cümhuriyyətinin təhsil nəticəsi idi. 21 avqust 1919-cu il bütövlükdə Azərbaycan təhsili,elm və mədəniyyət tarixinin ən mürəkkəb,ən gərgin,amma ən şərəfli günlərindən biri oldu.

Bakıda universitetin açılmasını ziyalılar həmin elmi-təhsil ocağını milli müstəqilliyin,demokratik,azad,dünyəvi dövlətin əsas atributlarından biri sayılır,onu xalqın intellektual potensialının,elm,təhsil və mədəniyyətinin,milli ruhunun,milli özünüdərkinin inkişaf etdirilməsinə,millətimizin müstəqil və azad yaşamağa layiq olduğunu bütün dünyaya sübut etməyə xidmət edəcəyinə inanırdılar. Maarif naziri Rəşid xan Kaplanov "Darülfünunun mövcudiyətilə biz vətənimizi daha başqa bir surətdə Avropaya qarşı göstərəcək və yaşamağa layiq bir millət olduğumuzu da bu surətlə əda və isbat edəcəyik" nəticəsinə gəlirdi.

Bakı Dövlət Universitetinin yaranmasında Azırbaycanın M.Şahtaxtlı, F.Rzabəyli, R.Məlikov, M.Mirqasımov, M.Əfəndiyev, Ə.B.Haqverdiyev, T.Şahbazi, N.Şahsuvarov, V.İ.Razumovski və başqa ziyalıların böyük xidməti olmuşdur.

Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin Azərbaycan şəhərlərindən birinə köçürülməsinə dair Azərbaycan ziyalılarının başda N.Nərimanov,M.Ə.Rəsulzadə olmaqla,böyük bir dəstəsinin arzusu həyata keçirildi.

Azərbaycan bölməsi müstəqil seminariyaya çevrilərək Qazaxa köçürüldü və direktor təyin olunmuş F.Köçərlinin rəhbərliyi ilə fəaliyyətini davam etdirdi. İ.Vəkilov, Y.Qasımov, Ə.Hüseynov, M.Hüseynzadə, İ.Qayıbov və başqaları Şərqdə ilk demokratik,hüquqi dövlət

olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə xalq təhsili, maarifi və mədniyyətinin inkişaf etdirilməsidə,təhsilin yeni milli köklər üzərində yenidən qurulmasında,məktəb islahatlarının aparılmasında, anadilli Azərbaycanda təhsilin,maarifin və mədəniyyətin inkişafı, savadsızlığın aradan qaldırılması uğrunda yorulmadan mübarizə aparmışlar.

1919-cu ildə müxtəlif yerlərdə, o cümlədən Gəncə, Şəki, və Zaqatalada pedoqoji kurslar təşkil edildi, Bakıda Dövlət Konservatoriyasının açılması işinə hazırlıq başlandı,savadsızlığən ləğvi sahəsində axşam kursları təşkil edildi, dövlət rəsmi orqanı olan "Azərbaycan" qəzeti nəşr olundu.

1919-1920-ci illər üşün 100 nəfər tələbə və abituriyent xaricə ezam edildi.1919-cu ilin mart ayında Balıda ali kənd təsərrüfatı institutu,milli qadın gimnaziyası, Ağdamda,Şuşada və Zəngəzurda kənd təsərrüfatı məktəbi, Göyçayda real məktəbi, bundan başqa Bakıda ali ibtidai məktəblər müəllimlər hazırlamaq üçün birillik pedoqoji kurslar açmaq nəzərdə tutulmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin ilk maarif naziri Nəsib bəy Yusifbəyli bütün çıxışlarında və fəaliyyətində xalq maarifinin demokratik əsaslar üzərində qurulmasına çalışmışdır. N.Yusifbəyli yazırdı ki, "Hazırda yalnız savadlı xalq müstəqil yanaşmaq hüququna və imkanına malikdir. Xalqa hadisələrin gedişinə ayıq-sayıq münasibət və vətənə şüurlu münasibət təlqin etmək lazımdır; yalnız bu halda biz digər xalqlar arasında azad yaşamaq zəmanətinə nail ola bilərik."

Yusif Vəzir Çəmənzəminli Azərbaycan Demokratik Cümhuriyyətinin yaradılmasında,onun daxili və xarici siyasətinin işlənib hazırlanmasında "əziz yoldaşımız və böyük mürşidimiz" adlandırdığı M.Ə.Rəsulzadə ilə çiyin-çiyinə çalışmış,əldə edilmiş istiqlaliyyətin möhkəmləndirilməsi sahəsində xeyli iş görmuşdur. "Böyük məqsədimiz və amalımız Azərbaycanımızdır"deyən Y.V.Çəmənzəminlini Azərbaycanın tarixi, coğrafiyasl və iqtisadiyyatı, onun mədəniyyəti, mənəviyyatı və maarifi dərindən maraqlandırmış və məşğul etmişdir. Azərbaycanı tanıtmaq,onun haqqında özünə layiq geniş ictimai rəy doğurmaq-bu gün də aktuallığını və əhəmiyyətini saxlayan bu mühüm məsələ 1917-1921-ci illərdə Y.V.Çəmənzəminlini daha çox narahat və məşğul edirdi. "Azərbaycan muxtariyyəti", Biz kimik və istədiyimiz nədir," "Azərbaycan ədəbiyyatına bir nəzər", "Tarix, coğrafiya və iqtisadi Azərbaycan", "Azərbaycan və azərbaycanlılar", "Xarici siyasətimiz", "Milli və mədəni işlərimiz" və digər əsərləri də Azərbaycanı dərindən və hərtərəfli öyrənmək,onun səsini dünyaya eşitdirmək arzusundan doğmuşdur. Qanunlarının əsasında məhz

huriyyət,müsavat və ədalət dayanan Azərbaycan Demokratik Cümhuriyyətinin xarici siyasəti və ölkə daxilində görkəmli olduğu milli-mədəni işlər haqqında yazılmış yuxarıda adları çəkilənlər öz vaxtında mühüm rol oynamış, bu gün də aktuallığını və əhəmiyyətini itiməmişdir.

Ulu öndər Heydər Əliyev demişdir:"Azərbaycan təhsili,məktəbləri sona çatan XX əsrdə çox böyük nailiyyətlər əldə edib. Əsrin əvvələrində Azərbaycanın mütəfəkkir şəxsləri, maarifçiləri, ziyalıları, müəllimləri, xalqının savadsızlıqdan, ətalətdən çıxarmaq, maarifləndirmək, təhsili inkişaf etdirmək üçün çox işlər görmüşlər. Əgər Azərbaycan Respublikasının təhsil tarixi yazılsa (bu tarix yazılmalıdır), şübhəsiz ki, hər mərhələdə görülən işlər orada əksini tapacaq və öz qiymətini alacaqdır."

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNÜN MİQRASİYA PROSESLƏRİNƏ DAİR

***Əhmədov A.P.***

*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

Dünya tarixinə demokratik dövlətlərdən biri kimi daxil olan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın Çar Rusiyasına qarşı milli azadlıq mübarizəsinin nəticəsində yarandı. İslam Şərqində ilk parlamentli respublika olan AXC dövründə ölkədə azərbaycanlılarla yanaşı digər millətlərin də nümayəndələri yaşayırdı. Ümumilikdə Cənubi Qafqazda içtimai-siyasi proseslərin stabil olmaması digər sahələrdə olduğu kimi, regionun miqrasiya proseslərinə də öz təsirini göstərmişdir.

AXC-nin yaranması ərəfəsində Cənubi Qafqazda azərbaycanlıların yaşadıqları ərazilər təqribən 150 min kv. km-ə bərabər idi. 1918 ildə Cənubi Qafqazda müstəqil dövlətlər meydana gəldikdə, əzəli Azərbaycan torpaqlarının bir hissəsində Ermənistan Respublikası yaradıldı. AXC hökuməti, həmçinin, Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri və keçmiş İrəvan xanlığının paytaxtı olan İrəvanı da ermənilərə güzəştə getməyə və onu yeni yaradılan Ermənistan Respublikasının "siyasi mərkəzi" kimi tanımağa məcbur oldu. Beləliklə, Cənubi Qafqaz respublikaları arasında sərhəd məsələləri qismən nizama salındıqdan sonra AXC Cənubi Qafqazdakı tarixi Azərbaycan torpaqlarının 113,9 min kv. km-ni əhatə edirdi. AXC-nin əhalisi 3,3 milyondan çox idi. Dövlət hakimiyyəti üç qoldan ibarət idi: parlament, hökumət, məhkəmə hakimiyyəti. Dövlət Parlamentin qəbul etdiyi

qanun və qərarlar əsasında idarə olunurdu. Parlamentdə Azərbaycan ərazisində yaşayan bütün xalqlar, o cümlədən azsaylı xalqlar da öz deputatları ilə təmsil olunmuşdular. Türk-müsəlman əhali - 80, ermənilər -21, ruslar - 10, almanlar - 1, yəhudilər - 1, gürcülər - 1, polyaklar 1 deputatla təmsil olunmuşlar.

Azərbaycan əhalisinin sayının mütləq mənada azalması ilk dəfə AXC-nin mövcud olduğu 1918-20 illərdə baş vermişdir. Bu dövrdə Azərbaycan əhalisinin sayı 1917-ci ilə nisbətən 401,5 min nəfər və ya təqribən 17,1%, o cümlədən şəhər yerlərində 154,4 min nəfər və ya 27,6 %, kənd yerlərində isə 247,1 min nəfər və ya 13,8 % azalaraq, müvafiq surətdə 2353,7 min nəfərdən 1952,2 min nəfərə, 560,2 min nəfərdən 405,8 min nəfərə və 1793,5 min nəfərdən 1546,4 min nəfərə düşmüşdür. Şəhər yerlərində əhalinin sayı kənd yerlərinə nisbətən daha sürətlə azaldığından, bu dövrdə bütövliikdə respublika əhalisinin strukturunda şəhər əhalisinin xüsusi çəkisi 23,8%-dən 20,8%-ə düşmüş, kənd əhalisinin xüsusi çəkisi isə 76,2%-dən 79,2%-ə qalxmışdir. Həmin illərdə əhalinin sayının azalmasına bir sira sosial-iqtisadi, demoqrafik amillərlə yanaşı, Birinci dünya müharibəsinin (1914-1918) nəticələri, xarici müdaxilə və vətəndaş müharibəsi, erməni daşnak quldurları tərəfindən azərbaycanlıların kütləvi surətdə soyqırımına məruz qalması, bir qisminin isə İran və Türkiyəyə köçüb getməsi, habelə vaxtilə iş dalınca kənardan respublikaya gələnlərin təsərrüfat dağınıqlığı illərində öz əməklərini tətbiq etməyə yer tapmamalan, xarici imperialistlərin və ölkə daxilində onların əlaltılarının yaratdıqları milli qırğın, aclıq və ümidsizlik nəticəsində başqa regionlara getmələri və s. təsir göstərmişdir.

Göründüyü kimi birinci dünya müharibəsinin nəticələri regionda, eləcə də suverenliyini dünyaya elan etmiş AXC-də də ictimai-siyasi hadisələrin yaşanması ilə yadda qalmışdr. Dövrün ümumi mənzərəsi mürəkkəb siyasi-hərbi hadisələrin fonunda miqrasiya proseslərinin tənzimlənmsinə müsbət təsir göstərməmiş, əksinə Azərbaycanda daxili və xarici miqrasiyaya səbəb olmuşdur. Burada erməni-daşnak qruplarının havadarlarının köməyi ilə regionun türk-müsəlman əhalisinə qarşı həyata keçirdiyi soyğunçuluq, qətliam və araqarışdırma kimi mənfur niyyətləri də miqrasiyanın zaman-zaman yüksəlməsinə rəvac vermişdir. Azərbaycanlıların təqiblər və haqsızlıqlar nəticəsində miqrasiya etdiyi ölkələr sırasında İran və Türkiyə birinci sırada gəlirdi. Həmin dövrdə adı çəkilən ölkələrdə də müharibənin təsirləri aydın görünürdü və ictimai-siyasi hadisələr mürəkkəb hal almışdı. Daşnakların Şərqi Anadoluda törətdikləri soyqırımları müasir dövrdə tarixin qara ləkəsi olub erməni vandalizminin iç üzünü çılpaqlığı ilə göstərir.

Çar Rusiyasının devrilərək yerində bolşevik hakimiyyətinin yaradılması regionda miqrasiya siyasətinin fərqli istiqamətdə inkişaf etdiyini göstərdi. AXC-nin müstəqilliyinin elan olunmasına qədər daşnaklar Cənubi Qafqazın aborigen əhalisi azərbaycanlılara qarşı misli görülməmiş cinayətlər törədmiş, etnik təmizləmə siyasəti yürütmüşlər. Lakin AXC-nin mövcud olduğu 23 ay ərzində ölkədə həyat normal hal almış və müxtəlif sahələrdə dirçəliş müşahidə olunmuşdur. Cümhuriyyətin həyata keçirdiyi islahatlar daxildə miqrasiya proseslərinin idarə olunmasında səmərəli olmuş və Azərbaycan parlamentində müxtəlif xalqların nümayəndələri təmsil olunmuşlar.

XX əsrin əvvəllərində sosial-iqtisadi, demoqrafik, münaqişə, köçürmə və deportasiyalar kimi mənfi tendensiyalar, AXC-nin yarandığı ərəfədə və sovet hakimiyyətinin qurulmasından sonra regionun miqrasiya proseslərini məcradan çıxarmış və köçürmə siyasəti işə salınmışdır.

Hələ 1897-ci ildə Rusiya imperiyasında aparılmış əhalinin ilk ümumi siyahıya alınması məlumatlarında Şimali Azərbaycan ərazisində onlarla müxtəlif millətlərin, xalqların, etnik qrupların nümayəndələrinin yaşadığı qeydə alınmışdır. 1926-cı ilin ümumittifaq siyahıya alınmasının yekunlarına görə Azərbaycanda onların sayı 95, Gürcüstanda 76, Ermənistanda isə cəmi 48 olmuşdur. Azərbaycan Respublikasında yaşayan yerli əhalinin adı son 100 il ərzində rəsmi dövlət sənədlərində və mətbuatda bir neçə dəfə dəyişdirilərək tatar, türk, azəri, azərbaycanlı kimi göstərilmişdir. Bu səbəbdən də respublika ərazisində yaşayan ayrı-ayrı millətlərdən olan əhalinin, o cümlədən də azərbaycanlıların sayının dəqiq müəyyənlşdirilməsi xüsusi maraq doğurur, mühüm elmi və siyasi əhəmiyyət kəsb edir. Baş verən hadisələr və ictimai-siyasi dəyişikliklər dövrün miqrasiya prosesləri haqqında ümumi mənzərənin qənaətbəxş olmadığını təsdiq edir. AXC-nin hakimiyyətdə olduğu qısa vaxt ərzində isə respublikada multikulturla cəmiyyətin inkişafına dəstək verilmiş və miqrasiya siyasətinin tənzimlənməsinə diqqət yetirilmişdir.

## AZƏRBAYCAN ƏRAZİSİNDƏ GÖMRÜK FƏALİYYƏTİNİN İNKİŞAFI VƏ TARİXİ

***Əhmədov M.Ə.***
*Sumqayıt Dövlət Universiteti*

XX əsrin sonuncu illərində ikinci dəfə müstəqillik əldə edən Azərbaycan Respublikası dünya iqtisadi birliyinin müstəqil subyektinə çevrilməklə milli iqtisadi maraqlardan irəli

gələrək xarici iqtisadi fəaliyyətin tənzimlənməsi və öz milli iqtisadi mənafeyini qorumaq zəruriyyəti ilə qarşılaşdı. Müstəqillik illərində Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin inkişaf mərhələlərinin təhlilinə və onun prioritet sahələrinin inkişaf xüsusiyyətlərinə əsaslanaraq qeyd etmək lazımdır ki, bu dövrdə milli iqtisadi artımın təmin edilməsinin və onun səmərəliliyinin yüksəldilməsinin əsas amillərindən biri həyata keçirilən gömrük siyasəti olmuşdur.

Azərbaycan Respublikasının gömrük siyasəti müstəqillik illərində formalaşmış olsa da onun ayrı-ayrı elementlərinin, xarici-iqtisadi fəaliyyətin gömrük tənzimlənməsi vasitələrinin ölkə ərazisində tətbiqi çox əsrlik tarixə malikdir. Azərbaycan ərazisində gömrük xidməti fəaliyyətinin tarixini bir neçə mərhələyə ayırmaq olar.

Birinci mərhələ qədim dövrlərdən başlayaraq Azərbaycanın Çar Rusiyasının tərkibinə daxil olduğu XIX əsrin əvvəllərinə qədər olan dövrü hesab etmək olar. Qədim karvan yollarının qovşağında yerləşən Azərbaycanın özünəməxsus gömrük ənənələri olmuşdur. Azərbaycan həmişə Şimal, Cənub Qərb və Şərq, islam və xristianlıq dünyasını birləşdirən körpü rolunu oynamışdır. Tarixən Azərbaycan ərazisində formalaşmış dövlətlər (Atrapatena, Albaniya, Atabəylər dövləti, Səfəvi və s.) ölkə ərazisinə daxil olan və ya ölkə ərazisindən üçüncü bir ölkəyə keçib getməyə görə torpaqbasdı adı altında natura və ya qiymətli metalar, daşqaşlar formasında dövlətə vergi (gömrük rüsumları) ödəməli olurdular. Bu vergilər hesabına dövlətlər öz xəzinəsini zənginləşdirirdilər. Məsələn, Uzun Həsən Azərbaycan ərazisinə daxil olan tacirlərin təhlükəsizliyini təmin etmək üçün dövlət sərhəddində gömrükxanalar, gömrük postları yaratmışdı.

Mühüm strateji mövqeyə, zəngin ehtiyatlara malik olan Azərbaycan qədim dövrlərdən nəinki tacirlər və səyyahların, eləcə də xarici dövlətlərin diqqətini cəlb etmişdir. Azərbaycan xanlıqlara parçaladığı XVIII əsrdə Rusiya və İran imperiyasının maraq dairələrinə düşmüş və Azərbaycan bu iki imperiyanın müharibələr meydanına çevrilmişdir. Nəticədə, XIX əsrin əvvələrində Azərbaycan iki hissəyə parçalandı. XIX əsrin ilk əvvələrində Şimali Azərbaycanın bir hissəsi, daha sonra isə, 1828-ci ildə Türkmənçay müqaviləsinə əsasən, Naxçıvan və İrəvan xanlıqları da Rusiya tərəfindən işğal olundular.

Çar Rusiyası işğal olunmuş Azərbaycan torpaqlarında ticarətə nəzarəti həyata keçirmək üçün 1805-ci ildə gömrükxanaların (Qarabağ, Gəncə, Şəki, Ordubad, Bakı) yaradılmasını təmin etdi. Bu isə Azərbaycan ərazisində gömrük xidmətinin təşkilinin ikinci mərhələsinin başlanğıcı idi. Bu dövr faktiki olaraq 1805-ci ildən 1918-ci ilə qədər olan dö-

vrü əhatə edir. Azərbaycan ərazisində yığılan gömrük rüsumları Rus imperiyasının xəzinəsini zənginləşdirirdi. Gömrükxanalarda əsasən rus və erməni millətindən olan məmurlar çalışırdılar.

Azərbaycan gömrük xidməti tarixinin növbəti mərhələsini Azərbaycan Demokratik Respublikasının mövcud olduğu 1918-1920-ci illər təşkil edir. Bu dövr Azərbaycanda gömrük xidmətinin təşkilinin mühüm mərhələsidir. Müstəqil Azərbaycan Respublikasının siyasi və iqtisadi maraqlarını qorumaq üçün müvafiq tədbirlər görülmüş, iqtisadi islahatlar aparılmışdır. İqtisadi islahatların əsas istiqamətərindən biri də xarici ölkələrlə ticarət əlaqələrinin nizama salınması, xarici ticarətin tənzimlənməsində gömrük vasitələrindən istifadə olunması idi. Hələ Car Rusiyası dövründə yaradılmış gömrük idarələrinin, məntəqələrinin, zastava və keçidlərinin yeni qaydalarla işləməsi təmin edildi. Gömrük işinin təşkili ilə əlaqədar bir sıra mühüm sənədlər hazırlandı, müvafiq qərarlar verildi.

Gömrük orqanlarının milli kadrlarla möhkəmləndirilməsinə üstünlük verildi. Lakin bu sahədə mğvcud çətinlikləri nəzərə alaraq əvvəllər gömrük idarələrində çalışmış digər millətlərdən olan kadrlardan da istifadə olunurdu. Gömrük xidməti sahəsində həyata keçirilən tədbirlər ADR-in maliyyə təminatının möhkəmlənməsində və gənc respublikanin xarici ticarətinin tənzmlənməsində mühüm rol oynadı. Lakin müstəqil ADR-in ömrü çox sürmədi. Azərbaycan yenə də Şimal qonşularımız bu dəfə bolşevik Rusiyası tərəfindən işğal olundu. 1920-ci ilin aprelin 28-də Qızıl Ordunun XI qoşun hissələri Azərbaycana daxil oldu, ADR-si süquta uğradı və bolşevik Azərbaycan Sovet Respublikası quruldu. Sonradan, 1922-ci ildə bu respublika SSRİ-nin tərkibinə daxil edildi. Bütün sahələrdə mərkəzləşdirmə prosesi başladı, o cümlədən gömrük xidməti də mərkəzləşdirildi.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ İLLƏRİNDƏ TƏHSİL SAHƏSİNDƏKİ İNKİŞAFI

***Əhmədova N.M.***

*Sumqayıt Dövlət Universiteti*

1918-ci il Azərbaycan xalqının tarixində misilsiz bir hadisə baş vermiş, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Cəmi 23 ay ömür sürməsinə baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün eti-

barlı zəmin yaratmışdır. Hazırda istifadə etdiyimiz bir çox dövlətçilik atributlarımız da cümhuriyyətimizdən bizə miras qalmışdır.

Cümhuriyyətin yüz illiyi ilə əlaqədar olaraq prazident İlham Əliyev 2018-ci ili Azərbaycan Respublikasında " Azərbaycan Xalq Cümhuriyyət İli" elan edilməsi ilə bağlı sərəncam imzalamışdır. Bununla bağlı ölkəmizdə bir sıra silsilə tədbirlər də həyata keçirilir.

Azərbaycanda Xalq Cümhuriyyəti dövründə yaxşılığa doğru çox böyük dəyişikliklər baş vermişdir. Ölkə rəhbərləri bütün sahələrdə əllərindən gələn bütün işləri görməyə çalışırdılar. Azərbaycanda Xalq Cümhuriyyəti yaranandığı ilk gündən xalqın maarifləndirilməsinə birinci dərəcəli əhəmiyyət verirdi. Sözsüz ki, yenicə yaranmış cümhuriyyətin təhsil strukturları tam formalaşmamış, ölkədə mövcud olan savadsızlıq, kadr çatışmamazlığı əsas problemlərdən birinə çevrilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Xalq Maarifi Nazirliyi-Azərbaycan xalq Cümhuriyyəti dövründə təhsil və mədəni-maarif müəsisələri şəbəkəsinin fəaliyyətinə rəhbərlik edən dövlət orqanı idi. Xalq Maarifi nazirliyi öz fəaliyyətinə Cümhuriyyətin yaranmasına qədərki xalq maarifinin vəziyyətinin öyrənilməsi və bu sahədə həyata keçiriləcək vəzifələrin müəyyənləşdirilməsi ilə başlamışdır. Nazirlik xalq təhsilini sürətlə inkişaf etdirmək məqsədilə islahatlar keçirmək üçün qısa müddət ərzində təkliflər hazırlayıb, hökümətə təqdim edir. Xalq məktəbləri və tədris dairələrinin direktor vəzifələri ləğv olunaraq, məktəb və təhsil işinin idarə olunması xalq Maarifi nazirliyinin və xalq məktəbləri təlimatçılarının sərəncamına verilir.

Azərbaycan Xalq Cümhuriyyətinin təhsil sahəsində həyata keçirdiyi ilk tədbirlərdən biri də hökümətin 1918-ci il 27 iyun tarixli qərarı ilə Aərbaycan dilinin dövlət dili elan edilməsi idi. Azərbaycan hökuməti ilk günlərdən başlayaraq, milli kadrların hazırlanması, bu sahədə təhsilin təmamilə yenidən qurulmasına xüsusi əhəmiyyət verirdi. Nazirliyin təhsil sahəsində həyata keçirdiyi ilk və ən mühim tədbirlərdən biri də məktəblərin milliləşdirilməsi oldu.

Azərbaycan Cümhuriyyəti Hökümətinin 1918-ci il, 28 avqust tarixli qərarına əsasən, bütün ibtidai təhsil müəsisələrində təhsil şagirdlərin ana dilində aparılmalı, dövlət dili olan Azərbaycan dilinin tədrisi isə məcburi surətdə həyata keçirilməli, ali, orta, ibtidai tədris müəsisələrində isə dərslər dövlət dilində aparılmalı idi. Azərbaycan dili bilməyən şagirdlər üçün 3-cü və 4-cüsiniflərdə Azərbaycan dili şöbələri açılmalı və burada Azərbaycan dili elə intensiv şəkildə tədris olunmalı idi ki, iki ildən sonra artıq həmin şagirdlər bu dildə təh-

sillərini davam etdirə bilsinlər.

Xalq Maarifi naziri N.Yusifbəyli 1918-ci il dekabr ayında Azərbaycan qubernatorlarına göndərdiyi məktublarda bildirmişdir ki, indiki zamanda yalnız yüksək maarifə malik olan xalq tərəqqi tapa bilər. Nazirlik yeni məktəblər, müəllimlik kursları açmaqla , təhsil sahəsində mümkün qədər qısa müddət ərzində lazimi səviyyəyə qaldırmaq üçün bütün qüvvələri səfərbərliyə almışdır. Bütün bu tədbirlər nəticəsində artıq 1919-cu ilin əvvəllərində ölkədə dövlət hesabına 23 orta ixtisas və 637 ibtidai məktəb fəaliyyət göstərirdi.

Ölkənin inkişafı və idarə edilməsi üçün xaricdə təhsil alan savadlı kardlara da ehtiyac duyulduğundan cümhuriyyət höküməti və parlamenti bu sahədə ciddi işlər görməyə başlamışdır. 1919-cu il sentyabr 1-də Bakı Dövlət Universitetinin yaradılması haqqında verilən tarixi sərəncamla yanaşı, parlament hökumətin təklifi ilə 100 nəfər azərbaycanlı tələbənin xaricə göndərilməsi barədə qanun da qəbul etdi və bu işə nəzarət etmək üçün dövlət komisiyası yaradıldı, M. Ə. Rəsulzadə isə bu komisiyaya özü rəhbərlik etdi. Həmçinin onu da qeyd edilməlidir ki, xaricdə təhsil alan tələbələrə o dövr milyonçularından H. Z. Tağıyevin dəstəyi böyük olmuşdur.

Ümumilikdə Azərbaycan Xalq Cümhuriyyəti Hökümətinin cəmi 23 aylıq fəaliyyəti dövründə təhsil sahəsində bir çox nailiyyətlər əldə edilmişdir.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN İQTİSADİ TƏDBİRLƏRİ

*"Fikri, milli və siyasi istiqlalların*
*kökü iqtisadi istiqlaldır"*
*M.Ə.Rəsulzadə*

***Əhmədova Ş.M.***
*Sumqayıt Dövlət Universiteti*

1918-ci il Zaqafqaziya Seyminin Osmanlı imperiyasına müharibə elan etməsi və azərbaycanlıların soyqrıma məruz qalması milləti xilas etmək üçün müstəqil dövlətin yaradılmasını zəruri edirdi.

1918-ci il mayın 28-də Seymin Azərbaycan Fraksiyasının iclasında Milli Şura yaradıldı. . M.Ə.Rəsulzadə Müvəqqəti Milli Şuranın sədri elan edildi. Milli Şura Azərbaycanın Müstəqil dövlət elan edilməsi haqqında qərar qəbul etdi. Beləliklə, 1918-ci il mayın 28-də Azərbaycanın dövlət müstəqilliyi elan olundu. AXC Şərqdə ilk demokratik

respublika idi. Bu respublikanın demokratik əsaslara söykənən bütün təsisatları mövcud olmuş və 23 ay müddətində ölkədə yaşayan bütün xalqlara eyni mövqedən yanaşılmışdır.

Hökumətin ilk tədbirlərindən biri ərzaq məhsullarının xaricə daşınmasının qarşısını almaq oldu. 1918-ci il 22 iyun tarixli qərarla Azərbaycan hökuməti taxıl, iribuynuzlu malqara və digər ərzaq məhsullarının ölkədən kənara daşınması qadağan edildi. Digər bir fərmanla Azərbaycan ərazisində azad ticarətə icazə verildi. 1918-ci il 5 oktyabr tarixli qərarla BXKS-in neft sənayesinin, ticarət donanmasının və neft sənayesinin digər sahələri ilə əlaqədar verdiyi bütün dekret və sərəncamları ləğv edildi. Həmin müəssisələr əvvəlki sahiblərinə qaytarıldı.

1919-cu ilin yayında hökumət neft ixracı ilə əlaqədar xarici şirkətlərlə ticarət müqavilələri bağladı.

AXC-hökuməti ölkədəki nəqliyyat yollarının tikintisini də qarşısına məqsəd qoymuşdur. Başlanğıc olaraq Ələt-Culfa dəmiryolunun tikintisinin başa çatdırılması üçün parlament 250 mln manat pul ayırdı.

Neft ixracını artırmaq üçün 1918-ci il dekabrın 10-da Neft Sənayeçiləri Qurultayı Şurası yanında neft və neft məhsullarının satışı üzrə biro yaradıldı.

1919-cu ilin martında Nəsib bəy Yusifbəylinin sədrliyi ilə təşkil edilən IV Hökumət kabinetinin proqramında ərzaq, maliyyə, ticarət və nəqliyyat məsələlərinə xüsusi diqqət yetirilirdi. Hökumətin ən mühüm iqtisadi tədbirlərindən birini də aqrar məsələ təşkil edirdi. Uzun sürən mübahisələrdən, müzakirələrdən sonra, 1919-cu il avqustun sonu-sentyabrın əvvəllərində, nəhayət, torpaq komissiyası layihə üzərində işini tamamladı. Layihənin əsas tezisləri aşağıdakılardan ibarət idi:

1. Respublika ərazisindəki bütün torpaqlar dövlətin mülkiyyətidir; 2. Torpaq əvəzsiz olaraq dövlətin ixtiyarına keçir; 3. Əvvəlki mülklərinin müəyyən hissəsi aşağıdakı normalar üzrə əsas sahibkarların istifadəsi üçün onların özündə qalır: 1-ci dərəcə torpaqlar – 7 desyatin (bağlar və becərilən sahələr); 2-ci dərəcə torpaqlar -15 desyatindən 20 desyatinədək (əkin yerləri); 3-cü dərəcə - 40 desyatindən (otlaqlar). Qalan bütün torpaqlar dövlət torpaq fonduna daxil edilir. Torpaq haqqında qanunun son variantı Azərbaycan Xalq Cümhuriyyəti Müəssisələr Məclisi tərəfindən təsdiq olunmalı idi. Layihənin müzakirəsi 1919-cu il oktyabrın 2-də parlamentin 81-ci iclasının gündəliyinə daxil edildi, lakin Əkinçilik nazirinin müavini X.Sultanovun təklifi ilə ona baxılması dayandırıldı. Azərbaycanda baş vermiş hökumət böhranı onların heç müzakirə olunmasına da imkan vermədi.

AXC – yaranarkən ölkədə ümumi tədavüldə 4 valyuta var idi: çar hökuməti tərəfindən kəsilmiş ("Nikolayevski" adlandırılan) rubllar, Müvəqqəti hökumətin kəsdiyi rubllar (kerenkalar), Tiflisdə buraxılmış Zaqafqaziya hökuməti bonları və nəhayət, Bakı bonları. Bütün bu valyutalar qanuni ödəniş vasitəsi olaraq dövriyyədə idi.

Yaranmış şəraitdə əlaqədar olaraq, 1918-ci il sentyabrın 22-də hökumət Bakı bonlarının dövriyyəyə buraxılması haqqında qərar çıxardı. Qərara uyğun olaraq, 40 manat (Bakı bonu) 1 Türkiyə lirəsinə bərabər idi. Başqa pul vahidlərinin dövriyyədən çıxarılması hələ nəzərdə tutulmurdu. 1919-cu ilin sentyabrında isə Dövlət Bankı açıldı.

Dövlət ayrıca xammal ixracatında yaranmış çətinlikləri aradan qaldırmaq və xəzinə gəlirlərini yüksəltmək üçün ixrac olunan hər xammal üçün 25% gömrük rüsumunu nəzərdə tutmuşdu. 1920-ci ilin fevral ayında qəbul edilmiş yeni gömrük qaydaları daxili bazarı tənzimləmək, idxal və ixrac disbalansını ortadan qaldırmaq məqsədi güdmüşdür. AXC-hətta 200-dən çox ölkəyə gömrüksüz idxal olunan mal siyahısı müəyyənləşdirmiş və xarici sərmayədarları ölkəyə çəkmək üçün onlara endirimli Bakı bonları təklif etmişdi. Göründüyü kimi, AXC-nin maliyyə və gömrük siyasəti həm daxili, həm də xarici bazarı nəzərə alacaq şəkildə müəyyən edilmiş, xarici sərmayədarlara cəzbedici təkliflər irəli sürülmüşdür. Məsələn, 1919-cu ilin oktyabr ayında bir hissəsi Nobel qardaşlarına icarəyə verilmiş Böyükşor gölü haqqında müqavilə vaxtının bitməsinə baxmayaraq yenidən bərpa edilmişdir.

AXC Hökumətinin 1918-ci ilin sentyabrında Bakıya köçməsi istehlak cəmiyyətlərinin də işində dönüş yaratdı. Dağılmış cəmiyyətlər bərpa olunmağa başladı. Bunların 6-sı mədən zavod, 5-i kənd, 8-i isə şəhər (Bakı) istehlak cəmiyyətləri idi.

1919-cu il yanvarın 1-nə ittifaqın 138574 manat pay kapitalı vardı. Pay kapitalının azlığı istehlak kooperasiyasının 1918-ci il ərzində zəif inkişaf etməsi ilə bağlı idi. Buna baxmayaraq, 1919-cu il yanvarın 1-nə dövriyyəsi 41 milyon 500 min manat olmuşdur. İttifaq ilk növbədə özünün sənaye fəaliyyətini genişləndirməyə, konyukturadan asılı olmayan möhkəm iqtisadi bünövrə yaratmağa başladı. Belə ki, sabun istehsalını təşkil etdi. Makaron fabriki, habelə 1919-cu ildə Qafqazdakı ilk Konserv zavodunu və Tənəkə fabrikini də aldı.

AXC-nin 1918-ci il 21 oktyabr qərarı ilə Bakı Xəzinə Palatası Azərbaycan Xəzinə Palatasına çevrildi. Azərbaycan Xəzinə Palatası fəaliyyəti dövründə dövlət vergilərini toplamaq üçün Bakı şəhəri və Balaxanı-Sabunçu polis meysferliyi nəzdində vergi pristavları vəzifələri yaradılmışdı. Xəzinə vergiləri üzrə hərraca çıxarılan daşınar və daşınmaz əmlakın siyahıya alınması və satışı qaydaları AXC Parlamentinin1919-cu il 27 sentyabrda qəbul etdiyi qanun-

la tənzimlənirdi. Şəhərlərdə və qəzalarda isə dəyəri 25 min manatdan çox olmayan daşınar və daşınmaz əmlakın hərracda satılması vəzifəsi polis idarələrinin hərrac müfəttişlərinə əmlakın siyahıya alınması və satışının təşkili isə vergi polisinə həvalə olunurdu. Bunun nəticəsində ölkədə xəzinə vergilərinin yığılması işi canlanmış və dövlətin maliyyə ehtiyatları artmağa başlamışdı

AXC hökumətinin büdcəsi aşağıdakı vergi növləri hesabına formalaşırdı:

1. Müstəqim vergilər, torpaq vergisi, daşınmaz əmlak vergisi, dövlət gəlir vergisi, sənaye vergisi, kapital qoyuluşundan gəlir vergisi, hərbi mükəlləfiyyət vergisi, notarial vergi;

2. Dolayı vergilər – tütün, papiros kağızları, şəkər, çay, ağ neft, benzin, kerosin, sürtkü yağlarından və digər neft məhsullarından tutulan vergi, gömrük rüsumu və gəlirləri;

3. Möhür haqqı məhkəmə, kargüzarlıq, sənəd yazışamalarından gəlirlər;

4. Hökumət inhisarlarına aid vergilər, mədən gəliri, poçt gəliri, teleqraf gəliri, meşələrdən, balıq vətəgələrindən, pambıqçılıq təsərrüfatlarından gələn gəlirlər;

5. Dövlət dəmiryolundan` gəlirlər – yükdaşınmasından gələn gəlirlər.

AXC hökuməti maliyyə siyasətində mütərəqqi gəlir vergisi siyasətinə üstünlük verirdi. Parlamentin 26 dekabr tarixli iclasında çıxış edən Baş Nazir Fətəli xan Xoyskinin təqdim etdiyi hökumət proqramında deyilirdi: “Ölkədəki maliyyə vəziyyəti hələlik qeyri-müəyyəndir. Hələlik Azərbaycanın öz pul əsginası yoxdur. Azərbaycan hökuməti öz pullarını buraxmaq əzmindədir. Maliyyə siyasətində mütərəqqi gəlir vergisi həyata keçiriləcək”.

AXC dövründə infilyasiya yüksək idi və günü gündən yüksələn qiymətlərin insanların yaşam standartlarını aşağı endirirdi. Bu vəziyyətin aradan qaldırılması məqsədi ilə AXC 1918-ci il 3 iyun, 21 sentyabr, 13 oktyabr, 1919-cu il 10 fevral, 21 aprel, 1920-ci il 5 yanvar tarixli qərarlarla Hökumət qulluqçularının maaşları artırılmışdır. Yeri gəlmişkən qeyd edək ki, 1919-cu ilin yanvarında AXC-nin ilk Əmək Nazirliyi fəaliyyətə başlamışdır. Elə həmin ayda fəhlələrin maaşlarına əlavələr edilməsi haqqında qanun imzalanmışdır. Bununla Lakin “Musavat” partiyasının irəli sürmüş olduğu 16-18 yaşlıların 6 saatdan artıq işləməməsi gecə xidmətinin qadağan edilməsi, hamilə qadınlara güzəşt edilməsi, fəhlələrun sığorta edilməsi, 8 saat iş günü, fəhlələrə bir aylıq məzuniyyət verilməsi kimi təkliflər bəzi çətinliklərdən dolayı qəbul edilə bilməmişdir. Yəni,sadalanan şərtlər uzun müddət deputatların müzakirəsindən uzaq qalmış, parlamentin iclasına çıxarılmamışdır. 1919-cu il 8 sentyabr Parla-

ment iclasının açılışında bu məsələyə toxunan M.Ə.Rəsulzadə: "Bu zülmətdən istiqlalımıza, hürriyyətimizə düşmən olanlar istifadə edirlər" - deyərək narahatçılığını bildirmişlər.

Həqiqətən də, çox keçmədən bolşevik partiyası günü gündən artan infilyasiya nəticəsində baş verən əhalinin pis güzəranından istifadə edərək əhali içində narazılığı artırdı və aprel işğalını həyata keçirdi. Nəticədə, Azərbaycan Xalq Cümhuriyyəti tarixə qovuşdu

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN TƏHSİL SAHƏSİNDƏ HƏYATA KEÇİRDİYİ TƏDBİRLƏR

***Ələsgərov B.İ., Əliyev A.B., Əliyeva H.N***

*Azərbaycan Dövlət Pedaqoji Universiteti (Ağcabədi filialı)*

28 may 1918-ci ildə Tiflisdə Azərbaycan Milli İslam Şurası tərəfindən müstəqil Azərbaycan dövləti elan edildikdən sonra Fətəli xan Xoyskinin sədrliyi ilə ilk birinci Müvəqqəti Hökümətin tərkibi təsdiq edildi. Azərbaycan Milli İslam Şurasının həmin iclasında Nəsib bəy Yusifbəyli Maliyyə və Xalq Maarifi naziri vəzifəsinə təsdiq edilsə də, Azərbaycan Xalq Cümhuriyyətinin Müvəqqəti Hökuməti Tiflisdən Gəncəyə köçənədək Xalq Maarifi sahəsində əslində heç bir iş görə bilmir. Bu da təbiidir, ona görə ki, mühacirətdə olan bir hökümət, əslində heç də bir iş görə bilməzdi. Digər tərəfdən, Müvəqqəti Hökümət Tiflisdə cəmi 19 gün fəaliyyət göstərmişdir. 19 gündə isə xalq maarifi və təhsil sahəsində Müvəqqəti Hökümətin müəyyən işlər görməsini də gözləmək ən azından sadəlövhlük olardı. Keçmiş çar Rusiyasında bolşeviklərin Oktyabr çevrilişindən əvvəl milli ucqarlarda, demək olar ki, maarif və təhsil müəssisələri yox idi, yaxud belə müəssisələr çox çətinliklə və nadir hallarda açılırdı. Ona görə ki, çar Rusiyası milli ucqarlarda xalq maarifi işinin təşkili və inkişafında maraqlı deyildi, milli ucqarlarda maarifin və təhsilin inkişafına imkan verməyən çar höküməti qeyri-rus millətləri üçün məktəblərin açılmasına könülsüz yanaşır, Rusiya şəhərlərində, müstəsna hallarda isə yalnız xristian şəhərlərində maarif və təhsil müəssisələri inşa olunur və fəaliyyət göstərirdi. Təsadüfi deyildir ki, hökümət o zaman Tiflisdə fəaliyyət göstərən Politexnik Texnikomu ilə əməkdaşlıq etməyin şərtləri barədə 12 avqust 1918-ci ildə qərar qəbul etmiş, qərarda Tiflis Politexnik Texnikomunun Ümumqafqaz müəssisəsi olub-olmaması, əgər belədirsə, Azərbaycanın bu texnikomun idarə edilməsində hansı formada iştirakının ifadə olunması, tədrisin gələcəkdə hansı dildə aparılması, azərbaycanlı tələbələr üçün neçə faiz yer ayrılması üçün maraqlanmışdır. Lakin maraqlı cəhət budur ki, qərarın adında söhbət Tiflis Politexnik İnstitutndan getdiyi halda, qərarın

mətnində bu müəssisə “Tiflis Politexnik Texnikomu” kimi göstərilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Höküməti məktəblərdə tədrisin milli dildə aparılmasına xüsusi fikir verirdi. Belə ki, 28 avqust 1918-ci ildə “Aşağı ali və ibtidai məktəblərin milliləşdirilməsi haqqında” qərar qəbul etmiş və qərarın 1-ci maddəsilə bütün aşağı ibtidai məktəblərdə tədrisin ana dilində, türk dilində keçirilməsi tələb edilmişdir.

Təbii ki, həmin vaxtlar ölkədə milli kadrlar çatışmırdı. Ona görə də Azərbaycan Xalq Cümhuriyyətinin Müvəqqəti hökümətinin 24 avqust 1918-ci il tarixli qərarı ilə xalq məktəblərinin müəllimləri üçün kursların təşkilinə görə Xalq Maarifi Nazirliyinə 126759 rubl 50 qəpik vəsait də ayrılmışdı. Həmçinin, Azərbaycan Xalq Cümhuriyyəti Höküməti 18 yanvar 1919-cu il tarixli qərarı ilə Xalq Maarifi işində müəllimlərin roluna müstəsna qiymət verərək, ailənin tək övladı ilə yanaşı, xalq müəllimlərinin də hərbi mükəlləfiyyətdən azad edilməsi barədə Hərbi Nazirliyin sərəncamını bəyənmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycanda ali məktəblərin olmaması əsas götürülərək, Nazirlər Şurasının 29 oktyabr 1918-ci il tarixli qərarı ilə müsəlman tələbələrə xaricdə təhsil almağa icazə verilmiş, ehtiyacı olan tələbələrə təqaüd ayrılması nəzərdə tutulmuşdur. Nazirlər Şurasının 29 oktyabr 1918-ci il tarixli başqa bir qərarı ilə Zaqatala dairəsində 25-ə qədər birsinifli məktəblərin açılması və bu məktəblər üçün Xalq Maarifi Nazirliyinə 100000 rubl kredit verilməsi nəzərdə tutlmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin 1 sentyabr 1919-cu il tarixli qərarı ilə 1919-1920-ci dərs ilində 100 nəfər abituriyenti xarici ali məktəblərə göndərmək məqsədilə vəsait ayrılması üçün qərar qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1 mart 1919-cu il tarixli qanununa əsasən, əlavə 5 ştat vahidi inspektor ştatı təsis edilmişdir. Bu məqsədlə əlavə 320000 rubl vəsait ayrılması nəzərdə tutulmuşdur. Ölkədə ilk ali təhsil müəssisəsi Bakı Dövlət Universiteti isə 1 sentyabr 1919-cu ildə fəaliyyətə başlamışdır. Bu, Şərqdə ilk ali təhsil müəssisəsi idi. Azərbaycan Xalq Cümhuriyyətinin yetişdirməsi olan Bakı Dövlət Universiteti respublikamızda ali məktəblərin flaqmanı olmuş və hazırda da bu mövqeyini şərəflə qoruyub saxlamışdır. Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti 1 sentyabr 1919-cu il tarixli qərarı ilə 1919-1920-ci dərs ilində 100 nəfər abituriyent və tələbənin xarici ali məktəblərə göndərilməsi üçün vəsait ayrılması haqqında qərar qəbul etdi.

Azərbaycan Xalq Cümhuriyyəti orta ixtisas məktəblərində idarəçılık işinin təkmilləşdirilməsi məsələsini həmişə diqqətdə saxlamış, bu işin təkmilləşdirilməsi qayğısına qalmışdır. Belə ki, Parlamentin 11 dekabr 1919-cu il tarixli qanunu ilə Bakıda fəaliyyər

göstərən Azad feldşer məktəbi Xalq Maarifi Nazirliyindən alınıb, Xalq Səhiyyə Nazirliyinə verilmişdir. Həmin məktəb 100 nəfər dinləyici üçün nəzərdə tutulmaqla, üç illik idi. Azərbaycan Xalq Cümhuriyyəti orta və ali məktəb müəllimlərinin də maddi təminatının yaxşılaşdırılması məsələsini heç vaxt diqqətdən kənarda qoymamışdır. Təsadüfi deyildir ki, Parlament 4 mart 1920-ci il tarixdə "Orta və ali məktəblərdə əvəzçiliyə görə müəllimlərə əlavə haqqın ödənilməsi barədə qanun" qəbul etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti əyalətlərdə də Xalq maarifi şəbəkələrinin genişləndirilməsinə xüsusi diqqət yetirirdi. Parlament 12 aprel 1920-ci il tarixdə Quba uyezdi Qusar sahəsinin Xuluq kəndində 1 oktyabr 1919-cu ildən ali ibtidai məktəbin açılması haqqında qanun qəbul etmiş, qanunun II maddəsi ilə cari ilin sonuna kimi dövlət xəzinəsindən a) Şəxsi heyyətin saxlanılması üçün 27350 rubl; b) Tədris hissəsi üçün 26 rubl; c) Təsərrüfat və digər xərclər üçün 33433 rubl 33 qəpik ayrılmışdı. Həmçinin Parlamentin 12 aprel tarixli daha bir qanun ilə Şuşa uyezdinin Ağdam kəndində də 1 oktyabr 1919-cu il tarixdən eyni dərəcəli məktəb açılması qərara alınmış, yeni aşılacaq məktəbə yuxarıda qeyd edilən məqsədlə eyni məbləğdə vəsaitin ayrılması nəzərdə tutulmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti əyalətlərdə də maarif-təhsil müəssisələrinin inkişafı qayğısına qalırdı. Təsadüfü deyildir ki, Nazirlər Şurası Müqəddəs Nina, Gəncə və Nuxa şəhərləri təhsil müəssisələrinin dövlət xəzinəsi hesabına saxlanması haqqında 18 dekabr 1919-cu il tarixdə qərar qəbul etmişdir.

Bütün bu qısa müddətdə görülmüş işlərə baxmayaraq, bolşevik Rusiyasının 28 aprel 1920-ci ildə faktiki işğalı nəticəsində Şərqdə ilk Parlamentli Respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra onun maarif və təhsil sahəsində həyata keçirdiyi tədbirlər də yarımçıq qaldı.

## AXC-nin MƏDƏNİ QURUCULUQ VƏ MAARİF SAHƏSİNDƏ TƏDBİRLƏRİ

***Əliyeva X.Q.***

*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Xalq Cümhuryyəti yarandığı ilk gündən xalq maarifinin və mədəniyyətinin inkişafına xüsusi diqqət yetirirdi. Çünki çar hakimiyyəti Rusiyanın müstəmləkə əsarəti altında olan xalqlarının milli-siyasi mənlik şüurunun oyanmasına hər vasitə ilə mane olmuşdu. Çar Rusiyasında xalq məktəbləri dövlət orqanizmində "yaman şişi"xatırladırdı.1918 ci il mayın 28-də Azərbaycanın müstəqilliyi elan edildiyi gün Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış birinci Hökumət kabinəsində Xalq Maarifi Nazirliyi

təsis olundu. Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi nazirlik öz fəaliyyətinə Azərbaycan xalq maarifinin vəziyyətinin və bu sahədə həyata keçiriləcək vəzifələrin müəyyənləşdirilməsi ilə başladı. AXC hökumətinin xalq maarifinin inkişafına mühüm təkan verən ilk tədbirlərindən biri 1918-ci il27 iyun tarixli qərarı oldu. Həmin qərara əsasən,Azərbaycan-türk dili dövlət dili elan edildi. LakinAzərbaycan dilini mükəmməl bilən ixtisaslı kadrların olmaması qərarın həyata keçirilməsini çətinləşdirdi. Təhsil sahəsində həyata keçirilən ilk mühüm tədbir məktəblərin milliləşdirilməsi oldu. Azərbaycan Hökumətinin 1918-ci il 28 avqust tarixli qərarında göstərilirdi ki,bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin öz ana dilində aparılmalı və dövlət dili olan Azərbaycan dilinin tədrisi icbari surətdə həyata keçirilməlidir. Azərbaycan Hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində,artıq 1919-cu ilin əvvəllərində ölkədə dövlət hesabına 637 ibtidai məktəb və 23 orta ixtisas təhsili məktəbi fəaliyyət göstərirdi. Orta məktəblər arasında 6 kişi və 4 qadın seminariyası,3 müqəddəs Nina qız tədris müəssisəsi,politexnik məktəb və kommersiya məktəbi var idi. 1919-cu ilin əvvələrində Bakı qadın müəllimlər seminariyası kişi müəllimlər seminariyasına çevrildi. 1919-cu ilin iyulundan Lənkəran kişi və qadın gimnaziyaları da Xalq Maarifi Nazirliyinin sərəncamına keçirildi. Həmin il avqustun 11-də Xalq Maarifi Nazirliyinin qərarı ilə Bakı,Gəncə və Nuxadakı(Şəki) müqəddəs Nina qız tədris müəssisələrinin adları dəyişdirilərək Bakıda birinci Azərbaycan qız gimnaziyası, Gəncə və Nuxadakılar isə qız gimnaziyaları adlandırıldı. Xalq təhsilini milli zəmin üzərində yenidən qurmaq üçün ixtisaslı müəllim kadrlarina və dərs vəsaitinə böyük ehtiyac var idi. O dövrdə Azərbaycandakı mövcud müəllim kadrları ilə bu işin öhdəsindən gəlmək mümkün deyildi. Bu vəzifəni yerinə yetirmək üçün başlıca yol Türkiyədən müəllim kadrları dəvət etmək və qısamüddətli kurslarda Azərbaycan dilində savadlı olan şəxslərdən müəllim kadrları hazırlamaq idi. 1918-ci il iyulun 23-də Azərbaycan Hökuməti ölkənin tədris müəssisələri üçün Türkiyədən müəllim kadrları dəvət etmək və dərs vəsaiti tədarükü haqqında xüsusi qərar qəbul etdi. Türkiyə həyatı ilə yaxşı tanış olan Əhməd bəy Ağayevin bu məqsədlə İstanbula ezam edilməsi Xalq Maarifi Nazirliyinə tövsiyyə olundu. 1919-cu ildə "Türk əlifbası", "Ədəbiyyat dərsləri", "Müntəxabat", "Tarixi-təbli"və s. dərslikləri nəşr olundu. Dərsliklərin hazırlanmasında Azərbaycan maarif və ədəbiyyatının görkəmli nümayəndələri H.Cavid, Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq, Səməd ağa Ağamalıoğlu və b. fəal iştirak edirdilər.

AHXMN qarşısında ilk növbədə üç ali məktəbin- Bakı Dövlət Universiteti, Kənd

Təsərrüfatı institutu və Dövlət Konservatoriyasının açılması məsələsini qoymuşdu. Lakin o dövrdəki tarixi şərait yalnız bir ali məktəbin-Bakı Dövlət Universitetinin açılmasına imkan verdi. Bakıda Universitet açılmasına böyük əhəmiyyət verən hökumət bu məsələni 1919-cu il 8 aprel tarixli iclasında müzakirə etdi. Azərbaycan dilini bilən yüksək ixtisaslı mütəxəssis olmaması üzündən Bakı Dövlət Universitetində təhsil rus dilində aparılmalı idi. Bu isə böyük mübahisəyə səbəb oldu. M.A. Şahtaxtlı “ Azərbaycan ” qəzetində dərc etdirdiyi məqaləsində yazırdı ki, universitetdə təhsilin rus dilində aparılmasından qorxmaq lazım deyil; universitet təhsilinin həyata keçirilməsi Azərbaycanda yüksək ixtisaslı milli kadrların yetişməsinə zəmin yaradacaq, nəticədə milli kadrlar yetişdikcə, universitet də təhsil tədricən Azərbaycan dilinə keçiriləcəkdir. 1919-cu il sentyabrın 1-də Azərbaycan Parlamenti, nəhayət Bakıda dövlət universitetinin açılması haqqında qanun qəbul etdi. Qanunda universitetin 4 fakültədən : Tarix- filologiya, (şərq şöbəsi də daxil olmaqla) fizika-riyaziyyat, hüquq və tibb fakültələrindən ibarət olduğu göstərilirdi.Cümhuriyyət dövründə Azərbaycanda ali təhsilli mütəxəssis kadrları hazırlamağın digər yolu azərbaycanlı gənclərin xarici ölkələrin ali məktəblərinə göndərilməsi idi. Azərbaycan Parlamenti 1919-cu il sentyabrın 1-də Bakıda dövlət universitetinin açılması haqqında qanunla bərabər, 1919-20 tədris ilində dünyanın müxtəlif ali məktəblərində dövlət hesabına təhsil almaq üçün 100 nəfər azərbaycanlı gəncin xaricə göndərilməsi haqqında da qərar qəbul etdi.

Yaşlılar arasında savadsızlığın ləğv edilməsi də AXCH həyata keçirdiyi mühüm tədbirlərdən idi. 1919-cu il sentyabrın 15-dən etibarən Bakı, Gəncə, Nuxa, Zaqatala, Qazaxda yaşlılar üçün Azərbaycan dilini öyrədən kurslar açıldı. Bundan başqa 1919-cu ilin noyabrından Bakıda Azərbaycanlı fəhlələr üçün xüsusi texniki axşam kurslarıda açıldı.

AXC-nin xalq maarifinin inkişafında və mədəni quruculuq sahəsində qısa müddət ərzində həyata keçirdiyi mühüm tədbirlər sonralar respublikada xalq maarifinin təşkilində mühüm rol oynadı.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN DÖVLƏT QURUCULUĞUNA DAİR

***Bayramov O.Z.***

*AMEA, Hüquq və insan haqları institutu*

1918-ci ilin may ayının 26-da Cənubi Qafqaz seyminin sonuncu iclasında gürcü Milli Şurası tərəfindən Gürcüstanın müstəqilliyi elan edildi. Seymin buraxılması ilə əlaqədar yaranmış siyasi vəziyyəti müzakirə etmək üçün mayın 27-dən Seymin Müsəlman

fraksiyasına daxil olan nümayəndələrin fövqəladə iclası keçirildi. Seymin Müsəlman franksiyasının üzvüləri Müvəqqəti Milli Şura yaradılması haqqında yekdil səslə qərar qəbul etdilər. Mayın 28-də Milli Şuranın iclasında Azərbaycanın istiqlalı elan edildi.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması çox böyük siyasi,tarixi hadisə idi. Bu həmin dövürdə yaranmış daxili və xarici vəziyyət, həmçinin aparilan çətin, ağır, ancaq şərəfli mübarizə nəticəsində yaranan prosesin məntiqi nəticəsi idi. O zamana qədər müsəlman-türk mənşəli bütün dövlətlər əsasən dini təməl üzərində qurulduğu halda, Azərbaycan Cümhuriyyəti dünyəvi təməl üzərində qurulan ilk türk dövləti oldu. Eyni zamanda əgər o dövrə qədər Azərbaycan sözü coğrafi anlamda işlənirdisə, indi o, beynəlxalq hüququn subyektinə çevrildi.

1918-ci il 28 mayda elan olunmuş İstiqlal Bəyannaməsinə görə tam hüquqlu müstəqil dövlət olan Azərbaycanda ali hakimiyyət xalqa məxsus idi, ölkənin siyasi quruluşu Xalq Cümhuriyyəti idi. Azərbaycan Xalq Cümhuriyyəti öz sərhədləri daxilində millətindən, dinindən, ictimai vəziyyəti və cinsindən asılı olmayaraq bütün vətəndaşlara siyasi hüquqlar verirdi.

Azərbaycan dövlətinin parlamentli respublika formasında qurulması hakimiyyətin bölünməsi prinsipində öz əksini tapırdı. Qanunverici hakimiyyət parlamentə, icraedici hakimiyyət isə hökumətə məxsus olub,dövlət ali qanunverici orqan olan Parlamentin qəbul etdiyi qanun və qərarlarla idarə edilməli idi. Hökumət parlament qarşısında cavabdeh idi.

İstiqlal Bəyannaməsindən sonra Milli Şura qarşısında cavabdeh olan ilk hökumət kabinəsi yaradıldı. 1918-ci ilin iyununda yaranmış böhran Milli Şuranın fəaliyyətinin müvəqqəti dayandırılması ilə nəticələndi və Şuranın qərarı ilə Azərbaycanda bütün hakimiyyət Xan Xoyskinin başçılığı ilə yaradılmış müvəqqəti hökumətə verildi. Bu hökumət isə Məclisi-müəssisan çağırılana qədər Azərbaycanın dövlət quruluşunu dəyişdirmək ixtiyarına malik deyildi.

Cümhuriyyət hökuməti hələ Gəncədə olarkən bütün çətinliklərə baxmayaraq dövlət müstəqilliyini möhkəmləndirmək, dövlət atributların yaratmaq istiqamətində faydalı addımlar atdı.

Dövlət quruculuğunun gedişində milli rəmzlərin yaradılmasına xüsusi qayğı göstərilirdi.1918-ci il iyunun 21-də qırmızı parçadan hazırlanmış və üzərində aypara,səkkizguşəli ulduz təsvir edilmiş dövlət bayrağı və iyunun 27-də türk dilinin dövlət dili olması barədə hökumət fərmanları elan edildi. 28 avqust qərarı ilə məktəblər

milliləşdirildi.Türkiyədən dərsliklər gətirmək və müəllimlər dəvət etmək barədə qərar qəbul olundu.Yelizavetpol və Qaryaginin tarixi adları bərpa olunaraq Gəncə və Cəbrayıl adlandırıldı.İyul ayının 15-də Fövqəladə Təhqiqat Komissiyası yaratmaq barədə qərar qəbul olundu.

1918-ci il noyabrın 19-da Milli Şura «Azərbaycan parlamentinin yaradılması haqqında» qanun qəbul etdi. Yaranmış fövqəladə şəraitdə ümumazərbaycan Müəssislər məclisini çağırmaq mümkün olmadığı üçün Milli Şuranı ümumdövlət qanunvericilik orqanına - Azərbaycan parlamentinə çevrilməsi qərara alındı.

Azərbaycan parlamentinin qanunvericilik və mərkəzi dövlət orqanlarını formalaşdırmaq, onların səlahiyyətini müəyyən etmək,hökümətdən başqa bu və ya digər orqanın hesabatını dinləyib onlar haqqında müvafiq qərar qəbul etmək, eləcə də ali dövlət nəzarətini həyata keçirmək funksiyaları var idi. Parlament iclaslarının gündəliyinin xeyli hissəsi bu məsələlərə həsr edilmiş və bu barədə xüsusi qərarlar qəbul olunmuşdu. Azərbaycan parlamenti ölkədə ali qanunvericilik orqanı hesab edildiyindən bir sıra köklü məsələlər müəssislər məclisində həll edilməli idi. Azərbaycan Xalq Cümhuriyyətinin konstitusiyası da burada qəbul edilməli idi. Müəssislər məclisinə seçkilərin əsaslarmı hazırlamaq üçün parlamentdə böyük komissiya yaradılmışdı. Bu komissiyaya bütün fraksiyaların nümayəndələri cəlb edilmişdi. Uzun müzakirələrdən sonra 1919-cu ilin iyulun 21-də Azərbaycan Respublikasının Müəssislər məclisinə seçkilər haqqında əsasnamə qəbul edildi. Əsasnaməyə görə Müəssislər məclisinə seçkilərdə cinsindən, dilindən, milliyyətindən asılı olmayaraq 20 yaşına çatmış bütün respublika vətəndaşları iştirak edə bilərdilər.

## CÜMHURİYYƏT DÖVRÜNÜN ƏDƏBİ KONSEPSİYASI

### *(M.Ə.Rəsulzadənin ədəbi görüşləri)*

***Əliyeva-Kəngərli A.İ.***

*AMEA, Füzuli adına Əlyazmalar İnstitutu*

Xalqların taleyində elə nadir şəxsiyyətlər var ki, onlar millətə azadlıq səadəti bəxş edir, milli-mənəvi yaddaşı itməyə qoymur, dövlətçilik hissi formalaşdırır, milli kimliyini tanıdır, tarixin düzgün yolunu nişan verir və bu missiyası ilə millətin tarixində adını əbədiləşdirir. Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Məmməd Əmin Rəsulzadə belə şəxsiyyət, sərhədsiz idrak sahibi idi. Bütün müsəlman Şərqində parlamentli demokratik respublika tipində ilk dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti çağdaş

dövrümüzdə əsas demokratik normalar kimi qiymətləndirilən xalq hakimiyyəti, insan hüquqları, millətlərin bərabərlik hüququ, söz və yığıncaq azadlığı kimi ictimai dəyərləri elan edərək əməli surətdə həyata keçirilməsi, 23 ay ərzində dövlət strukturları və ordu yaradılması, Bakı Dövlət Universitetinin təsis edilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil sistemi milliləşdirilməsi, səkkiz saatlıq iş gününə keçid, vətəndaşlıq və Müəssislər Məclisinə seçkilər haqqında demokratik qanunların qəbul olunması, dövlətin ərazi bütövlüyünün təmin edilməsi kimi məsələlər Azərbaycanın görkəmli ictimai-siyasi xadimi Məmməd Əmin Rəsulzadənin canından çox sevdiyi Azərbaycan üçün göstərdiyi misilsiz xidmətlərdir.

Məlumdur ki, paralel olaraq M.Ə.Rəsulzadə intensiv şəkildə ədəbiyyatşünaslıqla məşğul olmuş və bu sahəyə də xüsusi diqqət yetirmişdir. Milli tariximizdə silinməz mövqeyə malik unudulmaz mütəfəkkirin ədəbiyyatşünaslığa dair bir sıra maraqlı və orijinal fikirləri məlumdur. Ədəbiyyat çox gənc yaşlarından M.Ə.Rəsulzadənin maraq dairəsinin mərkəzində yer tutmuşdur. Klassik ədəbiyyata yaxşı bələd olması ilk məqalələrində gətirdiyi şeir parçalarından, müəllifi olduğu şeirlərdən aşikar görünür, hələ on doqquz yaşlı gənc ikən “Şərqi-Rus” qəzetində çap etdirdiyi məqalələrində fikrini qüvvətləndirmək məqsədilə şeir parçaları örnək gətirən M.Ə.Rəsulzadənin ilk şeiri 1906-cı ildə “Dəvət” qəzetində çap edilmişdir. “Növhə” adlanan bu şeirdə milli münaqişə və qırğınlar pislənilir, gənc şair fitnə-fəsadın başlıca mənbəyi kimi çar hökumətini ifşa etməyə cəhd edir.

XX əsrin əvvəlləri Azərbaycan tarixində milli dirçəliş, milli oyanış hərakatı kimi yaddaşlara həkk olunub. Bu dövr Azərbaycan mətbuatının da çiçəklənmə dövrü hesab olunur, sərt senzura təqibləri Azərbaycanın görkəmli ziyalıları Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Eynalı Sultanov, Ceyhun bəy Hacıbəyli və başqalarının qəzet və jurnal səhifələrində Azərbaycanın ictimai-siyasi və mədəni həyatının ziddiyyətli məsələlərinə öz münasibətlərini bildirməyə mane olurdurlar. Şübhəsiz ki, onların dəyərli mülahizələri ictimai fikrin milli zəmində formalaşmasında böyük rol oynayırdı. 1915-ci ildə görkəmli ictimai xadim Məmməd Əmin Rəsulzadə “Açıq söz” qəzetinin nəşrinə başladı. Bu nəşrdə Azərbaycanlıların milli mədəniyyət və maarifçilik problemləri işıqlandırılırdı. “Gündəlik türk qəzeti” adlandırılan qəzetin ilk çapından etibarən M.Ə.Rəsulzadə intensiv şəkildə ədəbiyyatşünaslıqla məşğul olmağa və bu sahəyə də xüsusi diqqət yetirməyə başlamışdır. Milli tariximizdə silinməz mövqeyə malik unudulmaz mütəfəkkirin ədəbiyyatşünaslığa dair bir sıra maraqlı və orijinal fikirləri məlumdur.

Ədəbiyyat çox gənc yaşlarından M.Ə.Rəsulzadənin maraq dairəsinin mərkəzində yer tutmuşdur. Klassik ədəbiyyata yaxşı bələd olması ilk məqalələrində gətirdiyi şeir parçalarından, müəllifi olduğu şeirlərdən aşikar görünür, hələ on doqquz yaşlı gənc ikən "Şərqi-Rus" qəzetində çap etdirdiyi məqalələrində fikrini qüvvətləndirmək məqsədilə şeir parçaları örnək gətirən M.Ə.Rəsulzadənin ilk şeiri 1906-cı ildə "Dəvət" qəzetində çap edilmişdir. "Növhə" adlanan bu şeirdə milli münaqişə və qırğınlar pislənilir, gənc şair fitnə-fəsadın başlıca mənbəyi kimi çar hökumətini ifşa etməyə cəhd edir.

Elə həmin ilin noyabr ayında "İrşad" qəzetində M.Ə.Rəsulzadənin ilk ədəbi rəyi çap olunur. Abdullabəy Əfəndiyevin "Rüstəmin yuxusu" kitabı barədə yazan müəllif, çox gənc olmasına baxmayaraq, artıq bu ilk rəyi ilə gələcəkdə bacarıqlı bir tənqidçi olacağını vəd edir.

1907-ci ildə "Təkamül" qəzetində çap olunan yumoristik səhnəciklə M.Ə.Rəsulzadə həm də Avropa ədəbiyyatını dərindən bələd olduğunu nümayiş etdirmişdir. "Nagəhan bəla" adlanan səhnəcikdə M.Ə.Rəsulzadə dram janrının əsas elemetlərindən istifadə edərək əsəri qəbul olunmuş kanonlara müvafiq olaraq işləmişdir.

Tədqiqatlar göstərir ki, M.Ə.Rəsulzadə öz siyasi fikirlərini açıq şəkildə ifadə etmək üçün ədəbiyyatın bütün janrlarından geniş istifadə etməyi məharətlə bacarmışdır. 1907-ci ildə "Təkamül" qəzetində "Hər yandan" rubrikası altında verdiyi xəbəri bir xalq nağılı kimi başlanğıc formuluna malikdir: "Amma raviyani-əxbar və naqilani-acar, tutiyani-şəkkərşi-kəni-şirinköftar belə rəvayət edirlər ki, bir gün İran padşahı Məhəmmədəli şah oturub fikrə piçidə idi ki, necə eləsin bu millət məclisinin əlindən qurtarsın..."

Əlbəttə, bütün gənclik yazılarını "Çağdaş Azərbaycan ədəbiyyatı" adlı çoxşaxəli məruzəsi və "Azərbayçan şairi Nizami" kimi fudamental monoqrafiyası üçün hazırlıq mərhələsi hesab etmək olar. M.Rəsulzadə "Əsrimizin Siyavuşu" əsərində də siyasi görüşlərin şərhi üçün bədii ədəbiyyat materialından geniş şəkildə istifadə etmişdir.

## MİLLİ MƏFKURƏMİZİN TƏNTƏNƏSİ

***Əliyeva-Kəngərli G.T.***

*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*

Böyük xalqların yaddaşında onun şərəf ləyaqətini təsdiq edən bir neçə tarix yaşayır. 28 may 1918-ci il Azərbaycan tarixinin şərəf və ləyaqət səhifəsi, özünütəsdiqin və milli mənliyin zirvəsidir. 28 may Azərbaycanın İstiqlal günü, köləliyə qarşı inadkar

mübarizəsinin əbədiləşmiş tarixi təcəssümüdür. Həmin gün qəbul olunmuş İstiqlal Bəyannaməsinin bütün ruhu istismara və köləliyə, milli mənliyin tapdalanmasına, işğalçı imperiya əxlaqına qarşı yönəlmişdi. Burda qədim və ulu bir millətin, onunla vətənçilik bağlantısında yaşayan xalqların tarixi-mənəvi dirçəlişi həkk olunur. Tarix göstərir ki, hətta ən mükəmməl qanun məcəlləsi ilə belə azadlığa çatmaq mümkün deyil. Azadlığı əldə etmək də, onu qoruyub yaşatmaq da çətindir. İndi Azərbaycanda İstiqlal səadəti yaşanır. İstiqlalın birinci şərti zəkanın azadlığıdır. İllər boyu yad təfəkkürü ilə düşünüb hərəkət etmiş cəmiyyətin birdən-birə fikri azadlığa nail olması çətindir. Bunun üçün ilk növbədə xalqın milli birliyini təşkil edən, ona tarixi yolunu göstərən, onu özünə və dünyaya tanıdan mükəmməl konsepsiyaya malik ideologiya lazımdır. 70 illik totalitar Sovet rejimi süqut etdikdən sonra istiqlalımızın yenidən bərpası və yaşaması naminə belə bir ideologiyanı ümummilli lider Heydər Əliyev işləyib hazırladı. Bu Azərbaycanda yaşayan bütün xalqları tarixi mənəvi cəhətdən birləşdirən, bütün dünya azərbaycanlılarınını istək və arzularını əhatə edən azərbaycançılıq fəlsəfəsidir.

Bütün XX əsr boyu ictimai fikri yalnız bir qayə düşündürürdü: vahid Vətən hissi!

Tarixi bir ədalətsizlik nəticəsində vətəni bölünmüş xalq üçün bundan ali qayə ola bilməzdi. "Gələcək qarşısında məsuliyyət, keçmiş qarşısında ehtiram, indinin önündə fədakarlıq duyan" (F.Nitsşe) adamlar-M.F.Axundzadə, H.B.Zərdabi, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Hüseynzadə, Ə.Haqverdiyev, Ü.Hacıbəyov, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, Ə.Topçubaşov kimi ədib və mütəfəkkirlərin fəaliyyəti sayəsində XX əsr Azərbaycan tarixinə əsri –milli kimi daxil oldu. M.Ə.Rəsulzadə tarixə qədəm qoyduğu anlarda "Açıq söz" qəzetində onu belə səciyyələndirdi: "Dəhşətlərinə şahid olduğumuz böyük müharibə, böyük bir həqiqəti-əsrimizin miliyyət əsri olduğunu isbat etdi".

Azərbaycan Xalq Cumhuriyyəti – Müsəlman şərqində ilk parlamentli respublikadır. 1918-ci il may ayının 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının tarixi iclası keçirildi. Həsən bəy Ağayev (sədr) Mustafa Mahmudov (katib), Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Mehdi bəy Hacınski, Ələsgər bəy Mahmudbəyov, Sultan Məcid Qənizadə, Əkbər ağa Şeyxulislamov, Mehdi bəy Hacıbəyov, Xudadat bəy Məlik Aslanov, Rəhim bəy Vəkilov, Xosrov Paşa bəy Sultanov, Hacı Səlim Axundzadənin iştirak etdiyi həmin iclasda Azərbaycanın istiqlal bəyannaməsi qəbul edildi.

28 may 1918-ci il İstiqlal Bəyannaməsi və onun məramını əks etdirən Azərbaycan

Demokratik Cumhuriyyəti xalqımızın əsri-millinin tələbinə verdiyi tarixi bir cavab idi. Biz bu tarixi vəzifəni ləyaqətlə icra edənləri milli iftixar hissi ilə xatırlamalı, onlara yüksək qiymət verməliyik. 1919-cu ilin yanvar ayının 6-da Parisdə keçiriləcək Versal Sülh Konfransına göndərilən nümayəndə heyəti yeni qurulmuş Azərbaycan hökumətinin tapşırığı əsasında Əlimərdan bəy Topçubaşovun başçılığı ilə Məmmədhəsən Hacınski, Əkbər ağa Şeyxülislamov, Məhəmməd Məhərrəmov və Mir Yaqub Mir Mehdiyevdən ibarət heyətlə Versal Sülh Konfransında iştirak etmək üçün Parisə getmişdir.

Azərbaycanın istiqlal mübarizəsi tariximizin bu dəyərli və parlaq sənədinə bütün Azərbaycan tarixşünaslığında ən obyektiv tarixi qiyməti ilk dəfə olaraq Prezident Heydər Əliyev vermişdir: "Azərbaycan Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə" yeni yaranmış Azərbaycan Xalq Cumhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi. Bəyannamədə elan edilmiş prinsiplər-Azərbaycan Xalqının öz müqəddəratını müəyyən etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yanaşmaq prinsipləri Azərbaycan Xalq Cumhuriyyətinin beynəlxalq nüfuzunu artırdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə bu ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi qeyd ediləcək. Şübhəsiz, həmişə olduğu kimi bu dəfə də dövlət başçısının sərəncamı tariximizin şanlı səhifəsini daha dərindən öyrənmək, daha geniş təbliğ etmək üçün istiqamətləndirici rol oynayır. İnanmaq istərdik ki, bu sərəncam tarixçi və politoloqlarımıza bütün həyatını doğma xalqına həsr etmiş, bu yolda sonsuz məhrumiyyətlərə qatlaşmış milli mübarizəmizin mücahidləri ilə bağlı yeni, tutarlı və əhatəli tədqiqatlar aparmaq baxımından stimul verəcək, onların həyatı, şəxsiyyəti, mübarizəsi haqqında naməlum həqiqətlərin üzə çıxarılmasına yardım edəcək. Fikrimizcə, bu yubiley işığında görüləcək ən mühüm işlərdən biri tarixi şəxsiyyətlərimizin zəngin siyasi-publisistik epistolyar irsinin toplanması və nəşri olardı. Çünki bu həm də Milli dövlətçiliyimizin və XX yüzillikdə pərvəriş tapan Azərbaycan diplomatiyasının tarixi olacaq.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ ORDU QURUCULUĞU VƏ HƏRBİ ƏMƏLİYYATLAR

***Əlizadə S.Q., Nəbiyeva E.İ.***
*Azərbaycan Dövlət Aqrar Universiteti*

Azərbaycan Xalq Cumhuriyyəti parlamenti və hökuməti çox mürəkkəb daxili və beynəlxalq vəziyyətdə ölkənin suverenliyini, ərazi bütövlüyünü təmin etmək, iqtisadi-sosial sahələrdə tərəqqi və inkişafa nail olmaq həmçinin ordu quruculuğunu zəruri qanunlarla möhkəmləndirmək üçün mühüm qanunvericilik tədbirləri həyata keçirmişdir.AXC hökuməti fəaliyyəti dövründə güclü ordunun formalaşması üçün vacib olan müxtəlif hərbi strukturların yaradılmasına, hərbi kadrların hazırlanmasına ümumən ordunun təminatına xüsusi diqqət vermişdir. Eyni zamanda 4 iyun 1918 -ci il Osmanlı-Azərbaycan dostluq və qarşılıqlı yardım haqqında müqaviləyə uyğun olaraq türk qoşunları yüksək döyüş qabiliyyətinə malik Azərbaycan ordusunun yaradılması üçün əvəzsiz kömək göstərmişdir.

Milli Şuranın 28 may 1918-ci il tarixli ilk hökümət tərkibi haqqındakı qərarında hərbi nazirlik yaradılmasına xüsusi önəm verilirdi. Xosrov bəy Sultanov ilk hərbi nazir kimi hökümətin tərkibinə daxil edilmişdir.Yaranmış təhlükəni nəzərə alaraq hökümət 19 iyun 1918-ci ildə hərbi vəziyyət elan etmiş, iyunun 26- da keçmiş müsəlman korpusu Əlahiddə Azərbaycan korpusuna çevrilməsi barədə hökümətin sərəncamı vermişdir. Nəticəsi də o olur ki, iyulun 8-də Göyçay döyüşlərində korpus uğurlu qələbə qazanır.

1918-ci il iyulun 11- də Gəncə şəhər Hərbi Mükəlləfiyyət İdarəsi hökümətin qərarı ilə Ümumazərbaycan Hərbi Mükəlləfiyyət İdarəsinə çevrildi.1918 -ci il noyabrın 1-də Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Nazirliyi yaradıldı.Hələ birinci hökümətin tərkibində yaradılması nəzərdə tutulan hərbi nazirliyin böhranı dövründə ikinci hökümətə daxil edilməmişdi. Hökümətin müvafiq qərarında noyabrın 1-dən baş nazirə eyni zamanda hərbi nazirliyə də başçılıq etmək səlahiyyətləri verilirdi. Noyabr ayından Bakını işğal edən inqilis qoşunları və onlara başçılıq edən general Tomson Azərbaycan hökümətinə Bakıda ordu saxlamağı qadağan etmişdi.Buna görə də 1918 ci-il noyabrından 1919 cu ilin aprelinədək AzərbaycanXalq Cumhuriyyətinin Hərbi Nazirliyi Gəncədə fəaliyyət göstərməli oldu.1918 ci ilin dekabrın axırlarından isə artileriya generalı Səməd bəy Mehmandarov Hərbi nazir, general Əliağa Şıxlınski onun müavini general Sulkeviç isə qərərgah rəisi təyin edildi. Ordunun hərbi tibbi xidmətini yaxşı təşkil etmək üçün parlament tərəfindən 16 iyun 1919 cu ildə qanun verildi. Qanuna görə 45 yaşına çatmış və axırıncı 5 ildə Azərbaycanda

yaşayan bütün kişi həkimlər üçillik hərbi xidmətə çağrılırdı. Qeyri müsəlman həkimlər isə ehtiyatda saxlanılır və tələbat olan kimi onları da orduya cəlb etmək nəzərdə tutulurdu.Görülən tədbirlər və mühüm işlər ordunun döyüş qabiliyyətini və təchizatını xeyli yaxşılaşdırmışdır. 1919-cu ilin yanvarın 15 də Hərbi Nazirliyin nəzdində Baş Qərərgah təsis edildi.Qərərgahın nəzdində növbətçi general idarəsi, ümumi şöbə, nəşriyyat şöbəsi, hərbi xidmətdə olmayanlar şöbəsi, xəzinə qərərgahın poçt stolu və onun jurnalist şöbəsi yerli briqadalar idarəsi yerli briqadalara tabe olan zabit qərərgahı idarə və şöbələri yaradılmışdı.Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi naziri general Səməd bəy Mehmandarov16 fevral 1919 cu il tarixində Azərbaycan ordusunda xidmət keçən digər millətlərin nümayəndələrindən olan zabitlərə bir ay müddətində milli dildə komanda terminlərini öyrənmələri barədə xüsusi əmr imzalamışdır.Əmrə əsasən göstərilən müddətdə terminləri mənimsəməyən zabitlər ordudan təxris olunması nəzərdə tutulurdu. 1919-cu ilin aprelində Hərbi Nazirlik ordu qərərgahı və qoşun hissələri təntənəli surətdə yenidən daxil oldu.1919-cu il mayın 26-da parlamentin qəbul etdiyi qanunla hərbi idarə təşkil edildi.Qanunla baş hərbi idarəyə əhalinin hərbi xidmətə çağrılması və natural mükəlləfiyyətlərin yerinə yetirilməsi vəzifəsi həvalə edilirdi.Hərbi idarəyə çağırışla yanaşı hərbi süvari yüklərin daşınması və digər natural mükəlləfiyyətlərin icra edilməsi yerli hərbi idarələrin hesabatının aparılması qəza, şəhər, dairə arasında yarana biləcək anlaşılmazlıqların həll edilməsi tapşırılırdı.İdarənin üzvləri isə Hərbi və Ədliyyə Nazirliklərinin nümayəndələri və dəftərxananın işçilərindən ibarət idi. Azərbaycan hökümətinin qərarı ilə 1919 -cu ilin iyunun 9-da dövlətin müdafiəsini təşkil etməkdən ötrü xüsusi orqan sayılan Dövlət Müdafiə Komitəsi təşkil edildi.Xarici təcavüzdən qorunmaq üçün 1919-cu ilin iyunun 16-da Azərbaycan Gürcüstan müdafiə paktı imzalandı.Pakta əsasən tərəflər xarici müdaxilə olduğu halda bir-birlərinə kömək göstərməli idilər. Neft məhsulları əvəzinə Azərbaycan ordusuna gürcü zabitlərin göndərilməsi silah top və digər hərbi ləvazimat verilməsi Azərbaycan üçün zabitlər hazırlamaqdan ötrü Gürcüstanın hərbi məktəblərinə müdavimlərin göndərilməsi və s. haqqındada gizli müqavilə bağlanmışdır.

Nəticə olaraq deyə bilərik ki, 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti ölkənin suverenliyini, ərazi bütövlüyünü təmin etmək iqtisad- sosial sahələrdə tərəqqi və inkişafa nail olmaq üçün mühüm tədbirlər həyata keçirmişdir.Digər sahələrlə yanaşı Azərbaycan Xalq Cümhuriyyətində ordu quruculuğunun möhkəm qanunvericilik bazasının və digər zəruri təminatının yaradılması məsələləri parlament və hökümətin diqqət

mərkəzində olmuşdur.Son dərəcə ağır gərgin şəraitdə fəaliyyət göstərən AXC hökuməti güclü ordunun formalaşması üçün vacib olan hərbi strukturlar yaratmış və hərbi kadrların hazırlanmasına nail olmuşdur.

## AXC DÖVRÜNDƏ MÜƏLLİMLƏRİN I QURULTAYINDA QARŞIYA QOYULAN MƏSƏLƏLƏR

***Əsədova A.V.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk vaxtlardan təhsilin inkişafına xüsusi nəzarət edirdi. Məqsəd uzun illər Çar Rusiyasının hakimiyyəti altında olan xalqın milli şüurunun oyadılması idi. AXC hökümətinin 1918-ci il 28 avqust tarixli qərarı ilə ibtidai təhsil şagirdlərin öz ana dillərində aparılmalı idi. Azərbaycan dilinin tədrisi isə məcburi idi. Xalqın maarifləndirmə işi ilə birbaşa Xalq Maarif Nazirliyi məşğul olurdu. Nazirlik 1918-ci ildə I hökümətin tərkibində təsis olunmuşdur. Nazirliyə Nəsib bəy Yusifbəyli başçılıq edirdi. Azərbaycanda xalq təhsilinin milli zəmində yaradılması və inkişaf etdirilməsi üçün ixtisaslı kadrlara ehtiyac var idi. Bu vəzifəni yerinə yetirmək üçün başlıca yol Türkiyədən müəllim kadrları dəvət etmək və qısamüddətli kurslarda Azərbaycan dilində savadı olan şəxslərdən müəllim kadrları hazırlamaq idi. Bu məqsədlə 1918-ci il iyulun 23-də Azərbaycan Höküməti ölkənin tədris müəssisələri üçün Türkiyyədən müəllim kadrları dəvət etmək və dərs vəsaiti tədarükü haqqında xüsusi qərar qəbul etdi. Türkiyə həyatı ilə yaxşı tanış olan Əhməd bəy Ağayevin bu məqsədlə İstanbula ezam edilməsi Xalq Maarifi Nazirliyinə tövsiyə olundu.

Milli kadrların müəllimlərin hazırlanması üçün gənclərin xaricə göndərilməsi nəzərə alınırdı. Bu məqsədlə 1919-cu ildə Bakıda Azərbaycan müəllimlərinin ilk qurultayı keçirildi. Məqsəd məktəb islahatı sahəsində əsas məsələləri ətraflı müzakirə etmək, yeni təkliflər hazırlamaq və hökümətə təqdim etmək idi. Müəllimlərin I Qurultayı 1919-cu ildə Bakıda 10 gün müddətində (20 avqust- 1 sentyabr) indiki Azərbaycan Dövlət İqtisad Universitetinin (I Real məktəbin) binasında keçirilmişdir. Qurultayın keçirilməsi üçün AXC-nin Xalq Maarif Nazirliyi 1919-cu ildə 2 avqust tarixində qərar vermişdir. Qərara əsasən qurultayın keçirilməsi üçün 35600 manat məbləğində vəsait ayrılmışdır. Qurultaya rəhbərliyi isə Türk Müəllimlər İttifaqının sədri Ağa bəy İsrafilbəyov başçılıq edirdi. Azərbaycan müəllimlərinin I qurultayında ölkənin bütün bölgələrindən tədris müəssisələrini təmsil edən

nümayəndəliklər iştirak edirdi. Qurultayda müvafiq layihə hazırlamaq üçün Hökümət komissiyası yaradıldı. Yaradılan hökümət komissiyasında bütövlükdə məktəb islahatı, təhsilin məzmunca milliləşdirilməsini əsas tutan proqramlar, dərsliklərin işlənib hazırlanması və çap edilməsi işinin təşkili nəzərdə tutulurdu. Komissiyaya Həmid bəy Şaxtaxtlı sədrlik edirdi və 12 nəfər üzvü var idi.

Azərbaycan müəllimlərinin I Qurultayında qarşıya qoyulan ən əsas məsələlərin müzakirəsi isə növbəti dərs ilinə qədər məktəb islahatının keçirilməsi idi. O cümlədən, təhsilin məzmunu ilə bağlı məsələlərin həlli üzrə Hökümət proqramını hazırlamaq vəzifəsi qoyulmuşdur. Cümhuriyyət hökümətinin devrilməsi nəticəsində komissiya öz işini başa çatdıra bilməsə də, həmin məsələlərin həlli üzrə müəyyən işlər görülmüşdür.

Milli müəllimlərin hazırlanması üçün ali təhsil müəssisəsinin açılmasının vacibliyi də bildirilir. Hətta bu mövzu parlamentdə də müzakirəyə çıxarılmışdır. M.Ə. Rəsulzadə parlamentdə çıxış edərək BDU-nun açılması ətrafında olan müzakirələrə qətiyyətlə cavab vermiş və ali təhsil müəssisəsinin açılmasını vacib saymışdır.

Kənd Təsərrüfatı İnstitutu AXC-nin ölkədə ali təhsili inkişaf etdirmək üçün açılmasına təşəbbüs göstərdiyi tədris ocaqlarından biridir. Cümhuriyyət Höküməti 1919-cu il 5 mart tarixli iclasda kənd təsərrüfatı sahəsində mütəxəssislər hazırlamaq məqsədilə Bakıda ali məktəb açmaq məsələsini müzakirə edərək bəyənmişdir. Xalq Maarifi Nazirliyinə məsələ ilə bağlı qanun layihəsi hazırlayıb Parlamentə təqdim etmək tapşırılmışdır. Lakin AXC yalnız BDU-nun açılmasına macal tapdı, ali təhsil sahəsində digər planlarını isə həyata keçirə bilmədi.

Azərbaycan müəllimlərinin I Qurultayından sonra AXC-də təhsillə, müəllimlərin hazırlanması ilə bağlı bir çox tədbirlər həyata keçirdi.

Bakıda birinci realnı məktəbin binasında açılan kurslara Bakı müəllimlər seminariyasının direktoru Rəşid bəy Əfəndiyev rəhbərlik edirdi. Sultanməcid Qənizadə və bir neçə Parlament üzvünün iştirakı ilə 1919-cu il sentyabrın 17-də Bakıda açılan kursların 500 nəfərə qədər müdavimi vardı ki, onların da çoxu nazirliklərin və digər Hökümət idarələrinin əməkdaşları idi.

Azərbaycan müəllimlərinin I Qurultayından sonra orta təhsil müəssisələrində nəzərdə tutulan islahatla əlaqədar olaraq, şərqşünas A.A. Zimin tərəfindən türk xalqlarının Şərqin ümumi tarixi ilə əlaqələndirilmiş tarixinin proqramı işlənib hazırlandı. Bu proqramda başlıca diqqət milli ictimai hərəkatlara verildi. 1919 –cu il oktyabrın əvvəllərində Maarif

Nazirliyi rusdilli orta məktəblər üçün türk xalqları tarixi üzrə epizodik və sistematik kursların, habelə türk xalqlarının coğrafiyası proqramının tərtib edilməsi üzrə müsabiqə elan etdi. Ən yaxşı layihənin hökümət mükafatına layiq görüləcəyi bildirilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin xalq maarifinin inkişafında və mədəni quruculuq sahəsində qısa müddət ərzində həyata keçirdiyi mühüm tədbirlər sonralar respublikada xalq maarifinin təşkilində mühüm rol oynadı. Bu baxımdan da AXC-nin Müəllimlərinin I Qurultayı Azərbaycanın təhsil sistemində və müəllimlərin hazırlanmasında öz müsbət nəticələrini göstərdi.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN HAKİMİYYƏTİ DÖVRÜNDƏMADDİ MƏDƏNİYYƏT TARİXİNİN ÖYRƏNİLMƏSİ

***Əsədova A.V.***

*Sumqayıt Dövlət Universiteti*

Cümhuriyyət dövründə xalq maarifinin inkişafı ilə bağlı görülən mühüm tədbirlərlə yanaşı, maarifi və milli mədəniyyəti təbliğ edən və yayan cəmiyyətlərin, xeyriyyəçi təşkilatlar yaradılmışdı. İttifaqların fəaliyyəti də geniş vüsət almışdı. Məqsəd Azərbaycan tarixinin yenidən öyrənilməsi, qədim və orta əsr arxeoloji abidələrinin daha dəqiq tətbiq edilməsi idi. Xalqın maariflənməsi yolunda fəaliyyət göstərən bütün bu qurumlar milli özünüdərkin dirçəldilməsi yönümündə mədəni-maarif tədbirləri həyata keçirirdilər.

AXC-nin qarşıya qoyduğu əsas məsələ Çar Rusiyası dövründə Azərbaycanın arxeoloji abidələrinin tarixinin və xronologiyasının düzgün qiymətləndirilməməsi idi. Çar Rusiyasının dövründə müxtəlif vaxtlarda Azərbaycanın qədim şəhərlərində məqsədyönlü qazıntılar aparmışdır. 1913-cü ilin dekabrında Moskva Arxeoloji Cəmiyyətinin Qafqaz şöbəsinin üzvü S.V.Ter-Avetisyan Xaraba-Gilan şəhər xarabalıqlarında ilk arxeoloji qazıntılar aparmışdır. Abidənin topoqrafiyasını müşahidə edən S.V.Ter-Avetisyan onun təxmini planını tərtib etmişdir. Belə ki, qazıntı sahələrinin heç birində mədəni təbəqə xam torpağa qədər qazılmamış, təbəqə yatımının stratiqrafiyası müəyyənləşdirilməmiş, qazıntının nəticələri elmi baxımdan yetərincə şərh edilməmişdi. Hətta Çar Rusiyasının dövründə arxeoloji abidələrin tarixinin və xronologiyasının məqsədyönlü olaraq düzgün tədqiq edilməməsi ilə yanaşı arxeoloji eksponatların əksəriyyəti yoxa çıxmışdır. S.V.Ter-Avetisyan 1907-ci ildə Pir Hüseyn xanəgahında da tədqiqat aparmış, onun fəaliyyətinin nəticəsi olaraq abidənin kaşı bəzəklərinin bir çoxu yoxa çıxmışdır. 1906-cı ildə çar məmuru

Y.İ.Kozubskinin "Dərbənd şəhərinin tarixi" adlı kitabı nəşr olunur. Lakin müəllif həmin əsərdə üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gələ bilməmiş, şəhərin tarixi ilə bağlı bir çox məsələləri düzgün işıqlandırmamışdır. Bütün bu yanaşmalar isə məqsədyönlü olaraq Azərbaycan tarixinin tam dəqiq öyrənilməməsi ilə nəticələnirdi. AXC-nin Xalq Maarifi Nazirliyinin qaldırdığı məsələnin vacibliyi də bu idi. Cümhuriyyətdən əvvəlki dövrdə Azərbaycan ərazisində aparılmış arxeoloji qazıntıların nəticələri məqsədyönlü olaraq səhv qiymətləndirilmişdir. Buna misal olaraq 1915-ci ildə Y.Lalayan Qəbələ şəhər xarabalıqlarında kəşfiyyat xarakterli ilkin tədqiqatlar aparmış, Səlbirin Sirxab şəhərinin xarabalıqları olması fikrini irəli sürmüşdür. Onu da qeyd edək ki, 1918-ci ilə, Azərbaycan Cümhuriyyətinin qurulmasına qədər Azərbaycanın arxeoloji abidələrinin tədqiqi ardıcıl xarakter daşımamış, arxeoloji mənbələr Azərbaycan tarixinin ümdə problemlərinin həlli üçün mühüm mənbəyə çevrilməmiş, A.A.Bakıxanov istisna olmaqla, bu heç vəzifə kimi qarşıya qoyulmamışdır. Y.Lalayan, S.V.Ter-Avetisyan hətta Azərbaycanın səciyyəvi orta əsr arxeoloji abidələrinin özgəninkiləşdirməsinə cəhdlər etmişlər. Çöl arxeoloji tədqiqatları nəticəsində əldə olunan maddi mədəniyyət nümunələri isə Azərbaycandan kənara daşınırdı, bir sözlə, xalqın mədəni irsi qarət olunurdu.

Azərbaycan Cümhuriyyətinin mədəni quruculuğunda vətən tarixinin, onun mədəni irsinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. 1918-ci ildə Azərbaycanın müxtəlif tipli arxeoloji abidələrini öyrənmək, xalqın mədəni sərvətinin talan edilib xaricə aparılmasının qarşısını almaq məqsədilə Bakıda Arxeologiya Cəmiyyəti təşkil olundu. 1919-cu ildə Azərbaycanın tarixi irsini toplamaq və qorumaq üçün yerli diyarşünaslar və şərqşünaslar Şərqin arxeologiyası və tarixinin həvəskarları dərnəyini təşkil etdilər.

1919-cu ildə Bakıda Müsəlman Şərqini öyrənən cəmiyyət təsis edilmişdi. Bakı Universitetinin nəzdində yaradılmış həmin cəmiyyət Azərbaycan tarixini, ədəbiyyat və mədəniyyətini öyrənmək və təbliğ etmək sahəsində xeyli iş görmüşdü. Xalqın qədim dövr mədəniyyətini araşdırmaq məqsədilə 1920-ci ilin əvvəllərində Xalq Maarif Nazirliyində arxeologiya şöbəsi yaradılmışdı. "Yaşıl qələm" ədəbi birliyi, İslam incəsənətini və mədəniyyətini mühafizə cəmiyyəti, "Türk ocağı" və s. cəmiyyətlər də fəaliyyət göstərirdi.

1919-cu ilin dekabrında isə dərnəyin üzvləri Bakı Universiteti nəzdində Müsəlman Şərqini öyrənən Cəmiyyətinin əsas işi arxeoloji abidələrin öyrənilməsi idi. Müsəlman Şərqini öyrənən cəmiyyət Cənubi Qafqazın arxeoloji öyrənilməsini, Şabran şəhərinin xarabalıqlarının axtarılmasını, Nizami Gəncəvinin qəbirüstü abidəsinin tədqiqini, Bakı

ətrafında yerləşən qədim tarixi abidələrinin öyrənilməsini ön plana çəkmişdi. Ən əsas isə, cəmiyyət orta əsr Azərbaycan şəhərlərinin tədqiqinə xüsusi əhəmiyyət verirdi. Hətta yeni arxeoloji qazıntılarla yanaşı, əvvəllərdən tapılan arxeoloji eksponatlarda qorunurdu. Azərbaycan xalqının maddi mədəniyyət tarixinin öyrənilməsi baxımdan mühüm hadisələrdən biri 1919-cu il dekabrın 7-də Azərbaycan Parlamentinin ildönümü günü İstiqlal muzeyinin təsis edilməsi idi. Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentinin binasında açılan bu muzeyin eksponatlarının mühüm bir hissəsini arxeoloji materiallar təşkil edirdi. Bu dövrdə arxeoloji abidələrin qeydə alınması, öyrənilməsi və mühafizəsinin hüquqi əsaslarının yaradılmasıda nəzərdə tutulmuşdur. AXC-nin hökuməti xalqın milli ənənələr, vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayan muzeylərin, digər maarif və sənət ocaqlarının açılması sahəsində bir sıra tədbirlər həyata keçirilmişdir. Ən mühüm hadisə isə "İstiqlal muzeyi"nin açılışı idi. Lakin 1920-ci il 28 aprel işğalı Azərbaycan Xalq Cümhuriyyətinin qarşıya qoyduğu vəzifələri gerçəkləşdirməyə imkan vermədi. İşğaldan sonra 1922-ci ildə Şərqşünaslıq və Sosial Elmlər İnstitutu nəzdində Azərbaycan Arxeoloji Cəmiyyəti təsis edildi.

## AZƏRBAYCANIN SƏRHƏD MÜHAFİZƏ TARİXİNDƏN (1918-1920)

***Əsgərov Q.A.***

*Azərbaycan Respublikasnın Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

Hər bir ölkənin milli təhlükəsizlik siyasətinin səmərəliliyi onun təhlükəsizlik mühiti və beynəlxalq münasibətlərdə dövlət haqqında formalaşmış fikirlərdən asılıdır. Dövlətin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, milli maraqların təminatı, davamlı inkişafı, vətəndaşlarının rifah halının və sosial-siyasi hüquqlarının təmin olunması məhz təhlükəsizlik mühitini və ölkə haqqında beynəlxalq aləmdə fikri formalaşdırır.

Azərbaycanın strateji, coğrafi və müəyyən dövrlərdə ictimai-siyasi vəziyyəti, habelə regionda baş verən dəyişikliklər respublikamızın hərbi qüvvələrinin xüsusən də, sərhəd mühafizə qurumlarının formalaşması işinə öz təsirini göstərmiyə bilməzdi. Məhz bu amili nəzərə alan Azərbaycan Xalq Cümhuriyyəti özünün yarandığı ilk günlərdən ordu quruculuğu məsələlərinə, xüsusən də sərhəd məsələlərinə xüsusi önəm verirdi.

Azərbaycan Milli Şurasının İstiqlal Bəyənnaməsində 3-cü bəndində deyilirdi: "Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir". Ancaq bu siyasətin həyata

keçirilməsinə regionda baş verən siyasi proseslər və ən əsası da qonşu dövlətlərlə dəqiq müəyyənləşdirilməmiş dövlət sərhədlərinin olması ciddi maneə yaradırdı.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti özünü demokratik respublika elan etdikdən sonra onun qarşısında duran bəlkə də birinci məsələ ölkənin sərhədlərinin dünya tərəfindən tanınması və dövlətin öz ərazilərini qorumaq hüququna sahib olması idi.Ancaq regiondakı geosiyasi vəziyyət və ən əsası da Ermənistanın Azərbaycana qarşı o dövrdə olan ərazi iddiaları dövlətin ərazilərinin tanınması işini ləngidirdi. . Bir tərəfdən Ermənistanın Azərbaycana qarşı olan ərazi iddalarının daha da genişlənməsi, digər tərəfdən isə 1919-cu ilin mayında Denikin qüvvələrinin Dağıstana hücum etməsi və Dərbəndi tutması vəziyyəti daha da gərginləşdirirdi.

Regiondakı vəziyyətin belə gərgin olmasına baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti, başda hökumət kabineti olmaqla inadla dövlətin təhlükəsizliyinin təmin edilməsi, onun sərhədlərinin tam qorunmasını təmin etmək üçün düşünülmüş siyasət aparırdı. AXC-nin xarici işlər naziri olan N.Yusifbəli bu məsələ ilə bağlı bildirirdi;"...Sərhədlərimizi qorumaq üçün bütün tədbirlər görülüb. Siz əmin ola bilərsiniz ki, qan tökmədən heç kim bizim sərhədlərimizi keçə bilməz".

Cənubi Qafqaz respublikaları arasında sərhədlərin müəyyənləşdirilməsi haqqında məsələ 1918-ci il iyunun 4-də bağlanan "Osmanlı hökuməti ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi"ndə əks olunsa da, Osmanlı dövlətinin Birinci Dünya müharibəsindəki məğlubiyyəti bu müqavilənin həyata keçirilməsinə imkan vermədi. Dəqiq müəyyənləşdirilməmiş dövlət sərhədlərində qarşıdurma halları günnən-günə çoxalırdı, dövlət respublika ərazisinə onun sərhədlərindən daxil ola biləcək təhdidlərin qarşısını demək olar ki ala bilmirdi.

Məhz belə bir şəraitdə 1919-cu ilin iyunun 5-də Parlamentin qərarı ilə dövlət sərhədinin müdafiəsini təmin etmək və mövcud təhlükələrin qarşısını almaq məqsədilə Dövlət Müdafiə Komitəsi yaradıldı. Sərhədlərin mühafizəsinin dövlətin təhlükəsizliyi üçün mühüm amil olduğunu nəzərə alan Azərbaycan hökumətinin 1918-ci il iyun ayının 22-də Fətəli Xan Xoyskinin imzaladığı qərarla Poylu stansiyasında respublikadan kənara ərzaq daşınmasının qarşısının alınması üçün sərhəd postu yaradılması barədə Daxili İşlər Nazirliyinə müvafiq tapşırıq verildi. Nazirlər Şurasının sədri Fətəli Xan Xoyskinin imzaladığı bu qərarla müstəqil Azərbaycanın tarixində ilk dəfə sərhəd mühafizəsinin təşkili sahəsində vəzifələrin yerinə yetirilməsinə başlanıldı. 1918-ci il iyunun 24-də "Xaricə yük daşınmasının, həmçinin

çörək möhtəkirliyi ilə məşğul olmağın qadağan edilməsi” adlı qərar qəbul edilmişdir. Həmin qərara əsasən nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsinə mane olan və qərarın tələblərinə əməl etməyənlər hərbi dövrün qanunları ilə məsuliyyət daşımalı idilər. Həmin ilin iyun ayının 27-də qəbul edilmiş digər qərarla ərzaq ehtiyatlarının qorunmasının zərurili-yi bir daha nümayiş etdirildi.”Xaricə pambıq, yun, ipək, metal tullantısı, mal- qara, çörək və digər ərzaq daşınmasının qarşısının alınması haqqında”adlanan bu qərarda göstərilirdi ki, sərhədlərdəki vəziyyətdən istifadə edərək varlanmaq məqsədilə qaçaqmalçılıq fəaliyyətlərindən əl çəkmək istəməyənlər ən sərt şəkildə çəzalanacaqlar.

Qərarlardan göründüyü kimi, bu postlar ancsaq qaçaqmalçılığın qarşısını almaqla kifayətlənirdi. Bu sərhəd postları sərhədi qanunsuz keçən quldur dəstələri ilə mübarizənin təşkilində və sərhədlərin tam nəzarətə götürülməsində çox zəif idi. Eyni zamanda görülən bu tədbirləri və qəbul edilən qərarları vahid sərhəd strategiyasının ilk uğurları kimi qiymətləndirmək lazımdır.

Görülən işlərin məntiqi davamı kimi 1919-cu il avqust ayının 18-də parlamentdə “Azərbaycan Respublikasının gömrük baxımından sərhəd mühafizəsinin təsis edilməsi haqqında”qanun qəbul edildi. Həmin qanunun 1-ci maddəsində göstərilirdi:” Azərbayvan Respublikasının sərhədlərini qeyri-leqal ticarətdən qorumaq və qaçaqmalçılıqla mübarizə aparmaq məqsədilə Azərbaycanın sərhədləri boyu,əlavə edilən dislokasiya məntəqələrinə uyğun olaraq sayı doxsan doqquza çatan, doqquz yüz doxsan iki mühafizəçidən ibarət tərkibdə sərhəd postları yaradılsın...” Həmin qanunun 3-cü maddəsində deyilirdi: "Sərhəd mühafizəsinin bütün təşkilinə rəhbərlik etmək və onun fəaliyyətini respublika Gömrük İdarəsi ilə razılaşdırmaq üçün Mərkəzi Orqan kimi Maliyyə Nazirliyi dəftərxanasında bu maddəyə əlavədə göstərilmiş vəzifələri olan Xüsusi Sərhəd Mühafizəsi təsis edilsin. 1919-cu il avqustun 18-də qəbul edilən həmin qanunda bütün ölkəni əhatə edən sərhəd postlarının yaradılması nəzərdə tutulurdu.

Sərhədlərin mühafizəsinin birbaşa bu vəzifənin yerinə yetirilməsi ilə məşğul olacaq qüvvələrə həvalə edilməsi sahəsində ardıcıl iş aparılmasını Azərbaycan hökumətinin 1919-cu il noyabr ayının 2-də qəbul etdiyi başqa bir qərar da sübuta yetirir. Daxili işlər nazirinin təklifi ilə Zaqatala quberniyasında Dağıstanla sərhəddə yerləşən dərələrin etibarlı qorunması üçün yeddi müvəqqəti sərhəd postunun yaradılmasının nəızərdə tutulduğu həmin qərarla respublikada müstəqil sərhəd mühafizə qüvvələrinin formalaşdırılması yolunda daha bir addım atıldı.

Təəssüf ki, gənc respublikanın maliyyə və hərbi kadr baxımından imkanları bütün sərhədlərin nəzarət altında saxlanılması üçün yetərli deyildi. Buna görə də 1920-ci ilin yanvar ayına qədər artıq Azərbaycanın əksər sərhəd ərazilərində sərhəd postları yaradılsa da, Azərbaycan sərhədlərinin etibarlı mühafizəsi tam təmin edilməmişdir. Daha çox İranla sərhəd ərazilərdə baş verən hadisələr, xüsusən də sərhəd pozucularına qarşı lazımi müqavimət göstərilməməsi hökumətin yerlərdə nüfuzuna ciddi zərbə vururdu.Gürcüstanla sərhəd ərazilərdə də, xüsusən Zaqatala quberniyasl ərazisində sərhəddə qanunsuz hallara , o cümlədən qaçaqmalçılıq hallarına daha tez-tez rast gəlinirdi. Bunu Zaqatala qubernatoru general-mayor Haşimbəyovun 1918-ci ilin 17 dekabr tarixində daxili işlər nazirinə göndərdiyi məktubumda bir daha görmək olar.

Qaçaqmalçılıqla mübarizə problemi respublikanın quru sərhədlərində aktual olsa da, dəniz nəqliyyatı vasitəsilə də bu işlərlə məşğul olanlar heç də az deyildi.Təssüf ki Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin kifayət qədər maliyyə imkanlarının,texniki vasitələrinin və xüsusən də mütəxəssislərinin olmaması bu problemin həllində ciddi maneə yaradırdı. Bununla yanaşı su sərhədlərində də mühafizə təşkil olunur və bu funksiyanı Hərbi Nazirlik həyata keçirirdi.

1919-cu ildə ingilislər Bakını tərk edərkən şəhər limanının idarəçiliyini,hərbi hissələrin radiostansiyalarını, hərbi gəmilərin bir hissəsini və hərbi sursatı Azərbaycan hökumətinə təhvil vermiş və həmin gəmilər əsasında Azərbaycanın Xəzər donanması yaradılmlşdır. Bu, respublikanın öz dəniz sərhədlərini qorumaqla bağlı atdığı addım olmaqla, həm də Azərbaycanın müstəqil dövlət kimi öz haqqını təsdiq etməsi idi.

1920-ci il aprel ayının 27-də parlamentin sonuncu iclasında M.Ə.Rəsulzadənin və Şəfi bəy Rüstəmbəyovun kəskin etirazlarına baxmayaraq, hakimiyyətin dinc yolla bolşeviklərə verilməsi haqqında qərar qəbul edildi.

1920-ci il aprelin 28-də Cümhuriyyət ərazisində Azərbaycan Sovet Sosialist Respublikasının yaradıldığı elan olundu. Sovet işğalından dərhal sonra ölkədə Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış müstəqil dövlət idarəçiliyi sisteminin dağıdılmasına başlandı. Ölkədə bütün hakimiyyətin Müvəqqəti İnqilab Komitəsinin və Azərbaycan SSR Xalq Komissarları Sovetinin əlinə keçdiyi elan olundu. Bununla da artıq formalaşmaqda olan sərhəd quruculuğu işi dayandırıldı. Aprel işğalı ölkəmizin hüdudlarının qorunması sahəsində başlanan işləri yarımçıq qoydu. Sovet hökuməti üçün sərhəd anlayışı yalnız SSRİ-nin ərazilərindən ibarət idi. Azərbaycanda isə yalnız cənub sərhədləri qorunurdu. Başqa

istiqamətlərdə heç bir sərhəd məntəqəsi yox idi.

Uğursuz sonluğuna baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin iki illik fəaliyyəti Azərbaycan Xalqının tarixində və taleyində mühüm hadisə idi. Azərbaycan Cümhuriyyətinin yaradılması ilə XIX əsrin əvvəllərində itirilmiş dövlətçilik ənənələri qısa bir müddət ərzində bərpa edildi. O, qısa vaxtda öz parlamenti, hökuməti, ordusu və sərhədləri olan Demokratik respublikaya çevrildi.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN YARADILMASI

***Əzizova R.Y.***

*Sumqayıt Dövlət Universiteti*

1918-ci ilin yazında Cənubi Qafqaz hökumətinin Türkiyəyə müharibə elan etməsi və Azərbaycanlıların mart soyqırımına məruz qalması Azərbaycan Cümhuriyyətinin yaranmasını zəruri etdi. May ayının 26-da Gürcüstanın seymdən çıxmaq haqqında bəyanatından sonra Zaqafqaziya (Cənubi Qafqaz ) Seymi özünün buraxıldığını elan etdi.

May ayının 30-da müstəqil Azərbaycan Cümhuriyyətinin yaradılması haqqında məlumat radioteleqrafla xarici başçılarına bildirildi. Azərbaycan Cümhuriyyəti bütün müsəlman Şərqində ilk demokratik respublika oldu.

Azərbaycan Cümhuriyyəti 1918-ci il iyunun 4-də Türkiyə ilə Batumda sülh bə dostluq haqlında müqavilə imzaladı. Bu müqavilə əsasında Türkiyə azərbaycan Cümhuriyyətini müstəqil dövlət kimi tanıyan ilk xarici dövlət oldu. Müqavilənin 4-cü bəndinə əsasən Türkiyə Azərbaycana hərbi yardım göstərməyi öhdəsinə götürdü. İyun ayının əvvəlində Nuru paşanın rəhbərlik etdiyi "İslam ordusu" Gəncəyə gəldi. İyunun 27-də iyulun 1-dək Göyçay istiqamətində gedən döyüşlərdə "İslam ordusu" nun döyüşçüləri Bakı Sovetinin qoşunlarını məğlubiyyətə uğradaraq geri çəkilməyə məcburi etdi. Bununla da XKS-nın gəncəyə hücumunu qarşısı alındı.

Bu hadisədən sonra, xüsusən Azərbaycan-terk ordusunun şiddətli hücumuna tab gətirməyən Bakı XKS iyulun 31-də öz səlahiyyətlərindən əl çəkdi.

Sentyabr 15-də Azərbaycan –türk ordusu həlledici hücuma keçərək Bakıya daxil oldu.

Sentyabrın 17-də Milli hökumət Gəncədən Bakıya köçdü. Bununla da Azərbaycan Cümhuriyyəti öz hakimiyyətini bütün respublika ərazisində bərqərar etdi. 1918-ci il dekabrın 7-də fəaliyyət başlayan parlamentin sədri Əlimərdan bəy Topçubaşov, sədrin birinci müavini isə Həsən bəy Ağayev seçildi. Parlament müvəqqəti hökumətin istefasını

qəbul etdi və dekabrın 26-da F. Xoyskinin rəhbərliyi ilə yeni hökumətin tərkibi elan olundu. İngilislərin təkidi ilə hökumət üç nazir vəzifəsi ruslara, iki yer ermənilərə təklif olundu. . Lakin ermənilər bu təklifdən imtina etdilər.

1918-ci il iyunun 19-da respublika ərazisində hərbi vəziyyət elan olundu. İyunun 26-da Milli Ordu yaradılması haqqında fərman verildi və ordu “Əlahiddə Azərbaycan korpusu” adlandırıldı. İyulun 11-də respublikada hərbi səfərbərlik haqqında fərman verildi. Çağırışyaşlı bütün müsəlman vətəndaşlar hərbi qulluğa çağırıldı.

Noyabrın 1-də hərbi nazirlik yaradıldı. Baş nazir F.Xoyski hərbi nazir, general S. Mehmandarov onun müavini təyin edildi.

1918-ci il dekabrın 25-26-da yeni təşkil edilən hökumətdə general

S. Mehmandarov hərbi nazir, general-leytenant Ə. Şıxlinski isə onun müavini təyin olundu. ^Milli hökumət bir sıra mədəni tədbirlər həyata keçirdi:

1. Nəsib bəy Yusifbəylinin rəhbərliyi ilə Xalq Maarif Nazirliyi təsis edildi.

2. 1918-ci il avqustun 28-də məktəblər milliləşdirildi. Bütün ibtidai məktəblərdə təhsil ana (türk) dilində aparılırdı.

3. İbtidai sinif müəllimləri hazırlamaq üçün Bakı, Gəncə, Şuşa, Qazax, və s. şəhərlərdə xüsusi pedaqoji kurslar təşkil olundu. Bu kurslarda dərs demək üçün Türkiyədən 50 müəllim dəvət edildi.

4. Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü,

5. “Nina” qız məktəbləri qız gimnaziyaları adlandırıldı, habelə yeddi kişi gimnaziyası açıldı.

6. Azərbaycan (türk) dilində dərsliklər hazırlanması üçün komissiya təşkil olundu.

7. Bütün qəzalarda yaşlılar üçün Azərbaycan (türk) dilində axşam kursları təşkil olundu.

8. 1919-cu ildə Bakı Universiteti açıldı.

1918-1920-ci illərdə dövlətin rəsmi orqanı “Azərbaycan” qəzeti nəşr olunurdu.

Yarandığı ilk gündən Azərbaycan Milli hökumətinin qarşısında duran əsas vəzifələrdən biri respublikanın beynəlxalq aləmdə tanınmasına nail olmaq idi.

1918-ci il dekabrın 28-də Ə.M.Topçubaşovun rəhbərliyi ilə Paris sülh konfransında iştirak edəcək nümayəndə heyətinin tərkibi təsdiq edildi l920-ci il yanvarın 11- də Böyük Britaniyanın xarici işlər naziri lord Kerzonun təklifi ilə “Antan- ta”nın Ali Şurası Azərbaycan Cümhuriyyətinin müstəqilliyini de-fakto tanıdı. Bununla da Azərbaycan beynəlxalq hüququn subyektinə çevrildi.

# AXC-nin HAKİMİYYƏTİ DÖVRÜNDƏ MAARİFÇİLİYİN İNKIŞAF ETDİRİLMƏSİ

***Fətullayeva S.A.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Xalq Cümhuriyyəti dövründə digər sahələrdə olduğu kimi xalq təhsilinin inkişafı üçün də böyük işlər görülmüş, mühüm islahatlar həyata keçirilmişdir. Bu istiqamətdə Hacı Zeynalabdin Tağıyevin milləti üçün açdığı işıqlı yolu Azərbaycan Xalq Cümhuriyyəti hökuməti davam etdirmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin təhsil sahəsində həyata keçirdiyi ilk tədbirlərdən biri hökumətin 1918-ci il 27 iyun tarixli qərarı ilə Azərbaycan (türk) dilinin dövlət dili elan edilməsi idi. Azərbaycan hökuməti ilk günlərdən başlayaraq, milli kadrların hazırlanmasına, bu sahədə təhsilin tamamilə yenidən qurulmasına xüsusi əhəmiyyət verirdi. Nazirliyin təhsil sahəsində həyata keçirdiyi ilk və ən mühüm tədbirlərdən biri məktəblərin milliləşdirilməsi oldu. Azərbaycan Cümhuriyyəti hökumətinin 1918-ci il 28 avqust tarixli qərarına əsasən, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılmalı, dövlət dili olan Azərbaycan dilinin tədrisi isə məcburi surətdə həyata keçirilməli idi. Ali, ibtidai və orta tədris müəssisələrində dərslər dövlət dilində aparılmalı idi. Azərbaycan dilini bilməyən şagirdlər üçün 3-cü və 4-cü siniflərdə Azərbayan dili şöbələri açılmalı və burada Azərbaycan dili elə intensivýtədris olunmalı idi ki, iki ildən sonra həmin şagirdlər artıq bu dildə təhsillərini davam etdirə bilsinlər. Cümhuriyyət hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində artıq 1919-cu ilin əvvəllərində Azərbaycanda dövlət hesabına 23 orta ixtisas təhsili məktəbi və 637 ibtidai məktəb fəaliyyət göstərirdi. Müəllimlər seminariyaları istisna olmaqla, 1919-20-ci tədris ilində Azərbaycanın orta məktəblərində 9611 şagird təhsil alırdı ki, onların da 3115 nəfəri azərbaycanlı idi. Xalq təhsilini milli zəmin üzərində yenidən qurmaq üçün ixtisaslı müəllim kadrları və dərs vəsaitlərinə böyük ehtiyac var idi. O dövrdə Azərbaycanda mövcud müəllim kadrları və dərs vəsaiti heç də kifayət qədər deyildi. Vəziyyətdən başlıca çıxış yolu Türkiyədən müəllim kadrları dəvət etmək idi. XMN məktəbləri dərs vəsaitləri ilə təmin etmək məqsədilə xüsusi komissiya yaratmışdı. Həmin komissiyanın fəaliyyətinə o dövrün görkəmli pedaqoqları Hüseyn Cavid, Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq, Cəmo Cəbrayılbəyli, Səməd bəy Acalov, Fərhad Ağazadə, Abdulla bəy Əfəndizadə və b. cəlb edilmişdilər.

1919-cu il sentyabrın 18-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qərarı ilə

xalq məktəbləri üçün Türkiyədən dərs kitabları almaq məqsədilə Xalq Maarifi Nazirliyinə bir milyon manat vəsait ayrılmışdı. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakı Dövlət Universitetini açılması istiqamətində fəaliyyətə başladı. Həmin dövrdə kadr, maliyyə və digər problemlərin olmasına baxmayaraq hökumət Bakı Dövlət Universitetinin yaradılmasına nail ola bilmişdir.

Mövcud çətinliklərə baxmayaraq Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə Azərbaycanda ibtidai təhsil şəbəkəsinin genişləndirilməsi mümkün oldu. Artıq 1919-cu ildə Azərbaycanda dövlət hesabına ibtidai məktəb fəaliyyət göstərirdi. Azərbaycanın bir sıra mərkəzi şəhərlərində savadsızlığın aradan qaldırılması məqsədilə yaşlılar üçün xüsusi kurslar açıldı. Bu tədbir savadsızlığın aradan qaldırılmasında mühüm rol oynadı.

Maarif sahəsində görülən tədbirlər zamanı milli konsepsiya həmişə diqqət mərkəzində olmuşdur. Bu zaman ümumi icbari təhsil layihələri hazırlandı, kənd və şəhərlərdə yeni tipli məktəblər açıldı. Məktəbdə tədris işinin təşkilinin ali təhsilli müəllimlərlə bağlı olduğunu dərk edən Azərbaycan Xalq Cümhuriyyəti milli məktəblər üçün müəllim hazırlanması probleminin həlli istiqamətində xeyli tədbirlər həyata kecirilmişdir. Maarif sahəsində görülən tədbirlərin nəticəsi olaraq 1919-cu ildə Azərbaycanda 23 dövlət orta təhsil müəssisəsi vardı: 6 kişi, 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 "Müqəddəs Nina" qız məktəbi, politexnik məktəb və kommersiya məktəbi. Bakı Qadın Seminariyası kişi seminariyasına çevrildi, orada təhsil alanlar üçün pansion açıldı. 1918-1919-cu illərdə Gəncə Müəllimlər Seminariyası milliləşdirilmiş, Zaqatala, Ağdam və Şuşada yeni tipli müəssisələrin yaradılması nəzərdə tutulmuşdu.

Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin bütün kitablarını, avadanlığını və vəsaitini 1918-ci il sentyabrın 1-də Qazax şəhərinin 9 kilometrliyində olan Ağstafa stansiyasına gətirmişdilər. Bu tədbirlərin həyata kecirilməsində F.B.Köçərlinin mühüm xidmətləri olmuşdur. Nəticədə Sentyabrın 17-də seminariyada dərslər başlanmış, Firudin bəy Köçərli Qori Seminariyasının məzunlarının bir coxunu seminariyanın fəaliyyətinə cəlb etmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti zamanı hökumət bir tərəfdən xalqın təhlükəsizliyini, ərazimizin bütövlüyünü və yenicə müstəqillik əldə etmiş dövlətimizin suverenliyini təmin edə biləcək milli ordumuzun hazırlanması üçün ali, orta və ibtidai məktəblər açır, kurslar təşkil edir, digər tərəfdən dərsliklər, tədris vəsaitləri hazırladıb çap etdirirdi.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təhsil sahəsində gördüyü tədbirlərindən biri də təhsil tariximizdə ilk dəfə olaraq dövlət səviyyəsində məktəbəqədər tərbiyə müəssisələrinin nümunəsini yaratması idi. Bu dövrdə peşə-ixtisas təhsili müəssisələri şəbəkəsinin təşkili, yaxud mövcud olanların inkişaf etdirilməsi sahəsində də konkret addımlar atıldı.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bir çox ümummilli problemlərin həllində real addımlar atmış, çoxsaylı maarif, təhsil, mədəniyyət məsələlərinin təməlini, əsasını qoymuş, görüləcək bir çox işlərin ilkin layihələrini hazırlamış, ideya əsaslarını verməyə nail ola bilmişdir.

Azərbaycanda dövlət universitetinin açılması haqqında rəsmi qanun 1919-cu il sentyabrın 1-də qəbul olunmuşdur. Universitetdə ilk dərslər həmin il noyabrın 15-də başlamışdır. Bununla yanaşı Azərbaycan hökuməti 1919-20-ci tədris ilində dünyanın müxtəlif ali məktəblərində dövlət hesabına təhsil almaq üçün 100 nəfər azərbaycanlı gəncin xaricə göndərilməsi haqqında da qərar qəbul etmişdi. Dövlət hesabına təhsil alacaq tələbələr xarici ali məktəbi bitirdikdən sonra dörd il icbari qaydada Azərbaycan hökumətinin təyinatına əsasən göndərildiyi yerdə işləməli idilər.Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən həyata keçirilən bu tədbirlər xalqımızın maariflənməsi sahəsində mühüm rol oynamışdır.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN MƏDƏNİ FƏALİYYƏTİ: MUZEY QURUCULUĞU

**_Heydərova Ç.A._**
_Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti_

28 may 1918-ci il.Xalqımızın şanlı tarixinə qızıl hərflərlə yazılmış daha bir gün.Azərbaycanlılar üçün müqəddəs və silinməz izlər buraxan bu gün Şərqdə ilk Cümhuriyyətin, demokratik və ümumbəşəri dəyərlərə malik Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gündür. Cəmi 23 ay ömür sürdü, amma ömrümüzə milli istiqlal ideyaları ilə əbədiyaşar olan bir iz buraxdi.Bu qısa ömrü tarixində xalqımızın yaddaşına əbədi həkk olunacaq bir çox möhtəşəm işlərə imza atdı. Əsas şüarı “Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" olan AXC 23 aylıq ömründə bir çox sahələrdə xüsusilə də elmin və mədəniyyətin inkişaf etdirilməsində uğurlu addımlar atmışdır.Bu haqda çox danışmaq olar,lakin bir muzeyşünas olaraq tezisimdə AXC-nin mədəniyyətin əsas proritet

sahələrindən olan muzey işinə xüsusi diqqət yetirməsini vurğulamaq istərdim.

XIX əsrin II yarısından Azərbaycana bir çox ölkədən səyyahlar, əntiqşünaslar, mühəndislər və s. həvəskarlar gəlirdi. Əsas məqsədləri taiximizə dair müəyyən məsələnin həlli olmasa da, maddi-mədəniyyət abidələrimizin öyrənilməsində, onların qeydə alınmasında müəyyən işlər görmüşlər. Məs: Fransız səyyahı Montre Göygol rayonu ərazisində 30-a qədər qiymətli abidələri tədqiq edib təsvir etmiş, Gədəbəydə alman kapitalisti Simensin mis mədənlərində elektrik vəzifəsində çalışan V.Belhk, Gəncədə alman dili müəllimi olan Resler Kiçik Qafqaz dağları zonasında bir sıra abidələrdə arxeoloji qazıntılar aparmış xeyli materiallar əldə etmiş, Lənkəran zonasında fransız alimi J.Morqan isə abidələri öyrənərkən oradan topladığı materiallar əsasında əsər yazıb fransada nəşr etdirmiş, rus alimlərinindən İvanaski Gədəbəy, Xocalı, Füzuli rayonunda qəbir abidələrini açaraq əldə etdiyi materiallar əsasında qiymətli əsərlər yazmışdır.Lakin onları maraqlandıran tariximiz deyil, qiymətli və bəzəkli muzey eksponatları toplamaq idi. Bununla yanaşı avropa missionerləri və tacirləri Azərbaycanın şəhər və kəndlərini dolaşaraq, əhalidən yazıçı və şairlərin əlyazmalarını, çini qabları, qızıl əşyalarını, qədim paltarları və digər əşyaları dəyər-dəyməzə alaraq özləri ilə aparırdılar.Artıq ölkədəki çox qədim tarixi-mədəni əhəmiyyətli abidə nümunələri, zinət əşyaları, geyimlər, xalça məmulatları, məişət əşyaları və digər dəyərli əşya və materialların xaricə axınının qarşısını almaq vacib idi.Lakin 1919-cu ildə Bakı Arxeologiya Cəmiyyətinin təşkil olunmasına baxmayaraq bu Cəmiyyət tarixi abidələrin mühafizəsi və qorunması üçün lazımı nəzarəti həyata keçirə bilmirdi. Nəhayət Azərbaycanda tarix-mədəniyyət nümunələrinin zənginliyi, maddi və mənəvi mədəniyyət nümunələrinin əhali kütləsi arsında geniş maraq oyatması, onların xaricə daşınmasının qarşısının alınmasının vacibliyi kimi amillər nəticəsində ölkədə muzey yaradılmağa başladı.Bunun üçün qiymətli əşyalar da toplanmışdı.

Öncə muzeyin sadəcə Miili Muzey adlandırılması nəzərdə tutulsa da, Istiqlal şüarı günün əsas şüarı olduğundan, muzeyə də İstiqlal adının verilməsi qərara alındı.Azərbaycan Parlamenti də bu məsələyə müsbət yanaşmış və H.M.Camalov və M.Ağayevin təşəbbüsü ilə Parlament Milli İstiqlal Muzeyinin təşkil olunması barəsində qərar qəbul edilmişdi.Parlamentin sədr müavini Həsən bəy Ağayev muzey üçün bir otaq ayrılması haqqında sərəncam vermişdi.Muzey üçün toplanmış əşyaların təhvili və qəbulu aktı sayılan bu sənəd "Həmişəlik Azərbaycan Parlamenti ixtiyarında olaraq,hələlik Parlament imarətində təsis edilən "Muzey İstiqlal" adına müəssisələr tərəfindən toplanmış olan

şeylərin Birinci Parlament Divani-Rəyasətinə təhvil verilməsi haqqında Şərait" adlanır. Azərbaycan muzey quruculuğunda ilk hüquqi sənəd olan "Şərait"in əldə edilməsi həmin dövr üçün həm mühüm hadisə həm də muzey yaradıcılığı istiqamətində çox vacib addım idi. "Şərait" 7 maddədən ibarət olmaqla əşyaların təhvili, qəbulu,gələcəkdə muzeyin genişlənməsi üçün maliyə məsələləri, zəngin muzey kitabxanasının yaradılması, idarəedici qurumun yaradılması, muzeyin maliyə fondunun təşkili, hədiyə edilmiş əşyaların gələcəkdə qəbulu qiymətini təyin etmək üçün komissiyanın təşkili, sənədləşmənin dəqiq aparılmasına nəzarət mexanizmi, proqram və nizamnamənin tətbiqi məsələlərini əhatə etmişdir.Tərəflərin razılaşmasına əsasən İstiqlal muzeyinin təşkili və fəaliyyəti ilə bağlı bütün xərcləri Parlamentin Rəyasət heyəti öz üzərinə götürmüşdür.

Azərbaycan Parlamentinin nəzdində fəaliyyət göstərməyə başlayan Muzey 1919-cu il dekabrın 7-də Parlamentin yaradılmasının ildönümü münasibətilə açılmışdı.Parlament üzvləri və hökumət nümayəndələrinin də iştirak etdiyi təntənəli açılış mərasimində bu muzeyin təşkilinin əhəmiyyəti xüsusi qeyd olunmuş, onu yaradanların əməyi yüksək qiymətləndirilmişdir. Muzeydə arxeoloji nümunələr, rəsm əsərləri, maketlər, xalça və tikmələr, müxtəlif silahlar,numizmatika materialları, «Quran»ın nadir nüsxələri, müxtəlif əlyazmalar, bəzək şeyləri və s. toplanmışdı.Beləliklə "Muzey işinin inkişaf etdirilməsi üçün bünövrə qoyuldu.

Sonradan «Müsəlman Şərqini Öyrənmə Cəmiyyəti»in təsis edilməsi,Naxçıvanda B.Əlibəyov tərəfindən əsasən öz şəxsi materialları hesabına muzeyin , Etnoqrafiya Muzeyinin yaradılması, Pedoqoji Muzeyin işinin təkmilləşdirilməsi məsələlərinin həyata keçirilməsi xalqımızın öz tarixi keçmişinə marağı daha da artırır, onlarda vətənpərvərlik hissini gücləndirirdi.

Son olaraq müasir müstəqil Azərbaycan dövlətinin banisi, ümummilli lider Heydər Əliyev AXC haqqında söylədiyi fikrini qeyd etmək istərdim:"Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrinin bərpası işində böyük rol oynamışdır. Ən əsası da odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini gücləndirmiş oldu".

# AXC PARLAMENTİNİN AQRAR QANUNVERİCİLİYİNİN TARİXİNDƏN

***Həsənov H.N.***

*AMEA, AA.Bakıxanov adına Tarix İnstitutu*

Ötən əsrin əvvəllərində, 74 illik fasilədən sonra meydana çıxaraq milli dövlətçiliyimizin bərpasını reallaşdırmış Azərbaycan Xalq Cumhuriyyəti mövcud olduğu çox qısa müddətdə-23 ay ərzində cəmiyyətin həyatına demək olar ki, bütün sahələrində çox ciddi addımlar atdı. Haqqında danışılan dövrdə bir neçə sənaye mərkəzi çıxılmaqla, demək olar ki, başdan-başa aqrar ölkə olan Quzey Azərbaycanda torpaq məsələsini əsaslı şəkildə həll etmədən cəmiyyətin həyatının yenidən qurulması qeyri-mümkün idi. Belə ki, romanovlar rejiminin nə 14 may 1870-ci islahatı, nə 1900-1903-cü il qanunları, nə də 20 dekabr 1912-ci il islahatı nə sahibkar, nə də xəzinə kəndində torpaq məsələsini kardinal şəkildə həll edə bilməmişdi.

Doğrudur, çarizmin və Müvəqqəti Rusiya hökümətinin süqutundan sonra bir müddət Cənubi Qafqazda parlament rolunu oynamış Seym hələ 1918-ci il artın 7-də bütün diyarda torpaq islahatının hüquqi bazası olaaq aqrar qanun qəbul etmişdir. Elə 70 gündən bir qədər artıq müddətdə Bakıda ağalıq etmiş şaumyançı “Xalq” komissarlar sovetinin də torpaq haqqında kağız üstündə qalmış xüsusi dekreti verilmişdir. Lakin hər iki sənəd Quzey Azərbaycan reallıqlarını nəzərə almaqdan xeyli uzaq idi. Təsadüfi deyildir ki, AXC-nin yaranmasından heç bir ay belə keçməmiş -1918-ci il iyunun 22-də ikinci hökümət kabinetinin başçısı Fətəli xan Xoyski Cənubi Qafqaz seyminin yuxarıda adını çəkdiyimiz aqrar qanununun AXC ərazisinə aid edilməməsi barədə xüsusi fərman imzalamışdı. Lakin hərbi-siyası hadisələrin çoxvektorlu gedişatı, mürəkkəb daxili və beynəlxalq vəziyyət dərhal aqrar məsələ ilə məşğul olmağa imkan vermədi. Aqrar islahat haqqənda qanun layihəsini hazırlayacaq xüsusi parlament komissiyası ancaq 1919-cu il fevralın 4-də yaradıldı. AXC parlamentinin hümmətçi-bolşevik S.Ağamalıoğlunun sədri olduğu aqrar komissiyasının tərkibi siyasi cəhətdən çox rəngarəng idi: buraya 4 müsavatçı (M.Mahmudov, M.Şıxzamanov, M.Axundzadə, N.Nərimanbəyov), İttihad (B.Vəzirov), sosialist bloku (İ.Qaraşov), Əhrar (H.Əfəndiyev), daşnaksütun (A.Malxazyan) və Rus-slavyan cəmiyyətinin (Vinoqradov) hərəsindən bir nümayəndə daxil idi. Bu komissiyanın hazırladığı ilk qanun layihəsi əsasən Cənubi Qafqaz seyminin aqrar qanununu təkrar etdiyindən AXC hökümətі tərəfindən qəbul olunmadı.

Komissiyanın tərkibinin siyasi cəhətdən rəngarəngliyi onun işini ləngidən əsas

amillərdən idi. Məsələn, B.Vəzirov xəzinə və mülkədar torpaqlarının satn alınmasını təklif edir, sol sosialistlər bloku və "Hümmətin" nümayəndələri belə torpaqların müsadirəsini tələb edirdilər və s. Doğrudur, 1919-cu il aprelin 23-də müsadirə tələbi qəbul olundu,lakin bu, layihənin sonrakı taleyinə təsir edə bilmədi.

Parlamentin torpaq komissiyası, nəhayət ki, 1919-cu il avqustun sonu-sentyabrın əvvəllərində aqrar qanun layihəsi üzərində işi başa çatdırdı. Bütövlükdə kifayət qədər qısa müddətdə hazırlanmış bir qanun layihəsinin başlıca məğzi aşağıdakı postulatlara ,müddəalara söykənirdi:

-respublika ərazisindəki bütün torpaqlar dövlətin mülkiyyətidir;

-torpaqlar əvəzsiz olaraq dövlətin ixtiyarına keçir;

-lakin əsas sahibkarlara onların istifadəsində olan torpaqların müəyyən hissəsi saxlanılır (torpağın kateqoriyasından asılı olaraq bu "saxlama"nın sahəsi 1-ci kateqoriya üçün 7 des.,2-ci kateqoriya üçün 15-20 des., 3-cü kateqoriya üçün isə 40-50 des. nəzərdə tutulurdu). Qalan bütün torpaqlar dövlətin ixtiyarına keçməli idi.

Qanun layihəsinin son variantı Ümümazərbaycan Müəssislər Məclisi tərəfindən qəbul olunmalı idi.

Lakin bu layihə bir müddət "havada" qaldı və ancaq 1919-cu il oktyabrın 2-də AXC parlamentinin 81-ci iclasının gündəliyinə salındı. Lakin Əkinçilik aazirliyinin başçısı Hidayət Sultanovun tələbi ilə müzakirədən çıxarıldı. Belə ki. Sultanov tələb etdi ki, müzakirəyə bu layihə ilə eyni zamanda Əkinçilik Nazirliyinin hazırladığı analoji qanun layihəsi də çıxarılsın, o vaxtadək isə ilk layihənin müzakirəsi dayandırılsın. Nazirlik isə belə layihənin hazırlanmasına heç başlamamışdı.

1920-ci il fevralın 16-da Müsavat fraksiyası parlamentin 123-cü iclasına öz aqrar qanun layihəsini təqdim etdi. Bu layihədə də xüsusi sahibkar torpaqlarının əvəzsiz olaraq xəzinənin nəfinə özgəninkiləşdirilməsini nəzərdə tuturdu, lakin bu şərtlə ki, mülkədarların mülkiyyətində kənd yerlərində 25 des.-dən 75 des.-dək, səhər yerlərində isə 5 des.-dən 7.5 des.-dək torpaq saxlanılmasına imkan verilsin.

Parlament 10 gün ərzində bu layihəni müzakirə etməyə borclu olsa da,çoxdan bəri yığışmayan torpaq komissiyasının tərkibini öz adamlarının hesabına yeniləşdirmək istəyən S.Ağamalıoğlunun "manevr"ləri, müsavatçı Ş.Rüstəmbəyovun bu komissiyaya sədr müavini seçilməsi ilə bu manevrlərin boşa çıxması, ən əsası isə aprel işğalı AXC parlamentinin aqrrar qanunvericilik cəhdlərininin məntiqi sonluqla bitməsinə imkan vermədi.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
# VƏ ÖLKƏDƏ APARILAN İSLAHATLAR

**_Həsənova Ə.A._**
_Sumqayıt Dövlət Unuversiteti_

1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik respublika olmuşdur. Əsrlər boyu müstəqillik arzusu ilə yaşayan xalqımız, nəhayət ki, öz müstəqil dövlətinə 1918-ci il mayın 28-də sahib oldu. Çox mürəkkəb bir daxili və beynəlxalq şəraitdə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin əsas hissəsini Azərbaycanın müstəqilliyinin dünya dövlətləri tərəfindən tanınmasına nail olmaq, qonşu dövlətlərlə münasibətləri qaydaya salmaq təşkil edirdi. Çətin beynəlxalq şəraitdə müstəqilliyini elan etmiş, hərbi köməyə ehtiyacı olan Azərbaycan Xalq Cümhuriyyəti ilk addım kimi Türkiyə ilə müqavilə bağlamağı qərara almışdı.

1918-ci il iyunun 4-də Batumda Osmanlı Türkiyəsi ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi imzalanmışdır. Bu, Cümhuriyyət hökumətinin imzaladığı ilk dövlətlərarası müqavilə idi. İyunun 16-da Azərbaycan hökuməti Tiflisdən Gəncəyə köçdü. 1918-ci il iyunun 17-də Fətəli xan Xoyskinin başçılıq etdiyi Azərbaycan Xalq Cümhuriyyəti soyqırımı taleyini yaşamış Azərbaycan xalqını bu çətin vəziyyətdən çıxarmaq məsuliyyətini öz üzərinə götürdü. Hökumət iyun ayının 19-da bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdikdən sonra dövlət quruculuğu prosesinə başladı.

Azərbaycan hökuməti öz fəaliyyətinin mühüm bir hissəsini dövlət müstəqilliyinin qorunub saxlanması, xarici müdaxilənin qarşısının alınması üçün ordu quruculuğuna istiqamətləndirmişdir. Ordu quruculuğu istiqamətində iyunun 26-da müsəlman hərbi korpusunun Azərbaycan korpusuna çevrilməsi ilə mühüm addım atıldı və ilk milli ordu yaradıldı. Növbəti gün Azərbaycan dili dövlət dili elan edildi. İyul ayının 15-də Fövqəladə Təhqiqat komissiyası yaratmaq barədə qərar qəbul olundu və bu komissiya birinci dünya müharibəsi dövründə Cənubi Qafqaz ərazisində bütün türk-müsəlman əhalisinə qarşı erməni daşnakları tərəfindən törədilən soyqırımı cinayətlərinin araşdırıb cinayətkarları məsuliyyətə cəlb etmək məqsədi daşıyırdı.

1918-ci il noyabrın 9-da mavi, qırmızı və yaşıl zolaqlı, üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan bayraq dövlət bayrağı kimi qəbul edildi. Müstəqi respublikanın dövlət himni qəbul olundu, milli valyutanın dövriyyəyə buraxılması da Cümhuriyyət hökumətinin uğurlu islahatlarından biri idi. 1918-ci il iyunun 27-dən iyulun 1-

dək Göyçay ətrafında birləşmiş türk-Azərbaycan hərbi qüvvələri ilə Bakı Xalq Komissarları sovetinin hərbi qüvvələri arasında gedən döyüşlərin nəticəsində Bakı sovetinin hərbi qüvvələri məğlub oldu. 1918-ci ilin martından başlayaraq erməni daşnaklarının və bolşeviklərin Bakıda və Azərbaycanın digər bölgələrində keçirdikləri qanlı qırğınlara, özbaşınalıqlara son qoyuldu. Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti sentyabrın 17-də Gəncədən Bakıya köçürüldü və mühüm dövlət təsisatları məhz burada yerləşdirildi, ölkədə dövlət quruculuğun əsas mərhələsinə başlanıldı.

Ancaq mürəkkəb beynəlxalq şəaitdə fəaliyyət göstərməsinə baxmayaraq, Cümhuriyyət hökuməti və parlamenti elmin, təhsilin və xalq maarifinin, eləcə də səhiyyənin inkişafını diqqət mərkəzində saxlayırdı. Ölkənin hər yerində müxtəlif məktəblər, gimnaziyalar, qız məktəbləri, kitabxanalar və xəstəxanaların açılması o dövrdə sosial-iqtisadi yönümlü islahatların həyata keçirilməsi istiqamətində atılan mühüm addım idi. Azərbaycan Parlamentinin 1919-cu il 1sentyabr tarixli iclasında Bakı Dövlət Universitetinin təsis olunması haqqında qərar qəbul olundu. Elm və təhsilin inkişafına xüsusi diqqət yetirən Cümhuriyyət hökuməti və Parlamenti milli kadrlar hazırlanmasının sürətləndirilməsinə xüsusi səy göstərirdi. 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına təhsil almaq üçün xarici ölkələrə göndərilməsi barədə qanun qəbul olundu.

Azərbaycan Parlamentinin və Cümhuriyyət hökumətini özünə cəlb edən məsələlərdən biri də yaxın qonşularla münasibətlər və sərhəd məsələləri idi. Çarizmdən miras qalmış inzibati-ərazi bölgüsünün əhalinin milli tərkibinə uyğun gəlməməsi kəskin ərazi-sərhəd problemləri yaratdı. 1918-ci ildə Azərbaycan və Ermənistan Respublikaları yaranana qədər Dağlıq Qarabağın Gəncə quberniyasından çıxmaq, yaxud müstəqil olmaq və ya İrəvan quberniyasına daxil olmaq məsələsi qaldırılmamışdı. Respublikalar yaranan kimi Ermənistanın təbliği, təhriki və təzyiqi ilə Qarabağın dağlıq hissəsindəki erməni əhalisinin müəyyən təbəqələri Azərbaycan Respublikasının hakimiyyətini tanımaqdan imtina etdilər.

Qarabağ ermənilərinin 1918-ci ilin iyulunda keçirilən birinci qurultayı Dağlıq Qarabağı müstəqil elan etdi. Ermənistanın tərkibinə daxil olmaq məsələsi hələ qaldırılmamışdı, erməni daşnaklarının ən böyük iddiası isə Qarabağı və Zəngəzuru özünə birləşdirmək idi. Ermənistan hökuməti işğal planlarını həyata keçirmək məqsədi ilə oraya silahlı qüvvələr yeritdi, bu da Qarabağda qanlı müharibənin başlanmasına səbəb oldu. Azərbaycan hökuməti bütün mübahisəli məsələləri dinc yolla həll etmək üçün Gürcüstan və Ermənistan hökumətlərinə üç respublika nümayəndələrinin iştirakı ilə müşavirə keçirməyi

təklif etdi. 1918-ci ilin noyabrında Tiflisdə konfrans çağırıldı, Ermənistan hökumətinin nümayəndələri gəlmədiyi üçün konfrans keçirilmədi.

1919-cu ilin yanvarında Ermənistan hökuməti Qarabağla əlaqədar Azərbaycana qarşı ərazi iddiası irəli sürdü. Bununla da Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsi üçün ilk böyük cəhd edildi. Problemi dinc vasitələrlə həll etmək üçün Azərbaycan hökuməti dəfələrlə təkliflərlə çıxış etsə də, erməni daşnaklarının tutduğu mövqe bu təkliflərin həyata keçməsinə maneçilik törədirdi. Azərbaycan Parlamenti Dağlıq Qarabağ məsələsini müzakirə edərək separatçılıq hərəkatının qarşısını almaq üçün tədbirlər həyata keçirməyə başladı. Azərbaycan hökuməti Şuşa, Cəbrayıl, Cavanşir və Zəngəzur qəzalarını Gəncə quberniyasından ayırıb mərkəzi Şuşa şəhəri olmaqla həmin qəzalardan ibarət Qarabağ general-qubernatorluğu yaratdı və Xosrov bəy Sultanov general-qubernator təyin edildi.

1919-cu il noyabrın 23-də Tiflisdə ABŞ nümayəndəliyinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında müqavilə imzalandı. İmzalanan müqaviləyə əsasən bütün məsələlər danışıqlar yolu ilə həll edilməli idi. Lakin Ermənistan tərəfi bu sazişi kobud surətdə pozaraq öz hücumlarını davam etdirdi. Azərbaycan hökuməti yenə də münaqişəni nizama salmaq və mübahisəli məsələləri danışıqlar yolu ilə həll etmək məqsədilə 1919-cu il dekabrın 14-də Bakıda erməni-Azərbaycan konfransının keçirilməsinin təşəbbüsçüsü oldu. Konfransın qərarları Ermənistan nümayəndələri tərəfindən rədd edildi. Gürcüstanla münasibətlər nizama salınsa da, Ermənistan hökumətinin ərazi iddiaları üzündən Azərbaycan-Ermənistan münasibətlərini normal məcraya yönəltmək mümkün olmadı. Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə Ermənistanın Qarabağı diplomatik və hərbi vasitələrlə ələ keçirmək cəhdlərinin qarşısı qətiyyətlə alındı.

1918-ci il sentyabrın 15-də Qafqaz İslam ordusunun Bakını azad etməsindən sonra sentyabr ayının 23-də Berlində aparılan danışıqlar nəticəsində Almaniya ilə Osmanlı Türkiyəsi arasında protokol imzalandı. Bu sənədə görə, Almaniya əvvəlki 27 avqust tarixli müqavilədən imtina edir, Azərbaycanı diplomatik cəhətdən tanıyacağını bildirir və onun müstəqilliyinin Sovet Rusiyası tərəfindən tanınacağına yardım göstərməyi vəd edirdi. Lakin 1918-ci ilin payızında alman-türk bloku birinci dünya müharibəsinin nəticələrinə görə məğlub olduqdan sonra Mudros barışığına əsasən noyabr ayının 17-də müttəfiq qoşunları Bakıya daxil olmaqla Azərbaycanın istiqlaliyyətini ciddi təhlükə qarşısına qoydu.
Bu dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti və hökuməti xarici təhlükənin qarşısını almaq üçün müstəqil respublikanın beynəlxalq aləmdə tanınması istiqamətində

böyük iş aparırdı. 1918-ci ilin dekabrın 7-də açılmış Azərbaycan Parlamenti Paris sülh konfransında iştirak etmək üçün Parlamentin sədri Ə.M.Topçubaşovun başçılığı nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul etmişdi. Azərbaycanın 1920-ci il yanvarın 11-də müttəfiq dövlətlərin Ali Şurası tərəfindən de-fakto tanınması haqqında qərar qəbul olundu. Qısa müddətdə Tehranda Azərbaycanın səfirliyi, Təbrizdə baş konsulluq, Rəştdə konsulluq, Ənzəlidə, Məşhəddə vitse-konsulluq, Xoy və Əhərdə konsul-agentlikləri yaradıldı. 1920-ci il aprel ayının ortalarında Azərbaycan Parlamenti Böyük Britaniya, Fransa, İtaliya, ABŞ, İsveç, Polşa, Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumıniya, Almaniya və Rusiyada diplomatik nümayəndəliklər təsis etmək haqqında qanun qəbul etdi. Bir sıra xarici dövlətlərin nümayəndəlikləri isə Azərbaycanda fəaliyyətə başlamışdı. Aprel işğalı ərəfəsində Azərbaycan Xalq Cümhuriyyəti geniş beynəlxalq əlaqələr sisteminə daxil olmuşdu. Aprelin 28-də XI Qızıl Ordunun Azərbaycanı işğalı ilə Xalq Cümhuriyyətinin süqut etməsi ölkəmizin beynəlxalq münasibətlər sistemində müstəqil dövlət kimi iştirakını dayandırdı. 1920-ci ildə mövcud tarixi qarışıqlıqlar içərisində itirilmiş milli dövlətçiliyin XX əsrin sonunda yenidən bərpası xalqımızın milli-azadlıq ruhunun hər zaman yaşadığından xəbər verir.

## CÜMHURİYYƏT DÖVRÜNDƏ YARADILMIŞ İLK RƏSMİ MUZEY

***Həvilova F.H.***

*Bakı Dövlət Universiteti*

Azərbaycanda milli-mədəni irsimizin mühafizəsi və sonrakı inkişafı məhz muzey quruculuğu tarixi ilə birbaşa əlaqəlidir. Müasir dövrümüzdə mənəvi zənginləşməmizin ən qiymətli xəzinəsi hesab oluna biləcək muzeylər ilkin olaraq, xalqımızın görkəmli ziyalılarının maarifpərvər fəaliyyəti nəticəsində yaradılmışdır. Respublikamızda muzeylərin yaradılması sahəsində əhəmiyyətli dəyişikliklər isə məhz XX əsrin əvvəllərindən etibarən başlamışdır. Tarixi abidələrin və Milli-mədəniyyətimizin sənədləşdirilərək qeydə alınması və mühafizəsi üçün konkret qaydaların tərtib olunması haqqında XX əsrin əvvəllərində bir sıra tədbirlər həyata keçirilirdi. Belə ki, 1918-ci ildə Bakı Arxeoloji Cəmiyyətinin təşkil olunmasına baxmayaraq bu cəmiyyət tarixi abidələrin mühafizəsi üçün lazımi nəzarəti həyata keçirə bilmirdi. Avropa missionerləri və tacirləri Azərbaycanın şəhər və kəndlərini dolaşaraq, əhalidən yazıçı və şairlərin əlyazmalarını, çini qabları, qızıl əşyalarını, qədim geyimləri və digər əşyaları dəyər-dəyməzinə alırdılar. Belə ki, Londonun Viktoriya və

Albert, Parisin Luvr, Vaşinqtonun Metropoliten, Vyananın, Romanın, Berlinin, İstambulun, Tehranın, Qahirənin zəngin muzey kolleksiyalarına baxarkən orada Təbriz, Naxçıvan, Gəncə, Qazax, Quba, Bakı, Şamaxı və Qarabağ ustalarının bacarıqlı əlləri ilə yaradılmış sənət nümunələrini görürük. Odur ki, Azərbaycanın bir çox qabaqcıl ziyalıları milli-mədəni sərvətlərin dağıdılaraq talan edilməsinin qarşısını almağa çalışır, onların qorunması və bərpası üçün müəyyən tədbirlər görməyə cəhd edirdilər. Qeyd etmək lazımdır ki, bu cəhdlər təkcə milli-mədəni sərvətlərin qorunması istəyindən yox, həm də onlardan milli şüurun inkişafına təkan verən bir amil kimi istifadə etmək istəyindən də irəli gəlirdi. «Yaşıl qələm» ədəbi cəmiyyətinin üzvləri Hüseyn bəy Kamalov və Məhəmməd Ağayev Bakıda milli muzeyin yaradılması təşəbbüsü ilə çıxış etmişdilər. 1919-cu ilin iyul ayında onlar Azərbaycan Parlamentinin sədrinə belə bir xahişlə müraciət etmişdilər. Bu dövrdə Bakıda Xalq Məktəbləri müdriyyətinin nəzdində tədris məqsədilə Pedaqoji muzey, Ümumrusiya Texniki cəmiyyətinin Bakı şöbəsinin nəzdində 13 bölmədən ibarət qapalı muzey təşkil edilmişdir.

ADR dövründə yaradılmış «İstiqlal muzeyi» ölkəmizdə yaradılmış ilk rəsmi dövlət muzeyi olmuşdur. «Azərbaycan» qəzeti bu barədə yazırdı: «Bu şəxslər bir çox illərdən bəri milli muzey təşkil etməyi əsas məqsəd kimi qarşılarına qoymuşdular. Lakin müharibə ilə əlaqədar olaraq bu iş ləngimişdi. Onlar muzeyin yaradılması üçün çoxlu qiymətli əşyalar toplamışdılar. Əvvəlcə onlar muzeyi sadəcə olaraq, «Milli muzey» adlandırmaq istəyirdilər, lakin «İstiqlal» şüarının günün əsas şüarı olduğunu nəzərə alaraq, ona «İstiqlal» adı verməyi qərara aldılar. Muzeyin təsisçiləri onun Parlament binasında yerləşdirilməsini xahiş edir və bir otaq ayrılması haqqında arzularını bildirirdilər». Azərbaycan parlamentinin yaradılması ildönümü münasibətilə onun binasında açılmış və Parlamentin nəzdində fəaliyyət göstərmiş «İstiqlal» muzeyi fəaliyyətini tənzimləyən ilk hüquqi sənədlə işə başlamışdır. «İstiqlal» muzeyi 1919-cu il dekabr ayının 7-də Azərbaycan Parlamentinin yaradılmasının il dönümü münasibətilə onun binasında açılmış və Parlamentin nəzdində fəaliyyət göstərmişdir. Parlament üzvləri və hökumət nümayəndələrinin də iştirak etdiyi təntənəli açılış mərasimində Həsən Bəy Ağayev muzeyin təşkilinin əhəmiyyətini qeyd edərək demişdir: «Cənab əfəndilər! İclasdan sonra bu günki təntənəli və mübarək günümüzdən başqa xeyirli və əhəmiyyətli bir müəssisəni gülşad etmək istəyirik, o da Azərbaycan milli muzeyidir. Möhtərəm üzvlər və həmçinin burada olan azərbaycanlıların təşrif göstərmələrini rica edirəm».

Qeyd etmək lazımdır ki, əsasnaməni əvəz edə biləcək bir səviyyədə tərtib olunmuş «Muzey İstiqlal adına müəssisələr tərəfindən toplanmış olan əşyaların I Parlaman Divani-Rəyasətinə təhvil verilməsi haqqında Şərait»də əsas diqqət 3-cü bəndə verilmişdir. Xüsusi olaraq vurğulanan məsələlər muzeyə verilən hər bir əşyanın milli sərvət olması, gələcəkdə əşya sahiblərinin ailə üzvlərinin onları tələb etməyə ixtiyarı olmaması, «İstiqlal» milli bir müəssisə olduğu üçün muzeydə mövcud olan bütün əşyaların xalqa məxsus hesab olunması idi. Milli-siyasi şüurun, vətənpərvərlik ideyalarının genişləndiyi bir dövrdə tərtib olunmuş sənəddə milli irsin qorunması, mədəni-tarixi sərvətlərimizin toplanmasına yönəlmiş təqdirə layiq addımlar gələcəkdə, Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalından sonrakı dövrdə bu sahədə müvafiq işlərin görülməsi yönümündə xüsusi rol oynamışdı.

Ölkəmizin ilk rəsmi muzeyi hesab edilən «İstiqlal» muzeyi milli şüurun sürətlə inkişaf etdiyi bir şəraitdə açılmışdı və əsl milli mənafeləri ifadə edirdi. Belə ki, Cümhuriyyət dövründə artıq əhalidə milli şüur kifayət qədər inkişaf etmiş, milli istiqlaliyyət, xüsusilə də mədəni müstəqil ideyalar yayılmağa başlamışdır. Təəssüflər olsun ki, bu mütərəqqi təmayül Azərbaycanda Demokratik Respublikasının süqutundan sonra zəiflədi və muzey eksponatları arasında beynəlmiləlçilik ideyalarını tərənnüm edən eksponatlar çoxluq təşkil etməyə başladı.

Qeyd etmək lazımdır ki, yarandığı zamandan və məkandan asılı olmayaraq muzeylər fəaliyyət göstərdiyi ölkədə hər bir şəxsin öz milli mənsubiyyətini dərk etməsinə və tədricən soy kökünə qayıtmasına, keçmişin ibrətamiz dərslərindən nəticə çıxarmasına xidmət etməlidir. Bundan başqa muzeylər öz mədəni ənənələrini böyüməkdə olan nəsillərə çatdırmalı, başqa xalqların mədəniyyətinə hörmətlə yanaşmaq vərdişinin tərbiyə edilməsinə və nəhayət, öz təmayülündən asılı olmayaraq bütün muzeylər milli mənafelərə xidmət etməlidir.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ TƏHSİL SAHƏSİNDƏ ÇAGIRIŞLAR

***Hüseynov Ş.Ə.***

*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi az bir müddətdə təhsil sahəsində bir sıra tarixi qanun və qərarlar qəbul edildi. Məlumdur ki, 1917-ci ilin martın 29-da yaradılan Bakı müsəlmanlarının ictimai təşkilatı kimi müvəqqəti komitə Ümumi Qafqaz

Müsəlman qurultayının təşkili və keçirilməsinə nail oldu. Qurultayda bir sıra siyasi məsələlərlə yanaşı təhsil məsələləri də müzakirə edildi. E.Əfəndizadə qurultayda məruzə edərək Azərbaycan dilində ümumi, icbari və pulsuz təhsilin həyata keçirilməsi, müəllim kadrlarının hazırlanması, müəllim seminariyası və institutlarının açılması tələbi ilə çıxış etdi. Qurultay eyni zamanda bütün fənlərin Azərbaycan dilində tədrisini nəzərdə tutan universitetin açılmasını da lazım bildi. Hətta qurultay nümayəndələri maarif, məktəb məsələlərini həyata keçirmək üçün milli fond yaradılması ideyasını da irəl sürdülər. Qurultayda iştirak edən Z.Tağıyev bu ideyanı müdafiə etdi və birinci olaraq 50 min manat pul verəcəyini söylədi. Qurultayda eyni zamanda qadın hüququnun qorunması, kişilərlə qadınların eyni təhsil vəvətəndaşlıq hüququna malik olması barədə məsələ qaldırıldı, bu isə dindarların qəzəbunə səbəb oldu. Lakin buna baxmayaraq M.Ə.Rəsulzadənin təşəbbüsü ilə qadınlar haqqında qərar qəbul edildi.

1917-ci ilin oktyabrın 26-da Bakıda Musavat Partiyasının Qurultayı respublikanın proqramını müəyyənləşdirərkən təhsil sahəsində aşağıdakı tələbləri irəli sürdü:

xalqa tam təhsil azadlığının verilməsi;

müxtəlif tipli məktəblər arasında sıx, ardıcıl əlaqənin yaradılması;

ibtidai və ali-ibtidai məktəblərdə təhsilin ümumi, pulsuz və icbari olması;

maarif sahəsində bütün vətəndaşların bərabərliyi;

ali məktəblərdə təhsilin türk dilində keçirilməsi;

universitetlətin və ali təhsil müəssisələrinin daxili qaydaları və təhsil məsələlərini tənzimləməkdə tam müstəqil olması;

xüsusi texniki və kənd təsərrüfatı məktəblərinin açılması;

Qori şəhərindəki Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin Qazaxa köçürülməsi;

Azərbaycan dilinin dövlət dili elan olunması, məktəblərin milliləşdirilməsi, tədris müəssisələrində dövlət dili olan Azərbaycan dilinin məcburi tədris olunması;

Gəncə sənət məktəbinin hərbi məktəbə çevrilməsi, müqəddəs Nina qız tədris müəssisələrinin dövlət hesabına götürülməsi

Bakı şəhərində Universitetin açılması

Türkiyədən müəllimlərin dəvət olunması, dərsliklərin gətirilməsi və s.

Ölkənin inkişafında təhsiin, maarifin rolunu görən Azərbaycan Xalq Cümhuriyyəti ilk gündən məktəbləri milliləşdirmək məqsədilə nəşriyyat-tərcümə komissiyası yaratdı. Bu

komissiyanın rəhbərliyi ilə ibtidai və orta məktəblər üçün dərsliklər nəşr edildi. Məktəblərin yarıdan coxu milliləşdirildi. Azərbaycan Dövlət Universiteti yaradıldı. 1919-cu ildə Bakı Dövlət Universitetin yaradılması Azərbaycan Xalq Cümhuriyətinin ən böyük nailiyyətlərindən biri idi.

Bu dövrdə Azərbaycan Demokratik Respublikasının ilk dörd maarif naziri (N.Yusifbəyli, N.Şahsuvarov, H.Şaxtaxtinski və R.Kaplanov) olmuşlar. Bu görkəmli ictimai-siyasi, maarif xadimləri fəaliyyətində xalqımızın elmini, maarifini, məktəbini, təlim-tərbiyəsini irəli aparmaq üçün bütün vasitələrdən istifadə edirdilər. Demokratik hökümətin nazirlərindən biri olan Xudat bıy Aslanov 1919-cu ildə Bakıda ana dilində dərs keçilən ilk dəmiryol məktəbini açmışdır. Bu məktəb pedaqogika tarixində ən qiymətli təhsil müəssisələrindən biri olmuşdur.Sonrakı illərdə dəmiryol məktəbləri, professor Ə.Seyidovun rəhbərliyi ilə genişləndiirlmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə müəllimlərin yalnız bir qurultayı, (sayca Azərbaycan müəllimlərinin III Qurutayı) 1919-cu ildə (20 avqust-1 sentyabr) çağrıldı. Məqsəd məktəb islahatı ilə bağlı məsələləri müzakirə etmək, müvafiq təkliflər hazırlayıb hökümətə təqdim etmək idi. Qurultayda təhsilin məzmununu əks etdirən yeni proqram və dərsliklər hazırlamaq məqsədilə hökümət komissiyası yaradıldı.Lakin AXC devrildiyindən komissiya öz işini başa çatdıra bilmədi, lakin müəyyən işlər görüldü, bir sıra fənlər üzrə dərsliklər hazırlandı, məktəblilərin istifadəsinə verildi.

1919-cu ilə qədər Azərbaycanın müxtəlif qəzalarında cəmi üç müəllimlər seminariyası açıldı.1919-cu ildə daha dörd seminariya, o cümlədən Nuxa və Şuşada iki kişi seminariyası, Bakı və Nuxada iki qadın seminariyası açmaq lazım bilindi.Bu dövrdə təcrübəci-müəllimlər hazırlamaq üçün Gəncə Müəllimlər Seminariyası nəzdində aylıq kurslar açıldı. Belə kursların sonralar Nuxa, Zaqatala vəŞuşada açılması nəzərdə tutulmuşdur.

Demokratik Respublika 23 ay müddətində xalq maarifi sahəsində böyük işlər gördü, yüksək mədəniyyətə, maarifə və həqiqi bəşəri əxlaqa malik oldu. M.Ə.Rəsulzadənin dediyi kimi, "çox şey verə bilmədik... amma milli azadlığın nə olduğunu başa saldıq. Azca da olsa istiqlal dadızdırdıq".

Azərbaycan maarifpərvərlərinin həyatının əsas məqsəd belə idi:

Mən bir türkəm, dinim, cinsim uludur,
İnsan olan Vətəninin quludur.

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANDA FƏALİYYƏT GÖSTƏRMİŞ “MÜSAVAT MÜSƏLMAN DEMOKRATİK” VƏ “TÜRK ƏDƏMİ MƏRKƏZİYYƏT” PARTİYALARININ PROQRAMLARINDAKI ANALOJİ XÜSUSİYYƏTLƏRƏ DAİR

***Xasayev N.N.***
*Sumqayıt Dövlət Universiteti*

Şimali Azərbaycanda öz başlanğıcını XIX əsrin son rübündən götürən milli oyanış hərəkatı böyük türkçü mütəfəkkir Ə.Hüseynzadənin bütöv türk dünyası üçün müəyyənləşdirdiyi “türkləşmək”, “islamlaşmaq” və “müasirləşmək” ideyalarına söykənərək XX əsrin əvvələrinə yüksələn xətt üzrə inkişaf etməkdə idi. Çar hökumətinin imperiya hüdudlarını bürüyən 1905-1907-ci illər Rusiya Burjua Demokratik inqilabını və müstəmləkə ucqarlarında alovlanan milli oyanış hərəkatlarını yenmək məqsədi ilə verdiyi “17 Oktyabr” Manifestindən sonra Rusiyaya bir demokratikləşmə mühiti sirayət etmişdi. Nəticədə, Rusiya imperiyasının ucqar müstəmləkələrindən biri olan Şimali Azərbaycana da zərif bir demokratiya mehi üz tutmuşdu. Bu özünü milli siyasi partiyaların, milli mətbuatın, milli yönümlü xeyriyyə cəmiyyətilərinin və təşkilatlarının yaranmasında büruzə verməkdə idi. Şimali Azərbaycanda XX əsrin əvvələrində meydana çıxmış qurumlar içərisində özünəməxsus siyasi fəaliyyətləri ilə fərqlənənləri və proqram sənədlərinin, demək olar, oxşar olub, üst-üstə düşməsi ilə yadda qalanları “Müsavat Müsəlman Demokratik” və “Türk Ədəmi Mərkəziyyət” partiyaları idi.

“Müsavat Müsəlman Demokratik” partiyası ilə müqayisədə nisbətən gec yaranmış “Türk Ədəmi Mərkəziyyət” partiyasının funksionerləri onu demokratik ruhlu milli qüvvələrə 1917-ci ilin mart ayının 3-də Gəncədəki Şah Abbas məscidinin həyətində təqdim etmişdilər. Təqdimat zamanı maraq doğuran məsələlərdən ən ümdəsi siyasi partiyanın proqram sənədində Demokratik Rusiya Respublikasının tərkib hissəsi kimi təmsil olunacaq milli məhəlli muxtariyyət malik Azərbaycan hökumətinin yaradılması ideyasının irəli sürülməsi ilə bağlı idi. Proqram sənədində diqqəti cəlb edən digər mühüm məsələ keçmiş Rusiya imperiyası hüdudlarında yaşayan coxsaylı türk-müsəlman əhalisinə demokratik siyasi azadlıqlarının təminatı uğurunda birgə mübarizəyə dair çağırışın edilməsi ilə əlaqədar idi. Hansı ki, bütün bu məsələlər “Müsavat Müsəlman Demokratik” partiyasının`yenilənmiş proqram sənədində də öz əksini tapmışdı. Əslində, “Türk Ədəmi Mərkəziyyət Partiyası təqdimat xarakterli toplantısında bu oxşar ideyaları bəyan etməklə “Müsavat Müsəlman

Demokratik" partiyasına bir araya gəlib siyasi-ideoloji cəhətdən vahid bir mərkəzdə birləşmək haqqında ilk çağrışını etməsi ilə də yadda qalmışdı.

Yarandığı ilk gündən "İslamlaşmaq", "türkləşmək" və "müasirləşmək" ideyalarına üstünlük verən "Türk Ədəmi Mərkəziyyət" partiyasının təsisçisi görkəmli ictimai-siyasi xadim Nəsib bəy Yusifbəyli (Usubbəyli) olmuşdur. O, I Rusiya Burjua Demokratik inqilabından sonra çarizmin təqiblərindən uzaqlaşaraq Osmanlı hüdudlarında qərar tutmuşdu. Tezliklə o, Osmanlı imperatoru II Abdulhəmidin sərt rejiminə qarşı mübarizə aparmaq üçün 1908-ci ildə yaradılmış "Türk" dərnəyinin əvvəlcə sıravi üzvünə, bir qədər sonra isə funksionerinə çevrilmişdi. Əslən Gəncədən olan N.Yusifbəyli vətənə döndükdən sonra "Müsavat Müsəlman Demokratik" partiyasının əsas mətbu orqanı "Açıq söz" qəzetinin fəal yazarlarından biri kimi tanınmağa başlamışdı. Onun vətənə qayıdıb siyasi fəaliyyətini genişləndirməsində M.Ə.Rəsulzadənin mühüm rolu olmuşdu. M.Ə.Rəsulzadənin təsiri altında N.Yusifbəyli də öz ideyalarında Rusiya İmpertorluğuna işğal yolu ilə qatılan əzəli türk yurdlarına; Şimali Azərbaycan başda olmaqla, Türküstan, Ural, Volqaboyu, Krım, Sibirə milli məhəlli muxtariyyətin verilməsi fikrini irəli sürürdü. O, Rusiyada dövlət quruculuğu məsələlərində M.Ə.Rəsulzadə ilə eyni fikri bölüşməklə, milli azlıqlara geniş məhəlli və mədəni muxtariyyət verəcək federativ əsaslı demokratik Rusiya Respublikasının qurulmasına olan marağını da öz yazılarında açıq-aydın şəkildə büruzə verirdi.

N.Yusifbəylinin 1917-ci il Rusiya Fevral Burjua Demokratik inqilabının çarizmi devirməsindən dərhal sonra təsis etdiyi "Türk Ədəmi Mərkəziyyət" partiyasının proqram sənədinə diqqət yetirdikdə onun M.Ə.Rəsulzadənin lideri olduğu "Müsavat Müsəlman Demokratik" partiyasının yeniləşmiş proqram sənədi ilə üst-üstə düşməyən müəyyən müddəalarının olmasını qabarıq şəkildə görə bilirik. Bu, özünü ölkə üzrə əhalinin böyük çoxluğunu təşkil edən fəhlə və kəndlilərə fərqli yanşmada büruzə verirdi. Belə ki, N.Yusifbəylinin lideri olduğu partiya proqram sənədində fəhlə və kəndlilərə ölkəni tamamilə bürümüş milli oyanış hərəkatında aparıcı hərəkətverici qüvvə kimi nəinki yer ayırmır, hətta onları sadəcə kütlə kimi görməklə diqqətdən kənarda saxlayırdı.

M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi "Müsavat Müsəlman Demokratik" partiyasına gəldikdə isə o, sinifi-sosial mənşə seçimi etməyərək, milli burjuaziyanı, milli yönümlü zadəganları, kəndliləri, əmələləri (fəhlələri), ziyalıları və demək olar ki. milli ideya daşıyıcı olan hər kəsi ölkəni əhatə etmiş ictimai-siyasi hərəkatın tərkib hissəsi, vahid güc mərkəzinin

təmsilçisi kimi görməkdə idi. Əlbəttə ki, belə yanaşma tərzi haqqında bəhs etdiyimiz "Müsavat Müsəlman Demokratik" partiyasının fəaliyyət göstərdiyi Bakı şəhərində məskunlaşmış bütün milli qüvvələrin aktiv olmaqla siyasi oyanış hərəkatında yaxından təmsil olunması amilindən irəli gəlirdi. "Türk Ədəmi mərkəziyyət" partiyasının öz proqram sənədində əhalinin əksəriyyətini təşkil edən zəhmətkeşləri hərəkətverici qüvvə kimi görə bilməməsi amili isə partiyanın təsisçisi N.Yusifbəylinin Osmanlıda olduğu zaman sadə xalqı deyil, yuxarı təbəqəni əsas hərəkətverici qüvvəsi kimi dəyərləndirən Gənc Türklər inqilabının təsiri altına düşməsi səbəbindən irəli gəlmişdi. Digər tərəfdən bu N.Yusifbəylinin banisi olduğu "Türk Ədəmi Mərkəziyyət" partiyasının milli oyanış hərəkatında bütün sosial qurupların aktiv iştirak etdiyi Bakı şəhərində deyil, sadə, zəhmətkeş xalqın siyasi fəallığının zəif olduğu əyalət mərkəzi Gəncə şəhərində yaranmasından və fəaliyyət göstərməsindən də qaynaqlanırdı.

Bütün bu anoloji xüsusiyyələrə rəğmən, hər iki partiya Azərbaycan xalqının milli oyanışında və suveren dövlətçiliyinin bərpasında israrlı olduğu üçün 1917-ci ilin iyun ayının 20-də siyasi-ideoloji cəhətdən birləşərək AXC-ni qurulmasında həlledici rol oynamış mərkəzi Bakı şəhəri olan "Türk Federalistlər Partiyası Müsavat"ı yaratmaları ilə Vətən tarixində layiqli yer tutmağı bacarmışdılar.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ MAARİFÇİLİK

***İbrahimova A.A.***

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Azərbaycan Xalq Cümhuriyyəti dövründə digər sahələrdə olduğu kimi xalq təhsilinin inkişafı üçün də böyük işlər görülmüş, mühüm islahatlar həyata keçirilmişdir. Bu istiqamətdə Hacı Zeynalabdin Tağıyevin milləti üçün açdığı işıqlı yolu Azərbaycan Xalq Cümhuriyyəti hökuməti davam etdirmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin təhsil sahəsində həyata keçirdiyi ilk tədbirlərdən biri hökumətin 1918-ci il 27 iyun tarixli qərarı ilə Azərbaycan (türk) dilinin dövlət dili elan edilməsi idi. Azərbaycan hökuməti ilk günlərdən başlayaraq, milli kadrların hazırlanmasına, bu sahədə təhsilin tamamilə yenidən qurulmasına xüsusi əhəmiyyət verirdi. Nazirliyin təhsil sahəsində həyata keçirdiyi ilk və ən mühüm tədbirlərdən biri məktəblərin milliləşdirilməsi oldu.

Azərbaycan Cümhuriyyəti hökumətinin 1918-ci il 28 avqust tarixli qərarına əsasən, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılmalı, dövlət dili olan

Azərbaycan dilinin tədrisi isə məcburi surətdə həyata keçirilməli idi. Ali, ibtidai və orta tədris müəssisələrində dərslər dövlət dilində aparılmalı idi. Azərbaycan dilini bilməyən şagirdlər üçün 3-cü və 4-cü siniflərdə Azərbayan dili şöbələri açılmalı və burada Azərbaycan dili elə intensiv surətdə tədris olunmalı idi ki, iki ildən sonra həmin şagirdlər artıq bu dildə təhsillərini davam etdirə bilsinlər.

Cümhuriyyət hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində artıq 1919-cu ilin əvvəllərində Azərbaycanda dövlət hesabına 23 orta ixtisas təhsili məktəbi və 637 ibtidai məktəb fəaliyyət göstərirdi. Müəllimlər seminariyaları istisna olmaqla, 1919-20-ci tədris ilində Azərbaycanın orta məktəblərində 9611 şagird təhsil alırdı ki, onların da 3115 nəfəri azərbaycanlı idi. Xalq təhsilini milli zəmin üzərində yenidən qurmaq üçün ixtisaslı müəllim kadrları və dərs vəsaitlərinə böyük ehtiyac var idi. O dövrdə Azərbaycanda mövcud müəllim kadrları və dərs vəsaiti heç də kifayət qədər deyildi. Vəziyyətdən başlıca çıxış yolu Türkiyədən müəllim kadrları dəvət etmək idi. XMN məktəbləri dərs vəsaitləri ilə təmin etmək məqsədilə xüsusi komissiya yaratmışdı. Həmin komissiyanın fəaliyyətinə o dövrün görkəmli pedaqoqları Hüseyn Cavid, Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq, Cəmo Cəbrayılbəyli, Səməd bəy Acalov, Fərhad Ağazadə, Abdulla bəy Əfəndizadə və b. cəlb edilmişdilər. 1919-cu il sentyabrın 18-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qərarı ilə xalq məktəbləri üçün Türkiyədən dərs kitabları almaq məqsədilə Xalq Maarifi Nazirliyinə bir milyon manat vəsait ayrılmışdı. 1919-cu ildə ölkədə dövlət hesabına 15 ali ibtidai məktəb fəaliyyət göstərirdi. Bakı, Gəncə, Şuşa, Nuxa (Şəki), Zaqatala və Qazaxda yaşlılar üçün xüsusi kurslar açıldı. Xalq maarifinin milli konsepsiyada təşkili ön plana çəkildi; ümumi icbari təhsil layihələri hazırlandı; kənd və şəhərlərdə yeni məktəblər açıldı. Məktəbin tərəqqisinin müəllimlərlə bağlı olduğunu dərk edən nazirlik milli məktəblər üçün müəllim hazırlanması probleminin həllini darülmüəllimlər şəbəkəsinin genişləndirilməsində görürdü.

Artıq 1919-cu ildə Azərbaycanda 23 dövlət orta təhsil müəssisəsi vardı: 6 kişi, 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 “Müqəddəs Nina” qız məktəbi, politexnik məktəb və kommersiya məktəbi. Bakı Qadın Seminariyası kişi seminariyasına çevrildi, orada təhsil alanlar üçün (40 nəfər idi) pansion açıldı. Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin bütün kitablarını, avadanlığını və vəsaitini vaqonlara doldurub 1918-ci il sentyabrın 1-də Qazax şəhərinin 9 kilometrliyində olan Ağstafa stansiyasına gətirmişdilər. Bütün bu işlər F.B.Köçərlinin rəhbərliyi və bilavasitə iştirakı ilə

görülmüşdü. Sentyabrın 17-də seminariyada dərslər başlanmış, Firudin bəy Köçərli Qori Seminariyasının məzunları Y.Qasımov, I.Vəkilov, Ə.Hüseynov, M.Hüseynovu müəllim sifəti ilə seminariyaya cəlb etmişdi. Cümhuriyyət dövründə maarif sahəsində fəaliyyət təkcə bunlarla məhdudlaşmırdı. Tədqiqatların nəticələrində qeyd olunur: Azərbaycan Demokratik Cümhuriyyəti zamanı Xalq Maarifi Nazirliyi bir tərəfdən xalqın gələcəyini təmin edə biləcək ürfan ordusunun hazırlanması üçün ali, orta və ibtidai məktəblər açır, kurslar təşkil edir, digər tərəfdən nəşriyyat – tərcümə komissiyasının köməyi ilə dərsliklər, tədris vəsaitləri hazırladıb çap etdirirdi.

Cümhuriyyətin təhsil uğurları Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təhsil sahəsində uğurlu tədbirlərindən biri də təhsil tariximizdə ilk dəfə olaraq dövlət səviyyəsində məktəbəqədər tərbiyə müəssisələrinin nümunəsini yaratması idi. Bu dövrdə peşə-ixtisas təhsili müəssisələri şəbəkəsinin təşkili, yaxud mövcud olanların inkişaf etdirilməsi sahəsində də konkret addımlar atıldı.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və parlamenti təkcə mümkün olanların deyil, hətta o zamana görə mümkünsüz sayılan bir çox ümummilli problemlərin həllində real addımlar atmış, yaxud da tariximizin ondan sonrakı dövrlərində həyata keçirilmiş çoxsaylı maarif, təhsil, mədəniyyət məsələlərinin təməlini, əsasını qoymuş, görüləcək bir çox işlərin ilkin layihələrini hazırlamış, ideya əsaslarını vermişdir. Azərbaycanda dövlət universitetinin açılması haqqında rəsmi qanun 1919-cu il sentyabrın 1-də Azərbaycan Parlamenti tərəfindən qəbul olunmuşdur. Tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələri olacaq ali məktəbdə ilk dərslər həmin il noyabrın 15-də başlamışdır. Ali təhsil sahəsində AXC-nin fəaliyyəti təkcə Bakı Dövlət Universitetini yaratmaq, bu yolla ölkə üçün yüksək ixtisaslı kadrlar hazırlamaq məsələsini həll etməklə məhdudlaşmamışdır. Xaricdə ali təhsilli mütəxəssis hazırlığı məsələsi dövlət və hökumət səviyyəsində müzakirə obyekti oldu. XX əsrin əvvəllərində sosial-siyasi, ictimai-iqtisadi sahələrdə oyanış və intibah ümummilli hərəkatın faktorlarına çevrilmiş, nəticədə dünyəvi təhsili qurub inkişaf etdirmək üçün müəllim kadrları hazırlığı vacib və ümdə amil sayılmışdır.
Bir sözlə, Azərbaycan Xalq Cümhuriyyəti zamanında "dünyəvi dövlət, dünyəvi təhsil və mədəniyyət" prinsipləri ardıcıl həyata keçirilmişdir.

**AXC-nin AZƏRBAYCAN DÖVLƏTÇİLİK TARİXİNDƏ YERİ**

***İsayev Ə.İ.***

*Sumqayıt Dövlət Universiteti*

Rusiyada baş verən siyasi vəziyyətlə əlaqədar olaraq 1918-ci ilin yazı və yayında Azərbaycanda və bütün Cənubi Qafqazda milli-azadlıq mübarizəsi yüksək vüsət almışdır. 1918-ci il aprel ayının 22-də Cənubi Qafqaz seyminin Cənubi Qafqazı "müstəqil federativ respublika" elan etməsi xalqların milli-azadlıq hərəkatını daha da gücləndirdi. Digər bir tərəfdən isə siyasi vəziyyətin kəskinləşməsi bu seymin dağılması ilə nəticələndi. May ayının 26-da Cənubi Qafqaz seyminin iclası keçirildi. İclasda çıxış edən gürcü nümayəndəsi Güstcüstanın Cənubi Qafqaz Federasiyasından çıxdığını bəyan etməsi ilə əlaqədar olaraq seym özünün buraxılması haqqında qərar qəbul etdi. Mayın 26-da Gürcüstan öz müstəqilliyini elan etdi.

Cənubi Qafqaz Seyminin buraxılması ilə əlaqədar onun Azərbaycandan olan üzvləri mayın 27-də fövqəladə iclas keçirdilər. İçlas yekdilliklə Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürməyi qərara aldı və özünü Azərbaycan Müvəqqəti Milli Şura elan etdi.

M.Ə.Rəsulzadə Milli Şuranın sədri seçildi. H.Ağayev və M.Seyidov sədrin müavinləri seçildilər. Fətəli xan Xoyski yekdilliklə Milli Şuranın icraiyyə orqanının sədri seçildi. «Musavat» partiyası və bitərəf demokratik qrup tərəfindən M.Hacınski, N.Yusifbəyli, X.Xasməmmədov və M.Cəfərov, müsəlman sosialistlər blokundan X.Məlikaslanov və C.Hacınski, «Hümmət» menşevik partiyasından Ə.Şeyxülislamov və «İttihad» partiyasından X.Sultanov icraiyyə orqanına daxil oldular.

Mayın 28-də Azərbayçan Milli Şurasının iclasında Azərbaycanda siyasi vəziyyət haqqında məsələ müzakirə edildi. Milli Şura bu barədə X.Xasməmmədovun məruzəsi ətrafında qızğın müzakirələrdən sonra dərhal Azərbaycanın istiqlaliyyətinin e'lan edilməsini qərara aldı və 6 bənddən ibarət «İstiqlal bəyannaməsi» qəbul etdi. İstiqlal bəyannaməsində göstərilirdi ki, bu gündən etibarən Azərbaycan tam suveren dövlətdir. O, Azərbaycan xalqının hakimiyyəti altında Cənubi Qafqazda cənub və şərq hissələrindən ibarətdir. Orada qeyd edilirdi ki, Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusən də qonşu millətlər və dövlətlərlə dostluq əlaqələri yaratmaq niyyətindədir. O, milliyyətindən, dinindən, sinfi mənsubiyyətindən, peşəsindən, yaxud cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlara tam mülki və siyasi hüquqlar üçün tə'minat verir, öz

ərazisində məskunlaşmış bütün millətlərin azad inkişafını təmin edir.

Milli Şura həmçinin Fətəli xan Xoyski başda olmaqla Azərbaycan Xalq Cümhuriyyətinin ilk Müvəqqəti hökumətini təşkil etdi.

Fətəli xan Xoyski (bitərəf) Nazirlər Şurasının sədri və daxili işlər naziri, Xosrov bəy Sultanov («İttihad» partiyası) hərbi nazir, Məmmədhəsən Hacınski («Musavat» partiyası) xarici işlər naziri, Nəsib bəy Yusifbəyli («Musavat» partiyası) maliyyə və xalq maarifi naziri, Xəlilbəy Xasməmmədov («Musavat» partiyası) ədliyyə naziri, Məmməd Yusif Cəfərov (bitərəf, əvvəllər kadetlər partiyası) tiçarət və sənaye naziri, Əkbərağa Şeyxülislamov («Hümmət» partiyası) torpaq və əmək naziri, Xudadat bəy Məlik-Aslanov (bitərəf) nəqliyyat, poçt və teleqraf naziri, Camo bəy Hacınski («Müsəlman sosialistlər bloku») dövlət nəzarəti naziri vəzifələrinə təyin oldular.

Mayın 30-da Azərbaycanın istiqlaliyyətinin e'lan olunması haqqında dünyanın bütün böyük siyasi mərkəzlərinə, o cümlədən İstanbul, Berlin, Moskva, London, Vaşinqton, Paris, Vyana, Roma, Tokio, Tehran, Sofiya, Buxarest, Stokholm şəhərlərinə radioteleqrafla məlumat verildi.

Beləliklə, Azərbaycan xalqı milli-azadlıq və müstəqillik arzusuna çatdı və butun Şərqdə ilk dəfə olaraq demokratik dövlət quruluşu yaratdı.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ TƏHSİL SİYASƏTİ

***Kərimli S.S.***

*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən xalqın maarifləndirilməsinə birinci dərəcədə əhəmiyyət verirdi. Hələ Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ilin 28 may tarixində təşkil olunan ilk hökümət kabinetində Xalq Maarif Nazirliyi mövcud olmuşdur. Sonrakı dörd hökümət kabinetlərində də Xalq Maarif Nazirliyinin fəaliyyəti təmin edilmişdir.

Nazirlik öz fəaliyyətinə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına qədərki dövrdə xalq maarifinin vəziyyətinin öyrənilməsi və bu sahədə həyata keçiriləcək vəzifələrin müəyyənləşdirilməsi ilə başladı. Nazirlik xalq təhsilini sürətlə inkişaf etdirmək məqsədilə islahatlar keçirmək üçün qısa müddət ərzində təkliflər hazırlayıb Hökumətə təqdim edir.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Tiflisdən Gəncəyə köçdükdən sonra - iyunun 30-da Hökumətin qərarı ilə Xalq Maarif Nazirliyinə nazirliyin ştat cədvəlini

müəyyənləşdirmək və Əsasnaməsini hazırlayıb hökumətə təqdim etmək tapşırıldı. 1918-ci il avqustun 2-də xalq maarifi naziri tərəfindən hazırlanmış Əsasnamə baxılmaq və təsdiq üçün Hökumətə təqdim olundu.

Azərbaycan Cümhuriyyəti Hökumətinin 1918-ci il 28 avqust tarixli qərarına əsasən, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılmalı, dövlət dili olan Azərbaycan dilinin tədrisi isə məcburi surətdə həyata keçirilməli, ali, ibtidai və orta tədris müəssisələrində isə dərslər dövlət dilində aparılmalı idi. Azərbaycan dilini bilməyən şagirdlər üçün 3-cü və 4-cü siniflərdə Azərbaycan dili şöbələri açılmalı və burada Azərbaycan dili elə intensiv tədris olunmalı idi ki, iki ildən sonra həmin şagirdlər artıq bu dildə təhsillərini davam etdirə bilsinlər.

Xalq Maarifi naziri N.Yusifbəyli 1918-ci il dekabrın 31-də Azərbaycan qubernatorlarına göndərdiyi məktubda göstərirdi ki, Azərbaycan Xalq Cümhuriyyətində maarif sahəsində qarşıda çox böyük və çətin vəzifələr durur. Nazirlik yeni məktəblər, müəllim kursları açmaqla, təhsil sahəsində ölkəni mümkün qədər qısa müddətdə lazımi səviyyəyə qaldırmaq üçün bütün qüvvələri səfərbərliyə aldı. Məktubda qeyd edilirdi ki, indiki zamanda yalnız yüksək maarifə malik olan xalq tərəqqi edə bilər.

Cümhuriyyət hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində artıq 1919-cu ilin əvvəllərində Azərbaycanda dövlət hesabına 23 orta ixtisas təhsili məktəbi və 637 ibtidai məktəb fəaliyyət göstərirdi.

Müəllimlər seminariyaları istisna olmaqla, 1919 və 1920-ci tədris ilində Azərbaycanın orta məktəblərində 9611 şagird təhsil alırdı ki, onların da 3115 nəfəri azərbaycanlı idi. Xalq təhsilini milli zəmin üzərində yenidən qurmaq üçün ixtisaslı müəllim kadrlarına və dərs vəsaitlərinə böyük ehtiyac var idi. O dövrdə Azərbaycanda mövcud müəllim kadrları və dərs vəsaiti heç də kifayət qədər deyildi. Vəziyyətdən başlıca çıxış yolu Türkiyədən müəllim kadrları dəvət etmək və dərs vəsaitləri gətirmək, habelə qısamüddətli kurslarda Azərbaycan dilini bilən savadlı şəxslərdən müəllim kadrları hazırlamaq idi. Xalq Maarif Nazirliyi məktəbləri dərs vəsaitləri ilə təmin etmək məqsədilə xüsusi komissiya yaratmışdı. Həmin komissiyanın fəaliyyətinə o dövrün görkəmli pedaqoqları Hüseyn Cavid, Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq, Cəmo Cəbrayılbəyli, Səməd bəy Acalov, Fərhad Ağazadə, Abdulla bəy Əfəndizadə və b. cəlb edilmişdilər.

Azərbaycan Cümhuriyyəti Hökumətinin təhsil sahəsində qarşısında duran ən ümdə vəzifələrdən biri də ölkədə ali təhsilin təşkili və ali təhsilli kadrların hazırlanması idi.

Cümhuriyyət Hökumətinin fəaliyyət göstərdiyi qısa müddətdə Azərbaycanda üç ali təhsil ocağının - Bakı Dövlət Universitetinin, Əkinçilik İnstitutunun və Dövlət Konservatoriyasının təsis edilməsi barədə məsələ qaldırılmışdı. Onlardan yalnız birini - Bakı Dövlət Universitetinin açılmasını reallaşdırmaq mümkün oldu. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 1919-cu il sentyabrın 1-də "Bakı Dövlət Universitetinin təsisi haqqında" qanun qəbul etdi. 1919-cu il noyabrın 15-də Bakı Dövlət Universitetinin auditoriyalarında ilk mühazirələr oxundu. Parlamentin 1919-cu il 1 sentyabr tarixli qərarı əsasında Xalq Maarif Nazirliyinin xətti ilə 100 nəfər azərbaycanlı gənc dövlət hesabına xarici ölkələrin ali məktəblərində təhsil almağa göndərildi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti ölkədə maarifin inkişafi üçün geniş tədbirlər planı hazırlamışdı. Lakin aprel işğalı (1920) bu planların gerçəkləşdirilməsini yarımçıq qoydu. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin cəmi 23 aylıq fəaliyyəti dövründə təhsil sahəsində həyata keçirdiyi tədbirlər sonralar Azərbaycanda xalq maarifinin təşkili və inkişafına mühüm təsir göstərdi

## AZƏRBAYCAN TƏHSİLİ XALQ CÜMURİYYƏTİ DÖVRÜNDƏ

***Kərimova D.A.***

*Sumqayıt Dövlət Universiteti*

Rusiya imperiyanın dağılması ilə milli ucqarlarda, o cümlədən Azərbaycanda da azadlıq mübarizəsi gücləndi. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Bu unudulmaz gün Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi əbədi daxil olmuşdur. Həmin tarix "Respublika günü" kimi təntənə ilə qeyd edilir.

Çox mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, xalqımızın milli oyanışını əbədi etməyə çalışan Cümhuriyyət Hökuməti və Parlamenti elmin, təhsilin və xalq maarifinin, səhiyyənin inkişafını diqqət mərkəzində saxlayırdı. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin xalq maarifinin inkişafına çox mühüm təkan verən ilk tədbirlərindən biri 1918-ci il 27 iyun tarixli qərar oldu. Həmin qərara əsasən, Azərbaycan-türk dili dövlət dili elan edildi. Lakin Azərbaycan dilini mükəmməl bilən ixtisaslı kadrların olmaması qərarın həyata keçirilməsini çətinləşdirirdi. Buna görə də Azərbaycan Hökuməti ilk günlərdən başlayaraq, milli kadrların hazırlanması, bu sahədə təhsilin tamamilə yenidən qurulmasına xüsusi əhəmiyyət verirdi. Nazirliyin təhsil sahəsində həyata keçirdiyi ilk və ən mühüm tədbirlərdən biri də məktəblərin milliləşdirilməsi oldu. Azərbaycan Cümhuriyyəti

Hökumətinin 1918-ci il 28 avqust tarixli qəranna əsasən, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılmalı, dövlət dili olan Azərbaycan dilinin tədrisi isə məcburi sürətdə həyata keçirilməli idi. Ali ibtidai və orta tədris müəssisələrində isə dərslər dövlət dilində aparılmalı idi. Azərbaycan dilini bilməyən şagirdlər üçün 3-cü və 4-cü siniflərdə Azərbaycan dili şöbələri açılmalı və burada Azərbaycan dili elə intensiv tədris olunmalı idi ki, iki ildən sonra həmin şagirdlər artıq bu dildə təhsillərini davam etdirə bilsinlər. Cümhuriyyət Hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində artıq 1919-cu ilin əvvəllərində Azərbaycanda dövlət hesabına 23 orta ixtisas təhsili məktəbi və 637 ibtidai məktəb fəaliyyət göstərirdi. Müəllimlər seminariyaları istisna olmaqla, 1919-20-ci tədris ilində Azərbaycanın orta məktəblərində 9611 şagird təhsil alırdı ki, onların da 3115 nəfəri azərbaycanlı idi. Xalq təhsilini milli zəmin üzərində yenidən qurmaq üçün ixtisaslı müəllim kadrlarına və dərs vəsaitlərinə böyük ehtiyac var idi. O dövrdə Azərbaycanda mövcud müəllim kadrları və dərs vəsaiti heç də kifayət qədər deyildi. Vəziyyətdən başlıca çıxış yolu Türkiyədən müəllim kadrlan dəvət etmək və dərs vəsaitləri gətirmək, habelə qısamüddətli kurslarda Azərbaycan dilini bilən savadlı şəxslərdən müəllim kadrları hazırlamaq idi. XMN məktəbləri dərs vəsaitləri ilə təmin etmək məqsədilə xüsusi komissiya yaratmışdı. Həmin komissiyanın fəaliyyətinə o dövrün görkəmli pedaqoqları Hüseyn Cavid, Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq, Cəmo Cəbrayılbəyli, Səməd bəy Acalov, Fərhad Ağazadə, Abdulla bəy Əfəndizadə və b. cəlb edilmişdilər. Müəllimlərə olan ehtiyacı ödəmək üçün 1918-ci ildə Gəncə, Şəki və Zaqatalada qısamüddətli pedaqoji kurslar təşkil edildi və bu kurslarda 150 nəfər oxumağa başladı. Lakin Gəncədə fəaliyyət göstərən müəllim seminariyası kadrlara olan ehtiyacı ödəyə bilmirdi. Odur ki, Maarif Nazirliyi Qori müəllim seminariyasının Azərbaycan şöbəsinin müstəqil seminariya kimi Qazaxa köçürülməsi haqqında qərar qəbul etdi. Müəllim seminariyasından başqa, xalq maarif sistemi üçün kadrlar hazırlayan müəssisələrdən biri də ali ibtidai məktəblər olmalı idi. Bu məqsədlə respublikanın Maarif Nazirliyi 1918-ci ildə bir sıra işlər görmüşdü: Göyçayda məktəb açılmış, Ağdamda, Nuxa (Şəki) qəzasının Qutqaşen kəndində belə məktəblərin açılması haqqında qərar qəbul edilmişdir.

Cümhuriyyət Hökumətinin fəaliyyət göstərdiyi qısa müddətdə Azərbaycanda üç ali təhsil ocağının - Bakı Dövlət Universitetinin, Əkinçilik Ünstitutunun və Dövlət Konservatoriyasının təsis edilməsi barədə məsələ qaldırılmışdı. Onlardan yalnız birini - Bakı Dövlət Universitetinin açılmasını reallaşdırmaq mümkün oldu. Azərbaycan Xalq

Cümhuriyyəti Parlamenti 1919-cu il sentyabrın 1-də "Bakı Dövlət Universitetinin təsisi haqqmda" qanun qəbul etdi. 1919-cu il noyabrın 15-də Bakı Dövlət Universitetinin auditoriyalarında ilk mühazirələr oxundu. Milli universitetin açılması Cümhuriyyət xadimlərinin doğma xalq qarşısında çox mühüm tarixi xidməti idi.

Parlamentin 1919-cu il 1 sentyabr tarixli qərarı əsasında XMN-nin xətti ilə 100 nəfər azərbaycanlı gənc dövlət hesabına xarici ölkələrin ali məktəblərində təhsil almağa göndərildi. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin xalq maarifi sahəsində həyata keçirdiyi mühüm tədbirlərdən biri də ibtidai təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi idi. Təkcə 1919-cu ildə Azərbaycanda dövlət hesabına 15 ali ibtidai məktəb fəaliyyət göstərirdi. Cümhuriyyət Hökumətinin həyata keçirdiyi mühüm tədbirlərdən biri də yaşlıların savadlandınılması idi. Bu məqsədlə 1919-cu il sentyabrın 15-dən Bakı, Gəncə, Şuşa, Nuxa (Şəki), Zaqatala və Qazaxda yaşlılar üçün Azərbaycan dilini öyrədən xüsusi kurslar, 1919-cu ilin noyabrından isə Bakıda azərbaycanlı fəhlələr üçün texniki axşam kursları açıldı. Bu kurslardan 200 nəfər fəhlə bəhrələnmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin cəmi 23 aylıq fəaliyyəti dövründə təhsil sahəsində həyata keçirdiyi tədbirlər sonralar Azərbaycanda xalq maarifinin təşkili və inkişafma mühüm kömək göstərdi.

Cəmi 23 ay fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti tariximizin çox yadda qalan, unudulmaz mərhələsidir. O, istiqlalımızın ən şanlı səhifələrindəndir. Elə səhifələr ki, onlarda Azərbaycan xalqının əzəli arzuları, müstəmləkəçiliyə, əsarətə qarşı, azadlıq, müstəqillik və milli birlik uğrunda şanlı mübarizə uğurları, dönməzliyi əks olunmuşdu. Azərbaycan tarixində birinci Respublika olan Xalq Cümhuriyyəti Şərqdə, müsəlman və türk dünyasında ilk demokratik siyasi qurum idi. İ.Stalinin «bu bir il yarımlıq hakimiyyətiniz ərzində xalqa nə verə bildiniz?» sualına cavabında M.Ə.Rəsulzadə demişdi: «çox şey verə bilmədik... Amma milli azadlığın nə olduğunu başa saldıq. Azca da olsa, milli istiqlal dadızdırdıq. Yüz illik əsarət dərsi ilə iki illik hürriyyət qovğası bizi özümüzə tanıtdı. Bir kərə yüksələn bayraq bir daha enməz!».

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ SOSİAL-MƏDƏNİ SAHƏDƏ İCTİMAİ CƏMİYYƏTLƏRİN FƏALİYYƏTİ

***Qasımov E.A.***
*Azərbaycan Dillər Universiteti*

Milli mədəniyyətin zənginləşməsi və mədəni nailiyyətin inkişaf etdirilməsi istiqamətində AXC məqsədyönlü addımlar atmışdı. Mədəniyyətin bütün sahələrinin inkişaf etdirilməsi dövlətin xüsusi diqqət mərkəzində idi. AXC mövcud olan və yeni yaranan ictimai cəmiyyətlərin fəaliyyətinə yardımçı olurdu. Belə cəmiyyətlər vətəndaşların mədəni-maarif sahəsində tələbatını ödəməklə yanaşı, insanların tərəqqiyə inkişafını təmin etmiş olurdu. Ölkədə mədəniyyətin inkişafı və tərəqqisi üçün atılan addımlar ictimai cəmiyyətlərin sosial-mədəni sahədəki işlərin başlanğıcı kimi dəyərləndirilməlidir.

AXC dövründə mədəni-maarif işləri sahəsində yeni milli cəmiyyətlər yaradılmış, mövcud olanlar isə fəaliyyətini daha da intensivləşdirmışdi. Xeyriyyə cəmiyyəti kimi tanınan ″Türk ocağı″ cəmiyyəti mədəni-maarif sahəsində fəaliyyəti daha əhəmiyyətli olmuşdur. Cəmiyyətin əsas məqsədi Azərbaycan və Osmanlı türkləri, habelə keçmiş Rusiya imperiyası ərazisində yaşayan türk xalqları arasında mədəni əlaqələrin yaxşılaşdırılmasından ibarət idi. 1918-ci ilin 24 sentyabrında cəmiyyətin təsis olunması üçün Azərbaycanın tanınmış ədib və siyasətçilərinin müraciətinə oktyabrın 7-də Bakı vitse-qubernatorunun imzası ilə 731 saylı icazə vəsiqəsi verilmişdi. Cəmiyyətin təşkilati istiqamətində 5 fəsil və 22 maddədən ibarət proqramı qəbul olunmuş, noyabrın 15-də isə ilk konfransı keçirilmişdir. Cəmiyyətin ana xəttini türkçülük-turançılıq ideologiyasının təbliği təşkil edir. Fəaliyyəti dövründə Cəmiyyət Azərbaycanda milli şüurun oyanmasında öz töhfəsini vermiş oldu.

1919-cu ilin 15 fevralında gənc hökumətə yardım etmək, ziyalıları birləşdirmək məqsədilə qeyri-hökimət təşkilatı kimi ″Müsəlman zəhmətkeş ziyalılar ittifaqı″ yaradılmışdı. Ziyalılar ittifaqı dövrün bütün demokratik təşkilatları ilə birlikdə Azərbaycanın müstəqilliyinə təhlükə törədən xarici və daxili qüvvələrə qarşı mübarizədə hökuməti müdafiə edirdi.

Əsası 1919-cu ilın 26 avqustunda Seyid Hüseyn Sadiq əfəndinin rəhbərliyi və 35 nəfər ədibin iştrakı ilə ″Yaşıl qələm″ cəmiyyəti təsis olundu. Cəmiyyət dövrün ədəbi proseslərinin inkişaf qanunauyğunluqlarını öyrənmək və şərh etməklə yanaşı, klassik

Azərbaycan və dünya ədəbiyyatının ən nadir incilərini təbliğ etməklə məşğul idi. Qısa dövr ərzində fəaliyyət göstərməsinə baxmayaraq, o, Azərbaycanda bədii təfəkkürün formalaşmasına təsir etmişdi.

Fəal mədəni-maarif və xeyriyyəçilik fəaliyyəti göstərən qeyri-hökumət təşkilatlarından biri də 1919-cu ilin oktyabrında yaradılmış ″Jurnalistlər və ədiblər ittifaqı″dır. Birlik milli mənsubiyyətindən asılı olmayaraq, jurnalist və yazıçıları birləşdirirdi. Xeyriyyəçilik istiqamətində 1919-cu ilin noyabrında İttifaqın yoxsul üzvləri üçün pul fondu yaradılmış və jurnalist gününün keçirilməsi qərara alınmışdı. "İttifaq" Aprel işğalı nəticəsində fəaliyyətini dayandırsa da, Cümhuriyyətin iqtisadi və sosial-mədəni tədbirlərin işıqlandırılmasında əhəmiyyətli rol oynamışdı.

XX əsrin əvvəllərində yaranmalarına baxmayaraq ″Səfa″, ″Nicat″ və ″Nəşri-maarif″ cəmiyyətləri kimi mədəni-maarif qurumları Cümhuriyyət dövründə də Azərbaycanın mədəni həyatında mühüm rol oynayırdı. ″Nicat″ cəmiyyəti Bakıda kitabxana-qiraətxana və axşam kursları, xeyriyyə məqsədi ilə konsertlər və elmi mövzuda müzakirələr təşkil edirdi. ″Nəşri-maarif″ xeyriyyə cəmiyyəti Azərbaycanın qəzalarında maarifçilik işi aparırdı. Cəmiyyətin dəstəyi ilə Şuşada ″Ulduz″ dərnəyi, 1920-ci ilin əvvəlində Bakıda ″Maariflənmiş əməkçi müsəlman qadınlar" ittifaqının yaradılmasına cəhd göstərilmiş, Lənkəranda "Lənkəran şəhəri tələbələri və abituriyentləri ittifaqı" təşkil edilmişdi. Bakıətrafı kəndlərdə ″Nəşri-maarif″ cəmiyyətinin maddi dəstəyi ilə əsasən yoxsul uşaqların təhsil aldığı məktəblər 1918-ci il mart qırğınları səbəbindən fəaliyyətini dayandırmalı olmuşdu. Hər üç cəmiyyətin fəaliyyətinin əsasını xalqın milli şüurunun oyanışı, mədəni geriliyin aradan qaldırılması, milli mədəniyyətin inkişaf etdirilməsi yönündə böyük rolu olmuşdur.

AXC hökumətinin ictimai birliklərə və ittifaqlara münasibətdə yürütdüyü demokratik siyasət liberal istiqamətli mədəni-maarif cəmiyyətləri şəbəkəsinin geniş yayılmasına və inkişafına şərait yaradırdı. 1919-cu ilin əvvəllərində Bakı və onun mədən-zavod rayonlarındakı mədəni-maarif cəmiyyətlərini birləşdirmək üçün müəyyən addımlar atıldı. Məqsəd Bakı əhalisinin mədəni səviyyəsini yüksəltmək üşün şəhərin bütün mədəni qüvvələrini birləşdirməkdən ibarət idi. AXC-nin mövcudluğu dövründə Bakıda "Əhali ittifaqı", "Tələbələr ittifaqı", "Müsəlman tələbələri ittifaqı" kimi milli və milli azlıqlara aid mədəni-maarif cəmiyyətləri də fəaliyyət göstərirdi.

Əsası 1905-ci ildə qoyulmuş Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti Cümhuriyyət

dövründə Azərbaycanın ictimai-siyasi, sosial və mədəni həyatında əhəmiyyətli rol oynamışdı.

1914-cü ildə yaradımış Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti AXC dövründə fəaliyyət göstərmiş mədəni-maarif təşkilatlarındandır. Cəmiyyətdə qadınlar arasında ictimai həyatın müxtəlif problemləri ilə bağlı iş aparılır, onların savadlanmasında, milli özünüdərkin dirçəldilməsi istiqamətində tədbirlər həyata keçirilirdi. Cəmiyyət 1917-ci ildə yoxsul qızlar üçün peşə məktəbi açsa da mart qırgınları zamanı fəaliyyətini dayandırmışdı. Lakin, 1919-cu ildə Cəmiyyət məktəbin işini yenidən bərpa etmişdi. AXC hökuməti məktəbin səmərəli işləməsi üçün 30 min manat vəsait ayırmışdı.

AXC dövründə Bakıda fəaliyyət göstərmiş leberal istiqamətli qurumlardan biri də "Xalq əyləncələri" cəmiyyəti idi. Cəmiyyətin məqsədi əhalinin öz asudə vaxtlarını səmərəli keçirməsi istiqamətində, uşaq və yeniyetmələr üçün klub və müxtəlif dərnəklər təşkil etmək, onlarda milli-mənəvi dəyərlər aşılamaq idi. O, Xalq Universitetlərinin yaradılması istiqamətində xüsusi fəallıq göstərmişdir.

Sosial-mədəni sahədə fəaliyyət göstərmiş klub tipli "Xalq evləri" cəmiyyətinin əsas məqsədi Bakının mədən-zavod rayonlarının əhalisi arasında mədəni-maarif işi aparmaq idi. "Xalq evləri" sayəsində əhali arasında savadartırma kurslarından tutmuş teatr tamaşaları, konsertlərə qədər bir çox tədbirlərə təşkilatçılıq etmişdir. "Uriot" xeyriyyə cəmiyyəti Xalq evlərinə avadanlıq alınması üçün vəsait ayırmışdı. Bu yardım sayəsində "Xalq evlərində kino zalı yaradılmış və film nümayiş etdirilməsinə başlanılmışdı.

Qeyri-hökumət elm təşkilatı kimi Müsəlman Şərqini Öyrənən Cəmiyyət 1919-cu ilin 29 dekabrında Bakı Universitetinin nəzdində yaradılmışdı. Əsas məqsəd islam dininə etiqad edən xalqların, onların yaşadıqları ölkələrin tarixinin, eyni zamanda müsəlman mədəniyyətinin inkişafına təsir göstərmiş tarixi və mədəni amillərin öyrənilməsi idi. Əldə olunan əlyazmalar və materiallar cəmiyyətin muzeyinə toplanmalı, yaxud mühafizə və sistemləşdirmək üçün "İstiqlal" muzeyinə verilməli idi. Cəmiyyət həmçinin Azərbaycanda olan tarixi abidələrin tədqiqinə dair elmi tədqiqat planları hazırlamışdı. AXC ideoloji fəaliyyətin başlıca istiqamətlərindən biri kimi dövlətçiliyin möhkəmləndirilməsinə xidmət edən xeyriyyə cəmiyyətləri, milli mədəni-maarif qurumları, həmkarlar ittifaqı təşkilatlarının təşkili və fəaliyyətində iştirak

edirdi.

Ictimai cəmiyyətlərin həyata keçirdiyi mədəni tədbirlər Çar imperiyasının işğal nəticəsində öz mənəvi dünyasından kənarda qalan azərbaycanlıların özünüdərkinə böyük yardım etmiş oldu. XIX əsrdən etibarən Azərbaycanda genişlənən istiqlaliyyət uğrunda siyasi mübarizə ilə bağlı azərbayçançılıq ideologiyası məzmunca və keyfiyyətcə yeni mərhələyə qədəm qoydu və Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə yüksək zirvəyə çatdı.

## AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI VƏ MİLLİ-MƏDƏNİ İNTİBAH

***Qasımova N.Z.***
*Sumqayıt Dövlət Universiteti*

Hər bir səhifəsi xalqımız üçün müqəddəs və doğma olan ADR-in təşəkkülü XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda mövcud olmuş ictimai-siyasi, ədəbi, fəlsəfi fikrin məntiqi nəticəsi, tarixi zərurət idi. O, ədəbiyyat və mətbuatda milli və ideoloji mübarizələrin səngərində yaranıb bir əsrədək müddət ərzində müstəmləkə zülmü altında inləyən xalqın azadlıq harayının carçısına çevrildi. Həmin dövrdə Azərbaycanda geniş vüsət almış milli-demokratik hərəkatın başında duran insanların hər birinin adı Azərbaycanın dövlətçilik tarixinə qızıl hərflərlə yazılmışdır.

Azərbaycan Demokratik Respublikası az bir vaxt ərzində parlamenti, hökuməti, ordusu, gömrük və hüquq-mühafizə orqanları olan, dövlət rəmzlərinə malik, vətəndaş hüquqlarını hər şeydən uca tutan demokratik, dünyəvi və unitar dövlətə çevrildi. Bu, XX əsrin əvvəllərində yalnız hərbi-feodal rejimlərinin hökm sürdüyü Şərqdə əsl fenomen idi. Amalı millət yolu, haqq yolu olan ADR yarandığı lk gündən “türkləşmək, islamlaşmaq, müasirləşmək” süarını rəhbər tutaraq həyatın bütün sahələrində, xüsusən də xalq maarifi və mədəniyyət sahələrində geniş islahatlara başladı.

Azərbaycan Demokratik Respublikası hökumətinin 23 ay ərzində qəbul etdiyi qərarların böyük əksəriyyəti də elə demokratiyanın, elm və mədəniyyətin inkişaf etdirilməsi ilə bağlı olmuşdur. Məsələn, ADR hökuməti 1918-ci il 27 iyun tarixli qərarı ilə Azərbaycan-türk dilini dövlət dili elan etdi. Bu sənəd Azərbaycanın Gülüstan və Türkmənçay müqavilələri ilə 2 hissəyə bölünməsindən sonra ana dilinin işlənməsinə dair ilk rəsmi sənəd idi. Sənəddə rus dilinin də dövlət müəssisələrində keçərli olaraq işlənməsinə yer verilirdi. Hökumətin 28 avqust tarixli başqa bir qərarında isə deyilirdi ki, bütün ibtidai siniflərdə

təhsil icbari olaraq ana dilində aparılmalıdır.

İlk addımlarını atan gənc dövlətə yüksək ixtisaslı kadrlar lazım idi. 1919-cu il sentyabrın 1-də Azərbaycan parlamenti 4 fakültədən (tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb) ibarət Bakı Dövlət Universitetinin açılması haqqında qanun qəbul etdi. Noyabrın 15-də isə universitetin auditoriyalarında ilk mühazirələr başlandı. Həmin dövrdə universitetdə 1094 tələbə, o cümlədən 217 azad dinləyici təhsil alırdı. Parlament universitetin açılması ilə yanaşı, 1919/20-ci tədris ilində dünyanın müxtəlif ali məktəblərində dövlət hesabına təhsil almaq üçün 100 azərbaycanlı gəncin xaricə göndərilməsi, hər bir tələbəyə 400 frank təqaüdün, 1000 frank yol xərcinin təyin olunması barədə qərar qəbul etdi. Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər sayəsində təkcə 1919-cu ildə paytaxtda və bölgələrdə 700 məktəb açıldı, şagirdlərin sayı 48.780 nəfərə çatdı.

Azərbaycan hökuməti və parlamenti mətbuat və nəşriyyat işinin də dövrün tələblərinə uyğun qurulması üçün bir sıra qərarlar qəbul etdi. Məsələn, parlamentin 1919-cu il 30 oktyabr tarixli qərarında mətbuat, litoqrafiya və buna bənzər müəssisələrin açılmasının, çap məhsulunun nəşrinin və satılmasının azad olduğu bildirilirdi. Hökumətin 1918-ci il 9 noyabr tarixli sərəncamı ilə kütləvi informasiya vasitələri üzərində dövlət nəzarəti ləğv edilmişdi. 2 il ərzində Azərbaycan türkcəsində, rus, gürcü, yəhudi, polyak, fars dillərində təxminən 100 adda qəzet və jurnal çıxmışdı. “Molla Nəsrəddin”, “İstiqlal”, “Azərbaycan”, “Açıq söz”, “İqbal”, “Dirilik”, “Təkamül”, “Mədəniyyət” və s. Kimi mətbu orqanları milli ideyaların carçısı idi. Təsadüfi deyildir ki, o dövrdə Azərbaycanda söz, mətbuat və vicdan azadlığı yüksək səviyyəyə çatmışdı.ADR-in əvvəlcə Ukraynada, daha sonra Türkiyədə səfiri olan Y.V.Çəmənzəminli “Bu gün yazıçıya nə gərəkdir?” sualına cavabında müasir dövrümüzlə səsləşən “Dil azadlığı, qələm azadlığı” cavabını vermişdi.

Hazırda dünyanın ən aparıcı informasiya agentlikləri ilə bir sırada duran, ən nüfuzlu agentlik qurumlarının üzvü, yerli və xarici kütləvi informasiya vasitələri üçün yeganə rəsmi dövlət informasiya mənbəyi olan, gün ərzində Azərbaycan, rus, ingilis, fransız, alman və ərəb dillərində fasiləsiz surətdə dəqiq, operativ informasiyalar hazırlayan Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTac) da ADR dövrünün yadigarıdır. 1920-ci il martın 1-də yaradılmış AzərTac ADR dövründə qısa müddət ərzində fəaliyət göstərməsinə baxmayaraq, Azərbaycanın dünyaya açılan pəncərəsi rolunu həmişə şərəflə yerinə yetirmişdir. Ayrı-ayrı illərdə müxtəlif adlar altında fəaliyyət göstərsə də, Azərbaycan müstəqilliyini bərpa

etdikdən sonra öz tarixinə sadiq qalaraq AzərTac adını geri qaytarmışdır.

Azərbaycan Demokratik Respublikasının hakimiyyəti dövründə ədəbiyyat, teatr və musiqi, təsviri sənət və memarlıq sahələrində böyük canlanma yarandı. Professional teatrımızın tarixi 1873-cü ildən başlasa da, yalnız ADR dövründə dövlət teatrı statusu aldı. Öz binası olmadığı üçün Mayılov qardaşlarından teatr binasını məcburi surətdə, lakin ədalətli qiymətlə milli teatrımız üçün almaq barədə qərar qəbul edildi. O dövrdə teatr tamaşaçılar qarşısına zəngin repertuarla çıxırdı. Bu səhnədə M.F.Axundzadə, N.Nərimanov, Ə.Haqverdiyev, N.Vəzirov, C.Məmmədquluzadə, H.Cavid və C.Cabbarlının əsərləri ilə yanaşı, dünya klassiklərinin əsərləri də oynanılırdı. Azərbaycan aktyorları ölkənin hüdudlarından kənara qastrol səfərlərinə çıxırdılar. Türkiyə qəzetləri yazırdı ki, “Qafqazın zəngin səhnələrində çıxış etməyə alışmış aktyorlar qətiyyən Avropanı yamsılamadan, öz milli xəzinələrindən götürülmüş və bizim ruhumuza tamamilə uyğun olan tamaşalar verirlər”.

“Leyli və Məcnun” operası ilə Azərbaycan professional musiqisinin təməlini qoymuş, sonralar isə bir sıra dəyərli opera və musiqili komediyaların müəllifi olmuş Üzeyir bəy Hacıbəyli həmin illərdə “Dağıstan”, tərəkəməsayağı “Azərbaycan” adlı xoreoqrafik əsərlərini və şair Əhməd Cavadın sözlərinə “Azərbaycan” marşını bəstələmişdir. Vətənpərvərlik hisslərinin, mütərəqqi ideyaların, milli qürurun tərənnümü olan bu marş 1992-ci il 27 may tarixli fərmanla Azərbaycan Respublikasının Dövlət Himni kimi qəbul edildi. Daha bir böyük bəstəkarımız Müslüm Maqomayevin 1916-cı ildə yazdığı “Şah İsmayıl” operası məhz ADR dövründə böyük uğurla səhnələşdirildi.

Qurulduğu gündən dövlət rəmzlərinin yaradılmasına xüsusi əhəmiyyət verən ADR hökuməti tərəfindən 1918-ci il noyabrın 9-da türkləşməyin, islamlaşmağın və müasirləşməyin rəmzi kimi yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət milli bayrağın təsdiq edilməsi barədə qərar qəbul olundu. 1919-cu il 23 mart tarixli qərarı ilə hökumət dövlət gerbi və möhürünün layihələrini yaratmaq üçün müsabiqə elan etdi.

Bütün bu sadalananlar ADR illərində ədəbiyyat, dil və mədəniyyət quruculuğu sahəsində atılmış addımların çox cüzi bir hissəsi idi. ADR-in bir çox təşəbbüs və ideyaları 1920-ci ilin aprel işğalı nəticəsində yarımçıq qaldı. Lakin buna baxmayaraq, onun qısa bir müddət ərzində gördüyü möhtəşəm işlər xalqımızın yaddaşına əbədi olaraq həkk olundu.

Əsası məhz Azərbaycan Demokratik Respublikası tərəfindən qoyulmuş dövlətçilik

ənənələrinin mədəni, elmi, iqtisadi kadr potensialının mövcudluğu xalqımıza öz varlığını, mədəniyyətini, milli mənliyini qorumağa, SSRİ-nin tərkibində Rusiyanın çoxsaylı vilayətlərindən biri deyil 15 respublikadan biri olmağa, onun süqutundan sonra isə yenidən dirçəlib Azərbaycan Respublikası kimi tarix səhnəsinə çıxmağa imkan verdi.

## ƏLİBƏY HÜSEYNZADƏNİN SİYASİ BAXIŞLARI


***Qasımova T.M.***

*AMEA, Fəlsəfə İnstitutu*


Azərbaycanın ədəbiyyat və mətbuat tarixində görkəmli şəxsiyyətlərdən biri də tanınmış siyasi xadim, istedadlı publisist, şair, rəssam, tərcüməçi Əlibəy Hüseynzadə olmuşdur. Ə.Hüseynzadənin Azərbaycan mədəniyyətində özünəməxsus yeri vardır. Əsasən Azərbaycan cümhuriyyəti dövründə formalaşan mətbuat tariximizə nəzər saldıqda, o dövrün ziyalı, görkəmli şəxsiyyətlərinin Azərbaycanın mədəniyyətində, tarixində və siyasi həyatında nə qədər böyük təsirə malik olduğunu görmək olur. Əlibəy Hüseynzadə məhz belə şəxsiyyətlərdən olmuşdur.

Əlibəy Hüseynzadə hələ gənc yaşlarından millətinə, vətəninə və dininə olan sevgisini açıq-aşkar hiss etdirirdi. Bu səbəbdən də onu bir islamçı, bir millətçi kimi xalqın gözündən salmağa çalışan qüvvələr sonunda onun mühacirət etməsinə səbəb oldu. Əlibəy Hüseynzadə siyasi hadisələrdən kənarda qala bilmirdi. Hər gün baş verən siyasi dəyişikliklər nəhayət, onun da inqilabçı gənc türklər hərəkatına qoşulmasına şərait yaradır. “İnqilab və tərəqqi” partiyasının yaranmasında başlıca rolu olan Əlibəyə qarşı təqiblər başlayır. Böyük ədib, gözəl qələm sahibi, publisist, rəssam və bütövlükdə əsil ziyalı olan Əlibəy Hüseynzadə ona qarşı olan təqiblərdən uzaqlaşmaq üçün Azərbaycana qayıtmalı olur və “Kaspi” qəzeti ilə əməkdaşlıq etməyə başlayır. O, ilk vaxtlardan publisistik yazıları ilə diqqəti cəlb edə bilir. Onun “Gənc türkçülük nədir?” adlı məqaləsi rezonans doğurur və onu islahatçı-reformist kimi tanıdır. Əlibəy Hüseynzadənin yaradıcılığının çox maraqlı tərəfləri vardır. Onun Sankt-Peterburqda mükəmməl təhsilə yiyələnməsi, habelə inqilabi fikirli gənclərlə tanışlığı, o dövrün ab-havası onun həyatında mühüm rol oynamışdır. Əlibəy Hüseynzadənin Azərbaycan ictimai-mədəni həyatı və milli jurnalistika tarixindəki xidmətlərindən ən çox diqqəti cəlb edən onun ardıcıl olaraq söz və mətbuat azadlığı uğrunda mübarizə aparmasıdır. Elə buna görədir ki, o müasirlərinə hər bir insanın “baş tacı olan” azadlığın mahiyyətini anladır və deyirdi: “Hürriyyəti-vicdanın mənası budur ki, hər kəs hər hansı etiqad və əfkarda

bulunmaqda hürr və azaddır. Kimsənin, nə hökümətin və nə də bir fərdin etiqad və əfkarından naşı bir kimsəyə təcavüz etməyə haqqı yoxdur. Hürriyyəti-kəlamə gəlincə hər kəs etiqad və əfkarını açıq surətdə söyləyib yazmaqda muxtardır".

Əlibəy Hüseynzadə sosializmin qanunlarını da heç vəchlə qəbul etmirdi. Lakin sovet rejimində bunun nə qədər çətin olduğunu dərk edərək öz düşündüyünə uyğun bir şəkildə "Füyuzat" məcmuəsinin 16-cı sayında ifadə edərək belə yazırdı ki, "sosialistlər deyirlər ki, gəl sənin qazanmış olduğun malı bölüşəlim. Bu insafmıdır? Hansı şəriətdə bu var?"

Rusiya, rus-yapon müharibəsində məğlub olmuş, hər tərəfdə iğtişaşlar başlamışdı. Bu şəraitdə 1904-cü ildə Ə.Hüseynzadənin də içində bulunduğu bir heyət Peterburqa gedərək o zamana qədər yayımlanmasına icazə verilməyən türkcə gündəlik qəzetin nəşrinə icazə alır. Beləliklə, Ə.Hüseynzadə 1905-ci ildə Rusiyada ilk gündəlik türk qəzeti olan "Həyat" qəzetinin nəşrinə başlayır. "Həyat"ın qurucuları Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyev, Əhməd bəy Ağaoğlu, Əlibəy Hüseynzadə və Əlimərdan bəy Topçubaşov idi. H.Z.Tağıyevin maliyyə dəstəyi ilə nəşr olunan bu qəzetin redaktorluğunu və naşirliyini Əlibəy öz üzərinə götürür. Qəzet bağlandıqdan az sonra yenə Tağıyevin maliyyəköməkliyi ilə "Füyuzat" qəzetinin nəşrinə başlanılır. Redaktorluğu və naşirliyi yenə də Əlibəyə həvalə olunur. Əlibəy Hüseynzadə bu qəzeti öz siyasi və fəlsəfi fikirlərini xalqa anlatmaq üçün çox gözəl ifadə vasitəsi hesab edirdi.

Ümumiyyətlə, Ə.Hüseynzadənin yaradıcılığı ilə yaxından tanış olduqda onun hələ gənc yaşlarından siyasi fikirlərinin olduğunu görmək olur. Çar Rusiyasının tabeliyində olan Azərbaycanın islamçılığından, milli dəyərlərindən narahat olan məmurlar Ə.Hüseynzadənin hər hərəkətinə nəzarət edir, hətta onu təqib belə edirdilər. O dövrdə vətəninə və millətinə dərin məhəbbətlə bağlı olan Firidun bəy Köçərli, Əhmad Ağaoğlu, Həsənbəy Zərdabi, Ömər Faiq Nemanzadə, Məmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə kimi Əlibəy Hüseynzadə də ölkəsində gedən ictimai-siyasi proseslərdən narahat olmaya bilməzdi. O bu tanınmış şəxslərlə mütəmadi əlaqə saxlayır və bu proseslər ətrafında müzakirələr edirdi. Ə.Hüseynzadənin çağdaş ədəbi prosesdə C.Məmmədquluzadənin fəaliyyətinə dəfələrlə yüksək qiymət verməsi, eləcə də C.Məmmədquluzadənin Əlibəy Hüseynzadəni "yazı ustadı" adlandırması təsadüfi deyildi. C.Məmmədquluzadənin "Xatıratım" əsəri bu mənada diqqətəlayiqdir. O yazır: "Molla Nəsrəddin" dilini də yazmağı bacarmalıdır. Necə ki, bu sözü mən ilk dəfə ədib-möhtərəm Əlibəy Hüseynzadədən eşitdim. Əlibəy mənə dediyi sözü təkrar və təsdiq etdi və həmişə adət etdiyi kimi başını aşağı salıb,

guya özünə genə dedi: "Açıq yazmağı da bacarmaq lazımdır". Ə.Hüseynzadənin ədəbi və ictimai-siyasi düşüncələrinin yazarlar tərəfindən yüksək dəyərləndirilməsi çox müsbət haldır. Onun ilk irihəcmli əsəri 1905-ci ildə "Həyat" qəzetində silsilə şəklində nəşr olunmuşdur. Əsərin adı "Türklər kimdir və kimlərdən ibarətdir?" adlanır. Bu əsərin adının özündə bir möhtəşəmlik və açıqfikirlilik vardır. Buradan da Əlibəyin türkçü, turançı, islamçı olduğunu bir daha hiss etməmək mümkün deyil. Ə.Hüseynzadə bir türk, bir müsəlman olduğunu fəxrlə söyləyərək deyirdi: "Bən türkəm, qafqazlı bir türkəm. Türk bir müsəlmanəm, müsəlman bir insanəm, demək bən bu dörd sifətlə yaşamaq məcburiyyətindəyəm". O dövrdə Azərbaycan burjuaziyasının siyasi-ədəbi, bədii orqanı "Füyuzat" hesab edilirdi. Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi ilə 1906-cı ilin noyabr ayından "Kaspi" qəzetinin mətbəəsində nəşrə başlayan və cəmi 32 nömrəsi çıxan "Füyuzat" tez bir zamanda sevilən mətbu orqanına çevrilmişdi. Bu jurnalda ədəbi-bədii, tənqidi məqalələrin olması ilə yanaşı siyasi mövzularda da yazılar dərc edilirdi. O dövrün mütəfəkkir ziyalıları, eyni zamanda mətbuat orqanlarının müəllif heyəti, onların ideya-siyasi, ədəbi-mədəni mövqeyi jurnalın yaranmasına səbəb olan amillərdən hesab edilir. Belə ki, "Tazə həyat", "Tərəqqi", "Yeni Füyuzat", "Bəsirət", "Həqiqət", "Şəlalə", "İqbal", "İttifaq", "Dirilik", "Açıq söz", "Qurtuluş", "Yeni qurtuluş" və bu kimi mətbuat orqanlarının nəşri də bu jurnalın yaranmasına təkan oldu. Bu, 1905-ci ildə çar hökumətinə qarşı güclənən və günü-gündən genişlənən inqilabi hərəkatın zamanına təsadüf edirdi. Guya bu cür məqalələrlə bu iğtişaşların qarşısını almağa çalışan məcmuə əslində istədikləri məsələləri dolayı yolla xalqa çatdırmağa çalışırdı. İttihad və tərəqqi qurucularından olan Əlibəy Hüseynzadə bu yolda nə qədər çətinliklərlə qarşılaşsa da belə öz fikrindən dönmürdü. Jurnalda əsasən İstanbul, Krım pantürkistlərinin yazıları dərc olunurdu, özü də jurnalın ön səhifələrində İslam birliyi, türk birliyi "Füyuzat"ın başlıca ideyası idi.

Rus inqilabının təsirilə Azərbaycanda baş verən inqilabi hərəkatın yüksəlişindən vəcdə gələn Ə.Hüseynzadəni xalqın azadlıq hisslərinin coşqunluğu razı salırdı. Onu ən çox razı salan isə hər şeydən əvvəl, Azərbaycan xalqının öz hüquqlarını tələb etməsi və inqilabi mübarizəyə qoşulması idi. O, Şərq xalqlarının ardıcıl mübarizə aparması üçün rus inqilabi yolu ilə getməyə və onların inqilabi təcrübəsindən, qəhrəmanlıq mübarizələrindən öyrənməyə çağırırdı. Ə.Hüseynzadə azadlıq dedikdə "Məzlum olan sinifləri zalım siniflərin təcavüzündən azad etməyə "yersiz, yurdsuz əkinçilərimizə" yer, torpaq tələb etməyə çağırırdı". İnqilabi hərəkat demək olar ki, xalqın gözünü açdı. Onu doğru yola, azadlıq

mübarizəsinə səslədi. Ə.Hüseynzadə Cənubi Azərbaycanda baş verən inqilaba böyük əhəmiyyət verərək onun inkişafını diqqətlə izləyirdi. O, bu inqilabın milli müstəqillik ideyalarını müdafiə və təbliğ etməklə yanaşı, çarizmin millətləri parçalamaq siyasətinin ifşasına da xüsusi diqqət yetirmişdir. "Siyasəti-fürusət" Şərq istibdadına, xüsusilə İran mütləqiyyətinə qarşı ən kəskin satirik əsərlərdən biridir.

Milli müstəqillik ideyasının ilk rüşeymi kimi görünən muxtariyyət tələbi və torpaq istəyi, özünüidarə, azadlıq, milli dirçəliş və türk özünüdərki Əlibəy Hüseynzadənin siyasi qayəsi və hürriyyət konsepsiyasının əsasını təşkil edirdi.

1905-ci ildə Əlibəy tərəfindən "türklər kimdir və kimlərdən ibarətdir?" sualı bəlkə də mübaliğə etmərik belə desək ki, ilk dəfə daha geniş və siyasi bir müstəvidə qaldırıldı, çözüldü. Bu barədə danışarkən polşa tarixcisi Tadeuş Sventoxovskinin dediklərindən daha mükəmməlini və sərrastını söyləmək bəlkə də mümkün deyil. Polşa tarixcisi deyirdi ki, XX əsrin əvvəllərində türk xalqlarına onun kimliyini bildirən bir nəfər var idi. O da Əlibəy Hüseynzadəydi. Əlibəy Hüseynzadə o coşqun fəaliyyəti ilə milli şüurumuzun təşəkkülündə elə fövqəladə rol oynamışdır ki, onun yandırdığı şölənin haləsi bu gün belə beyinlərimizə işıq salır.

## ERMƏNİSTAN-AZƏRBAYCAN TRANSSƏRHƏD ÇAYLARIN HÖVZƏLƏRİNƏ EKOLOJİ TƏCAVÜZ VƏ ONUN QİYMƏTLƏNDİRİLMƏSİ

***Quliyev İ.Ə.***

*Sumqayıt Dövlət Universiteti*

Erməni millətçilərinin Azərbaycanın tarixi ərazilərinə olan hərbi təcavüzü müəyyən fasilərlə olduğu halda, ekoloji təcavüzü arası kəsilmədən baş vermişdir. Hipsometrik baxımdan indiki dövlət ərazisinin 75 %-i 1500 m mütləq hündürlükdə yerləşən Ermənistanda formalaşan çaylar qapalı Xəzər hövzəsinə məxsusdur. Bu çayların da 80 %-dən çoxu Arazın sol qollarını təşkil edir. Ermənistan ərazisindən Azərbaycan ərazisinə daxil olan çayların demək olar ki 90-95 %-i dağ-mədən sənaye tullantılarının çirkləndirici təsirinə məruz qalır. Toksik təsirə malik olan texnogen çirklənmiş suların tərkibi ağır metallar və onların müxtəlif birləşmələri ilə zəngindir.

Ağır metalların yayılması və paylanması prosesində su kütləsi və dib çöküntülərinin xüsusiyyəti üstünlüyə malikdir. Su kütləsinin fiziki-kimyəvi şəraiti metalların miqrasiyasını formalaşdırır. Bunlar asılqan, kolloid, həllolunan ion və kompleks birləşmələr

formasındadır.

Kiçik Qafqazın cənub-şərq hissəsində tranzit çay olan Oxçuçy yarıməsrdən çoxdur ki, intensiv olaraq Qafan və Qacaran mis və mis-molibden kombinatlarından çıxan və ağır metallarla çirklənmiş sularla kəskin formada çirklənməyə məruz qalır. Zəhərli təsirə malik sənaye tullantıları ilə suvarılan Azərbaycanın və Oxçuçay hövzəsinin və Arazsahili torpaqlarda ağır metalların konsentrasiyası yol verilən həddi dəfələrlə ötüb keçir. Ağır metalların paylanması və miqrasiyasında texnogen çirklənmənin təsiri daha yüksəkdir.

Azərbaycanın ətraf mühitinin çirklənməsində Zəngi (Razdan), Mehri, Karçevan, Bərgüşad, Debed, Ağstafa çaylarının təsiri daha böyükdür. Bu çaylar Araz və Kür çaylarını da çirklənməyə məruz qoyur. Çirklənmiş çay suları ilə suvarılan torpaqlar toksik təsirə malik (Pb, Zn, Cd, Co, Mo,Cu) elementlər və onların müxtəlif birləşmələri ilə çirklənir. Nəticədə çirklənmiş torpaqlarda əkilmiş kənd təsərrüfatı bitkilərinin müxtəlif hissələrində, o cümlədən meyvələrində bu elementlərin duzlarının müxtəlif birləşmələrinin yüksək olması qida zənciri həlqəsinə daxil olmağı asanlaşdırır ki, bu da insaların sağlamlığı üçün böyük təhlükə yaradır.

BMT-nin 1992-ci ildə təsis olunmuş Helsinki konvensiyasının qanunlarına məhəlqoymayan Ermənistan hal-hazırda da bu əməllərindən əl çəkmir. Bundan yeganə çıxış yolu Ermənistana Beynəlxalq Ekoloji təşkilatların təsirini artırmaq və bu istiqamətdə İran İslam Respublikası və Gürcüstan Respublikası ilə birgə bu istiqamətdə fəaliyyət göstərməkdir. Ona görə ki Ermənistan həm də bu ölkələrin, beləliklə regionun ekoloji mühitinin pozulmasına səbəb olur.

## AZƏRBAYCAN CÜMHURİYYƏTİNDƏ MƏDƏNİ-MAARİF SAHƏSİNDƏ QURUCULUQ İŞLƏRİNƏ DAİR


***Quliyeva N.M.***

*AMEA, Arxeologiya və Etnoqrafiya İnstitutu*


Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycan xalqının milli dövlətçilik tarixində, milli-mənəvi dəyərlərinin, özünüdərkin inkişafında mühüm mərhələ oldu. Belə ki, Azərbaycan Cümhuriyyətinin yaranması ərəfəsində sosial mədəni sahədə vəziyyət ağır idi.

Mühüm vəzifələrdən biri maarif sisteminin işini xalqın milli mənafelərinə xidmət etməyə yönəltmək, onu dövlətçiliyin tələblərinə uyğun şəkildə yenidən qurmaq olduğu üçün AXC hökumətinin həyata keçirdiyi ilk tədbirlərdən biri təhsil müəssisələrinin

milliləşdirilməsi oldu.

Nazirlər Şurasının 1918-ci il 28 avqust tarixli qərarı ilə bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılır, eyni zamanda dövlət dili icbari qaydada tədris olunurdu.

Hökumət çarizmin müstəmləkə siyasətinin ağır nəticələrini tezliklə aradan qaldırmaq məqsədilə azərbaycanlı şagirdlərin təhsilinə xüsusi diqqət yetirirdi. Xalq Maarifi Nazirliyi orta məktəb rəislərinə göndərdiyi 1919-cu il 7 sentyabr tarixli xüsusi sərəncaminda azərbaycanlı uşaqların ancaq milliləşdirilmiş əlifba və hazırlıq siniflərinə, həmçinin birinci siniflərə qəbul olunması göstərişini vermişdi.

Görülmüş tədbirlər nəticəsində şagirdlərin ümumi sayı içərisində azərbaycanlıların xüsusi çəkisi artdı. Əgər 1914-1915-ci tədris ilində 9.643 nəfər orta məktəb şagirdindən (müəllimlər seminariyaları çıxılmaqla) ancaq 1.137 nəfəri azərbaycanlı idisə, 1919-1920-ci tədris ilində 9.611 şagirddən 3.115-i azərbaycanlı idi.

Qadınların təhsilinə xüsusi diqqət yetirilirdi. Orta təhsil müəssisələrində azərbaycanlı qızların sayı artırdı. Məsələn, əgər 1918-1919-cu tədris ilində Gəncə gimnaziyasında cəmi 4 azərbaycanlı qız oxuyurdusa, 1919-1920-ci tədris ilində onların sayı 296 nəfərə çatmışdı.

Azərbaycan hökumətinin həll etməli olduğu ən kəskin məsələlərdən biri də maarif işçilərinin maddi təminatı, onların güzəranının yaxçılaşdırılması idi. 1919-cu ilin sentyabrında parlament Azərbaycan Cümhuriyyəti qulluqçuluqlarının məvacibinin artırılması və maaşların müvafiq şəkildə sistemləşdirilməsi haqqında qanun qəbul etdi.

Qori Müəllimlər Seminariyasının müsəlman şöbəsi Qazax şəhərinə köçürüldüyü və müstəqil seminariyaya çevrildi. 1919-cu ilin sentyabrında Bakıda kişi seminariyası açıldı.

1919-cu il avqustun 21-də Dövlət Universitetinin təsis edilməsi haqqında qanun layihəsinin ilkin müzakirəsi göstərdi ki, parlamentin əksəriyyəti Azərbaycanın elm və maarif ocağının açılmasına prinsipcə razıdır. Bununla belə ali qanunverici orqana təqdim edilmiş qanun layihəsinin opponentləri də var idi.

1919-cu il sentyabrin 1-də parlament Bakı şəhərində Dövlət Universitetinin təsis edilməsi haqqında qanun qəbul etdi. Qanunda Universitetin dörd fakültədən: tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələrindən ibarət olduğu göstərilmişdi.

Ilk tədris ilində universitetdə təhsil tələbələri sayı 877 nəfər idi. 217 nəfər azad dinləyici qəbul olunmuşdu.

Beləliklə, Azərbaycan Cümhuriyyətində ən müxtəlif sahələr üzrə yüksək ixtisaslı

mütəxəssislər hazırlamaq, həmçinin təhsilin müxtəlif istiqamətdə inkişafını təmin etmək üçün müxtəlif imkanlardan istifadə edilirdi.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ DİL SİYASƏTİ

**_Qurbanova G.Q._**
*Mingəçevir Dövlət Universiteti*

*Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir.*
*H.ƏLİYEV*

Dil hər bir xalqın milli-mənəvi dəyərlərini özündə əks etdirən, yaşadan və onu inkişaf etdirən ən mühüm amillərdən biridir. Dil xalqın varlığının təminatçısı hesab olunur. Dil millətin formalaşmasında mühüm rol oynayır. Hətta belə bir fikir mövcuddur ki, dilini itirən xalq məhvə məhkumdur. Dil hər bir xalqın milli sərvəti olduğu kimi Azərbaycan dili də xalqımızın milli sərvətidir və xalqımız bu dəyərli sərvətin qayğısına qalmalı, dilimizin saflığını qoruyaraq onu gələcək nəsillərə ötürməlidir. Dilimiz Azərbaycan xalqının, Azərbaycan Respublikasının dövlət dili olduğu üçün qüdrətlidir. Azərbaycan dili öz şirinliyi ilə həmişə digər dünya dillərindən bir addım öndə olmuşdur. Məhz dilimizin şirinliyinə və gözəlliyinə görə bir sıra məşhur insanlar onu öyrənməyə çalışmışlar. 1918-ci il may ayının 28-i Azərbaycan xalqının təqviminə qırmızı hərflərlə yazılan bir tarixdir. Çünki bu tarixdə Azərbaycanın müstəqil dövlət elan olunması haqqında mühüm qərar qəbul edildi. Beləliklə, Azərbaycanın milli dövlətçilik siyasəti bərpa olundu. AXC Hökuməti ordu, iqtisadiyyat, təhsil, səhiyyə, mədəniyyət kimi sahələrə diqqət ayırmışdır. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin diqqət ayırdığı sahələrdən biri də dil siyasəti olmuşdur. 1918-ci il 27 iyun tarixində AXC Hökuməti tərəfindən Azərbaycan dili dövlət dili elan olunmuşdur. O zaman doğma dilimiz Azərbaycan dili deyil, türk dili adlanırdı. Azərbaycan dilinə keçid bu dövrdə ölkə ərazisində bir sıra problemlərə səbəb olacağı gözlənilirdi. Buna görə də, hökumət belə qərar verdi ki, ölkədə inzibati idarəçilik, məhkəmə və digər vəzifələri yerinə yetirən məmurlar Azərbaycan dilini tam öyrənənədək idarə və müəssisələrdə rus dilinin də işlədilməsinə icazə verilsin. Ölkə ərazisində dövlət dilinin öyrənilməsi, inkişaf etdirilməsi üçün bir sıra işlər görülməyə başlandı. Azərbycan dilini bilməyənlər üçün kurslar təşkil olunurdu ki, Azərbaycan dilini öyrənsinlər və bunun üçün müəyyən miqdarda pulvəsaiti də ayrılmışdır.

Ordu sahəsində də Azərbaycan dilinin işlədilməsinə diqqət ayrıldı. AXC hərbi naziri olmuş general Səməd bəy Mehmandarovun səyi ilə Azərbaycan dili bir sıra sahələrdə rəsmi dövlət dili qəbul edildiyi kimi, orduda da əsas danışıq dili kimi qəbul edildi. Hərbi nazir orduda tələb qoymuşdu ki, dövlət dilini bilməyən zabitlərə bir ay vaxt verilsin. Nazirin göstərişi ilə zabitlər 1 ay ərzində ərz hərbi komanda sözlərinin azərbaycanca qarşılıqlarını öyrənməli və əsgərlərə Azərbaycan dilində hərbi komanda verməyi bacarmalı idilər və generalın əmri ilə bu tələbi yerinə yetirə bilməyən zabitlər bir ay müddətinə dərhal ordudan xaric edilməli idilər. Məlum olduğu kimi, Azərbaycan dili hələ XVI əsrdə dövlət dili kimi işlənmişdir. Lakin rəsmi yazışmalar ərəb və fars dillərində yazılırdı. Buna görə də Azərbaycan dili rəsmi dövlət dili hesab oluna bilməzdi. Lakin ilk dəfə olaraq məhz Cümhuriyyət dövründə dilimiz rəsmi dövlət dili səviyyəsinə qalxmışdır. Bu dövrdə yazılan bütün qərarlar və fərmanlar Azərbaycan dilində yazılırdı. Bakı Universitetinin yaradılması bir daha sübut edir ki, parlament ana dilinə nə dərəcədə önəm verir. Bu ilk ali məktəbdə bütün tədris işləri Azərbaycan dilində aparılırdı.

## MƏHƏMMƏD SADIQ BƏY AĞABƏYZADƏ – GENERAL MAYOR, NAZİR MÜAVİNİ, ŞƏRQŞÜNAS ALİM

***Manafov N.R.***

*Mingəçevir Dövlət Universiteti*

1865-ci il mart ayının 15-də Bakı quberniyasının Göyçay qəzasında anadan olmuş M.S. Ağabəyzadə 1883-cü ildə Bakı realnı məktəbini, 1886-cı ildə Peterburq şəhərindəki Mixaylov Topçular məktəbini, 1899-cu ildə Rusiya Xarici işlər nazirliyinin Asiya departamenti nəzdindəki Şərq dilləri kursunu əla qiymətlərlə bitirmişdir.

Türküstanın son dərəcə çətin və mürəkkəb şəraitində öz vəzifə borcunu şərəflə yerinə yetirən Məhəmməd Sadıq bəy Ağabəyzadə 1913-cü ildə rus ordusunun ən ali rütbəsinə - general rütbəsinə layiq görülür.

Eyni zamanda yerli xalqın yaşam tərzi, adət-ənənəsi, atalar sözü və məsəlləri, dili ilə maraqlanan M.S. Ağabəyzadə 1904-cü ildə Zakaspi vilayəti türkmənlərinin ləhcəsinə dair "Учебник тюркменского наречия с приложением сборника пословиц и поговорок тюркмен Закаспийской области" dərsliyini yazır (Aşqabad, 1904).

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını Məhəmməd Sadıq bəy Ağabəyzadə sevinclə qarşıladı. F. Xoyskinin rəhbərlik etdiyi milli hökümət general M.S. Ağabəyzadəni

Bakıya dəvət etdi və 1918-ci il 23 oktyabr tarixli qərarla o, AXC-nin Daxili İşlər Nazirinin müavini vəzifəsinə təyin olundu. General-mayor M.S. Ağabəyzadə Azərbaycan milli müstəqil polisinin təşəkkülü və inkişafında, polis sisteminin hüququ bazasının hazırlanmasında yorulmadan xidmət göstərdi, Azərbaycan Cümhüriyyəti polisində islahatlar konsepsiyasını hazırladı.

General-mayor M.S. Ağabəyzadənin gərgin əməyi ilə "Polis idarələrinin təşkili haqqinda", "Polis departamenti haqqında", "Ümumi, qəza və şəhər polisi haqqında" və başqa normativ sənədlər hazırlandı və fəaliyyət üçün qəbul edildi.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra M.S. Ağabəyzadə İstanbula əmisi oğlu Əli bəy Hüseynzadənin yanına getdi, bir müddət İstanbulda müalicə olundu. Həmin dövrdə Türkiyədə siyasi vəziyyət pis idi, yunanlarla müharibə yekunlaşmamışdı, iş tapmaq çətin idi. Məhəmməd Sadıq bəy doğma torpağa Azərbaycana qayıda bilməzdi. Sovet Azərbaycanında onu nələrin gözlədiyini yaxşı bilirdi.

M.S. Ağabəyzadə Fransaya getdi, Parisdə və Nissada ağır, acılı günlər yaşadı. Qurbət ölkədə uzun müddət iş axtardı.

1926-1927-ci tədris ilində Məhəmməd Sadıq bəy Ağabəyzadə Yan Kazimir adına Lvov Universitetinə Şərq dilləri müəllimi vəzifəsinə dəvət olundu. Həmin dövrdə Lvov şəhəri Polşanın tərkibində idi. Tələbələrin əksəriyyəti polyak olduğundan Məhəmməd Sadiq bəyqisa bir vaxtda polyak dilini öyrəndi. M. S. Ağabəyzadə əsl poliqlot idi. Doğma Azərbaycan dilindən başqa o, rus, fransız, ingilis, türk, ərəb, fars, ukrayn və türkmən dillərini də yaxşı bilirdi. Ömrünün sonuna kimi Lvov Universitetində şərq dillərini - türk, fars və ərəb dillərini tədris edən Məhəmməd Sadıq bəy Lvov universitetin tələbələri üçün polyak dilində türk, fars, ərəb dillərinin qrammatikasına dair 3 qiymətli dərslik yazdı.

Məhəmməd Sadiq bəy Ağabəyzadə 1944-cü il noyabr ayının 9-da Lvovda vəfat etdi. Dostları və tələbələri onu Liçakovski qəbirstanlığında müsəlman adəti ilə dəfn ediblər. Üzü Kəbəyə sarı.

Qədirbilən ukraynalılar M.S. Ağabəyovun adını əbədiləşdiriblər. Lvov şəhərinin küçələrindən biri azərbaycanlı professor, general-mayor, Azərbaycan Xalq Cümhuriyyəti dövründə nazir müavini işləmiş Məhəmməd Sadıq bəy Ağabəyzadənin adını daşiyir.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİ

***Mehdiyeva G.F.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin əsasında azərbaycançılıq ideyası durur. Azərbaycançılıq ideyası - Azərbaycan xalqının siyasi, iqtisadi, sosial və mədəni yüksəlməsinə yönələn bir ideyadır. Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsi tarixi azərbaycançılıq ideyasının formalaşması prosesi ilə bağlıdır. Bu proses XIX əsrin ikinci yarısında baş vermişdir.

XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycan ədəbiyyatının, incəsənətinin və maarifçılik hərəkatının görkəmli xadimləri mədəni azərbaycançılıq hərəkatına başçılıq edirdilər. Mədəni azərbaycançılıq hərəkatının görkəmli nümayəndələrinin fəaliyyəti nəticəsində Azərbaycan xalqının milli şüuru formalaşmağa başladı. Bu proses xalqın öz mədəni və etnik birliyini dərk etməsində mühüm əhəmiyyət kəsb edirdi.

Azərbaycançılıq ideyasının mədəni mərhələdən siyasi mərhələyə keçməsi Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu, Əlimərdan Topçubaşov, Məmmədəmin Rəsulzadə kimi görkəmli şəxsiyyələrin nəzəri və siyasi fəaliyyətləri ilə bağlıdır. Siyasi azərbaycançılığın nümayəndələri ilk dəfə olaraq Azərbaycan xalqının siyasi hüquqlarını müdafiə etməyə başladılar.

28 may 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaradılması siyasi azərbaycançılıq ideyasının inkişafında keyfiyyətcə yeni bir mərhələ idi. Bu mərhələ azərbaycançılıq ideyasının iqtisadi mərhələyə keçməyi üçün lazımi şərait yaratdı. Lakin 28 aprel 1920-ci ildə Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğal olunması səbəbindən bu keçid baş tutmadı. Azərbaycançılıq ideyasının inkişafının qarşısı müvəqqəti olaraq alındı. Azərbaycan xalqının tarixinin yeni mərhələsi–sovet dövrü başladı.

Hər bir səhifəsi biz azərbaycanlılar üçün müqəddəs və doğma olan Cümhuriyyətin təşəkkülü XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda mövcud olmuş ictimai-siyasi, ədəbi, fəlsəfi fikrin məntiqi nəticəsi, tarixi zərurət idi. O, ədəbiyyatda və mətbuatda, milli və ideoloji mübarizələrin səngərində yarandı və bir əsrədək müddət ərzində müstəmləkə zülmü altında inləyən xalqın azadlıq harayının carçısına çevrildi. Həmin dövrdə Azərbaycanda geniş vüsət almış milli-demokratik hərəkatın başında duran insanların hər birinin adı Azərbaycanın dövlətçilik tarixinə qızıl hərflərlə yazılmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti az bir vaxtda parlamenti, hökuməti, ordusu, gömrük və hüquq mühafizə orqanları olan, dövlət rəmzlərinə malik, vətəndaş hüquqlarını hər şeydən uca tutan demokratik, dünyəvi və unitar dövlətə çevrildi. Bu, XX əsrin əvvəllərində yalnız hərbi-feodal rejimlərinin hökm sürdüyü Şərqdə əsl fenomen idi. O dövrün ən mütərəqqi mətbu orqanlarından biri sayılan "İstiqlal" qəzetinin başlığında böyük türk şairi Tofiq Fikrətin epiqraf kimi verilmiş məşhur "Millət yoludur, haqq yoludur tutduğumuz yol, ey haqq! Yaşa, ey sevgili millət, yaşa, var ol!" misraları AXC-nin məram və niyyətini çox gözəl əks etdirirdi. Amalı millət yolu, haqq yolu olan AXC yarandığı ilk gündən "türkləşmək, islamlaşmaq, müasirləşmək" şüarını rəhbər tutaraq həyatın bütün sahələrində, xüsusən xalq maarifi və mədəniyyət sahələrində geniş islahatlara başladı.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 23 ay ərzində qəbul etdiyi qərarların böyük əksəriyyəti də elə demokratiyanın, elmin və mədəniyyətin inkişaf etdirilməsi ilə bağlı olmuşdur.

Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir bəy Hacıbəyli, Seyid Hüseyn, Hacı İbrahim Qasımov, Xəlil İbrahim, Mehdi bəy Hacınski kimi yaradıcı ziyalılar teatr tənqidi ilə məşğul olur, bu sahədə baş verən prosesləri izləyir, teatr sənətinin inkişaf problemlərinə dair məqalələr yazırdılar. "Leyli və Məcnun" operası ilə Azərbaycan professional musiqisinin təməlini qoymuş, sonralar bir sıra dəyərli opera və musiqili komediyaların müəllifi olmuş Üzeyir Hacıbəyli həmin illərdə "Dağıstan", tərəkəməsayağı "Azərbaycan" adlı xoreoqrafik əsərlərini və Cümhuriyyət şairi Əhməd Cavadın sözlərinə "Azərbaycan" marşını bəstələmişdir. Vətənpərvərlik hisslərinin, mütərəqqi ideyaların, milli qürurun tərənnümü olan bu marş 1992-ci il 27 may tarixli fərmanla Azərbaycan Respublikasının Dövlət Himni kimi qəbul edildi. Daha bir böyük bəstəkarımız Müslüm Maqomayevin 1916-cı ildə yazdığı "Şah İsmayıl" operası məhz Cümhuriyyət dövründə böyük uğurla səhnələşdirildi.

Bu dövrdə milli rəssamlıq sənətinin inkişafına da xüsusi diqqət yetirilirdi. Karikaturaçı rəssam Əzim Əzimzadənin, rəssam Bəhruz Kəngərlinin əsərlərində dövrün problemləri ayna kimi əks etdirilir, cəhalət, nadanlıq, erməni cəlladlarının vəhşilikləri ifşa olunurdu.

Bütün bu sadalananlar Cümhuriyyət illərində ədəbiyyat, dil və mədəniyyət quruculuğu sahəsində atılmış addımların çox cüzi bir hissəsi, əslində dəryada bir damladır, lakin o dövrün mədəni mühiti barədə insanda dolğun təəssürat yaratmaq üçün yetərlidir. AXC-nin bir çox təşəbbüs və ideyaları 1920-ci ilin aprel işğalı nəticəsində yarımçıq qaldı, lakin buna baxmayaraq, qısa bir müddətdə gördüyü möhtəşəm işlərlə xalqımızın yaddaşına əbədi həkk

olundu.

Müstəqilliyini itirərək bu dəfə 70 il müddətinə sovet imperiyasının tərkibinə qatılan Azərbaycan mürəkkəb, ziddiyyətli hadisələrin bir-birini əvəzlədiyi o illərdə böyük məhrumiyyət və itkilərə, repressiyalara və soyqırıma məruz qalmasına baxmayaraq, yaşayıb-yaratdı, inkişaf etdi, böyük nailiyyətlər qazandı, iqtisadi, elmi və mədəni yüksəlişə nail oldu.

Məhz əsası Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qoyulmuş dövlətçilik ənənələrinin, mədəni, elmi, iqtisadi kadr potensialının mövcudluğu xalqımıza öz varlığını, mədəniyyətini, milli mənliyini qorumağa, SSRİ-nin tərkibində Rusiyanın çoxsaylı vilayətlərindən biri deyil, 15 respublikadan biri olmağa, onun süqutundan sonra isə yenidən dirçəlib Azərbaycan Respublikası kimi tarixin səhnəsinə çıxmağa imkan verdi.

## AZƏRBAYCAN XALQ CUMHURİYYƏTİ DÖVRÜNDƏ ORDU QURUCULUĞU

***Məhərrəmov S.Q.***

*Sumqayıt Dövlət Universiteti*

Məlum olduğu kimi, Çar Rusiyası dövründə azərbaycanlılar, ümumiyyətlə müsəlmanlar ordu sıralarına çağırılmırdılar. Lakin ayrı-ayrı azərbaycanlılar, əsasən, varlı sinfin nümayəndələri, bəy nəslindən olanlar, tək-tək hallarda isə xüsusi istedadlılar hərbi məktəbləri bitirib zabit kimi çar ordusunda xidmət edirdilər. Hətta onlardan general rütbəsinə də yüksələnlər olurdu. Ümummilli lider Heydər Əliyev bu gerçəkliyi nəzərə alaraq demişdir: "Çar Rusiyasının ordusunda azərbaycanlılar, müsəlmanlar xidmət etmədikləri halda, Azərbaycan oğulları rus ordusunun yüksək səviyyəli hərbi məktəblərini bitirib, döyüşlərdə böyük peşəkarlıq, qəhrəmanlıq nümunələri göstərib, general rütbəsi alıb, ordenlərlə təltif ediliblərsə, bunlar Azərbaycan xalqının oğullarının nəyə qadir olduqunu göstərir. Bunlar xalqımızın sovet dövründə unudulmuş səhifələridir, faktlarıdır. Biz bu gun tariximizi bərpa edərkən bunların hamısını öyrənməliyik və xalqımız bunu bilməlidir". Azərbaycan Xalq Cumhuriyyəti Nazirlər Şurasının 26 iyun 1918-ci il tarixi qərarı ilə "Müsəlman korpusu"nu "Əlahiddə Azərbaycan korpusu"adlandırmaq qərara alınmışdı. Təsadüfi deyil ki, Ümummilli lider Hedər Əliyevin imzaladığı "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" 22 may 1998-ci il tarixli fərmanına əsasən, Azərbaycan Xalq Cumhuriyyəti Nazirlər Şurasının 26 iyun 1918-ci il tarixli qərarı ilə "Əlahiddə Azərbaycan Korpusu"nun təşkil olunduğu əsas götürülərək hər ilin 26 iyununu Azərbaycan silahlı

qüvvələrinin yaranması günü kimi qeyd etmək qərara alınmışdır. Ulu Öndər Heydər Əliyev sonralar bu haqda demişdi: "Biz 26 iyun gününü bayram elan etmişik, bu tam əsaslıdır, Çünki 80 il bundan öncə məhz bu gun Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil Azərbaycanı qurub yaradan hələ Gəncədə fəaliyyət göstərən hökumətin ilk addımlarından biri Azərbaycan Milli Ordusunun yaranması haqqında verdiyi qərar olmuşdur. Həmin qərara, addıma hörmət əlaməti olaraq biz 26 iyun gününü "Azərbaycan Silahlı Qüvvələri odusu günü" elan etmişik". 15 sentyabr 1918-ci ildə çıxmış Azərbaycan qəzetinin ilk sayında hərbi xidmətə çağırışın müvəffəqiyyətlə aparılması haqqında məlumat dərc edilmişdi. S.S.Mehmandarov Azərbaycan ordusunun hissələrinə baxışının nəticəsi haqqında 5 dekabr 1918-ci ildə 8 nömrəli əmr imzalamışdı. Əmrdə göstərilirdi ki 27 noyabrdan 3 dekabra kimi Azərbaycanın hərbi hissələrinə baxış keçirilmiş və bir sıra hərbi hissələrdə nizam-intizamın pozulması, ərzağın çatmaması, ərzağın keyfiyyətsiz olması və s. ciddin nöqsanlar aşkar etmişdir. S.S.Mehmandarov aşkar olunmş çatışmazlıqların qısa müddətdə aradan qaldırılmasını vəzifəli şəxslərdən tələb etmişdir.

25 dekabr 1918-ci ildə S.S.Mehmandarov Milli Ordunun formalaşdırılması üçün Azərbaycan vətəndaşlarına müraciət edir. Bu müddətdə ölkəmizdə hakimiyyətdə olan bütün insanların qüvvəsi ölkədə anarxiyaya yol verilməməsinə, qanunsuzluqların aradan qaldırılmasına yönəlmişdir. Səməd bəy Mehmandarov əsgər və zabitlərin xalqımızın tarixini qəhrəmanlıq ənənələrini əks etdirən kitablarla təmin edilməsinə xüsusi fikir verir, bu kitabları oxumaq üçün onlara şərait yaradırdı. Səməd bəy Mehmandarov yazırdı: "Ziyalılarımızın ən mühüm vəzifələrindən biri xalqı öz tarixi ilə tanış etməkdir. Bu, şübhəsiz ki, xalqın milli hisslərini və türk irqinə məxsusluğu ilə iftixarını artıracaqdır". Bu ideya da dövlətin daxili siyasətini əhatə etdiyi bir mətləbin təzahürü idi: "Xalqla ordu yekdildir". Ardıcıl görülən tədbirlər şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksəldir, vətənpərvərlik tərbiyəsini möhkəmləndirir, döyüş qabiliyyətini və mübarizlik əzmini gücləndirir. S.S.Mehmandarov 25 dekabr 1918-ci ildə Azərbaycan Xalq Cumhuriyyətinin naziri vəzifəsinə təyin edilir və 3 yanvar 1919-cu il tarixli əmrlə elan edilir. Azərbaycan Xalq Cumhuriyyətinin Milli ordu rəhbərliyi hərbi-tibb qurumlarının müvafiq ixtisaslı kadrlarla təmin edilməsi işinə də böyük önəm verirdi. S.S.Mehmandarov Azərbaycan Xalq Cumhuriyyəti Ordusunun azərbaycanlaşdırılması üçün ardıcıl tədbirlər görürdü. Türkcə komanda verməyi öyrənməyən zabitlərin xidmətdən azad edilməsi tələb edilmişdi.

Şərqdə ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti 28 aprel 1920-

ci ildə bolşevik Rusiyası tərəfindən faktiki işğal edilmişdi. 1920-ci il aprelin 27-dən 28-nə keçən gecə parlament hakimiyyəti bolşeviklərdən ibarət Müvəqqəti İnqilab Komitəsinə təhvil vermişdi. Komitənin tərkibi onun qiyabi seçilmiş sədri N.Nərimanov, A.Alimov, D.Bunyadzadə, M.Hüseynov, Ə.Qarayev, Q.Musabəyov və H.Sultanovdan ibarət idi. Beləliklə 28 aprel 1920-ci ildə Azərbaycan Xalq Cumhuriyyəti süqut etmişdi. Ona görə də Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri S.S.Mehmandarov vəzifəsini sovet hakimiyyəti tərəfindən təyin edilmiş hərbi və dəniz işləri komissarı Çingiz İldırıma təhvil vermişdi. 70 illik kommunist rejimi süquta uğradıqdan sonra tarixi həqiqət öz yerini tutdu. Müstəqil dövlətimizin etibarlı müdafiə sistemi quruldu. Hazırda müstəqil Azərbaycan Respublikasının Milli Ordusu Azərbaycan Xalq Cümhuriyyəti dövründə təşkil olunmuş Milli Ordunun şanlı ənənələrini uğurla davam etdirir. Azərbaycan Demokratik Respublikasının təcrübəsi və günümüzün müasir reallığı təsdiq edir ki, güclü milli ordu ölkəmizin təhlükəsizliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün qarantıdır.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

***Məhərrəmova Ş.K.***
*Sumqayıt Dövlət Universiteti*

1918-ci ilin mayında Azərbaycanda Xalq Cümhuriyyətinin qurulması ölkəmizdə ictimai həyatda olduğu kimi, həm mədəni, həm də ədəbi həyatda böyük bir canlanmaya təkan verdi. 1918-1920-ci illərdə türkçülük, turançılıq ideyaları ilə köklənmiş Məhəmməd Hadi, Hüseyn Cavid, Abdulla Şaiq, Cəfər Cabbarlı, Əhməd Cavad, Ümgülsüm Sadıqzadə, Əli Yusif poeziya sahəsində uğurlar qazandılar.

Türkçülük, ideyaları ilə köklənmiş Abdulla Şaiq öz yaradıcılığında Xalq Cümhuriyyətinə bəslənən hörmət və ehtirama əsas mövzu kimi yer verir. “Yeni Ay doğarkən”, “Marş”, “Vətənin yanıq səsi”, “Arazdan Turana” adlı şeirlərində şairin azad, müstəqil dövlətə, Xalq Cümhuriyyətinə sevgisi geniş tərənnüm olunmuşdur.

Türkçülük, turançılıq ideyalarına gənc yaşlarından böyük rəğbəti olan Cəfər Cabbarlı Milli hökumətin yarandığı illərdə parlamentdə stenoqraf işləyirdi. Milli hərəkatın genişləndiyi ilk illərdə ədub “Trablis müharibəsi” və “Ədirnə fəthi” pyeslərini yazdı. Bu əsərlər Türkiyədə baş verən inqilabi-tarixi hadisələri, türk xalqının öz suverenliyi, ərazisini qoruyub saxlamaq uğrunda mübarizəsini əks etdirirdi. C.Cabbarlı həm dramaturgiya, həm

də lirikada yaradıcılığını davam etdirərək milli dövlətçiliyi, vətənin, torpağın gözəlliyini tərənnüm edən ”Azərbaycan bayrağına”, “Sevdiyim”, “Sevimli ölkəm”, “Salam” və s. şeirlərini yazır. Xalq Cümhuriyyətinin şirin dadını duyan, bu dövlətin məhəbbətini qəlbində yaşadan vətənpərvər şairin şeirlərində bayrağımız, türkçülük, turançılıq məfkurəsi ön planda verilir. Şairin “Azərbaycan bayrağına” şeiri şairin “azadlıq və istiqlal” sevgisini orijinal formada əks etdirən əsərlərdən” biri kimi yüksək qiymətləndirilir.

Xalq Cümhuriyyətinin köməyini, dövlətin qayğısını öz üzərində hiss edən, onun dəstəyi ilə xaricdə təhsil alan Əli Yusifin “Azərbaycanlıya”, “Bayraq”, “İdeal”, “Bir türk yanqısı deyir ki”, “Qarabağ xainlərinə” və s. şeirlərində xalq, millət, vətən sevgisini əks etdirmişdir. “Əli Yusifin şeirlərini səciyyələndirən başlıca keyfiyyət onların canlı hiss və təəssüratlardan qaynaqlanması, yüksək mübarizlik əhval-ruhiyyəsinin məhsulu olmasıdır. Bu cəhət bir tərəfdən şairin fitri poetik keyfiyyətlərinin göstəricisi kimi özünü büruzə verirsə, qarşı tərəfdən onun yazılarının Cümhuriyyət idealları ilə bağlılığından mayalanır”.

Repressiya zamanı həbsxanalara salınmış Umgülsüm Sadıqzadə “Əsgər anasına”, “Çəkil, dəf ol”, “Bir mayıs günündə”, “Yolunu bəklərdim” adlı şeirlərində azadlığını, müstəqilliyini əldə etmiş Azərbaycan xalqına, onun yenicə qurduğu azad, müstəqil, suveren dövlətinə məhəbbət, Vətənin sabahı üçün narahatlıq, xalqına çətin anda köməyə gələn, onu düşmən caynağından qurtarmağa çalışan Türk ordusunun arxa, dayaq olmasından ürəyində qürur hissi doğması, dili bir, qanı bir türk-Azərbaycan xalqının hiss və duyğuları, bu tarixi həqiqətlərin xalqın ruhunda, yaddaşında buraxdığı dərin izlər yaşayır. Onun şeirlərində eyni zamanda ölkədə Xalq Cümhuriyyətinin süquta uğraması, başımıza gətirilən müsibətlər, tarixi ədalətsizliklər öz əksini tapmışdır.

Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Hüseyn Cavid, Əli Şövqü, Davud Ağamirzadə və başqa sənətkarlarımız Xalq Cümhuriyyətinin yaşadığı dövrün ümumi mənzərəsini poeziyada verdiyi kimi, bu illərdə bədii nəsr yaradıcılığı ilə məşğul olan Cəlil Məmmədquluzadə, Əbdürrəhimbəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Abdulla Şaiq, Seyid Hüseyn, Tağı Şahbazi kimi tanınmış ədiblər də öz yaradıcılıqlarında ölkədə gedən milli-azadlıq hərəkatları, Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və süquta uğraması, Azərbaycan xalqına yaşadılan müsibətlər və s. əks etdirirdilər.

Son olaraq fikirlərimi M.Ə.Rəsulzadənin bu fikirləri ilə bitirmək istəyirəm: “Azadlıq və istiqlaliyyət əsas süngüləri ilə yox, ədəbiyyat və incəsənət vasitəsi ilə əldə olunur”.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ-ƏHƏMİYYƏTİ VƏ TƏBLİĞİ

***Məmmədov A.A.***
*Sumqayıt Dövlət Universiteti*

Xalqımızın milli dövlətçiliyə nail olmaq arzularının gerçək ifadəsi olan və ömrü cəmi 23 ay olan Azərbaycan Xalq Cümhuriyyəti ürəklərdə elə bir məşəl alovlandırdı ki, heç nə bu məşəli söndürə bilmədi. Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın tarixində ən şanlı səhifələrdən biridir. Dünyada yeni demokratik respublikaların yarandığı dövrdə Xalq Cümhuriyyəti,parçalanmış Azərbaycan torpağında xalqımızı ayağa qaldıraraq dünyanın ən demokratik dövlətini yaratdı. Bu gün dünyaya cəsarətlə bəyan edə bilərik ki, Azərbaycan Xalq Cümhuriyyəti o zaman üçün təkcə Şərqdə demokratik parlamentli respublika olaraq qalmayıb, eyni zamanda dünya tarixində ən demokratik respublika idi.

Keçən əsrin sonlarına doğru diktatura basqılarına tab gətirməkdən son dərəcə bezmiş xalqımızın istiqlaliyyət duyğuları məhz Azərbaycan Xalq Cümhuriyyəti ideyalarından ilhamlanaraq milli oyanışla müstəqil dövlətə sahib olmaq, bir millət kimi azad olmaq hərəkatında yenidən parlaq məqama yetişdi. Müstəqil dövlətimizin həyata keçirdiyi uzaqgörən siyasət nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik dəyərləri mühafizə edildi, ağır sınaqlardan qalibiyyətlə çıxıldı. Müstəqillik dövründə Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı Sovet dövründə ciddi ənənəyə çevrilmiş qadağalar aradan qalxdı. Dövlət rəmzləri bərpa edildi.

Ümummilli lider Heydər Əliyev qeyd edirdi: "Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycan dövlət müstəqilliyi günü- Respublika Günü elan etmişik və bu bizim milli bayramımızdır". Həmçinin müasir müstəqilliyimizin bərpasının 10-cu ildönümündə Ulu Öndər deyirdi: "Onlar öz cəsarətli fəaliyyətləri ilə Azərbaycanda ilk müstəqil dövlətin qurulması üçün güclü addım atdılar. Xalqımıza müstəqillik ənənələri qoyub getdilər". Tarixə ədalətli, milli hisslərlə yanaşma hər zaman dövlətçiliyimizin əsas meyarlarından olmuşdur. Bunun nəticəsidir ki zamanın siyasi axarının düzgün qiymətləndirilməsi, düşmənlərimizin zərərsizləşdirilməsi nəticəsində müstəqil dövlətimizin siyasi varisi olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi dönəminə elə müstəqil şəraitdə, müstəqil dövlət siyasəti ilə daxil olmağı bacara bilirik. Ulu öndər Heydər Əliyev yüksək düşüncə bacarığına malik olmaqla azərbaycançılıq

ideologiyasının inkişaf və təsir dairəsinə təssübkeşliklə yanaşmağı bacararaq bu ideologiya ilə xalqımızın vahid milli məqsəd ətrafında birləşməsinə nail oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci ilin "Xalq Cümhuriyyəti İli" elan olunması barədə imzalamış olduğu sərəncam istər ölkə daxilində, istərsə də ondan kənarda yaşayan soydaşlarımız tərəfindən yüksək qiymətləndirilmişdir. Xüsusilə gənc nəsil olaraq bizlər, dövlət başçısının məlum sərəncamını yüksək qiymətləndirərək, il ərzində Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı keçiriləcək tədbirlərin gənclərin Şərqin ilk demokratik respublikası barədə daha ətraflı məlumat əldə etməsinə,milli dəyərlərimizin daha da dərindən öyrənilməsinə və təbliğinə əhəmiyyətli töhvələr verəcəyini birmənalı olaraq qeyd edirik. Ölkə başçımızın Cümhuriyyətin yaranmasının 100 illiyi ilə əlaqədar olaraq mövcud ili Cümhuriyyət ili kimi elan etməsi faktı müstəqil Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi olaraq müasir dövlətçilik dəyərlərimizin təməlinə dövlət səviyyəsində olan ehtiramın təzahürüdür. Şübhəsiz ki, bu ehtiramın başlıca meyarı üçrəngli azadlıq bayrağının vüqarlı dalğalanması altında bir araya gələn Azərbaycan xalqının hərməyliyi, müstəqil dövlətə sahib olması, müstəqil dövlət siyasəti ilə dövlət müstəqiliyinin müdafiəsi və möhkəmləndirilməsidir. Şərqdə ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında meydana gəlməsi fədakar xalqımızın o dövrdə və o illər ərəfəsində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. Milli mənliyinə əhəmiyyətli şəkildə dəyər verən xalqımızın qabaqcıl milli aydınları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsi yaymış və Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında əhəmiyyətli rol oynadılar.

Azərbaycan Xalq Cümhuriyyəti qəlblərdə elə bir azadlıq məşəli alovlandırdı ki, 70 il ərzində məmləkətimizi əsarət altına almış totalitar kommunist rejimin repressiv cəza siyasəti belə bu məşəlin sönməsinə nail ola bilmədi

## AZƏRBAYCAN RESPUBLİKASINDA SU EHTİYATLARIN ÖYRƏNİLMƏ TARİXİ

***Məmmədov C.H.***

*Sumqayıt Dövlət Universiteti*

Əhalinin təbii artımı və cəmiyyətin inkişafı suya olan tələbatı daha da artırır. Buna münasib olaraq su obyektlərinin çirklənməsi və rejiminin pozulması halları da mütənasib

olaraq dəyişir.

Azərbaycanın ərazisinin böyük hissəsinin arid iqlim şəraitində yerləşməsi, xüsusilə kənd təsərrüfatının inkişaf etdirilməsi susuz mümkün deyildir. Belə ki, ilin isti dövründə dağətəyi və düzənlik ərazilərdə rütubətin azlığı və bitkilərin suya olan tələbatın ödənilməməsi məhsuldarlığın aşağı düşməsinə səbəb olur. Buna səbəb intensiv suvarma dövründə region çaylarında suyun azlığı, illik yağıntıların qeyri-bərabər paylanması və buxarlanma qabiliyyətinin yağıntılardan çox olmasıdır. İllik buxarlanma qabiliyyətinin düşən yağıntıdan çox olması, yağıntıların tamamilə axına çevrilməsinə imkan vermir. Bu da Respublikamızın kənd təsərrüfatının inkişafını ləngidir. Bu baxımdan Respublika ərazisində yerləşən çayların, göllərin, buzlaqların və su anbarlarının öyrənilməsini tələb edir. Respublikamızda su ehtiyatlarının öyrənilməsi onun inkişaf tarixi ilə sıx əlaqədar olmuşdur. Keçən əsrin əvvəlində çayların öyrənilməsi təsərrüfatın kollektivləşdirilməsi, ikinci dünya müharibəsi sonradan xalq təsərrüfatının bərpası vaxtına təsadüf etdiyi halda, ikinci yarısında xam torpaqlardan geniş istifadə, 1991-ci ildə keçmiş SSRİ-nin ləğv edilməsi və müstəqilliyin əvvəlində tənəzzül dövrü ilə əlaqədar olmuşdur. Müasir dövrdə qlobal iqlim dəyişmələri hesabına su ehtiyatlarının azalması ekoloji gərginliyi artırmışdır. Bu da təsərrüfat sahələrinin inkişafina böyük təsir göstərir.

Təhlil göstərir ki, keçmiş SSRİ-nin digər respublikalarında olduğu kimi, Respublikamızda da su ehtiyatlarının öyrənilməsi keçən əsrin əvvəlindən başlanmışdır. Su ehtiyatların öyrənilməsi suölçən məntəqələrin təşkili ilə əlaqədardır. XIX əsrin əvvəlində respublikamızda sənayenin zəif inkişafı su ehtiyatlarının da zəif öyrənilməsinə səbəb olmuşdur. Bu da stansionar suölçən məntəqələrin sayının az olması ilə izah olunur. Maye axımı üzərində ilk müşahidələr 14.01.1910-cu ildə Araz-Saatlı suölçən məntəqəsində aparılmasına baxmayaraq, onun fasiləsiz davamı 1927-ci ildən başlanmışdır. Çay gətirmələri üzərində ilk müşahidələr isə bir qədər gec 1913-cü ildə Araz-Qaradonlu məntəqəsi yaxınlığında aparılmışdır.

1925-1958-ci illərdə hidrometrik şəbəkədə suölçən məntəqələrin sayı artırılaraq 127-yə çatdırılmışdır. Stasionar müşahidə məntəqələrin sayının artmasına baxmayaraq, keçmiş SSRİ-nin süqutundan sonra onların sayı yenidən azaldılmışdır.

Əvvəlki dövrdə çayların öyrənilməsinə olan diqqət əsasən yaşayış məntəqələrinin və təsərrüfat sahələrinin suya olan tələbatı ilə əlaqədar olmuşdur. Xüsusilə, çayların su ehtiyatlarının müəyyən edilməsi keçən əsrin 40-cı illərindən etibarən təsərrüfat sahələrinin

artması ilə müəyyən olunur.

Ümumiyyətlə son illərə kimi Respublikamızda su ehtiyatların öyrənilməsini aşağıdakı mərhələlərə ayırmaq olar.

**İlkin mərhələ 1930-ci ilə** kimi olan dövrü əhatə edir. Dövrün əvvəlində Azərbaycan çayları haqqında ilk məlumatlar Herodot və Strabonun əsərlərində verilmişdir.

Azərbaycanda əkinçiliyin yayılması VI-VII əsrlərə təsadüf edir. Bununla əlaqədar Araz çayından Govur arx çəkilmişdir.

Bu dövr sonradan hidroqrafik səciyyəli elmi işlərin yerinə yetirilməsi ilə fərqlənir. Belə ki, 1814-cü ildə hərbi komandanlığın tapşırığı ilə Kür çayında gəmiçiliyin yaradılması ilə əlaqədar Kürün mənsəbindən Samuxa qədər batimetrik işlər aparılmışdır. Bu işlər 1847-ci ildə isə kapitan-leytenant Zelen, sonradan Sankovskinin rəhbərliyi ilə Mingəçevirə qədər davam edilmişdir. 1851-ci ildə Kürün gəmiçiliyə yararlı hissəsinin mükəmməl xəritəsini tərtib etmək üçün kəşfiyyat işləri təşkil edilmişdir.1857-ci ildə Dəniz Nazirliyi Qanıxdan Mingəçevirə qədər çöl tədqiqat işləri aparılmışdır.1860-cı ildə ingilis mühəndisləri Qabb və Belli Kür-Araz ovalığının, Qanıx-Həftəran vadisinin, Arazyanı düzənliyinin və Naxçıvan MR çaylarını öyrənmişlər.1860-1863-cü illərdə İ.İ.Petrovun rəhbərliyi ilə Kürün aşağı hissəsində tədqiqat işləri aparılır.1878-1880-cı illərdə M.P. Pisaryev tərəfinfən Əlicançay və Mil düzünün suvarma şəbəkəsi və Kürün aşağı axınını üçün hidroqrafik tədqiqatlar aparılmışdır. 1890-1900-cu illərdə daşqınlar və sellərlə mübarizə məqsədilə N.N.Pıltsov Mazımçaydan Girdimançayına qədər olan çayları tədqiq etmişdir. 1907-ci ildə Göyçayın suyunu Xanqobusuna axıtmaq və Yuxarı Şilyan kəndini daşqınlardan mühafizə etmək üçün Su İdarəsi hidroloji kəşfiyyat aparır. Həmin idarə 1910-1916-cı illərdə Arazdan başlayan kanalların çəkilməsi ilə də əlaqədar əsas çaylar üzərində hidrometrik məntəqələr təşkil edir. 1925-ci ildə Tərtərçayın enerjisini və suvarma ehtiyatlarını öyrənmək üçün təxmini hidroloji planaalma işləri aparılır. 1923 və 1926-cı illərdə Dövlət Elektrotexnika Tresti Tbilisidən Mingəçevirə qədər olan məsafədə Kürdən enerji almaq məqsədilə tədqiqat işləri aparır. 1926-cı ildə Qarasaqqal SES-in, 1926-1927-ci illərdə Tərtər SES-in layihələri tərtib edilir.1927-1930-cu illərdə Azərbaycan Su Təsərrüfatı İdarəsi Tərtərçaydan suvarma və enerji məqsədilə kompleks istifadə etmək üçün əlavə tədqiqat işləri aparılır.

**İkinci mərhələ isə 1931-1940-cı illəri təşkil edir.** Bu dövr təsərrüfatların kollektivləşdirilməsi və xam torpaqlardan kənd təsərrüfatında geniş istifadəsini əhatə edir. Su ehtiyatların öyrənilməsi hidroloji metodların istifadəsi ilə başlandı. Belə ki, 1930-cu ildə

Su Kanal Tresti şollar bulaqlarının rejimini öyrənir və Samur, Göyçay, Əyriçay,Vəlvələçay və s. çaylar üzərində stasionar müşahidələr təşkil edir. 1931-1932-ci illərdə Zaqafqaziya Hidrometeoroloji Komitəsi Türyənçay, Göyçay, Əyriçay və s. çay gətirmələrinin rejimini öyrənmək üçün müşahidələr aparır. 1932-ci ildə Zaqafqaziya Elmi-Tədqiqat Su Təsərrüfat İnstitutunun əməkdaşları İ.Q.Yesman, İ.İ.Roşen və M.S.Qoqoşidze Böyük Qafqazın cənub yamacı çaylarında sel hadisələrinin öyrənilməsi və onlara qarşı mübarizə tədbirləri müəyyənləşdirilməsi işinə başlayırlar. 1933-cü ildə Zaqafqaziya Energetika İdarəsi Şəmkirçay və Kişçayda işə başlayır. 1934-1936-cı illərdə keçmiş SSRİ-nin Su Yolları Komisarlığı Kürün gəmiçiliyə yararlı olması işləri aparır və **ilk Losman xəritəsini** tərtib edir. Bu dövr təsərrüfat sahələrinə edilən antropogen təsirinin artması ilə daha çox əlaqədar olmuşdur. Çaylarda su sərfi üçün sürətin ölçülməsində üzgənc ilə yanaşı fırlanğıcdan da istifadə etməyə başladılar. Bu dövrdə əsas çayların axım həcmləri ölçülməsinə və onların təhlili aparılmasına baxmayaraq, suyun hidrodinamiki qanunauyğunluqları müəyyən edilməmişdir.

**Üçüncü mərhələ 1941-1945-c**i illəri əhatə edir. Bu dövr ikinci dünya müharibəsi ərəfəsində çaylar üzərində aparılan tədqiqat işləri ilə digərlərdən fərqlənir. Müharibə ilə əlaqədar mütəxəsislərin səfərbərliyinə alınması arxa cəbhədə su ehtiyatların hər tərəfli öyrənilməsinin təxirə düşməsinə səbəb olmuşdur. Buna baxmayaraq, 1941-1945-ci illərdə bəzi rayon mərkəzlərini elektrik enerjisi ilə təmin etmək məqsədi ilə kiçik çaylar üzərində SES tikilmiş, kənd təsərrüfatı sahələrini suvarma suyu ilə təmin etmək məqsədi ilə arxlar çəkilmişdir. Bu dövrdə çayların hidrodinamiki qanunauyğunluqlarının öyrənilməsinə tələbat artmış və əldə edilən qanunauyğunluqlardan seldən və daşqından mühafizə məqsədi ilə bəndlərin inşasında istifadə edilmişdir. Xüsusilə, çayların sahilində yerləşən rayon mərkəzlərinin qarşısında selin və daşqının səmtini yönəldən kiçik ölçülərə malik beton bəndlərin tikintisi həmin qanunauyğunluqlara əsaslanmışdır. 1945-ci ildən başlayaraq respublika çaylarının və göllərinin mükəmməl hidroqrafiyasını öyrənmək məqsədi ilə tədqiqat işləri başlayır. Bu vaxtda Coğrafiya İnstitutu Talışın, Böyük Qafqazın cənub ( Şəki-Zaqatala) və şimal-şərq yamacların və Naxçıvan MR-nın çaylarına aid hidroqrafik tədqiqatlar aparılmışdır.

**Dördüncü mərhələ isə 1946-1970-ci illəri** əhatə edir. Bu dövr çayların su rejimini müəyyən edən elementlərin öyrənilməsi ilə Coğrafiya İnstitutunda apardığı tədqiqatlar arasında xüsusi yer tuturdu. Belə ki, 1946-1947-ci illərdə çayların orta illik axım və axım

əmsalı xəritələri tərtib edilmişdir [S.Q,Daidbəyov,S.H.Rüstəmov,1948]. Bununla yanaşı asılı gətirmələr axımı və suyun kimyəvi tərkibi S.H.Rüstəmov və K.İ.Kulikov tərəfindən öyrənilmişdir.

Xüsusilə "Azərbaycan SSR-in çayları və onların hidroloji xüsusiyyətləri" [S.H.Rüstəmov,1960],"Böyük Qafqazın gölləri və su anbarlarının hidroloji xüsusiyyətləri" [X.C.Zamanov,R.B.Tarverdiyev,1965], Kiçik Qafqazın gölləri və su anbarlarının su balansı [X.C.Zamanov,1969], Kiçik Qafqaz çaylarının su balansı [S.Q.Rüstəmov, B.S.Cəfərov, N.Q.Hacıbəyov,1969] və s. öyrənmiş və qiymətli əsərlər yazmışdır. Bu dövrdə su ehtiyatların öyrənilməsinin kütləvi hal alması meşə sahələrinin ləğv edilməsi ilə xam torpaqların artırılması hesabına əkin sahələrinin genişləndirilməsi ilə izah edilir.

**Beşinci mərhələ 1971-1990-cı illəri** əhatə edir. Bu dövr mükəmməl elmi-tədqiqat işlərinin yerinə yetirilməsi ilə əvvəlki dövrlərdən fərqlənir.

"Kürmükçay hövzəsinin çaylarında sel axınları" [S.H.Rüstəmov,A.A.Mədətzadə, B.A.Budaqov, B.T.Nəzirova,1971] bu dövrün mühüm elmi tədqiqatları sırasına aid etmək olar. Bu dövrdə sellərin mükəmməl öyrənilməsi Böyük Qafqazın cənub yamacından axan çaylardan keçən sellərin kütləvi hal alması ilə əlaqədar olmuşdur. Həmin ildən etibarən çayların sahilində selə qarşı tikilən hidrotexniki qurğular da kütləvi hal almışdır. Lakin sonrakı illərdə də selin hidrodinamiki xüsusiyyətləri hidrotexniki qurğuların tikintisində tam nəzərə alınmadığı üçün çayların üstündəki bəzi körpülər daşqın və sellər keçən zaman dağılmışdır.

Bu dövrdə "Azərbaycanın çayları, gölləri və su anbarları" [M.Həsənov, X.Zamanov, B.Cəfərov, N.Vəliyev,1973] "Azərbaycan SSR-in su balansı" [S.H.Rüstəmov,1978], "Azərbaycan SSR dağ çaylarının gətirmələr axımı" [S.A.Axundov,1978] və s. tədqiqatçılar öyrənilmiş və monoqrafiyalar nəşr edilmişdir.

Xüsusilə, ayrı-ayrı çaylarda sellərin sürəti, sərfləri, həcmləri, sel gətirmələrinin dənəvərliyi müəyyən edilmişdir və su sərflərinin ölçülməsində daha dəqiq cihazlardan istifadə edilmişdir.

**Altıncı mərhələ 1991-1993-ci illər ərzindəki dövrdən ibarətdir**. Bu dövrü tənəzzül dövrü kimi qiymətləndirmək olar. BMT-nin 1990-2000-ci illəri təbii fəlakətlərlə mübarizə onilliyi elan etməsinə baxmayaraq, 1991-ci ildə keçmiş SSRİ-nin süqutu ilə əlaqədar olaraq Respublikamızda da 1992-ci ilə kimi elmi tədqiqat işləri tənəzzül dövrü keçirmişdir. Bu dövrdə yerinə yetirilən elmi-tədqiqat işləri arxiv və ədəbiyyat mənbələri əsasında

aparılmışıdır. Bu da stasionar müşahidələrin tədqiqinə ayrılan vəsaitin azlığı ilə izah olunur.

**Sonuncu mərhələ 1993-cü ildən etibarən olan müasir dövr.** Bu dövrün əvvəli bazar iqtisadiyyatına keçidlə əlaqədar olduğu üçün tədqiqatçılar əsasən arxiv və fond məlumatlarından istifadə etmişlər. Sonradan yerinə yetirilən tədqiqatların həcmi və keyfiyyəti artmışdır. Bu da Azərbaycan Respublikasının yeni iqtisadi siyasəti və inkişaf persdpektivləri ilə əlaqədardır.

Belə ki, "Dağ çaylarında maksimal su sərflərinin hesablanmaı"(Qafqaz çayları timsalında) [M.A.Məmmədov,1989], "Kiş və Şin çayları hövzələrinin selləri" [Ə.C.Əyyubov, V.Ə.Quluzadə, H.L.Nəbiyev, C.H.Məmmədov,1998], "Göllərin morfometriyası və su balansı" [ V.A.Məmmədov,1998], "Cənubi Qafqaz çaylarının su rejimi və su ehtiyatlarının müasir dəyişmələri (Xəzər hövzəsi daxilində)" [ H.Y.Fətullayev 2002]. "Azərbaycanda hidrometeoroloji şərait və təhlükəli hidrometeoroloji hadisələr" [S.Şirəliyev, R.Mahmudov,2008] tərəfindən su ehtiyatlarını səciyyələndirən mühüm monoqrafiyalar nəşr edilmişdir. Son illərdə C.H.Məmmədovun sellərə aid [2005,2010, 2013, 2014, 2017 və s.], M.A.Abduyevin dağ çaylarının ion axınına dair [2010,2011,2014 və s.] və M.Ə.Teymurovun su ehtiyatları və su balansına dair [2015-2017] yerinə yetirdiyi tədqiqat işləri də müasirliyi ilə əvvəlki işlərdən daha çox fərqlənir.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ

***Məmmədov Z.İ., Şahbazov V.B.***

*Lənkəran Dövlət Universiteti*

1918-ci il may ayının 28-də Azərbaycan xalqı öz müstəqilliyini elan etdi. Dünya tarixinin ən demokratik dövlət qurumlarından biri, Şərqdə ilk parlamentli respublikanın paytaxtı əvvəlcə Gəncə (1918, 28 may - 6 sentyabr), daha sonra isə Bakı (1918, 17 sentyabr – 1920, 28 aprel) elan olundu. AXC qurulduqdan sonra ölkədə İslama qarşı ayrı-seçkiliyə son qoyulmuş, dini dəyərlər milli ideologiyanın tərkib hissəsi kimi qəbul edilmiş və dövlət bayrağında rəmzləşdirilmişdir. Birbaşa siyasi arenada yer almayan din xadimlərinin də dövlət quruculuğunda xüsusi rolu olmuşdur. 1918-ci il may ayının 28-də Azərbaycan Milli Şurası Azərbaycanın İstiqlal Bəyannaməsini elan etmişdir. Tiflisdə Fətəli xan Xoyskinin başçılığı ilə təşkil olunmuş Milli Hökumət Cənubi Qafqaz Ruhani İdarəsinin Azərbaycana köçürülməsini məqsədəuyğun görmüşdür. Xalq maarifi və dini etiqad naziri Nəsib bəy

Yusifbəylinin şeyxülislama və müftiyə ünvanlanmış rəyinə əsasən, keçmiş ruhani idarələri AXC-nin müvəqqəti paytaxtı Gəncə şəhərinə köçürülmüşdür (sözügedən rəyin F.Xoyski tərəfindən göndərildiyi də deyilir).Sonrakı mərhələdə Gəncədə vahid dini idarənin yaradılması məsələsi gündəliyə çıxarılmışdır. Əsrin əvvəllərində böyük dini təyinatlı obyektlərin əksəriyyəti xalqın məşvərət yerini, din xadimləri isə milli oyanışa dəstək verən zümrəni təmsil etmişlər. Təzəpir məscidi və İsmailiyyə binası bu qəbildən olan mərkəzlərdən hesab edilirdi. Burada nəinki xalq məşvərətləri keçirilir, eyni zamanda vətəndaşların və ölkənin taleyi ilə bağlı məsələlər barədə dövlət xadimləri və ziyalıların müraciətləri də səsləndirilirdi. Bu baxımdan analoji binalar düşmən qüvvələrinin daim diqqət mərkəzində olmuşlar. Təsadüfi deyil ki, 1918-ci ilin əvvəllərində "İsmailiyyə" binasında yerləşən "Müsəlman Xeyriyyə Cəmiyyəti" azərbaycanlı əhalidən milli ordu təşkil etmək üçün məhz Təzəpir məscidinin din xadimlərindən kömək istəmişdi. 1918-ci ilin Mart soyqırımınadək Lənkəran, Bakı və Gəncədə hazırlanan milli ordunun əsgərlərinə ilk xeyir-dua Təzəpir məscidində verilmiş və onlar Quranın altından keçiriləndən sonra hərbi hissələrə yola salınmışdılar. Çox zaman məqsədli şəkildə cümə günlərinə salınan bu cür mərasimləri əhali böyük ruh yüksəkliyi ilə qarşılayardı. Bakı Soveti isə Təzəpir məscidini qızışdırıcı təbliğat aparmaqda günahlandırırdı. 1918-ci il mart ayının 29-da Lənkərana geri qayıtmağa hazırlaşan "Evelina" gəmisinin müsəlman əsgərlərinin həbs olunaraq tərksilah edilməsindən sonra martın 30-da on minlərlə Bakı sakini Təzəpir məscidinə toplaşaraq müsəlmanlara məxsus silahların qaytarılmasını tələb etmiş, din xadimləri də əhalinin bu tələbinin müdafiəsinə qalxmışdılar. Erməni Milli Şurası, "Daşnaksütyün" rəhbərliyi və Bakı Soveti Azərbaycan xalqının birliyinin təmin olunmasında Təzəpir məscidinin oynadığı rolu yaxşı bilirdilər. Bu səbəbdən də martın 31-də müsəlman əhaliyə qarşı soyqırımına başlayan daşnak-bolşevik birləşmələri "İsmailiyyə" binasını, "Kaspi" qəzetinin redaksiyasını və mətbəəsini, orada Qurani-Kərimin yenicə çap olunmuş 5 min nüsxəsini yandırıb, külə döndərmişdilər. Türk-müsəlman əhaliyə qarşı soyqırımına əvvəldən hazırlıq görən erməni-daşnak qüvvələri şəhərdə şayiə yaymışdılar ki, guya din xadimlərinin fətvası ilə müsəlmanlar rus millətindən olanları qırır.. Ermənilər rus matroslarını Təzəpir məscidini top atəşinə tutmağa çağırırdılar. Nəticədə matrosların atdığı top mərmiləri məscidə xeyli ziyan vurur. Matroslar yalnız şəhərdə ruslara qarşı heç bir qırğının törədilmədiyini yəqin etdikdən sonra top atəşini dayandırırlar. 1918-ci ilin mart qırğınları və ondan sonrakı günlərdə soyqırımına məruz qalmış on minlərlə müsəlmanın dəfn mərasiminin təşkilinə,

müsəlmanların müəyyən mənada təşkilatlanmasına və müxtəlif qabaqlayıcı tədbirlərin görülməsinə Təzəpir və başqa məscidlər başçılıq etmişlər. 1918-ci il aprel ayının 25-də Bakıda təşkil edilmiş Xalq Komissarları Soveti şəhərin dini qurumlarına, o cümlədən Təzəpir və Əjdər bəy (Göy məscid) məscidlərinə nəzarət edilməsi haqqında dekret imzalasa da, dindar əhali qadağalara baxmayaraq, dini mərasimlərin yerinə yetirilməsinə fasilə verməmişdir. 1918-ci ildə Qafqaz İslam Ordusunun Bakıya girməsinin qarşısını almaq məqsədilə Bakı Soveti rəhbərliyi məzhəb fərqini şişirdərək Osmanlı əsgərlərinin şəhərə daxil olmasını bağışlanmaz günah kimi qələmə vermək istəmişlər. Ancaq onların bu cəhdləri baş tutmamışdır.

AXC Milli Şurasının İstiqlal Bəyannaməsində ölkə vətəndaşlarının hüquqlarının təmin edilməsinə yönəldilmiş qərar və tədbirlər, əhalinin vicdan azadlığı məsələləri xüsusi yer tutmuşdur. AXC dövrünün önəmli hadisələrindən biri də, sünni və şiə ruhani idarələrini birləşdirərək, onların mərkəzini əvvəl Gəncədə, daha sonra isə Bakıda yaratması hesab edilə bilər. Bu idarənin təcrübəsi sonralar, Zaqafqaziya Müsəlmanları İdarəsi tərəfindən də geniş istifadə olunmuşdur. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin uğurları və faciələri, tarixi dərsləri, etiqad azadlığı sahəsində təcrübəsi günümüz üçün çox aktualdır.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ TƏHSİLİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

***Məmmədova A.T., Kərimova S.A.***

*Sumqayıt Dövlət Universiteti*

XX əsrin əvvəllərində Rusiyada yaranan ictiami-siyasi şərait Azərbaycanada güclü təsir göstərdi. Baş verən ictimai-siyasi hadisələr, xalqın azadlıq mübarizəsi, maarif müəssisələrinin, məktəblərin genişləndirilməsi, təhsilin ana dilində, pulsuz və ümumi olması tələblərini irəli sürməyə şərait yaradıldı. 1900-cu ilə olan məlumatlara görə, Azərbaycanda cəmi 172 ibtidai məktəb fəaliyyət göstərirdi. 1903-cü ildə dövlət vəsaiti hesabına Lənkaran və Quba şəhərlərində şəhər məktəbləri açıldı. Bu məktəblərdə təhsil alan 168 şagirdlərdən 95-i azərbaycanlı idi. Həmin dövrdə Bakı və Yelizavetpol (Gəncə) quberniyalarında ibtidai təhsil verən məktəblərlə bərabər sənət məktəbləri də fəaliyyət göstərirdi. 1914-cu ildə Azərbaycanda fəaliyyət göstərən 942 məktəbdən 920-i ibtidai məktəb idi. Burada da təhsil alan 62786 şagirddən 22161-i azərbaycanlı idi. 1914-1915-ci tədris ilində Azərbaycanda 21 ali ibtidai məktəb də fəaliyyət göstərirdi. Ali ibtidai məktəbdə təhsil müddəti 4 il idi.

Uşaqlar bura 3-4 illik ibtidai məktəbi bitirdikdən sonra daxil olurdular.

XX əsrin əvvəllərində təlimin rus dilində aparıldığı və Azərbaycan dilinin ayrıca bir fənn kimi keçirdiyini rus-azərbaycan məktəblərin sayı ildən-ilə artmağa başladı. 1917-ci ildə Azərbaycanda belə məktəblərin sayı 16 idi. XX əsrin əvvəllərində Azərbaycanda ibtidai təhsilin inkişafında maarifçilik-xeyriyyəçilik istiqamətində fəaliyyət göstərən "Nicat", "Nəşri maarif", "Səadət" və "Səfa" cəmiyyətləri xüsusilə fərqlənirdi.

XX əsrin əvvəllərində çar Rusiyasında və milli ucqarlarda ibtidai və orta məktəblər üçün nizamnamələr tez-tez dəyişsə də ruslaşdırma və xristianlaşdırma siyasətinin mahiyyəti dəyişmədi. Zaman-zaman öz azadlığı və istiqlaliyyəti uğrunda şəhidlər verən Azərbaycan 1918-ci ilin 28 mayında öz arzusuna qovuşdu, Azərbaycan milli dövlətçilik tarixində öz möhürünü vurmuş Azərbaycan Xalq Cümhuriyyətini yaratdı. Şərqdə ilk demokratik dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlət siyasətinin təməl prinsiplərindən biri kimi xalq maarifinin prinsiplərindən biri kimi xalq maarifinin elm və mədəniyyətin inkişafını ön plana çəkdi, təhsil sahəsində köklü islahatlara və təhsil quruculuğuna başladı.

Bu məqsədlə Azərbaycan hökümətinin qərarına əsasən 1918-ci ilin 30 iyununda Xalq Maarifi və Dini Etiqad Nazirliyi yaradıldı və ilk xalq maarif naziri Nəsib bəy Yusifbəyli təyin edildi. 1918-ci il 2 avqust tarixində təsdiq olunmuş əsasnaməyə əsasən Azərbaycan Xalq Cümhuriyyəti təhsil siyasətinin əsas istiqamətlərindən olan təhsil müəssisələrinin milliləşdirilməsi məsələsini ön plana çəkdi, ümumi icbari təhsil layihələri hazırladı, kəndlərdə, şəhərlərdə yeni məktəbləri açmağa qərar verdi. 1919- cu ilin əvvəllərində Respublika ərazisində 23 dövlət orta, orta ixtisas, təhsil müəssisəsi vardır ki, onlardan 6-sı kişi, 4–ü qadın gimnaziyası, 5-i real məktəb, 3 –ü müəllimlər seminariyası, 3-ü "Müqəddəs Nina" qız məktəbi, 1 –i politexnik və 1-i kommersiya məktəbi idi.

Azərbaycna Xalq Cümhuriyyəti dövründə 1914-cü ildə yaradılmış Gəncə Müəllimlər Seminariyası da milliləşdirildi. İbtidai məktəblərin müəllimlərə olan ehtiyacını təmin etmək məqsədilə Gəncədə, Nuxada, Şuşada 200 nəfər müəllim hazırlayan kurslar açıldı (Azərbaycan qəzeti, 11 noyabr 1918-ci il, № 36). İbtidai siniflərin müəllimlərə olan ehtiyacını təmin etmək məqsədilə Bakıda, Qazaxda, Qusarda, Salyanda və Zaqatalada da qısamüddətli kurslar açıldı ki, onların da hər birində 50 nəfər dinləyici təhsil alırdı. Dövlət səviyyəli tədbirlərin nəticəsi idi ki, bütün orta təhsil müəsssisələrində təhsil alan Azərbaycanlı oğlan və qızların sayı sürətlə artdı. Əgər 1914 -1915–ci tədris ilində orta ümumtəhsil məktəblərində 9643 şagirddən yalnız 1137-i azərbaycanlı idisə, 1919-1920-ci

tədris ilində oxuyan 9611 şagirdin 3395 –i azərbaycanlı idi.

Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi iki il ərzində bütün çətinliklərə və məhrumiyyətlərə baxmayaraq, xalq maarifinin yenidən təşkili sahəsində xeyli iş görüldü. Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti Bakı Dövlət Universiteti, Kənd Təsərrüfatı İnstitutu, Pedaqoji İnstitut və Dövlət Konservatoriyasının açılması üçün müəyyən təşkilatı işlər aparsa da, o dövrdə yaranmış tarixi-siyasi şərait yalnız Bakı Dövlət Universitetinin (1919-cu il) təsis etməyə imkan verdi.

Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti millətin ərazi bütövlüyünün qorunması ilə yanaşı xalq maarifinin inkişafı sahəsində təqdirəlayiq işlər gördü və xeyli qanunlar qəbul etdi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin bolşeviklər tərəfindən işğalı milli təhsil quruculuğu sahəsində nəzərdə tutulan əsas islahatların davam etdiriməsinə imkan vermədi. Azərbaycan Sovet hakimiyyəti qurulduqdan sonra xalq maarifi sisteminin yeni prinsiplər əsasında təşkili ilə təhsil tarixində yeni dövr başlandı.

## MÜASİR AZƏRBAYCAN XALQ CUMHURİYYƏTİNİN VARİSİDİR

***Mərdanov İ.İ.***

*Sumqayıt Dövlət Universiteti*

Müstəqil yaşamaq, taleyinin sahibi olmaq, öz dövlətini qurmaq hər bir xalqın arzusudur. Azərbaycan xalqı da həmişə bu istəklə yaşamışdır. Tarixdə zaman-zaman müxtəlif adlar altında müstəqil Azərbaycan dövlətləri mövcud olmuşdur. Buna misal kimi müxtəlif dövrlərdə tarixi Azərbaycan torpaqlarında yaradılmış Şirvanşahlar, Eldəgizlər, Ağqoyunlu, Qaraqoyunlu, Səfəvilər dövlətlərinin adını çəkə bilərik. Şah İsmayıl Xətainin dövründə Səfəvilər dövləti bütün Azərbaycan torpaqlarını birləşdirirdi və Azərbaycan dili dövlət dili səviyyəsinə yüksəldilmişdi. Xalqımız ötən yüzillikdə iki dəfə dövlət müstəqilliyi qazanmışdı. 1918-ci ildə Azərbaycanda bütün islam dünyasında ilk demokratik respublika qurulmuşdur. Lakin bu respubilikanın ömrü qısa oldu. Belə ki, xarici müdaxilə, daxili çəkişmələr və digər amillər üzündən Azərbaycan Demokratik Cümhuriyyəti 23 aydan sonra süqut etdi. Ötən əsrin son onilliyinədək davam edən sovet hakimiyyəti illərində xalqımız dövlət müstəqilliyindən məhrum qalsa da, respubilikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmiş və müstəqillik üçün lazımı əsaslar yaratmışdır. Ötən əsrin sonlarında xalqımıza yenidən dövlət müstəqilliyinə qovuşmaq səadəti nəsib oldu. Sovet İttifaqı dağıldıqdan sonra 1991-ci il oktyabrın 18-də respublikanın qanunvericilik orqanı

olan parlament Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul etdi və bununla da respublikamızın müstəqilliyi bərpa olundu. Həmin vaxtdan etibarən xalqımız azad yaşayır, öz milli dövlətini möhkəmlədərək inkişaf etdirir. Qısa müddətdə müstəqil Azərbaycan siyasi, sosial-iqtisadi, mədəni sahələrdə böyük nailiyyətlər qazanmışdır. Respubilikamızda dövlət müstəqilliyinin bütün atributları bərqərar edilmişdir. Dövlət gerbi, himn, üçrəngli bayraq müstəqil dövlətimizin rəmzləridir. 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olunub. Respubilikamızda dövlət quruculuğunun əsasları bu Konstitusiya ilə təsbit olunub. Konstitusiyamıza əsasən, Azərbaycan demokratik, hüquqi, dünyəvi bir dövlətdir və ölkədə hakimiyyətin yeganə mənbəyi xalqdır. Respubilikamızda həyat dəyişir, insanların rifah halı yaxşılaşır, yeni-yeni sosial layihələr həyata keçirilir, paytaxtda, bölgələrdə genişmiqyaslı tikinti-abadlıq işləri aparılır.Yeni tikilən göydələnlər, nəhəng körpülər, rahat yollar müstəqil Azərbaycanın getdikcə artan iqtisadi qüdrətindən xəbər verir. Azərbaycanın dövlət müstəqilliyi xalqımızın tarixi nailiyyətidir. Müstəqil dövlətimizin qədrini bilmək, onu qorumaq, inkişafına əlimizdən gələn köməyi göstərmək hər birimizin müqəddəs borcudur.

Hal-hazırda dövlətimiz Xalq Cumhuriyyətinin dünyaya açıq olmaq, fəal beynəlxalq münasibətlər sistemini inkişaf etdirmək ənənələrini davam etdirir. Bunu bütün sahələrə aid etmək olar.

Təhsil sahəsində əldə olunmuş nailiyyətlərin tətbiqi fəal surətdə həyata keçirilir. Müasir təhsil texnologiyalarının tətbiqi gələcəkdə Azərbaycan təhsilinin beynəlxalq sistemə inteqrasiyasının, gənc mütəxəssislərin öz bilik və bacarıqlarının dünyanın istənilən nöqtəsində tətbiqinin əsas şərti kimi nəzərdən keçirilə bilər. Bu sahədə həyata keçirilmiş işlər Azərbaycan təhsilinin ən böyük uğurlarından, Xalq Cümhuriyyətinin əsas məqsədlərinin yerinə yetirilməsindən xəbər verir.

Bu gün Azərbaycanda nəhəng enerji layihələri yerinə yetirilməkdədir. Xəzər dənizinin Azərbaycana aid olan hissəsində neft və qaz layihələri uğurla həyata keçirilir. Azərbaycan Xəzər dənizinin nəhəng enerji potensialını ilk mənimsəyən və regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, Qafqaz nəqliyyat dəhlizinin inkişafında, nəhəng layihələrin gerçəkləşməsində Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan bir dövlətə çevrilmişdir.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə və onun ağır nəticələrinə

(Ermənistan Dağlıq Qarabağ və onun inzibati sərhədlərindən kənarda yerləşən 7 rayonu işğal edib. Ölkənin 9,75 milyonluq əhalisinin 1,4 milyonu qaçqın-köçkündür) baxmayaraq, ölkəmiz bütün potensialını səfərbər edərək demokratik inkişaf yolunda böyük uğurlar əldə etməkdədir. Azərbaycan mürəkkəb və sərt maneələri dəf edərək demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu və vətəndaş cəmiyyəti formalaşması istiqamətində mühüm və qətiyyətli addımlarını atmaqda davam edir.

Dövlətimiz beynəlxalq təşkilatların işində fəal iştirak edir. Bu sahədə Azərbaycan artıq Xalq Cumhuriyyətinin nail olmadığı bir sıra uğurlara imza atmışdır. Hazırda Azərbaycan Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), Avropa Şurası (AŞ), Müstəqil Dövlətlər Birliyi (MDB), GUAM, İslam Konfransı Təşkilatı (İKT), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QİƏT), İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) kimi beynəlxalq təşkilatların üzvü olmaqla bərabər, Avropa Birliyi, NATO, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər təşkilatlarla da fəal əməkdaşlıq edir, yeni-yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulur. Bu Xalq Cumhuriyyətinin varisi olan respublikamızın dünya siyasi arenasına fəal surətdə qatılmasından, dünya dövlətləri arasında mövqelərinin güclənməsindən və müstəqilliyinin möhkəm bünövrəyə söykənməsindən xəbər verir.

## İRAN FÖVQƏLADƏ HEYƏTİNİN SƏNƏDLƏRİNDƏ AZƏRBAYCAN CÜMHURİYYƏTİNƏ MÜNASİBƏT HAQQINDA

***Mədətli E.Y.***
*AMEA, Fəlsəfə İnstitutunun*

1919-cu ilin noyabrın 26-dan 1920-ci il aprelin sonlarınadək Bakıda uzunmüddətli ezamiyyədə olan İranın Qafqaz Fövqəladə Heyətinin göndərdiyi məktublardan və onların öz hökumətlərindən aldığı təlimatlardan məlum olur ki, İran dövlətinin Azərbaycan Xalq Cümhuriyyətindən (AXC) ərazi iddiası var idi. İranın Baş naziri Heyətin rəhbəri Seyid Ziyaəddin Təbatəbaiyə göndərdiyi 1919-cu il 13 dekabr tarixli, 6355 №-li məktubunda yazırdı: «İran dövlətinin ərazi iddiası barədə, teleqram vasitəsilə sizə xatırlatdığım kimi, hazırda İran xarici işlər naziri ilə Lord Kerzon arasında bu barədə danışıqlar gedir, həmin müzakirələrdən qəti nəticə əldə edilməyincə, İran dövləti xahişlərinin irəliləməsi barədə İngiltərə dövlətinin nə dərəcədə bizə köməklik edəcəyi məlum olmayınca, məsləhət budur ki, bu mövzu barədə yerli-dibli söhbət ortaya gəlməsin. Xarici işlər naziri və İran dövlətinin

cavabları barədə teleqramın üzünü sizə göndərdim. İran dövlətinin ərazi iddiası barədə bir nüsxə də Xarici işlər nazirinə göndərilibdir. Sizə də qoşmada göndərilir». Sonra Baş nazir təlimatına davam edərək yazır: «Əlavə olaraq bir məsələni də qeyd edirəm ki, Azərbaycan Ədliyyə naziri iddia edir ki, Azərbaycan Rusiyanın vərəsəsidir və ona aid olan vərəsəlik hüququndan istifadə etməlidir. Onun bu mövqeyi o qədər nəzakətdən kənardır ki, hətta məntiqi dəlillər də yoxdur. Çünki, əgər onu Rusiyanın vərəsəsi hesab etsək, indi Azərbaycan hökumətini təşkil edən ərazi İranın tam mülkü olubdur və zorla İrandan ayırmışlar. İran varislik məsələsində hər kəsdən daha artıq haqlıdır.

Bu da İran şahlıq rejiminin Azərbaycan Xalq Cümhuriyyətinə olan mənfi münasibətindən irəli gəlirdi. Buna görə də, İran dövləti bir tərəfdən Azərbaycan Cümhuriyyətini tanımağa məcbur olub, onunla dostluq, ticarət, gömrük, poçt-teleqraf-tranzit barədə müqavilənamələr imzalayır, digər tərəfdən Şərq ölkələrində ilk dəfə müstəqil və demokratik hökumətdən ərazi iddiasında olmaqla yanaşı, bu dövlətin möhkəmlənməsinin əleyhinə idi, hətta onun süquta uğramasının tərəfdarı idi. Bundan əlavə S.Ziyaəddin iddia edirdi ki, AXC hökuməti, guya «Osmanlı türklərinin nüfuzu, təsiri altında işləyir».

Hələ 1920-ci il yanvar ayının 5-də İranın Baş naziri, S.Ziyaəddinə göndərdiyi məktubunda yazırdı: «Qafqazın indiki vəziyyəti elədir ki, qəti uzaqgörənlik etmək olmaz və İran dövlətinin siyasi mövqeyi üçün sabit yol nəzərdə tutmaq olmaz. Hər gün baş verən yeni hadisələr nəzərlərin, baxışın dəyişməsinə səbəb olur... Hər bir baş verən hadisəni nəzərdən qaçırmaq olmaz».

1920-ci il martın 20-də AXC dövləti ilə İran Şahənşahlıq dövləti arasında imzalanmış Dostluq müqaviləsi əsasında İran dövləti AXC-ni «de-yure» deyil, «de-fakto» kimi tanıyırdı. Düzdür, həmin müqavilənin I maddəsində deyilirdi ki, İran Şahənşahlıq dövləti rəsmən elan edir ki, (Qafqaz) Azərbaycan Respublikasının istiqlaliyyətini tanıyır. Həmin müqavilə haqqında S.Ziyaəddinin İranın Baş nazirinə göndərdiyi 315 №-li, 20 mart 1920-ci il tarixli məktubunda deyilirdi: «Dostluq müqavilənaməsinin I maddəsi İran dövlətinin razılığı ilə Azərbaycanın müstəqilliyini tanımağa aiddir. Böyük dövlətlər Azərbaycanın müstəqilliyini əməli surətdə tanıdıqdan sonra İran dövləti də bir neçə müddət bundan qabaq tanımışdır. Məktubda vurğulanırdı ki, «de-fakto» kəlməsi hökumət və Azərbaycan əhalisinin soyuqluğuna və pis əks təsirinə səbəb olurdu. Xüsusilə, elə bir halda ki, böyük dövlətlərdən İtaliya Azərbaycanın müstəqilliyini tanımışdır. İran isə qonşu, dost və müştərək mənafeyi olduğu halda, əgər «de-fakto» kəlməsini müqavilənamədə yerləşdirsəydi, bu yaxşı

görünməyəcəkdi. İkinci tərəfdən, İranın həyati mənafeyi bunu tələb edir və düzü də budur ki, Azərbaycanın istiqlaliyyəti tanınsın. Əgər İran dövlətinin laqeydliyi nəticəsində başqaları meydan tapırsa və İran üçün əlverişli olmayan vəziyyət formalaşırsa da, bu hal müvəqqətidir. İranla Qafqaz Azərbaycanını nəzərə çarpacaq dərəcədə məhəbbət və əlaqə birləşdirir... Leninin Rusiya ilə İran arasındakı müqavilənamələrinin, o cümlədən Türkmançay müqaviləsinin ləğv edilməsi barədə verdiyi bəyannamələrə əsasən Rusiyanın İrandan zorla işğal etdiyi ərazi indi İrana aid olur. Mən belə bir fikirdəyəm ki, İran dövlətinin haqqı vardır ki, əmələn (de-fakto –E.M.) Azərbaycanın müstəqilliyini tanısın».

Həmin sənəddən və Dostluq müqaviləsinin I maddəsindən də aydın olur ki, İranın Şahənşahlıq dövləti 1920-ci il martın 20-də ÄXC-nin müstəqilliyini «de-yure» yox, «de-fakto» tanımaqla kifayətlənmişdir.

Beləliklə, İran dövləti Qafqazda yeni yaranmış respublikaların, xüsusilə AXC-nin uzun müddət müstəqil dövlət kimi davam edəcəyinə şübhə ilə baxırdı və buna görə sona qədər də AXC-ni «de-yure» tanımadı. İran XİN-nin Rusiya idarəsinin rəisi Möhtəsəm-əs-səltənə Qafqaza göndərilən İran nümayəndə heyəti ilə əlaqədar 1919-cu il dekabrın 20-də Rusiyanın İrandakı Müvəqqəti İşlər vəkili ilə görüşü barədə məlumatında yazırdı: «Biz dedik ki, adı çəkilən nümayəndə heyətinin Bakıya göndərilməsi İranla Rusiya arasındakı dostluğun əleyhinə deyildir. Yalnız və yalnız ticarət məsələlərini qaydaya salmaq və İran təbəələri və tacirlərinin mənafelərini qorumaq üçündür. Və İran dövləti Qafqazda təsis edilmiş dövlətləri «de-yure» tanımır. Cənab müvəqqəti İşlər vəkili xeyli təşəkkürdən sonra bəyan etdi ki, ümidvaram ki, İranın yüksək rütbəli, dövlət adamları yenicə təsis edilmiş dövlətlərin nümayəndələri Tehrana varid olarkən onları rəsmiyyətlə tanımayıb qarşılamasınlar və onlarla ticarət nümayəndələri kimi rəftar etsinlər» .

Fövqəladə Heyətin başçısı S.Ziyaəddinin 1920-ci il aprelin 18-də, yəni Qırmızı Ordunun Bakıya daxil olmasından on gün qabaq Bakını tərk etməsi də İran tərəfinin Azərbaycan Cümhuriyyətinin gələcəyinə əmin olmaması ilə əlaqəli ola bilərdi.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ SƏHİYYƏ

***Məsimova S.S.***

*Sumqayıt Dövlət Universiteti*

Hər bir dövlətin varlığının təsdiqində onun vətəndaşlarının sağlıq durumunun qorunması vacibdir. Ölkə vətəndaşlarının sağlığının qorunması üçün səhiyyənin inkişaf

etdirilməsi bu baxımdan gərəkli idi. Təxminən 100 il əvvəl dünyada səhiyyə xidmətinin, təbabətin indiki dövrlə müqayisədə zəif inkişaf etdiyini nəzərə alsaq, durumun çətinliyi aydın olar.

1918-ci il may ayının 28-də Fətəli Xan Xoyskinin rəhbərliyi ilə Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti yaradıldı. Xalq Cümhuriyyəti Hökumətinin ilk qərarlarından biri 17 iyun 1918-ci ildə Səhiyyə Nazirliyinin yaradılması ilə əlaqədar oldu. Milli kadr olaraq nazir vəzifəsində 1903-cü ildə Xarkov Universitetinin tibb fakültəsini bitirmiş, ixtisasca cərrah olan Xudadat bəy Rəfibəyovun təyin edilməsi bu sahədə işlərin irəliləməsinə təkan vermişdi. Nazirliyin 5 əsas şöbəsi — şəhər və məhkəmə tibbi şöbəsi, tibbi statistika, əczaçılıq, kənd səhiyyəsi, baytarlıq və sanitariya şöbələri vardı. Nazirliyin göstərişi ilə əhaliyə dövlət hesabına pulsuz tibbi xidmətə keçilmiş, yeni müalicəxanalar, tibb məntəqələri açılmış, dərman anbarları, laboratoriya binaları tikilmiş, lazımi avadanlıqlar alınmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamasına baxmayaraq, xalqın milli şüurunun oyanmasında, milli özünüdərkində müstəsna rol oynamışdı. Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən iqtisadi-sosial və mədəni həyatda dönüş yaratmaq, bu sahələrdə milli kadrların hazırlığını genişləndirmək məsələsi ön plana çəkilmişdi. Bu məqsədlə bir qrup gənc xarici ölkələrdə təhsil almağa göndərilmişdi.

Hökumət əhaliyə tibbi xidməti yaxşılaşdırmaq, epidemiyalara qarşı mübarizəni gücləndirmək üçün də hərtərəfli planlar işləyib hazırlamış, bununla əlaqədar qərar qəbul etmişdi. Qərarda hökumət təzə təşkil etdiyi Səhiyyə Nazirliyi qarşısında ciddi vəzifələr qoymuşdu. Bunlardan ən önəmlisi əhalinin sağlamlığının qorunması üçün lazımı şəraitin yaradılması və antisanitariya ilə mübarizənin gücləndirilməsi idi.

Bununla yanaşı Azərbaycanda epidemiyalarla mübarizənin gücləndirilməsi, qəzalarda tibbi xidmətin yaxşılaşdırılması, onların tibbi kadrlarla və dərmanlarla təmin olunması məsələsi də diqqət mərkəzində idi. «Azərbaycan» qəzeti 1918-ci ilin sonlarında çıxan saylarından birində yazırdı: «Şəhər tibb-sanitar təşkilatları bu ağır vəziyyətin öhdəsindən gələ bilmir, çünki xəstələr o qədər çoxdur ki, yeni xəstələrin qəbulu dayandırılıb». Azərbaycan Səhiyyə Nazirliyi müalicə müəssisələrinin bərpasına belə çətin şəraitdə başladı. Arxiv sənədlərinin verdiyi məlumata görə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə qəzalarda 33 xəstəxana fəaliyyət göstərmişdi. Onların ştatlarında 1 həkim, 2 feldşer, 1 mamaça və 1 çiçək peyvənd edən işçi olmuşdu. Kəndlərdə ambulator xidmətləri pulsuz

aparılırdı. Mövcud kənd xəstəxanalarının və feldşer məntəqələrinin başlıca vəzifələri yoluxucu xəstələrin hospitallaşdırılması, xəstəlik ocaqlarının zərərsizləşdirilməsi olmuşdu. Respublika əhalisinin 75 min nəfərinə cəmi 1 nəfər həkim düşürdü. Respublika parlamenti vəziyyəti nəzərə alaraq 1920-ci ildə kənd xəstəxanaları şəbəkələrini genişləndirmək və bu məqsədlə 35 yeni xəstəxana və 56 feldşer məntəqəsi təşkil etmək barədə qərar qəbul etmişdi. Bunun üçün 43,3 milyon manat pul ayrılmışdı. Bu qərara əsasən Bakı quberniyasında 19 xəstəxana, 27 feldşer məntəqəsi, Gəncə quberniyasında 15 xəstəxana, 34 feldşer məntəqəsi, Zaqatala rayonunda 1 xəstəxana, 2 feldşer məntəqəsi açılması nəzərdə tutulmuşdu. Səhiyyənin dərman preparatları ilə düzgün təminatı tibbi-sağlamlıq işinin başlıca cəhətlərindəndir. Elə bu səbəbdən də həmin dövrdə Səhiyyə Nazirliyinin əczaçılıq şöbəsi dərman preparatlarının alınmasını əlində cəmləşdirmişdi.

Azərbaycanın tibb tarixi qədim zamanlardan başlayır. Ancaq elmi təbabətin yaradılması və inkişaf etdirilməsi istiqamətində ilk addımlar XIX əsrin II yarısında atılıb. Bu, həmin dövrdə Rusiyanın və başqa ölkələrin müxtəlif universitetlərində təhsil almış ilk azərbaycanlı həkimlərin sayəsində mümkün olub. Belə mütəxəssislərdən biri Mirzə Kazım bəydir. 1887-ci ildə «Ürəyin innervasiyasına dair materiallar» mövzusunda dissertasiya müdafiə edərək doktorluq dərəcəsi almış Mirzə Kazım bəyin terapiya elminin inkişafında, difteriyaya qarşı mübarizədə və s. böyük xidmətləri olub.

Ölkəmizdə ambulator xidmətin ilk təşkilatçısı isə M.Vəkilovdur. O, Bakıda ilk pulsuz müalicəxananı (poliklinikanı) yaradıb, daha sonra onların sayının artırılması barədə məsələ qaldırıb. Bakı şəhərində 6 müalicəxana açılmasına nail olub. İ.Rəhimov ilk azərbaycanlı psixiatr, M.İ.Şərifov ilk sanitar həkim, Ə.Axundov ilk ruhi xəstəliklər klinikasının təşkilatçısı olub. Azərbaycan təbabətinin inkişafında, səhiyyə ocaqlarının, elmi-tibbi müəssisələrin təşkilində N.Nərimanovun rolu olub. Mirzə Məmmədqulu Qayıbov, Əbdülkərim Mehmandarov, Xudadat bəy Rəfibəyli Azərbaycan elmi cərrahlığının bünövrəsini qoyublar.

XX əsrin əvvəllərində azərbaycanlı gənclərin çox az hissəsi Rusiyada və digər xarici ölkələrdə təhsil ala bilirdi. İ.Mehmandarov, K.Mehmandarov, X.Rəfibəyov, M.Axundov, M.Sultanov, M.Mirqasımov, S.Ağamirzəyev və başqaları bu şansı qazanmış tibb mütəxəssisləri idilər. XX əsrin əvvəllərində Azərbaycanda elmi təbabət, kütləvi tibbi xidmət yenicə inkişaf edirdi. Müalicə ocaqları, milli tibb kadrları çatışmadığı üçün səhiyyənin inkişafı ləngiyirdi. Bu səbəbdən AXC dövründə səhiyyə sahəsində inkişaf üçün bir sıra

tədbirlər həyata keçirilmişdir.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN SİYASİ VƏ DİPLOMATİK FƏALİYYƏTİNDƏ ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOVUN ROLU

**_Muradova K.V._**
*Sumqayıt Dövlət Universiteti*

1917-ci ildə Rusiyada baş verən fevral-burjua inqilabı Zaqafqaziya respublikalarında böyük əks-səda doğurdu. Həmin dövrdə Zaqafqaziyada ictimai-siyasi proseslər özünəməxsus inkişaf istiqaməti kəsb etdi. 1917-ci ilin noyabrında Zaqafqaziya komissarlığı, 1918-ci ilin fevralında isə Zaqafqaziya seymi yaradıldı. Həm komissarlıqda, həm də seymdə Azərbaycanın görkəmli vətənpərvər və maarifçi nümayəndələri yaxından iştirak edərək, ayrıca müsəlman fraksiyası yaratdılar. 1918-ci il mayın 28-də Milli Şura sədrinin müavini Həsən bəy Ağayev Milli Şuranın tövsiyyəsi ilə Şərqdə ilk müsəlman müstəqil dövlətinin Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını elan edir. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətində Məmmədəmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Nəsibbəy Yusifbəylinin, Həsən bəy Ağayevin xüsusi xidmətləri olmuşdur. Adını çəkdiyimiz vətənpərvər Azərbaycan ziyalılarının siyahısına Əlimərdan bəy Topçubaşovu da aid etmək olar.

Ə.Topçubaşov 1917-ci ilin sonuna qədər Bakıda Azərbaycan Milli Komitəsinə sədrlik edir. O, həmin ildə Gəncədən Rusiya müsəlmanları məclisinə nümayəndə seçilir. 1917-ci ilin fevralından ömrünün sonuna kimi heç bir siyasi partiyanın üzvü olmayacağını elan edir. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında, fəaliyyətində və dünyaya tanıdılmasında Ə.Topçubaşovun böyük xidmətləri olmuşdur. Bu siyasi xadim Gəncədə Fətəli xan Xoyskinin təşkil etdiyi hökümətdə Xarici İşlər Naziri vəzifəsini tutur. Həmin lin yayında Azərbaycan Cümhuryyətinin fövqəladə elçisi və səalhiyyətli naziri kimi İstanbula yola düşür. Burada İngiltərənin, Rusiyanın, ABŞ-ın və digər ölkələrin nümayəndələri ilə 36 rəsmi görüş keçirir. Həmin görüşlər onun dərin biliyə, güniş dünyagörüşə, diplomatik yanaşma qabiliyyətinə, siyasi səriştəliliyə malik olduğunu, beynəlxalq hüquq və diplomatiya elmi ilə dərindən tanışlığını bir daha təsdiqləyir. 1918-ci ildə Türkiyədə onun "Azərbaycanın təşəkkülü" adlı əsəri çap olunur. Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurası öz fəaliyyətini bərpa etdikdən sonra 120 nəfərdən ibarət Azərbaycan Xalq Cümhuriyyəti Parlamentin yaradılması barədə qanun qəbul edir. 1918-ci il dekabrın 7-də öz

işinə başlayan parlamentin ilk iclasında Məmmədəmin Rəsulzadənin təklifi ilə həmin vaxt İstanbulda olan Ə.Topçubaşov qiyabi olaraq parlamentin sədri seçilir. Lakin onun işini sədr müavini seçilmiş Həsən bəy Ağayev icra edir.

1918-ci ildə Ə.Topçubaşov Paris Sülh Konfransına göndəriləcək Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndə heyətinə sədr təyin olunur. Paris Sülh Konfransına göndəriləcək nümayəndə heyətinə viza verilməsinə ermənilər böyük əngəllər törədirlər. Nəhayət, 1919-cu il aprelin 22-də nümayəndə heyəti dəniz və dəmir yolu ilə Parisə yola düşür. Parisdə Ə.Topçubaşovun səyi nəticəsində ABŞ prezidenti V.Vilsonun və eləcə də Böyük Britaniya, Fransa, İtaliya və Rusiya dövlət başçılarının təklifi ilə Azərbaycan məsələsi gündəliyə daxil edilərək müzakirə olunur. 1919-cu il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının birinc ildönümü günündə ABŞ prezidenti V.Vilson Ə.Topçubaşov başda olmaqla Azərbaycan nümayəndə heyətini qəbul edir.

Görüşdə Ə.Topçubaşov V.Vilsondan xahiş edir ki, konfransda ABŞ nümayəndə heyəti Azərbaycana dəstək versin, Azərbaycan haqqında nümayəndə heyətinin verdiyi səhih məlumatlara istinad etsinlər. Konfrans zamanı nümayəndə heyəti "Qafqaz Azərbaycanı Cümhuriyyəti" adlı 50 səhifəlik Azərbaycanı tanıdan kitabçanı ingilis, fransız dillərində nəşr edərək Sülh Konfransının iştirakçılarına paylayırlar. Ə.Topçubaşov başda olmaqla Versal Sülh Konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinin fəaliyyəti tezliklə öz səmərəli nəticəsini verir. Konfransda müxtəlif partiyaların nümayəndələri Azərbaycan Xalq Cümhuriyyətinin mənafeyi mövqeyindən çıxış edirlər.

1920-ci il yanvarın 11-də Paris Sülh Konfransı iştirakçısı olan dövlətlərin Ali Şurası çox gərgin şəraitdə Qafqaz məsələsini müzakirə edir və lord Kerzonun təklifi ilə Azərbaycan və Gürcüstan hökümətlərinin müstəqilliyini de-fakto tanıdıqlarını elan edirlər. Azərbaycan Demokratik Respublikasının de-fakto tanınması xəbəri Azərbaycanda böyük sevinclə qarşılanır. Bu tarixi hadisə Ə.Topçubaşovun çox gərgin əməyi və siyasi fəaliyyəti sayəsində reallaşmışdır. Ə.Topçubaşov Parisdən Azərbaycan Respublikasının baş naziri Nəsib bəy Yusifbəyliyə yazmışdır: "Siyasət qədər çox elastik və dəyişkən heç nə yoxdur... Bizim də azad və müstəqil yaşamaq ümüdlərimizin möhkəmləndiyi bir dövr başlanır. Biz heç vaxt ümüdimizi itirmirdik... Ona görə də belə hərəkət edirdik ki, xalqımızın müstəqil yaşaya biləcəyinə, hər hansı yolla olursa olsun müstəqillik əldə edəcəyimizə inanırdıq... Belə dəyərli xoşbəxtliyin qarşısında biz heç vaxt geri çəkilməmişik və çəkilməyəcəyik də çünki biz bu səadətə bərabər olan heç nə tanımırıq".

Ə.Topçubaşov ömrünün sonuna kimi Azərbaycan müstəqilliyi uğrunda mübarizə aparmışdır. Müasir Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini bərpa edərək Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi bayrağını, himnini qəbul etmişdir". Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 80 illik yubiliyeyinin keçirilməsi haqqında Heydər Əliyevin 1998-ci ildə verdiyi sərəncam, İlham Əliyevin AXC-nin 90 illiyinin keçirilməsi haqqında 2008-ci il tarixli sərəncamı ölkədə böyük əks-səda doğurmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə sərəncam vermişdi. Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər planını hazırlayıb həyata keçirsin, Azərbaycan Respublikasının Milli Məclisi isə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaranmasının 100 illik yubileyi münasibətilə xüsusi iclas keçirilməsi tövsiyə edilsin.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ SOSİAL-İQTİSADİ SİYASƏTİN BAŞLICA İSTİQAMƏTLƏRİ

***Musayeva Ş.X.***
*Azərbaycan Dövlət Aqrar Universiteti*

2018-ci il 28 mayda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi tamam olur. Prezidentimiz cənab İlham Əliyevin təşəbbüsü ilə ölkənin hər yerində tədbirlər, elmi konfranslar, seminarlar keçirilir. 2018-ci il Cümhuriyyət ili elan olunub.

Qədim zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişin müəyyən dövrlərində tarixin hökmü ilə boyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda,XIX əsrin axırları XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin yekunu kimi meydana çıxmışdır.

Cümhuriyyət Hökuməti ictimai-siyasi həyatın bütün sahələrində olduğu kimi, müstəqil milli iqtisadiyyat quruculuğu və sosial sahədə də mühüm tədbirlər həyata keçirirdi. "Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamında göstərildiyi kimi, "Gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq və sair sahələrdə həyata keçirdiyi işlər

xalqımızın tarixində dərin iz buraxmışdır".AXC iqtisadi platformasında mülkiyyət plüralizmi-dövlət mülkiyyəti, xüsusi, şəxsi, səhmdar, bələdiyyə mülkiyyəti və digər mülkiyyət formalarının inkişafı üçün bərabər imkanlar yaradılması nəzərdə tutulurdu. Bolşevizmdən fərqli olaraq, Cümhuriyyət liderləri fabrik, zavod, torpaq və digər əsas istehsal vasitələri üzərində xüsusi mülkiyyəti rədd etmirdilər. Əksinə, hesab edirdilər ki, "bu cür mülkiyyəti tamamilə aradan qaldırmaq indiki vəziyyətdə insanların şəxsi təşəbbüs qüvvətini zorakı olaraq aradan götürür". Eyni zamanda, xüsusi mülkiyyətin miqyası müəyyənləşdirilir, bu işdə ifrata varmağın zərərli olduğu göstərilirdi. Qeyri-məhdud mülkiyyət hüququ və mənimsəmədə ifratçılıq xüsusi mülkiyyətin yoxluğu qədər zərərli sayılırdı. "Hər bir əkinçi özünün əkib-biçə biləcəyi miqdarda torpağa sahiblik etməlidir!" prinsipini əsas götürən Azərbaycan islahatçıları geniş torpaqları ölü halında buraxan torpaq sahiblərinin mülkiyyət haqqını rədd edirdilər. Bu cür torpaq sahələri əvvəlki sahiblərindən alınıb, əkinçi vətəndaşlar arasında yenidən bölüşdürülməli idi. Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi siyasətində nəzərdə tutulurdu ki, xüsusi mülkiyyətin mövcudluğu mülkiyyətin tamamilə xırdalanmasına aparmamalıdır. Xüsusən də, fabrik və zavodların xırdalanması yolverilməz hesab edilirdi. Respublikanın iqtisadi qanunvericiliyinə görə, dövlət mülkiyyətinə, qismən də bələdiyyə mülkiyyətinə "dövlətin sərvət və gəlir qaynağını təşkil edən yeraltı mədənlər", həmçinin "dəmir yolu, işıq, su, teleqraf və sair bu kimi ümumi işlərə xidmət edən quruluşlar" daxil edilirdi. Azərbaycan Xalq Cümhuriyyətinin aqrar proqramının əsasını aqrar islahatı haqqında Parlamentə təqdim olunmuş "Müsavat" fraksiyasının və əkinçilik nazirliyinin mövqeyini əks etdirən qanun layihələri təşkil edirdi. Göstərilən qanun layihələrinin hər ikisinin məqsədi, müəyyən fərqlərinə baxmayaraq, torpaqsız və aztorpaqlı əhalini torpaqla təmin etmək idi. Həm də, xüsusi torpaq mülkiyyətini ləğv etmək deyil, torpağı xüsusi mülkiyyətə elə istehlak normaları üzrə vermək nəzərdə tutulurdu ki, bir tərəfdən kənd əhalisini gəlirlə təmin etmək mümkün olsun, digər tərəfdən istifadəsiz xüsusi sahibkar torpaqları qalmasın. Hökümət başçısı Nəsib bəy Yusifbəylinin Parlamentin 1919-cu il 22 dekabr tarixli iclasında elan etdiyi bəyamnamədə güclü iqtisadiyyatın yaradılması zərurəti Azərbaycanın azad və müstəqil yaşamasının şərti kimi göstərilirdi.

Azərbaycan Xalq Cümhuriyyəti xarici-iqtisadi siyasət sahəsində fəaliyyəti ancaq qanunların işlənib hazırlanması ilə məhdudlaşmır.Xarici dövlətlərlə əmtəə mübadiləsini qaydaya salmaq üçün ağır maliyyə şəraitində 20 mln manatlıq fond yardılmış Hökumətin 1919cu il 12 fevral qərarı ilə bu fonddan ilkin ehtiyaclar üçün 10 mln manat həcmində kred-

it buraxilması qərara alınmışdır.Hökümət 1919-cu il iyunun 28-də xüsusi sərəncamla əmtəələrin ixracına dair qaydaları təsdiq etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə də neft sənayesi iqtisadiyyatın öncül sahəsi sayılırdı, çünki bu zaman neft dünya iqtisadiyyatının ən önəmli hərəkətverici qüvvəsi idi. Odur ki, Parlament və Hökumət neft hasilatı və emalının vəziyyətini vaxtaşırı təhlil edir, dünya neft bazarını öyrənirdi. Təbii sərvət iqtisadi inkişaf üçün maddi baza olsa da, iqtisadi qüdrət və gücün təbii sərvətdən asılılığının həmişəlik olmadığı və gələcəkdə dəyişəcəyi Azərbaycan Xalq Cümhuriyyətinin istinad etdiyi başlıca iqtisadi müddəalardan biri idi. Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi sahəsində təcrübəsi də maraq doğurur. Cümhuriyyət dövründə dövlət sektoruna dövlətin iqtisadiyyata təsir amili kimi baxılır, mülkiyyətin çoxnövlüyü təmin edilərkən dövlət mülkiyyətinə xüsusi əhəmiyyət verilirdi. Belə hesab olunurdu ki, dövlətin gücü təkcə və hətta başlıca olaraq, onun qanunvericilik fəaliyyətində deyil, dövlət mülkiyyətinin güclü olmasındadır. Dövlət milliləşdirmə və əksmilliləşdirmə tədbirlərini həyata keçirməklə yanaşı, əmək münasibətlərinin qaydaya salınmasını da təmin edirdi. Daxili və xarici iqtisadi fəaliyyətin tənzimlənməsi üçün iqtisadi-hüquqi qanunların hazırlanmasına, onların yerinə yetirilməsinə də böyük əhəmiyyət verilirdi. Az vaxtda yalnız maliyyə, vergi, bank-kredit sahələri üzrə 82-dən çox qanun layihəsi işlənib hazırlanmış, bir çox qanunlar təsdiq olunmuşdu. İlk dəfə tərtib olunan müstəqil dövlət büdcəsi iqtisadi tənzimləmə və gəlirlərin bölgüsü işinin yoluna qoyulmasında və ümumiyyətlə, makroiqtisadi tarazlıq yaradılmasında müstəsna əhəmiyyət kəsb etdi.

Sosial-iqtisadi sahədə xeyli işlər görülsə də, fəhlə məsələsinin, eləcə də Azərbaycan Xalq Cümhuriyyətinin varlığı üçün ən vacib məsələlərdən olan Aqrar məsələnin həll olunmaması əhalinin vəziyyətini pisləşdirirdi. Bundan istifadə edən sosialistlər fraksiyası və Azərbaycan Kommunist (bolşeviklər) Partiyası əhali içərisində narazılığı artırmaq üçün öz pozuculuq fəaliyyətlərini daha da genişləndirmiş və Aprel işğalı ərəfəsində Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsi üçün əlverişli zəmin yarada bilmişdilər. Azərbaycan Xalq Cümhuriyyətinin qarşısına qoyduğu sosial-iqtisadi inkişaf proqramının tam həyata keçirilməsinə Aprel işğalı imkan vermədi.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ MİLLİ ORDU QURUCULUĞU VƏ HƏRBİ ƏMƏLİYYATLAR

***Mustafayeva Z.A.***
*Bakı Dövlət Universiteti ( Qazax filialı)*

Azərbaycan Xalq Cümhuriyyəti öz müstəqilliyini dünyaya Azərbaycanın coğrafi hüdudlarından kənarda yerləşən Tiflisdən elan etdi. Buna səbəb Rusiyada və Zaqafqaziyada baş verən hadisələr idi. 1917-ci ilin oktyabr hadisələri Romanovlar sülaləsinə son qoydu və millətlərin milli müqəddəratlarını həll etmək üçün əlverişli imkan yarandı. Bu hadisədən bir qədər sonra 1917-ci ilin 14 noyabrında Zaqafqaziyanı idarə etmək üçün Tiflisdə Zaqafqaziya Komissarlığı təsis edildi. Lakin hadisələrin sonraskı inkişafı elə gətirdi ki, 1918-ci ilin fevral ayının 10-da Zaqafqaziya komissarlığı Zaqafqaziya Seymi ilə əvəz edildi.

Azərbaycan fraksiyasının təzyiqi altında aprel ayının 9-da Zaqafqaziya höküməti istefa verdi. Seymin daha yaşaya bilməyəcəyini görən gürcülər may ayının 26-da özlərinin müstəqilliyini elan etdilər. Bundan iki gün sonra isə Azərbaycan Milli Şurası öz İstiqlal Bəyannaməsini elan etdi. Beləliklədə, Şərqdə ilk dəfə olaraq Azərbaycanda demokratik respublika üsul-idarəsi bərqərar olundu. Azərbaycan müstəqilliyini elan etdikdən sonra, iyun ayının 16-da Tiflisdən Gəncəyə köçür və oranı özünün müvəqqəti mərkəzinə çevirir. Azərbaycan Demokratik Cümhuriyyətinin heç bir hazır dövlət mexanizmi, qanunvericilik, hakimiyyət və idarəetmə orqanı, ordu və dövlətçilik təcrübəsi olmadığından onun qarşısında çox ciddi problemlər dururdu. Bütün bunlara baxmayaraq Azərbaycan höküməti çox ciddi işlər görürdü. Azərbaycan Seymdən çıxıb öz müstəqilliyini elan edərkən onun ordusu yox idi.Cəmi 600 nəfərlik hərbi dəstəsi var idi. 600 nəfərlə Azərbaycanda dövlətçiliyi möhkəmləndirmək, Azərbaycana qarşı ərazi iddiasında olan ermənilərlə mübarizə aparmaq, bir sözlə, daxili və xarici düşmənlər qarşısında duruş gətirmək olduqca çətin idi. Digər bir tərəfdən isə hərbi nazir mülki şəxs olan Xosrov bəy Sultanov idi ki, mövcud şəraitdə onun hərbi nazir vəzifəsində işləməsi məqsədəmüvafiq deyildi. Ona görə də güclü ordu yaratmaq hökümət qarşısında duran ən vacib məsələlərdən biri idi. Yaranmış vəziyyətlə əlaqədar olaraq Azərbaycan hökküməti 19 iyun 1918-ci ildə Azərbaycanda hərbi vəziyyət elan etdi.Zabit kadrları hazırlamaq üçün qısa müddətli kurslar açıldı.Avqust ayına hərbi çağırış elan edildi.Hərbi çağırışda deyilirdi: “19 yaşı tamam olmuş şəxslər hərbi qulluğa çağırılmaq üçün çağırşçı hesab edilsinlər.

1918-ci il oktyabr ayının 23-də Hərbi Nazirlik təsis olundu və noyabrın 22-də nazirlik

Gəncəyə köçürüldü.Hərbi Nazir vəzifəsinə dekabr ayının 25-də general Səmədbəy Mehmandarov təyin edildi. S.Mehmandarovun müavini general Ə.Şıxlınski idi. General Şıxlınski Azərbaycan öz müstəqilliyini elan edəndən dərhal sonra milli ordunun yaradılması ilə bağlı layihə hazırlayıb Azərbaycan hökümətinə göndərmişdir.Azərbaycan milli hököməti onun qabiliyyətini və sərkərdəlik təcrübəsini nəzərə alaraq müdafiə nazirinin müavini vəzifəsinə təyin etmişdir. Ordu quruculuğundakı əsas səbəblərdən biri onun milli dəyərlərə söykənməsi idi.Azərbaycan dili orduda dövlət dili kimi qəbul edildi. Azərbaycan ordusunun mənəvi durumuna, hər bir döyüşçünün mənsub olduğu xalqın tarixi keçmişinin öyrənilməsinə,qəhrəmanlıq nümunələri əsasında tərbiyələndirilməsinə xüsusi diqqət verildi. Milli ordu quruculuğunda atılan ilk addımlardan biri də yeni geyim formalarına keçirilməsinin qərara alınması idi. Bu məqsədlə xüsusi komissiya yaradılmışdı. Həmin komissiyaya general-leytenant Ə.Şıxlınski rəhbərlik edirdi.Azərbaycan ordusu 1919-cu il yanvarın 11-də yeni milli hərbi formaya keçdi. S.Mehmandarov orduda rəsmi dilin Azərbaycan dili olduğunu elan edərək, Azərbaycanlı döyüşçülərin Qurani-Kərimin altından keçməklə, vətənə sədaqət andı içmələrini vacib saydı. Hətta əsgərlərin qidalanmasında milli xörəklərin üstünlük təşkil etməsinə göstəriş verdi.

Cümhuriyyət hököməti Azərbaycanın hərbi donanmasının yaradılması üçün də mühüm addımlar atmışdı.1919-cu ilin yayında Bakını tərk edən ingilislərin Azərbaycan hökümətinə təhvil verdiyi,hərbi sursat və hərbi gəmilər əsasında Xəzər Hərbi Donanması yaradıldı. 1919-cu ilin sonunda donanma üçün xaricdən 18 hərbi kater və 6 sualtı qayıq alınmışdır. Aparılan işlər və görülən tədbirlər nəticəsində xalqın ləyaqətli oğullarından ibarət 40 minlik nizami ordu yaradıldı.Onun 30 mini piyada, 10 mini isə süvari qoşun idi. Ordu quruculuğu zamanı S.Mehmandarov Ə.Şıxlınski və M.Sulkeviçi təhlükəsizlik məsələləri də ciddi narahat edirdi. Əlbəttə Azərbaycanın mövcud durumunda yəni denikincilərin, bolşeviklərin və ermənilərin ölkədə apardığı təbliğatın, eləcə də törətdiyi təxribatların gücləndiyi bir zamanda dövlətin müdafiəsini təmin etmək üçün təhlükəsizlik orqanının yaradılması ən vacib məsələlərdən biri idi. Daxili və xarici təxribatçılarla mübarizəni gücləndirmək məqsədilə S.Mehmandarov 1919-cu ilin mart ayının 28-də Baş Qərərgahın Baş idarəsi yaradılması əmrini verdi. Həmin idarəyə general leytenant Məmməd bəy Sulkeviç rəhbərlik edirdi. Ciddi çətinliklər hesabına 1919-cu ilin ortalarında Milli ordu dirçəldi, Zəngəzura soxulmuş erməni quldur dəstələrinə, bolşevik tör-töküntülərinin Muğanda yaratdıqları "sovet respublikasının" qüvvələrinə qarşı uğurlu döyüşlər apardı.1919-cu il avqustun 12-də Lənkəran

şəhəri azad edildi və "Muğan Sovet Respublikası" ləğv olundu. Azərbaycan ordusu 1920-ci ilin mart ayında Qarabağda erməni qiyamının yatırılmasında, Qazax qəzasına soxulmuş Ermənistan qoşunlarının hücumunun dəf edilməsində də öz gücünü göstərdi. Əsgəran döyüşündə və Qazaxdakı hərbi əməliyyatlarda daşnaq dəstələri tamamilə darmadağın edildi.Milli ordu tərəfində Şuşa qalasıda düşməndən təmizləndi.Qarabağda qazanılan qələbə münasibətilə hərbi nazirimiz general Səməd bəy Mehmandarov əsgərlərə müraciətində demişdi: "Mən Almaniya cəbhəsində, bir çox savaşlarda olmuşam, lakin sizin kimi qəhrəman əsgərlərə nadir hallarda təsadüf etmişəm. Siz qanınızla gənc Azərbaycan ordusunun namusunu qorudunuz!"

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN SOSİAL-İQTİSADİ SİYASƏTİNİN ƏSAS ASPEKTLƏRİ

***Niftəliyev N.F.***

*Mingəçevir Dövlət Universiteti*

Xalqımızın zəngin dövlətçilik irsində Azərbaycan Xalq Cümhuriyyəti mühüm yer tutur. Əsrlər boyu təşəkkül tapan zəngin milli iqtisadi fikirlərin gerçəkləşdirilməsi üçün ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyəti dövründə real imkanlar yaranır və buna qismən də olsa nail olunur. Azərbaycan Xalq Cümhuriyyətinin milli iqtisadi modelində mülkiyyət münasibətləri, aqrar məsələ, maliyyə-valyuta siyasəti, xarici ticarət-iqtisadi münasibətləri, iqtisadi idarəetmə sistemi, vergi işinin təşkili diqqəti cəlb edir və öyrənilməyə layiqdir.

Azərbaycan Xalq Cümhuriyyətinin reallaşdırmaq istədiyi müstəqillik ideyasında iqtisadi müstəqillik əsas hesab olunurdu. Belə qəbul olunurdu ki, "fikri, milli və siyasi istiqlalların kökü iqtisadi istiqlaldadır". Bu konseptual məsələ idi və Azərbaycan Xalq Cümhuriyyətinin bütün fəaliyyəti dövründə daima diqqət mərkəzində saxlanılırdı.

Azərbaycan Xalq Cümhuriyyətində siyasi bərabərlik müxtəlif partiya və fraksiyaların tam bərabər əsaslarla parlamentdə təmsil olunmasında və bu qayda ilə çoxluğun hakimiyyəti ilə yanaşı, azlığın da hüquqlarının qanunla qorunmasında, Azərbaycan vətəndaşlarına siyasi, iqtisadi və hər cür ictimai fəaliyyət üçün tam azadlıq verilməsində özünü göstərdi. Sosial ədalət isə istehsal vasitələri üzərində mülkiyyət formaları vasitəsi ilə bərqərar edildi. Azərbaycan Xalq Cümhuriyyəti öz iqtisadi platformasında mülkiyyət plürializmini nəzərdə tuturdu. Burada dövlət mülkiyyəti, xüsusi, şəxsi, səhmdar, bələdiyyə mülkiyyəti və digər mülkiyyət formalarının inkişafı üçün bərabər imkanlar yaradılırdı.

Respublikanın yaratdığı iqtisadi qanunçuluğa görə dövlət mülkiyyətinə və qismən də bələdiyyə mülkiyyətinə "dövlətin sərvət və gəlir qaynağını təşkil edən yeraltı mədənlər", həmçinin "dəmiryolu, işıq, su, teleqraf və sair bu kimi ümumi işlərə xidmət edən quruluşlar" daxil edilirdi. Azərbaycan Xalq Cümhuriyyətinin aqrar proqramı da iqtisadi fikir baxımından öyrənilməyə layiqdir. Göstərilən qanun layihələrinin müəyyən fərqlərinə baxmayaraq, məqsədi torpaqsız və aztorpaqlı əhalini torpaqla təmin etməkdən ibarət idi. Həm də xüsusi torpaq mülkiyyətini ləğv etmək deyil, torpağı xüsusi mülkiyyətə elə istehlak normaları üzrə vermək nəzərdə tutulurdu ki, bir tərəfdən kənd əhalisini gəlirlə təmin etmək mümkün olsun, digər tərəfdən istifadəsiz xüsusi sahibkar torpaqları qalmasın.

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi platformasında pul inflyasiyasının qarşısını almaq, inflyasiya şəraitində əmək haqqını tənzimləmək, ümumiyyətlə, pul tədavülünü, xaricə xammal satışını qaydaya salmaq, gömrük siyasəti, xüsusi sahibkarlarla dövlət arasında münasibətlərin vergi vasitəsilə tənzimlənməsi qaydaları, Rusiya ilə və digər qonşu respublikalarla iqtisadi əməkdaşlıq şərtləri, özünün müstəqil valyutasını yaratmaq qaydaları da iqtisadi fikir və təcrübəni öyrənmək baxımından diqqətəlayiqdir. Mövcud olduğu 23 ay ərzində Respublika bir sıra cari təsərrüfat və mədəniyyət məsələlərinin həllində də böyük uğurlar qazanıb. Neft sənayesi ağır vəziyyətdən çıxarılıb, dağıdılmış Bakı-Batum neft kəməri bərpa olunub, Bakı-Culfa dəmir yolu inşa edilib, Kür çayı üzərində körpü salınıb, maarif və mədəniyyət inkişaf tapıb, xaricdə yüksək ixtisaslı milli kadrlar hazırlanması işi genişləndirilib. Azərbaycan Dövlət Bankı yaradılıb, milli pul nişanları buraxılıb, Xəzər dəniz gəmiçiliyi inkişaf etdirilib, Bakı Universiteti və bir çox ibtidai məktəblər açılıb və s. Müstəqil dövlətin atributu kimi milli pul vahidinin buraxılması Azərbaycan Xalq Cümhuriyyətinin maliyyə siyasətinin mühüm cəhətidir.

Azərbaycan Xalq Cümhuriyyəti müstəqil dövlətin ən mühüm iqtisadi atributlarını (Milli Bank, milli valyuta, milli bazar, dövlət büdcəsi, xarici iqtisadi əlaqələr və s.) formalaşdırmış, özünün sosial-iqtisadi siyasətinin həyata keçirilməsi istiqamətində ilk mühüm addımlarını atmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi inkişaf yolunda etatizm, konservatizm, sosialliberalizm ideyaları artıq təcrübədən keçmiş ideyalar sayılmalıdır. Nəticə etibarı ilə Azərbaycan Xalq Cümhuriyyəti azərbaycançılığın, islamçılığın, müasirliyin sintezi əsasında mükəmməl ideologiya formalaşdırmaqla unikal iqtisadi model yaratmaq sahəsində böyük irs qoyub getmişdir. Bu tarixi təcrübə dərindən və hərtərəfli öyrənilməyə layiqdir.

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ DÜNYƏVİ TƏHSİL UĞRUNDA MÜBARİZƏ

***Paşayeva S.V.***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir dövrdə bəşəriyyətin mövcudluğunu təmin edən prinsiplərindən biri dünyəvilik prinsipidir. Bu gün dünyəvilik bir mənalarda başa düşülür. Dünyəviliyin ən asan başa düşülən və ən çox təbliğ edilən tərifi "dövlətin və dövlət qurumlarının dindən ayrı olması" kimidir. Lakin bu tərifi dəqiqləşdirmək lazım gəlir. Müasir zamanda dünyəvilik prinsipinin əsas məqsədi əslində vicdan azadlığını təmin etməkdir. Dünyəvilik prinsipi dövlətimizin vətəndaşlarını bir dini mənimsəmə, bu dinin tələblərini yerinə yetirmə və ya yetirməmə məsələsində öz vicdanları ilə baş-başa buraxır və onlara azad seçim imkanı verir. Dövlət müəyyən bir dinə və ya məzhəbə üstünlük vermədiyi üçün hər kəs sahib olduğu inanca görə yaşamaq imkanı əldə edir.

Hər bir dövlət özünün dinə münasibətini müəyyən edir. Teokratik dövlətlərdə hakimiyyət bilavasitə din xadimlərinin əlində cəmləşdirilir, məhkəçələrdə ədalət mühakiməsi və müqəddəs kitablar rəhbər tutularaq həyata keçirilir. Bəzi demokratik dövlətlərdə isə rəsmi dövlət dini elan olunmuşdur. Belə dövlətlər dünyəvi dövlət hesab edilir. Azərbaycan Respublikası da dünyəvi dövlətlərdən biridir.

Hüquqi aspektdən dinlə dövlətin ayrılması – dünyəvilik onu ifadə edir ki, dövlətin rəsmi qəbul olunmuş dini ideologiyası olmur, dövlət orqanlarının işində və təşkilatlanmasında din iştirak etmir, təhsil din ilə bağlı olmur. Din xadimləri dövlət orqanlarına dini nümayəndələr kimi deyil, yalnız adi vətəndaşlar kimi seçilə bilərlər. Azərbaycan Respublikasında din dövlətdən ayrıdır, bu məsələ xüsusən Konstitusiyasının 18-ci maddəsində də göstərilir. Dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır.

Respublikada hər bir kəs dinə münasibətini müstəqil müəyyənləşdirir, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, dinə münasibəti ilə əlaqədar əqidəsini ifadə etmək və yaymaq hüququna malikdir. Hər bir şəxsin dinə münasibətini müəyyənləşdirməsində, dinə etiqadında, ibadətlərində, dini ayin və mərasimlərin icrasında iştirak etməsində, dini öyrənilməsi yolunda hər hansı maneçiliyiə yol verilmir. Dini etiqadların, dini həyat tərzinin və ibadətlərin zor işlədilməklə və ya insanlar arasında nifaq salmaq məqsədi ilə təbliğat, dini etiqada məcbur etmək qadağandır. Doğrudan da, müxtəlif dinə etiqad edən şəxslər tam bərabər şəratdə fəaliyyət göstərirlər.

Bununla yanaşı, tarix göstərir ki, din cəmiyyətin vahidliyini təmin edən əsas

vasitələrdən biridir və aydındır ki, cəmiyyət üzərində bu cür təsir potensialına malik olan vasitə dövlətin diqqətindən kənarda qala bilməz. Din öz özlüyündə deyil, yalnız cəmiyyətə təsir baxımından dövlət üçün əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasının dünyəvi dövlətlər sırasına daxil etməsində ilk addımlar hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulmuşdur. XX əsrin əvvəllərində Ə.Ağaoğlu, Ə.Hüseynzadə, Ə.Topçubaşov, N.Yusifbəyli, M.Ə.Rəsulzadə və başqaları "müasirləşmək", yəni dünyavilik anlayışını inkişaf etdirməyə çalışmışlar. M.Ə.Rəsulzadə «Azərbaycan Cümhuriyyəti» kitabında yazırdı: «Bayrağındakı məzmun, fikir surətilə müasir bir türk və islam siyasi mövcudluğuna qovuşmaq ümidilə…». M.Ə.Rəsulzadənin fikrinə görə, hər bir milliyyət azad yaşayıb tərəqqi edə bilmək üçün üç əsasa: 1) dil; 2) din; 3) zamana müasirliyə istinad etmək məcburiyyətindədir.

Ümumiyyətlə, dövlətin və onun əsas sahəsinin – təhsilin inkişafının özünəməxsusluğu ilk növbədə regionun dini ənənəvi xüsusiyyətləri ilə, məhz Azərbaycanda islamla müəyyən olunur. Qeyd edək ki, ənənəvi Azərbaycan mədəniyyətində dünyəvilik anlayışı İslam ölkələrinin, ilk növbədə Türkiyə və İranın, qarşılıqlı münasibətləri tarixinin təsiri altında formalaşmışdır. Azərbaycan dövlətinin tarixi inkişafının xüsusiyyətləri, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi burada müxtəlif dinlərin mövcudluğuna şərait yaratmışdır. Müxtəlif dini konfessiyalar fəaliyyət göstərsə də islam dini üstün mövqe tutur, çünki əhalinin 95 %-dən çoxu islam dininə etiqad edir.

XX əsrin əvvəllərində aparılan islahatlrın arasında dünyəvilik prinsipinə xüsusi fikir verilirdi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Qafqaz müsəlmanlarının vahid ruhani idarəsinin yaradılmasına nail oldu. 1918-ci il sentyabrın 15-də Bakının azad olunmasından sonra ruhani idarəsi bura köçürüldü. İlk addımlarında biri təhsildə aparılan islahatlarda da dini öyrədən fənlərinə diqqət yetirməsi oldu. Yeni işlənilmiş dərsliklərdə və proqramlarda Şəriət və İlahiyyat dərslərinə xüsusi yer ayrılırdı. Yeni proqramlar üzərində işləyən komissiyalar arasında bu fənlərin tədrisinin təkmilləşdirilməsi üçün xüsusi komissiya yaradılmışdır. Bununla yanaşı, başqa dindən olan nüamyəndələr də təhsildənkənar qalmamışdır. Belə ki, pravoslav, katolik, yəhudi məktəbləri və kursları fəaliyyət göstərirdi. Yeni hökümətin qərarları ilə dinlə bağlı bayaramların keçirilməsinə icazə verilirdi. Hökumətin qərarı ilə ruhanilər və dini idarələr büdcədən maliyyələşdirildi, dini vergilər də bilavasitə dövlət xəzinəsinə daxil oldu.

Bir sözlə, müasir zamanda dünyəvilik anlayışının ilk rüşeymləri Azərbaycan Xalq

Cümhuriyətinin dövründə qoyulmuşdur. Xalqın inkişafı və tərəqqisi ilk növbədə onun öz milli-mənəvi dəyərlərinin saxlayıb qorunamsından asılıdır. Bu nöqteyi ümumbəşəri dəyərlərlə yanaşı milli-mənəvi dəyərlərin uzərində qurulan dövlət məhz dünyəvilik prinsipinə əsaslanır. Burada dünyəvi təhsil anlyışının geniş açıqlanması zəruriyyəti yaranır. Dünyəvi təhsil dindən tam ayırması deyil, sadəcə din haqqında biliklərin olması ilə yanaşı ümüumbəşəri dəyərlərin nəzərə alınması deməkdir.

## CÜMHURİYYƏT DÖVRÜ ƏDƏBİYYATI

***Novruzova S.B.***

*Mingəçevir Dövlət Universiteti*

Hər bir xalqın ədəbiyyatı onun bədii mədəniyyətinin mühüm bir hissəsini təşkil edir. Azərbaycan ədəbiyyatı inkişafının yeni və mürəkkəb mərhələsi cümhuriyyət dövrünə təsadüf edir. Xalqın milli şüurunun formalaşmasında, sosial problemləri və prosesləri əks etdirməkdə ədəbiyyatımızın rolu əvəzsizdir. C.Məmmədquluzadə, Hüseyn Cavid, N.Nərimanov, C.Cabbarlı, M.Ə.Rəsulzadə kimi böyük yazıçıların, puplisistlərin yaradıcılıqlarında ədəbiyyatımızın yeni mərhələsi öz əksini tapmışdı. C.Məmmədquluzadə, M.Ə.Sabir, N.Nərimanov, C.Cabbarlı, M.Ə.Rəsulzadə kimi yazıçıların yaradıcılıqları ilə realizm, H.Cavid, A.Şaiq, A. Səhhət, M. Hadi kimi yazıçıların yaradıcılıqları ilə romantizm inkişaf etmişdir.

C.Cabbarlı dramaturgiyaya 1917-1920-ci illərdə daha güclü şəkildə bağlanır, bir-birinin ardınca yetkin dram əsərlərini yaradır. Əgər ilk pyeslərində yazıçı hadisələri ailə çərçivəsində göstərirsə, sonrakı pyeslərində bu hadisələri siyasi-ictimai mühitə köçürür, daha ciddi problemlərə, mətləblərə toxunur. Ümumiyyətlə, C.Cabbarlıda tarixi mövzulara və hadisələrə qüvvətli və geniş bir maraq vardı və bu maraq əsərdən-əsərə keçdikcə güclənirdi. Çox çəkmir ki, o, "Ulduz", "Ədirnə fəthi" dramlarını yazır. Həmin əsərlərdə dramaturq Türkiyə xalqının öz milli istiqlalı, Türkiyə torpaqlarının toxunulmazlığı və vətən uğrunda mübarizəsi mövzusuna toxunurdu. Beləliklə, hər iki əsər öz ideyası etibarilə dövrün ictimai-siyasi konteksti ilə yaxından səsləşirdi. Bu, pyeslərin ideyası, baş qəhrəmanlarının xarakterik və düşüncələri Azərbaycanda milli müstəqillik uğrunda mübarizə ilə dərindən və üzvi surətdə bağlı idi.

Cümhuriyyət dövrü şairlərindən biri də Əhməd Cavaddır. Şair ilk demokratik dövlət olan Azərbaycan Cümhuriyyətinin nəğməkarı, Dövlət himnimizin müəllifidir. Azərbaycanın

1918-ci ildə, ilk milli demokratik hökumətinin qurulması Ə.Cavadın yaradıcılıq fəallığını daha da artırır. O, azad Azərbaycanı, milli bayrağımızı tərənnüm edən şeirlər nəşr etdirir, zəmanəmizin böyük bəstəkarı Ü. Hacıbəyovla birlikdə ADR-in Dövlət himnini yazır. Bu dövr şeirlərinin bir çoxu şairin 1919-cu ildə buraxılmış "Dalğa" kitabında toplanmışdır. Bu kitabın nəşri zamanı Azərbaycanda mürəkkəb ictimai-siyasi hadisələr baş vermişdi. Bu mürəkkəb, çətin bir zamanda 1918-ci ilin 28 mayında xalqımızın qeyrətli, vətənpərvər oğulları Azərbaycan Demokratik Cümhuriyyətinin yaradıldığını elan etdilər.

Tezliklə Bakı bolşeviklərdən azad edildi. Azərbaycanın ilk milli demokratik dövlət qurumu sərhədlərimizin təhlükəsizliyini və xalqın rifahını təmin etmək üçün vəzifələrini icra etməyə başladılar. Ə.Cavadın "Azərbaycan bayrağına", "İngilis", "Ey, əsgər!", " Türk ordusuna", "Şəhidlərə", kimi şeirləri "Dalğa"nın məzmunu üçün səciyyəvi olub öz dövrünün mühüm ictimai, siyasi, hərbi hadisələrini əks etdirirdi. Kitabın " Azərbaycan bayrağına" şeiri ilə açılması çox təbii idi. Həmin əsər ürək açan tarixi bir hadisənin izi ilə yazılmışdı. İngilis işğalçılarının Bakıdan getməsi ilə Azərbaycan parlamentinin binası üzərində milli bayrağımızın dalğalandığını görən Ə.Cavad bu misraları yazmışdır:

Türküstan elləri öpüb alnını,
Söyləyir dərdini sana, bayrağım!
Üçrəngli əksini Quzğun dənizdən
Ərməğan yolla sən, yara, bayrağım!

Yaradıcılığının bu mərhələsində yazdığı əsərlər arasında ən möhtəşəmi "Azərbaycan Demokratik Cümhuriyyətinin Dövlət himni"dir. Himn böyük fikri-bədii təsir qüvvəsinə malikdir. Musiqisi Ü.Hacıbəyova aid olan bu dəyərli əsərimiz bu günə kimi də hər dəfə səslənəndə insanda qürür hissi oyadır. Himnimizdə deyildiyi kimi hər bir Azərbaycan gənci vətənin, xalqın "namusunu hifz etməyə", "bayrağını yüksəltməyə" hazırdır.

Cümhuriyyət dövrü ədəbiyyatının ən görkəmli xadimlərindən biri də M.Ə.Rəsulzadədir. Cümhuriyyətimizin banilərindən biri kimi tanınan M.Ə.Rəsulzadə həm də məşhur publisist və alim idi. 1917-ci ildə o, Müsavat partiyası Mərkəzi komitəsinin sədri seçilir. Onun başçılıq etdiyi Azərbaycan Milli Şurası 1918-ci ildə may ayının 28-də Tiflisdə ölkəmizin istiqlaliyyətini elan edir. O, iftixar duyğusu ilə bu sözləri demişdir: "Bir kərə yüksələn bayraq bir daha enməz!" M.Ə.Rəsulzadə yaradıcılığının baş mövzusu Azərbaycandır. Yəni o, məqalə və kitablarının başlığında, bütün əsərlərində Azərbaycan tarixini, siyasi coğrafiyasını, dilini, ədəbiyyatını tədqiq etmişdi. Onun zəngin biliyinin və xalqına bəslədiyi

böyük övlad məhəbbətinin ən parlaq nümunələrindən biri “ Azərbaycan cümhuriyyəti” (1922) monoqrafiyasıdır.

## AZƏRBAYCAN XALQ CÜMMHURİYYƏTİNDƏ TƏHSİL SAHƏSİNDƏKİ İSLAHATLAR

**_Rzaquliyeva_ S.D.**
*Sumqayıt Dövlət Universiteti*

*AXC-nin fəaliyyətinə ən yüksək qiyməti Ulu öndər Heydər Əliyev vermişdir. Ümummilli lider demişdir: “Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu”.*

2018-ci il yanvar ayının 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi haqqında sərəncam imzalamış və 2018-ci ili “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan etmişdir.

Yaxın və Orta Şərqdə ilk demokratik dövlət qurumu olan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətində müsbət cəhətlərin, o cümlədən, xalq maarifi sahəsindəki misilsiz təşəbbüslərin üzərindən Sovetlər dövründə uzun müddət sükutla keçilmişdir.

Bu gün aradan yüz il keçəndən sonra, xüsusilə, aydın görünür ki, demokratik hökumətin bu sahədəki fəaliyyəti, həqiqətən, öz bəşəri, humanist məzmunu ilə seçilir.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin xalq maarifinin inkişafına çox mühüm təkan verən ilk tədbirlərindən biri 1918-ci il 27 iyun tarixli qərar oldu. Həmin qərara əsasən, Azərbaycan-türk dili dövlət dili elan edildi. Lakin Azərbaycan dilini mükəmməl bilən ixtisaslı kadrların olmaması qərarın həyata keçirilməsini çətinləşdirirdi. Buna görə də inzibati idarə orqanları, məhkəmə işi və s. sahələrdə Azərbaycan dilini bilən ixtisaslı kadrlar hazırlanana qədər, müvəqqəti olaraq, rus dilindən istifadəyə də yol verilirdi.

Müəllim seminariyasından başqa, xalq maarif sistemi üçün kadrlar hazırlayan müəssisələrdən biri də ali ibtidai məktəblər olmalı idi. Bu məqsədlə respublikanın Maarif

Nazirliyi 1918-ci ildə bir sıra işlər görmüşdü: Göyçayda məktəb açılmış, Ağdamda, Nuxa (Şəki) qəzasının Qutqaşen kəndində belə məktəblərin açılması haqqında qərar qəbul edilmişdir.

AXC hökuməti məktəb dərsliklərinin hazırlanması və nəşrinə də ciddi diqqət yetirirdi. Bunun üçün Maarif Nazirliyinin xüsusi komissiyası təşkil edilmişdi. 1919-cu ildə "Türk əlifbası", "Təzə elmi-hesab", "İkinci il", "Yeni məktəb", "Ədəbiyyat dərsləri", "Müntəxəbat", "Türk çələngi", "Tarixi-təbii", "Rəhbər cəbr" dərslikləri nəşr olundu. Dərsliklərin hazırlanmasında Azərbaycan maarif və ədəbiyyatının görkəmli nümayəndələri Hüseyn Cavid, Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq, Camo bəy Cəbrayılbəyli, Səməd ağa Ağamalıoğlu, Fərhad Ağazadə, Ağa bəy İsrafilbəyov, Abdulla bəy Əfəndizadə və başqaları fəal iştirak edirdilər. Məktəblər Türkiyədən alınmış dərsliklər və tədris vəsaitləri ilə də təmin olundu. Azərbaycan parlamenti 1919-cu il 18 sentyabr tarixli qərarı ilə türk dilində yeni kitablar almaq üçün Xalq Maarifi Nazirliyinin sərəncamına 1 milyon manat vəsait ayırdı.

AXC-nin rəsmi orqanı olan "Azərbaycan" qəzeti Azərbaycan və rus dillərində nəşr olunurdu. Nəşriyyatlar, dəftərxana ləvazimatı satan mağazalar, həmçinin Məlikov qardaşlarının Teatrı (indiki M.F.Axundov adına Opera və Balet Teatrı) Maarif Nazirliyinin tabeliyində idi. Bu müəssisələrdə çalışan fəhlələrin əməkhaqları artırılmış, mənzil və əmək şəraitinin yaxşılaşdırılması üçün tədbirlər görülmüşdü. 1919-cu ilin əvvəllərində Azərbaycanda hökumətin ixtiyarında 23 orta məktəb var idi. Bakı, Gəncə və Qazaxda müəllim seminariyaları, Bakı, Gəncə və Şəkidə "Müqəddəs Nina" qadın məktəbləri, Bakıda politexnik və ticarət məktəbləri fəaliyyət göstərirdi.

1919-cu il sentyabrın 11-də Azərbaycan hökumətinin qərarı ilə "Müqəddəs Nina" məktəblərinin adları dəyişdirilərək, Bakı birinci milli qadın gimnaziyası, Gəncə qadın gimnaziyası və Şəki qadın gimnaziyası adlandırıldı. 1919-cu ildə Maarif Nazirliyi Bakı, Şəki, Şuşa, Göyçayda realnı və müəllim hazırlayan məktəblər açılması haqqında parlamentə qanun layihəsi təqdim etdi və layihə bəyənildi.

1919/20-ci tədris ilinin birinci yarısında müəllim seminariyaları istisna olmaqla, qalan məktəblərdə 9.611 tələbə oxuyurdu ki, bunun da 3115 nəfəri azərbaycanlı idi. Hökumətin qərarı ilə Bakı politexnik və kommersiya məktəbləri, 3-cü, 4-cü Bakı məktəbləri və 2-3-4-cü Bakı qadın gimnaziyaları istisna olmaqla, Azərbaycanda fəaliyyət göstərən bütün orta məktəblərdə dərslər Azərbaycan dilində keçirilirdi.

Azərbaycan parlamentinin qərarına əsasən 1919-cu il sentyabrın 1-də Bakıda universitetlər təşkil edilməsi haqqında 10 maddəli qanun hazırlandı. Azərbaycan hökuməti Xalq Maarifi Nazirliyi qarşısında, ilk növbədə, üç ali məktəbin – Bakı Dövlət Universiteti, Kənd Təsərrüfatı İnstitutu və Dövlət Konservatoriyasının açılması məsələsini qoymuşdu. Bakıda Kənd Təsərrüfatı İnstitutu açmaq məsələsi hökumətin 1919-cu il 5 mart tarixli iclasında bəyənilmiş və Xalq Maarifi Nazirliyinə bu məsələ ilə əlaqədar qanun layihəsi hazırlayıb parlamentə təqdim etmək tapşırılmışdı. Lakin o dövrdəki tarixi şərait yalnız bir ali məktəbin – Bakı Dövlət Universitetinin açılmasına imkan verdi.

Universiteti professor-müəllim heyəti ilə təmin etmək üçün tanınmış alimlər dəvət olundular. Avadanlıq, kitabların alınması üçün 1 milyon manat pul ayrıldı. Azərbaycan parlamentinin üzvləri, dövlət müəssisələrinin qulluqçuları universitet professorlarının ilk mühazirələrində iştirak etmişdilər.

Bakıda Dövlət Universitetinin açılması ilə yanaşı, parlamentin qərarı ilə ali təhsil almaq üçün 100 nəfər azərbaycanlı abituriyent xarici ölkələrə: İngiltərə, İtaliya, Fransa və Türkiyəyə yola salınmışdı. Bir neçə tələbənin Rusiyanın təhsil müəssisələrinə göndərilməsi də qərara alınmışdı. Lakin xarici hərbi müdaxilə və vətəndaş müharibəsi getdiyinə görə bu tədbir baş tutmamışdı. Xarici ölkələrə gedən cavanlar ali təhsil alıb Vətənə qayıtdıqdan sonra 4 il müddətində Azərbaycan hökumətinin təyinatı ilə işləməli idilər.

O dövrdə savadsızlığın ləğv edilməsi sahəsində mühüm addımlar atılmışdı. 1919-cu ildə Bakı, Şuşa, Şəki, Zaqatala və Qazaxda yaşlı əhali üçün Azərbaycan dili üzrə axşam kursları açılmışdı. Bu kurslarda təhsil müddəti, iki hissəyə bölünməklə, 1920-ci il aprelin 1-nə qədər davam etmişdi.

AXC mədəni-maarif sahəsindəki siyasətində milli mənafelərə hörmət prinsipi çox yüksək tutulur və demokratik xarakter daşıyırdı. Bu siyasət Azərbaycanda yaşayan bütün millətlərin mənafeyinə uyğun idi, onların mədəni inkişafı üçün geniş və real imkanlar açırdı.

## NAXÇIVAN DİYARI AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ (1918-1920-ci illər)

***Seyidov A.Q.***

*Azərbaycan Dövlət İqtisad Universiteti*

Birinci Dünya müharibəsinin başa çatmasına az qalmış Rusiyada baş verən ictimai-siyasi proseslərin dalğası Azərbaycandan yan keçmədi. Məlum olduğu kimi, 1918-ci ilin

mayında Cənubi Qafqazda Azərbaycan, Gürcüstan və Ermənistan kimi üç müstəqil respublika yarandı. Mərkəz Bakıdan bir qədər uzaq düşən Naxçıvan diyarı ilə Azərbaycan Xalq Cümhuriyyətinin əlaqələrini əks etdirən tarixi sənədlərdə hökumətin və parlamentin Naxçıvana daim siyasi, maddi, mənəvi, hərbi dəstək göstərməsi qeyd olunur. Həmin illərdə ABŞ, İngiltərə, Fransa, Rusiya kimi nəhəng dövlətlər Naxçıvan və Şərur-Dərələyəz ərazilərinin ermənilərə verilməsi üçün hər vasitəyə əl atırdılar. Naxçıvan əhalisi Türkiyənin və AXC-nin yardımları ilə özlərini müdafiə edirdilər.

AXC-nin Naxçıvana göndərilən yardımlarının qarşısı çox vaxt Zəngəzurda özbaşınalıq edən erməni millətçiləri tərəfindən alınırdı. Naxçıvanda müxtəlif qüvvələr bu diyarı qonşu dövlətlərdən biri ilə birləşdirməyə cəhd göstərirdilər. Araz-Türk Respublikası dövlət strukturunun tərkib hissəsi kimi təşkil edilən Naxçıvan Milli Komitəsinin başçısı, 1918-ci ilin noyabrından bu komitəyə rəhbərlik edən, Naxçıvanın erməni daşnaklarından qurtulmasında canını fəda etməyə hazır olan Cəfərqulu xan Naxçıvanski, Tağı bəy Səfiyev və onların tərəfdarları İran ilə birləşməyə, Böyük xan, Araz-Türk Respublikası səlahiyyətli nümayəndəliyinin başçısı Xəlil bəy və onların tərəfdarları isə Türkiyə ilə birləşməyi tələb edirdilər. Mirzəlibəy Bektaşov, Behbud ağa Şahtaxtinski, Nəcəfqulu Nəcəfov, Əhməd Əzimov və onları müdafiə edənlər isə Naxçıvanın istiqlaliyyət yolunu Sovet Rusiyasının tərkibində, Sovet hakimiyyətində görürdülər.

Naxçıvan ərazisinə 1918-1920-ci illərdə, hətta 1921-ci ilin əvvəllərində belə olan erməni hücumları ara vermirdi. Gülüstan və Türkmənçay sülh müqavilələrindən sonra Naxçıvana köçürülən ermənilər bu işdə daha fəallıq göstərərək, Naxçıvanı Ermənistanın bir hissəsi olduğunu elan edirdilər. Digər tərəfdən, 1918-ci ilin yayında Andranikin quldur dəstələri Naxçıvanın bir sıra ərazilərində qırğınlar törətməkdə idi. Əhali sıralarından yaradılan xalq qoşunu həmin ilin iyun ayında quldur Andranikin silahlı dəstələrini Naxçıvandan çıxarmağa müvəffəq olmuşdu.

Araz-Türk Respublikası (noyabr 1918–mart 1919-cu il) erməni hücumlarının qarşısının alınmasında, Naxçıvan diyarının Azərbaycanla birləşməsi, AXC-nin ərazi bütövlüyünün qorunması istiqamətində əhəmiyyətli rol oynamışdı. AXC parlamenti yanvarın 8-i və 25-də keçirilən iclaslarında İrəvan və Naxçıvanda ermənilərin həyata keçirdiyi soyqırımı ilə bağlı hökuməti ciddi tədbirlər görməyə çağırırdı. Bölgəyə neft məhsullarının çatdırılması, poçt-teleqraf xəttinin qaydaya salınması, Naxçıvan general-qubernatorluğunun yaradılması, hakimiyyətin təşkili və qoşun hissələrinin saxlanması üçün

əvvəl 500 min, sonra əlavə bir milyon manat pul ayrılması məsələləri həyata keçirilmişdi.

1919-cu ilin martında Naxçıvanda yerləşən ingilislərin, sentyabrda amerikanların diyarı Ermənistana vermək arzularına qarşı AXC hökuməti müvafiq notalar göndərmişdi. 1920-ci ilin yanvarında ermənilərin Naxçıvana hücumu zamanı AXC hökuməti artıq çətin durumda idi. Ona görə də vəziyyətin ağırlığını görən Naxçıvan əhalisi Türkiyəyə müraciət etmişdi. Beləliklə, AXC nümayəndələri müvəqqəti olaraq Naxçıvanı tərk etmişdi. Mart ayında türk qüvvələri ilə birləşən özünümüdafiə dəstələri daşnakları Naxçıvandan qovmağa nail olmuşdular.

Döyüş meydanlarında erməniləri itkilər verərək, qaçmağa məruz qoyan, erməni silahlı dəstələrinə qarşı fəal mübarizə aparan və dəfələrlə onlar üzərində qələbə çalan, Naxçıvan diyarının müdafiəsi üçün sakinlərdən ibarət könüllülər dəstəsinə (partizan dəstəsi) rəhbərlik edən Cəfərqulu xanın böyük oğlu Kalbalı xan Naxçıvanski daşnak hücumlarının qarşısının alınmasında göstərdiyi rəşadətə və hünərə görə AXC hökuməti tərəfindən general-mayor hərbi rütbəsi ilə təltif edilmişdi.

Böyük dövlətlərdən silah və maddi kömək alan daşnaklar Şərur, Sədərək, Zəngəzurun Naxçıvana birləşən ərazilərində kütləvi soyqırımları törətdilər. Mənbələrdə göstərildiyi kimi, təkcə bir gün ərzində Naxçıvan və Şərurda 45 kənd tamamilə məhv edilmişdi. Bu illərin soyqırımları nəticəsində Naxçıvan, Şərur, Dərələyəz mahallarında erməni millətçiləri tərəfindən qətlə yetirilən və aclıqdan ölən insanların sayı 64.500 nəfərə çatırdı.

1920-ci il iyulun 28-də 11-ci Qızıl Ordu hissələrinin nəzarəti altında Naxçıvanda Sovet hakimiyyəti quruldu. Elə həmin gün İnqilab Komitəsi Naxçıvan Sovet Respublikasının yarandığını elan etdi. Buna baxmayaraq, Naxçıvan qəzasının bütün ərazisində sovetlər hakimiyyətin tam ələ keçirilməsinə 1920-ci ilin dekabrında müvəffəq oldular.

Göründüyü kimi, AXC hökuməti və parlamenti bütün çətinliklərə baxmayaraq, Naxçıvanla əlaqəni kəsməmiş, mövcud imkanlar daxilində diyarın qorunmasını təmin etmişdir.

## CUMHURİYYƏT DÖVRÜNDƏ ORDU QURUCULUĞUNDAN ƏDƏBİYYATA VƏ MƏTBUATA GEDƏN YOL

***Səfərli* A.M.**

*Azərbaycan Dillər Universiteti*

Xalqımızın dövlətçilik tarixində özünəməxsus dəyərləri miras qoyan, Şərqdə ilk

demokratik cümhuriyyət olan Azərbaycan Demokratik Respublikası ölkənin ərazi birliyini, müstəqilliyini müdafiə etmək üçün güclü ordu yaratmağı birinci dərəcəli vəzifə hesab edirdi. Bir ölkəni zəiflətmək, sarsıtmaq və məhv etmək üçün hər şeydən əvvəl dövlətin dayağı, ərazi birliyinin tə'minatçısı olan ordusunu dağıdırlar. ADR-in ordu qruculuğu siyasətində milli hiss, milli birlik, milli iftixar, vətənə, torpağa bağlılıq duyumu əsas prinsiplərdən biri idi. Əsgər və zabitlərimiz hər şeydən əvvəl vətənpərvər olmalı, vətənini, dilini, millətini sevməli, onların qeyrətini çəkməli, tarixini, keçmişini, soy-kökünü, bilməli, onlara qırılmaz köklərlə bağlı olmalıdır. Bir sözlə əsil "vətən daşı" olmalıdır. Məhz buna görə də Səməd bəy Mehmandarov əsgər və zabitlərin, xalqımızın tarixini, qəhrəmanlıq ən'ənələrini əks etdirən kitablarla tə'min edilməsinə xüsusi fikir verir, bu kitabları oxumaq üçün onlara şərait yaradırdı. Bu da şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksəldir, vətənpərvərlik tərbiyəsini möhkəmləndirir, döyüş qabiliyyətini və mübarizilik əzmini daha da gücləndirirdi. S.Mehmandarov "Xalqla ordu yekdildir" prinsipini ilə hərəkət edərək yazırdı: "Ziyalılarımızın ən mühüm vəzifələrindən biri xalqı və əsgərləri öz tarixi ilə tanış etməkdir. Bu, şübhəsiz ki, xalqın milli hisslərini və türk irqinə məxsusluğu ilə iftixarını artıracaqdır". Bu gün fəxrlə deyirik ki, Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir

Böyük ictimai-siyasi xadim, Azərbaycançılıq ideologiyasının banilərindən biri və AXC-nin banisi M.Ə.Rəsulzadə elmi mülahizələri ilə seçilən ədəbiyyatşünas alim idi. Rəsulzadə irsinin tədqiqatçılarından olan Vaqif Sultanlı "İstiqlal sevgisi" adlı monoqrafiyasında bu barədə yazır: "Rəsulzadə irsinin ən zəngin qolunu nəzəri-estetik, əbədi-tənqidi və ədəbiyyatşünaslıqla bağlı araşdırmaları təşkil edir. Böyük mütəfəkkirin yaradıcılığının digər sahələri kimi bu qolu da indiyə kimi öyrənilməmiş qalmışdır"

M.Ə.Rəsulzadənin tədqiqatları içərisində klassiklərimizlə bağlı apardığı araşdırmalar diqqət çəkmişdir. Bu araşdırmada böyük mütəfəkkirin M.F.Axundzadə, N.Gəncəvi haqqında apardığı tədqiqatlara nəzər yetirəcəyik. Müfəssəl fikir yürütmək bacaığına malik olan Rəsulzadə "Azərbaycan Cumhuriyyəti", "Qafqaz türkləri", "Azərbaycan kültür gələnəkləri", "Mirzə Fətəli Axundzadə" adlı əsərlərində Axundovun şəxsiyyəti və onun ədəbi-mədəni-ictimai fikir tarixində yeri və rolu məsələlərindən bəhs etmişdir.

Rəsulzadə haqlı olaraq Axundzadəni həm də realist bədii nəsrin banisi olaraq qiymətləndirmiş, onu özündən sonra gələn ardıcıllarını istiqamətləndirən hesab etmişdir: "Teatrdan başqa bir neçə hekayə, mənzumə də yazılmışdır. Bu yöndə də yolgöstərən Mirzə

Fətəlidir. “Aldanmış kəvakib” adı ilə yazdığı hekayəsindən sonra Nəriman, Sultan Məcid və başqaları tərəfindən yazılan hekayələrin, romanların babası sayıla bilər” .

Böyük mütəfəkkir Axundov kimi Nizami irsinə də dərindən bələd olmuş və onun epik irsi haqqında məlumat verərkən yazmışdır: “O, Firdovsi tipində bir fars milliyyətçisinə yabancıdır. Konuları və təfəkkürləri etibarilə bir türkdür. O, bütün iyilikləri, qüvvət və dəyərləri daima türk məcaz və istiarəsiylə zikr edər. Ədalətli dövlət idealı onun nəzərində türk dövlətidir. O, bütün təhassüsləri ilə bir Türk, bir Azərbaycanlıdır” .

Rəsulzadə Nizaminin türklərə rəğbətini ifadə edərkən onun “İskəndərnamə” poemasında türkləri cəsur, ağıllı və müdrik göstərdiyini söyləyir və əsərdə gətirilən misallarla bunu əsaslandırır: “Nizami sempati ilə bəhs etdiyi bu “türklərini” sevdiyi İskəndərlə vuruşdurmuyor, bir qorxutma qarşısında küçüldərək təslimə dəxi götürmüyor”. Tədqiqatçı fikrinin əsaslandırılmasını əsərdə işlənən “ekdeş”, “beyrəq”, “çalış” kimi türk sözləri ilə daha da qüvvətləndirir.

Azərbaycan mətbuatı tarixində 1918-20-cu illər, bütün əvvəlki dövrlərə nisbətən, ən yüksək inkişaf mərhələsi idi. AXC dövründə "İstiqlal" (1918-20), "Azərbaycan" (1918-20), "Övraqi-nəfisə" (1919), "Müsəlmanlıq" (1917-19), "Qurtuluş" (1920), "Mədəniyyət" (1920), "Gənclər yurdu" (1918), "Şeypur" (1918-19), "Zənbur" (1919) kimi milli istiqlal ideyalı mətbuat orqanları nəşr olunmuşdur.

M.Ə.Rəsulzadə Azərbaycan mətbuat tarixinə nəzər yetirərək yazırdı: “1875 sənəsində mərhum Məlikzadə Həsən bəy Zərdabi tərəfindən “Əkinçi” qəzeti təsis olunmuş, 1905 tarixinə qədər Azərbaycan ədəbiyyatı və mətbuatı müntəzəm təsis və tədqiq edilməmişdir. “Mətbuat azadlığı insan azadlığının əsas sütunudur” söyləyən ədib xalqın azadlığı üçün mətbuatın azadlığını ən böyük qüvvə hesab edirdi. “Bu bir həqiqətdir ki, müstəqil Azərbaycan demokratik respublikası olmasaydı, indiki müstəqil Azərbaycan da yaranmazdı. Biz bu tarixi həqiqəti əsaslandırmaqla tariximizin 1918-1920-ci illər kimi çox mürəkkəb, ziddiyyətli və möhtəşəm dövrünü elmi cəhətdən tədqiq etməliyik.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ORDU QURUCULUĞU

***Səlimov Ş.D.***

*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il may ayının 28-də müstəqilliyini elan etdikdən sonra milli təhlükəsizliyin təmin edilməsi üçün ən mühüm problem olan ordu

quruculuğu istiqamətində bir sıra tədbirlər həyata keçirməyə başladı. Ordu quruculuğunu həyata keçirmək üçün Fətəli Xan Xoyskinin başçılığı yaradılmış birinci hökumətin tərkibində hərbi nazirlik də nəzərdə tutulmuşdur. Müstəqil Azərbayçanın ilk hərbi naziri Xosrov Paşa bəy Sultanov təsdiq edilmişdir. Lakin iyun böhranın nəticəsi olaraq birinci hökumətin buraxılması ilə hərbi nazir vəzifəsi də ləğv edilmişdir. Nəticədə yeni hökumətin qərarı ilə Qafqaz İslam Odusu yaradıldı və onun komandanı Nuru paşa təyin edildi.

Müsəlman korpusunun Əlahiddə Azərbaycan korpusu adlandırılması haqqında AXC hökuməti qərar qəbul etdi və onun komandiri vəzifəsinə General-leytenanat Əliğa Şıxlinslini təyin etdi. İlk növbədə ordunu milli hərbi kadrla təmin etmək məqsədilə hərbi məktəbin açılmasına qərar verildi. Hərbi çağırış haqqında qanun qəbul edildi.

Rus imperiyasının müstəmləkəçiliyi dövründə hərbi təcrübəsi olmayan Azərbaycan xalqı üçün ordu quruculuğunda bir sıra problemlər meydana çıxdı. Digər tərəfdən isə bolşevik-daşnaq qüvvələrinin yenicə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin yerləşdiyi Gəncə istiqamətində hərbi əməliyyatlara başlaması ordu quruculuğunu daha da çətinləşdirdi. Hərbi səfərbərliyin həyata keçirilməsində problemlər mövcud idi.

Ordu quruculuğundakı çətinlikləri aradan qaldırmaq məqsədilə ona rəhbərliyi Nazirlər Şurasının sədri Fətəli Xan Xoyski öz üzərinə götürdü. Onun müavini isə Səməd bəy Mehmandarov təyin edildi. Məhz bundan sonra mövcud çətinliklərə baxmayaraq ordu quruculuğu sahəsində bir sıra ciddi tədbirlər həyata keçirilməyə başlandı.

Birinci Dünya müharibəsində Osmanlının məğlub olmasının nəticəsi olaraq türk silahlı qüvvələri Azərbaycan ərazisini tərk etmək məcburiyyətində qaldı. Antanta Ali Şurasının qərarına əsasən Azərbaycana nəzarət etmək üçün mandat İngiltərəyə verildi. Azərbaycana gələn İngilis hərbi qüvvələrinin komandanı general Tomson Azərbaycan silahlı qüvvələrinin Bakıdan çıxarılmasına dair göstəriş verdi. Məcburiyyət qarşısında qalan Azərbaycan Xalq Cühuriyyəti hökuməti 1918-ci ilin noyabrın 22-də Hərbi Nazirliyi Gəncəyə köçürdü. 1918-ci ilin dekabrın 25-də artileriya generalı Səməd bəy Mehmandarov hərbi nazir, ondan bir neçə gün sonra Əliağa Şıxlinski hərbi nazir müavini təyin edildi. Azərbaycan ordusunun bütün nizami hissələrinin topçu texnikası, sursat və ləvazimatla təchiz olunması, topçu əmlakının mühavizəsi ilə məşğul olmalı və digər vəzifələrin yerinə yetirilməsi üçün Hərbi Nazirliyin 1918-ci il 31 dekabr tarixli əmri ilə Ümumi qərargahın tərkibində topçu şöbəsinin əsasında Topçu idarəsi yaradıldı.

Azərbaycan ordusunun qısa müddətdə qanunvericilik bazasının yaradılması mümkün olmadığı üçün 1919-cu ilin əvvəlində hərbi nazirin imzaladığı əmrlə 1917-ci ilin yanvarın 1-dək keçmiş Rusiya imperiyasında qəbul edilmiş qanunvericilik aktları müvəqqəti olaraq qüvvədə saxlanıldı. Lakin bu qanunvericilik aktlarının Azərbaycanın müstəqilliyi və digər tələbləri ilə uyğun gəlməyən cəhətləri ləğv edilir və yaxud təkmilləşdirilirdi. Həmin qanuna uyğun olaraq Rusiya ordusunda tətbiq edilən hərbi rütbələr olduğu kimi saxlanılır, hərbi rütbələrin fərqlənmə nişanları olan paqonlar isə təkmilləşdirilərək istifadə edilirdi. Əsgər və zabitlə üçün hərbi rütbələr müəyyənləşdirilmişdir. Bu zaman istifadə olunan paqonlar da rus ordusunda istifadə olunan paqonlar idi. Ancaq həmin paqonları üzərində "Azərbaycan " sözü yazılmışdır.

Hərbi Nazirliyin 1918-ci il dekabr tarixli əmri ilə hərbi qulluqcular arasında salamlaşma Azərbaycan dili və ənənələrinə uyğun şəkildə aparılmalı idi. Qəbul edilmiş qanunlara əsasən orduda Azərbaycan dili dövlət dili kimi qəbul edilir və işlədilirdi. Azərbaycan dilini bilməyən zabitlərdən bir ay müddətində komanda sözlərini azərbaycanca öyrənmək və komandanın Azərbaycan dilində verilməsi tələb olunurdu. Əks təqdirdə ordudan xaric edilirdi. Hərbi qulluqçuların geyimlərinin milli formada təşkil olunmasına dair qərar qəbul edildi. Əsas diqqət ordu quruculuğunda milli kadrların hazırlanmasına yönəlmişdi. Bunun üçün Gəncədə yaradılmış hərbi məktəb xüsusi rol oynayırdı.

Ordu quruculuğunun ən mühüm cəhətlərindən biri də hərbi xidmətə çağırışla bağlı idi. Çağırış işində mövcud nöqsanların aradan qaldırılması, eləcə də əsgərlərə qarşı fiziki güc tətbiq edilməsinin qarşısının alınması istiqamətində tədbirlər həyata keçirildi. Ordududa idarəetmə orqanlarının keyfiyyətinin yaxşılaşdırılması məqsədilə 1919-cu il mart ayının 26-da Baş Qərargah yaradıldı. 1919-cu ildə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin nəticəsi olaraq bir sıra diviziyaların yaradılmasına nail oldu. Ingilis qoşunlarının Bakını tərk etməsindən sonra Hərbi Nazirliyin paytaxta köçürülməsi ordu quruculuğunun inkişafına müsbət təsir göstərmişdir. Ordu quruculuğunda həyata keçirilən tədbirlərə əsasən 1919-cu ilin sonunadək Azərbaycan ordusunun şəxsi heyətinin sayının 20 min nəfərə, 1920-ci ildə isə 40 min nəfərə çatdırılması nəzərədə tutulmuşdur. Qarşıya qoyulmuş plana əsasən orudunun ali idarəetmə orqanlarında əsaslı struktur dəyişiklikləri aparılmışdır. 1920-ci ilin mart ayında Baş Qərargahla Ümumi Qərargah birləşdirilərək Azərbaycan ordusunun qərargahı yaradıldı.

Görülən bütün tədbilərin nəticəsi olaraq aprel işğalı ərəfəsində Azərbaycan Milli

Ordusu demək olar ki, tam şəkildə formalaşdırılmışdı.

## DAXİLİ İŞLƏR NAZİRLİYİNİN YARANMASI TARİXİNDƏN (1918-1920-ci illər)

***Səlimova R.D.***

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Hər bir dövlətinən mühüm güc strukturlarından biri olan orqan Daxili İşlər Nazirliyidir. Daxili İşlər Nazirliyinin üzərinə düşən ən mühüm vəzifələrdən biri ölkə daxilində ictimai asayişi, qanunçuluğu və hüquq normalarını qorumaqdan ibarətdir. Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən Fətəli xan Xoyski Nazirlər Şurasının sədri vəzifəsi ilə bərabər, daxili işlər naziri vəzifəsini icra etmişdir. İkinci Hökumətdə isə daxili işlər naziri vəzifəsi Behbud xan Cavanşirə həvalə olundu. Noyabr-dekabr aylarında isə daxili işlər naziri vəzifəsini Məmməd Sadıq bəy Ağabəyov icra etmişdir. 1918-ci il dekabrın 26-da üçüncü Hökumət kabinəsində daxili işlər naziri vəzifəsi Xəlil bəy Xasməmmədova tapşırıldı. 1919-cu il aprelin 14-də Nəsib bəy Yusifbəylinin dördüncü Hökumət kabinəsində onun özü Hökumətin sədri vəzifəsi ilə yanaşı, həm də daxili işlər naziri vəzifəsini öz üzərinə götürdü. 1919-cu ilin dekabrında N.Yusifbəylinin yaratdığı beşinci Hökumət kabinəsində daxili işlər naziri vəzifəsini əvvəlcə Məmməd Həsən Hacınski, sonra isə Mustafa bəy Vəkilov icra etmişdir.

Beynəlxalq münasibətlər və eləcə də daxili vəziyyətin son dərəcə gərgin və mürəkkəb olduğu bir zamanda mövcud olan problemlərin və gözlənilən təxribatların qarşısının alınması, qanunçuluğun bərqərar edilməsi, vətəndaşların şəxsi və əmlak təhlükəsizliklərinin qorunması, cinayətkarlıqla mübarizə aparılması, və sabitliyin yaradılmas Daxili işlər nazirliyinin üzərinə düşürdü. Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə Daxli İşlər Nazirliyinin əsas vəzifəsi bir tərəfdən müstəqil fəaliyyət göstərməkdən ibarət idisə, digər tərəfdən, Türkiyə hərbi komandanlığından xeyli dərəcədə asılı idi. Bu zaman ölkədə anarxiyaya son qoymaq, qanunçuluğu və vətəndaş təhlükəsizliyini təmin etmək məqsədilə bir tərəfdən, keçmişdə fəaliyyət göstərmiş inzibati idarə sisteminin quruluşu və şəxsi heyəti olduğu kimi saxlanılır, digər tərəfdən isə, onların vəzifəsi, imkan düşdükcə, Hökumətin 1918-ci ilin iyununda qəbul etdiyi hərbi vəziyyət haqqındakı qərarının müəyyən etdiyi səlahiyyətlərdən istifadə olunmaqla hərbi qüvvə vasitəsilə həyata keçirilirdi. 1918 il iyununda nazirlik tərəfindən işlənib hazırlanmış qərar dərc olundu. Həmin qərara əsasən, şəxsiyyətə, şəxsi, dövlət, yaxud ictimai əmlaka qarşı ağır cinayətlərə hərbi-məhkəmə

orqanlarında baxılmalı, ictimai sabitlik üçün təhlükə törədən cinayətlərin araşdırılması isə Daxili İşlər Nazirliyinin sərəncamına verilirdi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918-ci il 24 iyun tarixli qərarına əsasən, bütün keçmiş inzibati idarə işçiləri iyulun 1-nə dək öz iş yerlərinə qayıtmalı idi, əks halda, işdən azad edilməsi nəzərdə tutulmuşdur. Həmin vaxtdan etibarən qəzalarda yerli əhali hesabına inzibati-idarə orqanlarının şəxsi heyəti formalaşmağa başladı. Cümhuriyyət Hökuməti iyulun 2-dən polis işçilərinin əmək haqqını artırmaq barədə qərar qəbul etdi. DİN-in Gəncədə həyata keçirdiyi ilk tədbirlərdən biri Gəncə şəhər özünüidarəsini bərpa etmək oldu. İyunun 22-də Gəncədə şəhərdəki işçi qüvvələrini təcili olaraq bir yerə toplayıb fəaliyyətə başlanılması tapşırıldı. İyunun 27-də Azərbaycan Cümhuriyyəti Hökuməti Gəncə şəhər özünüidarəsini təşkil etmək üçün şəhər idarəsinə 150 min manat faizsiz borc vermək barədə qərar qəbul etdi. 1918 il iyulun 30-da Hökumət digər şəhərlərdə də özünüidarə orqanları yaratmaq haqqında qərar qəbul etdi. Azərbaycan Cümhuriyyəti Hökumətinin 1918-ci il 7 və 27 iyul tarixli qərarları ilə DİN-ə yerlərdə inzibati idarə orqanları yaradıldıqca, anarxiyanın hökm sürdüyü dövrdə Gəncədə və digər şəhərlərdə əhalinin təşkilinin yeganə mərkəzi orqanı olan Müsəlman Milli Komitələrinin ləğv edilməsi tapşırıldı. 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu Bakını daşnak və eser-menşevik hərbi qüvvələrindən azad etdikdən sonra DİN-in fəaliyyət dairəsi daha da genişləndi. 1918-ci ilin dekabrında nazirliyin fəaliyyətində bir sıra ciddi struktur dəyişiklikləri edildi. Nazirlik bir tərəfdən, təşkilati işləri, digər tərəfdən isə, xarici dövlətlərin ölkənin daxili işlərinə müdaxiləsini dəf etmək tədbirlərini gücləndirdi. DİN-in yerli idarələrinin ştat cədvəli, onların əmək haqlarının artırılması barədə qanun layihələri aprelin 8-də və mayın 26-da Parlamentdə təsdiq olundu. Bu dövrdə DİN-in yerli qurumlarının təşkili, vəzifəli şəxslərin fəaliyyəti və s. haqqında təlimatlar da hazırlanaraq yerlərə göndərildi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1919-cu il üçün DİN-in smetasını hazırladı. 1919-cu il aprelin 14-də təşkil olunmuş 4-cü Hökumət kabinəsində Hökumətin sədri Nəsib bəy Yusifbəylinin həm də daxili işlər naziri vəzifəsini tutmuşdur. Nazirlik və onun yerli orqanları ölkədə xarici hərbi qüvvələrin müdaxiləsi olmadan sərbəst və müstəqil fəaliyyət göstərməyə başladılar. Bu işdə nazirliyin hazırladığı və 16 aprel tarixli əmrlə elan etdiyi təlimatın mühüm rolu olmuşdur. Həmin təlimatda qanunçuluğun və intizamın möhkəmləndirilməsi, milli qırğın təzahürlərinin qarşısının alınması, vəzifəli şəxslərin öz vəzifələrindən sui-istifadə hallarına qarşı kəskin mübarizə aparılması və s. məsələlər öz əksini tapmışdı. Bu dövrdə Dövlət

Müdafiə Komitəsi yaradıldı. Bakı Şəhər Rəisliyi təsis olundu, Bakı Şəhər Polisinin ehtiyat qüvvələri təşkil edildi. Nazirlik tərəfindən hazırlanmış Azərbaycan polis inspektoru haqqında Əsasnamə də Dövlət Müdafiə Komitəsi tərəfindən təsdiqləndi. Nazirliyin fəaliyyətinin sonuna yaxın işləyib hazırladığı ən mühüm sənədlərdən biri də Azərbaycanda torpaq məsələləri ilə məşğul olan idarələr haqqında Əsasnamə idi. Sənəddə torpaqların idarəçilik formasının, Qərbdəki demokratik əsaslara uyğun olaraq, tamamilə yenidən qurulması nəzərdə tutulurdu. Lakin sovet rejiminin bərqərqr olduğu Rusiyada Azərbaycanın işğal edilməsi ön planda idi. Ona görə də 1920 il aprelin 27-də on birinci ordunun köməyi ilə Sovet Rusiyasının Azərbaycanı işğal etməsi Azərbaycan Xalq Cümhuriyyətinin digər istiqamətlərdə olduğu kimi Daxili İşlər Nazirliyinin də fəaliyyətinə son qoyuldu. Lakin 1991 ci il 18 oktyabr tarixində Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsi ilə Daxili İşlər nazirliyi də yenidən quruldu və fəaliyyətə başladı. Bu gün də öz funksiyasını uğurla həyata kecirir.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ POLİS ORQANLARININ YARADILMASI VƏ FƏALİYYƏTİ

***Səmədova K.K.***

*Sumqayıt Dövlət Universiteti*

Şərqdə ilk demoktarik dövlət olaraq Azərbaycan Xalq Cümhuriyyəti 28 may 1918-ci ildə Azərbaycan Milli Şurasının qərarı ilə Azərbaycanın dövlət müstəqilliyini elan etdikdən sonra, elə həmin gün Fətəli Xan Xoyski başda olmaqla, ilk müvəqqəti hökümətı təsdiq etmişdir. Həmin hökumətdə Fətəli Xan Xoyski eyni zamanda daxili işlər naziri təsdiq olunmuşdur. Lakin təbii ki, həmin vaxt müvəqqəti hökumət mühacirətdə-Tiflisdə təşkil edildiyindən Daxili İşlər Nazirliyinin yerli orqanlarının - polis orqanlarının yaradılması mümkün olmamışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti Azərbaycan ərazisində fəaliyyət göstərmək məqsədilə 1918-ci ilin iyun ayının 16-da Azərbaycan Milli Şurası və hökuməti Tiflis şəhərindən Gəncəyə köçür. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Tiflisdən Gəncəyə köçdükdən sonra Milli Şuranın M.Ə.Rəsulzadənin sədrliyi ilə keçirilmiş 17 iyun 1918-ci il tarixli iclasında Fətəli Xan Xoyskinin başçılığı ilə yeni müvəqqəti hökumətin tərkibi təsdiq edilir. Bu hökümətdə Daxili İşlər Naziri bitərəf Behbutağa Cavanşir təsdiq olunur.

Cəmiyyətdə ictimai-asayişin qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi və cinayətkarlığa qarşı mübarizə aparılması sahəsində polis vahid mərkəzləşdirilmiş hüquq mühafizə orqanı kimi əhəmiyyətli rol oynayır. Polis fəaliyyəti idarəetmə fəaliyyətinin növlərindən biridir. Dövlət özünün daxili işlər orqanları və onun tərkib hissəsi olan polis orqanları tərəfindən bu vəzifələrin yerinə yetirilməsində müəyyən hüquqlardan istifadə edir. Təbii ki, Azərbaycanda polis orqanları birdən-birə yaranmamış, digər dövlət qurumları kimi, polis orqanları da özünün təkamül prosesini keçirmişdir.

1918-ci il iyunun 24-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli hökuməti "Hökumət müəssisələrinin öz vəzifələrini tərk etmiş qulluqçuları haqqında" 178 saylı qərar vermişdir. Qərarda bütün nazirliklərə (o cümlədən DİN-ə) tabeliklərində olan idarələr üzrə hökumət məlumatı hazırlamaq tapşırılır. Çarizm və onun devrilməsindən sonrakı dövrlərdə Azərbaycandakı hökumət müəssisələrində xidmət edən, lakin hazırda işə çıxmayan qulluqçulara, o cümlədən polis orqanlarındakı əməkdaşlara iyulun 1-dən işə çıxmaq təklif olunurdu. Həmin qərarda yeni yaradılacaq polis orqanlarının tərkibinə daha çox azərbaycanlıların qəbul edilməsi nəzərdə tutulurdu. Azərbaycan Xalq Cümhuriyyəti digər dövlət qurumları kimi, polis orqanlarının inkişafı üçün, konkret halda, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, Daxili İşlər Nazirliyinə əlavə ştat vahidlərinin verilməsi, polis əməkdaşlarının əmək haqlarının yüksəldilməsi üçün vaxtaşırı olaraq səmərəli, məqsədyönlü tədbirlər görmüşdür. Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti 7 aprel 1919-cu ildə "Daxili İşlər Nazirliyi qulluqçularının saxlanılması xərclərinin müvəqqəti artırılması və əlavə bir sıra yeni şatat vahidlərinin verilməsi haqında" Qanun qəbul etmişdir. Həmin qanunun 5-ci maddəsinə əsasən, vəzifə maaşlarının artırılması dövlət idarələrində xidmətlərini dayandırmış şəxslərə tətbiq olunmurdu. 6-cı maddəyə əsasən xidməti at saxlayan Bakı-Balaxanı-Sabunçu polismeysterliyində ayda 600 rubl, ildə isə 7200 rubl ayrılmışdı. Dövlətin digər yerlərində isə heyvan yemi üçün pul o halda ayrılırdı ki, həmin qurumların atları olsun. Qanunun 9-cu maddəsinə əsasən, səfər üçün qəza rəislərinə ildə 8400 rubl, rəis köməkçiləri üçün 4200 rubl, sahə pristavlarına 3000 rubl, onların köməkçilərinə isə 1800 rubl ayrılması təsdiq olunurdu. Polis orqanlarının xidməti fəaliyyətlərinin daha da yaxşılaşdırılması məqsədi ilə Nazirlər Şurası Bakı polisinin ştat vahidlərinin artırılması üçün onun büdcəsinin əlavə olaraq 5 689 200 rubl artırılması haqqında 11 iyun 1919-cu ildə qərar qəbul etmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti ayrı-ayrı idarələrdə işləyən vəzifəli

şəxslərin cinayətlərini və vəzifələrindən sui-istifadə hallarının qarşısını almaq üçün 27 iyul 1919-cu ildə “müxtəlif idarələrdə cinayətlərin və sui-istifadə hallarının istintaqını aparılması üçün xüsusi Təftiş-istintaq komissiyasının yaradılması barədə Qanun” da qəbul etmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti Daxili İşlər Nazirliyinin Aparatında icra intizamının daha da təkmilləşdirilməsi və möhkəmləndirilməsi üçün 4 mart 1920-ci ildə “Azərbaycan Daxili İşlər Nazirliyi Aparatının ştat vahidlərinin artırılması haqqında Qanun” qəbul etmiş, həmin Qanunla Nazirliyin dəftərxanasına əlavə 8 dəftərxana qulluqçusunun verilməsi ilə əlaqədar Nazirliyin satınalınması xərclərinin 114 min 275 rubl artırılmasını qərara almışdır. Hələ bundan əvvəl Nazirlər Şurası 27 iyul 1918-ci ildə “Köçərilərin qorunması, Şuşa və Zəngəzur qəzalarında qayda-qanunun bərpa edilməsi barədə” qərar qəbul etmiş, Daxili İşlər Nazirliyinin sərəncamına əlavə olaraq 125 000 rubl ayırmışdı.

Xalq Cümhuriyyətinin Nazirlər Şurası 14 sentyabr 1918-ci ildə “Gəncə quberniyasında bolşeviklərin anarxiyası dövründə vurulmuş ziyanın aydınlaşdırılması haqqında” qərar qəbul etmiş və Daxili İşlər Nazirliyinə əkinçilik, ədliyyə, maliyyə nazirliklərinin nümayəndələrinin komissiyanın tərkibinə daxil edilməsi təklif olunmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 11 avqust 1919-cu il tarixli qərarı ilə bütün türmələr Daxili İşlər Nazirliyindən alınıb Ədliyyə Nazirliyinin tabeliyinə verilmişdi.

Bütün bu sadaladığımız qanun və qərarlardan görünür ki, Azərbaycan Xalq Cümhuriyyənin istər Parlamenti, istərsə də hökuməti polis orqanlarının və bu qurumların əməkdaşlarının maddi təminatlarının artırılması, fəaliyyətinin təkmilləşdirilməsi üçün nə mümkünsə, etmişdilər.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN NEFT SİYASƏTİ

***Süleymanlı D.Q.***
*Sumqayıt Dövlət Universiteti*

Xalq Cümhuriyyətinin iqtisadiyyatı bütünlüklə neftin ixracı ilə bağlı idi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti neft sənayesinin işinin tənzimlənməsi, inkişafının təmin edilməsi və bu sahə üzərində dövlət nəzarətinin möhkəmləndirilməsi məqsədilə 1919-cu ilin əvvəlində xüsusi qərar qəbul etdi. Həmin qərara əsasən ölkə neftinin yalnız Batumi boru xətti ilə daşınmasına, satılmasına və mübadiləsinə icazə verilirdi. Bu qərarla Azərbaycan neftinin dağıdılmasının, mənimsənilməsinin qarşısına ciddi sədd çəkildi. Beləliklə, təqribən 18 ay neft sənayesi Xalq Cümhuriyyətinin sərəncamında qaldı. Xalq Cümhuriyyəti

hökumətinin gördüyü tədbirlər nəticəsində 1949-cu ildə aylıq neft hasilatı 18 milyon puda çatdırıldı. Onun 14 hissəsi xarici bazarlara satıldı, qalan hissəsi isə ölkədə cəmləşdirildi. 1919-cu ildə Bakıda istehsal olunan neftin 40,5 milyon pudu Batumi, Krasnovodsk, Pəhləvi limanları vasitəsi ilə xarici ölkələrə satıldı. Blokada şəraitində və qərəzli mövqe nümayiş etdirən dövlətlərin əhatəsində yaşayan Azərbaycan Xalq Cümhuriyyətinin dünya ölkələri tərəfindən tanınması, müstəqilliyinin möhkəmləndirilməsi, sosial və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin iqtisadi inkişafının təmin edilməsi, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi təxirəsalınmaz strateji vəzifələr idi.Bu vəzifələrin qısa müddətdə həyata keçirilməsi üçün Azərbaycan Gürcüstan, Türkiyə, İtaliya və Amerika ilə iqtisadi-ticarət əlaqələri yaradır, nağd pul və barter üsulu ilə özünə lazım olan ərzaq məhsullarını. hərbi texnikanı, sənaye və aqrar bölmə üçün müasir avadanlıqları alıb ölkəyə gətirirdi. Fransa və İtaliya ilə aparılan danışıqlar nəticəsində neft məhsulları mübadiləsi yolu ilə ilk olaraq ölkəyə yüz parovoz, 2000 sistern, 500 vaqon, 1,5 milyon pud buğda və 1 milyon pud şəkər idxal edildi.

1920-ci ilin yazında Azərbaycanda hasil edilmiş neft ehtiyatları 300 milyon puda çatdırıldı. Beləliklə, neft ehtiyatları son dərəcədə azalan qonşu Rusiya ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında ziddiyyətlər son həddə çatdı və bu ziddiyyət Azərbaycan Xalq Cümhuriyyətinin süquta yetirilməsinin əsas səbəblərindən birinə çevrildi. Azərbaycanın müstəqilliyini istəməyən xarici qüvvələr onu süquta yetirmək üçün Bakı neftini əla keçirməyi ən vacib vəzifə hesab edirdilər. Xalq Cümhuriyyətinin 1918- 1920-ci illərdəki neft sənayesinin vəziyyəti nəzərdən keçirilərkən Azərbaycanın 1990-1993-cü illərdəki təhlükəli durumu ilə böyük oxşarlıq aydın görünür. Neft siyasəti ilə bağlı ümumi oxşarlıq Azərbaycan Xalq Cümhuriyyətinin və müstəqil Azərbaycan Respublikasının yaşadıqları dövrün ziddiyyətləri, fərqli idarəçilik prinsipləri, qonşu dövlətlərin strateji maraqlarına münasibət ilə əlaqədardır. Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dövlətçilik ənənələri ilə yanaşı, onun neft siyasəti sahəsindəki addımları müasir Azərbaycan üçün çox maraqlıdır. Ulu öndərimiz Heydər Əliyev demişdir: "Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır". Bununla belə, ümummilli liderimiz Heydər Əliyev neft strategiyasını işləyib hazırlayarkən ölkə daxili ictimai-siyasi vəziyyəti, qonşu dövlətlərin strateji maraqlarını, dünya təcrübəsini, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsini istəməyən xarici qüvvələrin qərəzli müna-

sibətlərini balanslı şəkildə nəzərə almış, Azərbaycanın milli maraqlarına üstünlük vermişdir. O, Azərbaycanın neft strategiyasının reallığına şübhə edənlərə, onun böyük gələcəyini əfsanə adlandıranlara münasibətdə düşünülmüş, qətiyyətli mövqe tutmuş və qarşıya qoyduğu strateji proqramın reallaşmasına nail olmuşdur.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN İQTİSADİ SİYASƏTİ

**_Süleymanov N.M._**

*Azərbaycan Dövlət İqtisad Universiteti*

Müstəqillik tariximizin şanlı səhifəsini təşkil edən Azərbaycan Xalq Cümhuriyyəti tarixi ərazimizə və milli sərvətlərimizə sahib çıxaraq dünya müharibəsi, bolşevik-daşnak talanları nəticəsində dağıdılmış iqtisadiyyatımızı bərpa etməyə başladı. Ağır sosial-iqtisadi vəziyyətlə üzləşmiş, böhran vəziyyətinə düşmüş, böyük insan tələfatı nəticəsində məhsuldar qüvvələri xeyli zəifləmiş iqtisadiyyatı bərpa etmək üçün Milli hökumət dövlətimizin inkişafı və xalqımızın sosial rifahının yaxşılaşdırılmasına yönəlmiş iqtisadi siyasət yeritməyə başladı.

Azərbaycan təbii sərvətlərinin bolluğuna və iqtisadi infrastrukturuna görə digər Qafqaz respublikalarından əlverişli vəziyyətdə olmasına baxmayaraq əvvəlki illərdə iqtisadi strukturların vəhşicəsinə dağıdılması, istehsal vasitələrinin məhv edilməsi, istehsalın səviyyəsinin kəskin şəkildə aşağı düşməsi, kənd təsərrüfatına yararlı torpaq sahələrinin cüzi hissəsinin əkilib becərilməsi, maliyyə vəsaitinin yox dərəcəsində olması ölkənin təbii sərvətlərini və işçi qüvvəsini az vaxt ərzində səfərbər etmədən iqtisadiyyatı böhran vəziyyətindən çıxarmaq mümkün deyildi.

1918-ci il iyunun 17-də Gəncədə təşkil edilmiş ikinci hökumət kabinetinin iqtisadi sahədə ilk tədbiri ölkənin təbii sərvətlərinin xaricə daşınmasının qarşısını almaq oldu. 27 iyun fərmanı ilə taxıl məhsullarının, heyvanların və ət məhsullarının, pambıq, yun, ipək məmulatlarının Azərbaycandan kənara çıxarılması qadağan edildi. 1919-cu il avqustun 27-də verilmiş fərmanla respublikanın sərhədləri daxilində bütün məhsulların sərbəst alqı-satqısına icazə verildi. Azərbaycan hökuməti Bakıya köçdükdən sonra bütün sərhəd-keçid məntəqələrində, dəmir yolu, su nəqliyyatında gömrük xidmətinin yaradılmasına başladı.

Xalq Cümhuriyyəti mülkiyyət formalarının müxtəlifliyinə və bütün vətəndaşlara bərabər iqtisadi imkanlar verən iqtisadiyyat qurmağa çalışırdı. 1918-ci il oktyabr tarixli fərmanla hökumət Bakı XKS-nin neft sənayesi və Xəzər ticarət donanmasının

milliləşdirilməsi haqqında dekretlərini ləğv etdi və bütün mədənləri, zavodları, gəmiləri əvvəlki sahiblərinə qaytardı. Hökumətin 1918-ci il 30 oktyabr tarixli daha bir fərmanında ticarət donanmasının bərpası nəzərdə tutulurdu ki, bu da daxili və xarici ticarətin inkişafına təkan verməli idi.

1919-cu ilin ortalarından hökumət xarici şirkətlərlə neftin satışına dair sazişlər bağlamağa başladı ki, nəticədə Türkiyəyə, Gürcüstana, İngiltərə və İtaliyaya neft və neft məhsulları göndərilməyə başladı. 1920-ci ilin yanvarında ABŞ-ın Yaxın Şərqdə Yardım Komitəsi ilə müqavilə imzalandı. Azərbaycan hökumət nümayəndələrinin Romada və Batumda italyanlarla bağladıqları müqaviləyə görə bu ölkədən hərbi texnika və paltar alınmalı idi.

Azərbaycan hökuməti dövlət büdcəsinin formalaşdırılmasına və milli valyutanın yaradılmasına yönələn maliyyə siyasəti yeridirdi. Bakı bonu adlandırılan milli pul vahidinin dövriyyəyə buraxılması haqqında 1918-ci il sentyabrın 22-də qərar qəbul edildi. 1919-cu il sentyabr ayının 30-da Dövlət Bankı yaradıldı.

Aqrar məsələyə münasibətdə hökumətin daxilində fikir ayrılığının olmasına baxmayaraq, ümumilikdə dövlətin kəndlilərə münasibəti mütərəqqi məzmuna malik idi. 1920-ci ilin mart ayında hökumət aqrar məsələ ilə əlaqədar qanun layihəsini müzakirə etsə də Xalq Cümhuriyyətinin süqutu nəticəsində aqrar məsələ həll olunmadı.

Milli hökumətin neft və neft məhsullarının Avropa ölkələrinə daşınmasını təmin etmək üçün Qara dəniz sahilindəki limandan istifadə edilməsi barədə qaldırdığı iddia müttəfiq dövlətlər (İngiltərə, ABŞ, Fransa) tərəfindən nəzərə alınmış və 1920-ci il aprelin 19-26-da İtaliyada keçirilən konfransda AXC-nin Batum limanınından azad istifadə hüququ təmin olunmuşdu. Bu, Azərbaycan hökumətinin ölkə iqtisadiyyatının inkişafı üçün əlverişli beynəlxalq şəraitin yaradılması istiqamətində mühüm uğuru idi.

Beləliklə, çox çətin şəraitində fəaliyyət göstərməsinə baxmayaq AXC Azərbaycan xalqının mənafeyinə uyğun iqtisadi tədbirlər həyata keçirmişdir.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN DÖVLƏTÇİLİK İRSİ

**_Vəliyeva R.A._**

_Sumqayıt Dövlət Universiteti_

Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin

çoxillik ictimai-siyasi fəaliyyəti böyük bir epoxanı əhatə edir. Sovet rejiminin inkişafda olan dövrü (1969-1986), mürəkkəb keçid prosesləri (1987-1990), Azərbaycanın dövlət müstəqilliyi mərhələsi (1991-2003) kimi səciyyələnən 35 illik bir epoxanın aparıcı şəxsiyyətlərindən, əsas simalarından olan Heydər Əliyevin böyük siyasətdə keçdiyi çətin və şərəfli yol, sərt və mürəkkəb məqamlarda onun tutduğu obyektiv və qəti mövqe, atdığı düşünülmüş addımlar, əldə etdiyi ciddi və mühüm nəticələr, əslində, çox mənalı və ibrətamiz məktəbdir.

Məhz Heydər Əliyevin sayəsində Azərbaycan müstəqil bir dövlət kimi inkişaf etmiş, müasir və qüdrətli məmləkətə çevrilmişdir. Heydər Əliyev Azərbaycan xalqı, xüsusən gənc nəsil üçün böyük azərbaycançılıq, dövlətçilik irsi qoyub getmişdir. Hər bir azərbaycanlı, xüsusən gənc nəsil ulu öndərin müstəqil Azərbaycan dövlətinin yaradılması, qorunması, inkişaf etdirilməsi sahəsində əvəzolunmaz xidmətlərini, çox çətinliklər bahasına başa gələn müstəqillik tarixini bilməlidir.

Xalqımızın zəngin dövlətçilik irsində Azərbaycan Xalq Cümhuriyyəti mühüm yer tutur. Əsrlər boyu təşəkkül tapan zəngin milli iqtisadi fikirlərin gerçəkləşdirilməsi üçün ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyəti dövründə real imkanlar yaranır və buna qismən də olsa nail olunur.

Azərbaycan Xalq Cümhuriyyətinin milli iqtisadi modelində mülkiyyət münasibətləri, aqrar məsələ, maliyyə-valyuta siyasəti, xarici ticarət-iqtisadi münasibətlər, iqtisadi idarəetmə sistemi, vergi işinin təşkili diqqəti cəlb edir və öyrənilməyə layiqdir.

Azərbaycan Xalq Cümhuriyyəti müsəlman dünyasında ilk dəfə olaraq totalitar rejimin tam əksi olan demokratik idarə üsulu təsbit etdi, müstəqil Azərbaycan ideyasını müstəqil Azərbaycan iqtisadiyyatı yaratmaqla reallığa çevirmək üçün ciddi addımlar atdı.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə azad sahibkarlıq institutunun təşəkkül tapması üçün mülkiyyət, vergi münasibətləri formalaşmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin vergi işində ölkənin maliyyə sabitliyini təmin etmək diqqət mərkəzində idi. Qısa müddət ərzində vergi orqanları yaradılmış, müstəqim və qeyri-müstəqim vergilərin ayrı-ayrı növləri tətbiq edilməklə ilk dəfə olaraq müstəqil dövlətin büdcəsini formalaşdırmaq mümkün olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə istinad olunan ən mühüm vergi növü gəlir vergisi sayılırdı. Mühüm makro-iqtisadi hadisələr olan inflyasiya, işsizlik, iqtisadi artım, rifah halı arasında qarşılıqlı əlaqə və asılığı nizamlamaq üçün həm iqtisadiyyatın real sektorunda, həm də qanun-vericilik qaydasında böyük təcrübi

əhəmiyyət kəsb edən ciddi addımlar atılmışdır. Vergiqoyma qaydalarının, vergi növlərinin, vergi dərəcələrinin müəyyənləşdirilməsi, pul dövriyyəsinin tənzimlənməsi, birja işinin təşkili, bank işinin qurulması milli sahibkarlıq üçün əlverişli şərait yaratmaq məqsədlərini ifadə edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti "güclü sahibkarlıq - güclü dövlət" formuluna istinad edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə xüsusi mülkiyyətin toxunulmazlığı prinsipini əsas götürən azad iqtisadiyyat tərəfdarları ilə yanaşı, iqtisadiyyatın dövlət tənzimlənməsi ideyasına üstünlük verənlər də var idi. Eyni zamanda dövlət inhisarçılığının üstünlüklərini liberal iqtisadiyyat, sosialist tənzimlənməsi ilə sintez edib, əslində qarışıq iqtisadiyyat ideyasını ortalığa qoyan qüvvələr də az deyildi. Bu ideologiyaların hansına üstünlük verilməsindən asılı olmayaraq qeyd olunmalıdır ki, onlar iqtisadi fikir baxımından xüsusi maraq kəsb edir və diqqətəlayiqdir.

## GÖYÇAY DÖYÜŞÜNÜN (27-29 iyun 1918-ci il) TARİXİ ƏHƏMİYYƏTİ

***Zülfüqarlı M.P***

*Azərbaycan Turizm və Menecment Universiteti*

Azərbaycan tarixnin qəramanlıq səhifələrindən olan "Göyçay döyüşləri" mövzusu bu gün öz aktuallığı ilə diqqəti cəlb edir. Göyçay döyüşləri haqqında əhaliyə obyektiv məlumatların verilməsi Azərbaycan Respublikası ərazisnin 20 %-nin işğal altında qaldığı hazırkı dövrdə xalqın qələbəyə inamının artırılmasında müstəsna rola malikdir.

Göyçay döyüşü Azərbaycan tarixinin şərəfli, qəhrəmanlıq səhifələrindən biridir. Bu döyüşdəki qələbə ilə düşmənin hücumu dayandırıldı, müharibənin gedişində əsaslı dönüşün başlanğıcı qoyuldu. Müəyyən mənada bu döyüşü dövlətin və millətin taleyində oynadığı rola görə II dünya müharibəsinin gedişində əsaslı dönüşün əsasını qoymuş Stalinqrad vuruşması ilə də müqayisə etmək olar. Miqyasına görə bu iki döyüş arasında çox böyük fərq olmasına baxmayaraq, əhəmiyyətinə görə çox böyük oxşarlıq var.

Göyçay döyüşündə ən böyük çətinliklərdə biri yayın istisində olan dəhşətli susuzluq idi. Hətta hər iki tərəfdən susuzluqdan və açından əsgərlər arasında ölüm hallarının olmasına aid faktlar da var.

Məsələn Qafqaz İslam Ordusu komandanı Nuru Paşa, iyunun 18-də Göyçayda meydanda toplaşmış camaata demişdir: "Azərbaycanı və azərbaycanlıları düşməndən qurtarmaq

üçün Osmanlı ordusu məmləkətinizə gəldi. Bu orduya canla-başla yardım etməniz lazımdır. Silahla yardım edə bilinmirsə, heç olmazsa, əsgərlərin ərzaq və sularını daşıyın. Bu qızmar istidə döyüşən zabit və əsgərlərdən bir çoxları susuzluqdan ölmüşlər."

Bolşevik-daşnak dəstələrinin komandiri Q.Korqonov yazırdı:"Göyçay ətrafında iyunun 27-dən 30-na qədər davam edən dörd günlük döyüş başa çatdı... Döyüşlər çox dəhşətli, əlbəyaxa süngü hücumu ilə baş verdi. Dözülməz istilər və əsgərlərin su ilə təmin etməyin mümkün olmaması onların bayılma vəziyyətinə düşməsinə səbəb olurdu."

Göyçay döyüşünün Azərbaycanın dövlətçilik tarixində çox böyük tarixi əhəmiyyəti vardır. Bunlar fikrimizcə aşağıdakılardan ibarətdir:

Göyçay döyüşündəki qələbə bolşevik, erməni-daşnak qüvvələrinin yerli müsəlman əhaliyə qarşı 1918-ci ilin martında başladığı və 1918-ci ilin 27 iyununa qədər davam edən soyqırımın qarşısını aldı;

Göyçay döyüşündəki qələbə şərqin ilk demokratik Respublikasının beşikdəcə boğulmasına imkan vermədi. (Göyçay döyüşündə düşmənə sarsıdıcı zərbə vurulmasaydı, 28 may 1918-ci ildə elan olunmuş Azərbaycan Xalq Cümhuriyyəti bir ay keçməmiş Gəncənin düşmən tərəfindən işğalı ilə süquta uğraya bilərdi);

Göyçay döyüşündəki qələbə Azərbaycan Xalq Cümhuriyyətinin ömrünü uzatmaqla onun dünya dövlətləri tərəfindən tanınmasına şərait yaratdı;

Göyçaydakı qələbə Azərbaycanda marağı olan Rusiya, Böyük Britaniya, Fransa, Almaniya və s. dövlətlərin planlarını alt-üst etdi;

Göyçaydakı qələbə Bakının azad edilməsinin əsasını qoydu;

Göyçay döyüşündəki qələbə Türkiyə ilə Azərbaycan arasında mənəvi birliyi, qardaşlığı daha da möhkəmlətdi;

Göyçay döyüşündəki qələbə xalqın mübarizlik, döyüş ruhunu özünə qaytardı, ordu quruculuğunda mühüm rol oynadı və s.

## НЕФТЯНАЯ ПРОМЫШЛЕННОСТЬ В ПЕРИОД АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

***Кулиев Р.Ш.***

*Азербайджанский технический университет*

Создание Азербайджанской Демократической Республики предполагало не только строительство основ новой политической системы, но также и закладывание

фундамента новой экономики. Эти два понятия - политика и экономика неразрывно связаны друг с другом. От того насколько успешно проводятся политические реформы в стране, зависит успех экономических преобразований, и, наоборот, стабилизация в экономической сфере приводит к стабильности политической.

С первых дней после переезда в Баку правительство стало уделять первостепенное внимание возрождению нефтяной промышленности. Правительство Азербайджанской Демократической Республики, взявшее курс на вывод нефтяной промышленности из кризиса, с первого дня своего существования наметило конкретные шаги на этом пути. Парламент Республики взял под свой контроль производство и сбыт нефти, неоднократно заслушивал доклады правительства по этому поводу, принял ряд законодательных актов, способствовавших повышению рентабельности нефтяной промышленности.

Согласно правительственному декрету от 5 октября 1918 г. все решения Бакинского Совнаркома, связанные с национализацией нефтяной промышленности и торгового флота, объявлялись незаконными. Промыслы, заводы, суда и другие виды собственности возвращались бывшим владельцам. Тем самым правительство восстанавливало принцип частной собственности в нефтяной промышленности. Государство взяло на себя установление цен на нефть на внутреннем и внешнем рынках.

Посильную помощь правительству в проведении экономической, в частности, нефтяной политики оказывала национальная буржуазия. Предприниматели пытались оказывать влияние на нефтяную политику правительства по выходу из спада в этой важнейшей отрасли, а также защитить интересы в борьбе с иностранными конкурентами. Национальная буржуазия полностью поддерживала политическую концепцию правительства, направленную на укрепление азербайджанской государственности, но в области финансово-экономической политики она находилась в конструктивной оппозиции правительству.

В конце 1918 г. нефтяная промышленность оказалась в тяжелом положении. Вмешательством британского командования была установлена жесткая регламентация вывоза нефти и нефтепродуктов в результате которой бакинская нефть лишалась своих традиционных рынков сбыта, по сути экспорта нефтепродуктов. Невозможность сбыта за пределы республики накопившихся больших запасов

нефтепродуктов, явилось причиной упадка нефтедобычи. В 1919 г. вывоз нефти из Баку составил 840 тыс. тонн. Почти 5/6 имевшейся нефти оставалось в резервуарах. В результате кризиса перепроизводства ежемесячная добыча нефти в Баку в первой половине 1919 г. не превышала 300 тыс. тонн, т.е. половины довоенного уровня.

Кризис переживала и нефтеперерабатывающая промышленность, которая производила ежемесячно 100-150 тыс. тонн против 250 тыс. тонн в январе 1918 г.

Вопрос о вывозе нефти из Баку имел жизненное значение для молодой республики. С лета 1919 г. Азербайджанское правительство начало заключать экономические соглашения и торговые контракты с зарубежными фирмами, касающиеся сбыта нефти. Для вывоза нефти в Европу в распоряжение Азербайджана был предоставлен Батумский порт. 12 декабря 1918 г возобновилась перекачка нефти по маршруту Баку-Батум. За период работы нефтепровода Азербайджан перекачал большое количество нефти в Грузию. Заключение транзитного договора между Грузией и Азербайджаном имело как политическое, так и большое экономическое значение в жизни двух соседних республик.

Однако Азербайджанское правительство не выработало четкой программы развития нефтяной промышленности. В результате отсутствия налаженной системы продажи нефти происходило ее скапливание в резервуарах в большом количестве, а это крайне отрицательно сказывалось на нефтедобыче.

К середине мая 1919 года в хранилищах республики запаса было 15 миллионов пудов керосина, запасов сырой нефти для переработки его в керосин 70 миллионов пудов. Это говорило о потенциальной возможности возобновления работы керосинопровода. К сожалению в период существования республики, до конца осуществить этот проект не удалось.

14 апреля 1919 г. парламент Азербайджана утвердил новый правительственный кабинет под председательством Н.Усуббекова, Н. Усуббеков возглавлявший четвертый правительственный кабинет провозгласил курс на изменение экономических ориентиров республики, он имел в виду возобновление экономических отношений с Россией, которая также остро нуждалась в азербайджанской нефти. Однако осуществить этот курс не удалось. Экспансионистский характер внешней политики большевистской России не позволил ей установить нормальные экономические связи с Азербайджаном. Она предпочла

овладеть всей азербайджанской нефтью путем аннексии государства.

## ИСТОРИЧЕСКОЕ ЗНАЧЕНИЕ АДР

***Кулиева Т.А.***

*Сумгаитский государственный университет*

Азербайджанская Демократическая Республика (АДР) осуществляла деятельность в напряженной и сложной общественно-политической обстановке, создавшейся внутри и за пределами страны. Меры, проведенные государством за короткий период, оставили большой след в истории нашего народа. Предоставление всем гражданам, независимо от национальности, политической и религиозной принадлежности, пола равных прав, определение государственных границ, принятие атрибутов азербайджанской государственности, объявление родного языка государственным языком создали прочную основу для будущей независимости Азербайджана. Шаги, предпринятые в области демократического государственного строительства, экономики и культуры, образования, военного строительства - это основные направления, отображающие 23-месячную деятельность Азербайджанской Демократической Республики. Одним из основателем Азербайджанской Демократической Республики был Мамед Эмин Расулзаде. Азербайджанская Демократическая Республика пала в апреле 1920 года, в Азербайджане была построена советская власть. В декабре 1922 года был создан Союз Советских Социалистических Республик, и Азербайджан вступил в этот Союз. В период, в течении которого Азербайджан находился в составе СССР, он сумел сохранить многие государственные атрибуты, развивал экономику, науку и культуру. Хотя, как независимое государство республика, созданная в Азербайджане в 1918 году, и пала, но республиканский строй жил, чувства независимости никогда не покидали наш народ.

Наш народ, восстановивший в 1991 году свою государственную независимость, использовал богатые традиции краткосрочной деятельности Азербайджанской Демократической Республики и на этом историческом наследстве создал независимое Азербайджанское государство.

Гейдар Алиев указывал также на исторические предпосылки создания АДР: "Возникновение первой на мусульманском Востоке демократической республики

именно на азербайджанской земле было связано с тем, что в тот период и канун тех лет - в конце XIX - начале XX века наш народ жил надеждами и чаяниями национальной независимости, свободы. В те годы передовые сыны отечества, просветители народа пробуждали в народных массах чувства национального самосознания, возрождения, стремление к свободе и независимости, распространяли и укрепляли умонастроения национально-освободительного движения на рубеже веков, и все это с логической неизбежностью привело к появлению АДР".

Внутренняя и внешняя политика Азербайджанской Демократической Республики полностью соответствовала принципам азербайджанизации, исламизации и модернизации.

После февральской революции 1917 года в России, на Южном Кавказе, в том числе в Азербайджане, национальная интеллигенция, особенно ее демократическая прослойка, играла ведущую роль в политической и культурной жизни общества. Эпоха мощного подъема освободительного движения даровала азербайджанскому народу блестящее поколение талантливых, высококомпетентных профессионалов, общественно-политических деятелей, посвятивших свою жизнь борьбе за свободу и независимость народа, защите национальных интересов. И сегодня суверенная Азербайджанская Республика как продолжатель лучших традиций Демократической Республики 1918-1920 гг. высоко оценивает роль и место интеллигенции в государственной и общественной жизни. Как верно отмечал Президент Азербайджанской Республики Г.Алиев, "Азербайджанский народ, усилиями своих великих сынов - просветителей, деятелей науки и культуры, литературы и искусства, сохранил свои национально-духовные ценности, обогатил их, и теперь они уже стали частью общечеловеческих ценностей".

## ЯЗЫКОВАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

***Мамедова Н.Х.***

*Azərbaycan Dillər Universiteti*

Проблема государственного языка, одного из важнейших атрибутов независимого государства, была в центре внимания Правительства, только что созданной, Азербайджанской Демократической Республики. В соответствии с Указом

от 27 июня 1918 года Правительство Республики объявило азербайджанский язык (в то время назывался тюркским языком) государственным языком. Это решение является первым документом об использовании родного языка в качестве государственного языка после разделения Азербайджана на двое согласно Гюлистанкому (1813 г.) и Туркменчайскому (1828 г.) договорам. Следует отметить, что указ о государственном языке является одним из первых указов, принятых правительством после переезда в Гянджу. Этот факт ясно показывает, насколько Правительство Азербайджанской Демократической Республики принимало во внимание проблему государственного языка.

Согласно Указу о провозглашении азербайджанского языка как государственного языка, должностные лица, выполняющие юридические, административные и другие обязанности, могли пользоваться русским языком в государственных учреждениях до тех пор, пока государственный язык не был должным образом изучен в стране. Однако это было временной мерой для реальной ситуации и предназначалось только на период до подготовки национальных кадров. Правительство принимало меры по изучению государственного языка азербайджанских граждан иной нации. В сентябре 1919 года были организованы курсы по обучению тюркскому языку и выделено 351 000 манатов.

Члены парламента периодически высказывали свое отношение к тюркскому языку. На парламентском заседании, состоявшемся 21 августа 1919 года, особое внимание было уделено вопросу повестки дня - выступлению депутатов об открытии Бакинского Университета. Национализация образовательных учреждений была одной из основных предстоящих проблем, связанных с объявлением родного языка как государственного языка. Правительство Демократической Республики Азербайджан 28 августа 1918 года приняло постановление о проведении начального и среднего образования на родном языке. Согласно постановлению, обучение во всех начальных учебных заведениях проводилось на родном языке, а государственный язык преподавался в обязательном порядке.

Приказом №34 от 27 декабря 1918 года военный министра Азербайджанской Демократической Республики Самед Бека Мехмандарова азербайджанский-тюркский язык был принят государственным языком и в армии. В связи с этим, военный министр потребовал, чтобы офицеры, служащие в армии, но не знающие

государственного языка, в течение месяца, изучили, по крайней мере, командные слова и давали солдатам команду на азербайджанском языке. Должностные лица, которые не могли выполнить это требование в течение одного месяца, должны были быть немедленно уволены из армии. Для обучения азербайджанскому языку и ликвидации неграмотности в армии были созданы соответствующие курсы, в курсе были задействованы опытные профессионалы. 11 февраля 1919 года правительство приняло решение утвердить устав кавалерийских войск национальной армии Азербайджана на тюркском языке.

Впервые практика использования азербайджанского языка как государственного языка была, в прямом смысле, широко отражена на языке Азербайджанского Парламента. Язык, применяемый парламентом, носивший статус государственного языка, был тюркским азербайджанским языком. Когда неместные представители Парламента предложили выступать на русском языке, этот вопрос был в частности обсужден на одной из сессий парламента, и соответственно было принято решение. Согласно решению, официальный язык Парламента был провозглашен азербайджанским языком, а выступления представителей других национальностей на русском языке считались допустимыми. Однако все официальные документы были составлялись на государственном языке.

## ГОСУДАРСТВЕННАЯ СИМВОЛИКА АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

***Мусаева А.Т.***

*Сумгаитский государственный университет*

Атрибуты государства – то же, что и официальные символы государства, дающие представление о природе (сущности) государства и тех ценностях, которых оно придерживает. Атрибутами государства являются государственные флаг, герб и гимн. Они устанавливаются конституцией государства, а их подробное описание т порядок использования определяются в специальном законе или ином акте общегосударственного значения. Государственная символика является незыблемой основой государства и уникальным общественным событием, связанного с утверждением основ государственности, имеет глубокие исторические корни. Вопросы применения государственных символов испокон веков в любой стране

считались важнейшей составной частью государственности.

Азербайджанская Демократическая Республика (АДР) – независимое государство, провозглашенное Всемирным национальным советом мусульман Закавказья (Национальный Азербайджанский Совет) 28 мая 1918 года в Тифлисе при прекращении существования Закавказской федерации

Азербайджанская Демократическая Республика является первым светским демократическим государством исламского мира, а также первым мусульманским государством, где женщины имели избирательные права.

**Флаг.** 21 июня 1918 года правительством в г.Гяндже было принято постановление о флаге: «*Признать флагом Азербайджана флаг, изготовленный из красной материи с изображением белого полумесяца и белой восьмигранной звезды на красном фоне*».

9 ноября 1918 года на основе доклада председателя правительства Фатали хана Хойского был утвержден флаг, состоящий из горизонтальных равновеликих голубой, красной и зеленой полос с изображением в центре белых полумесяца и 8-конечной звезды. В своем выступлении Ф.Хойский сказал, что полумесяц символизирует ислам, 8-конечная звезда указывает на 8 букв названии «Азербайджан» (а арабском алфавите).

7 декабря 1918 новый флаг был подтвержден парламентом и поднят над зданием парламента. В своей речи на заседании парламента Мамед Эмин Расулзаде отмечал: «… это трехцветное знамя, символизирующее независимый Азербайджан, поднятое Национальным советом и означающее тюркскую свободу, исламскую культуру и современность, будет всегда развеваться над нами…»

Автор мелодии государственного гимна Азербайджана Узеир Гаджибеков писал: «Азербайджанская Республика возникла на здоровой национальной основе и тюркском сознании … В то же время Азербайджан стремится создать новое общество, действовать европейским разумом. Три цвета нашего флага символизируют это».

1922 году Мамед Эмин Расулзаде эмигрировал из РСФСР, выехав через Финляндию в Турцию, где с Гюльмамедом Багировым изготовил флаг АДР, который впоследствии был передан на хранение в Музей истории Азербайджана, а ныне представлен в экспозиции Музея государственного флага Азербайджана, открытого

президентом Азербайджана 9 ноября 2010 года – в 92-ю годовщину принятия трехцветного флага.

17 ноября 1990 года трехцветный флаг АДР был утвержден государственным флагом Нахичеванской Автономной Республики, а 5 февраля 1991 года – утвержден государственным флагом Азербайджанской Республики.

**Герб.** 30 января 1920 года правительство Азербайджанской Демократической Республики приняло постановление об объявлении конкурса на представление проектов национального гимна, государственного герба и печати: «Поручить министру народного просвещения объявить конкурс на представление проектов национального гимна, государственного герба и печати с премией в 50 тыс. руб первому и 25 тыс. руб. вторым».

Однако, в результате падения 28 апреля 1920 года Азербайджанской Демократической Республики герб не был принят.

**Гимн.** 30 января 1920 года Совет Министров Азербайджанской Демократической Республики принял постановление о выработке национального гимна республики. С этой целью Министерством Народного просвещения был объявлен конкурс. Однако падение АДР 28 апреля 1920 года не позволило принять национальный гимн Азербайджана.

Существует, однако мнение, что неофициальным гимном АДР был Марш Азербайджана написанный Узеиром Гаджибековым на слова Ахмеда Джавада (ныне – государственный гимн Азербайджана). Отмечалось, что в годы АДР этот марш пели в военных школах перед началом занятий.

После провозглашения независимости Азербайджанской Республики (1991 год) 28 мая 1992 года отмечается День Республики.

# II BÖLMƏ
# AZƏRBAYCAN XALQ CÜNHURİYYƏTİNİN XARİCİ SİYASƏTİ

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XARİCİ SİYASƏTİ

***Abdullayeva S.F.***

*Azərbaycan Dövlət Aqrar Universiteti*

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti 1918 ci ildə öz istiqlaliyyətini elan etdi. Yeni yaranmış bir dövlət üçün ayaq üstə durmaq çətin olsa da Cümhuriyyət liderləri bu yolda əllərindən gələni əsirgəmirdilər. 23 aylıq hakimiyyət dövründə Azərbaycan Xalq Cümhuriyyəti üçün daha da çətin və əmək sərf etdikləri məsələlərdən biri də Azərbaycanın beynəlxalq aləmdə de-fakto tanınmasına, nüfuzunun artırılmasına nail olmaq idi. Dünyanı yenidən bölmək uğrunda təşkil olunmuş konfranslarda, eyni zamanda bir çox xarici dövlətlər tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin öz müstəqilliyini tanıtması, demək olar ki, yenicə istiqlaliyyət əldə etmiş gənc dövlətin ən böyük uğuru idi.

Milli Şuranın mayın 28-də keçirilən ilk iclasında çıxış edənlər Azərbaycanın müstəqil respublika elan edilməsinin vacib olduğunu bildirdilər. İclasda Azərbaycanın istiqlaliyyətinin elan edilməsi haqqında qərar qəbul olundu və altı bənddən ibarət olan "İstiqlal bəyannaməsi"ndə müstəqil dövlətin xarici və daxili siyasətinin əsas istiqamətləri göstərildi. Azərbaycan Respublikası yarandığı ilk gündən etibarən fəal xarici siyasət kursu həyata keçirməyə başladı. Azərbaycan Xarici İşlər Nazirliyi Osmanlı hökumətinin Xarici İşlər Nazirliyinə Azərbaycan Milli Şurasının və F.X.Xoyskinin başçılıq etdiyi hökumət kabinəsinin yaradılması haqqında məlumat verdi. Mayın 30-da isə Nazirlər Şurasının sədri F.X.Xoyskinin Azərbaycan Respubilkasının yaranması ilə bağlı məlumatı radioteleqrafla bütün ölkələrin Xarici İşlər Nazirliklərinə göndərildi. Həmin dövrdə yenicə müstəqilliyini elan etmiş dövlətin beynəlxalq münasibətlər sisteminə qoşulması prosesi asan deyildi və müxtəlif çətinliklərdən keçirdi. Hətta bunu nəzərə alaraq, xarici işlər naziri M.H.Hacınski Türkiyə Xarici İşlər Nazirliyinə müraciət edərək Osmanlı dövlətinin Avropa ölkələrində, eləcə də Moskvada fəaliyyət göstərən türk səfirlikləri vasitəsilə Azərbaycanla Avropa dövlətləri arasında vasitəçi olmağa razılıq verib-verməməsini soruşurdu. Qeyd olunmalıdır ki, həmin vaxt müxtəlif ölkələrdəki türk səfirlikləri Azərbaycan Respublikasının yaradılması

haqqında dünya ictimaiyyətinə məlumatın çatdırılmasında mühüm rol oynamışdır. Batum danışıqlarının yekununda, iyunun 4-də Türkiyə, Azərbaycan və Ermənistan arasında "Sülh və dostluq" haqqında müqavilə imzalandı.

Azərbaycan hökumətinin xarici siyasətində təbliğati və iqtisadi məsələlərə xüsusi diqqət yetirilirdi. Təəssüf ki, Azərbaycanın müstəqilliyinin tanınması üçün diplomatik səylərin göstərildiyi bir vaxtda, bolşevik Rusiyasının getdikcə güclənməsi məsələləri daha da çətinləşdirirdi. Azərbaycan Respublikasının müstəqilliyinin Paris sülh konfransında tanınması Azərbaycan hökumətinin, xüsusilə Azərbaycan nümayəndə heyətinin uğurlu xarici siyasəti və diplomatik fəaliyyəti nəticəsində mümkün oldu. Həmin dövrdə Avropa dövlətlərinin Bakıda konsulluqları fəaliyyətə başladı,Azərbaycan hökuməti ilə ABŞ, Böyük Britaniya və İtaliya arasında iqtisadi əlaqələrin qurulması yönündə mühüm işlər görüldü. Azərbaycanla İran arasında diplomatik münasibətlər yaradıldı. Martın 20-də Azərbaycan Respublikası ilə İran arasında dostluq haqqında müqavilənin imzalanması Azərbaycanın xarici siyasətinin böyük uğurlarından biri idi. Müqavilənin birinci maddəsinə görə, İran hököməti Azərbaycan Respublikasının müstəqilliyini de-yure tanıdığını bəyan etdi. Məhz hər iki dövlət arasındakı əlaqələrin möhkəmlənməsi sayəsində az bir müddət ərzində Tehranda Azərbaycan səfirliyi fəaliyyətə başladı. 1920-ci il aprelin 15-də Azərbaycan parlamentində Avropa dövlətlərinə və ABŞ-a diplomatik nümayəndəliklər göndərmək haqqında qanun layihəsi müzakirə edildi. Parlamentin aprelin 19-da keçirilən iclasında isə Böyük Britaniya, Fransa, İtaliya, ABŞ, İsveçrə, Polşa, Almaniya və Rusiyada diplomatik nümayəndəliklər təsis etmək haqqında qanun qəbul olundu. Azərbaycan hökumətinin 1920-ci ilin aprel böhranına qədərki dövrdə xarici siyasət sahəsində qazandığı nailiyyətlər xalqımızın milli istiqlaliyyətinin tanınmasında mühüm rol oynamışdır. 1918-1920-ci illərdə xarici siyasət kursunun müəyyənləşməsində və mühüm diplomatik uğurların qazanılmasında Ə.M.Topçubaşov, F.X.Xoyski və M. Hacınski kimi şəxsiyyətlərin böyük əməyi vardır. 1918-20-ci illərdə aparılan xarici siyasət dünyada Azərbaycanın sivil, demokratik respublika kimi tanınmasında böyük rol oynamışdır.

# AXC-nin XARİCİ SİYASƏTİ (1918-1920-ci illər)

***Adıgözəlova G.R.***
*Sumqayıt Dövlət Universiteti*

1918-1920-ci illərdə AXC-nin xarici siyasətinin əsas məqsədi Azərbaycanın müstəqilliyinin gerçəkləşməsindən ibarət idi. Azərbaycan hökuməti Azərbaycanın müstəqilliyinin tanınması və qorunub saxlanmasında Qərb ölkələrinin himayəsini əldə etmək işinə birinci dərəcəli əhəmiyyət verirdi. Azərbaycan hökumətinin üzvü Ə.M.Topçubaşov İstanbul, Vyana, Berlinə, eləcə də Ermənistan və Gürcüstanın mərkəzlərinə səlahiyyətli səfır təyin edilmişdi. Verilən mandata görə Ə.M.Topçubaşov Azərbaycanın maraqları ilə bağlı geniş səlahiyyətlərə malik idi. O, İstanbulda ikən Ukrayna, İran, Rusiya, ABŞ, İtaliya, İsveç, Hollandiya, Ermənistanın rəsmi nümayəndələri ilə görüşmüş, fıkir mübadiləsi etmiş və onlara memorandum təqdim etmişdi. Memorandumda Qafqazın coğrafıyası, onun çar dövründə inzibati bölgüsü, regionun demoqrafık vəziyyəti, Azərbaycan respublikasında mövcud vəziyyət, aparılan quruculuq işləri, erməni probleminin mahiyyəti, mart soyqırımı, Qarabağ məsələsi barədə məlumat verilir, Azərbaycan Respublikasının müstəqil yaşamağa haqqı olduğu əsaslandırılırdı.

Osmanlı Türkiyəsi də Azərbaycanın müstəqilliyinin tanınması üçün əlindən gələni əsirgəməyəcəyini bildirmişdi. Lakin Mudros sazişindən sonra Osmanlı hökumətinin Azərbaycana köməyi minimuma enmişdi. Türkiyə müttəfıqlərindən asılı vəziyyətə düşmüşdü. Müttəfıqlər Osmanlının Azərbaycana diplomatik nümayəndə təyin etməsinə pantürkizm kimi baxmış, Osmanlı hökumətinə bunu qadağan etmişdi.

1918-ci ilin iyulunda Azərbaycanın İstanbuldakı nümayəndə heyəti buradakı İran konsulluğuna AXC-nin yaranması haqqında bəyannaməni təqdim etsə də, İran konsulu Azərbaycan adlı müstəqil dövləti tanımadığını bildirmişdi. İranın narahatçılığını aradan qaldırmaq üçün Azərbaycan hökuməti beynəlxalq sazişləri imzalayarkən Qafqaz Azərbaycanı məfhumunu xüsusi ilə vurğulayırdi. 1919-cu il sentyabr ayında İranın yeni xarici işlər naziri Firuz Mirzənin nümayəndə heyətinin başçısı sifəti ilə Avropaya gəlməsindən sonra İran heyətinin Azərbaycan istiqlalına münasibəti tam dəyişdi. Hətta hər iki dövlət arasında siyasi və iqtisadi ittifaqın yaradılmasını nəzərdə tutan sənəd də qəbul edildi.

Azərbycan hökuməti qonşu dövlətlərlə mehriban qonşuluq münasibətlərinin yaranmasına çalışır və mübahisəli məsələlərin danışıqlar yolu ilə həll edilməsi tərəfdarı kimi

çıxış edirdi. Gürcüstandan fərqli olaraq Ermənistanla münasibətlər çox çətin qurulurdu. Normal qonşuluq münasibətlərinin yaranmasına ermənilərin torpaq əldə etmək hərisliyi, törətdikləri vəhşiliklər mane olurdu. Birinci dünya müharibəsindən sonra qalib dövlətlər müharibədən sonrakı dünyanın vacib məsələlərini həll etmək üçün Parisdə sülh konfransının çağrılmasına qərar verdilər. Dekabrın 7-də Azərbaycan parlamentində Parisə getmək üçün seçilən nümayəndə heyəti 1919-cu il yanvarın 20-də İstanbula gəldi. Lakin burada Parisə yola düşmək üçün Fransa hökumətindən üç ay yarım icazə gözləməli oldu. Yalnız aprelin 22-ə ingilislərin köməyi ilə Parisə yola düşə bildilər və may ayında Parisə çatdılar.

Mayın 28-də Azərbaycan nümayəndə heyəti ABŞ prezidenti V.Vilsonla görüşə bildi. Vilsondan Azərbaycanın istiqlaliyyətinin tanınması, Vilson prinsiplərinin Azərbaycana aid edilməsi, Azərbaycanın Millətlər Liqasına qəbul olunması, ABŞ-la Azərbaycan arasında diplomatik və iqtisadi əlaqələrin bərqərar edilməsi xahiş edilirdi. Lakin prezident Vilson sülh konfransının dünyanın kiçik hissələrə parçalanmasının əleyhinə olduğunu bildirmiş və Azəpbaycan nümayəndələrinə konfederasiya ideyasını müdafiə etməyi məsləhət görmüşdü. Azərbaycan, Gürcüstan və Dağlılar respublikasının nümayəndə heyətləri konfransın rəhbərlərinə göndərdikləri bütün memorandumlarda Qafqazda konfederasiya ideyasına müsbət yanaşdıqlarını qeyd etmişdilər. Lakin ermənilər ərazi sərhəd məsələsinə daha çox əhəmiyyət verir və konfederasiya ideyası əleyhinə təbliğat aparır, Qafqazdakı vəziyyət barədə Avropa və ABŞ ictimaiyyətində yanlış təsəvvür yaradırdılar. Azərbaycan və Gürcüstan nümayəndələrinin etirazına baxmayaraq ermənilər Türkiyənin 7 şərq vilayətini, keçmiş İrəvan quberniyası, Tiflis və Yelizavetpol quberniyalarının cənubunu və Qars torpaqlarını tələb edirdilər.

Azərbaycan nümayəndə heyəti ermənilərin təbliğatına qarşı Avropa və Amerikanın özündə əks-təbliğat işini təşkil etməyə məcbur oldu. Azərbaycan nümayəndələri ingilis, fransız dillərində bir neçə kitabça hazırlayıb çap etdirmiş, Avropada və Amerikada yayılmasını təşkil etmişdilər. Bu kitabçalarda Azərbaycanın tarixi, əhalisinin antropologiyası və etnik tərkibi, təsərrüfatı, Azərbaycan Respublikasındakı vəziyyət, ermənilərin təcavüzkar hərəkətləri haqqında məlumatlar verilirdi. Azərbaycan nümayəndə heyətinin ən əhəmiyyətli təbliğat işlərindən biri «Paris sülh konfransına Qafqaz Azərbaycanı sülh nümayəndəliyinin tələbləri» adlı kitabın hazırlanması idi. Kitabda Azərbaycanın tarixi haqqında dəyərli məlumatlar verilirdi. Bu sənəd üç mühüm tələb ilə bitirdi: 1) Sülh konfransı Azərbaycanın müstəqilliyini tanısın. 2) Nümayəndə heyəti sülh konfransının işinə

cəlb olunsun. 3) Azərbaycan Respublikası Millətlər Liqasının üzvlüyünə qəbul edilsin. Azərbaycan nümayəndə heyətinin diplomatik fəaliyyətinin mühüm uğuru 1920-ci ilyanvarın 11-də Paris konfransının Ali Şurası tərəfindən Azərbaycanın istiqlalının defakto tanınması və Azərbaycanın beynəlxalq münasibətlərin subyektinə çevrilməsi idi. Bakıda 20-dən artıq xarici dövlətin diplomatları toplanmışdı.

Ümumiyyətlə, AXC ölkə tarixinin ən şanlı və ən qürurverici səhifələrindən birini təşkil edir. Ona görə də bu dövrü öyrənmək, gələcək nəsillərə öyrətmək hər baxımdan önəmlidir.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN KUBAN XALQ RESPUBLİKASI İLƏ ƏLAQƏLƏRİ (1918-1920)

***Ağasiyev İ.K.***

*Sumqayıt Dövlət Universiteti*

25 oktyabr 1917-ci il tarixdə Petroqradda sovet hakimiyyəti elan olundu və tezliklə sovet hakimiyyəti Rusiyanın əyalətlərində bərqərar olmağa başladı. 28 yanvar 1918-ci il tarixdə Kuban diyar hərbi radası keçmiş Kuban vilayəti ərazilərində Kuban Xalq Respublikasını elan etdi. Bu respublika gələcək Rusiya Federativ respublikasının tərkibinə daxil olmalı idi. Lakin Rusiyada sovetləşmənin sürətlə getməsi və Rusiya Federativ Respublikasının yaranmasına ümidlərin azalması fonunda 16 fevral 1918-ci il tarixdə Kuban Xalq Respublikası müstəqil elan olundu. Onun əraziləri keçmiş Rusiya imperiyasına daxil olan Kuban vilayəti və Kuban kazak qoşunlarının ərazilərindən ibarət olmuşdur. Kuban Xalq Respublikasında qanunverici orqan funksiyasını Kuban Diyar Radası (şurası) və Kuban Qanunverici Radası təşkil edirdi. İcra hakimiyyətinə Baş Ataman başçılıq edirdi.

Respublikanın daxili siyasətində əsas nüfuzlu qüvvələr "qaradənizlilər" və "xəttçilər" idi. İqtisadi və siyasi cəhətdən daha güclü "Qaradənizlilər" ukraynadilli Qara dəniz kazaklarından ibarət idi. Siyasi cəhətdən onlar federalizm prinsiplərini müdafiə edirdilər. "Xəttçi"lər isə daha çox Çar Rusiyası idealları uğrunda mübarizə aparırdılar.Beləliklə, Kubanda daxili stabillik yox idi: Ukraynameyilli və Rusiyameyilli əhali arasında ziddiyyətlər getdikcə güclənirdi.

Xarici siyasətdə Kuban Xalq Respublikasının ən ümdə vəzifələri bolşevizmə qarşı mübarizədə regionda yaranan yeni dövlətlərlə-Ukrayna Xalq Respublikası, Azərbaycan Xalq Cümhuriyyəti, Don Respublikası, Dağlı Respublikası, Gürcüstan Demokratik Respublikası ilə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi idi.

Kuban Xalq Respublikası Ukrayna Xalq Respublikası ilə daha sıx əlaqələrdə olsa da, (iki dövlət federativ əsaslarla birləşmək xəttini həyata keçirməyi planlaşdırırdılar) onun Azərbaycan Xalq Cümhuriyyəti ilə də intensiv diplomatik əlaqələri mövcud olmuşdur.AXC keçmiş Rusiya ərazilərində yaranan yeni dövlətlərlə, o cümlədən Kuban Xalq Respublikası ilə əməkdaşlığa xüsusi önəm verirdi.Çünki, AXC üçün mövcud təhlükələrin ən ciddisi şimal istiqamətindən gözlənilirdi.Vətəndaş müharibəsi girdabına qərq olan Rusiyada "ağ"larla "qırmızı"ların hərbi-siyasi qarşıdurması get-gedə şiddətlənirdi və daha geniş miqyas alırdı.Çar Rusiyasını köhnə sərhədlərdə bərpa etməyi düşünən general Denikin və admiral Kolçakın fəaliyyəti AXC üçün daha təhlükəli idi.Sovet Rusiyası da AXC-ni tanımaqdan imtina etmişdir və gələcədə keçmiş çar Rusiyanın ərazilərini bolşevik bayrağı altında birləşdirməyi planlaşdırırdı.

AXC Vətəndaş müharibəsini Rusiyanın daxili işi hesab edir və orada baş verən proseslərə qarışmamağa çalışırdı.Eyni zamanda, istər monarxiya tərəfdarları Denikin, Kolçak, istərsə də bolşeviklər tərəfindən gözlənilən labüd təhlükə şəraitində Rusiya ərazisində yaranan,AXC-nin dövlət maraqlarına zidd siyasət yeritməyən, xüsusi ilə Şimali Qafqaz regionunda yaranan, bolşevizmi qəbul etməyən yeni dövlətlərlə əməkdaşlıqda maraqlı idi. Kuban Xalq Respublikası və Şimali Qafqazda yeni yaranmış digər gənc dövlətlətin güclənməsi AXC-nin də dövlət təhlükəsizliyinin möhkəmlənməsinə xidmət edirdi, çünki bu dövlətlər Sovet Rusiyası ilə AXC arasında təhlükəsizlik zolağı yaradırdılar.

1920-ci il 3 mart tarixdə Qırmızı Ordu Kuban – Novorossiya əməliyyatına başladı.17 mart 1920-ci il tarixdə Qırmızı Ordu Yekaterinodara daxil oldu. Kuban ordusu Gürcüstan sərhədlərinə sıxışdırıldı. Kuban Xalq Respublikası, Kuban hökuməti və Kuban kazak qoşunları ləğv edildi. Kubanda sovet hakimiyyəti bərqərar oldu.

Kuban Xalq Respublikasının və digər Şimali Qafqaz dövlətlərinin süqutundan sonra bolşeviklər üçün Cənubi Qafqaza yol açılmış oldu.Bu hadisələrdən bir necə həftə sonra XI Qızıl Qrdu Azərbaycan Xalq Gümhuriyyətini işğal etdi.

# AXC-nin ƏRAZİ BÜTÖVLÜYÜ UĞRUNDA AZƏRBAYCAN ORDUSUNUN MÜBARİZƏSİ

***Alıcanov M.***

*Azərbaycan Dövlət Pedaqoji Universiteti ( Şamaxı filialı)*

Azərbaycan Xalq Cümhuriyyəti xronoloji baxımdan qısa müddət fəaliyyət göstərsə də, dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət və digər sahələrdə olduğu kimi hərbi quruculuq sahəsində də gördüyü tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpasında və inkişafında müstəsna rol oynamışdır. Yeganə amalları və silahları xalqın gələcəyinə inamı olan cümhuriyyət qurucuları bütün məhrumiyyət və çətinliklərə sinə gərərək silahlı qüvvələrin formalaşmasında müstəsna rol oynadılar. Xalq Cümhuriyyəti yaranan zaman silahlı qüvvələrimizin tərkibində cəmi 600 nəfərdən ibarət əsgər və zabit var idi.[1] Belə bir mürəkkəb şəraitdə ölkəni hər tərəfdən gözləyən təhlükədən qorumaq mümkün deyildir. Bu dövrdə beynəlxalq vəziyyət və ölkə daxilindəki bütün çətinliklərə baxmayaraq AXC-nin qarşısında duran əsas və başlıca vəzifələrdən biri də ordu quruculuğunun həyata keçirilməsi və formalaşdırılması, respublikanın ərazi bütövlüyünün və onun sərhədlərinin təhlükəsizliyinin təmin olunması, erməni təcavüzünün qarşısının alınması, ordunun döyüş qabiliyyətinin yüksəldilməsi və müasir tələblərə cavab verən səviyyəyə gətirilməsi idi. Azərbaycan Xalq Cümhuriyyətinin və xalqının müstəqilliyinin qorunub saxlanılmasında qürür mənbəyimiz olan milli hərbi hissələrimiz əsas rol oynadı. Bu məsuliyyəti dərk edən AXC hələ tam formalaşmamış Müsəlman korpusunun vasitəsilə Gəncəyə doğru hərəkat edən Bakı Sovetinin bolşevik-daşnak birləşmələrinin, türk xalqlarının əbədi düşməni olan Andronikin quldur dəstələrinin hücumlarının qarşısının alınması qeyri-mümkün idi. Belə bir çətin və mürəkkəb şəraitdə Osmanlı dövlətinə müraciət olundu. Mart soyqırımı vaxtı Azərbaycan xalqının köməyinə gəlmiş türk hərbi hissələri ilə milli qoşun hissələrimiz əsasında Qafqaz İslam Ordusu yaradıldı. Bütün çətinliklərə baxmayaraq səfərbərlik-hərbi çağırış işləri yenidən quruldu. Gəncədəki erməni silahlı dəstələri tərksilah edildi. Bolşevik-daşnak , "Sentrokaspi diktaturası" nın qoşunları ilə Qaraməryəmdə, Kürdəmirdə, Salyanda, Ağsuda, Şamaxıda gedən ağır döyüşlərdə qələbə çalan Azərbaycan korpusu Bakıya yaxınlaşdı. Bakıda siyasi vəziyyətin həddindən artıq dərəcədə gərginləşdiyini başa düşən Bakı Xalq Komissarları öz səlahiyyətlərindən əl çəkərək hakimiyyəti Sentrokaspi Diktaturasına verdi və ingilis qoşunlarını Bakıya dəvət etdilər. Müəyyən hazırlıq işlərindən sonra qəti hücuma keçən Azərbaycan korpusu və yerli

əhalidən təşkil olunmuş partizan dəstələrinin köməyi ilə Bakı şəhəri düşmənlərdən azad oldu və müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtına çevrildi.

I Dünya Müharibəsində Türkiyənin məğlubiyyəti və Mudros barışığının şərtlərinə görə Türk ordusunun Azərbaycandan çıxarılması hökümətin vəziyyətini olduqca ağırlaşdırdı. Əslində Mudros sülh müqaviləsi İngiltərənin Azərbaycanın daxili işlərinə qarışmağı və onun qoşunlarının Bakıya daxil olmasını çətinləşdirirdi. Bakıdakı İngilis qoşunlarının komandanı general Uilyam Tomsonun tələbi ilə Azərbayan hökümətinin hərbi hissələri Bakı şəhərinə çıxarıldı və Gəncə şəhərində yerləşdirildi. Bütün bunlar Azərbaycan ordusunun təşkilini və formalaşmasını ləngidirdi. Ölkənin müdafiəsini təşkil etməyin zəruriliyini başa düşən Nazirlər Şurası Hərbi Nazirliyin yaradılması haqqında qərar qəbul etdi. 1918-ci il dekabr ayının 25-də general-leytenant Səməd bəy Mehmandarov hərbi nazir, general-leytenant Əliağa Şıxlinski isə hərbi nazirin müavini təyin edildi. Hökümət və Hərbi Nazirliyin ölkənin müdafiəsinin təşkili və ordu quruculuğu istiqamətində ümumdövlət mənafelərini əks etdirən qarşılıqlı fəaliyyəti güclü hərbi qüvvələrin yaradılmasına yol açdı. Qısa müddətdə hərbi nazirliyin aparatı formalaşdırıldı, kifayət qədər hərbi biliyə və təcrübəyə malik yüksək rütbəli zabitlər ordu quruculuğuna cəlb olundu, bir sıra hərbi məktəblər yaradıldı.

Milli ordu hissələrinin qarşısında duran əsas vəzifələrdən biri də dövlət sərhədlərini xarici düşmənlərin hücumlarından qorumaq, ölkədaxilindəki seperatçı qüvvələrə, müstəqilliyimizə düşmən kəsilən qüvvələrə qarşı mübarizə aparmaqdan ibarət idi. Azərbaycan xalqının müstəqilliyinə qənim olan bir sıra qüvvələr Lənkəran-Muğan zonasında anti-azərbaycan mövqeyi tuturdular. Azərbaycanın müstəqilliyini heç bir vəchlə qəbul etmək istəməyən, onu Rusiyanın hələ də ayrılmaz tərkib hissəsi kimi hesab edən polkovnik İlyaşeviç və onun millətçi qoşun hissələri yerli rus əhalisinin yaxından köməkliyi ilə cənub bölgəsində hakimiyyəti öz əllərinə almışdılar. Azərbaycan ordusu Qarabağda erməni-daşnak təcazünə qarşı mübarizə apardığı üçün ölkənin cənubunda baş verən iğtişaşlara bu təcavüzə qarşı mübarizə aparmağa kifayət qədər hərbi qüvvəsi yox idi. Lakin 1919-cu ilin avqustunda Qarabağda nisbi sabitliyin yaranmasından istifadə edən Hərbi nazirlik ölkənin ərazi bütövlüyünü təmin etmək məqsədilə Lənkəran əməliyyatı hazırladı və ölkənin cənub bölgəsinə qoşun çıxarmaq qərarına gəldi. 1919-cu ilin avqustunda general Həbib bəy Səlimovun rəhbərliyi altında Lənkəran dəstəsi ona həvalə olunmuş vəzifələri tamamilə yerinə yetirdi, bölgənin rus əhalisini, polkovnik İlyaşeviçin rəhbərliyi altında

olmuş silahlı dəstələri tamamilə tərk-silah etdi və respublikanın cənubunda sabitlik təmin olundu. Şamaxı qəzasında malakan və xristian əhalisinin Azərbaycan hökümətinə qarşı çevrilmiş itaətsizliyi və qiyamları da hərbi hissələr tərəfindən yatırıldı. Azərbaycan ordusunun nəyə qadir olması Qarabağın dağlıq hissəsini Azərbaycandan qoparmaq məqsədilə həyata keçirilən erməni-daşnak təcavüzünü aradan qaldırılması üçün aparılan Qarabağ əməliyyatında özünü bir daha bariz nümayiş etdirdi. Erməni silahlı qüvvələri və daşnak dəstələri Novruz bayramı günlərində Şuşa, Xankəndi, Əsgəran, Tərtərdə yerləşən hərbi hissələrin üzərinə hücum etsələr də, öz məqsədlərinə nail ola bilmədilər. Qarabağ uğrunda gedən döyüşlərdə Əsgəran uğrunda gedən mübarizə xüsusilə kəskin olmuşdur. Əsgəranı tutmaqla ermənilərQarabağın dağlıq hissəsini Azərbaycandan ayırmaq və tarixi torpaqlarımızı Ermənistana birləşdirmək istəyirdilər. Lakin Əsgəran uğrunda döyüşlərdə general Həbib Səlimovun başçılığı ilə qızğın döyüşlərdə erməni silahlı qüvvələri darmadağın edildi. Azərbaycan ordusunun döyüş əməliyyatları nəticəsində erməni-daşnak dəstələrinin və nizami ordu hissələrinin darmadağın edilməsi ilə Azərbaycan əsgərləri ölkənin ərazi bütövlüyünü təmin edərək əsil qəhrəmanlıq nümunələri göstərdilər. Dövlət və ordu arasında əlaqələrin düzgün qurulması ordu quruculuğuna dövlət rəhbərliyinin düzgün istiqamətləndirilməsi, dövlət rəhbərliyinin ordu quruculuğunun qayğılarını öz üzərinə götürməsi, Ordunun rəhbərliyinin dövlətin müəyyənləşdirdiyi vəzifələrə düzgün riayət edir, yalnız onların qarşısına qoyulan vəzifələrin icrası ilə məşğul olurdu.

Güclü daimi ordunun yaradılması və formalaşdırılması üçün hökümət fəal xarici siyasət həyata keçirməyə başladı. İlk növbədə Azərbaycanla-Gürcüstan arasında hərbi saziş imzalandı. Gürcüstanın paytaxtı Tiflisdə 3 il müddətinə bağlanmış müqaviləyə əsasən hər hansı bir xarici müdaxilə olarsa onlara qarşı bu ölkələrin birgə mübarizə aparmaq nəzərdə tutulurdu.

Milli ordunun hərbi sursatla təchiz edilməsi ilə əlaqədar hökümət xüsusi diqqət yetirən hökümətin İngiltərə, Fransa və Polşa ilə apardığı danışıqlar heç bir nəticə vermədi. Yalnız İtaliya hərbi geyim, silah, sursat satmağa razılıq versə də, göndərdiyi sursat və geyimlər gecikdiyi üçün Azərbaycanı işğal edən XI Qırmızı Ordunun əlinə keçdi.

Cümhuriyyət Azərbaycan Hərbi donanmasının yaradılması üçün də mühüm addımlar atmışdır. 1919-cu ilin avqustun 24-də Azərbaycan ərazisini tərk edən ingilislər şəhər limanının idarəçiliyini, hərbi hissələrin radio stansiyalarını, ordunun hərbi sursatını və hərbi gəmilərin bir hissəsini Azərbaycan hökümətinə təhvil verdikləri üçün onun əsasında Xəzər

hərbi donanması yaradıldı. Xəzər dənizinin maddi-teniki bazasını möhkəmləndirmək üçün xaricdən 18 hərbi kater və 6 sualtı qayıq alınmışdır.

Qarabağdakı erməni silahlı qüvvələrinin təcavüzünə son qoyulsa da, şimaldan yaxınlaşan Azərbaycan torpaqları üzərinə hərbi müdaxilənin qarşısını almaq mümkün olmadı. Çünki Azərbaycan ordusunun şimal sərhədlərini qoruyan hərbi hissələrin Qarabağın müdafiəsinə cəlb edilməsi nəticəsində buranın müdafiə imkanları zəifləmişdi. Qarabağdakı hərbi qüvvələrin şimala gətirilməsi belə Azərbaycan milli ordusu ilə müqayisədə böyük üstünlüyə malik olan XI Qırmızı Ordunun hücumlarının qarşısını almaq qeyri-mümkün idi. Bakı neftini ələ keçirtmək məqsədilə Rusiyanın XI Qızıl Ordusu aprel ayının 27-sində Bakı şəhərinə daxil oldu, onun təzyiqi altında Azərbaycan parlamenti hakimiyyətin Azərbaycan-müsəlman kommunistlərinə verilməsi haqqında qərar qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyətinin uğursuz taleyinə baxmayaraq xalqımızın tarixində mühüm rol oynadı. Dövlətimizin sərhədlərini müəyyənləşdirdi, dövlətin atributlarını qəbul etdi. Cümhuriyyətin yaranması ilə Azərbaycan Gülüstan və Türkmənistan müqavilələri əsasında itirdiyi dövlətçiliyini yenidən bərpa etdi. XX əsrin sonlarında Azərbaycan xalqı yenidən öz müstəqilliyinə qovuşdu və Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi dövlətçiliyini yenidən bərpa etdi. Bu gündə bizim milli ordumuz Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi altında ölkəmizin ərazisini müvəqqəti işğal edən ermən təcavüzkarlarına qarşı inamla mübarizə aparırlar. 2016-cı ilin aprel ayının əvvəllərində aparılan 4 günlük müharibə Azərbaycan Silahlı Qüvvələrinin düşmən üzərində tam qələbəsini təmin etdi, bir sıra yaşayış məntəqələrini və strateji cəhətdən mühüm əhəmiyyət kəsb edən yüksəklikləri düşmən işğalından azad etdi. Aprel döyüşlərində Azərbaycan ordusunun şanlı qələbəsi və Cocuq-Mərcanlı kəndinə qayıdış torpaqlarımızın yaxın vaxtlarda azad olunacağına bariz nümunədir.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN SƏRHƏDLƏRİ VƏ İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ

***Alıyev R.A.***

*Sumqayıt Dövlət Universiteti*

1917-ci ilin fevral burjua inqilabından sonra Cənubi Qafqazda siyasi vəziyyət gərginləşir və regiondakı vilayətlər özlərinin gələcək fəaliyyətləri üçün tədbirlər görməyə başlayırlar. Çox keç-mədən Tiflisdə Cənubi Qafqazın qanunvericilik orqanı sayılan

Zaqafqaziya seymi fəaliyyətə başlayır. Azərbaycanın seymdəki fraksiyasına M.Ə.Rəsulzadənin başçılığı ilə 44 deputat daxil idi. 1918-ci ilin aprelin 22-də Zaqafqaziya Federativ Respublikası elan olunuş və Azərbaycandan onun tərkibinə 5 nümayəndə daxil edilmişdir. Lakin bu tədbirlərin heç biri bölgənin vəziyyətini tənzimləyə bilmir, mövcud ziddiyyətləri aradan qaldırmır. 1918-ci ilin mayın 26-da Seymin səbatsızlığını görən Gürcüstan onun tərkibindən çıxır və beləliklə də, Zaqafqaziya seyminin buraxıldığı elan olunur. Mayın 27-də seymdəki Azərbaycan fraksiyası fövqəladə iclas keçirib Milli şura yaradır. Milli şura mayın 28-də Azərbaycanın dövlət müstəqilliyinin elan olunması barədə qərar qəbul edir və «İstiqlal bəyannaməsi» hazırlanaraq dünyanın böyük dövlətlərinə göndərilir. Bununla da, Azərbaycan Cümhuriyyəti fəaliyyətə başlayır, XIX əsrin əvvəllərində itirilmiş müstəqillik yenidən bərpa olunur. İyunun əvvəllərində Tiflisdən Gəncəyə köçən Azərbaycan hökuməti bir sıra maneələrlə üzləşsə də, Türkiyə ilə olan anlaşılmazlığın qarşısı alınır. Daha sonra Bakı sovetinin Gəncə üzərinə yürüşü dəf olunur və nəhayət, sentyabrın 15-də Bakı azad edilərək dövlət idarəçiliyi burada cəmləşir. Lakin dövlət quruculuğu sahəsində ilk ciddi addımlarını atan Azərbaycan Cümhuriyyəti cəmi 23 ay fəaliyyət göstərə bildi. Onun fəaliyyət dövrü 3 mərhələyə ayrılır: hökumətin ilk addımları və tədbirləri dövrü (1918-ci ilin may-dekabr ayları); dövlətin möhkəmlənməsi dövrü (1918-ci ilin dekabrından -1919-cu ilin dekabrına qədər); Azərbaycan Cümhuriyyətinin zəifləməsi və süqutu dövrü (1919-cu ilin dekabrından -1920-ci ilin aprelinə qədər).

Azərbaycan Cümhuriyyətinin sahəsi 113.895,97 kv. km olmuşdur. Bunun təxminən 97,3 min kv. km (97.298 kv. km) mübahisəsiz ərazilər, təqribən 16,6 min kv. km-i isə mübahisəli ərazilər hesab olunurdu. Mübahisəli ərazilərin 7,9 min kv. km-i İrəvan quberniyasına, 8,7 min kv. km-i isə Tiflis quberniyasına daxil idi. Mübahisəsiz ərazilər aşağıdakılardan ibarət idi:

1. Bakı quberniyası - sahəsi 39.075 kv.km - buraya Cavad (Salyan), Lənkəran,Göyçay,Şamaxı və Quba qəzaları daxil idi;

2. Gəncə quberniyası - sahəsi 44.371 kv.km idi. Tərkibində Gəncə, Şamxor (Şəmkür), Qazax, Tovuz, Nuxa, Şuşa, Ağdaş (Ərəş), Cavanşir (Tərtər), Cəbrayıl, Zəngəzur qəzalarını birləşdirirdi;

3. Zaqatala quberniyası — sahəsi 3.993 kv. km idi. Tərkibinə Əliabad, Car-Muxax, Qax, Almalı, Balakən sahələri daxil idi, onun tərkibində qəzalar yox idi;

4. Əvvəllər İrəvan quberniyasının tərkibində olmuş Naxçıvan və Şərur-Dərələyəz

qəzaları. Onların sahəsi 9,859 kv. km idi. Göstərildiyi kimi, mübahisəsiz ərazilərin ümumi sahəsi 97.298 kv. km olmuşdur.

Mübahisəli ərazilər isə, qeyd edildiyi kimi, təqribən 16,6 min kv. km olmuş və 2 istiqamətdə-Ermənistan və Gürcüstanla mübahisələrin obyektinə çevrilmişdi. Ermənistanla mübahisəli ərazilər İrəvan quberniyasının qərb hissələri — xüsusilə Göycə gölünün bir az cənubundan və Naxçıvan və Şərur-Dərələyəzin qərbindən tutmuş Kasak çayına kimi Arazın hər iki sahili - Böyük Vədi, Eçmiəzzin, İqdır və s. ərazilər idi. Həmin ərazilər tarixi Çuxursəd bəylərbəyliyinin və İrəvan xanlığının ərazilərinə uyğun gəlirdi. Gürcüstanla mübahisəli ərazilərə isə Qarayazı, Axalski və Siqnaq qəzasının cənub hissələri daxil idi. Qarayazı düzü Gəncə-Qazax düzənliyinin davamı olub, həm etnik, həm də iqtisadi cəhətdən onunla bağlı idi. Buranın sakinlərinin 90%-i azərbaycanlı olmuşdur. Bu ərazi 1918-ci ildə Gürcüstan tərəfindən tutulmuş və onun Tiflis qəzasının tərkibində olması faktı əsas götürülmüşdür. Əhalisinin əksəriyyəti (73,5%) azərbaycanlılar təşkil edən Axalsix qəzası da türk qoşunları Qafqazdan çıxdıqdan sonra gürcülər tərəfindən zəbt edilmişdir. Siqnaq qəzasının qərbində gürcülər, şərqində isə azərbaycanlılar yaşayırdı. Azərbaycan Cümhuriyyətinin sərhədlərinə, hüdudlarına gəldikdə bu məsələdə 2 cəhəti nəzərə almaq lazımdır: mübahisəli ərazilər nəzərə alınarsa Azərbaycan Cümhuriyyətinin sərhədləri daha geniş olmuş, cənubi-qərbdə Kasax çayının Araza qovuşduğu yerə, şimali-qərbdə isə təqribən Tiflisə kimi uzanmışdır. Yalnız mübahisəsiz ərazilər, yəni 97,3 min kv. km-lik ərazi nəzərdə tutularsa, dövlətin sərhədləri aşağıdakı istiqamətlərdən, məntəqələrdən keçmişdir: şərqdə Xəzər dənizi ilə hüdudlanan Azərbaycan Cümhuriyyəti sərhədləri Astara ərazisinin cənubundan Talış dağları istiqaməti ilə qərbə tərəf uzanırdı. Daha sonra şimala tərəf uzanaraq Araz çayına çatan sərhədlər çayın axarının əks istiqamətində irəliləyərək Naxçıvanın cənubi-qərbində Sədərək yaşayış məntəqəsinə çatır və buradan şimali-şərq istiqamətində, Soğanlı məntəqəsindən isə birbaşa şimala gedərək Göycə gölünə qovuşurdu. Göycə gölü Azərbaycan Cümhuriyyəti ilə Ermənistan arasında sərhəd idi və Göycə mahalının şərq hissəsi Azərbaycanın, gölün qərbi isə Ermənistanın tərkibində idi. Göycədən şimalda Azərbaycan Cümhuriyyətinin sərhədləri yenə də şimala doğru istiqamətlənmiş, Qazax mahalının şimalından təqribən Qabırlı çayı ilə şərqə, daha sonra yenidən şimala və şimali-qərbə, nəhayət, Zaqatala dairəsinin şimalından cənubi-şərqə və yenə də şimali-şərqə uzanırdı. Daha sonra Samur çayı boyunca uzanan sərhədlər Xəzərə qovuşurdu. Azərbaycan Cümhuriyyətinin mübahisəsiz sahələrinin inzibati-ərazi bölgüsü quberniyalar, qəzalar,

dairələr və məntəqələr sistemində müəyyənləşmişdi. Daha doğrusu, həmin ərazilərdə mövcud olmuş əvvəlki ərazi bölgüsü qalırdı; yeganə dəyişiklik Göycə gölünün şərq hissəsində təsis olunmuş «Göycə dairəsi» idi. Dövlətin tərkibindəki Bakı quberniyası Bakı, Cavad, Lənkəran, Göyçay, Şamaxı və Quba qəzalarını, Gəncə quberniyası Gəncə, Şamxor, Qazax, Tavuz, Nuxa, Şuşa, Ağdaş, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını, Zaqatala dairəsi isə Əliabad, Car-Muxax, Qax, Almalı, Balakən ərazilərini əhatə edirdi. Azərbaycan Cümhuriyyətinin torpaqlarının bir qismi isə əvvəllər İrəvan quberniyasının tərkibində olmuş Naxçıvan və Şərur-Dərələyəz qəzalarından ibarət idi. Quberniyalar 1920-ci ildə ləğv olundu. Qəzaların əksəriyyəti isə 1929-cu ildəki inzibati-ərazi islahatına kimi fəaliyyətini davam etdirdi. Qəzalar da öz növbəsində daha kiçik inzibati vahidlərə — məntəqələrə bölünmüşdü. Ümumiyyətlə götürüldükdə, Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi dövrdə ölkə ərazisinin bütövlüyünü mühafizə edə bildi, onu yad ünsürlərdən təmizlədi. 1918-ci ilin iyunun 26-da Zaqatala mahalına (dairəsinə) aid məsələ Gürcüstanla Azərbaycan arasında müzakirə olundu və sülh yolu ilə həllini tapdı: əhalisinin 91,9 %-nin müsəlman olduğu bu ərazinin Azərbaycana aidiyyəti rəsmiləşdirildi. Rus qiyamçılarının əlində olan Lənkəran qəzası yenidən Azərbaycana qaytarıldı , Qarabağ erməniləri ilə razılaşma əldə edildi və 1919-cu ilin avqustun 19-da keçirilmiş Dağlıq Qarabağ ermənilərinin VII qurultayında onların Azərbaycan hökumətini tanımalarına nail olundu, Naxçıvanın inzibati cəhətdən Azərbaycana aidiyyəti təmin edildi. Hökumətin cəhdləri nəticəsində 1920-ci ilin aprelin sonunadək ölkə ərazisinin bütövlüyü bərpa olundu.

## BAKI ŞƏHƏRİNİ YADELLILƏRDƏN AZAD ETMƏK UĞRUNDA QAFQAZ İSLAM ORDUSUNUN APARDIĞI MÜBARİZƏ

## TARİXİNDƏN

***Bayramov A.M., Aslanov E.M.***

*Azərbaycan Dövlət Aqrar Universiteti*

1918-ci ildə Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cumhuriyyətinin qurulması nəinki Azərbaycan tarixində, eləcə də müsəlman dünyasına respublika məfhumunu gətirərək şanlı bir səhifə yaratdı.

1918-1920-ci illərdə mövcud olmuş, çox mürəkkəb daxili və beynəlxalq şəraitdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin qarşısında duran ən böyük

vəzifə ölkənin suverenliyinin, ərazi bütövlüyünün təmin edilməsi məsələsi idi. Bu baxımdan Milli ordunun yaradılması zərurətdən irəli gəlirdi və təxirəsalınmaz vəzifələrdən biri sayılırdı. Məhz, bu məqsədlə Cümhuriyyətin elan edilməsinin ilk günlərindən başlayaraq ölkənin müdafiə olunmasının təşkil edilməsi üçün ordu quruculuğu istiqamətində mühüm tədbirlər həyata keçirilməsinə başlanılmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti hərbi yardım üçün rəsmi şəkildə Osmanlı dövlətinə müraciət etdi. 1918-ci il iyunun 4-də Osmanlı imperiyası və Azərbaycan Xalq Cümhuriyyəti arasında dostluq və əməkdaşlıq haqqında müqavilə imzalanmışdır. Bu müqavilənin 4-cü maddəsində yazılmışdı: "Dinclik və asayışı möhkəmləndirmək, ölkənin təhlükəsizliyini təmin etmək üçün, əgər ehtiyac olarsa, Osmanlı hökuməti Azərbaycan Respublikasına hərbi yardım göstərməyi öz üzərinə götürür". Azərbaycan hökuməti ən ağır və çətin şəraitdə məhz həmin müqavilə əsasında türk qoşunlarını Azərbaycana dəvət etmişdi.

Azərbaycanın şərqində kommunist diktaturası yaradan Şaumyan Bakı Sovetinin ixtiyarında olan 18 min döyüşçü ilə Cənubi Qafqazdakı milli hərəkatı boğmaq üçün qəti hücuma başladı. Erməni daşnak qüvvələrindən təşkil olunmuş ordu müsəlman əhaliyə qarşı hər cür amansızlığa yol verirdi. İyunun 10-da Bakı Sovetinin Gəncə istiqamətində yürüşləri başlandı və iyunun 12-də Kürdəmiri işğal edildi. Qırmızı ordu hissələrinin irəlilədiyi istiqamətlərdə onun qarşısında sayca xeyli az olan qüvvələr dayanmışdılar. Buna görə də Qırmızı ordu hələlik ciddi bir müqavimətə rast gəlmədən irəliləyirdi. Bolşevik-daşnak qüvvələri Göyçay Qaraməryəm yolu boyunca irəliləyərək Göyçayı tutmaq istəyirdilər. Gözlənilmədən hücuma başlamaları ilə onlar kifayət qədər əlverişli imkanlara malik idilər. Xüsusən də cinah döyüşlərinə diqqət artırmaları İslam Ordusu qüvvələrini mürəkkəb vəziyyətə salmışdı. Ancaq fırqə komandanlığının, hissə komandirlərinin soyuqqanlıq göstərmələri, baş verənləri düzgün təhlil etmələri və əsaslandırılmış qərar qəbul edə bümələri döyüşün gedişində dəyişiklik yaratdı. Bu dəyişikliyin əldə edilməsində həm Göyçay ıstiqamətində vuruşan Azərbaycan könüllülərinin, həm də komandanı Həbib bəy Səlimov olan Müsüslü dəstəsindən gəlmiş Azərbaycan süvarilərinin payı var idi. Əvvəlcə 10-cu alay cəbhəsində düşmənin irəliləməsi dayandırıldı, sonra da əkshücumla bolşevik daşnak qüvvələri ilkin mövqelərindən 3 kilometr geri atıldı. Hücumun qəfil başlaması ilə mürəkkəb vəziyyətə düşən Türk-Azərbaycan qoşun hissələri döyüşün gedişində nəyə qadir olduqlarını sübut etdilər. Onlar tezliklə hərbi təşəbbüsü ələ aldılar. Bu döyüşün nəticələrinin

Qafqaz İslam Ordusu üçün böyük hərbi psixoloji əhəmiyyəti var idi. Döyüşün nəticələri göstərdi ki, bolşevik-daşnak qüvvələri heç də məğlubedilməz bir qüvvə deyil və düzgün qurulmuş döyüşlə onların bütün niyyətlərini alt-üst etmək olar. Görünür, bir neçə hərbi uğurdan sonra çox ciddi müqavimətlə rastlaşdıqlarını Qırmızı ordu rəhbərliyi də hiss etmişdi. Çünki əvvəlki döyüşlər barədə Bakıya ətraflı məlumat verildiyi halda, bu döyüşün nəticəsi barədə Q.Korqanov ayın 28-də cəmi bir cümləlik məlumatla kifayətləndi. Göyçay döyüşü Nuru paşanın rəhbərliyi altında aparılan işlərin düzgün qərarlaşdığını təsdiq etdi. Bu döyüş bütün döyüşçülərin inamını özünə qaytardı, onların mənəvi əhval ruhiyyəsinə müsbət təsir göstərdi.

İki həftədən çox davam edən qanlı döyüşlər Qafqaz İslam Ordusunun qələbəsi ilə nəticələndi. Qafqaz İslam Ordusunun Göyçay ətrafındakı qələbəsi Azərbaycanın şərq hissəsini, o cümlədən Bakını bolşevik-daşnak işğalından azad etmək uğrunda apardığı mübarizədə dönüş nöqtəsi oldu. Qafqaz İslam Ordusu bolşevik-daşnak birləşmələrini dar-madağın edərək Bakı istiqamətində azadlıq yürüşünə başladı. Göyçay savaşında şəhid olan türk əsgərlərinin böyük bir hissəsi ilə yaralılar Gəncəyə aparıldı.

Bu döyüşlər təsdiq etdi ki, Qafqaz İslam Ordusu hissələri hərbi keyfiyyət baxımından bolşevik qüvvələrindən geri qalmır və fədakarcasına vuruşurdu. Göyçay ətrafında qanlı dö-yüşlər gedən zaman, təcili olaraq Cümhuriyyət höküməti vəziyyətdən çıxmaq üçün elə ilk günlərdən qəti tədbirlərə əl atdı. Belə ki, iyunun 19-da bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan olundu.

İyul ayının ortalarından artıq Göyçay, Ağsu, Salyan və Kürdəmir bolşeviklərdən təmizlənmiş, milli hərbi hissələrimiz ilə Bakı arasında 80-90 km məsafə qalmışdı. İyulun sonlarında Şamaxı, Qarasu, Hacıqabul, Ələt, Qobu, Xırdalan, Sumqayıt və Sanqaçal, avqustun 3-də isə Quba azad edildi. Qafqaz İslam Ordusunun Bakıya doğru əks hücumu Bakıdakı siyasi və iqtisadi böhranı daha da dərinləşdirdi və nəticədə Bakı Soveti və onun icraiyyə orqanı olan Bakı XKS-i iyulun 31-də öz səlahiyyətlərindən imtina etməli oldu. Bakıda hakimiyyət sağ eser - menşevik-daşnak blokunun əlinə keçdi və həmin blok avqustun 1-də “Sentrokaspi Diktaturası və Fəhlə, Əsgər Deputatlarının Müvəqqəti İcra Komitəsinin Rəyasət Heyəti” adlı hökumət təşkil etdi. Avqustun 5-də Azərbaycan-Türk qoşun birləşmələri səhər tezdən şəhərin yuxarı dağlıq hissəsində yerləşən Badamdar yüksəkliyini ələ keçirərək Bibi-Heybətə doğru endi və oranı erməni daşnaklardan təmizləməyə nail oldu. Xilaskar qoşunun digər dəstələri isə Bibi-Heybətə doğru Şıxov kəndi

tərəfindən irəlilədi. Avqustun 5-6-da Bibi-Heybət, Badamdar, Qurd qapısı, Binəqədi, Biləcəri və digər bölgələrdə gedən ağır döyüşlərdən sonra Qafqaz İslam Ordusu sentyabrın 14-dən 15-nə keçən gecə həlledici hücuma keçdi.

Şərq orduları Qrupu komandanı Xəlil paşa və ikinci Bakı hücumunu idarə edən Türk Qafqaz İslam Ordusu Komandanı Nuru paşa 16 sentyabrda güzdəkdəki müvəqqəti Ordu Qərargahından hərəkət edərək Bakıya daxil oldular.

Bakı şəhər gərgin müqavimət hesabına alındıqdan sonra Azərbaycan hökuməti sentyabrın 17-də Bakıya köçdü. 1918-ci il mayın 28-dən sonrakı dövrdə Azərbaycanın həyatında ikinci mühüm hadisə baş verdi: Bakı azad edildi və Azərbaycan hökuməti tam heyətdə əsl paytaxtda qərarlaşdı. Azərbaycan torpaqlarının azad olunmasında Qafqaz-İslam Ordusu 4 min əsgər və zabitini şəhid verdi.

Beləliklə, Türkiyə və Azərbaycan hərbi qüvvələrinin birgə mübarizəsi nəticəsində 1918-ci ilin iyun-avqust aylarında Gəncə ermənilərinin tərksilah edilməsi həyata keçirildi, Qaraməryəm döyüşü, Kürdəmir döyüşü, Ağsu döyüşü, Şamaxı döyüşü, Salyan döyüşü uğurla başa çatdırıldı. Birinci Qafqaz Qırmızı Korpusunun və ingilis hərbi qüvvələri tərəfindən müdafiə olunan “Sentrokaspi diktaturası” nın qoşunlarına sarsıdıcı zərbə endirirdi. Lakin, Birinci Dünya müharibəsinin iştirakçısı olan Osmanlı dövləti Mudros barışığına görə məğlub dövlət kimi Cənubi Qafqazı, o cümlədən Azərbaycanı tərk etməyə məcbur oldu. Antanta qüvvələri adından general Tomsonun rəhbərliyi altında ingilis qoşunları 1918-ci il noyabrın 17-də Bakıya daxil oldular.

Bakı şəhərinin Qafqaz İslam Ordusu tərəfindən azad edilməsi haqqında bəzi mətbuat orqanlarında məlumatlar verilmişdi. Bakının azad olunması xəbərini sentyabrın 15-də Gəncədə Yelizavetpol qubernatorunun mətbəəsində çap olunan "Azərbaycan" qəzeti xəbər verdi. Dörd səhifədən ibarət olan bu qəzetin iki səhifəsi Azərbaycan türkcəsində, iki səhifəsi isə rus dilində buraxılırdı. Qəzetin Gəncədə cəmi dörd nömrəsi çap olunmuşdu ki, axırıncı, yəni dördüncü nömrəsinin üç səhifəsi rus dilində, bir səhifəsi isə Azərbaycan türkcəsində idi. "Azərbaycan"ın ilk sayında Bakının azad olunması, Qafqaz İslam Ordusunun qardaş köməyi barəsində yazılar, informasiyalar kifayət qədər maraq doğurur. Bu haqda xəbərlərdə deyilirdi ki, Azərbaycan Cümhuriyyəti hökuməti adına Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa həzrətləri tərəfindən belə bir teleqram gəlmişdi: "Bismillahir-rəhmanir-rəhim. Bakı şəhəri 15.09, saat 9-a işləmiş igid ordu hissələrimiz tərəfindən zəbt olundu. Qafqaz İslam Ordusu komandanı Feriq Nuru". Qəzetin ilk sayında "Bakının süqutu" başlığı altında

xeyli sayda təbrik teleqramları dərc olunmuşdu: "Bakının süqutu münasibətilə Azərbaycan Cumhuriyəti rəyasətinə təbrik teleqramları göndərilmişdir: "Qafqaz İslam Ordusu komandanı səadətli Nuru Paşa həzrətlərinə. Təhti komandanızda olan cəsur türk əsgərləriniz tərəfindən Azərbaycanın paytaxtı olan Bakının düşməndən xilas edildiyi münasibətilə millətin zati ali hümiyyət pərvərənələrinizi dünyanın ən nəcib əsgəri olan türk oğullarına minnətdar olduğunu ərz etməklə iftixar edirəm, efendim. Heyəti vükəla rəisi Fətəli xan".

Bakının azad edilməsi Azərbaycan Xalq Cümhuriyyətinin müqəddəratında və xalqımızın şərəfli tarixində çox böyük strateji əhəmiyyətə malik olan bir hadisə oldu. AXC-nin yaranması şərəfli tariximizdə necə böyük əhəmiyyətə malikdirsə, Bakının azad edilməsi də bir o qədər önəmlidir. AXC hökumətinin Bakıya köçməsindən sonra hakimiyyət Azərbaycanın hər yerində bərqərar oldu və milli dövlət quruculuğu istiqamətində fəaliyyətini daha da genişləndirdi.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ

***Bədəlov S.B.***

*Sumqayıt Dövlət Universiteti*

Müsəlman Şərqində yaranmış ilk Avropa tipli dövlətin-Azərbaycan Xalq Cümhuriyyətinin qarşısında ən mühüm vəzifələrdən biri özünün beynəlxalq aləmdə tanınmasına nail olmaq idi.

Birinci dünya müharibəsi başa çatdıqdan sonra böyük dövlətlər dünyanı yenidən bölüşdürmək məqsədilə Parisdə beynəlxalq konfransa toplaşarkən Vilson prinsiplərinin 14-cü bəndi Azərbaycan hökumətini bu nüfuzlu prosesə qatılmağa həvəsləndirdi: “İstər böyük, istərsə də kiçik dövlətlərin siyasi müstəqilliyinə və ərazi bütövlüyünə qarşılıqlı təminat vermək məqsədilə Millətlər Liqası yaradılmalıdır”.

Öz imzasını bu dövlətlərin liqasında görmək istəyən Azərbaycan Xalq Cümhuriyyəti Hökümətinin İstanbulda fövqəladə elçisi və səlahiyyətli naziri olan Əlimərdan bəy Topçubaşov 1918-ci il dekabrın 16-da Nazirlər Şurasının sədrinə yazdığı məktubunda Azərbaycanın qarşıdakı beynəlxalq sülh konfransında iştirakının çox mühüm məsələ oluğunu vurğulamış, nümayəndə heyətinin təşkilinə və lazımı materialların toplanmasına yubanmadan başlamağa çağırmışdı.

Azərbaycan Cümhuriyyətini Paris Sülh konfransında təmsil etmək üçün Ə.

Topçubaşovun rəhbərliyilə M.H.Hacinski, Ə. Şeyxülislamov, Ə. Ağaoğlu, C. Hacıbəyov, M. Məhərrəmov, M. Mirmehdiyev, A. Atamalıbəyovdan ibarət nümayəndə heyəti formalaşdırıldı və 1919-cu il yanvarın 7-də rəsmi təmsilçilik hüququ ilə mandat verildi.

Nümayəndələrin qarşısında ölkənin müstəqilliyinin tanınmasına nail olmaq, Azərbaycan Xalq Cümhuriyyətinin Paris Sülh konfrasında bərabərhüquqlu iştirakını təmin etmək, beynəlxalq ictimai fikri Azərbaycan barədə məlumatlandırmaq, ticari-iqtisadi əlaqələr qurmaq kimi vəzifələr qoymuşdu.

Azərbaycan parlamentarları uzun çətinliklərdən sonra 1919-cu il mayın 7-də Parisə çatmış, 1919-cu il mayın 28-də ABŞ prezidenti Vudro Vilson tərəfindən qəbul olunmuşdular. Həmin görüşdə V.Vilson Rusiya əsarətindən xilas olmuş xalqların dövlət müstəqillikləri ilə bağlı ABŞ-ın öz üzərinə hər hansı bir təəhhüd götürə bilməyəcəyini, ümumiyyətlə dünyanın kiçik dövlətlərə parçalanmasına lüzum görmədiyini bildirmişdi. Azərbaycan nümayəndə heyəti, həmçinin Britaniyanın və Fransanın baş nazirləri L.Corc və J.Klemanso ilə də görüş keçirtmişdi.

Ümumiyyətlə, Antanta dövlətlərinin Qafqaz respublikaları ilə bağlı mövqeləri fərqli olmuşdur. Sülh konfransında yüksək nüfüza malik olan böyük dövlətlər içərisindən məhz Fransa yeni yaranmış Qafqaz respublikalarının müstəqilliyinin tanınması əleyhinə olmuşdur. Fransa hökuməti Azərbaycanla iqtisadi əlaqələr yaratmağa meyl göstərsə də, Azərbaycan və Gürcüstanı nə hüquqi, nə də faktiki cəhətdən tanımaq istəmirdi, ermənipərəst siyasət yeridirdi. İtaliyanın Qafqaza münasibəti ingilislərin mövqeyi ilə sıx bağlı olmuşdur. İngilis qoşunları Qafqazdan çıxmaqla yanaşı, nə ABŞ-ın, nə də Fransanın bu regionda birtərəfli qaydada qüvvətlənməsinə yol vermək istəmirdilər. Bu məqsədlə italyanların Qafqaza cəlb edilməsi ideyası ilk dəfə ingilislər tərəfindən irəli sürüldü. Belə ki, İtaliyanın Qafqazda ingilisləri əvəz etməsi Yaxın Şərqdə mövcud olan qüvvələr nisbətini pozmurdu. İngilislərlə italyanlar arasında aparılan danışıqlar 1919 il martın 24-də gizli saziş imzalanması ilə nəticələndi.

Versaldakı Azərbaycan nümayəndələri Antanta Ali Şurası tərəfındən Azərbaycan Xalq Cümhuriyyətinin tanınması yönündə ardıcıl, intensiv fəaliyyət göstərmiş və nəhayət, səkkiz aylıq gərgin və səmərəli fəaliyyətin bəhrəsi olaraq, Paris sülh konfransının Ali Şurası blokun aparıcı dövlətlərindən biri olan B.Britaniyanın təklifi ilə 1920-ci il yanvarın 11-də Azərbaycanın dövlət müstəqilliyi de-fakto olaraq tanınmışdır. Yanvarın 19-da Ali Şuranın hökümət başçılarının iştirakı ilə keçirilən iclasında həmin qərar yenidən bir daha

təsdiqləndi. Bununla Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq hüququn subyektinə çevrildi.

Lakin Antanta dövlətlərinin Cənubi Qafqaz respublikalarına yardım xarakterli bütün vədləri deklarativ məzmun daşımış və öz qüvvələrinin ümidinə qalan bu dövlətlər Sovet Rusiyası tərəfindən işğal olunmuşdur.

Bolşeviklər 1920-ci ilin aprelin 28-də Azərbaycanı yenidən işğal etdilər. Aprelin 28-də San-Remo konfransında iştirak etmiş Azərbaycan nümayəndələri bu xəbəri alan kimi müttəfiq dövlətlərin Ali Şurasına, İtaliya hökumətinə və xarici dövlətlərin Romada olan səfirliklərinə suveren Azərbaycan dövlətinin Sovet Rusiyasının silahlı qüvvələri tərəfindən işğal olunduğu haqqında nota təqdim etdilər. Sülh konfransına verilmiş notada qeyd olunurdu: "Azərbaycan nümayəndələri ümid edirlər ki, Sülh konfransı müstəqilliyin bərpa olunmasında Azərbaycana köməklik göstərəcəkdir". Bu məzmunda notalar və müraciətlər dəfələrlə *Millətlər Cəmiyyətinə,* dünya siyasətini müəyyən edən dövlətlərə verildi. Lakin bunların elə bir əhəmiyyəti olmadı. Antanta ölkələri Azərbaycanın bolşeviklər tərəfindən işğal edilməsini sükutla qarşıladılar. Müstəqilliyi böyük dövlətlər tərəfindən tanınmış Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq münasibətlər sistemində iştirakı Aprel işğalı ilə sona çatdı. Onun Parisdəki nümayəndələri isə Azərbaycan siyasi mühacirlərinin ilk dəstəsinə çevrildilər.

Ə.M.Topçubaşovun 1920-ci ildə Genuya və Lozanna, 1923-cü ildə isə London konfranslarında hərbi təcavüzə məruz qalmış Azərbaycan dövlətinin səlahiyyətli təmsilçisi kimi etiraz çıxışları nəticəsiz qalmamışdır. Genuya konfransında bolşeviklərin Azərbaycan adından danışmaq haqqı olmadığı barəsində bəyanat qəbul edilmişdi.

## AZƏRBAYCAN MÜSTƏQİLLİYİNİN QORUNUB SAXLANMASI UĞRUNDA MÜBARİZƏ

***Bədəlova N.S.***

*Sumqayıt Dövlət Universiteti*

1918-ci il aprelin 23-də fəaliyyətə başlayan Zaqafqaziya Seyminin sonuncu iclası mayın 26-da keçirildi. Həmin gün gürcü nümayəndələri Seymdən çıxıb, Gürcüstanın müstəqilliyini elan etdilər. Gürcü fraksiyası Zaqafqaziya Respublikasının dağılmasının bütün günahını müsəlman fraksiyasının üzərinə yıxaraq onları türkpərəst mövqe tutmaqda ittiham edirdi. Zaqafqaziya Seyminin üzvü Şəfi bəy Rüstəmbəyov gürcü fraksiyasının

gətirdiyi bu arqumentləri qətiyyətlə rədd edərək qeyd edirdi: “Hesab edirik ki, Zaqafqaziyanın birgə siyasi mövcudluğunun indiki mürəkkəb və məsuliyyətli anında ayrılmaq üçün tutarlı və obyektiv əsaslar yoxdur və burada gürcü nümayəndələri tərəfindən irəli sürülən amillər az inandırıcıdır”. Mayın 27-də Seymin müsəlman fraksiyası yaranmış vəziyyətin ciddiliyini nəzərə alaraq fövqəladə iclas çağırdı. Uzun müzakirələrdən sonra Müvəqqəti Milli Şura yaratmaq qərara alındı. “Müsavat” Partiyasının təklifi ilə M.Ə. Rəsulzadə qiyabi olaraq (bu vaxt o, Batum konfransında iştirak edirdi-A.İ.) Milli Şuranın sədri, H.Ağayev və M.Seyidov isə sədrin müavinləri seçildilər. Müxtəlif sahələrdə işlərə rəhbərlik etmək üçün Milli Şuranın 9 nəfərdən ibarət icraiyyə orqanı yaradıldı. Fətəli xan Xoyski İcraiyyə Komitəsinin sədri seçildi. 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurası Azərbaycanın dövlət müstəqilliyi haqqında “İstiqlal bəyannaməsi” qəbul etdi. Milli Şuranın 24 səslə (iki nəfər - Sultan Məcid Qənizadə və Cəfər bəy Axundov bitərəf qaldılar) qəbul etdiyi qərar və altı bənddən ibarət “İstiqlal bəyannaməsi”, yaxud “Misaği-milli” (əqdnamə) Azərbaycan millətinin varlığını bütün dünyaya bəyan etdi. Beləliklə, Azərbaycan dövlətçiliyi tarixində ilk Konstitusiya aktı — “İstiqlal bəyannaməsi”nin qəbulu ilə Azərbaycan dövlətçiliyi Xalq Cümhuriyyəti formasında elan olundu. Bu hüquqi və siyasi sənəddə müstəqil Azərbaycan dövlətinin yarandığı bəyan edildi, onun hakimiyyətinin şamil olunduğu ərazinin hüdudları müəyyənləşdirildi, həmçinin dövlətin əsas fəaliyyət prinsipləri öz əksini tapdı. “İstiqlal bəyannaməsi”ndə demokratik dövlətə məxsus atributların — hakimiyyətin xalqa mənsub olması, vətəndaşların mülki və siyasi hüquqlarının təmsil edilməsi, bütün xalqların və hər bir kəsin milli, dini, sinfi, silki və cinsi mənsubiyyətindən asılı olmayaraq, azad inkişafı üçün şərait yaradılması, ən nəhayət, hakimiyyətin bölünməsi kimi prinsiplərin dövlət fəaliyyətinin əsası kimi bəyan edilməsi Azərbaycan xalqının suveren, demokratik, hüquqi dövlət yaratmaq əzmində olduğunu bütün bəşəriyyətə nümayiş etdirdi. “İstiqlal bəyannaməsi” Azərbaycan millətinin millət-mədəniyyət statusundan tamamilə başqa siyasi-hüquqi və mənəvi-psixoloji statusa — millət-dövlət statusuna qədəm qoyduğunu göstərdi. Mayın 30-da Azərbaycanın öz müstəqilliyini elan etməsi barədə dünyanın əsas siyasi mərkəzlərinə radioteleqrafla məlumat verildi. “İstiqlal bəyannaməsi”ni qəbul edən Milli Şura Azərbaycan hökumətini təşkil etməyi bitərəf Fətəli xan Xoyskiyə tapşırdı. İlk hökuməti “Müsavat”, Müsəlman Sosialist Bloku, “Hümmət”, “İttihad” və bitərəflərdən ibarət 9 nazir təmsil edirdi. Cənubi Qafqazın özünü müstəqil elan etmiş üç dövləti — Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələri Batumda Osmanlı dövləti ilə

danışıqlar apararaq iyunun 4-də ayrı-ayrılıqda müqavilə imzaladılar. Müqaviləni Azərbaycan tərəfindən Milli Şuranın sədri M.Ə.Rəsulzadə və Xarici işlər naziri M.H.Hacınski imzaladılar. Müqavilənin şərtləri Ermənistan və Gürcüstan üçün çox ağır idi, Azərbaycanla Osmanlı dövləti arasında isə "daimi sülh və dostluq münasibətləri"ni bərqərar edirdi. Yeni yaranmış Azərbaycan hökumətinin xahişinə cavab olaraq Osmanlı hökumətinin hərbi naziri Ənvər paşa ilk yardım kimi Azərbaycana 2 milyon türk lirəsi həcmində kredit ayırmışdı, Azərbaycanda olan türk ordusunun ehtiyaclarına hər ay 50 min lirə xərclənirdi. Bununla yanaşı, Ənvər paşa İstanbulda M.Ə.Rəsulzadə ilə görüşündə Azərbaycan Milli Ordusunun təşkil edilməsinin vacibliyini xüsusi qeyd etmişdi. 1918-ci il iyulun 16-da Azərbaycan Milli Şurasının və hökumətin Gəncəyə köçməsi ilə əlaqədar milli qüvvələr arasında mübarizə kəskinləşdi. Milli Şuradan kənarda qalan burjua-mülkədar dairələrinin məhdud dünyagörüşlü mürtəce hissəsi Türkiyənin Azərbaycanda olan ordusunun başçısı Nuru paşanın vasitəsilə Milli Şuranı hakimiyyətdən uzaqlaşdırmağa cəhd etdilər. Azərbaycanın Türkiyəyə ilhaq edilməsinin tərəfdarı olan bu dairələr Milli Şuraya qarşı fəal kampaniya aparırdı. Gəncədə yerləşən Qafqaz-İslam Ordusu Komandanlığı ilə milli qüvvələr arasında münasibətlər gərgin bir şəkil aldı. Nuru paşanın müstəqilliyini elan etmiş dövlətin daxili işlərinə qarışaraq F.X.Xoyskinin başçılıq etdiyi hökumətə etimadsızlıq göstərməsi siyasi böhranla nəticələndi. Mövcud siyasi böhranı aradan qaldırmaq üçün Azərbaycandakı türk qoşunlarının rəhbərliyi ilə Azərbaycan Milli Şurası arasında güzəştli bir qərar qəbul olundu: Milli Şura buraxılır, ali qanunverici və icraedici hakimiyyət Fətəli xan Xoyski kabinetinin əlində cəmləşir.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XAİCİ SİYASƏTİ VƏ SÜQUTUNUN SƏBƏBLƏRİ

**_Calalova X.K._**
*Sumqayıt Dövlət Universiteti*

Çox zəngin mürəkkəb və ziddiyətli hadisələrlə, böyük uğurlarla dolu tariximizin sözü gedən dövrü Azərbaycan dövlətçiliyinin bərpası yolunda ən böyük tarixi hadisə idi. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin əsas istiqamətini beynəlxalq aləmdə özünün tanınmasına nail olmaq və qonşu dövlətlərlə mehriban münasibətlər yaratmaq təşkil edirdi. Azərbaycan Parlamenti hökuməti ölkənin başının üstünü alan xarici təhlükə müdaxiləsini sovuşdurmaq, gənc respublikanın beynəlxalq aləmdə tanınması üçün böyük səy

göstərirdi. Bununla bağlı olaraq Cümhuriyyət Parlamenti 1918-ci il dekabrın 28-də Parlamentin sədri Ə.M.Topçubaşovun başçılığı ilə Paris sülh konfransına xüsusi nümayəndə heyyətinin göndərilməsi haqqında qərar qəbul etmişdir. Nümayəndə heyyəti Azərbaycan Respublikasının tanınmasına nail olmaq, milli mənafeini və suverenliyini qorumaq səlahiyyətlərini icra etməli idi. Görkəmli dövlət xadimi olan Ə.M.Topçubaşov ağır çətinlikləri dəf edərək gənc respublikanın bir sıra böyük dövlətlər tərəfindən tanınmasına nail olmuşdur. 1920-ci ilin yanvarın 11-də Böyük Britaniyanın xarici işlər naziri Lord Kerzonun təklifi ilə "Antanta" nın Ali Şurası Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini tanıdığını bild-irdi. Bu hadisədən sonra qərb dövlətlərinin Azərbaycana marağı artmağa başlamışdır. Bakıda artıq 20-dən çox dövlətin diplomatik nümayəndəlikləri fəaliyyət göstərirdi. Lakin daxili və xarici çətinliklər üzündən Azərbaycanda ictimai-siyasi vəziyyət getdikcə mürəkkəbləşirdi. Cümhuriyyət dövründə torpaqlarımızın bütövlüyünün qorunması sahəsində böyük işlər görülməsinə baxmayaraq daxildə bolşevik-daşnaq qrupları Xalq Cümhuriyyətinin fəaliyyətinə maneçilik törətməyə çalışırdılar. Siyasi, iqtisadi və sosial böhranın əlamətləri artıq özünü göstərirdi. Bundan istifadə edən Sovet Rusiyasının müstəqil Azərbaycana diplomatik təzyiqləri güclənmişdi. Sovet hakimiyyəti müxtəlif diplomatik manevrlərə əl atırdı. Əsas məqsəd isə Azərbaycana hərbi müdaxilə etmək idi. Beynəlxalq şəraiti nəzərə alaraq birbaşa hərbi müdaxilə etməyə cəsarət etməyən Sovet Rusiyası Azərbaycanın daxilində çevriliş edə biləcək qüvvələr formalaşdırırdı. 1920-ci ilin fevralında yaranan Azərbaycan komunist partiyası bu məqsədə xidmət edirdi. Eyni zamanda daxildə siyasi partiyalar və parlament fraksiyaları arasında qarşıdurmalar da güclənirdi.

Azərbaycan hökümətinə siyasi və diplomatik təzyiqləri gücləndirən Sovet Rusiyası milli höküməti devirmək üçün bolşeviklərdən və Azərbaycan ərazisini işğal etməyə çalışan ermənilərdən istifadə edirdi. Daşnaq dəstələri Qarabağ ərazisində Qazax və Gəncə qəzalarında azərbaycanlılara basqın etdilər. Azərbaycan höküməti ordunu təcili olaraq Dağıstan sərhədlərindən və Bakıdan Qarabağın dağlıq hissəsinə yeritməyə məcbur oldu. Respublikanın şimal sərhədlərinin müdafiəsi xeyli zəiflədi.

Aprelin 27-də müxalifət qüvvələr tərəfindən Azərbaycan Parlamentinə ultimatum verildi ki, hakimiyyət bolşeviklərə təhvil verilsin. Nahaq qan tökməmək məqsədi ilə hakimiyyətin Azərbaycan bolşeviklərinə təhvil verilməsi haqqında qərar qəbul edildi. Parlamentin qərarından sonra XXl Qırmızı ordu hissələri Bakıya daxil oldu. Bununlada da Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinə son qoyuldu. Xarici hərbi müdaxiləçilərin və daxildə

antiazərbaycan siyasəti yeridənlərin birliyi nəticəsində Şərqdə Türk və İslam dünyasında ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun səbəblərini belə qruplaşdırmaq olar:

Beynəlxalq aləmdə, eləcə də Qafqaz bölgəsində yaranmış ümumi hərbi – siyasi vəziyyət;

Sovet Rusiyasının beynəlxalq münasibətlərə və beynəlxalq hüquqa zidd olaraq, suveren dovlət olan Azərbaycana təcavüz etməklə onun ərazisini işqal etməsi;

Azərbaycan hökümətinin daxilində sabitliyin olmaması, parlament fraksiyalarının, siyasi partiyaların hakimiyyət uğrunda mübarizəsinin daxili çəkişmə həddinə çatdırılması, hökümət kabinetlərinin tez-tez dəyişilməsi, sosial iqtisadi islahatların aparılmasında qətiyyətin və ardıcıllığın olmaması;

Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü ilə əlaqədar milli ordu hissələrinin cəbhə xəttindən götürülməsi nəticəsində Azərbaycanın şimal sərhədlərinin müdafiəsiz qalması;

Azərbaycan bolşeviklərinin təxribat fəaliyyəti.

Cəmi 23 ay yaşasada, AXC xalğımızın azadlığı hərəkatı tarixində mühüm rol oynadı, Azərbaycan xalqının azadlıq ideyalarının və müstəqil dövlətçilik ənənələrinin tarixi təməlini qoydu.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ERMƏNİ DAŞNAKLARINA QARŞI MÜBARİZƏSİ

***Cəfərov P.T.***

*Sumqayıt Dövlət Universiteti*

Son iki əsrdə xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti Azərbaycan tarixinin faciələrlə, o cümlədən qanlı hadisələrlə dolu çox ağrılı mərhələlərini təşkil edir. Bu millətçi-şovinist siyasətin əsas məqsədi azərbaycanlıları öz tarixi torpaqlarından qovmaqla əzəli Azərbaycan ərazilərində ermənilərin uydurduqları “Böyük Ermənistan” dövləti yaratmaq olmuşdur.

Erməni millətçiləri XIX əsrin sonlarında 1885-ci ildə Marseldə “Armenakan”, 1887-ci ildə Cenevrədə “Qnçaq”, 1890-cı ildə isə Tiflisdə “Daşnaksütyun” partiyalarını yaratdılar. Bundan sonra, ermənilərin “Böyük Ermənistan” yaratmaq iddiaları yeni mərhələyə qədəm

qoydu.

Erməni daşnakları tərəfindən 1918-ci ilin mart-aprel aylarında Bakıda və Azərbaycanın digər bölgələrində 50 minə yaxın azərbaycanlı xüsusi işgəncələrlə qətlə yetirilmişdir. Zəngəzur qəzasında 10 mindən çox, Şamaxı qəzasında 10 min 270 nəfər, şəhərlə birlikdə isə 18 min 270 nəfər azərbaycanlı amansızlıqla öldürülmüşdür.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Fövqəladə Təhqiqat Komissiyası yaradılmış və ermənilərin törətdikləri cinayətlər araşdırılmağa başlanmışdır. Hökumətin qərarı ilə hər il (1919 və 1920-ci il martın 31-i Ümummilli Matəm günü kimi qeyd edilmişdir) mart ayının 31-nin Matəm Günü kimi qeyd edilməsi qərara alınmışdı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işi başa çatdırmağa imkan vermədi. Buna baxmayaraq XX əsrin sonlarında Azərbaycan yenidən siyasi müstəqilliyini əldə etdikdən sonra ermənilərin azərbaycanlılara qarşı zaman-zaman törətdikləri soyqırımı ilə əlaqədar ümummilli Lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı fərmanla "31 mart Azərbaycanlıların Soyqırımı" Günü elan edilmişdir.

1918-ci il mayın 29-da mövcud geosiyasi vəziyyətlə əlaqədar məcburi addım kimi türk şəhəri İrəvanın Ermənistan respublikasının paytaxtına çervrilməsinə razılıq verilməsindən sonra da, bu nankor və məkrli toplumun Azərbaycana ərazi iddialarının ardı-arası kəsilmədi. Ermənistan respublikası cəmi 9 min kvadrat kilometr əraziyə malik idi. "Böyük Ermənistan" xülyası ilə yaşayan erməni daşnaklarının təcavüzünün əsas hədəfində Azərbaycanın Zəngəzur, Naxçıvan və Qarabağ torpaqları idi.

Azərbaycan xalqının qəddar düşməni Andronikin daşnak quldur dəstələri birbaşa Ermənistan hökumətinin göstərişləri əsasında 1918-ci ilin yay-payız aylarında Naxçıvan, Zəngəzur və Qarabağ bölgələrində dinc əhaliyə qarşı kütləvi soyqırım həyata keçirdilər. Nəticədə Zəngəzurda 115, Cavanşir, Cəbrayıl və Şuşa qəzalarında 21, İrəvan quberniyasında isə 60-dan çox azərbaycanlı kəndi məhv edildi və 100 mindən çox azərbaycanlı öz doğma yurdundan didərgin salındı.

Cümhuriyyət hökuməti, tarixi torpağımız olan Qarabağı erməni təcavüzündən qorumaq və bu bölgədə qayda-qanun yaratmaq üçün 1919-cu ilin əvvəllərində çox qətiyyətli addımlar atmağa başladı. 1919-cu il yanvarın 15-də Şuşa, Cəbrayıl, Cavanşir və Zəngəzur qəzalarını Gəncə quberniyasından ayırıb, mərkəzi Şuşa şəhəri olmaqla həmin qəzalardan ibarət Qarabağ general-qubernatorluğu yaradıldı və Xosrov bəy Sultanov general-qubernator təyin edildi. 1919-cu ilin iyulun 19-25-də aparılan uğurlu döyüşlər erməni milli

şurasının bölgədən qovulması ilə nəticələndi. Xosrov bəy Sultanovun qətiyyətli tədbirləri nəticəsində Andronik nəinki Azərbaycan hətta Cənubi Qafqazdan qaçmağa məcbur oldu. Cümhuriyyət hökumətinin sülhsevər və humanist siyasəti nəticəsində bölgənin erməni əhalisi Azərbaycan hökumətinin hakimiyyətini tanıdı. Beləliklə, Qarabağda və onun dağlıq hissəsində Azərbaycanın suveren hüquqları təmin olundu.

1920-ci ilin mart ayında müqəddəs Novruz bayramı günlərində erməni separatçı qüvvələrinin Qarabağda qaldırdığı qiyam Həbib bəy Səlimovun başçılıq etdiyi Azərbaycan silahlı qüvvələri tərəfindən yatırıldı. Əsgəran savaşında qiyamçılar və Ermənistandan göndərilmiş nizami qüvvələr darmadağın edildi. Əsgəran qalası üzərində yenə də Azərbaycan bayrağı dalğalanmağa başladı. Şuşa qalası da düşməndən təmizləndi. Qarabağ savaşında qazanılan qələbə münasibəti ilə hərbi nazirimiz general Səməd bəy Mehmandarov əsgərlərə müraciətində demişdi: “Mən Almaniya cəbhəsində, bir çox savaşlarda olmuşam, lakin sizin kimi qəhrəman əsgərlərə nadir hallarda təsadüf etmişəm...Siz qanınızla gənc Azərbaycan Ordusunun namusunu qorudunuz!”.

Əslində bu qiyam Sovet Rusiyası ilə gizli danışığa girən Ermənistan daşnak hökumətinin birgə planı idi. Məqsəd Azərbaycanın əsas hərbi hissələrini erməni daşnaklarına qarşı savaş aparmaq üçün Qarabağa yönəltməklə, Azərbaycanın şimaldan müdafiəsini zəiflətmək və Bakı şəhərini müdafiəsiz qoymaq idi.

1920-ci il aprel ayının 26-da məğlub duruma düşən Ermənistan hökuməti barışıq təklif etməyə məcbur oldu. Lakin artıq Azərbaycanın taleyi Sovet Rusiyası tərəfindən həll olunmuşdu. Rusiyanın XI Qırmızı ordusu elə həmin gün Azərbaycanın sərhədlərini keçmiş və aprelin 27-də Quba və Qusar işğal edilmişdi.

Bütün bunlara baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə Ermənistanın Qarabağı diplomatik və hərbi vasitələrlə ələ keçirmək cəhdlərinin qarşısı qətiyyətlə alınmışdı.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN BEYNƏLXALQ SƏVİYYƏDƏ TANINMASI

***Əhmədov R.V.***
*Sumqayıt Dövlət Universiteti*

May ayının 28-də yaranan kimi ADR aktiv xarici siyasət fəaliyyətinə başladı. Mayın 30-da Nazirlər Şurasının sədri ADR-in yarandığı barədə məlumatı Türkiyə, Almaniya, Avstriya-Macarıstan, Fransa, Böyük Britanya, ABŞ, Bolqarıstan, Rumıniya, İran, İspaniya, Hollandiya, Rusiya, İsveç, Ukrayna, Norveç, və Danimarka xarici işlər nazirliklərinə göndərdi.

Transqafqaz hökümətinin başladığı Batum danışıqları iyun ayının 4-də hər üç respublika ilə " Sülh və dostluq" haqqında müqavilələrin imzalanması ilə nəticələndi. "Osmanlı imperator hakimiyyəti ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi" Azərbaycan xalqı üçün həyati əhəmiyyətli sənəd olmaqla yanaşı, Azərbaycan hakimiyyətinin imzaladığı ilk dövlətlərarası müqavilə idi. Müqavilənin dördüncü maddəsində deyilirdi: "İmperator Osmanlı hököməti Azərbaycan respublikası hökümətinə qayda-qanun və ölkənin təhlükəsizliyinin təmin olunmasına ehtiyac duyduğu təqdirdə hərbi qüvvə ilə köməy etməyi öhdəsinə götürür.

Dekabr ayının 26-da yeni yaradılmış hökümətin ilk addımı dekabr ayının 28-də Paris Sülh konfransına göndəriləcək nümayəndə heyətinin tərkibini və statusunu müəyyən etmək oldu. Hökümətin təqdimatı ilə təşkil edilmiş Azərbaycan sülh nümayəndə heyətinə tanınmış siyasi xadim Respublika Parlamentinin sədri Ə.M. Topçubaşov rəhbərlik edirdi. Bu zaman İstanbulda olan Ə.M. Topçubaşov Türkiyə dövlət başçıları və İstanbulda olan İngiltərə, ABŞ, İtaliya, İsveç, İran, Hollandiya, Rusiya, Ukrayna və Ermənistan hərbi və diplomatik nümayəndələri ilə faydalı görüş keçirdi.

Azərbaycan nümayəndələri Parisə viza almaq üçün ciddi çətinliklərlə qarşılaşdı. 3 ay İstanbulda gözlədikdən sonra nümayəndəlik İstanbul-Saloniki-Prey(Afina)-Neapol-Roma xəttiylə Parisə yollandı.

May ayının 2-də ABŞ prezidenti V.Vilsonun təşəbbüsü ilə ilk dəfə Azərbaycan məsələsi Versal konfrasının dördlər şurasının iclasında müzakirə edildi. Parisə gəldikdən sonra Azərbaycan nümayəndələri may ayı ərzində Polşa, Gürcüstan, Dağlılar Respublikası, Ermənistan və İran nümayəndələri ilə görüşlər keçirdilər. Mayın 23-də Versalda olan İngiltərə nümayəndə heyətinin üzvü L.Mallet Ə.M. Topçubaşovu qəbul etdi. Danışıqlar zamanı siyasi, hərbi və iqtisadi vəziyyətlə bağlı fikir mübadiləsi edildi. May ayının 28-də

günün birinci yarısı Versalda olan Amerika diplomatı Q.Morgentay günün ikinci yarısı isə prezident V.Vilson Azərbaycan nümayəndələrini qəbul etdi. Görüş zamanı Ə.M.Topçubaşov bildirdi ki, Azərbaycan nə Kolçakı nə Denikini, nə də köhnə Rus imperiyasının hüdudlarında hakimiyyəti bərpa etmək niyyətində olan qeyri birisini tanımayacaqdır. Danışıqlar zamanı Azərbaycan Respublikasının memorandumu V.Vilsona təqdim edildi. Azərbaycan nümayəndələrinin hərtərəfli iş aparmaları nəticəsində AXC 1920 yanvar ayının 11-də de-fakto tanındı.

Azərbaycanın istiqlaliyətinin Paris Sülh konfransı tərəfindən tanınması tarixi əhəmiyyətli hadisə idi. Azərbaycanın müstəqilliyinin tanınması ona olan marağı artırdı. Belçika, İsveçrə, Hollandiya, Çexiya və Slovakiya, Finlandiya, və digər dövlətlər Bakıda öz konsulluqlarını açdılar. ABŞ, İngiltərə, Fransa, və İtaliya Azərbaycanla iqtisadi əlaqələrini genişləndirməyə başlamışdır. 1920-ci il mart ayının 20-də Azərbaycanla İran arasında əməkdaşlığın bütün sahələrini əhatə edən saziş və müqavilələr imzalanmışdır. Tərəflər arasında imzalanan dostluq müqaviləsinə əsasən İran Azərbaycan Respublikasını de-yure tanıdığını bildirdi. Qısa müddətdə Tehranda Azərbaycanın səfirliyi, Təbrizdə Baş konsulluq, Rəştdə konsulluq; Ənzəlidə, Məşhəddə vitse-konsulluq, Xoy və Əhərdə konsul agentlikləri yaradıldı. 1920-ci il aprel ayının ortalarında Azərbaycan Parlamenti Böyük Britanya, Fransa, İtaliya, ABŞ, İsveç, Polşa, Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Ruminya, Almaniya və Rusiyada diplomatik nümayəndəliklər təsis etmək haqqında qanun qəbul etdi. Bir sıra xarici dövlətlərin nümayəndəlikləri isə Azərbaycanda fəaliyyətə başlamışdı. Beləliklə aprel işğalı ərəfəsində ADR təcridçilikdən çıxıb geniş beynəlxalq əlaqələr sisteminə daxil olmuşdur.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XARİCİ SİYASƏTİ

***Əliyeva H.N., Ələsgərov B.İ., Əliyev A.B.***

*Azərbaycan Dövlət Pedaqoji Universiteti (Ağcabədi filialı)*

Yeni müstəqilik qazanmış Azərbaycan Cümhuriyyəti xarici siyasət məsələlərinə xüsusi diqqət yetirirdi. Cünki istiqlaliyyətinin qorunub saxlanması təkcə daxili deyil, daha çox xarici amillərlə bağlı idi. Bu dövrdə xarici siyasət idarəsinə dövrünün qabaqcıl ziyalıları, dünya siyasətinin sirlərinə bələd olan, çevik diplomatik bacarığa malik Fətəli xan Xoyski, Məmməd Həsən Hacınski, Məmməd Yusif Cəfərov, Adil xan Ziyadxanlı başçılıq etmişdir. Azərbaycan diplomatiyasının hazırlanmasında və həyata keçirilməsində Ə.M.Topçubaşov,

M.Ə.Rəsulzadə, Ə.Ağayev, N.Yusifbəyli, Ə.Şeyxülislamov, C.Hacıbəyli, İ.Mehdiyev, İ.Məhərrəmov, Ə.Haqverdiyev, Y.Vəzir və digərləri yaxından iştirak etmişlər.

Azərbaycan milli-azadlıq mübarizəsində öncüllərimiz Osmanlı dövlətinə böyük ümid bəsləyirdilər. Dünya müharibəsinin son mərhələsində Azərbaycan türklərinin müstəqillik arzusu Türkiyənin Qafqaz siyasəti ilə çarpazlaşdığından tərəflər arasında bir-birinə olan təbii meyl, onların sosial-siyasi, hərbi-iqtisadi əməkdaşlığında maddiləşməklə yeni mərhələyə daxil oldu. Bu yeni mərhələnin səciyyəvi cəhəti ondan ibarətdir ki, Azərbaycan türklərinin Osmanlı dövlətinə söykənməyi milli idealla yanaşı, xeyli dərəcədə millətin fiziki varlığının xilas edilməsi zərurətindən irəli gəlirdi. Çünki, 1918-ci ilin bolşevik yazı Azərbaycan türklərinə görünməmiş müsibətlər gətirmişdi.

1918-ci ilin əvvəllərində Trabzon və Batum danışıqları Cənubi Qafqaz seyminə daxil olan xalqların Türkiyəyə münasibətdə köklü fikir ayrılıqlarını üzə çıxardı. Trabzon danışıqları dayandırıldıqdan sonra Batuma səfər edən Ənvər Paşa Trabzonda Cənubi Qafqaz sülh heyyətinin üzvü M.H.Hacmski ilə danışıqlarında bu hökümətin dağılacağı təqdirdə Türkiyə ilə geniş sərhədləri olan müstəqil Azərbaycan dövlətinin yaradılmasına tərəfdar olduğunu və bu dövlətin Türkiyə tərəfindən müdafiə ediləcəyini bildirdi. Mayın 28-də Azərbaycan Cümhuriyyətinin yaradılması ilə Azərbaycan-Türkiyə münasibətləri yeni mərhələyə, dövlətlər arası münasibətlər mərhələsinə daxil oldu.

Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında 1918-ci ilin iyununda keçirilməsi nəzərdə tutulan İstanbul konfransına M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskidən ibarət nümayəndə heyyətinin göndərilməsinin böyük əhəmiyyəti oldu. Nümayəndə heyyətinə səlahiyyət verilmişdi ki, İstanbul beynəlxalq konfransına dəvət edilmiş Osmanlı, Almaniya, Avstriya, Macarıstan, Bolqarıstan, Gürcüstan, Ermənistan və Dağlılar dövlətlərinin nümayəndələri ilə siyasi-iqtisadi, maliyyə və hərbi məsələlərlə bağlı danışıqlar aparsınlar və müqavilələr bağlasınlar. Nəzərdə tutulan beynəlxalq konfrans keçirilməsə də, Azərbaycan nümayəndələrinin İstanbul missiyası çox faydalı oldu. İyun ayının axırlarından oktyabrın axırlarına qədər Azərbaycan nümayəndələri Osmanlı və İstanbulda olan digər dövlətlərin nümayəndələri ilə səmərəli danışıqlar apardılar.

Sentyabrın əvvəllərində Azərbaycan nümayəndələri Tələt Paşa tərəfindən qəbul edildi. Danışıqlar zamanı Tələt paşanın Berlinə səfəri ərəfəsində Bakı məsələsində Almaniyanın tutduğu mövqe, Bakının tezliklə azad edilməsinin zəruriliyi müzakirə edildi.

Berlin danışıqlarından sonra oktyabrın 2-də Ə.M.Topçubaşovu qəbul edən Tələt Paşa

məlumat verərkən bildirmişdi ki, Azərbaycanın mənafeyi naminə nə mümkündürsə hamısını etmişdir. Danışıqlar zamanı Tələt Paşa Berlindəki rus səfiri V.A.İoffenin Azərbaycana münasibətdə qərəzli mövqeyini açıqladı. Ə.M.Topçubaşov oktyabr ayı ərzində İstanbulda Türkiyənin rəsmi dövlət nümayəndələri ilə bir sıra görüşlər keçirdi. Lakin 1918-ci ilin payızında Dördlər İttifaqı məğlub oldu. Oktyabr ayının 30-da təkcə türkiyə üçün deyil, Azərbaycan Respublikası üçün də son dərəcə ağır olan Mudros barışığı imzalandı. Barışığın on birinci maddəsinə gərə Türkiyə ordusu tezliklə Azərbaycanı tərk etməli, on beşinci maddəyə görə Türkiyə Cənubi Qafqaz dəmir yolu üzərində nəzarət hüququnu antantaya verməli və müttəfiqlərin Bakını tutmasına heç bir etiraz etməməli idi.

Noyabrın 3-də Ə.M.Topçubaşov Azərbaycan hökuməti adından Mudros barışığının Azərbaycana aid maddələrinə etirazını bildirdi. Lakin bunun elə bir əhəmiyyəti olmadı. Bununlada Azərbaycan xarici siyasətinin Türkiyə oriyentasiyası başa çatdı. 1918-ci ilin noyabr ayının 17-də müttəfiqlərin qoşunları Mudros barışığına əsasən Bakıya daxil oldu. Müttəfiqlərin gəlişi Azərbaycanın istiqlaliyyətini ciddi təhlükə qarşısında qoydu. Rus və erməni milli şuralarının ciddi cəhdlərinə baxmayaraq, Bakıda vəziyyətlə yaxından tanış olduqdan sonra general V.Tomson Azərbaycan hökumətini tanıdı. 1918-ci ilin noyabrında Azərbaycan istiqlalını xilas etmək, Bakıya daxil olan müttəfiq komandanlığı tərəfindən tanınma, Respublika diplomatiyasının çevikliyini, böhranlı vəziyyətdən bacarıqla çıxmaq iqtidarına malik olduğunu göstərdi. Dekabr ayının 26-da yeni yaradılmış hökumətin ilk addımı ayın 28-də Paris sülh konfransına göndəriləcək nümayəndə heyətinin tərkibini və statusunu müəyyən etmək oldu. Hökumətin təqdimatı ilə M.H.Hacınski, Ə.Ağayev, Ə.Şeyxülislamov, C.Hacıbəyli, M.Mehdiyev, M.Məhərrəmovdan ibarət təşkil edilmiş Azərbaycan sülh nümayəndə heyətinə tanınmış siyasi xadim, Respublika parlamentinin sədri Ə.M.Topçubaşov rəhbərlik edirdi. Bu zaman İstanbulda olan Ə.M.Topçubaşov Türkiyə dövlət başçıları və İstanbulda olan İngiltərə, ABŞ, İtaliya, İsveç, İran, Hollandiya, Rusiya, Ukrayna və Ermənistan hərbi və diplomatik nümayəndələri ilə bir sıra faydalı görüşlər keçirmişdi. Azərbaycan nümayəndələri Parisə viza almaq üçün ciddi çətinliklərlə qarşılaşdı. Üç ay İstanbulda gözlədikdən sonra nümayəndəlik İstanbul-Saloniki-Pirey (Afina) Neapol Roma xətti ilə Parisə yollandı.

Azərbaycan diplomatlarının ABŞ prezidenti V.Vilson tərəfindən qəbul edilməsi respublikanın beynəlxalq vəziyyətinə müsbət təsir göstərən mühüm siyasi hadisə idi. Bu görüş Avropa siyasi dairələrinin və mətbuatının diqqətini Azərbaycana cəlb edən uğurlu

diplomatik addım oldu. Azərbaycanın himayəçilik prinsipinə meyli xeyli dərəcədə təhlükə ilə bağlı idi. Xüsusilə köhnə və yeni Rusiyanın Azərbaycana forma etibarı ilə fərqli, mahiyyət etibarilə eyni olan münasibəti böyük dövlətlərin simasında himayəçi axtarmağı tarixi zərurətə çevirmişdi. Dünya müharibəsi qurtardıqdan sonra beynəlxalq siyasi vəziyyət köklü sürətdə dəyişdiyindən həmin himayəçi dövlət Fransa, Böyük Britaniya, ABŞ və İtaliyadan biri ola bilərdi. Azərbaycana və ümumilikdə Qafqaz dövlətlərinə Fransa himayədarlığı o qədər də real deyildi. Fransa işgüzar dairələrinin Qafqaza marağı güclü olsa da, Klemanso hökümətinin "vahid və bölünməz Rusiya" ideyasına sədaqəti daha üstün idi. Azərbaycan xarici siyasətinin qarşısında duran ciddi məsələlərdən biri qonşu dövlətlərlə mehriban münasibətlər yaratmaq, müəyyən məsələlərə münasibətdə Qafqaz həmrəyliyinə nail olmaq idi. Azərbaycan parlamentinin Dağıstan, Gürcüstan və Ermənistana göndərdiyi müraciətdə deyilirdi: "Qafqaz elə bir vəziyyət qarşısındadır ki, bu ərazi üzərində qurulmuş olan Cümhuriyyətlər müqabil dostluq və həmrəylik yapmadan yaşaya bilməzlər". Ümumqafqaz həmrəyliyinin yaradılmasında Azərbaycan diplomatiyası Gürcüstanla əlaqələrin genişləndirilməsinə xüsusi diqqət yetirirdi. Beləliklə Rusiya ilə münasibətlərin çətinliklərinə baxmayaraq Azərbaycan xalqının milli mənafeyinə uyğun xarici siyasət yeridilməsi, mürəkkəb beynəlxalq vəziyyətdə Azərbaycanla qonşu dövlətlər arasında mehriban münasibətlər yaratmaq, onu dünya birliyinin bərabər hüquqlu üzvünə çevirmək Azərbaycan diplomatiyasının başlıca məqsədi idi.

## AZƏRBAYCAN XALQ CUMHURİYYƏTİ NÜMAYƏNDƏLƏRİNİN PARİS SÜLH KONFRANSINDA İŞTİRAKI

***Əsədova X.İ.***

*Azərbaycan Dövlət Aqrar Universiteti*

I Dünya müharibəsinin qurtarması ilə qalib dövlətlər müharibədən sonra dünyanın vacib məsələlərini həll etmək üçün, bundan başqa məğlub dövlətlərlə " haqq hesab çürutmək" üçün Parisdə beynəlxalq sülh konfransının çağırılmasına qərar verdilər. Dekabrın 7-də açılmış Azərbaycan parlamenti Paris konfransında iştirak etmək üçün Fransanın paytaxtına tam səlahiyyətli və geniş hüquqa malik nümayəndə heyəti göndərmək haqqında qərar qəbul edildi. Nümayəndə heyətinin başçılığına ölkədə böyük nüfuza sahib olan parlament sədri Ə.M.Topçubaşov təyin edildi.

Yanvar ayının 20-dən başlayaraq Azərbaycan nümayəndə heyəti Fransa hökumətindən

Parisə getmək üçün icazə gözləyirdilər. Erməni, gürcü, eləcədə Dağlılar Respublikası nümayəndələrinin çoxdan Parisə yola düşdüklərinə, təbliğat və təşkilati işlərinə başlamalarına baxmayaraq, Azərbaycan nümayəndə heyəti üç ay yarım İstambulda icazə gözləməli oldu.

Yanvar ayının 18-də Azərbaycan, Gürcüstan və Şimali Qafqaz nümayəndələri Batumdan İstambula yola düşdülər. Onlar Türkiyə paytaxtına yetişənə qədər Ə.M.Topcubaşov İstambulda çox mühüm görüşlər keçirmişdi. Yanvar ayının 6-da o, İstambulda olan Amerika diplomatik nümayəndəsi mister Heyklə görüşüb danışıqlar aparmış və prezident V.Vilsonun " on dörd sülh prinsipi"nin Azərbaycana şamil edilməsini, respublikanın istiqlaliyyətinin ABŞ tərəfindən tanınmasına köməklik göstərilməsini ondan xahiş etmişdi.Yanvarın 10-da isə Əlimərdan bəy Hollandiya nümayəndəsi Van Der Does de Villebua ilə görüşmüşdü.Görüş zamanı Villebua Topcubaşovun göndərdiyi memarandumu və ondan Qafqaz, habelə Azərbaycan haqqında çoxlu maraqlı məlumat aldığını bildirdi. O dedi: "Mən diqqət yetirdim ki, sizin zəngin ölkəniz var, ona görə də siz öz vəsaitləriniz hesabına yaşaya bilərsiniz. Sizdə çoxlu neft, pambıq var lakin dəmir yollarınız yetərli deyildir". Söhbətin sonunda Villebua Avropanın xəritəsində böyük dəyişikliklər olacağının ehtimal edildiyini xatırlatdı. Hollandiya nazirinin bu ehtimalı müharibənin gətirdiyi dəyişikliklər fonunda Avropada, o cümlədən Rusiya imperiyasının yerində yeni dövlətlərin qurulacağını özündə ehtifa edirdi.

Nəhayət, ingilislərin köməyilə Parisə getmək icazəsi (viza) ala bilən Azərbaycan nümayəndə heyəti 1919-cu ilin aprelin 22-də yola düşdü və may ayında Parisə catdı. M.H.Hacınski sülh konfransına gedən nümayəndə heyəti üçün Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən hazırlanmış 36 adda sənəd və materialları da Əlimərdan bəyə təqdim etdi. Bura gənc Azərbaycan dövlətinin Osmanlı imperiyası ilə bağladığı müqavilə və sazişlər, Gürcüstan-Azərbaycan və Ermənistan- Azərbaycan sərhədlərinə aid sənədlər, ABŞ Prezidenti Vilsona müraciət, Qafqazın etnoqrafiq xəritəsi, bolşevik- daşnak koalisiyasının 1918-ci ilin mart-aprel aylarında Bakı şəhəri Şamaxı, Göycay, Cavad və Quba qəzalarında müsəlman əhaliyə qarşı törətdiyi zorakılıq aktlarının VI cildlik istintaq materialı və ona əlavə edilmiş 100-ə yaxın foto (Bakı hadisələrinə dair 14 foto Şamaxı şəhəri və Şamaxı qəzasında törədilmiş vəhşiliklərə dair 67 foto, Göycay qəzası və Kürdəmir kəndində törədilmiş hadisələri əks etdirən və sayı göstərilməyən bir paket foto) cəkilişlər daxil idi. May ayının 28-də İstiqlal günü Azərbaycan nümayəndə heyəti o dövrün ən tanınmış dövlət

xadımlərindən olan ABŞ prezidenti V.Vilsonla görüşə bildi. Təqdim olunmuş memorandumda Azərbaycan Demokratik Respublikasının yaranma tarixi, onun bir illik inkişaf yolundan bəhs edilir, istiqlal yolunda verdiyi qurbanlardan danışılırdı.

Söhbət zamanı Vilson Azərbaycan nümayəndələrini görməyə və Azərbaycan haqqında xeyli məlumat aldığına çox şad olduğunu bildirmışdi. Lakin Azərbaycan müstəqilliyinin tanınması məsələsini açiq saxlayaraq o deyir:1.Amerikalılar dünyanı kiçik hissələrə bölmək istəmirlər; 2. Əgər Azərbaycan Qafqaz Federasiyası yaratmaq fikrinə qoşulsa, bu, onun üçün yaxşı olar;3. Bu konfederasiya Millətlər Cəmiyyətinin təklifi ilə hər hansı bir dövlətin köməyinə arxalana bilər; 4. Azərbaycan məsələsi “ rus məsələsi”ndən əvvəl həll edilə bilməz.

Vilsonun Azərbaycana münasibətdə tərəddüdlü mövqeyi bir sıra amillərlə bağlı idi. Birincisi, bütün müəlliflər təsdiq edirlər ki, Vilson ermənipərəst bir siyasi xadim idi və erməni missionerləri Qafqazda cərəyan edən hadisələr haqqında ona xeyli saxta məlumatlar vermişdilər. İkincisi, görüşün keçirildiyi gün Azərbaycan nümayəndələri üçün əlamətdar bir gün olsa da, ümumilikdə dövr yeni yaranmış respublikalar üçün əlverişli deyildi. Belə ki,1919-cu ilin yazında Rusiyada ağqvardiyaçı generalların – Kolcak, Denikin, Yudeniç və digərlərinin fəallaşması müttəfiqlərin o cümlədən, Vilsonun Rusiyanın bərpa olunacağına ümidini artırmışdı.Ücüncüsü isə, Əlimərdan bəy ilə görüşündən iki gün əvvəl may ayının 26-da Dördlər Şurasının iclasında Kolcak hökumətinin tanımaq barədə Vilson, Lyord Corc, Klemanso, Orlando və Sayondzi tərəfindən nota imzalanıb gizli şəkildə Kolcaka göndərilmişdi. Bütün bunlara baxmayaraq, Vilsonun Azərbaycan nümayəndələrini qəbul etməsi mühüm siyasi hadisə idi.

## ŞƏRQİN İLK PARLAMENTLİ, DEMOKRATİK RESPUBLİKASI-
## AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI

***Fərhadova J.F.***
*Sumqayıt Dövlət Universiteti*

1918-ci il mayın 28-də yaradılan Azərbaycan Demokratik Respublikası müsəlman Şərqində ilk demokratik respublika olmaqla yanaşı, xalqımızın tarixində mühüm bir hadisə idi. Belə ki, əsrlər boyu müstəqillik arzusu ilə yaşayan xalqımız, nəhayət ki, öz müstəqil dövlətinə sahib oldu. Çətin beynəlxalq şəraitdə müstəqilliyini elan etmiş və hərbi köməyə böyük ehtiyacı olan Azərbaycan Demokratik Respublikası ilk addım kimi Türkiyə ilə

müqavilə bağlamağı qərara almışdı. Belə ki, 1918-ci il iyunun 4-də Batumidə Osmanlı Türkiyəsi ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsinin imzalanması Azərbaycan xalqı üçün həyati əhəmiyyətli sənəd olmaqla yanaşı, respublika hökumətinin imzaladığı ilk dövlətlərarası müqavilə idi. Bunun ardınca iyunun 16-da Azərbaycan hökuməti Tiflisdən Gəncəyə köçdü. Gəncədə Nuru paşanın başçılıq etdiyi 300 nəfər məsləhətçidən ibarət türk hərbi nümayəndəliyi ilə yanaşı, Qafqaz İslam ordusunun şəxsi heyətinin təxminən yarısı yerli əhalidən toplanmış könüllülərdən ibarət idi. Birinci dünya müharibəsində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda mübarizəsinin həlledici mərhələyə daxil olduğu və ölkənin başı üzərini yeni işğal təhlükəsinin aldığı çox mürəkkəb bir daxili və beynəlxalq şəraitdə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti öz fəaliyyətinin əsas hissəsini, ilk növbədə, Azərbaycanın müstəqilliyinin dünya dövlətləri tərəfindən tanınmasına nail olmaq, qonşu dövlətlərlə münasibətləri qaydaya salmaq təşkil edirdi. Bununla yanaşı, Cənubi Qafqaz respublikaları arasında mübahisəli məsələləri, xüsusilə, Ermənistanın ərazi iddiası məsələsini həll etmək idi.

1918-ci il iyunun 17-də Fətəli xan Xoyskinin başçılıq etdiyi Azərbaycan Demokratik Respublikası hökuməti çox ağır şəraitdə, eləcə də soyqırım taleyini yaşamış Azərbaycan xalqını bu çətin vəziyyətdən çıxarmaq məsuliyyətini öz üzərinə götürdü. Belə ki, hökumət iyun ayının 19-da bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdikdən sonra, təcili olaraq dövlət quruculuğu prosesinə başladı. Bütün bunlarla yanaşı, Azərbaycan hökuməti öz fəaliyyətinin mühüm bir hissəsini dövlət müstəqilliyinin qorunub saxlanması, eləcə də xarici müdaxilənin qarşısının alınması üçün ordu quruculuğuna yönəltmişdi.

Bu baxımdan ordu quruculuğu istiqamətində iyunun 26-da müsəlman hərbi korpusunun Azərbaycan korpusuna çevrilməsi ilə mühüm addım atıldı. Bununla da ilk milli ordu yaradıldı. Bir gün sonra Azərbaycan dili dövlət dili elan edildi. Bunun ardınca isə, iyul ayının 15-də Fövqəladə Təhqiqat komissiyası yaratmaq barədə qəbul edildi və komissiya I Dünya müharibəsi dövründə Cənubi Qafqaz ərazisində bütün türk-müsəlman əhalisinə qarşı erməni daşnakları tərəfindən törədilən soyqırımı cinayətlərini araşdırıb, cinayətkarları məsuliyyətə cəlb etməli idi.

1918-ci il noyabrın 9-da mavi, qırmızı və yaşıl zolaqlı, üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan bayraq dövlət bayrağı kimi qəbul edildi. Müstəqil respublikanın dövlət himninin qəbulu, eləcə də Azərbaycan milli valyutasının dövriyyəyə buraxılması da demokratik respublika dövrünün uğurlu islahatlarından biri kimi böyük

əhəmiyyət kəsb edirdi.

1918-ci il iyunun 27-dən iyulun 1-dək Göyçay ətrafında birləşmiş türk-Azərbaycan hərbi qüvvələri ilə Bakı Xalq Komissarları sovetinin hərbi qüvvələri arasında gedən döyüşlər nəticəsində Bakı sovetinin hərbi qüvvələri məğlub oldu və onların Gəncə üzərinə hücumları dəf edildi. Qafqaz İslam Ordusu və Azərbaycan korpusu iyun-avqust aylarında Gəncədə, Yevlaxda, Göyçayda və digər bölgələrdəki ağır döyüşlərdə bolşevik-daşnak qoşunlarını darmadağın edərək sentyabrın 15-də Bakıya daxil oldu. Bakı və digər rayonların azad edilməsi ilə Azərbaycan Demokratik Respublikası öz hakimiyyətini ölkənin bütün hüdudlarında təmin etdi. Beləliklə, 1918-ci ilin martından başlayaraq erməni daşnaklarının və bolşeviklərin Bakıda və Azərbaycanın digər bölgələrində birgə həyata keçirdikləri qanlı qırğınlara, özbaşınalıqlara son qoyuldu. Azərbaycan Demokratik Respublikasının hökuməti sentyabrın 17-də Gəncədən Bakıya köçdü. Mühüm dövlət təsisatları burada yerləşdirildi. Ölkədə sosial quruculuğun əsas mərhələsinə start verildi.

Mürəkkəb beynəlxalq şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, xalqımızın milli oyanışını əbədiləşdirməyə çalışan respublika hökuməti və parlamenti elmin, təhsilin və xalq maarifinin, eləcə də səhiyyənin inkişafını diqqət mərkəzində saxlayırdı. Ölkənin hər yerində müxtəlif məktəblər, gimnaziyalar, qız məktəbləri, kitabxanalar və xəstəxanaların açılması o dövrdə sosial-iqtisadi yönümlü islahatların həyata keçirilməsi istiqamətində atılan mühüm addım idi. Bu baxımdan Azərbaycan parlamentinin 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis etdiyi qanun hökumət xadimlərinin xalq qarşısında çox mühüm tarixi xidməti idi. Bu zaman Azərbaycan parlamenti hökumətin təklifinə əsasən 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına təhsil almaq üçün xarici ölkələrə göndərilməsi barədə qanun qəbul etməsi elm və təhsilə göstərilən böyük diqqət idi.

Ümumiyyətlə, respublika dövründə Azərbaycanda parlamentçilik ənənələri getdikcə möhkəmlənir və inkişaf edir, ən müasir parlament mədəniyyəti formalaşırdı. Azərbaycan Demokratik Respublikasının mövcud olduğu dövrdə 155 parlament iclası keçirilmişdir ki, bunun da 10-u Azərbaycan Milli Şurasının (27 may-19 noyabr 1918-ci ), 145-i isə Azərbaycan parlamentinin fəaliyyət göstərdiyi dövrdə (7 dekabr 1918-ci il-27 aprel 1920-ci il) olmuşdur.

Azərbaycan parlamentinin və respublika hökumətinin fəaliyyətinin çox mühüm hissəsini daim özünə cəlb edən məsələlərdən biri də yaxın qonşularla münasibətlər və sərhəd məsələləri idi. Azərbaycan Demokratik Respublikası qurulduqdan sonra Fövqəladə

Təhqiqat Komissiyası yaradılmış və ermənilərin törətdikləri cinayətlər araşdırılmağa başlanmışdır. Hökumətin qərarı ilə hər il (1919 və 1920-ci il martın 31-də iki dəfə ümummilli matəm günü kimi qeyd edilmişdir) mart ayının 31-i matəm günü kimi qeyd edilməsi qərara alınmışdı. Lakin Azərbaycan Demokratik Respublikasının süqutu bu işi başa çatdırmağa imkan vermədi.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ İRƏVAN ŞƏHƏRİNİN ERMƏNİLƏRƏ GÜZƏŞTƏ GEDİLMƏSİ VƏ TÜRKİYƏNİN MÜNASİBƏTİ

***Hacıyev O.Y.***
*Sumqayıt Dövlət Universiteti*

1918-ci ilin mayında istiqlaliyyətini yenicə elan etmiş respublikalar arasında sərhəd mübahisələri var idi. Nazirlər Şurasının sədri F.Xoyski Milli Şuranın iclasında erməni Milli Şurası ilə danışıqları haqqında məlumat verdi. O çıxışında bildirirdi ki, Ermənistan Federasiyası yaratmaqdan ötrü onlara siyasi mərkəz lazımdır; Aleksandropol türklər tərəfindən tutulduqdan sonra belə bir siyasi mərkəz ancaq İrəvan şəhəri ola bilər. Ona görə də, İrəvanın ermənilərə güzəştə gedilməsi labüd idi. Lakin bu təklif heç də birmənalı qarşılanmamışdı. Bu məsələ barədə cıxış edən X.Xasməmmədov, M.Y.Cəfərov, Ə.Şeyxislamov, M.Məhərrəmov İrəvanın ermənilərə güzəştə gedilməsini bəla kimi qiymətləndirmişdilər. Lakin 1 iyunda keçirilən Milli Şuranın iclasında bu etiraz qəbul edilmədi. Milli Şura İrəvan şəhərinin güzəştə gedilməsi ilə bağlı meydana çıxan problemləri həll etmək üçün İrəvana M.Y.Cəfərov, B.Rzayev və M.Seyidovdan ibarət nümayəndə heyəti göndərməyi lazım bildi. Sonra iclas Yelizavetpol quberniyasındakı məsələni müzakirə etdi. Bu barədə isə Ş.Rüstəmbəyov və N.Usubbəyov məlumat verdilər. İclasda qərara alındı ki, Batumdakı Azərbaycan nümayəndələrini respublikadakı vəziyyətlə yaxından tanış etmək üçün N.Usubbəyov Batuma ezam edilsin.

Batumda olan Azərbaycan və Ermənistan nümayəndələri arasında sərhəd məsələləri ilə əlaqədar danışıqlar aparılmış və razılıq əldə edilmişdi. Razılığa əsasən Azərbaycan “Aleksandropol quberniyası” hüdudlarında erməni dövlətinin yaradılmasına razıdır. Bu şərtlə güzəştə gedilmişdi ki, ermənilər Yelizavetpol quberniyasının bir hissəsi, yəni Qarabağa olan iddialarından imtina edirdilər. Eyni zamanda Azərbaycan nümayəndələri Türkiyə və Ermənistan arasında müqavilə bağlanmasına yardım göstərəcəklərinə də vəd vermişdilər.

Cənubi Qafqazda tarixi Azərbaycan torpaqlarında Ermənistan dövlətinin yaradıl-

masına Osmanlı siyasi dairələrinin də münasibəti birmənalı deyildi. Birinci Dünya Müharibəsinin sonunda Türkiyənin baş naziri olmuş, Tələt paşa və hərbi nazir Ənvər paşa Cənubi Qafqazda erməni dövlətinin yaradılmasını uyğun bilmirdilər. Batum danışıqları zamanı isə Türkiyəni təmsil edən Vehib paşa tarixən Azərbaycana məxsus bir sıra ərazilərin ermənilərə verilməsini qaçılmaz hesab edirdi. Hətta Xəlil bəy Ənvər paşaya bu barədə məlumat verərkən Ənvər paşa buna qarşı çıxmışdı. Vehib bəyə göndərdiyi teleqramda o yazırdı: "Xəlil bəyin teleqramında anlaşıldığına görə, ermənilər bizə qaytardıqları ərazilərə müqabil Cənubi Qafqaz müsəlmanlarına aid ərazidən bir qisim almaq istəyirlərmiş və müsəlmanlar da buna müvafakat edəcəklərmiş. Məncə, bu tamamilə yanlışdır". Teleqramın davamında sanki günümüzdəki Ermənistanı təsvir edərək yazır: "Əgər bu gün Qafqazda beş- altı yüz min əhalisi olan və kafi miqdarda əraziyə malik kiçik bir Ermənistan təşəkkül edərsə, gələcəkdə əmrləri Amerikadan alaraq, o tərəfdən gələn ermənilərlə bu hökümət milyonlarla əhaliyə sahib olacaqdır. Və bizim üçün Şərqdə bir Bolqarıstan daha yaranar ki, bu bizim üçün Rusiyadan daha müzir bir düşmən olar". Ənvər paşa ermənilər tərəfindən işğal edilmiş ərazilərin, ilk növbədə İrəvan quberniyasının azad edilməsinə üstünlük verirdi. Vehib paşa Ənvər paşanın teleqramına cavabında yazırdı: "Erməniləri büsbütün qeyri–mövcud edə bilmərik. Hər halda onlara bir vücud vermək məcburiyyətindəyik".

Beləliklə təəssüflər olsun ki, Azərbaycanın tarixi torpaqlarında mərkəzi İrəvan olan erməni dövləti yaradıldı. Ancaq qeyd etdiyimiz kimi, İrəvanın müqabilində ermənilər Qarabağa olan iddialarından əl çəkməli idi. Lakin acgöz qonşumuz ona verilən ərazilərə doymur daha geniş ərazilərə iddia edir,"Böyük Ermənistan " nağılına özlərini inandırırlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cıxışında demişdir: "Bizim ata – baba torpaqlarımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olmuşdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana torpaq iddiası irəli sürmürük. Halbuki sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır".

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ VƏ TÜRKİYƏ ARASINDA DOSTLUQ MÜQAVİLƏSİ

***Hacıyeva M.C.***
*Sumqayıt Dövlət Universiteti*

1918-ci ilin may ayının 26- da Cənubi Qafqaz Seyminin son iclası keçirildi. Elə həmin gün Gürcü Milli Şurası tərəfindən Gürcüstanın müstəqilliyi elan edildi. May ayının 28 - i isə Azərbaycan Milli Şurasının ilk iclası keçirildi. Bu iclasda ən mühüm məsələlərdən biri Seymin buraxılması, Gürcüstanın istiqlaliyyətinin elan edilməsi ilə bağlı Azərbaycanın vəziyyəti idi. Şuranın üzvü X.Xasməmmədov bu məsələ ilə əlaqədar çıxış edərək Azərbaycanın müstəqil respublika elan edilməsinin zəruriliyini əsaslandırdı. Bu təklif ətrafında gedən müzakirələrdən sonra Milli Şura 24 səslə Azərbaycanın istiqlaliyyəti haqqında qərar qəbul etdi və "İstiqlaliyyət bəyannaməsi" ni elan etdi.

Yeni yaranmış dövlətin qarşısında çox çətin məsələlər dururdu. Bunlardan biri beynəlxalq münasibətlərə daxil olmaq idi. Bu işin zəruriliyini başa düşən dövlət çətin vəziyyətdən çıxış yolunu Osmanlı dövlətinin xarici işlər nazirliyinin imkanlarından istifadə edilməsində görürdü. Bu məsələ ilə bağlı olaraq xarici işlər naziri M.Hacinski Türkiyə Xarici İşlər Nazirliyinə teleqramında yazırdı ki, dövlət əhəmiyyətli məsələlər Avropa ölkələri ilə münasibətlər qurmağı tələb edir. Lakin yenicə öz müstəqilliyini elan edən Azərbaycan məlum səbəblərə görə tezliklə Avropa mərkəzlərində nümayəndəliklər yaratmağa çətinlik çəkir. "Belə bir şəraitdə Osmanlı dövləti beynəlxalq qaydalar əsasında Avropa paytaxtlarında, o cümlədən Moskvada olan türk səfirlikləri vasitəsilə Azərbaycanla Avropa dövlətləri arasında vasitəçi olmağa razıdırmı?" Qeyd etmək lazımdır ki, türk səfirlikləri müxtəlif ölkələrin paytxtlarında Azərbaycan Respublikasının yaranması ilə bağlı çıxışlar etmişdilər.

Azərbaycanla Türkiyə arasında olan münasibətlər tək bununla bitmirdi. 4 iyun 1918-ci ildə "Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi" imzalandı. Bu Azərbaycan Respublikasının xarici dövlətlə imzaladığı ilk müqavilə idi. Müqaviləyə əsasən "Bir tərəfdən Osmanlı imperiyası hökuməti, digər tərəfdən isə öz müstəqilliyini elan etmiş Azərbaycan Respublikası hökuməti öz ölkələri arasında siyasi, hüquqi, iqtisadi və intelektual zəmində mehriban dostluq münasibətləri bərqərar etməkdə qarşılıqlı surətdə razılığa gəlirlər". Osmanlı dövləti ilə bağlanan müqavilə həm Azərbaycan Respublikasının beynəlxalq nüfuzuna müsbət təsir göstərirdi, həm də Azərbaycan türk millətinin mövcudluğunu qoruyub saxlamaq üçün təminat idi. Eyni za-

manda müqavilənin hərbi yardım haqqında maddəsinə əsasən Qarabağın Dağlıq hissəsində azğınlıq törədən erməni quldur dəstələri ləğv ediləcək və Bakı xarici düşmənlərdən təmizlənib əmin – amanlıq yaradılacaqdır.

Qeyd etmək lazımdır ki, bu haqda əsərlər yazan sovet tarixşünasları adətən bu müqavilənin üstündən ya sükutla keçmiş, ya da müqaviləni soyğunçu müqavilə olaraq qələmə almışdılar. Bəzi tarixçilərin fikrincə isə Osmanlı dövləti Azərbaycan Xalq Cümhuriyyətini müstəqil dövlət kimi tanımamışdır. Təbii ki, bütün bunlar yanlış fikirlərdir. Beynəlxalq münasibətlər nəzəriyyəsinə eləcə də, praktikasına görə bir birini müstəqi dövlət kimi tanımayan tərəflərin siyasi, iqtisadi və hüquqi zəmində mehriban qonşuluq münasibətləri barədə müqavilə imzalaması qeyri mümkündür. F.Kazımzadənin fikrincə isə 4 iyun müqaviləsi nəticəsində "Azərbaycan heç nə itirmirdi, əksinə Osmanlı yardımına arxalanaraq Bakını azad etmək ümidində idi".

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ:
## ŞƏRQDƏ İLK DEMOKRATİK RESPUBLİKA

***Hidayətova M.S.***
*Sumqayıt Dövlət Universiteti*

Müstəqil Azərbaycan dövlətinin yaranması Zaqafqaziya Demokratik Federativ Respublikasının parçalanması şəraitində baş vermişdir. 1918-ci il may ayının 27-də artıq keçmiş Zaqafqaziya Seyminin müsəlman fraksiyası yaranmış siyasi vəziyyəti müzakirə etmək üçün fövqəladə iclas çağırdı.

1918-ci il may ayının 28-də Milli Şuranın birinci iclası keçirildi və iclasda Azərbaycanın müstəqil dövlət elan olunması haqqında tarixi qərar qəbul edildi. Beləliklə, 100 ildən artıq fasilədən sonra Azərbaycanın Şərqi və Cənubi Qafqaz hüdudlarında milli dövlətçiliyi bərpa olundu. Elə həmin iclasda yeni demokratik dövlətin yaranması faktını hüquqi cəhətdən təsbit edən "Azərbaycanın istiqlaliyyəti haqqında Akt" qəbul edildi.

Hökumətin 24 iyun 1918-ci il tarixli qərarına əsasən, Azərbaycanın dövlət bayrağı kimi qırmızı fonda ağ aypara və səkkizguşəli ulduzun təsvir edildiyi qırmızı parçadan hazırlanmış bayraq qəbul olundu. Noyabrın 9-da bu bayraq, ağ aypara və səkkizguşəli ulduzun təsvir olunduğu mavi, qırmızı və yaşıl rəngli bayraqla əvəz edildi. Azərbaycan Cümhuriyyətinin dövlət bayrağının üç rəngi "türk milli mədəniyyətini, müasir Avropa demokratiyasını və islam sivilizasiyasını təmsil edirdi".

Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin edilməsi Xalq Cümhuriyyəti diplomatiyasının çıxış nöqtəsini təşkil etmişdir. Bu baxımdan Azərbaycan Xalq Cümhuriyyəti, onun diplomatiyasının ən mühüm xidmətlərindən biri Cənubi Qafqazda azərbaycanlıların milli hüdudlarının müəyyənləşdirilməsi ilə bağlı idi. Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsindən sonra xarici ölkələrə mühacirət etmiş cümhuriyyət xadimləri, ayrı-ayrı ziyalıların dünyanın müxtəlif ölkələrində nəşr etdirdikləri əsərlər 1918-1920-ci illərdə həyata keçirilmiş Azərbaycan diplomatiyasının bir sıra qaranlıq səhifələrini aydınlaşdırmağa imkan verir.

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan Silahlı Qüvvələrinin təşkilinə Cümhuriyyətin elan edildiyi gündən başlanmışdı.

Mövcud olduğu 23 ay ərzində Cümhuriyyət Hökuməti bir sıra cari təsərrüfat məsələlərinin həllində mühüm uğurlar qazanmışdı. Azərbaycanda neft sənayesi ağır vəziyyətdən çıxarılmış, dağıdılmış Bakı - Batum neft kəməri bərpa olunmuş, Bakı - Culfa dəmiryolu inşası davam etdirilmiş, Kür çayı üzərində körpü salınmış, Azərbaycan Dövlət Bankı yaradılmış, milli pul nişanları buraxılmış, Xəzər dəniz gəmiçiliyi inkişaf etdirilmişdi.

Müstəqil dövlətin atributu kimi, milli pul vahidinin buraxılması Cümhuriyyətin maliyyə siyasətinin mühüm uğuru idi. 1918-ci ilin əvvəlindən Bakıda yeni kağız pullar - "Bakı bonları" buraxıldı (bu zamanadək tədavüldə "Nikolay" pulları və "Kerenski" pul vahidləri işlənirdi). Milli pul vahidinin möhkəmləndirilməsi, onun alıcılıq qabiliyyətinin qorunub saxlanması ilk vaxtlardan Hökumətin iqtisadi siyasətinin əsas məsələsi oldu

Azərbaycan Xalq Cümhuriyyəti dövründə də neft sənayesi iqtisadiyyatın əsas sahəsi sayılırdı, çünki bu zaman neft dünyanın ən önəmli hərəkətverici qüvvəsi idi. Odur ki, Parlament və Hökumət neft hasilatı və emalının vəziyyətini vaxtaşırı təhlil edir, dünya neft bazarını öyrənirdi. Təbii sərvət iqtisadi inkişaf üçün maddi baza olsa da, iqtisadi qüdrət və gücün təbii sərvətdən asılılığının həmişəlik olmadığı və gələcəkdə dəyişəcəyi Azərbaycan Xalq Cümhuriyyətinin istinad etdiyi başlıca iqtisadi müddəalardan biri idi

Azərbaycan Xalq Cümhuriyyəti Birinci Dünya Müharibəsinin başa çatması ilə müşayiət edilən gərgin diplomatik mübarizə şəraitində yarandı və fəaliyyət göstərdi. Siyasi məzmunda Azərbaycan ideyasını dünyaya təqdim edənlər 1920-ci ildə diplomatik baxımdan bu ideyanın Versal Ali Şurası tərəfindən beynəlxalq təsdiqlənməsinə nail oldular. Məhz belə bir şəraitdə Azərbaycanın müstəqilliyinin 1920-ci ildə Versal Ali Şurası tərəfindən de-fakto tanınması 1919-cu ilin payızından etibarən dəyişən siyasi vəziyyətlə yanaşı, Azərbaycan

diplomatiyasının mühüm uğuru, onun Paris Sülh Konfransındakı say etibari ilə kiçik olan heyətinin böyük qələbəsi idi. Lakin Birinci Dünya Müharibəsindən sonra formalaşan yeni geosiyasi proseslər Azərbaycan millətinin bu tarixi nailiyyətdən yetərincə faydalanmasına imkan vermədi. Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində ölkə daxilində gedən siyasi proseslərin, məhəlli ziddiyyətlərin nəticəsi kimi deyil, dünya siyasətində baş verən mürəkkəb diplomatik çəkişmələrin nəticəsi kimi süqut etdi.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ: ƏLVERİŞLİ COĞRAFİ ŞƏRAİTDƏ YARANMIŞ MÜSTƏQİL DÖVLƏTİMİZ

***Hüseynova L.İ.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan əlverişli coğrafi mövqeyi və təbii sərvətləri ilə dünyanın diqqətini cəlb etmişdir. Azərbaycan müxtəlif növ təbii ehtiyatlarla zəngin olsa da, hazırda ən mühümü neft-qaz ehtiyatları hesab edilir. Azərbaycan ərazisi dünyanın ən qədim neft çıxarılan bölgələrindən biridir. Zəngin neft və qaz yataqları olan bu torpaqlarda gedən bir çox savaşların da kökündə həmin amil dayanmışdır.

Şərqdə, islam aləmində və türk dünyasında demokratik idarə üsulunu tətbiq etmiş ilk Respublika sayılan Azərbaycan Cümhuriyyəti 1920-ci ilin əvvəllərində bir sıra daxili və xarici amillər üzündən tədricən zəifləməyə başladı və həmin ilin aprelin 27-dən 28-nə keçən gecə Bakıya soxulan XI ordu tərəfindən süquta uğradıldı. Qısa müddətdə mövcud olmasına baxmayaraq, Azərbaycan Cümhuriyyəti Azərbaycan tarixində xüsusi mövqeyə malikdir. Azərbaycan Cümhuriyyətinin əldə etdiyi nailiyyətlər içərisində ölkə ərazisinin nisbətən qorunub saxlanılması mənəvi və siyasi cəhətdən diqqəti cəlb edir.

Ümumiyyətlə götürüldükdə, Azərbaycan hökuməti ərazi məsələsində 3 tərəfli təsirlərə məruz qalmışdı. Bir tərəfdən, Lənkəranda yad qüvvələr Azərbaycan hökumətini tanımır, digər tərəfdən Qarabağ, Zəngəzur, Naxçıvanda erməni daşnaqlarının təcavüzü artır, üçüncü tərəfdən isə şimaldan denikinçilər Azərbaycanın müstəqilliyinə təhlükə yaradırdılar. Həmin qısa dövr ərzində Azərbaycanda tarixi-siyasi coğrafiya baxımından bir sıra işlər görülmüş, tədbirlər həyata keçirilmişdir. Təəssüf ki, Azərbaycan hökumətinin bu sahədəki ilk addımı uğursuz oldu. Bilindiyi kimi, Cənubi Qafqazda seym buraxıldıqdan sonra yeni yaranmış dövlətlərin sərhədlərini müəyyən etmək zərurəti meydana çıxdı. İlk günlərdə erməni nümayəndələri İrəvan şəhərinin Ermənistanın paytaxtı edilməsi barədə Azərbaycan

hökumətinə müraciət etdi. Batumda 1918-ci ilin mayın 29-da keçirilən danışıqlarda Azərbaycan tərəfi İrəvanın, eləcə də, Eçmiəzzin qəzasının Ermənistana verilməsinə razılaşdı. Türkiyənin bu işə müsbət münasibət bəsləməsi də məsələnin həmin şəkildə həllində az rol oynamadı. Lakin bunun əvəzində ermənilər Qarabağın dağlıq hissəsinə olan iddialarından əl çəkməli idilər. Tarix göstərdi ki, ermənilər həmin iddialarından vaz keçmədilər. Azərbaycan milli şurasının bu addımı isə kobud səhv və ümummilli mənafeyə vurulmuş ağır zərbə oldu. Tarix boyu Azərbaycanın tərkib hissəsi olmuş, sonralar İrəvan xanlığının ərazisi olan torpaqlar — Göycə mahalının qərb hissəsi faktiki olaraq əldən çıxdı. Azərbaycanın qərb sərhədləri Göycə gölü ilə məhdudlaşdı. Göycə gölü iki respublika — Azərbaycan və Ermənistan arasında sərhəd zonasına çevrildi. Gölün şərq hissəsi «Göycə dairəsi» statusu ilə Azərbaycan Cümhuriyyətinin tərkibində qaldı. Onun ərazisi əsrin ilk illərindəki Yeni Bayəzid qəzasının şərq torpaqlarını əhatə edirdi. Ermənistanın Naxçıvana olan iddiaları isə puç oldu. 1918-ci ilin avqustun 7-də K.Qarabəkir paşanın başçılığı ilə türk ordusu Naxçıvana daxil olur və Andronikin buradakı özbaşınalığına son qoyulur. Lakin türk ordusu Naxçıvandan (ümumiyyətlə, Qafqazdan) çıxdıqdan sonra vəziyyət yenidən kəskinləşir. Ermənilərin növbəti həmlələrinin qarşısını almaq üçün 1918-ci ilin noyabrında yerli azərbaycanlı əhalisi Naxçıvanda Araz-Türk Respublikası təsis edir. Mərkəzi əvvəl Qəmərli, sonra isə Naxçıvan olan həmin Respublikaya Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzaları, Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli və Mehri əraziləri daxil idi. 1919-cu ilin mart ayına kimi fəaliyyət göstərmiş həmin respublika bölgənin ermənilərin əlinə keçməsinin qarşısını aldı, Azərbaycan Xalq Cümhuriyyətinin bütövlüyünü təmin etdi. Araz-Türk Respublikasının süqutu ərəfəsində, 1919-cu ilin fevralın 28-də hökumətin qərarı ilə Naxçıvan general-qubernatorluğu yaradıldı. Onun tərkibinə Naxçıvan, Ordubad, Şərur-Dərələyəz,Vedibasar və s. ərazilər daxil idi. Buna baxmayaraq, 1919-cu ilin may-iyun aylarında ingilis komandanlığının razılığı ilə Naxçıvan bölgəsində erməni idarəçiliyi təşkil olundu. Buna ciddi narazılıq edən Naxçıvan əhalisi iyulun 19-25-də hərbi əməliyyatlar keçirərək erməni qoşunlarını darmadağın etdi və «erməni idarəçiliyi» iflasa uğradı. Ermənistan hökuməti əldə etdiyi güzəştə (İrəvana yiyələnməsinə) baxmayaraq Azərbaycana təcavüzünü gücləndirir və yeni ərazləri — Zəngəzuru, Qarabağı, Naxçıvanı ələ keçirməyə cəhd göstərirdi. Ciddi səhvə yol vermiş Azərbaycan hökuməti daha yeni ərazilər itirməmək naminə mühüm tədbirlər həyata keçirirdi və məhz bunun sayəsində hökumət sonrakı fəaliyyəti dövründə

Azərbaycanın ərazilərini qoruyub saxlaya bildi. Qarabağ ermənilərin ən çox iddiasında olduqları ərazi kimi qalırdı. [Buranın əhalisinin 400.000 nəfəri azərbaycanlı və kürd, cəmi 170.000 nəfəri erməni idi. Ermənilərin «Müstəqil Qarabağ Respublikası», «Vahid Rusiya», «Sovet Rusiyasının Qarabağ hissəsi» və s. kimi demaqoq şüarlarla pərdələnən cəhdlərinin qarşısı alınırdı.

Ümumiyyətlə götürüldükdə, Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi dövrdə ölkə ərazisinin bütövlüyünü mühafizə edə bildi, onu yad ünsürlərdən təmizlədi. 1918-ci ilin iyunun 26-da Zaqatala mahalına (dairəsinə) aid məsələ Gürcüstanla Azərbaycan arasında müzakirə olundu və sülh yolu ilə həllini tapdı: əhalisinin 91,9 %-nin müsəlman olduğu bu ərazinin Azərbaycana aidiyyəti rəsmiləşdirildi. Rus qiyamçılarının əlində olan Lənkəran qəzası yenidən Azərbaycana qaytarıldı Qarabağ erməniləri ilə razılaşma əldə edildi və 1919-cu ilin avqustun 19-da keçirilmiş Dağlıq Qarabağ ermənilərinin VII qurultayında onların Azərbaycan hökumətini tanımalarına nail olundu.

## GƏNC AZƏRBAYCAN DÖVLƏTİNİN ERMƏNİ ŞOVİNİZMİNƏ QARŞI MÜBARİZƏSİ

***Xəlilov E.Ş.***

*Sumqayıt Dövlət Universiteti*

Çox gərgin və mürəkkəb beynəlxalq vəziyyətdə istiqlaliyyət əldə etmiş gənc Azərbaycan dövlətinin xarici siyasətinin əsas istiqamətlərini beynəlxalq aləmdə özünün tanınmasına nail olmaq və qonşu dövlətlərlə mehriban münasibətlər yaratmaq təşkil edirdi. Azərbaycan diplomatiyasının ilk addımı respublikanın suverenliyinin elan edilməsi haqqında qabaqcıl xarici dövlətlərə məlumat vermək oldu.

Azərbaycan hökumətinin qarşısında duran ən çətin vəzifələrdən biri Ermənistanla normal qonşuluq münasibətləri yaratmaqdan ibarət idi.

Cənubi Qafqaz Seymi dağıldıqdan sonra yeni yaranmış dövlətlərin sərhədlərini müəyyən etmək zərurəti meydana çıxmışdı. Erməni nümayəndələri İrəvan şəhərinin Ermənistanın paytaxtı edilməsi üçün Azərbaycan hökumətinə müraciət etdilər. May ayının 29-da Azərbaycan Milli Şurasının iclasında həmin müraciət müzakirə edildi. Gərgin müzakirələrdən sonra Milli Şura İrəvan şəhərini ermənilərə güzəştə getdi. Batumda olan Azərbaycan və Ermənistan nümayəndələri arasında danışıqlar nəticəsində əldə olunan razılığa görə Azərbaycan İrəvan şəhərini ermənilərə bu şərtlə güzəştə gedir ki, ermənilər

Qarabağın dağlıq hissəsinə olan iddialarından əl çəksinlər. Tarix göstərdi ki, İrəvanın ermənilərə güzəşt edilməsi yeni yaranmış Azərbaycan dövlətinin kobud səhvi, ümummilli mənafeyə vurulan ağır zərbə idi.

Ermənistan dövləti öz mövcudluğunun ilk günlərindən Azərbaycana təcavüz etməyə, qədim Azərbaycan torpaqları olan Zəngəzuru, Naxçıvanı və Qarabağın dağlıq hissəsini işğal etməyə çalışırdı. 1918-ci ilin yayında türk xalqlarının qəddar düşməni Andronik 8 min nəfərlik hərbi qüvvə ilə Zəngəzura hücum etdi. O, Zəngəzur əhalisindən Ermənistan hökumətinə tabe olmağı, ya da Zəngəzuru boşaltmağı tələb etdi. Azərbaycanın digər bölgələrindən ayrı düşmüş silahlı qüvvələr də bu təklifi rədd etdilər.

Andronikin quldur dəstəsi Azərbaycan kəndlərini dağıdır, yandırır, dinc əhalini vəhşicəsinə öldürürdü. Daşnaklar 1918-ci ilin sonlarında Zəngəzura 115, Cavanşir, Şuşa qəzalarında 21, İrəvan quberniyasında 60-dan çox Azərbaycan kəndini məhv etdilər. 100 mindən çox azərbaycanlı öz doğma yurdlarından qovuldu.

Azərbaycan hökuməti Andronikin dəstələrinin Zəngəzurda və Qarabağda törətdikləri quldurluğun qarşısını almaq üçün təcili tədbirlər gördü. Hökumətin 1919-cu il 15 yanvar tarixli iclasında Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları hüdudlarında Qarabağ general - qubernatorluğu vəzifəsinin təsis edilməsi qərara alındı. General – qubernator təyin edilmiş Xosrovpaşa bəy Sultanov fevralın 12-də Şuşa şəhərinə gələrək öz vəzifəsinin icrasına başladı.

Andronik Gorus şəhərini ələ keçirib ermənilərin "Kiçik Ermənistan"ın paytaxtı adlandırdıqları Şuşa şəhərini tutmağa üç dəfə cəhd göstərdi. Azərbaycanın özünü müdafiə qüvvələri Zabux dairəsində Andronikin quldur dəstələrini darmadağın etdilər. Onu böyük itkilərlə Gorusa çəkilməyə məcbur etdilər. 1919-cu il fevral ayının 23-də Andronik yenidən böyük bir dəstə ilə Gorusdan Dığ istiqamətinə hərəkət edərək, bütün Zəngəzuru ələ keçirməyə çalışsa da Xosrovpaşa bəy Sultanovun qətiyyətli mövqeyi və tədbirləri onu yenidən Azərbaycan ərazisini tərk etməyə məcbur etdi.

1919-cu ilin iyun ayında Şuşada erməni Milli Şurasının fitnəkarlığı nəticəsində silahlı toqquşma baş verdi. X.Sultanov erməni Milli Şurasının üzvlərinin Azərbaycanı tərk etmələrinə nail oldu. Azərbaycan hökuməti Dağlıq Qarabağda qan tökülməsinin qarşısını aldı. Avqust ayında Dağlıq Qarabağ erməniləri ilə onların bu ərazidə Azərbaycanın suverenliyini qəbul etmələri barədə razılıq əldə edildi.

Erməni millətçilərinin "Dənizdən dənizə Böyük Ermənistan" planlarına Naxçıvan

torpaqları da daxil idi. 1918-ci ilin may-avqust aylarında Andronik 8000 nəfərlik quldur dəstəsi ilə Naxçıvana soxulub "etnik" təmizləmə adı ilə kəndləri top atəşinə tutur, yerli əhalini vəhşicəsinə öldürürdü. Avqust ayının 7-də K.Qarabəkir paşanın başçılığı ilə türk ordusu Naxçıvana daxil oldu. Bunula da Andronik dəstələrini Naxçıvandakı özbaşnalığına son qoyuldu. Birinci dünya müharibəsində Türkiyənin məğlub olması türk qoşunlarını noyabr ayının 1-də Naxçıvanı tərk etməyə məcbur etdi. Naxçıvan bölgəsinin Ermənistan tərəfindən işğal olunması təhlükəsi yerli azərbaycanlıların Araz-Türk Respublikası yaradılmasına səbəb oldu.

Azərbaycan hökuməti Naxçıvanın müdafiəsi üçün təcili tədbirlər gördü.

1919-cu il fevral ayının 28-də hökumətin qərarı ilə Naxçıvan general-qubernatorluğu yaradıldı. Bəhram xan Naxçıvanski general-qubernator vəzifəsinə təyin edildi. Ermənilərin Naxçıvan torpaqlarına yiyələnmək cəhdləri 1919-cu ilin yazında daha da qüvətləndi. İngilis komandanlığının razılığı ilə 1919-cu il may-iyul aylarında Naxçıvan bölgəsində erməni idarəçiliyi yaradıldı. Naxçıvan əhalisi buna kəskin etirazını bildirdi. İyulun 25-də Naxçıvan əhalisi güclü hücuma keçərək erməni qoşunlarını əzdi və onları qaçmağa məcbur etdi. Naxçıvan bölgəsindəki "erməni idarəçiliyi" iflasa uğradı.

1919-cu il noyabr ayının 23-də Tiflisdə Azərbaycanla Ermənistan arasında imzalanan sazişə görə tərəflər silahlı toqquşmanı dayandırmaq və mübahisəli sərhəd məsələsini dinc yolla həll etmək barədə razılığa gəldilər. Ermənistan sazişin şərtlərini pozaraq yenidən Zəngəzur torpaqlarına qoşun yeritdi. Ermənilər 50-dən çox Azərbaycan kəndini dağıdaraq əhalini qaçmağa məcbur etdilər. Azərbaycan ordusunun yerli partizan dəstələri ilə birgə səyləri nəticəsində ermənilərin Qarabağa soxulmaq planları pozuldu və 1920-ci ilin fevral ayında Zəngəzurda qısa müddətli sabitlik yarandı.

"Dənizdən dənizə Böyük Ermənistan" yaratmaq xülyası ilə yaşayan erməni millətçiləri Paris sülh konfransında da Azərbaycana qarşı ərazi iddialarından əl çəkmirdilər. Parisdə olan erməni nümayəndələri Ermənistanın ərazisinin təkcə Türkiyənin 7 vilayəti hesabına deyil, həm də Gürcüstanın və Azərbaycanın hesabına genişləndirmək istəyirdi. Onların sülh konfransına təqdim etdikləri ərazi tələblərinə qədim Azərbaycan torpaqları olan Zəngəzur, Qarabağın dağlıq hissəsi və Naxçıvan bölgələri də daxil edilmişdi.

Paris sülh konfransında ermənilərin Azərbaycana qarşı ərazi iddiaları, iftira və böhtanları Azərbaycan nümayəndəliyi tərəfindən qətiyyətlə dəf edildi.

# AXC NÜMAYƏNDƏLƏRİ PARIS SÜLH KONFRANSINDA

***Kərimova S.Ə.***
*Sumqayıt Dövlət Universiteti*

Müsəlman Şərqində ilk parlament respublikası – Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, müasir dövrə xas dövlət təsisatlarının yaradılmasına nail olmuşdu.

Azərbaycan Xalq Cümhuriyyəti mürəkkəb şəraitdə yaransa da, xarici siyasətinin birinci məqsədi onun müstəqilliyinin Avropa dövlətləri tərəfindən tam və şərtsiz tanınmasına nail olmaq, dünyada coğrafiyasını müəyyənləşdirmək idi. Cümhuriyyət ərazi və sərhəd məsələsinə həyati əhəmiyyət verirdi. 1918-ci ilin noyabrında Əlimərdan bəy Topçubaşovun Antanta dövlətlərinin İstanbuldakı nümayəndələrinə göndərdiyi memorandumda Azərbaycanın ərazisi müəyyənləşdirilmişdi. Bu məsələ daha geniş şəkildə Paris Sülh Konfransına hazırlanan sənəddə də qeyd olunacaqdı. Ona görə də parlamentin ilk tədbirlərindən biri konfransa tam səlahiyyətli, geniş hüquqa malik nümayəndə heyəti göndərmək idi. Diplomatik missiyanın tərkibi elan olundu, çoxpartiyalılıq əsasında Azərbaycan Sülh Nümayəndəliyi yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli xadimi Əlimərdan bəy Topçubaşov nümayəndə heyətinin rəhbəri təyin edildi. "Müsavat" partiyasından Məmməd Həsən Hacınski və Ceyhun bəy Hacıbəyli, "Hümmət"dən Əkbər ağa Şeyxülislamov, Sosialist Partiyasından Məhəmməd Məhərrəmov, "İttihad"dan Miryaqub Mirmehdiyev, Əhməd bəy Ağayevlə Əli bəy Hüseynzadə isə bitərəf kimi təmsil olundular. Tam tərkibli heyət 1919-cu il yanvarın 4-də Bakıdan yola düşdü. Erməni təbliğatı və müttəfiqlərinin qeyri-obyektiv mövqeyi, həmçinin xaricdəki ruslar və rusپərəst qüvvələrin fəaliyyəti üzündən nümayəndə heyətinin mənzil başına çatması və təbliğatı çox gecikdi.

1919-cu il mayın 28-də ABŞ prezidenti Vilson Azərbaycan nümayəndə heyətini qəbul etdi. Vilsona təqdim edilmiş memorandumda Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi, onun 1 illik inkişaf yolu və istiqlal yolunda verdiyi qurbanlardan danışılırdı. Vilsondan Azərbaycanın istiqlalının tanınması, Vilson prinsiplərinin Azərbaycana aid edilməsi, Azərbaycanın Millətlər Cəmiyyətinə qəbul olunması, ABŞ-ın Azərbaycana hərbi ləvazimat sahəsində yardım göstərməsi xahiş olunurdu.

Vilson Azərbaycan nümayəndə heyətinə ümidverici bir şey demədi. O, sülh konfransının dünyanı kiçik hissələrə parçalamaq niyyətində olmadığını dedi və bildirdi ki, Azərbaycan məsələsi rus məsələsindən əvvəl həll edilə bilməz. Erməni nümayəndələrinin

pozuculuq fəaliyyəti də bu məsələnin müsbət həllinə mane olurdu. Onlar suverenliyin tanınmasından daha çox ərazi-sərhəd məsələsinə əhəmiyyət verir, Qafqazdakı real vəziyyət barədə Avropa və ABŞ ictimaiyyətində yanlış təsəvvür yaradırdılar. Erməni təbliğatının əsas hədəfi Osmanlı dövləti və Azərbaycan idi.

Azərbaycan nümayəndə heyətinin ən əhəmiyyətli təbliğat işlərindən biri "Paris sülh konfransına Qafqaz Azərbaycanı sülh nümayəndəliyinin tələbləri" adlı kitabçası idi. Bu sənəd böyük tirajla fransız və ingilis dillərində çap edilərək yayıldı. Sənəddə Azərbaycanın mənşəyi haqqında məlumat verilir, xanlıqlar, çar Rusiyası dövründə vəziyyət şərh edilir, Azərbaycanın türk yurdu olması göstərilir, Zaqafqaziya Seymi, onun zəifləməsi, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması haqqında tarixi icmal verilir, bolşeviklərin və ermənilərin təcavüzkar hərəkətləri haqqında danışılırdı.

Dövlətin tanınması Azərbaycan nümayəndə heyətinə Versal Sülh Şurasının müxtəlif, o cümlədən hökumət başçıları səviyyəsində keçirilən iclaslarında rəsmən iştirak etmək, öz hüquq və ehtiyacları haqqında danışıqlar aparmaq imkanı vermişdi. Nümayəndə heyəti o dövrün beynəlxalq səhnəsində həlledici təsirə malik olan siyasi xadimlər - Lloyd Corc, Klemanso, lord Kayzen, Çerçil, Vilson, Foş və digərləri ilə konfransın bütün iclaslarında bir yerdə oturmaq, onlarla müzakirələr aparmaq imkanı qazanmışdı. Sonda bu müzakirələr müttəfiq dövlətlər tərəfindən Azərbaycana yardım göstərilməsi haqqında qərarın qəbul edilməsi ilə nəticələndi.

Milli hüquqlarının tam qətiyyətlə müdafiəsinə qalxan Azərbaycan Xalq Cümhuriyyətinin siyasi xadimləri bir çox çətinliklərdən sonra 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransında ilk uğuru əldə edir. Versal Ali Şurasını təşkil edən müttəfiq ölkələr yekdilliklə Azərbaycan dövlətini tanıdıqlarını bəyan edirlər və bu barədə Topçubaşova konfransın rəsmi sənədi təqdim olunur. Bu, Azərbaycanın Parlamentinin sədri Ə.Topçubaşovun rəhbərlik etdiyi sülh nümayəndə heyətinin, ümumiyyətlə isə, Azərbaycan xalqının, Hökumətinin və diplomatiyasının böyük qələbəsi idi.

Azərbaycan nümayəndə heyəti Paris sülh konfransında öz missiyasını uğurla başa vurduqdan sonra parlament Fransa, Böyük Britaniya, İtaliya, ABŞ və Polşanın paytaxtlarında fəaliyyət göstərəcək diplomatik nümayəndəliklərin yaradılması haqqında qanun qəbul etdi. Bundan başqa, Azərbaycanın Təbriz, Xoy, Ənzəli, Rəşt, Əhər, Məşhəd, batum, Kiyev, Krım, Aşqabad və başqa yerlərdə konsulluqları fəaliyyət göstərməyə başladı. Bakıda isə Gürcüstan, Ermənistan, İran, Belçika, Hollandiya, Yunanıstan, Danimarka,

İtaliya, Fransa, İsveç, İsveçrə, İngiltərə, ABŞ, Ukrayna, Litva, Polşa, Finlandiya və digər ölkələrin müxtəlif səviyyədə rəsmi nümayəndəlikləri fəaliyyət göstərirdi. Paris sülh konfransında əldə edilmiş bu nailiyyətə baxmayaraq, 1920-ci ildə bolşeviklər Bakıya hücum edərək AXC-ni süquta uğratdılar.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ NÜMAYƏNDƏLƏRİNİN PARİSDƏKİ DİPLOMATİK GÖRÜŞLƏRİ

***Qəhrəmanova Z.N.***

*Azərbaycan Dövlət Aqrar Universiteti.*

1918-ci il dekabrın 28-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Parlamentin ağsaqqallar şurası üzvlərinin iştirakı ilə Paris Sülh Konfransına göndəriləcək Azərbaycanın nümayəndə heyətinin tərkibini müəyyən etdi. Parlamentin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinə Məmməd Həsən Hacınski, Əhməd bəy Ağayev, Əkbər Şeyxülislamov, Məhəmməd Məhərrəmov, Mir Yaqub Mehdiyev və Ceyhun bəy Hacıbəyli daxil idilər. Yanvarda İstanbula gedən nümayəndə heyəti üç ay orada gözlədikdən sonra, nəhayət, 1919-cu il aprelin 22-də İtaliya gəmisi ilə Fransaya yola düşdü və mayın əvvəllərində Parisə çatdılar. Beləliklə Azərbaycan nümayəndələrinin İstanbulda üç aydan artıq apardığı gərgin mübarizə öz nəticəsini verdi. Əlimərdan bəy Topçubaşov başda olmaqla Azərbaycan sülh heyəti Versal sülh konfransının keçirildiyi Paris şəhərinə buraxıldı. Bu süni maneələrlə üzləşmiş Azərbaycan heyətinin məqsədyönlü addımlarının ilkin yekunu idi. Parisə gəldikləri ilk gündən Azərbaycan nümayəndələri Fransa paytaxtındakı siyasi iqlimi dərindən öyrənməyə xüsusi əhəmiyyət verirdilər.

Parisdə Rusiyanın müxtəlif, çoxsaylı nümayəndələri toplaşmışdı. Vaxtilə Rusiyanın müxtəlif ölkələrində olan səfirlərinin demək olar ki, hamısı Versala gəlmişdi. Bir çox məslələrdə onların arasında ziddiyyətlər olsa da, lakin hamsı “vahid və bölünməz Rusiya”fikrində həmrəy idilər.

Parisə gəldikdən sonra Azərbaycan nümayəndə heyəti hələ İstanbulda ikən Ə.Topçubaş, Ə.Ağayev və C.Hacıbəyli tərəfindən hazırlanmış **“Qafqaz Azərbaycanı Cümhuriyyətinin Paris Sülh Konfransına memorandum”** adlı sənəd üzərində yenidən işləyərək, onu daha da təkmilləşdirdilər. Məqsəd memorandumu Paris Sülh Konfransının keçirildiyi ingilis və fransız dillərində kitabça şəklində hazırlayıb konfrans iştirakçılarına paylamaq idi .

Parisə gəldikdən sonra may ayı ərzində Əlimərdan bəy Polşa, Gürcüstan,Dağlılar ,Ermənistan və İran nümayəndə heyəti ilə görüşlər keçirmişdi.Danışıqlar nəticəsində Qafqaz Respublikalarının siyasi-iqtisadi ittifaqının yaradılması qərara alınmışdı.Gürcülər və Dağlılar Azərbaycanlılarla birlikdə bu ittifaqda birləşməyə razı idilər.İttifaqa ermənilər dəvət edilsədə onlar yalnız Türkiyə və Qafqaz Ermənistanını birləşdirib vahid ermənistan yaratdıqdan sonra Qafqaz konfederasiyasında iştirak edəcəklərini bildirmişlər.May ayının 19 da Böyük Britaniyanın Parisdəki səfiri Lord Derbi Əlimərdan bəy başda olmaqla Azərbaycan nümayəndəliyini qəbul etmişdi. Sülh konfransına təqdim olunacaq memorondumun bir nüsxəsini Topçubaşov lord Derbiyə göndərmişdi. Digər bir tərəfdən isə Cənubi Qafqazda Amerika mandatı məsələsi aprel ayında artıq sülh konfransının müxtəlif komissiyalarında müzakirə edilmişdi. Hələ may ayının 2 də prezident V.Vilsonun təşəbüsü ilə ilk dəfə Azərbaycanda daxil olmaqla Cənubi Qafqaz məsləsi ABŞ, Böyük Britaniya , Fransa və İtaliya hökümət başçılarından ibarət olan Dördlər Şurasının iclasında müzakirə edilmişdi.

Danışıqlar zamanı ABŞ tərəfindən bu tərəflərin qəbul ediləcəyi təqdirdə Ə.B.Topçubaşov Azərbaycanın keçmişdə tərkibində olduğu üçün çar Rusiyasının borclarından öz payına düşəni tədricən ödəyəcəyinə təminat verirdi.Söhbət zamanı Vilson Azərbaycan nümayəndələrini görməyə və Azərbaycan haqqında xeyli məlumat aldığına görə şad olduğunu bildirdi. Lakin Azərbaycanın müstəqilliyini tanınması məsləsini açıq saxlayaraq o dedi

Buna baxmayaraq, nəticəsiz qalmadı Azərbaycan nümayəndə heyətinin tələbləri konfrans nümayəndələrinin ciddi müzakirələrinə səbəb oldu və nəhayət, bəhrəsini verdi. 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransının Ali Şurası Azərbaycan Cümhuriyyətinin varlığını de-fakto tanımaq barədə qərar qəbul etdi. Bu, Azərbaycanın Parlamentinin sədri Ə.Topçubaşovun rəhbərlik etdiyi sülh nümayəndə heyətinin, ümumiyyətlə isə, Azərbaycan xalqının, Hökumətinin və diplomatiyasının böyük qələbəsi idi.

## AZƏRBAYCAN XALQ CUMHURİYYƏTİ - ERMƏNİSTAN MÜNASİBƏTLƏRİ

**_Qocayev S.M._**

_Sumqayıt Dövlət Universiteti_

1918-ci il 28 may tarixində Tiflisdə Azərbaycan Mili Şurası İstiqlal Bəyannaməsini elan etdi və bununla Azərbaycanda uzun fasilədən sonra dövlətçilik bərpa olundu.Tiflisdə

fəaliyyətə başlayan AXC hököməti elə ilk gunlərdən fəal xarici siyasi yeritməyə başladı. İstiqlal Bəyannaməsinin 3-cü maddəsinə uyğun olaraq hökümət beynəlxalq birliyin bütün üzvləri ilə ,xüsusən həmsərhəd xalqlar və dövlətlərlə dostluq əlaqələri yaratmaq üçün əməli fəaliyyətə başladı.

AXC höküməti Osmanlı, Rusiya, Gürcüstan, Dağlı Respublikası, İranla diplomatik əlaqələr yaratdı. Xarici siyasətdə ən mürəkkəb vəziyyət Ermənistanla idi. 23 Aylıq fəaliyyəti dövründə AXC və Ermənistan hökümətləri arasında münasibətlər son dərəcə gərgin olmuşdu. Bu gərginlik AXC - nin yaranmasından dərhal sonra müşahidə edilir. Belə ki,cəmi 1 gün sonra Azərbaycan Milli Şurasının səlahiyyətli nümayəndəsi ilə Ermənistan Milli Şurası arasındakı danışıqların nəticəsi Azərbaycan Milli Şurasının 1918-ci il 29 may iclasında müzakirə edildi. Aleksandropolun ( Gümrünün) Türkiyə tərəfindən tutulması ilə əlaqədar olaraq Ermənistan hökümətinin İrəvanı özünə siyasi mərkəz seçməsi məsələsi nəzərdən keçirildi. Azərbaycan Milli Şurası səs çoxluğu ilə İrəvan şəhərini Ermənistan Respublikasının mərkəzi kimi tanımağı mümkün saydı. Çıxış edən Şura üzvləri mövcud vəziyyətdə İrəvanın ermənilərə guzəştini tarixi zərurətdən irəli gəldiklərini qeyd etdilər. Azərbaycan Milli Şurası İrəvanı ermənilərə onların Dağlıq Qarabağa olan iddialarindan əl çəkdiklərini bildirdikdən sonra verməyə razılıq vermişdilər, lakin sonrakı tarixi proseslər göstərdi ki,ermənilər ənənəvi tarixi iddilarından heç də əl çəkmiyiblər. Hətta onlar biraz da irəli gedib Bakı şəhərinə də yiyələnmək qərarına gəlmişlər.

1918-ci ilin ortalarında Ermənistan üçün çox ağır şərait yarandığına baxmayaraq o İstanbula göndərdiyi nümayəndə heyətinə geniş ərazi iddiaları irəli sürməyi tapşırmışdı. Onlar konfransa xeyli statistik materiallar,eləcə də özləri hazırladıqları xəritələr və layihələr ilə getmişdilər. Erməni layihəsində Sürməli, Naxçıvan, Axalkələk, Eçmiədzin, İrəvan, Qazax, Qarabağ,Zəngəzur, Ordubad və Borçalı mahalları da daxil idi. Ermənilər İstanbul konfransında bu torpaqların əvvəldən ermənilərə məxsus olduğuna inandırmağa çalışırdılar. Müharibənin sonu yaxınlaşdıqca İstanbuldakı erməni nümayəndələrinin fəallığı və tələbləri artırdı.

Osmanlı dövləti və müttəfiqlərinin müharibədə Antanta blokuna məğlub olması dünyada , o cümlədən də Cənubi Qafqazda çox mürəkkəb siyasi vəziyyət yaratdı. Ermənilər 1918-ci il oktyabrin 30 - da imzalanan Mudros barışığını toy bayram kimi qarşıladılar. AXC - nin yaxın müttəfiqi olan Osmanlı dövlətinin müharibədə məğlubiyyəti Ermənistanın Azərbaycana münasibətində böyük dəyişiklik yaratdı. Hər şeydən əvvəl ermənilərin torpaq

iddialarının miqyası xeyli genişləndi. "Böyük Ermənistan "yaratmaq ideyası Ermənistan Respublikasının rəsmi dövlət siyasətinin əsasını təşkil etməyə başladı. "Böyük Ermənistan" xəritə layihəsi artıq rəsmi sənəd kimi Paris sülh konfransına təqdim edildi.

Mudros barışığına əsasən Osmanlı qoşunları Azərbaycanı tərk etdilər. Noyabrda general Tomsonun başçılığı altında Azərbaycana ingilis hərbi dəstələri daxil oldular. Bu fürsətdən yararlanmağa çalışan Ermənistan hökuməti general Tomsonla əlaqə yaradaraq Azərbaycana qarşı yeni ərazi iddiaları irəli sürdülər.

1919-cu il yanvarın 29 - da AXC Nazirlər Şurası daxili işlər naziri Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir mahallarında general - qubernatorluğun yaradılması haqqında qərar qəbul etdi. General - qubernator isə Qarabağ və Zəngəzurda erməni basqınlarına qarşı mübarizədə böyük nüfuz və təcrübə qazanmış ermənifob Xosrov bəy Sultanov təyin edildi. Bu hadisə AXC - Ermənistan hökumətləri arasında yeni siyasi krizisə yol açdı. Ermənistan hökuməti general Tomsona və AXC hökumətinə müraciət edərək bu qubernatorluğun dərhal fəaliyyətinin dayandırılmasını tələb etdilər. Azərbaycanın o vaxtkı xarici işlər naziri A.Ziyadxan cavab notasında ermənilərin etirazının əsassız olduğunu göstərib, onu Azərbaycanın daxili işlərinə qarışmaq cəhdi kimi qiymətləndirdi. General Tomson da qubernatorluğun fəaliyyətində heç bir təhlükə olmadığını bildirdi.

Erməni hökuməti hadisələrin onun xeyrinə olmadığını görüb, heç olmasa , Zəngəzurda möhkəmlənməyi qərara aldı və qoşun hissələrinin buraya göndərilməsinin sürətləndirdi. Lakin Cavad Şıxlınskinin başçılığı ilə Azərbaycan Ordu hissələri Zəngəzurda olan erməni hərbi hissələrinə ağır zərbələr endirərək onları geri oturda bildilər.

Erməni hökuməti Qarabağda olduğu kimi Zəngəzurda da vəziyyətin onun ziyanına dəyişdiyini görüb, məsələnin həllini heç olmasa ləngitmək məqsədi ilə gürcü hökumətinin başçısı, ingilis nümayandələri Uordrop və polkovnik Reyə müraciət edərək atəşin kəsilməsinə kömək etmələrini xahiş etdi. Onlar da öz növbəsində baş nazir Yusifbəyliyə müraciət etdilər. Yaranmış vəziyyəti müzakirə edib, bu müraciətləri nəzərə alaraq Dövlət Müdafiə Komitəsi qoşunların Zəngəzurdan müvəqqəti olaraq çəkilməsinə qərar verdi, bununla belə bildirdi ki, Zəngəzur məsələsində əvvəlki mövqeyində qalır və onu Azərbaycanın tərkib hissəsi hesab edir. Gürcü hökuməti və Müttəfiqlərin nümayəndələrinin vasitəçiliyi ilə qərarlaşdırılmış Azərbaycan - Ermənistan danışıqlarında iştirak etmək üçün baş nazir N.Yusifbəyli Tiflisə yola düşdü.

Tiflisdə Müttəfiq qoşunları komissarlığının nümayəndəsinin iştirakı ilə Azərbaycan və

Ermənistan hökümət başçılarının danışıqları 1919 - cu il noyabr ayının 23-də sazişin imzalanması ilə nəticələndi. Bu sazişə görə iki ölkənin hökümətləri davam edən toqquşmaları dayandırmaq və bundan sonra silaha əl atmamağı öhdəsinə götürürdü ; hər iki hökümət Zəngəzura gedən yolların açılması üçün təsirli tədbirlər görməli idi; sərhəd məsələləri də daxil olmaqla bütün mübahisəli problemlər Sülh konfransının qərarına qədər yalnız sülh yolu ilə həll edilməli idi. Barışıq əldə edilmədiyi təqdirdə üçüncü şəxs neytral hakim kimi danışıqlarda iştirak edir, onun qərarı hər iki tərəf üçün məcburidir və bu dövrdə ABŞ polkovniki Ceyms Rey neytral şəxs qəbul edilir. Azərbaycan və Ermənistan hökümətlərinin sədrləri bu sazişdə irəli sürülmüş müddəalara vicdanla əməl edəcəklərini bildirirlər. Lakin sazişin imzalanmasından cəmi bir neçə gün keçməmiş erməni hərbi dəstələri atəşkəsi pozdular.

Azərbaycan və Ermənistan hərbi hissələri arasında gedən döyüşlərdə Azərbaycan döyüşçüləri düşməni darmadağın etdilər, hətta Ermənistan höküməti 1920-ci il aprelin 26 - da barışıq xahiş etdilər. Lakin artiq iş işdən keçmişdi. Qızıl Ordu Samur çayını keçib,sürətlə Bakı üzərinə irəliləyirdi.

Beləliklə, iki il ərzində daimi mübahisə və müharibə ilə müşayiət edilən Azərbaycan - Ermənistan münasibətlərinin bu mərhələsi başa çatdı, Qarabağ, Zəngəzur, Göyçə, Naxçıvan və başqa problemlər həll edilməmiş qaldı.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN YARANMA TARİXİNƏ QISA EKSKURS

**_Qurbanov A.C._**

*AMEA, Fəlsəfə İnstitutu*

1918-ci il 28 may, Azərbaycan bütün müsəlman Şərqində ilk parlamentli, demokratik dünyəvi dövlət qurmaqla sübut etdi ki, ən qəddar müstəmləkə və repressiya rejimləri belə, Azərbaycan xalqının azadlıq ideallarını, müstəqil dövlətçilik ənənələrini məhv etməyə qadir deyildir.

XIX əsrin əvvəllərində Rusiya imperiyası tərəfindən işğal edilmiş Azərbaycan “siyasi, iqtisadi və milli zülmün bütün ağırlıqlarına məruz qalmışdı”.

XIX əsrin sonlarında kapitalist dövlətləri arasında dünyanın bölüşdürülməsi uğrunda gedən mübarizə Birinci Dünya müharibəsinə səbəb oldu. Müharibədə iştirak edən dövlətlərin hər birinin xüsusi işğalçılıq planları vardır.

Azərbaycanın və onun neftinin zəpt edilməsi böyük dövlətlərin planının əsasını təşkil edirdi. Böyük dövlətlərin maraq dairəsində olan Rusiya imperiyasının əsarətində Azərbaycan da istər-istəməz müharibəyə cəlb olunmuş və Azərbaycanın iqtisadiyyatına güclü zərbə dəymiş, əhalinin vəziyyəti son dərəcə ağırlaşmışdı.

Birinci Dünya Müharibəsinin Rusiyanın məğlubiyyəti ilə sona çatması, 1917-ci il fevral inqilabı, Rusiyada, o cümlədən Rusiya əsarətində olan bölgələrdə böyük dəyişikliyə səbəb oldu.

Rusiyada mütləqiyyətin devrilməsi Zaqafqaziyada Azərbaycan Xalq Cümhuriyyəti quruculuğunun formalaşmasına əlverişli şərait yaratdı. Buna görə də Azərbaycan Xalq Cümhuriyyətinin parlamentli respublika kimi formalaşması tarixi reallıqdan doğurdu. Azərbaycanın tarixi taleyini həll etmək iqtidarında olan, Avropada təhsil almış və yüksək demokratik düşüncəyə sahib ictimai-siyasi xadimlərimiz bu reallığı dərk edərək müstəqilliyimizin əldə olunması üçün mübarizə aparırdılar. Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin demokratik dövlət qurmaq ideyaları, onların hələ Rusiya Dövlət dumalarında fəaliyyət göstərdikləri dövrdə formalaşmışdı. Azərbaycan ziyalıları hələ 1905-ci ildən başlayaraq, bütün başqa tələblərlə bərabər, ölkənin türk-müsəlman əhalisinin imperiyanın mərkəzi hakimiyyət orqanlarında təmsil olunmasını, yerli idarəçiliyə və məhkəmə orqanlarında fəaliyyətə cəlb olunmasını tələb edir, bu sahədə ayrı-seçkiliyin, məhdudiyyətin aradan qaldırılması uğrunda mübarizə aparırdılar.

Azərbaycan ziyalılarının mühüm bir hissəsi, o cümlədən Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Əbdürrəhim bəy Haqverdiyev və başqa peşəkar hüquqşünaslar Rusiyanın Dövlət dumalarında parlamentdə işləmək təcrübəsi qazanmışlar. Onlar Rusiya mütləqiyyətindən tamamilə fərqlənən, bütün hüquq və azadlıqların təmin olunduğu ən demokratik respublika sistemi yaratmağa hazır idilər.

1918-ci il fevral ayında Zaqafqaziyada ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymi yaradıldı. Azərbaycan nümayəndələrinin təkidilə 1918-ci il aprel ayının 9-da Zaqafqaziya Seymi Zaqafqaziyanın suverenliyini elan etdi.

Zaqafqaziya Seymində fəaliyyət göstərən hər üç millətin nümayəndələrinin ümumqafqaz mənafeyini üstün tutmamaları Seymin fəaliyyətini dayandırdı. Seymin 44 nəfər müsəlman nümayəndələri Azərbaycanın idarə edilməsini öz üzərinə götürərək özlərini Azərbaycanın Milli Şurası elan etdilər.

1918-ci il may ayınln 28-də Tiflisdə Azərbaycanın istiqlaliyyəti elan edildi.

İstiqlal bəyannaməsi türk-müsəlman dünyasında ilk dəfə olaraq Azərbaycanda demokratik respublika idarə üsulunun yaradılacağından xəbər verirdi.

Azərbaycanın istiqlal mübarizəsi tarixinin dəyərli sənədinə ilk dəfə olaraq Ümummilli Lider Heydər Əliyev tərəfindən verilmiş tarixi qiymətlə bitirmək məqsədə uyğundur: "Azərbaycan Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi. Bəyannamədə elan edilmiş prinsiplər - Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmaq prinsipləri Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq nüfuzunu artırdı".

## QAFQAZ BİRLİYİ İDEYASI

***Məhərrəmova S.S.***

*Sumqayıt Dövlət Universiteti*

Qafqaz geosiyasi mövqeyinə görə Şərqlə Qərb, Cənubla Şimal arasında mühüm strateji məkanda yerləşir. Tarixən Qafqaz böyük imperiyaların, aparıcı dövlətlərin maraq və mənafelərinin kəsişdiyi, toqquşduğu bölgələrdən biri olmuşdur.

XX yüzilliyin əvvəllərində çar Rusiyasının monopoliyasında olan Qafqaz İmperiyasının milli ucqarı hesab edilirdi. Çarizmin müstəmləkəçilik siyasəti özünü bu regionda daha qabarıq şəkildə biruzə verməklə yanaşı, spesifik xüsusiyyətlərə malik idi.

Ucuz xammal mənbəyi və əla satış bazarı olan Qafqazda metropoliyanın uzun müddət yürütdüyü siyasi kurs heç də birmənalı qarşılanmamışdır. Yerli xalqlar müstəmləkəçilik siyasətinə qarşı həmişə mübarizə aparmışlar.

1917-ci il fevral-burjua inqilabı nəticəsində çarizmin devrilməsi, Qafqaz birliyi problemini daha da aktuallaşdıraraq, siyasi gündəliyə çıxartdı. Təsadüfi deyildir ki, İnqilabdan sonra regionun idarə edilməsi üçün kollegiyal qurum olan Xüsusi Zaqafqaziya Komitəsi təsis edilmişdi. Sonrada fəaliyyət göstərən seymin və ZFDR-nin işində Azərbaycan ziyalıları aktiv iştirak etmişdir.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi tariximizin şanlı səhifəsidir. Azərbaycan Xalq Cumhuriyyətinin qurucuları Qafqaz birliyi ideyasını daima dəstəkləmişdilər. Belə ki, M.Ə.Rəsulzadə özünün Qafqaz problemi ilə əlaqədar

“Panturanizm haqqında” əsərində yazırdı ki, “qafqazlılar şimaldan gələn təhlükənin qarşısını almaq üçün daim birlikdə olmalıdırlar. Müstəqil konfederativ Qafqaz siyasi ideyası hüdüdlarından kənarda onun üçün qurtuluş yoxdur”. Lakin əsrimizin əvvəllərində Qafqazın ilkin inteqrasiyasının baş tutmamasının subyektiv səbəblərdən doğduğu xüsusi qeyd olunmalıdır. Qafqaz xalqlarının milli zəmində qarşıdurması - Ermənistanın Gürcüstan və Azərbaycana əsassız ərazi iddiaları birliyin özülünü sarsıdan başlıca amil olmuşdur.

Transqafqazda yaranmış müstəqil dövlətlər tezliklə daşnaq Ermənistanının təfriqəçiliyi və real Denikin təhlükəsi qarşısında qüvvələrini birləşdirmək zərurəti ilə qarşılaşmışdılar. Azərbaycan Xalq Cümhuriyyətinin qonşu Gürcüstanla qarşılıqlı əməkdaşlıq haqqında müqavilə imzalamasına, həmçinin AXC-nin Dağlı Respublikası ilə sıx dostluq münasibətləri saxlamasına da bu aspektdən yanaşmaq lazımdır. O zamankı geosiyasi vəziyyəti obyektiv qiymətləndirən Müsavat partiyası 1919-cu ildə keçirdiyi II qurultayında Qafqaz dövlətlərinin konfederasiya halında birləşməsi ideyasını irəli sürmüşdür. Bu Müsavat partiyasının II qurultayının qətnaməsində da öz əksini tapmışdır. Qətnamədə deyilirdi ki, Qafqaz respublikalarının Qafqaz konfedrasiyasının azad ittifaqında birləşməsi lazım bilinsin və bütün Qafqaz demokratiyası, həmçinin qonşu respublikaların hökumətələrinə bu ideyanın həyata keçirilməsinə yardım göstərmələri barədə müraciət edilsin.

Elə həmin il Bakida keçirilən erməni – Azərbaycan konfransında Azərbaycan hökuməti Qafqaz respublikalarının konfedrasiyada birləşməsi layihəsini təqdim etmişdi. Həmin konfransda ermənilər tərəfindən rədd olunan təkliflər sonralar 1920-ci ildə Gürcüstanla Azərbaycan arasında bağlanan hərbi müdafiə ittifaqında qismən öz əksini tapmışdı. Müqaviləyə görə Ermənistanın istədiyi vaxt ona qoşula bilməsi imkanı nəzərdə tutulmuşdur.

XX yüzilliyin əvvəllərində olduğu kimi, çağdaş dövrümüzdə də Qafqaz evi yaratmaq ideyası öz əhəmiyyətini qoruyub saxlamışdır. Zəmanəmizdə də Qafqaz regionu dünyanın aparıcı dövlətlərinin milli maraqlarının, dövlət mənafelərinin kəsişdiyi coğrafi məkanlardandır. Çünki Qafqaz regionu Asiya ilə Avropanı iqtisadi və mədəni cəhətdən bir-birinə qovuşduran, inteqrasiyaya yardım edən körpü rolunu oynayır. Bu mənada Qərb və Şərq sivilizasiyalarının bir-birinə inteqrasiyasında, qoca Şərqin qədim və zəngin klassik mədəni irsinin Qərbin yeni, müasir texnologiyaları ilə daha da zənginləşməsində Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi müstəsna əhəmiyyət daşıyır. Bu barədə ümummilli liderimiz

Heydər Əliyev demişdir: "Azərbaycanda, bütün Qafqaz regionunda və bütün dünyada sülhün bərqərar olması bizim ən ümdə arzumuzdur".

Qafqazda sülhün, əminamanlığın, siyasi sabitliyin, iqtisadi və mədəni inteqrasiyanın təşəbbüsçüsü kimi ümummilli liderimiz Heydər Əliyev ilə qonşu Gürcüstan Respublikasının prezidenti mərhum Eduard Şevardnadze "Qafqazda sülh", "Ümumi Qafqaz evi" ideyasını yenidən irəli sürsələr də, XX əsrin əvvəllərində olduğu kimi, XX əsrin sonlarında da bu ideyanın reallaşması mümkün olmadı. Bunun bir neçə səbəbləri vardır. Belə ki, regionda maraqları olan Böyük dövlətlər Qafqazda hər hansı inteqrasiyaya mane olurlar. Qafqaz regionda, demək olar ki, həlli müşkülə çevrilmiş milli münaqişələr də həmin maraqların nəticəsidir. Çünki milli münaqişə zəminində bir-birlərinə düşmən mövqedə olan respublikalara - Qafqaz regionuna Böyük dövlətlərin təsir etmək imkanlarını artırır. Hazırda dünyada cərəyan edən proseslər göstərir ki, milli-məhəlli və potensial münaqişə ocaqlarının çoxluğu ilə fərqlənən regionumuzun problemlərini yalnız beynəlxalq hüquqa və qarşılıqlı hörmətə əsaslanan sabit Qafqaz Evi həll edə bilər.

## AZƏRBAYCAN XALQ CUMHURİYYƏTİ DÖVRÜNDƏ İRƏVANIN ERMƏNİLƏRƏ GÜZƏŞT EDİLMƏSİ VƏ ERMƏNİ DÖVLƏTİNİN YARADILMASI

***Məmmədli B.İ.***

*Sumqayıt Dövlət Universiteti*

Öncə onu qeyd edək ki, Azərbaycanın tarixi torpaqlarının, o, cümlədən İrəvan və onun ətrafının ermənilərə (Ermənistana) verilməsi məsələsi Azərbaycan tarixşünaslığında lazımınca araşdırılmamışdır.

Ermənilərin hələ birinci dünya müharibəsi ərəfəsində və dövründə Türkiyə ərazisində (əsasən Şərqi Anadoluda) dövlət yaratmaq cəhdləri boşa çıxdıqdan sonra daha da azğınlaşdılar. 1915-ci il hadisələrindən (ermənilərin Türkiyədən deportasiyası) sonra erməni hərəkatının mərkəzini Cənubi Qafqaza keçirdilər. Əsas hədəf isə Azərbaycan seçildi. Böyük dövlətlərin ermənilərə verdiyi yalançı vədləri, Cumhuriyyətin qurucularından biri olan Yusif Vəzir Çəmənzəminli "Xarici siyasətimiz" adlı əsərində belə şərh edir: "Erməni hərəkatının tarixi göstərir ki, bu millət iki yüz ildən bəri Avropaya müraciət edib, onlardan kömək gözləyir və hər cür münasibətlərini xristianlıq naminə, dindaşlıq adına söyləyir. Təbiidir ki, avropalılar vədlər vermiş, hissiyatı oxşayan sözlər söylənmiş, lakin məsələ həll

olunmamışdır. Biz erməni istiqlalını tanımaq istərdik ki, aramızda davamlı sülh olsun, lakin erməni ədaları bu sülhü pozur və cığırlarından çıxırlar". Çəmənzəmənli daha sonra qeyd edirdi ki, "mən Ermənistanın xəritəsini gördüm. Xəritədə Gəncə, Lənkəran, Salyan, Təbriz, Marağa və başqa şəhərlər də Ermənistana daxil edilmişdi".

1918-ci il may ayının 26-da Cənubi Qafqaz Seymi dağıldıqdan sonra Gürcüstan, Azərbaycan və Ermənistan öz müstəqilliklərini elan etdilər. Mayın 27-də Tiflisdə Azərbaycan milli şurası yaradıldı.

28 mayda 6 maddədən ibarət Milli-İstiqlal Bəyannaməsi qəbul edildi.

May ayının 29-da erməni milli şurasının xahiş və yalvarışlarını nəzərə alan Azərbaycan milli şurası Azərbaycanın tarixi ərazisi olan İrəvanın siyasi mərkəz kimi ermənilərə güzəştə gedilməsi haqqında qərar qəbul etdi.

Azərbaycan hökümətinin başçısı milli şuranın üzvü Fətəli Xan Xoyski, xarici işlər naziri Məhəmmədhəsən Hacinskiyə yazırdı ki, biz ermənilərlə bütün mübahisəli məsələləri həll etmişik. Onlar bizim ultimatumumuzu qəbul edərək müharibəni dayandıracaqlar. Biz İrəvanı ermənilərə verdik.

Azərbaycan milli şurasının üzvləri İrəvanın güzəştə gedilməsini tarixi zərurət hesab etməklə bərabər həm də onun acı həqiqət olduğunu da etiraf etmişdilər.

Milli şurada çıxış edən Fətəli Xan Xoyski İrəvanın Ermənistana güzəştə gedilməsinin səbəbini belə izah edirdi ki, Ermənistan üçün siyasi mərkəz ola biləcək Gümrü şəhəri türk ordusu tərəfindən tutulduğuna görə, biz İrəvanı siyasi mərkəz kimi Ermənistana güzəştə getməliyik.

Bu qaçılmazdır. Özünün hələ siyasi mərkəzi olmadığı bir vaxtda Ermənistana siyasi mərkəz "bəxşiş" edən Azərbaycan Cumhuriyyəti bu addımın səhv olduğunu sonradan başa düşdü.

Ermənilərə güzəşt edilmiş 9 min kv km ərazidə Ermənistan dövləti yaradıldı. Lakin ermənilər yenə də sərsəm "böyük ermənistan" xülyasından əl çəkmədilər. Böyük dövlətlərin təhdidi və Osmanlı Türkiyəsinin razılığı ilə (Batum konfransı və Batum müqaviləsi) ermənilərə ərazi güzəşti edildi. Milli şura üzvlərindən Xəlil bəy Xasməmmədov, Məmmədyusif Cəfərov, Əkbər ağa Şeyxülislamov, Məhəmməd Məhərrəmmov İrəvan məsələsi üzrə çıxış edərək Fətəli xanı dəstəklədilər və İrəvanın ermənilərə güzəştini tarixi zərurət və labüd bədbəxtlik adlandırdılar. Lakin, İrəvan məsələsi bununla bitmədi. Azərbaycan milli şurasının iyunun 1-də keçirilən iclasında İrəvandan olan 3 nəfər şura üzvü

- Mir Hidayət Seyidovun, Bağır Rzayev və Nəriman Nərimanbəyov milli şuranın qərarına qarşı çıxdılar, qərara etiraz etdilər. Milli şura üzvləri isə yazılı şəkildə təqdim edilmiş etirazı (protest) müzakirə etmədən onu protokola əlavə etdilər.

Hər hansı zərurətə baxmayaraq milli şura bu məsələyə yenidən baxa bilərdi.

Azərbaycanın Naxçıvan, Zəngəzur, Qarabağ bölgələri münaqişənin qaynar nöqtələri idi. Azərbaycan milli şurası və hökuməti belə zənn edirdilər ki, İrəvanı Ermənilərə güzəştə getməklə ermənilər Azərbaycana qarşı milli qırğınları dayandıracaq, Qarabağın dağlıq hissəsinə Zəngəzura və Naxçıvana olan iddialarına son qoyacaqlar. Lakin ermənilər üzərlərinə götürdükləri öhdəliklərə əməl etmədilər.

1918-ci il 31 iyulda Fətəli Xan ermənilərin təcavüzkarlıq siyasətini, götürdükləri öhdəliyə əməl etmədiklərini görüncə belə bir bəyanat verdi: “Əgər ermənilər Qarabağın dağlıq hissəsinə olan iddialarından əl çəkməsələr onda biz İrəvan şəhərinin ermənilərə güzəştə gedilməsindən imtina edəcəyik. Biz ermənilərə şifahi razılaşma yolu ilə İrəvanı onlara güzəştə getmişik”.

Fətəli xanın bu bəyanatı ölkədə yaranmış ictimai-siyasi və hərbi durumun nə dərəcədə ağır olmasından xəbər verirdi. İrəvanın güzəşt edilməsindən hələ bir ay keçməmiş ermənilərin qonşuluğa sığmayan düşmənçilik hərəkətləri Azərbayacan milli Şurasını və hökümətini ciddi addımlar atmağa sovq edirdi. Fətəli xanın bəyatınından da bu aydın görünür.

Beləliklə, Azərbaycanın tarixi torpaqlarının ermənilərə güzəştə gedilməsi və bunun hesabına erməni dövlətinin yaradılması Azərbaycan Cümhuriyyəti üçün heç bir əhəmiyyəti olmadı, əksinə, Zəngəzuru da ələ keçirdilər. Bu da sovet hökümətinin ermənilərə etdiyi güzəşt idi...

Bu acı həqiqətdən 100 il ötsə də ermənilər öz məkrli iddialarından əl çəkməmişlər.

## XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCAN-OSMANLI ƏMƏKDAŞLIĞI

***Məmmədov R.Y.***

*Sumqayıt Dövlət Universiteti*

1918-ci il mart-aprel aylarında Azərbaycanın müxtəlif bölgələrində bolşevik-daşnak qüvvələri tərəfindən türk-müsəlman əhalisinə qarşı dəhşətli soyqırımın törədilməsi, Zaqafqaziya Seyminin bunun qarşısını almaq üçün təsirli tədbirlər görmək istəməməsi,

Seymdəki gürcü-erməni çoxluğunun Osmanlı ilə savaşda uduzandan sonra da bu dövlətlə münasibətləri normallaşdırmaq üçün ciddi addım atmaması Zaqafqaziya Respublikasını siyasi böhrana sürüklədi. Seymdə təmsil olunan xalqların öz müstəqil dövlətlərini yaratması tarixi zərurətə çevrildi və Milli Şura mayın 28-də keçirilən birinci iclasında Azərbaycanın müstəqil respublika elan edilməsi haqqında qərara alındı, "İstiqlaliyyət Bəyannaməsi" qəbul olundu. Xalq Cümhuriyyətin xarici siyasət sayəsində ilk diplomatik addımı 1918-ci il iyunun 4-də Osmanlı dövləti ilə Batum müqaviləsinin bağlanması oldu. Müqavilənin dördüncü maddəsi Azərbaycan üçün həyatı əhəmiyyətə malik idi, həmin maddəyə görə ölkəmizin təhlükəsizliyinin təmin olunması ehtiyac yaranardısa, Osmanlı dövləti Azərbaycana hərbi yardım göstərməyi öhdəsinə götürmüşdü. Bu dövrdə ölkənin hərbi vəziyyəti çox gərgin idi. Özünü sovet Rusiyasının yerli hökuməti elan etmiş Bakı soveti mart faciəsini davam etdirmək, əvvəl Azərbaycanda, sonra isə bütün Cənubi Qafqazda Milli hərəkatı ləğv etmək üçün qəti addım atmağa başlamışdı. Bakı Sovetinin ixtiyarında 18 min döyüşçü var idi. Qırmızı ordu demək olar ki, bütünlüklə döyüş qabiliyyətindən məhrum olan daşnak zabitlərin komandası altında erməni könüllülərindən ibarət idi. Bu dəstələr ətraf kəndləri qarət edirdi, bununla yerli müsəlman əhalisinin dərin nifrətini qazanmışdı.

Müqaviləni imzalayan M.Ə.Rəsulzadə və M.H. Hacınskinin Osmanlıdan hərbi yardım istəyinə dərhal müsbət cavab verildi və iyun ayının birinci yarısında türk qoşunu Gəncəyə gəldi. Nuru paşanın Gəncəyə gəldiyi vaxt sovet qoşunlarına qarşı 600 nəfərdən ibarət dəstələr dururdu. Nuru paşanın fikrincə Azərbaycan könüllülərindən ibarət ordunun toplanması böyük sürətlə getmirdi, o, bunu çarizm dövründə müsəlmanların hərbi işdən yadırğadılması ilə izah edirdi. Azərbaycanda hərbi vəziyyət elan edildi, müsəlman korpusunda xidmət edəcək zabit kadrları hazırlamaq üçün qısamüddətli kurslar açıldı, məcburi hərbi mükəlləfiyyət haqqında fərman verildi. Lakin bunların kifayət etməyəcəyini və vaxt tələb etdiyini nəzərə alan F.Xoylu osmanlıdan daha bir diviziya həcmində real hərbi yardım göstərməsini xahiş etdi. Türkiyə belə bir yardım haqqında əvvəllər vəd vermişdi, lakin müttəfiqi Almaniyadan ehtiyat edirdi. Ona görə qüvvənin Osmanlı dövlətinə bağlı olmadığı təsəvvürünü yaratmaq üçün yeni qoşun birləşməsi Qafqaz İslam Ordusu adlandırıldı.

Azərbaycan hökumətinin köməyinə göndərilən 5-ci Qafqaz diviziyasının Gəncəyə gəlməsi almanların müqaviməti üzündən xeyli ləngidi. Sonuncular Brest-Litovsk müqaviləsinə bağlı olduğundan bu diviziyanın Bakının tutulmasına mane olmaq məqsədilə

onun Gürcüstan dəmiryolu ilə Gəncəyə gəlməsini qadağan etdi. Ona görə Qafqaz diviziyası Gümrü-Aqstafa yolunu döyüşlə keçməyə məcbur oldu. 257 zabirdən və 5575 əsgərdən ibarət olan bu diviziyanı Azərbaycan əhalisi son dərəcə sevinc və səmimiyyətlə qarşıladı. Təxminən o qədər də Azərbaycan hərbi hissələrdən və 62 könüllüdən ibarət Qafqaz islam ordusu Göyçay ətrafında baş vermiş həlledici döyüşdə Bakı XKC-nin qoşunları darmadağın edildi və geri çəkilməyə məcbur oldu. İyulun əvvəlində Kürdəmir cəbhəsinə göndərilən 1500 nəfərlik Biceraxovun dəstəsi də cəbhəni saxlaya bilmədi. Şaumyanın hərbi yardım haqqında xahişinə cavab olaraq iyul ayında Ukrayna cəbhəsindən Petrovun komandası altında bir eskadron suvari, bir bölmə dənizçi və topxanadan ibarət qoşun göndərildi. Həştərxandan gəmi ilə hərbi ləvazimat göndərildi. Bundan başqa 4 top və 170 nəfərlik komandadan ibarət bir suvari batareyası və bir dəstə matros da Bakıya gəldi. Lakin gələn hərbi yardım qafqaz İslam Ordusunun iyul ayında başlanmış hücumunun qarşısını ala bilmədi. Azərbaycan və Türkiyə hissələri iyulun sonlarında artıq Bakının divarlarına gəlib çatmışdılar. Yerli əhali Bakı Sovetinə dərin nifrət bəsləyirdi. Şaumyanın quldur dəstəsinin iyulun sonunda istefası ilə Bakıda yaranmış "Sentrokaspi diktaturası" adlanan yeni rejim və onun Ənzəlidən general Denstervilin başçılığı ilə 1,5 min əsgər və zabitdən ibarət qüvvə dəvət etməsi də Qafqaz İslam Ordusunun qarşısını ala bilmədi. Yeni gəlmiş hərbi hissələrlə möhkəmlənən islam ordusu sentyabrın 14-də Bakı üzərinə qəti hücuma başladı. Hərbi əməliyyata bilavasitə Nuru paşa və Xəlil paşa başçılıq edirdilər. Artıq müqavimət göstərməyin mənasız olduğunu görən ingilis qüvvələri və "Sentrokaspi" dəstələri döyüşdən çıxaraq, Bakını tərk etməyə başladılar. Sentyabrın 15 Azərbaycan hərbi hissələri Bakıya daxil oldular. Sentyabrın 17-də Azərbaycan hökuməti təbii paytaxta köçdü. Azərbaycan hökumətinin hakimiyyəti bütün ölkəyə yayılmış oldu. Milli dövlət quruculuğu işləri sürətləndi.

Sovet Rusiyası özünün taleyinin qeyri müəyyən olmasına baxmayaraq Azərbaycandakı hadisələrə marağını azaltmırdı, diplomatik vasitələrlə Bakının Azərbaycan hökumətinin əlinə keçməsinin qarşısını almağa çalışırdı. Lakin Bakının fəthi Moskvanı öz kartını açmağa məcbur etdi. Sentyabrın 20-də Rusiya xarici işlər komissarı Çiçerin Türkiyə xarici işlər nazirinə kəskin nota verdi. Notada Türkiyə Brest-Litovsk müqaviləsini sistematik şəkildə pozmaqda ittiham edilir. Bakı hadisələrlə bağlı notada deyilirdi: "Bu ilin iyulunda türk ordusu Bakıya hücum etmiş, Rusiya Respublikasının ən mühüm şəhərlərindən birinə (Bakı) girmişdi."

Lakin Azərbaycan üçün açılmış yeni imkanlar gerçəkləşmədən vəziyyət köklü sürətdə dəyişdi. Dördlər ittifaqında olan Osmanlı sentyabrın 30-da müharibədə məğlub olduğunu etiraf etdi. Mudros müqaviləsinin şərtlərinə görə, Osmanlı öz qoşunlarını bir həftə ərzində Bakıdan, bir ay ərzində isə Qafqaziyadan çəkməli, Tiflis-Bakı dəmiryol xəttinin Antantanın nəzarəti altına keçməsinə mane olmamalı idi. Sultan Türkiyəsi və demokratik Azərbaycan nümayəndələrinin arasında bu və ya digər məsələdə ziddiyyətlərin olmasına baxmayaraq, Osmanlı imperiyası müstəqil Azərbaycan dövlətinin təşəkkülündə əvəzsiz rol oynadı.

## AZƏRBAYCAN XALQ CUMHURİYYƏTİNİN ERMƏNİSTAN DÖVLƏTI İLƏ QURDUĞU HUMANİTAR MÜNASİBƏTƏ QISA NƏZƏR

***Məmmədova T.G.***
*Azərbaycan Texnologiya Universiteti*

Azərbaycan Xalq Cumhuriyyətinin yaranması və fəaliyyəti çox gərgin siyasi şəraitdə keçmişdir. Azərbaycan hökuməti respublikanın ərazisi, dövlət sərhədlərini ədalətli, xalqın mənafeyinə uyğun şəkildə müəyyən edilməsi uğrunda mübarizə aparmışdır. Onun yaranması mütərəqqi hadisə olub, müsəlman Şərq ölkələrində respublika ideyalarının və hərəkatlarının formalaşmasına təsir göstərmişdir. Tarixən çox qısa müddət ərzində fəaliyyət göstərən demokratik respublika xeyli iş görsə də, lakin hökumətin elan etdiyi və nəzərdə tutduğu tədbirlərin bir çoxu həyata keçirilmədi.

Cumhuriyyət yarandığı gündən fəal xarici siyasət yeritməyə başladı. 1918, 30 mayda Nazirlər Şurasının sədri Fətəli xan Xoyski Türkiyə, Almaniya, Avstriya-Macarıstan, Fransa, Böyük Britaniya, İtaliya, ABŞ, Bolqarıstan, Rumıniya, İran, İspaniya, Hollandiya, Rusiya, İsveç, Ukrayna, Danimarka və Yaponiya xarici işlər nazirliklərinə Azərbaycan Xalq Cumhuriyyətinin yaranması barədə məlumat göndərdi. Dövlətin xarici siyasət sahəsində fəaliyyəti ilk növbədə Azərbaycanın suverenliyinin Avropa ölkələri tərəfindən tanınmasına nail olmaq, qonşu dövlətlərlə münasibətləri qaydaya salmaq, o cümlədən 3 Zaqafqaziya respublikası arasında mübahisəli məsələləri, xüsusilə Ermənistanın ərazi iddiası məsələsini həll etmək idi.

*AXC-nin Ermənistanla münasibətləri*

İstiqlal bəyannaməsində dövlətin qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmaq zərurəti təsbit olunmuşdu. Azərbaycan hökuməti yaranan kimi Zaqafqaziya respublikaları arasında bütün mübahisəli məsələləri və ixtilafları dinc yolla həll

etmək üçün Gürcüstan və Ermənistan hökumətlərinə üç respublika nümayəndələrinin iştirakı ilə müşavirə keçirməyi təklif etdi. Bu məqsədlə 1918-ci ilin noyabrında Tiflisdə konfrans çağırıldı, lakin Ermənistan hökumətinin nümayəndəsi gəlmədiyi üçün konfrans baş tutmadı.

Əzəli Azərbaycan torpaqları olan Qarabağ torpaqlarını ələ keçirməyə can atan erməni hökuməti heç nədən – nə kütləvi qırğınlardan, nə də onlarca yaşayış məntəqəsini yer üzündən silməkdən çəkinmədi. Hələ 1919-cu ilin yanvarında daşnak hökuməti Qarabağ ərazisi ilə əlaqədar iddialar irəli sürdü. Ərazi bütövlüyünü saxlamağı öz vətəndaşlarının həyatını müdafiə etməyi özünün başlıca vəzifəsi sayan Azərbaycan Respublikası bu iddiaları qəti şəkildə rədd etdi. Parlament Dağlıq Qarabağ məsələsini müzakirə edərək, vəziyyəti normal hala salmaq üçün tədbirlər görməyə çalışırdı. İstənilən halda yeganə məqsəd dinc yolla razılığa gəlmək idi.

Ermənistanda, öz dədə-baba torpaqlarında yaşayan müsəlmanların amansızlıqla, zorakılıqla və kütləvi surətdə didərgin salınması bütün Zaqafqaziyada vəziyyəti mürəkkəbləşdirdi, iki xalq arasında ədavət və düşmənçilik saldı. Əzəldən azərbaycanlıların yaşadığı Sürməli, İrəvan, Eçmiədzin və Şərur qəzalarının ərazisini ermənilər tutdular. Azərbaycan parlamenti respublika hökumətinə təklif etdi ki, vəhşilik əməllərinin qarşısını almaq üçün bütün vasitələrdən geniş istifadə olunsun. Lakin tədbirlər görülməsinə baxmayaraq, Zaqafqaziya respublikaları arasında normal qonşuluq münasibətlərini bərpa etmək mümkün olmadı. Daşnaklar 1918-ci ilin axırlarında azərbaycanlıların Zəngəzurda 40 kəndini, 1919-cu ilin yanvarında Şuşa qəzasında 9 kəndini dağıtdılar. Onlar İrəvan quberniyasındakı azərbaycanlı kəndlərində də talançılığa başlamış və 60-dan çox kəndi məhv etmişdilər. F.Xoyski daşnakların silahlı basqınlarına etiraz edərək Ermənistan hökumətinə göndərdiyi notada yazırdı: "Ermənistan respublikasının bu cür hərəkətlərinin tamamilə yolverilməz olduğunu bir daha qeyd edir, erməni qoşunlarının təcavüzkarlıq hərəkətlərinin dərhal dayandırılmasında qəti təkid göstərir və sizə bunu bildirməyi özümə borc sayıram ki, əgər dinc müsəlman əhaliyə qarşı hərbi əməliyyatlar davam etdirilərsə, mənim hökumətim öz vətəndaşlarının həyatını və əmlakını qorumaq üçün təcili tədbirlər görməyə məcbur olacaq, mümkün olan nəticələr üçün isə məsuliyyət Ermənistan hökumətinin üzərinə düşəcəkdir".

Azərbaycanın ərazi bütövlüyünü təmin etmək probleminin ən çətin və ən mürəkkəbi Dağlıq Qarabağ problemi oldu. Burada qayda-qanun yaratmaq istiqamətində hökumətin ilk

əhəmiyyətli addımı 1919-cu yanvarında Qarabağ general-qubernatorluğu yaratmaq oldu, Xosrovbəy Sultanov isə general-qubernator təyin edildi. Ermənistanın Dağlıq Qarabağı siyasi və diplomatik vasitələrlə Azərbaycandan qoparıb özünə ilhaq etməyə dəfələrlə cəhdlər etsə də, boşa çıxmışdı.

AXC Zaqafqaziyanın bütün azərbaycanlılarının və müsəlmanların milli mənafelərinin ardıcıl və prinsipial müdafiəçisi kimi çıxış edirdi. O, Zaqafqaziyanın bütün azərbaycanlı və müsəlman əhalisinin mənafeyini müdafiə etmək üçün bir sıra diplomatik addımlar atdı. Erməni quldurlarının Zəngəzurda və keçmiş İrəvan quberniyasında azərbaycanlılara qarşı qanlı cinayətlərinə dəfələrlə qəti etirazını bildirdi. Azərbaycanın Gürcüstandakı nümayəndəsi M.Y.Cəfərov yazırdı: "Bütün fəaliyyəti zamanında mənim hökumətim var qüvvəsi ilə yan-yana yaşayan iki milləti tamamilə barışdırmağa çalışmış və çalışmaqdadır."

Tiflisdə 1919-cu il noyabrın 23-də Azərbaycan ilə Ermənistan arasında saziş imzalandı. Razılıq əldə edildi ki, toqquşmalar dayandırılsın və bir daha silaha əl atılmasın. Bütün mübahisəli məsələlər, o cümlədən sərhəd məsələləri danışıqlar vasitəsi ilə həll edilsin. Lakin Ermənistanla bağlanan saziş kağız üzərində qaldı. Ermənistan Azərbaycana ərazi iddialarından əl çəkmədi.

Daşnakların daimi basqınları nəticəsində bir çox azərbaycanlı yurdunu tərk edib başqa yerlərdə nicat tapmağa məcbur idi. Təkcə 1919-cu ilin yanvarından Cəvanşir, Cəbrayıl, Şuşa qəzalarına 40 minə qədər, Gəncə mahalına 21 mindən çox, Şamaxı mahalına 25.8 min, Nuxa mahalına 5.1 min qaçqın gəldi, ümumiyyətlə qaçqınların sayı 100 minə çatırdı. Bütün bu vəhşiliklərinin qarşılığında yeni qurulmuş cumhuriyyət hər vəchlə dinc yolla razılığa gəlməyə çalışırdı.

## AZƏRBAYCANIN RUSIYA TƏRƏFİNDƏN İŞĞALI ƏRƏFƏSİNDƏ BEYNƏLXALQ VƏZİYYƏT VƏ İŞĞALDAN SONRAKI DURUM

***Musayev E.A.***

*Gəncə Dövlət Universiteti*

I dünya müharibəsinin sonlarına yaxın dünyanın bir çox imperiyalarında olduğu kimi Çar rusiyasında da dərin böhran baş vermişdi. Belə ki, müharibənin sonlarına doğru çar rusiyasında daxili sosial-iqtisadi vəziyyətin pisləşməsi ilə yanaşı imperiya daxilində siyasi böhran da dərinləşmişdi. Narazılıqların artması imperiyanın əsas siyasi və iqtisadi mərkəzlərində də dərinləşmişdi. Nəticədə Cənubi Qafqazda müstəqil dövlətlər yarandı.

Dünya ictimaiyyəti Azərbaycan nümayəndə heyətinin səyi hesabına Paris Sülh Konfransı Ali Şurasının sessiyasının iclasında yanvarın 11-də müstəqil Azərbaycan dövlətini de-fakto tanıdı.

Beynəlxalq durum getdikcə Azərbaycanın xeyrinə işləməyə başlamışdı. Azərbaycanın dünya nəhəngləri tərəfindən bu şəkildə tanınması, təbii olaraq, nə erməni lobbisinin, nə də Ermənistan dövlətinin ürəyincə deyildi. Dövlətlər arasında sərhəd hələ dəqiqləşdirilməsə də, ermənilər artıq bu məsələnin büsbütün onların xeyrinə həll ediləcəyinə əmin deyildilər. Ona görə də onlar müttəfiq dövlətlərin onlara ərazi məsələsində "səxavət" göstərəcəklərini gözləmədən yenidən silah gücünə "Böyük Ermənistan" layihəsini gerçəkləşdirməyə çalışırdılar. Artıq ermənilərin bütün diplomatik cəbhələrdə ardıcıl olaraq mövcud uğursuzluqları onları hər cür fitnəkar əməllərə əl atmağa vadar edirdi.

Həmçinin erməni nümayəndələri rusiya rəhbərliyindən ərazi tələbi ilə onlara Azərbaycanın işğalında yardım göstərəcəklərini də təklif edirdilər. Rusiya hakimiyyəti Bakını nəyin bahasına olursa olsun tutmağı planlaşdırmışdılar. Bu işdə erməni millətçiləri böyük canfəşanlıq da göstərirdilər. 1920-ci ilin əvvəllərində erməni sosial-demokratlar Pirumov və Zaxaryan Moskvada "ərazi" güzəştləri müqabilində Azərbaycan Cümhuriyyəti hökumətini devirmək niyyətində idilər.

XI ordu dəstələri Azərbaycan sərhədlərini keçərək əməliyyata başladılar. Əməliyyatın son dərəcə məxfiliyi, A. Mikoyanın rəhbərliyi altında türk dilini, məişətini, yerli şəraiti bilən qrupun (Q. Musabəyov, H. Cəbiyev və b.) bələdçi-yardımçı funksiyası, Azərbaycan hökumətinin əsas hərbi qüvvələrinin qərb sərhədində cəmləşməsi nəticəsində Yalama-Bakı rayonunda yerləşmiş cüzi qüvvənin qeyri-sayıq davranışı aprelin 27-nə keçən gecə Azərbaycan Cümhuriyyətinin dövlət sərhədlərinin pozulmasını və ərazisinin işğalını təmin etdi. Yalama stansiyasında iki saatlıq döyüş Azərbaycan hərbçilərinin məğlubiyyəti ilə bitdi: "Onlar üçə yaxın artilleriya divizionunu itirdi, 600-700 nəfəri əsir düşdü". Rus ordusu isə otuz nəfərədək itki verdi. "Üçüncü İnternasional" zirehli qatarı Biləcəri stansiyasına çatanda Azərbaycan hökuməti, qoşunlarının məğlubiyyətindən xəbər tutdu. Azərbaycan parlamenti fakt qarşısında qalaraq reallıqla barışmağa məcbur oldu.

Azərbaycan hökuməti müttəfiq dövlətlərin Tiflisdəki nümayəndələrinə aprelin 27-də müraciət edib, ərazisinin bolşevik işğalı ilə əlaqədar, yenidən hücum etməmələri üçün Ermənistan hökumətinə təsir göstərməyi xahiş etmişdi. İşğaldan xəbər tutan Azərbaycan nümayəndəliyi aprelin 28-də San-Remo konfransına nota təqdim etmişdi. Lakin nə bu, nə də

sonrakı müraciətlərin əməli əhəmiyyəti olmadı.

XI bolşevik ordusunun Azərbaycana hücumu ilə eyni vaxtda – aprelin 27-də gündüz saat 12-də AK(b)P MK və RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu adından hakimiyyəti təhvil vermək haqqında Azərbaycan parlamentinə ultimatum verildi. Azərbaycan parlamentinin fəaliyyəti həmin gün saat 20.45-də başa çatdı. Parlament aşağıdakı şərtlərlə hakimiyyətin Azərbaycan kommunistlərinə verliməsi barədə qərar çıxartdı: 1) Rus ordusu Bakıya daxil olmadan dəmir yolu ilə birbaşa Mustafa Kamalın köməyinə gedəcək; 2) Azərbaycan müstəqilliyi və ərazi bütövlüyü qorunacaq; 3) Azərbaycan Ordusu olduğu kimi saxlanacaq; 4) Azərbaycanın siyasi partiyaları üçün fəaliyyət azadlığı təmin olunacaq; 5) Keçmiş dövlət xadimləri, hökumət üzvləri və millət vəkilləri təqib olunmayacaq, dövlət idarələri qulluqçularının iş yerləri saxlanacaq, yalnız rəhbər vəzifəli şəxslər dəyişdiriləcək; 6) Azad şəraitdə toplaşacaq Azərbaycan şuraları hakimiyyətin idarəçilik formalarını təyin edəcək.

Aprelin 29-da Azərbaycan İnqilab Komitəsi hərbi yardım göstərmək xahişi ilə Sovet Rusiyasına müraciət etdi. Halbuki, rus ordusu aprelin 27-də Azərbaycanın hüdudları daxilində idi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyətdən sonra süqut etdi. 1920-ci il aprelin 28-də Azərbaycan Sovet Sosialist Respublikası elan olundu və bundan sonra nələr baş verdi?. ADR hökuməti hakimiyyəti təhvil verdikdən sonra İnqilab Komitəsi verdiyi vədləri yerinə yetirmədi. Nəticədə: 1) XI ordu Azərbaycanı tamamilə işğal elədi. 2) Azərbaycanın müstəqilliyi ləğv edildi. 3)Azərbaycanın ərazisi növbəti dəfə parçalandı və Zəngəzur bölgəsi ermənistana təvil verildi 4) Azərbaycan ordusu ləğv edildi, 5) Qırmızı terror həyata keçirildi, qaçıb canını qurtara bilməyənlər güllələndi və sağ qalanlar isə 37-ci ildə represiyya qurbanı oldular. 6) Azərbaycanda bütün siyasi partiyalar ləğv edildi və Kommunist partiyası hakim partiya oldu. 7) Bütün Azərbaycan Cümhuriyyət üzvləri ya həbs edildi, ya da güllələndi. Cümhuriyyətin savadlı kadrlarını bolşevizmə xidmət edən xainlər və savadsız şəxslərlə əvəzləndi. 6) Azərbaycan şuraları deyilən qurumlar xarici əksinqlaba işləmək ittihamı ilə bağlandı və orda təmsil edilənlər qırımızı terrorun qurbanlarına çevrildilər. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 70 il ərzində Azərbaycanın ziyalı- ları zaman zaman məhv edildi, represiyya qurbanlarına çevrildilər. Bütün təbii sərvlətlər rus hakmiyyəti tərəfindən mənimsənildi. Bütün sərvətimizi talan etdilər. Azərbaycan soyadlarımız dəyişdirildi, ana dilimiz, mədəniyyətimiz, adət ənənələrimiz, dinimiz terrora məruz qaldı.

# AZƏRBAYCAN XALQ CUMHURİYYƏTİNİN BEYNƏLXALQ ƏLAQƏLƏRİ

**_Musayeva M.A._**
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycanın xarici siyasətində başlıca yeri qonşu dövlətlərlə mehriban münasibətlər yaratmaq tuturdu. Azərbaycan Cümhuriyyətinin yaranmasından sonra Azərbaycan – Türkiyə münasibətləri yeni mərhələyə, dövlətlərarası münasibətlər mərhələsinə qədəm qoydu. 1918-ci il iyunun 4-də Azərbaycan ilə Türkiyə arasında Batumi şəhərində dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə bağlandı. 4 iyun müqaviləsi əsasında Azərbaycanın dövlət rəsmiləri Rəsulzadə və Hacınski tərəfindən Türkiyə hökumətinə hərbi yardım göstərilməsi ilə əlaqədar müraciət etdilər. Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında Ə.M.Topçubaşovun İstanbula getməsi və Azərbaycan hökumətinin fövqəladə səlahiyyətli naziri kimi işə başlamasının böyük rolu olmuşdur. 1918-ci ilin oktyabrında O.M.Topçubaşov Türkiyənin rəsmi dairələri ilə bir sıra görüşlər keçirdi. Bu zaman Türkiyə və eləcə də Azərbaycan üçün çox ağır olan Mudros müqaviləsi (30 oktyabr) bağlandı. Həmin müqavilənin 11-ci bəndinə görə Türkiyə ordusu tezliklə Azərbaycanı tərk etməli, Bakının Antanta qüvvələri tərəfindən tutulmasına etiraz etməməli idi. Noyabrın 4-də Ə.M.Topçubaşov Azərbaycan hökuməti adından Mudros barışığının Azərbaycana aid maddələrinə etirazını bildirdi. Artıq noyabrın 10-dan Türkiyə qoşunları Azərbaycandan çıxarılmağa başladı və bununla AXC-nin xarici siyasətində Türkiyə oriyentasiyası dövrü başa çatdı. 1918-ci il noyabrın 17-də Antanta qüvvələri adından İngilis qoşunları Bakıya daxil oldular. General Tomson Xoyski hökumətini yeganə təsirli hökumət kimi qəbul etdi və bildirdi ki, Böyük Britaniya hökuməti Azərbaycan hökumətini bu ölkənin ərazisində yeganə qanuni hakimiyyət kimi tanıyır. 1919- cu ildən başlayaraq İngiltərə-Azərbaycan əlaqələri, Bakıdakı ingilis komandanlığı və İstanbuldakı İngilis hərbi və diplomatik nümayəndəliyi vasitəsilə həyata keçirilirdi. Azərbaycanın xarici siyasətinin qarşısında duran ən mühüm məsələlərdən biri qonşu dövlətlərlə qarşılıqlı mehriban münasibətlər yaratmaq və Qafqaz həmrəyliyinə nail olmaq idi. AXC parlamentinin Dağıstan, Gürcüstan və Ermənistana göndərdiyi müraciətdə deyilirdi: "Qafqaz elə bir vəziyyət qarşısındadır ki, bu ərazidə qurulmuş cümhuriyyətlər müqabil dostluq və həmrəylik etmədən yaşaya bilməzlər".

Azərbaycan xarici siyasətinin ən böyük uğurlarından biri Azərbaycan nümayəndə heyətinin Paris sülh konfransında iştirakı və Azərbaycanın dünya dövlətləri tərəfindən tanınmasına nail olmaqdan ibarət oldu. Bu konfransda Topçubaşov, Hacınski,

Şeyxülislamov, Ə.Ağayev Azərbaycan nümayəndə heyəti kimi fəaliyyət göstərərək böyük uğurlar qazanmışdılar. 1919-cu il mayın 28-də nümayəndə heyəti ABŞ prezidenti V.Vilson ilə görüşərək Amerikanın yardımını ala bilmişdilər. Paris sülh konfransının iştirakçılarını respublikadakı siyasi vəziyyətlə tanış etmək üçün nümayəndə heyəti böyük işlər görmüşdü. 1920-ci ilin yanvarın 19-da Paris Sülh Konfransı Ali Şurasının hökumət başçılarının iştirakı ilə keçirilən iclasında Cənubi Qafqaz respublikaları problemi müzakirə edilərək Azərbaycan və Gürcüstan respublikalarının de-fakto tanınması haqqında qərar qəbul edilmişdir. Bir çox ölkələr – Belçika, İsveçrə, Hollandiya, Çexiya, Slovakiya Bakıda öz konsulluqlarını açmağa başladılar. İtaliya hökuməti isə burada öz nümayəndəliyini yaratdı. 1920-ci ilin aprelin ortalarında Azərbaycan parlamenti İngiltərə, Fransa, İtaliya, ABŞ və başqa ölkələrdə diplomatik nümayəndəliklərinin açılması haqqında qanun qəbul etdi. Bakıda 20-dən çox ölkənin diplomatik missiyası fəaliyyət göstərirdi.

Azərbaycanın xarici əlaqələrində mühüm yer tutan Osmanlının üstün qüvvə olduğunu və gücünü göstərmək istədiyi regionda onun siyasi xəttində əsas cəhət Rusiyanın-Qafqaz cəbhəsinin dağıdılmasından irəli gələn nəticələrdən biri Turan niyyətlərinə yenidən qayıdılması idi. Bu halda, türk qoşunları açıq-aşkar düşmən mövqelərlə üzləşirdilər. 1918-ci ildə Xəzərarxası və Türküstanın içərilərinə nüfuz edilməsilə Turan yolunda daha iddialı addımlar atıla bilərdi. Osmanlıları öz növbəsində Əfqanıstan, Cənubi İran və Hindistanda Britaniya əleyhinə panislamist qiyamlar törədəcəkdi.

1919-cu il mayın 28-də Paris sülh konfransındakı Azərbaycan nümayəndə heyətini ABŞ prezidenti V.Vilson qəbul etdi. Vilsona təqdim olunmuş memorandumda Azərbaycan Respublikasının yaranma tarixi və bir ildə keçdiyi inkişaf yolundan bəhs olunur, Azərbaycan nümayəndə heyətinin qarşısında duran vəzifələr şərh edilirdi. Həmin vəzifələr – Azərbaycan istiqlaliyyətinin tanınması, Azərbaycanın Millətlər Cəmiyyətinə daxil olması, ABŞ ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlər yaradılması və Azərbaycana hərbi kömək göstərilməsindən ibarət idi. Vilsona məlumat verildi ki, göstərilən şərtlərin yerinə yetiriləcəyi təqdirdə Azərbaycan Respublikası keçmiş çar Rusiyasının öz payına düşən borclarını ödəməyə hazırdır. Azərbaycan Respublikasının bütün ərazisinə qarşı iddia irəli sürmüş İranın Paris konfransındakı mövqeyi Azərbaycan nümayəndəliyi üçün gözlənilməz oldu. Xoşbəxtlikdən İran tərəfinin bu gülünc tələblərini ‘konfrans iştirakçıları ciddi qarşılamadılar və 1919-cu il 9 avqust tarixli ingilis-İran sazişinin imzalanmasından sonra iranlılar, ümumiyyətlə, konfransın işindən

üzaqlaşdırıldılar. 1919-cu ilin yayında Azərbaycanın siyasi həyatında əlamətdar hadisə baş verdi. Avqustun ikinci yarısında ingilis qoşunları Azərbaycan ərazisini tamamilə tərk etdilər və bu andan etibarən Azərbaycan tam müstəqil dövlət kimi yaşamağa başladı. Bədxahlarımızın qabaqcadan söylədiklərinin əksinə olaraq, nə kütləvi bolşevik çıxışları, nə də digər ağlasığmaz "fəlakətlər" baş verdi. Dövlət strukturları ingilislərin vaxtında olduğu kimi, normal fəaliyyətini davam etdirirdi. Bununla da, Azərbaycan xalqı müstəqil yaşamağa qadir olduğunu bütün dünyaya bir daha nümayiş etdirmiş oldu. 1919-cu ilin ikinci yarısında Azərbaycan xalqının müstəqil və azad həyatının əsas yekunları aşağıdakılardan ibarət idi: bir çox siyasi və vətəndaşlıq hüquqlarından məhrum edilmiş, dövlət quruculuğu sahəsində heç bir təcrübəsi olmayan xalq qısa bir tarixi müddətdə normal fəaliyyət göstərən dövlət aparatı yaratdı.

## AXC- nin FRANSA İLƏ TƏHSİL VƏ HUMANİTAR SAHƏDƏ ƏLAQƏLƏRİNİN BƏZİ ASPEKTLƏRİ

***Mustafayeva Ş.F.***
*Azərbaycan Dillər Universiteti*

1918-ci ilin 28 mayında Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və fəaliyyəti ilə müstəqil dövlətçiliyimizin hüquqi, siyasi, ideoloji, mədəni və tarixi əsasları müəyyənləşdirildi. Cəmi 23 ay yaşamış AXC parlamenti fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, mədəni, maarif, iqtisadi, siyasi sahələrdə sürətli irəliləyişə şərait yaratdı.

Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi ilk gündən ölkə əhalisinin maarifləndirilməsi dövlətçilik prinsipinin əsasını təşkil etdi. Bu istiqamətdə fəaliyyəti əlaqələndirmək üçün Xalq Maarifçilik Nazirliyi yaradıldı. Məktəblərin milliləşdirilməsi, təhsilin türk dilində tədrisi ilə ilk dəfə olaraq azərbaycanlı uşaqların öz ana dilində təhsil almaq hüququ qanuniləşdirildi. Beləliklə, Azərbaycanda üç ali məktəbin – Bakı Dövlət Universitetinin, Dövlət Konservatoriyası və Kənd Təsərüfatı İnstitutunun inşası ilə bağlı qərar qəbul edildi.

Kadr çatışmamazlığı sahəsində problemi həll etmək üçün Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti və Xalq Maarifçilik Nazirliyi birgə razılıq ilə 100 azərbaycanlı tələbələrin xarici ölkələrə göndərilməsi ilə bağlı qərar qəbul etdi. Münsiflər heyətinin seçdiyi tələbələrin 45 nəfəri Fransaya, 49 nəfəri Almaniyaya, 4 nəfəri İtaliyaya, 1 nəfəri

İngiltərəyə, 6 nəfəri Türkiyəyə göndərildi.

1920-ci ilin 14 fevral Bakıdan yola düşmüş 78 gələcək tələbə fevral ayının 11-i Parisə çatdı. Fransaya gələn azərbaycanlı tələbələrin yalnız Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalına qədər təqaüd almaq imkanları oldu. 1920-ci ilin 28 aprelində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən və Azərbaycan SSR elan edildikdən sonra Azərbaycan SSR Müvəqqəti İnqilabı Komitəsinin Sədri və Xalq Komissarları Sovetinin Sədri vəzifəsini tutmuş Nəriman Nərimanov bu tələbələrlə bağlı təşəbbüslər irəli sürdü. 19 avqust 1920-ci il tarixli iclasda təhsillərini davam etdirmək üçün tələbələrin təqaüdlərinin bərpası ilə əlaqədar Azərbaycan Tələbələr İttifaqının yaradılması haqqında qərar qəbul edildi. Bu İttifq xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənməli idi. Azərbaycan tələbələlər İttifaqının sədri təyin edilmiş Bəhram Axundov 1921-ci ilin oktyabrından 1920-ci ilin yanvarına qədər Avropa dövlətlərində olmuş və tələbələrin maliyyələşdirilməsi ilə bağlı hazırladığı hesabatı 1922-ci il mart ayının 22-də Nəriman Nərimanova təqdim etmişdir. Lakin onun 1922-ci ilin SSRİ yarandıqdan sonra SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri seçilməsi ilə bu istiqamətdə işlər dayandırıldı.

1920-ci ildə Fransaya göndərmiş 78 tələbədən tarixi proseslər səbəbindən yalnız 6 nəfəri – Abbas bəy Seyfulla oğlu Atamalıbəyov, Abbas Həmid oğlu Muradov, Aslan bəy Zeynalabdin oğlu Vəzirov, Nərimanbəyli Fərman bəy Əmir bəy oğlu Nərimanbəyli, Mustafa Hacı Rəhim oğlu Mustafayev, Rəşid bəy Əlimərdan bəy oğlu Topçubaşov haqqında məlumat olsa da, lakin digərləri haqında heç bir informasiya yoxdur. Azərbaycanlı Tələbələr İttifaqının 1923-25 illər üçün hesabatında onların əksəriyyətinin təhsillərinin iki ilinin qaldığı göstərilir. Fransaya göndərilmiş lakin sonrakı həyatı barəsində heç bir məlumat olmayan tələbələrdən biri Əjdər bəy İsgəndər bəy oğlu Axundovun Ceyhun Hacıbəyliyə yazdığı məktubda onun çox çətin şəraitdə işlədiyi, yaşadığı və kömək istədiyi göstərilir.

Abbas bəy Seyfulla oğlu Atamalıbəyov 1919-cu ildə keçirilmiş Paris sülh konfransında Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində iştirak etmişdi. AXC-nin süqutundan sonra Fransada qalmış Seyfulla Atamalıbəyov Parisdə Siyasi Elmlər Məktəbinə qəbul olmuş və Millətlər Liqasının təşkil etdiyi siyasi tədbirlərin əksəriyyətində iştirak etmişdir. O, Topçubaşov və Miryaqub Mir Mehdiyevdən sonra Parisdə yaşayan mühacir qrupuna başçılıq etmişdir. O, Cənubi Qafqazın tarixi və mədəniyyti haqqında məqalələrini “Revyu de Prometey” və "O” jurnallarında nəşr etdirmişdir.

Abbas Həmid oğlu Muradov Fransada tibb sahəsində təhsilini uğurla bitirdikdən sonra Bakıda cərrah işləmişdir.

Aslan bəy Zeynalabdin oğlu Vəzirzadə 1925-ci ildə Paris universitetinin Fizika-kimya və Nansi geologiya institutunun geologiya fakültələrini bitirmişdir. Azərbaycana qayıtdıqdan sonra Aslan bəy paralel olaraq Azərneftin geoloji-kəşfiyyat idarəsində və Azərbaycan Politexnik İnstitunda işləmişdir.

Nərimanbəyli Fərman bəy Əmir bəy oğlu 1920-1927-ci illər ərzində Fransa Politexnik İnstitutunda oxuyan zaman fransız xanımla ailə həyatı qumuşdur. Vətənə qayıtdıqdan sonra Azərbaycan SSR Dövlət Plan Komitəsində elektrikləşdirmə bölməsinin rəisi vəzifəsində işləmişdir.

Mustafa Hacı Rəhim oğlu Mustafayev Fransada mühəndis-energetika ixtisası üzrə təhsil almış, Bakıya qayıtdıqdan sonra elektrik stansiyalarının və Bakı tramvay xəttinin tikintisində işləmişdir.

Rəşid bəy Əlimərdan bəy oğlu Topçubaşov Parisə hüquqşünas ixtisası üzrə təsili almaq üçün göndərilmişdir. AXC-nin süqutundan sonra o, Sovet Azərbaycanının verdiyi təqaüddən imtina etmişdir.

## AZƏRBAYCAN İSTİQLALİYYƏTİNİN QƏNİMLƏRİ. AXC-nin SÜQUTU

***Nəbiyeva Y.İ.***

*Sumqayıt Dövlət Universiteti*

Azərbaycanın milli dirçəlişi və müstəqil dövlət qurumunun yaranması böyük tarixi hadisə idi. AXC dövründə xalq dinclik tapdı. Erməni hücumlarının qarşısı alındı. Lakin müstəqil Azərbaycan Cümhuriyyətinin dirçəlişi onun düşmənlərinin rahatlığını pozmuşdu. Rusiya Azərbaycanın müstəqilliyini tanımaq istəmirdi. Hər cür fitnəkarlıq və təxribat baş alıb gedirdi. Mərkəz (Moskva) Stalin və Mikoyan- Kirov-Orconikidze üçlüyü vasitəsilə planlar hazırlayırdı. Bu planda əsas yeri Azərbaycanı Türkiyədən uzaqlaşdırmaq, azərbaycanlı bolşevikləri öz tərəfinə çəkmək, milli şüuru tam yetişməyən kütləlləri ələ almaq xüsusi yer tuturdu. Bunun üçün də onlar dəridən-qabıqdan çıxır, "Müsavat"ın simasında düşmən obrazı yaratmağa çalışırdılar. Yeni yaradılmış Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlərdən qorxuya düşən Orconikidze 1918-ci il oktyabrın 12-də V.İ.Leninə göndərdiyi teleqramda yazırdı: "Azərbaycan Respublikasının hökuməti başda Xan Xoyski olmaqla yalnız mülkədarlardan ibarətdir. Türkiyə sultanının bütün ən pis qaydalarını bərpa

etməli olan Türkiyə rejimi tatarların hökumətə və türklərə qarşı üsyanına səbəb olmuşdur". Teleqramdakı eyham aydın idi. Türk hərbi hissələrinin Azərbaycan xalqının köməyinə gəlməsi, daşnak hissələrinin ərazimizdən qovulması mərkəzi və onun Azərbaycandakı əlaltılarını narahat etməyə bilməzdi. Yeni hökumətin Moskvadakı əleyhdarları, o cümlədən də mətbuat orqanları təxribat xarakterli yazılar dərc edir, türkləri əhalinin gözündən salmağa çalışırdılar. Stalinin nəzarəti altında olan "Жизнь национальности" qəzeti bu sahədə daha fəal idi. Stalin özü də Qafqazın işğalı fikrinə həmrəy idi. O, 1918-ci il 31 avqust tarixli məktubunda yazırdı: " Cənub və Xəzər dənizi uğrunda mübarizə gedir. Bakı, Türküstan, Şimali Qafqaz bizim olacaq". Müsavat hökumətinin düşmənləri 1918-ci ilin dekabrında fəhlə konfransının qərarı ilə bir qrup fəhləni ümumi siyasi tətilə qaldırmağa müvəffəq oldular. Qazax, Gəncə və Lənkəranda bir qrup kəndli "Müsavat"a qarşı çıxdı.

Bu hadisədən ruhlanan Mikoyan Kirovun vasitəsilə mərkəzə xəbər çatdırdı. Mikoyan Azərbaycan istiqlaliyyətinə dərin nifrət hissi bəsləyənlərdən biri idi. O, N.Nərimanova qarşı nəzakətli davranaraq özünü üzdə dost kimi göstərir, həqiqətdə isə öz çirkin niyyətini həyata keçirmək üçün fürsət gözləyirdi. Mikoyan və Kirov 1918-ci ilin dekabrında Bakıda fəaliyyət göstərən mərkəzi fəhlə konfransının işinin fəallaşdırılmasına hər vasitəylə yardım edirdilər. Mikoyan həmin soveti "bir növ deputatalar soveti" adlandırırdı. 1918-ci il mayın əvvəlində Mikoyanın rəhbərliyi ilə keçirilən Ümumbakı partiya konfransı "Müstəqil Sovet Azərbaycanı" şüarını Azərbaycan kommunist təşkilatlarının növbəti vəzifəsi kimi qəbul etdi. 1919-cu il mayın 22-də Mikoyan RK (b) PMK-nə və Leninə yazırdı:"Bakı təşkilatı ölkə komitəsi ilə birgə Azərbaycanda hakimiyyətin ələ alınmasını partiyanın növbəti vəzifəsi kimi qarşıya qoyur. Bunun üçün geniş siyasi və hərbi hazırlıq görürük. Artıq Azərbaycanın müxtəlif guşələrində dayaq bazalarımız vardır. Burada bizim yoldaşlar çalışır və rəhbərlik edirlər". Mərkəz Azərbaycana silah göndərir, həmin silahlar qiyamçı əhval-ruhiyyəli insanlara paylanırdı. Türküstan cəbhəsindən Bakıya gizli olaraq 8 min nəfərlik silah və hərbi sursat, Həştərxandan isə 1.600 tüfəng, 17 pulemyot göndərilmişdi. Artıq 1920-ci ilin yanvarında Kirov Mərkəzi Komitəyə bildirmişdi ki, "Bakılı yoldaşlar güclü surətdə silahlanmaqla məşğuldurlar. Onlar işin müvəffəqiyyətlə bitəcəyinə ümid bəsləyərək çıxışa hazırlaşırlar".

1920-ci ilin martında Qızıl Ordu hissələri Dərbəndə toplaşaraq üsyana hazırlaşan zaman V.İ.Lenin Orconikidzeyə göndərdiyi 17 mart tarixli teleqramda tələb edirdi ki, "Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səylərinizi buna sərf edin.

Qüvvələrin yeridilməsi haqqında baş komandanlıqla razılaşın”.

Qeyd edildiyi kimi, RSFSR Azərbaycan Cümhuriyyətini tanımaqdan imtina etmiş və Dərbənd rayonunda Qızıl Ordu hissələrini cəmləşdirməyə başlamışdı. Bununla əlaqədar olaraq F.Xoyski aprelin 15-də Çiçerinə göndərdiyi sonuncu notası ilə bu rayonda Qızıl Ordu hissələrinin cəmləşməsi səbəblərini öyrənmək istəsə də, nota cavabsız qalmışdı.

1920-ci il aprel ayının 27-də axşam saat 11-də Azərbaycan parlamenti hakimiyyətin təhvil verilməsi haqqında qərar qəbul etdi. Beləliklə, AXC-nin 23 ay davam edən fəaliyyəti dayandırıldı. Bundan sonra bolşeviklər daha sürətlə ölkəyə soxuldular. Azərbaycan zirehli qatarları geri çəkilməyə başladı. Onların bəzisi, xüsusən poruçik Kavtaradzenin rəis olduğu qatar topları nasaz olduğu üçün atəş aça bilmədi. Diqqəti çəkən o idi ki, Bakıya daxil olan əsgərlər müxtəlif zümrələrdən olub ac-yalavac idi, onların üst-başları tökülmüşdü. Onlar öncə hərbi anbarları dağıtdılar. İtaliyadan alınmış 35.000 dəst hərbi geyim zəbt olundu, silah və sursat qarət edildi. Bakının Bayıl hissəsində yerləşən 6-cı Göyçay polkunun batalyonlarından biri bu hadisədən xəbər tutan kimi, hərbi geyimləri əsgərlərə paylamaq istəsə də, hərbi və dəniz işləri üzrə komissar təyin edilmiş Çingiz İldırımın göstərişi ilə geyimlər Qızıl Orduya verildi. Qızıl Ordu heç bir müqavimətə rast gəlmədən Gürcüstana doğru irəliləməyə başladı.

Ümumiyyətlə, AXC-nin tarixdə özünəməxsus yeri və rolu vardır. O, Azərbaycan xalqına azad xalqlar arasında yer tutmağa layiq olduğunu sübut etdi. Xalq milli azadlığın nə olduğunu bildi, milli istiqlaldan az da olsa daddı. AXC-nin elan edilməsi, onun 2 illik hakimiyyət dövrü bir sıra səciyyəvi cəhətlərinə görə milli tariximiz üçün çox əhəmiyyətlidir.

## AXC- BÖYÜK BRİTANİYA MÜNASİBƏTLƏRİ

***Səmədov F.F.***

*Sumqayıt Dövlət Universiteti*

Strateji mövqeyi və neft mənbələri ilə zəngin olan Azərbaycan hələ XIX əsrin sonlarından etibarən Böyük Britaniyanın diqqət mərkəzində idi.I Dünya müharibəsi illərində böyük dövlətlərin xüsusilə də Böyük Britaniyanın Azərbaycana marağı kəskin şəkildə artmışdı. Bunun əsas səbəbi, bir tərəfdən, Antanta bloku ölkələrinin Cənubi Qafqaza meylinin güclənməsi, digər tərəfdən isə dünya neft istehsalının böyük bir hissəsinin Azərbaycanın payına düşməsi ilə bağlı idi. Birinci Dünya müharibəsi ərəfəsində Rusiyada hasil edilən neftin 83 faizi Azərbaycanın payına düşürdü.

I Dünya müharibəsində iştirak edən Antanta və Üclər İttifaqı Bakı neftinə qələbənin taleyini həll edən amil kimi baxırdılar. İngiltərənin baş naziri Lloyd Corcun fikrincə, müharibənin sonunda Antantanın üstünlüyünə baxmayaraq, alman bloku Bakı neftindən istifadə edərdisə, hərbi əməliyyatların hansı nəticələr verəcəyini qabaqcadan söyləmək olmazdı. Ona görə də Böyük Britaniya qoşunları 1918-ci ilin mayından başlayaraq Bakı istiqamətində hərəkətə başladı. Lakin bu zaman Cənubi Azərbaycanda möhkəmlənmiş Türkiyə qoşunları onların hərəkətinin qarşısını aldı və ingilislərin Bakıya müdaxiləsi 1918-ci ilin avqustuna qədər reallaşmadı.Rusiya tərəfindən yaradılan və himayə edilən bolşeviklərin Bakıda XKS-nin hakimiyyəti devrildikdən sonraBakıda siyasi mühit kəskun şəkildə dəyişdi və hakimiyyət sentrokaspiçilərin nəzarətinə kecdi. Yaranmış yeni hakimiyyətin ilk tədbri Ənzəlidə dayanmış ingilisləri Bakıya dəvət etmək oldu. Avqustun 4-də ingilislərin ilk qoşun dəstəsi Bakıya daxil oldu. Avqustun ortalarında general Denstervil başda olmaqla ingiltərənin min nəfərlik ikinci hərbi dəstəsi Bakıya gəldi. Bakının xristian əhalisi ingilisləri böyük sevinclə qarşıladı.

Azərbaycana daxil olan Böyük Britaniya qoşunları haqqında məlumatları eşidən Qafqaz İslam Ordusu şəhəri azad etmək uğrunda son hərbi əməliyyatlara başladı. Qafqaz İslam ordusunun hərbi əməliyyatları nəticəsində 1918-ci il sentyabr ayının ortalarında Britaniya qoşunu general Denstervil başda olmaqla Bakını tərk etmək məcburiyyətində qaldı. Lakin Birinci Dünya müharibəsində Türkiyə və onun müttəfiqlərinin məğlubiyyətinin nəticəsi olaraq Böyük Britaniya silahlı qüvvələri Antanta Ali Şurasının qərarı ilə general Tomsonun komandanlığı altında yenidən Bakıya daxil oldu.

Bundan əvvəl, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti yaranmış siyasi şəraitlə əlaqədqr Birinci Dünya müharibəsindən sonra dünyanın ən qüdrətli dövlətinə cevrilmiş ABŞ-ın prezidenti V.Vilsona, Azərbaycan Milli Şurası isə dünya dövlətlərinə müraciətlər qəbul etdilər. Antanta qüvvələrinin Bakıya daxil olması Azərbaycanın istiqlaliyyətini ciddi təhlükə qarşısında qoyurdu. Lakin Rus və erməni milli şuralarının cəhdlərinə baxmayaraq, Bakıda siyasi vəziyyətlə yaxından tanış olduqdan sonra, general V.Tomson bildirdi ki, F.X.Xoyskinin hökuməti ölkədə koalisiya hökuməti təsdiq edilənə qədər yeganə təsirli hökumət olaraq qalır.

Beləliklə Böyük Britaniya hökuməti F.X.Xoyski hökumətini Azərbaycanın bütün ərazisində yeganə qanuni hakimiyyət kimi tanıdığını bildirdi və onunla münasibətlər qurdu.

F.X.Xoyski ilə danışıqlar zamanı Böyük Britaniya generalı C.Miln bildirmişdir ki,

Böyük Britaniya hökuməti Azərbaycan Xalq Cümhuriyyətini tanıyır və qəbul edir bununla yanaşı hökumətə müttəfiqlər komandanlığı hər barədə kömək edəcəkdir. Ayrı-ayrı millətlərin təyini-müqəddərat hüququ İngiltərə hökuməti nöqteyi-nəzərincə müdafiə edilməlidir. Sülh konfransında İngiltərə nümayəndələri bunu müdafiə edəcəklərdir. Bundan əlavə, general bəyan etmişdir ki, müttəfiqlər komandanlığı təzə təşkil edilmiş Zaqafqaziya hökumətlərinin daxili işlərinə qarışmayacaqdır. Və müttəfiqlərin yeganə məqsədi bu dövlətlərdə asayiş və müsalimətə kömək etməkdir. 1918-ci ilin dekabr ayında Cənubi Qafqaz o cümlədən Azərbaycan məsələsi bir neçə dəfə Britaniya hökumətinin iclaslarında müzakirə edilmişdi.

1919-cu ilin əvvəllərindən başlayaraq İngiltərə-Azərbaycan əlaqələri Bakıda olan ingilis komandanlığı, İstanbuldakı ingilis hərbi və diplomatik nümayəndəliyi, sonralar isə Paris Konfransında təmsil olunan sülh heyəti vasitəsilə həyata keçirilirdi.

Dekabr ayında ingilislər Batum və Tiflisi də tutdular və 1919-cu ilin yayına qədər Qafqazda qaldılar. İngilislərin Azərbaycanın daxili işlərinə müdaxilə etməsi tədricən aradan qaldırıldığına görə, Azərbaycan hökuməti bütün işləri öz əlində toplayır,bütün vasitələrdən istifadə edərək müstəqilliyini bərqərar edir və möhkəmləndirirdi.

## ŞƏRQDƏ İLK DEMOKRATİK CÜMHURİYYƏT – AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ

***Səmədov Y.A., Ələsgərov B.İ.***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti (Ağcabədi filialı)*

Çoxəsrlik dövlətçilik tariximizin şanlı səhifələrindən biri də Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı dövrdür. Müasir dövlətimizin əsas atributları Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti ilə bağlıdır. Bütün müsəlman və türk dünyasında ilk parlament tipli demokratik ölkə kimi yaranan Azərbaycan Xalq Cümhuriyyəti Qərb demokratik dəyərləri ilə Şərq mədəniyyətini birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. Qısa vaxt ərzində əksər dünya ölkələri tərəfindən tanınan və beynəlxalq hüququn subyektinə çevrilən Azərbaycan Xalq Cümhuriyyəti diplomatik əlaqələrin genişliyi ilə də siyasi arenada özünü göstərmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda iqtisadi-siyasi, ictimai- mədəni,ədəbi,fəlsəfi və digər sahələrdə baş vermiş oyanışla bağlı olmuşdur. Azərbaycanda xarici təhsilli, yüksək intellektuallığı və geniş

dünyagörüşə malik və demokratik ruhlu aydınlarımızın apardığı milli azadlıq hərəkatının məntiqi nəticəsi özünü Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında göstərdi.

Cəmi 23 ay yaşamasına baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti dövründə həyata keçirilən mühüm tədbirlər müstəqil dövlətçiliyimizin əsasının qoyulması və gələcək yolunun müəyyənləşdirilməsi oldu. Şərqdə ilk dəfə olaraq qadınlara kişilərlə bərabər seçki hüququnun verilməsi, təhsil, səhiyyə və mədəniyyətin inkişafına xüsusi diqqət və qayğı ilə yanaşılması, ordu və təhlükəsizlik strukturlarının qurulması, diplomatik münasibətlərin genişlənməsi, daxili siyasi sabitliyin təmini, ərazi bütövlüyü uğrunda mübarizə və erməni terroruna qarşı tədbirlər Azərbaycan Xalq Cümhuriyyətinin əsas siyasi istiqamətləri olmuşdur. Bundan başqa savadsızlığın ləğvi, 100 nəfər gəncin təhsil alması üçün xaricə ezam olunması, tarixi toponimlərimizin bərpası, sünni-şiə narazılığının ləğv etmək üçün vahid Ruhani Idarəsinin yaradılması, milli valyutanın təsisi və kargüzarlıq işlərinin Azərbaycan dilində aparılması kimi tədbirlər də mühüm siyasi hadisə olmuşdur.

100 illik yubileyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyəti tarixi salnaməmizin parlaq və şərəfli səhifəsini yaradaraq xalqımızın gələcək azadlıq və müstəqilliyinin əsasını qoydu. Azərbaycan Xalq Cümhuriyyətinin müəyyən səbəblər üzündən başa çatdıra bilmədiyi tədbirlər onun siyasi varisi olan müstəqil Azərbaycan Respublikası tərəfindən uğurla həyata keçirilir. 1920-ci il aprelin 28-də bolşevik işğalı nəticəsində cümhuriyyət süqut etdikdən sonra da müstəqillik hissləri azərbaycanlıları heç zaman tərk etməmiş və azadlıq ideyaları əbədi olaraq şüurlara hakim kəsilmişdir.Bunun nəticəsi kimi xalqımız öz müstəqilliyini 1991-ci ildə bərpa etməyə nail oldu.Bu hadisədən bir qədər sonra, yəni, 1993-cü ilin iyun ayının əvvəllərində Heydər Əliyevin hakimiyyətə qayıdışı republikamızın siyasi həyatında sabitlik pozuldu, ölkədə xaos və anarxiya baş qaldırdı, ölkəmizin ərazi bütövlüyü təhlükə qarşısında qaldı.Vətəndaş müharibəsi təhlükəsi yarandı. Ölkəmiz yenidən Azərbaycan Xalq Cümhuriyyətinin taleyini yaşamağa məcbur oldu.Belə bir ağır tarixi şəraitdə xalqın təkidi və xahişi ilə dünya səviyyəli siyasətçi, ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışı başlandı. Müasir tariximizə "Milli Qurtuluş Günü" kimi daxil olan bu qayıdış günü - 15 iyun günü xalqımızın tarixində yeni mühüm bir mərhələnin başlanğıcını qoydu və başının üstünü almış bütün bəlalardan bizi xilas etdi. Azərbaycanın ərazi bütövlüyü qorunub saxlanıldı, vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı. Bütün bunlar Heydər Əliyevin möhkəm iradəsi, uzaqgörən siyasəti və diplomatiyasının məharəti nəticəsində mümkün oldu. Azərbaycan Xalq

Cümhuriyyəti dövründə nümayəndə heyətini soyuqqanlıqla qarşılayan böyük dövlətlər bu gün onun siyasi varisi olan müstəqil Azərbaycanla qlobal miqyaslı layihələr razılaşmalı olurlar.Məhz H.Əliyevin yaratmış olduğu güclü ordu, dinamik iqtisadiyyat və diplomatik əlaqələr müasir Azərbaycanın müstəqilliyini daimi və əbədi etmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixi 1991-ci ildə müstəqilliyimizin bərpasından sonra ətraflı öyrənilməyə başlandı. Odur ki, Azərbaycan Xalq Cümhuriyyəti tarixinin öyrənilməsi daim aktual olub mühüm tarixi və siyasi əhəmiyyətə malikdir. Bu dövlətin qısa zamanda gördüyü böyük işləri gələcək nəsillərə çatdırmaq ən böyük vəzifələrimizdən biridir.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyəti haqqında demişdir : "Biz bu gün də Azərbaycan Xalq Cümhuriyyətinin tarixini, onun görkəmli şəxsiyyətlərinin fəaliyyətini dərindən öyrənməli, ideyalarını təbliğ etməli, təcrübəsindən bəhrələnməliyik... İndiki Azərbaycan döviətinin yeritdiyi siyasət, qazanılan uğurlar belə bir fikri əminliklə söyləməyə əsas verir ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə itirdiyimiz müstəqilliyi bir də heç zaman əldən verməyəcək, onu qoruyub saxlayacaq, dönməz, sarsılmaz və əbədi edəcəyik".

Doğrudan da, bu gün H.Əliyevin siyasi kursuna sadiq qalan prezident İlham Əliyev tərəfindən aparılan uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmiz dünya miqyasında özünə layiqli yer tutmuşdur. Prezident İ.Əliyevin səyi nəticəsində müstəqil Azərbaycan öz siyasi və iqtisadi qüdrətini daim artırmış, geopolitik baxımdan güclü mövqe tutmuşdur. İndi müstəqil Azərbaycan dünyada baş verən qlobal proseslərə təsir etmək imkanına malikdir. Bunlar onu deməyə imkan verir ki, Ulu öndərin layiqli davamçısı İlham Əliyev müstəqil Azərbaycanın dinamik inkişafı yolunda yorulmadan fəaliyyət göstərir. Ona görə də Azərbaycan Xalq Cümhuriyyətinin acı aqibətini yaşamamaq üçün bir azərbaycanlı kimi hər birimiz keçmişin ibrət dərslərini unutmamalı və heç zaman yaddan çıxarmamalıyıq.

## AZƏRBAYCAN CÜMHURİYYƏTİ BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ

***Soltanzadə A.N.***

*Azərbaycan Dillər Universiteti*

Demokratik ölkələrin ön planda olduğu vaxtda 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan olundu. Yarandığı gündən etibarən Cümhuriyyətin əsas məqsədlərindən

biri də xarici ölkələrlə əlaqə yaratmaq olmuşdu.

Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini elan etməsi bütün dünyanın marağını çəkmiş və bu məlumat radio vasitəsilə Berlin, London, İstanbul, Moskva kimi dünyanın ən vacib paytaxtlarında yayımlanmışdır.

Azərbaycan Demokratik Respublikasının Milli Şurası və hökuməti, gənclərin xaricdə təhsil almalarına böyük əhəmiyyət verirdi. 1919-1920-ci illərdə, yüksək təhsil almaq üzrə dövlət hesabına 100 gəncin xaricə göndərilməsinə qərar verildi və 45 gənc Fransaya, 23 nəfər İtaliyaya, 10 nəfər Böyük Britanyaya, 9 nəfər də Türkiyəyə göndərildi. Xərcləri dövlət tərəfindən ödənilən tələbələrin təhsil müddəti başa çatdıqdan sonra dörd il müddətinə təyin olunduqları yerdə işləməli idilər.

Avropa ölkələri ilə diplomatik əlaqələri qurmaq üçün 03 avqust 1918 tarixində Əli Mərdan Bəy Topçubaşov fövqəladə elçi və səlahiyyətli nümayəndə mövqeyində İstanbula göndərilmişdi. Ə.M.Topçubaşov səfir təyin edildiyi ölkələrdə Azərbaycanın maraqlarını təmin etmək üçün ölkələrin rəsmi nümayəndələri ilə münasibətlər qurmuşdur. İstanbul, Vyana, Berlinə, eləcə də Ermənistan və Gürcüstanın mərkəzlərinə səlahiyyətli səfır təyin edilmişdi. O, İstanbulda ikən Ukrayna, İran, Rusiya, ABŞ, İtaliya, İsveç, Hollandiya, Ermənistanın rəsmi nümayəndələrinə memorandum təqdim etmişdi. Memorandumda Qafqazın coğrafıyası, onun çar dövründə inzibati bölgüsü, regionun demoqrafık vəziyyəti, Azərbaycan respublikasında mövcud vəziyyət, aparılan quruculuq işləri, erməni probleminin mahiyyəti, mart soyqırımı, Qarabağ məsələsi barədə məlumat verilir, Azərbaycan Respublikasının müstəqil yaşamağa haqqı olduğu əsaslandırılırdı.

1918-ci ilin iyulunda İran konsulluğuna AXC-nin yaranması haqqında bəyannamə təqdim edildi. İran konsulu isə Azərbaycan adlı müstəqil dövləti tanımadığını bildirmişdi. 1919-cu il sentyabr ayında İranın yeni xarici işlər naziri Firuz Mirzənin nümayəndə heyətinin Avropaya gəlməsindən sonra İran heyətinin Azərbaycan istiqlalına münasibəti tam dəyişdi. Hər iki dövlət arasında siyasi və iqtisadi ittifaqın yaradılmasını nəzərdə tutan sənəd də qəbul edildi.

Azərbaycan hökumətinin üzvü Ə.M.Topçubaşov Paris Sülh Konfransına göndərilən heyətə də rəhbərlik etmişdir. 1919-cu ilin mayın 2-də, ABŞ prezident Vudro Vilsonun təşəbbüsü ilə Azərbaycan mövzusu Paris Konfransının Dördlü Şurasının iclasında ilk dəfə ələ alınmışdır. İngiltərə Baş naziri Lloyd Corc isə, 1919-cu ilin noyabrında çıxışında "Azərbaycanın tanınmasının və ona kömək edilməsinin vacibliyini" vurğulamışdır. İngilis

tərəfinin təklifiylə 1920-ci il yanvarın 10-da Paris Sülh Konfransının Yüksək Şurasının iclası açılmış, ertəsi gün isə İngiltərə xarici işlər naziri Lord Kerzonun təklifiylə bu qərar alınmışdır: «Antant müttəfiqləri Azərbaycan hökumətini "de fakto" tanımaqdadır». Bu tanınma nəticəsində gənc respublikanın diplomatik əlaqələri genişlənmişdir. Azərbaycan nümayəndə heyətinin ən əhəmiyyətli təbliğat işlərindən biri «Paris sülh konfransına Qafqaz Azərbaycanı sülh nümayəndəliyinin tələbləri» adlı kitabın hazırlanması idi. Kitabda Azərbaycanın tarixi haqqında dəyərli məlumatlar verilirdi. Bu sənəd üç mühüm tələb ilə bitirdi: 1) Sülh konfransı Azərbaycanın müstəqilliyini tanısın. 2) Nümayəndə heyəti sülh konfransının işinə cəlb olunsun. 3) Azərbaycan Respublikası Millətlər Liqasının üzvlüyünə qəbul edilsin.

Bakıda Belçika, İsveçrə, Hollandiya, Çexoslovakiya, Finlandiya və daha bir neçə dövlətin konsulluqları açılmış, 1920-ci ilin martın 20-də İranın Azərbaycanı tanımağı ilə, əvvəl Tehranda səfirlik, sonra da Təbrizdə baş konsulluq açılmışdır.

Eyni günlərdə, Azərbaycan parlamenti İngiltərə, Fransa, İtaliya, ABŞ, İsveçrə, Polşa və Rusiya kimi ölkələrdə diplomatik nümayəndəliklər açılması ilə bağlı qanunu qəbul etmiş, İngiltərə, Yunanıstan, Belçika, Gürcüstan, Danimarka, İtaliya, Litva, Polşa, İran və ABŞ kimi bir çox ölkənin nümayəndəlikləri Azərbaycanda fəaliyyətə başlamışdır.

1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Ermənistan, Gürcüstan, Türkiyə, Dağlılar Respublikası və Türküstanda diplomatik nümayəndəliyi, İranda səfirliyi,Kuban və Don hökumətləri yanında səlahiyyətli nümayəndəsi, Paris Sülh Konfransında səlahiyyətli nümayəndə heyəti fəaliyyət göstərmişdir.

Azərbaycanın müstəqilliyi Antanta Ali Şurası tərəfindən tanındıqdan sonra hökumətin hazırladığı "Qərbi Avropa və Amerikada Azərbaycan Cümhuriyyətinin diplomatik missiyalarının yaradılması və Paris sülh konfransındakı Azərbaycan nümayəndəliyinin ləğv edilməsi haqqında" qanun layihəsi Parlamentdə müzakirə olundu və qəbul edildi. Həmin qanuna görə, 1920 il aprelin 1-dən etibarən Böyük Britaniya, Fransa, İsveçrə, İtaliya, ABŞ, Almaniya, Rusiya və Polşada (Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumıniya) Azərbaycan Xalq Cümhuriyyətinin diplomatik nümayəndəlikləri təsis olunmalı idi.

Lakin sovet-bolşevik rejiminin beynəlxalq hüquq normalarım kobudcasına pozaraq Şimali Azərbaycanı işğal etməsi və de-fakto tanınmış müstəqil Azərbaycan Xalq Cümhuriyyətini aradan götürməsi nəticəsində Azərbaycanın xarici ölkələrlə diplomatik əlaqələrinə və beynəlxalq münasibətlər sistemində təmsil olunmasına son qoyuldu.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN TÜRKİYƏ İLƏ ƏLAQƏLƏRİ

## (1918 iyun-oktyabr)

***Şamilova A.M.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk günlərdən müstəqil dövlətimizin mövcudluğu üçün əlverişli və təhlükəsiz beynəlxalq şəraitin yaradılması və yeni dövlətin dünya birliyi tərəfindən tanınması üçün çox çevik və ardıcıl xarici siyasət xətti yürütməyə başladı. Milli hökumət qonşu dövlətlərlə normal münasibətlər qurulmasına və saxlanmasına xüsusi əhəmiyyət verirdi.

Böyük dünya siyasəti baxımından Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətini üç dövrə bölmək olar: Tütkiyə oriyentasiyası dövrü (1918-ci il may-oktyabr); Qərb oriyentasiyası dövrü (1918-ci il noyabr – 1920-ci il yanvar); geniş və hərtərəfli dünya əməkdaşlığına daxil olmaq uğrunda mübarizə dövrü – (1920-ci il yanvar-aprel).

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra Azərbaycan-Türkiyə münasibətləri yeni mərhələyə-dövlətlərarası münasibətlər mərhələsinə daxil oldu.

Bu mərhələdə Azərbaycan-Türkiyə münasibətlərinin hüquqi əsasını 4 iyunda imzalanmış Batum müqaviləsi təşkil edirdi. 4 iyun müqaviləsi və iyunun ortalarında imzalanan çoxtərəfli sazişlər Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrini əhatə edən ilk dövlətlərarası sənədlər idi. Batum müqaviləsinin dördüncü maddəsi Azərbaycan üçün həyati əhəmiyyətə malik idi. Bu maddə ilə milli hökumət Osmanlıdan hərbi yardım almaq imkanı qazandı. Lakin Osmanlı dövləti elə etmək istəyirdi ki, Azərbaycana ordu göndərilməsi Cənubi Qafqazda möhkəmlənməyə çalışan Almaniyanın etirazına səbəb olmasın. Ona görə qarşılıqlı razılıq əsasında Osmanlı hərbi hissələri və Azərbaycan könüllülərindən ibarət Qafqaz İslam Ordusu yaradıldı.

Azərbaycan-Türkiyə münasibətlərinin genişlənib dərinləşməsində 1918-ci ildə keçirilməsi nəzərdə tutulan İstanbul konfransına M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskidən ibarət nümayəndə heyəti göndərilməsinin böyük əhəmiyyəti oldu. Nəzərdə tutulan beynəlxalq konfrans keçirilməsə də, Azərbaycan nümayəndələrinin İstanbul missiyası çox faydalı oldu.

1918-ci ilin yayında Azərbaycan ətrafında cərəyan edən beynəlxalq vəziyyət Bakının tezliklə azad edilməsini zəruri edirdi. Dünya müharibəsinin sonunda Bakı, Türkiyə, Al-

maniya, İngiltərə və Sovet Rusiyası arasında mübarizənin əsas obyektinə çevrilmişdi.

1918-ci ilin yayında İstanbulda vəziyyəti müşahidə edən almanlar Türkiyənin müdafiə etdiyi Azərbaycan hökumətinin bolşeviklərin əlində olan Bakı quberniyasını heç kimə güzəştə getməyəcəyinə bir daha əmin oldular. Almanlar Bakı ilə bağlı planlarına Sovet Rusiyası vasitəsilə çatmaq fikrinə düşdülər və bu məqsədlə gizli danışıqlara başladılar. Nəhayət, Berlində üç aya qədər davam edən Almaniya-Rusiya danışıqları avqustun 27-də saziş imzalanması ilə nəticələndi. Sazişin 12-ci maddəsində göstərilirdi: “Almaniya Qafqazda Gürcüstanın hüdudlarından kənarda hərbi əməliyyatlarda hər hansı üçüncü dövlətə heç bir yardım etməyəcək...Rusiya Bakı vilayətində neft çıxarılmasını bütün imkanları daxilində artıracaq, çıxarılan neftin dörddə birini Almaniyaya verəcək”.

İstanbulda olan Azərbaycan nümayəndələri bu sazişlə əlaqədar Almaniya səfirliyinə etiraz notası təqdim etdilər. Notanın surəti Türkiyə Xarici İşlər Nazirliyinə, Avstriya-Macarıstan və Bolqarıstan səfirliklərinə, habelə bitərəf ölkələrin diplomatik nümayəndəliklərinə də verildi.

1918-ci sentyabrın əvvəllərində Azərbaycan nümayəndələri Sədri Əzəm Tələt Paşa tərəfindən qəbul edildi. Bu görüşdə Tələt Paşanın Berlinə səfəri ərəfəsində Almaniyanın Bakı məsələsində tutduğu mövqe, Bakının tezliklə azad edilməsinin zəruriliyi müzakirə olundu.

Az sonra Berlinə gedən Tələt paşa təcili şəkildə 27 avqust sazişinin ləğv edilməsini Almaniyadan tələb etdi. Bu addım Bakının azad edilməsində mühüm əhəmiyyətə malik oldu. Sentyabrın ortalarında Azərbaycan-Türkiyə hərbi qüvvələri Bakıya girdi.

Bakının azad edilməsi müstəqilliyin elan olunmasından sonra Azərbaycanın taleyində ikinci böyük tarixi hadisə idi. Bu qələbənin diplomatik cəhətdən təmin edilməsi Azərbaycan diplomatiyasının ilk uğurlarından idi. Bakının azad edilməsi ilə Azərbaycan Xalq Cümhuriyyəti öz hakimiyyətini gənc respublikanın ərazisində bərqərar etdi.

Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında Ə.M.Topçubaşovun İstanbul missiyasının böyük əhəmiyyəti oldu. O, 1918-ci il sentyabrın 28-də İstanbula gəldi və Azərbaycan fövqəladə səlahiyyətli naziri kimi işə başladı.

1918-ci ilin oktyabrında Ə.M.Topçubaşov İstanbulda Türkiyənin rəsmi dövlət nümayəndələri ilə bir sıra görüşlər keçirdi. Lakin Türkiyə məğlubiyyət ərəfəsində böhran içərisində olduğu üçün Azərbaycanla Osmanlı dövləti arasında sabit münasibətləri bərqərar etmək mümkün olmadı.

1918-ci ilin payızında Almaniya, Türkiyə, Avstriya-Macarıstan və Bolqarıstanın daxil olduğu Dördlər İttifaqı məğlub oldu. Oktyabrın ayının 30-da təkcə Türkiyə üçün deyil, Azərbaycan Xalq Cümhuriyyəti üçün də son dərəcə ağır olan Mudros barışığı imzalandı. Barışığın 11-ci maddəsinə görə, Türkiyə hərbi qüvvələri tezliklə Azərbaycanı tərk etməli, 15-ci maddəyə görə, Türkiyə Zaqafqaziya Dəmir yolu üzərində nəzarət hüququnu Antantaya verməli və müttəfiqlərin Bakını tutmasına heç bir etiraz etməməliydi.

1918-ci il noyabrın 4-də Ə.M.Topçubaşov Azərbaycan hökuməti adından Mudros barışığının Azərbaycana aid maddələrinə etirazını bildirdi. Lakin bu etirazın elə bil əhəmiyyəti olmadı.

Osmanlı dövlətini Dünya müharibəsində məğlub olmasına, Mudros barışığının Azərbaycana aid maddələrinə görə Osmanlı dövlətindən narazı qalmasına baxmayaraq, noyabrın 10-da Azərbaycan hökuməti Respublikanı tərk edən Türkiyə ordusunun şərəfinə ziyafət verdi. Həmin tarixdə Türkiyə qoşunları Bakını, az sonra isə bütün Azərbaycanı tərk etdilər.

Beləliklə Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətində Türkiyə oriyentasiyası dövrü başa çatmış oldu.

# MÜNDƏRİCAT

## PLENAR BÖLMƏ


1. *Səlimov Ş.D.* Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq münasibətlər sistemində........................................................................................... 3
2. *Qasımov Ş.M.* AXC-nin yaranması ilə xalqımız itirilmiş dövlətçiliyini bərpa etdi 5
3. *Джафаров Г.Ф.* Начальный этап деятельности Азербайджанской Демократической Республики (май – ноябрь 1918 г.).......................................... 9


## I BÖLMƏ
## AZƏRBAYCAN XALQ CUMHURİYYƏTİNİN DAXİLİ SİYASƏTİ


1. *Baxşəliyev A.B.* AXC və dövlət quruculuğu məsələləri....................................... 13
2. *Abbasova A.A.* Müasir Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir........................................................................................................ 15
3. *Abbaszadə N.M.* AXC Azərbaycanın dövlətçilik tarixində yeni mərhələdir...... 18
4. *Abdullayev N.M.* AXC-nin tarixinin öyrənilməsində M.Ə.Rəsulzadənin əsərlərinin mənbə kimi əhəmiyyəti.................................................................... 20
5. *Abdullayeva Z. H.* Xalq Cumhuriyyəti dövründə coğrafiya fənninin tədrisinə dair......................................................................................................... 22
6. *Adıgözəlov V.V.* Azərbaycançılıq istiqlalçılıq deməkdir..................................... 24
7. *Ağayev T. D.* AXC dövründə xalqın maarifləndirilməsi sahəsində aparılan işlərin əhəmiyyəti......................................................................................... 26
8. *Alməmmədli M.G.* Azərbaycan Xalq Cümhuriyyətinin sosial-iqtisadi və *mədəni siyasəti*........................................................................................................ 28
9. *Aslanov A.H.* Azərbaycan Demokratik Respublikası dövründə əlifba islahatı məsələsi......................................................................................................... 29
10. *Aydəmirova F.B., Dadaşova X.Q.* Azərbaycan Xalq Cümhuriyyəti milli kadr hazırlaması haqqında............................................................................... 31
11. *Babaşova Ə. A.* Azərbaycan Xalq Cümhuriyyətinin sosial-iqtisadi və mədəni siyasəti........................................................................................................ 33
12. *Babayeva G.F.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu və

hərbi əməliyyatlar........................................................................................ 35
13. *Baxşəliyev F.E.* Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətində ordu quruculuğu məsələləri.......................................................................... 38
14. *Baxşəliyev F.E.* Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətində ölkənin müdafiəsinin təşkili məsələləri.................................................................. 42
15. *Baxşəliyev S.F.* Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin son dövrü məsələləri............................................................................................ 46
16. *Baxşəliyev S.F.* Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin Gəncə dövrü haqqında............................................................................................. 50
17. *Bayramova Ü.M.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu və hərbi əməliyyatlar.......................................................................... 53
18. *Bədəlov S.B.* Azərbaycan Xalq Cümhuriyyətinin ali təhsil siyasəti..................... 55
19. *Bünyadov Z.V.* Azərbaycan Xalq Cümhuriyyətinin milli təhlükəsizlik siyasəti. 57
20. *Cəbrayılova G.Ə.* Azərbaycan Xalq Cümhuriyyəti və milli ideya....................... 60
21. *Cəlalzadə B.M.* AXC dövründə Bakı nefti.......................................................... 63
22. *Dadaşzadə Ə.İ., Məhərrəmova E.* Azərbaycan Xalq Cümhuriyyətinin təhsil siyasəti............................................................................................... 65
23. *Əhmədov A.P.* Azərbaycan Xalq Cümhuriyyəti dövrünün miqrasiya proseslərinə dair..................................................................................................... 69
24. *Əhmədov M. Ə.* Azərbaycan ərazisində gömrük fəaliyyətinin inkişafı və tarixi. 71
25. *Əhmədova N. M.* Azərbaycan Xalq Cümhuriyyəti illərində təhsil sahəsindəki inkişafı.............................................................................................. 73
26. *Əhmədova Ş.M.* Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi tədbirləri.............. 75
27. *Ələsgərov B.İ., Əliyev A.B., Əliyeva H.N.* Azərbaycan Xalq Cümhuriyyətinin təhsil sahəsində həyata keçirdiyi tədbirlər........................................................... 79
28. *Əliyeva X.Q.* AXC-nin mədəni quruculuq və maarif sahəsində tədbirləri.. ........ 81
29. *Bayramov O.Z.* Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğuna dair. 83
30. *Əliyeva-Kəngərli A.İ.* Cümhuriyyət dövrünün ədəbi konsepsiyası (M.Ə.Rəsulzadənin ədəbi görüşləri)................................................................ 85
31. *Əliyeva-Kəngərli G.T.* Milli məfkurəmizin təntənəsi.......................................... 87
32. *Əlizadə S.Q., Nəbiyeva E.İ.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu və hərbi əməliyyatlar................................................................... 90

33. *Əsədova A.V.* AXC dövründə müəllimlərin I Qurultayında qarşıya qoyulan məsələlər........................................................................................................ 92
34. *Əsədova A.V.* Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə maddi mədəniyyət tarixinin öyrənilməsi........................................................... 94
35. *Əsgərov Q.A.* Azərbaycanın sərhəd mühafizə tarixindən 1918-1920............... 96
36. *Əzizova R.Y.* Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması........................... 100
37. *Fətullayeva S.A.* AXC-nin hakimiyyəti dövründə maarifçiliyin inkişaf etdirilməsi........................................................................................................ 102
38. *Heydərova Ç.A.* Azərbaycan Xalq Cümhuriyyətinin mədəni fəaliyyəti: Muzey quruculuğu............................................................................................. 104
39. *Həsənov H.N.* AXC parlamentinin aqrar qanunvericiliyinin tarixindən........... 107
40. *Həsənova Ə.A.* Azərbaycan Xalq Cümhuriyyəti və ölkədə aparılan islahatlar.. 109
41. *Həvilova F.H.* Cümhuriyyət dövründə yaradılmış ilk rəsmi muzey.................. 112
42. *Hüseynov Ş.Ə.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə təhsil sahəsində çagırışlar ........................................................................................................ 114
43. *Xasayev N.N.* XX əsrin əvvəllərində Şimali Azərbaycanda fəaliyyət göstərmiş “Müsavat Müsəlman Demokratik” və “Türk Ədəmi Mərkəziyyət” partiyalarının proqramlarındakı analoji xüsusiyyətlərə dair. ............................ 117
44. *İbrahimova A.A.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə maarifçilik........... 119
45. *İsayev Ə.İ.* AXC-nin Azərbaycan dövlətçilik tarixində yeri. ........................... 122
46. *Kərimli S. S.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə təhsil siyasəti............ 123
47. *Kərimova D.A.* Azərbaycan təhsili Xalq Cümhuriyyəti dövründə.................... 125
48. *Qasımov E.A.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə sosial-mədəni sahədə ictimai cəmiyyətlərin fəaliyyəti....................................................... 128
49. *Qasımova N.Z.* Azərbaycan Demokratik Respublikası və milli-mədəni intibah. 131
50. *Qasımova T.M.* Əlibəy Hüseyinzadənin siyasi baxışları.................................... 134
51. *Quliyev İ.Ə.* Ermənistan-Azərbaycan transsərhəd çayların hövzələrinə ekoloji təcavüz və onun qiymətləndirilməsi.................................................................. 137
52. *Quliyeva N.M.* Azərbaycan Cümhuriyyətində mədəni-maarif sahəsində quruculuq işlərinə dair.......................................................................................... 138
53. *Qurbanova G.Q.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə dil siyasəti.......... 140
54. *Manafov N.R.* Məhəmməd Sadiq bəy Ağabəyzadə-general mayor, nazir

müavini, şərqşünas alim........................................................................ 141
55. *Mehdiyeva G.F.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlətçilik ənənələri........................................................................................ 143
56. *Məhərrəmov S.Q.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu. 145
57. *Məhərrəmova Ş.K.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan ədəbiyyatı........................................................................................... 147
58. *Məmmədov A.A.* Azərbaycan Xalq Cümhuriyyəti-əhəmiyyəti və təbliği.......... 149
59. *Məmmədov C.H.* Azərbaycan Respublikasında su ehtiyatlarının öyrənilmə tarixi................................................................................................ 150
60. *Məmmədov Z.İ., Şahbazov V.B.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət-din münasibətləri.............................................................................. 155
61. *Məmmədova A.T., Kərimova S.A.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə təhsilin təşkili məsələləri........................................................................ 157
62. *Mərdanov İ. İ.* Müasir Azərbaycan Xalq Cumhuriyyətinin varisidir.................. 159
63. *Mədətli E.Y.* Iran fövqəladə heyətinin sənədlərində Azərbaycan Cümhuriyyətinə münasibət haqqında................................................................. 161
64. *Məsimova S.S.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə səhiyyə................... 163
65. *Muradova K.V.* Azərbaycan Xalq Cümhuriyyətinin siyasi və diplomatik fəaliyyətində Əlimərdan bəy Topçubaşovun rolu............................................. 166
66. *Musayeva Ş.X.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə sosial-iqtisadi siyasətin başlıca istiqamətləri.......................................................................... 168
67. *Mustafayeva Z.A.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu və hərbi əməliyyatlar.............................................................................. 171
68. *Niftəliyev N.F.* Azərbaycan Xalq Cümhuriyyətinin sosial-iqtisadi siyasətinin əsas aspektləri ....................................................................................... 173
69. *Paşayeva S.V. XX* əsrin əvvəllərində dünyəvi təhsil uğrunda mübarizə............. 175
70. *Novruzova S.B.* Cümhuriyyət dövrü ədəbiyyatı................................................ 177
71. *Rzaquliyeva S.D.* Azərbaycan Xalq Cümhuriyyətində təhsil sahəsindəki islahatlar........................................................................................................ 179
72. *Seyidov A.Q.* Naxçıvan diyarı Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920-ci illər)................................................................................................ 181
73. *Səfərli A.M.* Cümhuriyyət dövründə ordu quruculuğundan ədəbiyyata və

mətbuata gedən yol.......................................................................................... 183
74. *Səlimov Ş.D.* Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğu.................... 185
75. *Səlimova R.D.* Daxili İşlər Nazirliyi tarixindən (1918-1920-ci illər)................ 188
76. *Səmədova K.K.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə polis orqanlarının yaradılması və fəaliyyəti.......................................................................... 190
77. *Süleymanlı D. Q.* Azərbaycan Xalq Cümhuriyyətinin neft siyasəti..................... 192
78. *Süleymanov N.M.* Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi siyasəti.............. 194
79. *Vəliyeva R.A.* Heydər Əliyev və Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik irsi................................................................................................. 195
80. *Zülfüqarlı M.P.* Gəncə döyüşünün (27-29 iyun 1918-ci il) tarixi əhəmiyyəti... 197
81. *Кулиев Р.Ш.* Нефтяная промышленность в период Азербайджанской Демократической Республики......................................................... 198
82. *Кулиева Т.А.* Историческое значение АДР................................................... 201
83. *Маммадова Н.Х.* Языковая политика Азербайджанской Демократической Республики................................................................................................. 202
84. *Мусаева А.Т.* Государственная символика Азербайджанской Демократической Республики......................................................... 204

## II BÖLMƏ

## AZƏRBAYCAN XALQ CÜNHURİYYƏTİNİN XARİCİ SİYASƏTİ

1. *Abdullayeva S.F.* Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti................ 207
2. *Adıgözəlova G.R.* AXC-nin xarici siyasəti (1918-1920-ci illər)........................ 209
3. *Ağasiyev İ.K.* Azərbaycan Xalq Cümhuriyyətinin Kuban Xalq Respublikası ilə əlaqələri (1918-1920).......................................................................... 211
4. *Alıcanov M.* AXC-nin ərazi bütövlüyü uğrunda Azərbaycan ordusunun mübarizəsi.......................................................................................... 213
5. *Alıyev R.A.* Azərbaycan Xalq Cümhuriyyətinin sərhədləri və inzibati ərazi bölgüsü............................................................................................. 216
6. *Bayramov A.M., Aslanov E.M.* Bakı şəhərini yadellilərdən azad etmək uğrunda Qafqaz İslam Ordusunun apardığı mübarizə tarixindən...................... 219
7. *Bədəlov S.B.* Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq münasibətlər sistemində.......................................................................................... 223

8. *Bədəlova N.S.* Azərbaycan müstəqilliyinin qorunub saxlanması uğrunda mübarizə........................................................................................... 225
9. *Calalova X.K.* Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti və süqutunun səbəbləri........................................................................................... 227
10. *Cəfərov P.T.* Azərbaycan Xalq Cümhuriyyətinin erməni daşnaklarına qarşı mübarizəsi........................................................................................... 229
11. *Əhmədov R.V.* Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq səviyyədə tanınması........................................................................................... 232
12. *Əliyeva H.N. Ələsgərov B.İ., Əliyev A.B.,* Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti ........................................................................................... 233
13. *Əsədova X.İ.* Azərbaycan Xalq Cümhuriyyəti nümayəndələrinin Paris sülh konfransında iştirakı........................................................................................... 236
14. *Fərhadova J.F.* Şərqin ilk parlamentli, demokratik Respublikası – Azərbaycan Demokratik Respublikası........................................................................................... 238
15. *Hacıyev O.Y.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə İrəvan şəhərinin ermənilərə güzəştə gedilməsi və Türkiyənin münasibəti.................................. 241
16. *Hacıyeva M.C.* Azərbaycan Xalq Cümhuriyyəti və Türkiyə arasında dostluq müqaviləsi........................................................................................... 243
17. *Hidayətova M.S.* Azərbaycan Xalq Cümhuriyyəti: şərqdə ilk demokratik respublika........................................................................................... 244
18. *Hüseynova L.İ.* Azərbaycan Xalq Cümhuriyyəti: əlverişli coğrafi şəraitdə yaranmış müstəqil dövlətimiz ........................................................................ 246
19. *Xəlilov E.Ş.* Gənc Azərbaycan dövlətinin erməni şovinizminə qarşı mübarizəsi........................................................................................... 248
20. *Kərimova S.Ə.* AXC nümayəndələri Paris Sülh konfransında............................ 251
21. *Qəhrəmanova Z.N.* Azərbaycan Xalq Cümhuriyyəti nümayəndələrinin Parisdəki diplomatik görüşləri........................................................................ 253
22. *Qocayev S.M.* Azərbaycan Xalq Cümhuriyyəti-Ermənistan münasibətləri......... 254
23. *Qurbanov A.C.* Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixinə qısa ekskurs........................................................................................... 257
24. *Məhərrəmova S.S.* Qafqaz birliyi ideyası.......................................................... 259
25. *Məmmədli B.İ.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə İrəvanın ermənilərə

güzəşt edilməsi və Erməni dövlətinin yaradılması.............................................. 261
26. *Məmmədov R.Y.* Xalq Cümhuriyyəti dövründə Azərbaycan-Osmanlı əməkdaşlığı................................................................................................ 263
27. *Məmmədova T.G.* Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistan dövləti ilə qurduğu humanitar münasibətə qısa nəzər........................................................ 266
28. *Musayev E.A.* Azərbaycanın işğalı ərəfəsində beynəlxalq vəziyyət və işğaldan sonrakı durum................................................................................................ 268
29. *Musayeva M. A.* Azərbaycan Xalq Cumhuriyyətinin beynəlxalq əlaqələri........ 271
30. *Mustafayeva Ş.F.* AXC-nin Fransa ilə təhsil və humanitar sahədə əlaqələrinin bəzi aspektləri................................................................................................ 273
31. *Nəbiyeva Y.İ.* Azərbaycan istiqlaliyyətinin qənimləri. AXC-nin süqutu............ 275
32. *Səmədov F.F.* AXC-Böyük Britaniya münasibətləri.......................................... 277
33. *Səmədov Y.A., Ələsgərov B.İ.* Şərqdə ilk demokratik cümhuriyyət – Azərbaycan Xalq Cümhuriyyəti.......................................................................... 279
34. *Soltanzadə A.N.* Azərbaycan Cümhuriyyəti beynəlxalq münasibətlər sistemində................................................................................................ 281
35. *Şamilova A.M.* Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyə ilə əlaqələri (1918 iyun-oktyabr)................................................................................................ 284

Kompüter yığımı *A.Bayramova*
Texniki redactor *E.Həsrətova*
Dil dəstəyi *Linqvistik mərkəz*
Məsul katib *G.Şükürova*

Çapa imzalanmışdır: 20.04.2018-ci il
Mətbəə kağızı, kağızın formatı: 70*108 ¼
Yüksək çap üsulu. Həcmi: 36,75 ş.ç.v.
Sifariş 31. Tiraj 250 nüsxə.

-------------------------------------------------------

Sumqayıt Dövlət Universiteti
Redaksiya və nəşr işləri şöbəsi

**Müxbir ünvan:**

Azərbaycan, 5008, Sumqayıt, 43-cü məhəllə
Tel: (0-12) 448-12-74
(0-18) 644-88-10
Faks: (0-18) 642-02-70

**Web: www.sdu.edu.az**